
ƏNVƏR METE
O TORPAĞIN
ÖVLADLARI

T3(2A)
M40

ƏNVƏR METE

Oğlum Mustafaya
ithaf edirəm

O TORPAĞIN ÖVLADLARI

Bakı • "Nurlan" • 2006

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Rəyçi:
Bəxtiyar Vahabzadə

Məsləhətçi:
Səfalı Nəzərli

Redaktoru:
Həqiqət Sadıqova

Ənvər Mete. O TORPAĞIN ÖVLADLARI.
Bakı, "Nurlan", 2006. – 608 səh., şəkilli

Kitab Şəkinin görkəmli şəxsiyyətlərinə həsr edilmişdir. Öz əsrarəngiz gözəlliyi, tarixi abidələri ilə dünya şöhrəti qazanmış bu torpaq həm də bir çox məşhur şair, yazıçı, bəstəkar, alim, memar, rəssam və sərkərdələr diyarıdır. Əsərdə onların haqqında ensiklopedik məlumatlar verilmişdir. Yazıların əksəriyyəti müvafiq ağ-qara şəkillərlə müşayiət edilir.

M $\frac{4702000000}{N\text{-}098\text{-}2006}$

© Ənvər Mete, 2006
© "Nurlan", 2006

MƏNİM QƏNAƏTİM

Ənvər Metenin "O torpağın övladları" əlyazması ilə tanış oldum. İlk növbədə müəllifin böyük zəhmətini təqdir etmək lazımdır. Müəllif "iynə ilə gor qazmış", böyük səbirlə Şəkinin görkəmli adamlarının xarakterik cəhətlərini ümumiləşdirib əks etdirmişdir. Nəbələd adama elə gələ bilər ki, sorğu-məlumat xarakterli bu kitab ixtisasca həkim olan bir müəllifin boş vaxtlarında həvəskar kimi yığıb topladığı materialların məcmusudur. Əslində isə belə deyil. Mən onun imzasını hələ bir neçə il bundan əvvəl "İşıq" nəşriyyatı tərəfindən buraxılmış "Loğmanlar yurdu" adlı sanballı kitabdan tanıyıram. Mübaliğəsiz deyə bilərəm ki, Ənvər o kitabı ilə az qala bütöv bir institut qədər iş görərək "Azərbaycan təbibləri" ensiklopediyasını yaratmışdır.

Şəki öz təbiəti, gözəlliyi, tarixi abidələri ilə dünyada şöhrət qazanmış və həmişə Azərbaycanın mədəni-siyasi və iqtisadi mərkəzlərindən biri olmuşdur. Şəki torpağı xalqımızın tarixində özünəməxsus yeri olan onlarca şair, yazıçı, memar, bəstəkar, alim, musiqiçi, müəllim, sənətkar, sərkərdə... yetirmişdir. Bu şəxsiyyətlərin çoxu Yaxın Şərqdə və eləcə də dünyada şöhrət qazanmışdır. Lakin unutqanlığımızın nəticəsində indiki nəsil onların çoxu haqqında heç nə bilmir. Təqdirəlayiqdir ki, kitabda xalqımızın fəxri olan, respublikamızın mədəniyyətinin inkişafında, siyasi və iqtisadi həyatında böyük rol

oynamış həmin şəxslər barədə sadə dildə söhbət açılır, onların ömür yolu haqqında ensiklopedik məlumat verilir. Çoxları artıq unudulmaqda olan, ancaq yaddaşlarda, xatirələrdə yaşayan bu adamları xalqına tanıtmağı, onları unudulmağa qoymamağı qarşısına məqsəd qoyan müəllif uzun illərin gərgin zəhməti nəticəsində buna xeyli dərəcədə nail olmuşdur. Bundan xeyirxah nə ola bilər?! Əsərdə, eyni zamanda Şəkinin bugünkü həyatında görkəmli rol oynayan övladlarından da bəhs edilir.

Mən belə düşünürəm ki, belə kitabları yaratmaqla biz, ümumiyyətlə, türk-azərbaycanlı obrazını yaratmış oluruq.

Heç şübhə etmirəm ki, geniş oxucu kütləsi bu əsəri böyük rəğbətlə qarşılayacaqdır.

Bəxtiyar VAHABZADƏ,
xalq şairi.

İÇƏRİSİNDƏKİLƏR

Mənim qənaətim *(B.Vahabzadə)* 3

Azərbaycan – Vətənim mənim 13
Qan yaddaşımız 13
Böyük Hun-Türk xalqı Tanrının məğrur övladlarıdır 15
Vətən, torpaq harayı – şəxsiyyətlər nə deyir? 18

Qədim Şəki 21
Şəkinin şöhrətli tarixindən 21
Şəki dövlət rəsm qalereyasında 33
Tarix-diyarşünaslıq muzeyi 34
Şəkidə xeyriyyə işlərindən 36
Hacı Məhəmmədsadıq Əliyev və onun nəsli 41

Şəki tarixşünasları 48
Kərim Ağa Fateh Şəkixanov 49
Hacı Seyid Əbdülhəmid 52
Hacı Şeyx Məhəmməd Həsən Mollazadə 54
Rəşid bəy İsmayılov 54
Tarixçi alim, yazıçı 55
Tarixçi – millət vəkili 58
Qaffarov Tahir Baqi oğlu 59
Bəxtiyar Vahabzadənin arzusunu həyata keçirən tarixçi müəllim və tarixin açılmamış səhifələri 60

Dünya bir pəncərədir 68
İnsan inamla pak və xoşbəxt olur 68
Hacı İsmayıl 70
Paklığa çağırış 73

Sənətlərin şahı 78
Şəkinin təhsil ocaqları 78
Şəkinin ilk ali təhsilli müəllimi 94
Xalq müəllimi 97
Əməkdar rus dili müəllimi 106
Kommunal təsərrüfat komissarlığından.... müəllimliyə 108
Axundov Baxşəli Kazım oğlu 111
Məmmədiyyə müəllim 112
İnsan öz əməyi və zəkası ilə ucalır 113
Qanunpərəst Qurban müəllim 117
Mustafa Cabbarzadə və övladları 118
Vahabzadə Cavahir Məhərrəm qızı 120
Rəcəbov Musa Mustafa oğlu 121
Rəsulov Hüseyn Bəxtiyar oğlu 122
Axundova Diləfruz Baxşəli qızı 123
Məmmədhənifə müəllim 124
Cəlilov Əlövsət İdris oğlu 125

Şəkinin ədəbi irsindən 126
Şəkili Süleymanın "Züleyxa"sı 126
Ədalətli xan – şair Müştaq 127
Müştaq şairlər məclisinin sevimlisi 129
Qəmli-qüssəli şair Zövqi 132
Qasım bəy Zakirin müasiri Molla Qasım Zakir 134
Füzuli qəlbli şair Nakam 135
Unudulmuşlar 139
Şəkili dahi 141
Ədəbiyyat loğmanımız 151
"Bir gün ölsəm..." 156
Sabit Rəhman gülüşü 158
Bəxtiyar – xalqın şairi 161
Müəllim – yazıçı 165
O, həm də gözəl müəllim idi 166

Əhməd Rəhimov 168
Vaqif İbrahim 169
"Özümlə söhbəti xoşlayıram..." 170
Tanınmış təmsilçi 174
Zaman Qarayev 177
Yazmaq, yaratmaq eşqi 180

Ana dili başqa dillərin açarıdır 182
Azərbaycan dilinin qüdrətli alimi 182
Ata yolunun şöləsində 185
Çətin yolların axarında 193
Görkəmli dilçi alim 199
Aqillər deyib ki 201
Şəkinin tanınmış dilçi alimləri 203

Zəka qalib gələcək 204
Xalisəqarı nəslinin qol-budaqları 204
Xalisəqarızadə Əbdülqəni Əfəndinin nəvələri 206
Layiqli ziyalı nəsli 208
Rəşidbəy Əfəndiyev 209
Tanınmış riyaziyyatçı 214
Daim axtarışda 215
Abdullabəy Əfəndizadə 217
Uşaqların sevimlisi 219
Azərbaycan riyaziyyatçılarının ağsaqqalı 222
Tanınmış geoloq 226
Geokimya elminin yaradıcılarından biri 227
Ata-oğul 229
Görkəmli fizik 230
Tanınmış fizik-kimyaçı 233
Zirvələr hər yerdən görünür 234
Ağsaqqal həyatının unudulmaz anları 236
Dağın zirvəsinin əsl əzəməti uzaqdan görünür 240

Fəxri rabitəçilər....243
Bəşirov Yaqub Abbas oğlu....243
Səfərov Rizvan Ziyanur oğlu....243
Salmanov Nəriman Süleyman oğlu....244
Şəkiliyev Səfa Şəfi oğlu....244
Əliyev Ağalar Hüseyn oğlu....245
Əhmədov Abdulla Novruz oğlu....245
Səfərov Ramazan Hüseyn oğlu....246
Şahməmmədov Bəxtiyar Ələkbər oğlu....246
Daim axtarışda.... tikmişəm ki, izim qala....247
Respublikamızda dəzgahqayırmanın ilk yaradıcılarından....251
Heykəl ömrü....253
Aqrokimyaçı akademik....257
Məşhur ixtioloq....260
Tanınmış zooloq-entomoloq....262
Qocaman coğrafiyaçı....264
Şəkili Prometey....266
Şərəfli yolun davamçısı....270
Görkəmli hidromexanik....271
Təbiət "həkimi" – Əyyubov qardaşları....272
Avtomatika sahəsində görkəmli alim....274
Tanınmış iqtisadçılar....276
Məsimov Əli Əhməd oğlu....278
Hamının hörmətini qazanıb....280
Adət-ənənələrimizin təbliğatçısı....281
Bir ailədə iki alim....284
İlk dəfə....286
Fəxri kimyaçı....289
Zəka işığı....291
Görkəmli alim, xeyirxah insan....294
Əməkdar səmərələşdirici....295
Əməkdar metrotikinti mütəxəssisi....296

Deyiblər ki....297
Neyləmişəm ki....300
Eldən soruş....302
Memar Seyran....304
Xəlilov Qeysər Veysəl oğlu....305
Şəki zona elmi bazası....306
Şəkidə yeni elmi müəssisə - "Biotex"....316
Şəkidə anadan olub elmin müxtəlif sahələrində
ad-san qazanmış alimlərin siyahısı....319

Müqəddəs peşə....324
Təbabətimizin kökləri....324
İlk azərbaycanlı sanitar həkim....330
Ənənələr yaşayır....331
Akademik Cəlil Hüseynov....333
Alim-təbib....335
Ata-oğul – professorlar....338
Xalisə qarı nəslindən budaqlar....339
Doktor Həmidzadə....342
Karvan yol gedir....344
Mənalı ömür yollarında....345
Həkim-yazıçı....346
Onun zəhmət dünyası....349
Alicanbəyov nəsli....351
Şərəfli ömür....354
Şəfqətli döyüşlər....355
Ağ xalatlı igid qız....357
Könüllülər....359
Tibb xidməti leytenantı....360
Tibb xidməti polkovniki Şirinov....362
Çətin sənətin mahir bilicisi....364
Görkəmli səhiyyə təşkilatçısı....365

Tibb elmləri doktoru və namizədi olan
həkimlər haqda qısa məlumat 367
Şəki qəzetləri və qəzetçiləri....371

"Mübarizə yollarında" 378
Xoylu şəkililər....378
Fətəlixan Xoyski 378
Rüstəmxan Xoyski....382
Məsləkə mücahidi....384
Alimin taleyi 385
Mustafa Quliyev 388
Muxtar Abdullayev 389
İlk azərbaycanlı hüquqşünas qadın 391
Babam olacam....392
Vətən məhəbbətilə yaşayan insan 396
Həyatın hər üzünü görmüşəm 398
Əməyi ilə ucalır insan 401
Hüseyn Əbdürrəhimov....402
Soltan Əzizov 402
Nəsib Həsənov 403
"Maral, ay Maral..." 403
Sürəyya Əliyeva 404
Hüseyn Lətifov 405
Hümmət Məmmədov....405
Səfurə Əbdürrəhmanova 406
Nüyvər Quliyeva 406
Qəribə İbrahimxəlilova 407
Sodər İsmayılova....407
Sovqat Məmmədova 408
Zülqədə Qasımova....408
Nadir peşə ustaları....409
Möhtərəm Ağahüseynzadə 409
Əşrəf Rəsulov 411

Tofiq Rəsulov 412
Şöyüb Məmmədov 412
Müqəddəs işin nadir sənətkarları 413
Əhməd-Cabir İsmayıloğlu Əhmədov 414
Hacı Cabir....416
Usta Əli....419

Sülh, əmin-amanlıq keşiyində 423
"De-Qoll Əhmədiyyə" 423
Fransanın xilaskarlarından biri 425
Qələbə paradının iştirakçısı 431
General Həmidov 432
General-polkovnik Tofiq Ağahüseynov 434
General Yusifzadə....435

Dünyada izim qalacaq 436
Keçmiş Maliyyə naziri....436
Siyasi və iqtisadi suverenliyin ilk carçılarından 438
Gülarə – Köylüqızı 442
Şəkilidirlər: on üç yaşlı şəhid qız və İzzət baba 446
Tez apardı ölüm səni 466

Səhnədə, kinoda, ekranda 472
Mənəvi qida ustaları 472
Klassik sənətkar 479
İlk səhnə qaranquşumuz 482
Bəli, mən şəkiliyəm...xatırla, gülümsə 485
Hacı oğlu....492
Bir ailədə iki xalq artisti 494
Azərbaycan kinosunun veteranı 495
Kino ustası 497

Musiqi də xalqın dilidir 500
Şəkili Ələsgər 501
Mahir Tarzən 502
Gözəl zəngulələr ustası 503
İlk azərbaycanlı dirijorlardan biri 504
İlk musiqişünas 506
Milli simfoniyamızın yaradıcılarından biri 507
Mahnı qanadlarında 509
Caz-muğam janrının yaradıcısı 511
Emin Sabitoğlu 514
Cavanşir Quliyev 516
Kim gözəl bir cığır açarsa, hörmətlə yad edilər 517
Azərbaycan tarının və muğam sənətinin mahir təbliğatçısı 520
Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının solistləri 524

Ölüm var ki, həyat qədər dəyərli 527
Ermənistan və ermənilərin olmayan tarixi barədə 528
Köçürmə 533
Ermənilərin sifəti 538
"Özümüzü itirməməliyik" 543
Qəddini düzəlt, Xarqo! 546
Əhmədiyyə Cəbrayılova məktub 547
Dəli bir ağlamaq keçir könlümdən 549
Dövlətimizin müdafiəsi zamanı Şəki rayonundan şəhid olmuş hərbçilərin siyahısı 554

İnsan öz ömrünün binasını yaradan memardır 584

AZƏRBAYCAN – VƏTƏNİM MƏNİM

Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır.
Böyük bir keçmişin vardır,
Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin,
Azərbaycan, Azərbaycan!
Səməd VURĞUN

QAN YADDAŞIMIZ

1813-1828-ci illərə qədər Azərbaycan dövlətinin sahəsi -təxm. 410 min kv.km.

1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri: İran əsarəti altındakı Cənubi Azərbaycan - sahəsi təxm. 280 min kv.km.

Rusiya əsarəti altındakı Şimali Azərbaycan - sahəsi təxm. 130 min kv.km.

1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı - sahəsi 9 min kv.km.

Azərbaycan 1813-1828-ci illərə qədər.

Rusiya əsarəti altındakı Dərbənd xanlığı - sahəsi 7 min kv.km.

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin sahəsi - təxminən 114 min kv.km.

1920-ci ildə ADR-i işğal edən rus sovet imperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri:

Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və gürcülərin qismən nəzarətinə verilən (Gürcüstan Sovet Sosialist Respublikası) Borçalı - birlikdə sahəsi təxm. 27,4 min kv.km.

1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi - 86,6 min kv.km.

Azərbaycanın 1988-1994-ci illərdə işğal edilmiş ərazilər (cəmi 13.210 kv.km):

Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə): işğal tarixi - 1988-1994-cü illər (sah. 4400 kv.km).



Azərbaycanın 20% ərazisi hərbi-siyasi işğal altındadır.

Laçın (18 may 1992-ci il) - 1835 kv.km.

Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.

Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.

Cəbrayıl (23 avqust 1993-cü il) - 1050 kv.km.

Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.

Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.

Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.

Beləliklə, Azərbaycanın, deyildiyi kimi, 20 faiz yox, təxminən 80 faiz ərazisi hərbi-siyasi işğal altındadır.

"Təzadlar" qəzeti, 7-9 aprel.

"Zülmə qatlanmaq, zalıma boyun əymək, bir qarın çörək üçün iyrənc bir zümrədə xidmət etmək səbir yox, şərə rızadır".

Qurani-Kərimin Əsr surəsi.

Qalx-qalx, ulu torpaq,
Qalx-qalx, ulu bayraq.
Qalx-qalx, sən ey mərd xalq,
Yer titrəsin məhvərindən.

Nahid HACIZADƏ

Qırmaq mümkün olmayacaq Azərbaycan qüdrətini,
Boğmaq mümkün olmayacaq, Azərbaycan qeyrətini,
Boğmaq mümkün olmayacaq aşıb-daşan ruhumuzu,
Sönmüş ulduz alışacaq, hiss edincə ahınızı,
Dənizlərdən ləngərlidir qanımızda hiss-həyəcan,
Azərbaycan sədlərinə bu gün sığmır Azərbaycan.

Xəlil Rza ULUTÜRK.

BÖYÜK HUN-TÜRK XALQI TANRININ MƏĞRUR ÖVLADLARIDIR

"Hər bir türk bilməlidir türk olduğunu,
Bilməsə, bilməz ulu olduğunu".
Cəfər Xəndan.

Böyük Hun-Türk dövlətinin əsası e.ə. 220-ci ildə qoyulmuşdur. Məhz bu vaxtdan etibarən qədim türklərin əsl dirçəlişi, dünyanın siyasi və coğrafi xəritəsində tutduqları hakim mövqe getdikcə artmağa başlamışdır. Hun-türklərin bir xalq kimi dünya miqyasında tanınması Metenin adı ilə bağlıdır.

Hun-türklərin, bizim əcdadlarımızın kim olduğunu gələcək nəslə çatdırmaq üçün fəlsəfə elmləri doktoru Vəli Həbiboğlunun "Hərbi and" qəzetində çap etdirdiyi "Mete" məqaləsindən (1-15 mart 2004-cü il, 16-31 mart 2004-cü il) bəzi məqamları olduğu kimi verməyi özümə borc bildim. Müəllifə öz adımdan və oxucular adından dərin təşəkkürümü bildirirəm.

"Hunlar hələ Metedən çox-çox əvvəl özlərini dünya meydanında qəhrəman, döyüşkən bir xalq kimi göstərmişdilər. Təsadüfi deyildir ki, 300 il Çində, 350 il Orta Asiyada imperiya qurmuş, 700 il isə bütün Türk dünyasında "Şanyu" (Ulu xaqan) titulunu yaşatmış Hun imperatorluğu dünyanın ən qüdrətli və böyük dövləti kimi müxtəlif xalqları öz bayrağı altında birləşdirdi. Böyük Okeandan Xəzər dənizinə, Tibetdən, Kəşmirdən Şimali Sibirə qədər olan torpaqlar bu qüdrətli Hun imperatorluğuna - türklərə tabe idi... Böyük Hun-Türk imperatorluğunun yaradılması dünya miqyasında türklərin qüdrətini açıq-aşkar nümayiş etdirdi. Mete təkcə Asiyada 26 dövləti öz imperiyasına qatmışdı.

Çin salnaməçisi bu haqda yazmışdır: "Metenin vaxtında Hun imperiyası həddən artıq möhkəmləndi və yüksəldi. O, Şimalda və Cənubda bütün köçəri tayfaları özünə tabe etdirdi.

Meteni bugünkü oxucuya sevdirən xüsusiyyətlərindən biri

də onun vətənpərvərliyidir. O, bir türk övladı kimi Vətən torpağına, babalarımızın sümükləri çürümüş, əcdadlarımız tərəfindən bizə böyük bir irs qoyulmuş bu torpağın qorunub saxlanılmasına əsl qəhrəman, layiqli övlad münasibəti bəsləmişdir. Metenin torpaq ilə əlaqədar əfsanələşmiş rəvayəti min illər boyu nəsildən-nəslə ötürülür, ən müqəddəs ərməğan kimi xalqın qan yaddaşında qorunub saxlanılır, bu rəvayət tarixin dolaylarında saysız-hesabsız igidlər tərbiyələndirmiş, ana yurduna dönük çıxanları daim düz yola səsləmişdir...

Mete hələ dünyanı fəth etməmiş belə bir hadisə ilə rastlaşmışdır. Atasının ölümündən sonra taxta çıxdığı vaxt qonşu Tunqhu dövləti onun yanına elçi göndərmişdi. Bu dövlət çox güclü idi. Tuman xan (Metenin atası - **Ə.N.**) həmin dövlətə xərac verirdi. Qonşu tayfaların hesabına qüvvətlənən tunqhular öz iradələrini istədikləri kimi yerinə yetirir, bütün tayfalara sanki meydan oxuyurdular. Metenin gəncliyini və təcrübəsizliyini görən tunqhular onun yanına elçi göndərib yaxşı atını verməyi tələb edirlər. Əgər o, atı verməsə, döyüş olacaq, xalqı düşmən atlarının ayaqları altına salınacaqdı.

Mete dövlətin nüfuzlu adamlarını toplayıb onlarla məsləhətləşdi. Ona bildirildi ki, at hunlarda ən qiymətli varlıq hesab olunur, at igidin yaraşığı, dostu və qeyrətidir. Tunqhulara at verməyimiz bizə əskiklik gətirər.

Mete ağsaqalları dinləyib öz hökmünü çıxardı: "Biz bir atdan ötrü qonşu dövlətlə vuruşa bilmərik, minlərlə insan qanını axıda bilmərik".

Aradan bir müddət keçdi, tunqhular elçiləri yenə də hunların sərhəddini aşaraq xaqanın yanına gəldilər. Elçi bu dəfə daha sərt bir tələb irəli sürdü. Onun hökmdarı hun xaqanının sevimli kənizlərindən birini tələb edirdi. Əks halda müharibə təbilinin çalınacağı ilə qorxudurdu...

Mete onları dinləyib öz qərarını çıxardı: "Bir qadından ötrü biz qonşu dövlət ilə münasibəti pozub, müharibə aparıb igidlərimizin qanını tökə bilmərik". O, ən sevimli kənizlərindən birini tunqhulara göndərdi.

Lakin qonşu dövlətin hökmdarı çox təkəbbürlü və həyasız adam idi. O, elçiləri yenidən Metenin yanına göndərdi: "Böyük hökmdar sizin sərhəddin yaxınlığındakı çınqıllı, əkilib-becərilməyən ərazini tələb edir. Əgər bu ərazini verməsəniz, müharibə təbili çalınacaqdır".

Mete bir cavab verməyib elçilərə gözləməyi tapşırdı. Sonra yenə də dövlətin nüfuzlu şəxslərini, ağsaqqalları məşvərət üçün çağırdı. Düşmən tərəfin tələbini onlara bildirdi. Ağsaqqalların əksəriyyətinin fikri belə oldu: "Xaqan sağ olsun, sən qonşu dövlətin bütün tələblərini yerinə yetirmisən. Bizə qulaq asmayıb, ən gözəl, sevimli atını, ən yaraşıqlı kənizini tunqhulara vermisən. İndi kimsəsiz, çınqıllı, heç nə bitməyən bu torpaq nədir ki, ondan ötrü qonşu dövləti özümüzdən narazı salaq, igidlərimizin qanını tökdürək. Onsuz da tunqhular bəhanə üçün gəzirlər. Biz həmin torpağın verilməsini təklif edirik".

Mete hiddətlənib ayağa qalxdı və dedi:

- Torpaq dövlətin təməlidir, onu heç kəsə vermək olmaz. Torpağı əcdadlarımız bizə irs qoyub getmişdir, orada babalarımızın sümükləri uyuyur. Torpaq mənim deyil, xalqındır. Xalqın torpağın verməyə heç kimin ixtiyarı çatmaz. Mən öz atımı, yaraşıqlı kənizimi tunqhulara ona görə verdim ki, onlar mənim özümün idi. Amma torpağı verə bilmərəm, bu torpaq gələcək nəslə çatdırılmalıdır. Ya xalq məhv olmalı, ya da torpağını öz qanı hesabına qorumalıdır.

Mete Vətən torpağını tunqhulara verməyi təklif edən şəxslərin dərhal boynunu vurdurdu... bu müharibədə qalib gəldi...

Türklərin əcdadları sayılan hunların böyük, qüdrətli sərkərdəsi Mete ilə biz Azərbaycan türkləri də fəxr etməli, onun dövrünü, həyat və fəaliyyətini diqqətlə öyrənib gənc nəslə çatdırmalıyıq".

238480

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

VƏTƏN, TORPAQ HARAYI – ŞƏXSİYYƏTLƏR NƏ DEYİR?

M.K. Atatürk: "Vətənin üçün qan, dostunuz üçün göz yaşı, ailəniz üçün tər tökün".

"Mən sizə hücum etməyi yox, ölməyi əmr edirəm".

"Mənliyi olmayan millət başqa millətlərin ovudur".

Dədə Qorqud: "Torpağa Vətən demək üçün iki şərt gərəkdir. Biri onu əkib-becərmək, ikincisi onu qorumaq. Torpağı əkib-becərmirsənsə, qorumağına dəyməz, qorumursansa, əkib-becərməyinə dəyməz".

Ü. Hacıbəyov: "Ah, Vətən, candan keçmək istədim,
Bu əziz yolda ölmək istədim".

N. Hikmət: "Vətəni gözəl olduğuna görə deyil; məhz Vətən olduğuna görə sevirlər".

A. Səhhət: "Könlümün sevgili məhbubu mənim
Vətənimdir, Vətənimdir, Vətənim".

M. Ə. Sabir: "Vətən uğrunda, millət eşqində
Bəzmi-can et xülusi-niyyət ilə!
İş apar, baş gedərsə, qoy getsin...
Ad qalır, bəs deyilmi, millət ilə?!"

B. Vahabzadə: "Vətənə ana deyirik. Ana isə nə qədər mərhəmətli olsa da, öz südünü yalnız qeyrətli, təəssübkeş övladlarına halal edir. Gəlin bu həqiqəti də heç vaxt unutmayaq".

"Anamın gözəlliyi onun analığında olduğu kimi, Vətənin də gözəlliyi onun Vətənliyindədir".

"Vətənin nemətlərinə ortaq, dərdinə, azarına biganə olanlar, "mənə nə var" fəlsəfəsilə yaşayanlar, amma yeri gələndə ağızdolusu Vətənin, xalqın adından danışır, özünü xalqın layiqli övladı sayır".

"Vətən - millətin böyüklük və məhəbbət duyğuları ilə mənimsəyib şəxsiyyətini də onun içərisində qazandığı məkandır. İnsan təkbaşına ortaya çıxan bir varlıq deyil. Onun Vətəndə yaşamağa haqqı olan kimi, Vətəni, xalqı və dövləti sevmək borcu da var...

Cəmiyyətə, Vətənə yararlı insan olmaq - Allah rizasını qazanmaq deməkdir".

Nizami Süleymanoğlu, Könül Asifqızı ("Allaha səcdələrlə", Bakı, 2004).

Türk şairi Atsız:
"İnsan böyüyür beşikdə
Məzarda yatmaq üçün,
Qəhrəmanlar can verir
Yurdu yaşatmaq üçün.

M. Araz:
"Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim".

Midhəd Camal Kuntay:
"Torpaq - əgər uğrunda ölən varsa, Vətəndir".

Əvəz Mahmud:
"Vətən sarayında çatmasa bir daş
Ora ürəyini qoyasan gərək".

Asif Ata: "Müharibə bizdə Vətən anlayışını reallaşdıracaq, Vətən sərhəddən başlayır. O, ancaq torpaqdan ibarət deyil. Torpaq əkib-becərmək üçündür, Vətən qorunmaq üçün. Torpağın əkinçiləri olur, Vətənin keşikçiləri!"

Atalar deyib ki...
Yad ocağının alovundan, Vətən ocağının tüstüsü gözəldir.
Torpaqdan pay olmaz.
Torpaq qızıl quşdur, əldən buraxdın - uçar gedər.
Torpağa tər versən, o da sənə bar verər.
Torpağa xor baxsan, o sənə kor baxar.
Torpaq deyər: "Sən mənə tər ver,
Mən sənə zər verim".
Torpaq ovuclayan - qızıl ovuclar.
Torpağın qədrini bilməyən ulaya-ulaya qalar.
Torpağın sirrini əli torpaqda olanlar bilər.
Torpaqda itki olmaz, kötüksüz bitki olmaz.
Torpağa vaxtlı-vaxtında su ver, bəhrəsini gör.
Torpaqla yazda birlikdə yan, qışda soyuqla üz-üzə dayan.

ANDLAR, ALQIŞLAR

Torpaq haqqı!
Yer haqqı!
Torpağı sanı yaşayasan.
Torpağın həmişə gül bitirsin!
Torpağın yada qismət olmasın!
Torpağında qara yellər əsməsin!
Torpağın bərəkətli olsun!
Torpağına göz dikənin gözü tökülsün!
Torpağını göz bəbəyin kimi qoru!
Sədi: "Oxsa könülləri, xalqı sal yada,
Təkcə öz halına qalma dünyada".

HİKMƏTLİ SÖZLƏR

Vətən hamınındır, ağrısı qeyrətlilərin.
Yer kürəsi bütün insanlığın mənzilidir.
Dilinə özgə çörəyi dəyən oğuldan kişi çıxmaz.

QƏDİM ŞƏKİ

Uca dağlar qatar-qatar,
Dörd dövrənə çəkib hasar...
Dayanır bir dağ təki
Dağlar qoynunda Şəki.
Şıxəli QURBANOV.

ŞƏKİNİN ŞÖHRƏTLİ TARİXİNDƏN...

Mən həm bakılıyam, həm lənkəranlı,
Gəncəli, qubalı, həm naxçıvanlı.
Şəkili, şirvanlı, qarabağlıyam.
Bütöv Vətənimə, bütöv bağlıyam.
B. VAHABZADƏ.

Yurdumuzun ən qədim şəhərlərindən olan Şəki haqda söhbəti Çingiz Nağıyevin "Şəki bir xalıdır" məqaləsindən bəzi məlumatlarla başlamaq istərdim: "Azərbaycanın ən qədim şəhərlərindən biri olan Şəkidə 120-dən artıq tarix və mədəniyyət abidəsi var... Rayonun ərazisində Tunc dövrünə aid kurqanlar və bir çox qiymətli sənətkarlıq nümunələri aşkara çıxarılmışdır... Kiş kəndindəki alban məbədi I əsrə, Gavurqala isə VI əsrə aiddir.... Şəhərdəki məşhur Xan sarayı, Şəkixanovların evi, karvansaraylar Azərbaycan milli memarlığının şah əsərlərindəndir... Şəki gözəl bir muzey, abidələr isə bu muzeyin eksponatlarıdır. Şəki əsrarəngiz bir xalı, abidələr onun sehrli ilməələridir..." ("Odlar yurdu" qəzeti, 13 iyun 1990).

Şəki rayonunun inzibati xəritəsi.

Almaz Binnətovanın məlumatından: "Bu zonada (Şəkidə - Ə.M.) kərpic zavodu tikintisi başlamayınca kurqanlar məlum deyildi. Buradakı qəbirləri bir-birinə bağlayan müəyyən cəhət var. Tapılmış qəbirlərin sahibi etnik kökü etibarilə birdir. Bu ərazi göstərir ki, burada 5 min illik kökümüz, tariximiz var. Məəni, siyasi, iqtisadi dəyişikliklər olsa da, xətt qırılmayıb. Qazıntı nəticəsində tapdığımız saxsı qablar bunu sübut edir" ("Ədəbiyyat və incəsənət" qəzeti, 20 iyul 1990).

Mən heç də Şəkinin memarlıq abidələrinin tarixindən söhbət açmaq istəmirəm. Ə. R. Salamzadə və K. M. Məmmədzadənin "Şəki memarlıq abidələri" (1987) kitabında məsələnin bu cəhəti geniş işıqlandırılmış, Ə. R. Salamzadə, M. Ə. İsmayılov və K. M. Məmmədzadənin "Şəki" (1988) əsərində Şəki şəhərinin tarixi inkişafının bütün mərhələləri qısa verilmişdir. Hörmətli tarixşünas alimimiz M. Ə. İsmayılov "Şəki" (1982) tarixi oçerkində ən qədim dövrlərdən başlamış müasir dövrə qədər Şəkidə baş verən siyasi, sosial-iqtisadi və mədəni tarixi gözəl boyalarla təsvir etmişdir.

Bizim məqsədimiz isə sizə Şəki torpağının yetişdirdiyi görkəmli şəxsiyyətlər haqda yığcam məlumat verməkdir. Yeri gəldikcə tanınmış şəxsiyyətlərin yurdumuzun füsunkar diyarı Şəki haqda dediklərini də yada salacağıq.



Şəkinin ümumi görünüşü.

Aleksandr Düma (ata) qeyd etmişdir:"Biz Nuxadan (Şəki - Ə.M.) uzaqlaşdıqca onun görünüşü daha da gözəlləşir və bütün füsunkarlığı ilə gözümüzün qabağında canlanırdı" (Ə. Əyyubov. "Şəkinin iqlimi", Bakı, 1988, səh. 5).

Yenə də XIX əsrin ortalarında Şimali Azərbaycana səyahət edən Aleksandr Dümanın (ata) "Qafqaz səfəri" kitabından: "Bərqərar olduğu Qafqaz sıra dağlarının dilbər bir guşəsinə qısılmış Nuxa onu yaşıllığa qərq edən, qoynunda gizlədən ağacların arasında güclə görünür". (Yenə orada).

Həmin dövrdə A. P. Zisserman "Двадцать пять лет на Кафказе" əsərində Şəkini belə təsvir etmişdir: "Şəhər çox gözəl mənzərəli kiçik dağ çayının başlanğıcında yerləşmişdir; tikintilər böyük qoz və tut ağaclarından ibarət yaşıl bağlar arasında gizlənir. Dağ tərəfə iki verstə qədər uzanıb gedən Mərkəzi küçədə dükan və emalatxanalar yerləşir ki, bu emalatxanalarda da Şərq adətinə görə, bütün işlər çox vaxt bir dəstə bekar sakinlərin gözü qabağında görülür... Bəzi küçələr döşənib, qalanları isə təbii xırda çınqılla örtülmüşdür, odur ki, Şəkidə heç vaxt palçıq olmur, belə nadir üstünlüyə, çox təəssüf ki, Rusiya şəhərlərində az rast gəlirik.

Ümumiyyətlə, Şəki gözəl mənzərəsi, nisbətən səliqəsi, canlılığı, boğucu istiliyin olmaması, axşamlar isə bağlarda bülbüllərin cəh-cəh vurması ilə çox xoş təsir bağışlayır" (Ə. R. Salamzadə, K. M. Məmmədzadə. "Şəkinin memarlıq abidələri", Bakı, 1987, səh. 19).

Böyük türk şairi Nazim Hikmət: "Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki xan sarayını dünyaya göstərmək bəs edərdi" (Ə. Əyyubov. "Şəkinin iqlimi", Bakı, 1988, səh.6).

Polşa nəqqaşı Malqojata Kujnyar: "Şəki, doğrudan da, gözəldir. Mən buranın təbiətindəki cazibədarlığı, adamlarındakı səmimiyyəti, mehribanlığı, qonaqpərvərliyi heç yerdə görməmişəm...". (Yenə orada).

Xalq şairi Bəxtiyar Vahabzadənin "Şəki" şerindən:

Mən sənin qoynunda gəldim cahana,
Özün bəxş eylədin Azərbaycana.
İçib maral gözlü çeşmələrindən,
Elimə, obama mən vurulmuşam.

Yenə də B. Vahabzadənin dediklərindən: "Azərbaycanın təbiəti dünyada mövcud olan 12 iqlimdən 9-na malik olduğu kimi,



Şəki şəhərinin gerbi.

bu torpağın xalqı da psixologiyanın bütün iqlimlərinə malikdir. Məsələn, Qarabağ - musiqimizin, Qazax və Şirvan - şerimizin, Bakı - təsviri sənətimizin məskəni olduğu kimi, Şəki də müdrik gülüşümüzün məskənidir" (Gəlin açıq danışaq", Bakı, 1988, səh.172).

Professor Ə. Əfəndizadənin "Şəkinin gülüş çələngi" (Bakı, 1988) kitabına yazdığı ön sözdən: "Azərbaycanın qədim və gözəl guşələrindən olan Şəkinin maraqlı və milli ənənələrlə dolu zəngin tarixi var. Təbiət öz gözəlliyini bu diyardan əsirgəməmiş, şəkililər də təbiətin onlara bəxş etdiyi gözəl nemətə cavab olaraq özlərinin müdrikliyi, qonaqpərvərliyi, orijinal yumorları və lətifələri ilə fərqlənirlər".

Türkiyə Respublikasının Prezidenti Turqut Özalın hörmətli xanımı Səmra Özal 1990-cı ildə Azərbaycanı gəzərkən Şəki şəhərində olmuş, İpək İstehsalat Birliyinin çoxminli kollektivi ilə görüşmüşdür. Onun Şəkiyə gəlişi, burada gördükləri, yəqin ki, bu xeyirxah qadının yaddaşından heç vaxt silinməyəcəkdir. Səmra Özal Şəki ipəkçiləri haqqında öz təəssüratını qısaca olaraq belə ifadə etmişdir: "Az vaxt içərisində Şəkidə gülər üzlər gördüm, xalqımız barədə xoş sözlər eşitdim. Qəlbim, ruhum Sizlərə daha böyük sevgilərlə bağlandı.



Xan məscidi (1745-1750-ci illərdə tikilib).

İpəkçi qadınlarınız ipəklərinizi qədər zərif və incədirlər" ("İpəkçi" qəzeti, 10 oktyabr 1990).

Xalq yazıçısı Əli Vəliyev "Durna qatarı" (1972) kitabında yazır: "Mirzə Fətəli Axundov kimi qüdrətli bir şəxsiyyət Şəkidə dünyaya göz açmış, bu dağların havasını udmuş, bu yerləri gəzmiş, bu torpağın adamları ilə üns bağlamışdır".

Böyük maarifçi Rəşid bəy Əfəndiyev müəllimliyə burada başlamış, dərslikləri də, "Uşaq gözlüyü" kitabını da burada yazmışdır.

Tənqidçi alim, uzun illər Azərbaycan maarifinə başçılıq eləyən respublikanın Maarif Komissarı Mustafa Quliyev bu torpağın fəxridir. Molla Cümə, İsmayıl bəy Nakam kimi aşıq-şairlərin ilham mənbəyi Şəki torpağı olmuşdur. İstedadlı yazıçımız, əməkdar incəsənət xadimi Sabit Rəhman, yaradıcılığa coşğun ilhamla başlamış xalq şairi Bəxtiyar Vahabzadə Şəkinin övladlarıdır.

Vətənimizin məşhur coğrafiyaşünas alimi, professor Ə.D.Əyyubovun "Şəkinin iqlimi" əsərindən: "Lev Tolstoy" "Hacı Murad" əsərində Şəki mənzərələrinin gözəlliyini, yaz aylarında qaratoyuqların gecə nəğmələrini, oyanmaqda olan bitki aləminin xoş təravətini çox yaxşı təsvir etmişdir...

Təbii şəraitinə, xüsusilə əsas iqlim amillərinə görə xaricdə "qohumları" yox, analoqları, oxşarları var. Şəki sanki Bolqarıstanın güllər diyarı Kazanlıkla, İtaliyanın cənubunda geniş üzüm və zeytun plantasiyaları olan Poten-



Şəkinin Ağamalıoğlu küçəsindəki məscid (XVIII əsr)

sa, Himalay dağlarının cənub ətəklərində yerləşən Srinaqar şəhərləri ilə əkizdir".

Xalqımızın unudulmaz, qeyrətli oğlu Şıxəli Qurbanovun "Şəki" şerinə şəkili bəstəkar Şəfiqə Axundovanın bəstələdiyi mahnını yada salmaq yerinə düşərdi. İstəkli müğənnimiz Şövkət Ələkbərovanın ifasında bu mahnı elə bil Şəkinin bütün gözəlliklərini təfsilatı ilə dinləyicilərə çatdırır:

Uca dağlar qatar-qatar,
Dörd dövrənə çəkib hasar,
Nə gəzməli oylağın var,
Nə gəzməli yaylağın var.

Addım-addım, qədəm-qədəm
Dağlarını çox gəzmişəm,
Bulağından su içmişəm.
Dayanır bir dağ təki

Dağlar qoynunda Şəki.
Hər sözümün əzəlisən,
Sevimlisən, məzəlisən,
Gözəllərin gözəlisən...

Azərbaycan MEA-nın müxbir üzvü, professor Mahmud İsmayılovun "Şəki" kitabından: "Şəki Azərbaycanın ən qədim şəhərlərindən biridir. Orta əsrlərə dair mənbələrdə onun adı Şəkə, Şaki, Şaka, Şakki, Şakke, Şəkən, Şakkan, Şəkin kimi müxtəlif şəkillərdə işlənmişdir. Şəki şəhəri uzun müddət Nuxa da adlanmışdır... Müasir Şəki şəhərinin əsası hələ e.ə. VIII əsrdə, yəni təxminən 2700 il bundan əvvəl saklar tərəfindən qoyulmuşdur. Vaxtilə Sakasena və ya Şakaşen adlanan bu yerin adı müasir şəklə düşənə qədər uzun təkamül yolu keçmişdir".

Qədim yunan coğrafiyaşünası, e.ə. I əsrdə yaşamış Strabonun məşhur "Coğrafiya" kitabında 29 şəhərin arasında Niqanın (Nuxa) adı çəkilir. Müasir alimlərin çoxu Niqa şəhərinin indiki Şəki (Nuxa) ilə eyni olduğunu göstərirlər. Kərim ağa Fatehin

"Şəki xanlarının müxtəsər tarixi" və Hacı Seyid Əbdülhəmidin "Şəki xanları və onların nəsilləri" əsərində Şəki-Nuxanın adı "Noxu" və "Noxı" kimi adlanır.

Şəkinin Qışlaq hissəsinin Dağdibi məhəlləsində qədim Cümə məscidi. Vaxtilə onu sel dağıdıb, indi təmir işləri aparılır (XIX əsr).

Şəkinin yaşlı adamları da hələ bu günə kimi Şəkini "Noxu", "Noxa" adlandırırlar.

Tarixi mənbələrdən aldığımız məlumata görə qədim Şəkinin Kiş çayının Əyriçaya töküldüyü yerdə, indiki Qaradağlı kəndi yaxınlığında yerləşdiyi güman edilir. 1772-ci ildə güclü sel Şəkini dağıtdıqdan sonra həmin əhali indiki əraziyə - Nuxaya köçmüşdür. 1819-cu ildə Şəki xanlığı ləğv edildikdən sonra Nuxa qəzası yaradılır. 1968-ci ildə "Şəki" adı yenidən bərpa edilir.

Şəki adının bərpa edilməsi obyektivdir. Lakin "Nuxa" adının itməsi də məqsədəuyğun deyildir. Axı bu adın da tarixi kökləri vardır. Bu məsələ ilə əlaqədar C. Məmmədov çox düzgün fikir irəli sürür: "1968-ci ildə daha geniş və daha əhatəli "Şəki" adının bərpa edilməsi düzgün addım idi. Amma göründüyü kimi, dilimizin mədəni abidələrindən olan, böyük bir yaşayış məntəqəsinin adını daşımış "Nuxa" termini unudulmaq qorxusu altındadır. Odur ki, Şəki dəmiryol stansiyasında salınmış, hələlik adsız qəsəbəyə "Nuxa qəsəbəsi" adının verilməsini təklif edirəm" ("Şəki fəhləsi" qəzeti, 24 oktyabr 1989).



Məşhur Xan Sarayı. 1762-ci ildə Hüseyn xan tikdirib.

Əlbəttə, Şəkinin tarixini yazmağı biz qarşımıza məqsəd qoy-

mamışıq. Ancaq bir məsələ üstündə durmaq istərdik. Şəkinin xanlıq dövrü. Bu dövrdə Şəki inkişaf etmiş, elm-sənət yüksəlmiş və bu əyalət daha çox tanınmışdır. Şəki xanlarından bəziləri açıq fikirli, elm tərəfdarı olmuşlar. Əldə olan müasir mənbələrdə Şəki xanları haqda tam və ardıcıl məlumat olmadığından bu sahəni imkan daxilində bir qədər işıqlandırmağı məqsədəuyğun bildik. XVIII əsrin birinci yarısında Şəkidə İran əsarətinə qarşı üsyanlar başlayır ki, bu hərəkata yerli feodal Hacı Çələbi Qurban oğlu başçılıq edirdi. 1743-cü ildə Nadir şahın Şəkidəki hakimi Məlik Nəcəf Hacı Çələbi tərəfindən öldürülür. 1744-cü ildə Nadir şah böyük ordu ilə Şəkiyə hücum edir, Hacı Çələbi "Gələrsən-görərsən" qalasına çəkilir. Dörd ay qalanı mühasirədə saxlayıb öz məqsədinə çata bilməyən Nadir şah Şəkidən geri qayıdır. Lakin o, şəhəri viranə qoyur. 1747-ci ildə Nadir şah öldürüldükdən sonra Hacı Çələbi Şəkinin ilk xanı olur.

Hacı Çələbi xan Azərbaycan əyalətlərini Şəki xanlığı ətrafında birləşdirmək siyasətinə sadiq qalmış, Qəbələ, Ərəş, Qutqaşen sultanlıqlarını, Car-Balakən camaatını özünə tabe etmiş, Qarabağ, Naxçıvan, Qaradağ və Gəncə xanlarının birləşmiş qüvvələrinə təzyiq göstərə bilmişdir. Qoçaq xan Gəncə, Qazax, Şamxor (indiki Şəmkir - **red.**) və Borçalı uğrunda mübarizə aparan Kartli çarı Teymuraz və Kaxeti çarı II İrakli üzərində bir neçə dəfə qələbə çalmış, 1752-ci ildə onlara əsir düşmüş qarabağlı Pənah xanı, irəvanlı Hüseynəli xanı, naxçıvanlı Heydərqulu xanı, qaradağlı Qasım xanı, gəncəli Şahverdi xanı azad etmiş, gürcüləri Şamxor yaxınlığında məğlubiyyətə uğratmışdır. On iki il hakimiyyət başında olan Hacı Çələbi xan vergi sistemində qayda-qanun yaratmış, Şəkidə abadlıq işləri aparmış, mədrəsə, məscid və hamamlar tikdirmişdir.

Çox haqlı olaraq indi Şəkinin küçələrindən biri Şəki xanlığının banisi Hacı Çələbinin adını daşıyır.

1755-ci ildə Hacı Çələbi xan öldükdən sonra oğlu Ağakişi bəy Şəkinin xanı olmuşdur (1755-1760). O, 1760-cı ildə qayınatası Məhəmməd xan tərəfindən öldürülüb.

Məhəmməd xan qırx gün ərzində Şəki əhlini talayıb çapır. Zülmdən zara gələn Şəki əhli Məhəmməd xanı qovur, Hacı Çələbi xanın böyük oğlu Həsən xanın oğlu Hüseyn xanı Şirvandan gətirib Şəkidə xan edir. Hüseyn xan (Məhəmməd Hüseyn xan) 1759-1780-cı illərdə Şəkidə xanlıq etmiş, ədəbiyyat tariximizdə şair "Müştaq" kimi şöhrət qazanmışdır. Onun haqqında sonrakı bölmələrdə "Ədalətli xan - şair Müştaq" başlığı altında geniş məlumat verilmişdir.



Şəkidə Giləhli məscidinin minarəsi (XVIII əsr).

Hacı Çələbi xanın nəvəsi Hüseyn xan (Məhəmməd Hüseyn xan - Müştaq) 1780-ci ildə hakimiyyət uğrunda mübarizə aparan əmisi Hacı Əbdülqədir tərəfindən öldürülmüşdür.

Qeyd etmək lazımdır ki, Məhəmməd Hüseyn xanın hakimiyyəti dövründə Şəki xanlığı istər mədəni, istərsə də iqtisadi cəhətdən çox möhkəmlənmişdi.

Məhəmməd Hüseyn xandan sonra Hacı Əbdülqədir xan üç il yarım Şəkidə xanlıq edir, nəhayət, Məmməd Həsən xan tərəfindən öldürülür.

Məmməd Həsən xan iki dəfə - 1784-1795 və 1797-1805-ci illərdə Şəkidə xanqlıq etmişdir.

1795-1797-ci illər arasında Məhəmməd Hüseyn xanın kiçik oğlu Səlim xan Şəki xanı olmuşdur. Bu haqda sonra məlumat veriləcəkdir.

Məmməd Həsən xanın dövründə Ərəş və Qutqaşen sultanlıqları Şəki xanlığına birləşdirilmişdir. Ağa Məhəmməd şah Qacarın Azərbaycana yürüşü (1795) zamanı Səlim xan tərəfindən hakimiyyətdən salınan Məmməd Həsən xan qaçır, 1797-ci ildə



Yuxarı məscid, 1987-ci ildə yanmış və sonra bərpa edilmişdir (XIX əsr).

Qacar öldürüldükdən sonra şamaxılı Mustafa xanın köməyilə yenidən hakimiyyətə qayıdır və 1805-ci ilə qədər hakimiyyət başında olur. O, Şəki xanlığı ləğv edildikdən sonra Ərzuruma qaçır, sonralar Tiflisə gələn Məmməd Həsən xan çar hökuməti tərəfindən tutulub Həştərxana sürgünə göndərilir və orada 1830-cu ildə vəfat edir.

Məmməd Həsən xan Şəki xanlığında vergi və mükəlləfiyyətlərin müəyyən edilməsində rəsmi qanun olan "Dəstur əl-əməl" külliyyatını tərtib etmişdir.

Səlim xan da Məmməd Həsən xan kimi iki dəfə hakimiyyət başına gəlmişdir: 1795-1797 və 1805-1806-cı illərdə.

"Şəki xanlarının müxtəsər tarixi" əsərinin müəllifi Kərim Ağa Fatehin məlumatına görə, Səlim xan 1805-ci ildə ikinci dəfə hakimiyyət başına gəlməzdən əvvəl Fatehin atası Fətəli xan iki-üç ay Şəkidə xanlıq etmişdir və Səlim xan tərəfindən devrilmişdir.



Şəkidə qala divarı.

Səlim xan Məhəmməd Hüseyn xanın oğlu, Hacı Çələbi xanın nəticəsidir. Azərbaycan Sovet Ensiklopediyasının 8-ci cildində verilən məlumata görə, o, general P. İ. Baqrationun bacısı oğludur.

Həmin il, yəni 14 may 1805-cı ildə Gəncə yaxınlığındakı Kürəkçay sahilində Qarabağ xanı İbrahimxəlil xanla Zaqafqaziya rus ordusunun baş komandanı P. D. Sisyanov müqavilə imzaladılar. Tarixdə "Kürəkçay müqaviləsi" adlanan bu sənədə görə Qarabağ xanlığı Rusiyanın

himayəsinə keçdi, İbrahimxəlil xan Qarabağda yerləşdirilən rus qoşunlarını ərzaq və s. ilə təmin etməyi, hər il Rusiyaya 8 min çervon bac verməyi öhdəsinə götürdü.

Bələliklə, əlavə bir istismarın da əsası qoyuldu. Bu müqaviləyə görə, xan hakimiyyətinin irsiliyi rus imperatoru tərəfindən təsdiq olunmuş, məhkəmə işləri, vergi toplanması və s. xanın ixtiyarına verilmişdir.

Yuxarı karvansara (XVIII əsr).

Rusiya təbəəliyini qəbul edən Səlim xan da həmin ilin may ayının 21-də "Kürəkçay müqavilə"sini imzalamış və hər il 7 min çervon bac verməyə rəsmi razılıq vermişdir. 1819-cu ildə Şəki, 1822-ci ildə isə Qarabağ xanlıqları ləğv edildikdən sonra "Kürəkçay müqaviləsi" qüvvəsini itirmişdir.

1806-cı ildə Abbas Mirzə (1789-1833) Azərbaycana girərkən Səlim xan Rusiyaya qarşı üsyan qaldırmış və bu üsyan 22 oktyabr 1806-cı ildə yatırılmış, Səlim xan isə İrana qaçmışdır.

Kərim Ağa Fateh "Şəki xanlarının müxtəsər tarixi"ndə məlumat verir ki, Səlim xan qaçdıqdan sonra general Nebolsin Şəkinin ixtiyarını yenidən Fətəli xana verir. Bu hakimiyyət uzun çəkmir, 1807-ci ildə Cənubi Azərbaycanın Xoy şəhərindən olan Cəfərqulu Şəkinin xanı təyin edilir.

1803-1806-cı illərdə rus-İran müharibəsi dövründə rus qoşunlarına qoşulan Cəfərqulu xan imperator I Aleksandr tərəfindən bahalı brilyantla bəzədilmiş qızıl medal və lələklə təltif edilmişdir. O, Şəkiyə xan təyin edilərkən general-leytenant rütbəsinə layiq görülmüşdür. Cəfərqulu xan 1810-cı ildə vəfat etmiş, hakimiyyətə onun oğlu İsmayıl xan gəlmişdir.

Hacı Seyid Əbdülhəmidin "Şəki xanları və onların nəsilləri" əsərində verdiyi məlumatdan: "... İsmayıl xan Noxuda xan olub 3 ildən sonra vəfat etdi, oğlu - övladları qalmadı. Bundan sonra

Noxuda komendant təyin olundu, xoş olmadı". Keçmiş Şəki xanlığının ərazisi qəza, Şəki şəhəri isə qəza mərkəzi kimi idarə edilməyə başlandı. Deməli, 1813-cü ildə Şəki xanlığına son qoyulmuşdur. Beləliklə, Şəki əyaləti yaradılıb, onun idarəsi rus zabitinə-komendanta tapşırıldı. Bununla da rüşvətxorluğun, bürokratizmin, zorakılığın, özbaşınalığın, süründürməçiliyin və alkoqolizmin əsası qoyuldu. Komendantlar vergi və mükəlləfiyyətlərin xeyli hissələrini oğurladıqlarından özlərini doğrultmadılar və onlar 1840-cı ildə ləğv olunub, yerlərində Şəki qəzası yaradıldı. O, əvvəlcə Kaspi vilayətinin, 1846-cı ildə isə Şamaxı quberniyasının tərkibinə daxil oldu. 1813-cü il oktyabrın 24-də (noyabrın 5-də) Rusiya və İran arasında "Gülüstan müqaviləsi" bağlandı və o, 1814-cü il sentyabrın 15-də qüvvəyə mindi. Bununla da 1804-1813-cü illərdə davam edən Rusiya-İran müharibəsinə son qoyuldu. Gülüstan müqaviləsinə əsasən İran dövləti Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Talış xanlıqlarından, Şərqi Gürcüstan və Dağıstana olan iddiasından əl çəkdi və onların Rusiya tərəfindən ilhaqı təsdiqləndi. Beləliklə, 1743-cü ildə əsası Hacı Çələbi xan tərəfindən qoyulan Şəki xanlığı 1813-cü ildə (70 il sonra) öz sərbəstliyini itirdi. 1828-ci il fevralın 10-da (22-də) Rusiya ilə İran arasında Təbriz yaxınlığında "Türkmənçay" müqaviləsi bağlandı. Bu müqaviləyə əsasən Naxçıvan xanlığı, Ordubad dairəsi, İrəvan xanlığı Rusiya ilə birləşdirildi və Azərbaycanın iki hissəyə parçalanması rəsmiləşdirildi: ana baladan, qardaş bacıdan, el obadan ayrı düşdü, bir ürəyi iki yerə parçaladılar.



Yuxarı karvansaranın daxili görünüşü.



Yuxarı karvansarada ikinci mərtəbəyə qalxan pilləkən.

ŞƏKİ DÖVLƏT RƏSM QALEREYASINDA

Şəki Dövlət Rəsm Qalereyası 1982-ci ilin fevral ayında yaradılıb. Burada hər il müxtəlif sərgilər təşkil edilir. Şəkinin sakinləri və eləcə də ora gələn turistlər bu sərgilər ilə tanış olurlar. Şəki rəsm qalereyasında bir çox görkəmli rəssamın, o cümlədən əlil rəssam Rasim Məmmədovun fərdi sərgisi təşkil edilmişdir. Hər il ənənəvi olaraq Şəkidə fəaliyyət göstərən memarların yerli tarixi abidələr üzrə işlədikləri eskiz və layihələrdən ibarət sərgilər də təşkil edilir.

1985-ci ilin iyulunda rəsm qalereyası işçilərinin təşəbbüsü və qüvvəsi ilə ictimai əsaslarla fəaliyyət göstərən "Xalq tətbiqi sənət muzeyi" yaradılmışdır. Bu muzey Şəki Dövlət Rəsm Qalereyasının bir şöbəsi kimi qədim tarixi abidə olan "Dairəvi məbəd"də yerləşdirilmişdir. Yerli camaatdan, xalq sənətkarlarından toplanmış 500-ə yaxın eksponatı var. Bu muzeydə dulusçuluq, bəzək əşyaları, silahlar və qədim əşyalar da nümayiş etdirilir. Muzeyin 6 bölməsi var: dulusçuluq, xərratlıq, təkəlduzçuluq, şəbəkə, papaqçılıq, misgərlik və s. Otaqlardan birində xalq çalğı alətləri, milli geyimlər və xəttatlıq nümunələri göstərilir.

Bu muzeyin eksponatları 1986-cı ildə İordaniyanın paytaxtı Əmman, 1988-ci ildə Həbəşistanın paytaxtı Əddis-Əbəbə şəhərində də nümayiş etdirilmişdir.

Şəki Dövlət Rəsm Qalereyası təşkil olunduğu ilk gündən direktoru gənc rəssam Tahir Həmidov olmuşdur. Tahir Həmidov 1953-cü ildə Şəkidə anadan olmuş, 1967-1972-ci illərdə Ə. Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində oxumuşdur. O, 1972-1978-ci illərdə N. Ostrovski adına Daşkənd Teatr və Rəssamlıq İnstitutunda təhsilini davam etdirmiş, qrafika-rəssamlıq ixtisasına yiyələnmişdir. Onun Şəki Dövlət Rəsm Qalereyası və onun şöbəsi "Xalq tətbiqi sənət muze-

yi"nin yaradılmasında böyük rolu olub. Tahir öz əsərləri ilə istər yerli və istərsə də respublika sərgilərində fəal iştirak edir. O, Şəki şəhərinin tərtibatında da öz bilik və bacarığını əsirgəmir.

Ümumiyyətlə, Şəkidə Tahir kimi istedadlı rəssamlar az deyil. Məhz buna görə də 1975-ci ildən Azərbaycan Rəssamlar İttifaqının Şəki təşkilatı yaradılmışdır.

İsmayılov İsmət Şirəli oğlu 1988-ci ildə və şəbəkə ustası Rəsulov Əşrəf Yaqub oğlu 1989-cu ildə respublikanın əməkdar rəssamı adına layiq görülüblər. Təkəlduzçu Ağahüseynzadə "Möhtərəm Rzaqulu qızına 1989-cu ildə respublikanın əməkdar mədəniyyət işçisi adı verilib.

Rəssamların çoxu Ümumdünya sərgilərində uğurla çıxış edir. Xalq sənətkarlarının şəbəkə, təkəlduz, dulusçuluq və s. üzrə işləri artıq dünyanın bir çox ölkələrində nümayiş etdirilmiş və bəyənilmişdir.

TARİX-DİYARŞÜNASLIQ MUZEYİ

Rəşid bəy Əfəndiyev adına Şəki Tarix-Diyarşünaslıq Muzeyi 1958-ci ildən fəaliyyət göstərir. Muzey 1980-ci ildən Şəki Xan sarayı yaxınlığındakı binada yerləşir. Bu bina 1895-ci ildə tikilib.

Muzeyin 9 ekspozisiya zalında 3500-ə yaxın eksponat nümayiş etdirilir. Baxış "Təbiət" şöbəsindən başlayır. Burada ağac növləri, meşələrdə bitən fındıq, vələs, palıd, şabalıd, cökə, qoz, zoğal, əzgil, alça və s., dərman bitkilərindən moruq, çiyələk, itburnu, yemişan, çaytikanı, sumax və s. haqda məlumatlar verilir. Həmin şöbədə Şəki zonasında yaşayan heyvanlar barədə də söhbət açılır: maral, köpgər, cüyür, ceyran, dağkeçisi, dovşan və s.-dən Dərisindən istifadə olunan heyvanlardan dələ, canavar,

çaqqal, çöldonuzu, vaşaq, porsuq və s.-dən danışılır. Əti yeməli quşlardan turac, qırqovul, qaratoyuq və s. haqda məlumatlar var.

İkinci şöbə "Qədim və orta əsrlər tarixi" adlanır. Bu şöbə qədim dövrə aid olan arxeoloji tapıntı və əşyalarla zəngindir.

Üçüncü şöbə "Şəki xanlığının tarixi"dir.

Bu şöbədə Şəkidə inkişaf etmiş sənətkarlıq nümunələrindən misgərlik, zərgərlik, ipəkçilik, dulusçuluq, sərraclıq, papaqçılıq, dəmirçilik haqda geniş məlumat verilir.

Dördüncü şöbə üçüncü şöbənin davamıdır. Bu hissədə Azərbaycanın Rusiya tərəfindən ilhaqından bəhs edilir. Burada Azərbaycan ziyalılarının, o cümlədən yazıçı-filosof, Azərbaycan dramaturgiyasının banisi M. F. Axundov və maarifçi-dramaturq Rəşid bəy Əfəndiyevin fəaliyyəti göstərilir. Eyni zamanda, Rusiyanın işğalından sonra Azərbaycanın inzibati quruluşu və idarə üsulunun təşkili göstərilir.

"Maarif, mədəniyyət və səhiyyə" bölməsində Şəkinin 1920-ci ilə qədərki məktəbləri, darülmüəllimat, kişi seminariyası, nümunə-zəhmət məktəbi, fabrik-zavod şagirdliyi məktəbi, ikiillik müəllimlər institutu və s. haqda məlumat verilir.

"Döyüş şöhrəti" bölməsində Vətən müharibəsi, qəhrəmanlar, döyüşdə həlak olanlar, şəkililərin cəbhəyə köməyi və s. haqda məlumat verilir. Səkkizinci bölmə "Sənaye" adlanır. Burada baramaçılıq, barama növləri, ipək sapın alınması, ipəyin burulması, ipəkqurdu, ipəyin toxunması, ipəkdən alınan, hazırlanan məhsullar, ipəyin boyanması, ipək parça növləri və s. haqda danışılır.

Doqquzuncu şöbədə "Kənd təsərrüfatı" adı altında əkinçilik alətləri, quşçuluq birliyi, heyvandarlıq obyektləri, baytarlıq alətləri, yem növləri, tütün növləri, dənli bitkilər və s. nümayiş etdirilir.

ŞƏKİDƏ XEYRİYYƏ İŞLƏRİNDƏN

Yaxşılığı əlimizdən aldılar,
Yaxşı bizi yaman günə saldılar...
ŞƏHRİYAR.

Mətləbə keçməmişdən əvvəl Şəkinin tanınmış ziyalılarından Sabir Əfəndiyev və Abuzər Qasımovun xeyirxahlıq haqqındakı fikirlərini yada salmaq yerinə düşərdi: "Xeyirxahlıq üçün varlı və ya yoxsul olmaq şərt deyil, xeyirxahlıq ana südü, ata irsiyyəti ilə qan yaddaşına çökən bir xüsusiyyətdir, yüksək əxlaqi və insani keyfiyyətdir. Xeyirxah olmaq, hamıya dayaq durmağı bacarmaq üçün insanda böyük ürək, sağlam düşüncə, birinci növbədə el-vətən məhəbbəti, xalq qayğısı olmalıdır... Azərbaycan xeyirxahlar diyarıdır" ("Şəki fəhləsi" qəzeti, 13 yanvar 1990).

Azərbaycan tarixinin müxtəlif dövrlərində onun ayrı-ayrı guşələrində, o cümlədən, Şəkidə xalqın rifah halının, sağlamlığının və s. yaxşılaşmasına cani-dildən, təmənnasız xidmət edənlər az olmamışdır. Bu nəcib işdə Hacı Zeynalabdin Tağıyevin unudulmaz xidmətləri hamıya bəllidir. Gəncədə Nigar Rəfibəylinin babası Ələkbər bəy Rəfibəyov - "Ələkbər dayı" vaxtaşırı xeyriyyə cəmiyyətinə pul keçirmiş, kasıb uşaqların təhsil alması üçün kömək əlini uzatmışdır. Nigar xanımın atası - ilk azərbaycanlı cərrahlardan biri Xudadat bəy Rəfibəyovun rəhbərliyi altında Gəncədə yaranmış tibb cəmiyyəti geniş xalq kütlələrinə pulsuz xidmət etmişdir.

Əgər keçmişi araşdırsaq, belə xeyirxah adamların adına çox rast gələrik. Doğrudan da, keçmişimizə nəzər salanda, xalq üçün öz ömrünü çıraq kimi yandıran neçə-neçə parlaq şəxsiyyətlərin adına bəy-xan damğası vuraraq tarixin səhifələrindən öz əllərimizlə sildiyimizin şahidi oluruq", - deyən Dilqəm Ağayevlə razılaşmamaq olmur ("Elm" qəzeti, 10 mart 1990).

Şübhəsiz, onları arayıb-axtarmaq, gördükləri xeyirxah işləri

aşkara çıxarmaq, təcrübələrindən istifadə etmək yeni təfəkkür tərzi baxımından çox vacib və lazımdır. Onlardan biri Şəkidə Azaq Əfəndi olmuşdur. Bu münasibətlə "Azərbaycan" qəzetinin 1919-cu il mayın 30-u tarixli 191-ci nömrəsində dərc olunmuş "Şəkidən" adlı bir yazını bütünlüklə diqqətinizə çatdırırıq: "Mart ayının 24-də Azaq Əfəndi Mustafazadə Şəki bələdiyyə idarəsinin rəisliyini qəbul edərək işləri təhvil aldı. Azaq Əfəndi cənablarının millətinə edən xidmətini, ələlxüsus keçən il anarxiya zamanı göstərdiyi fəaliyyəti söyləməyi öhdəmə almıram. Çünki bu haqda böyük məqalələr ilə qəzetlər sütunu doldurmaq lazım gələcəyinə əminəm.

Fəqət bunu ərz etmək istəyirəm ki, cənab Azaq Əfəndi bələdiyyə idarəsinin işlərini öz əlinə toplayandan sonra şəhərimizdə hər bir xüsusda böyük təbəddülat görünməkdədir. Cənab Azaq Əfəndi keçmişdən füqarlar dərdinə qalmaqda, onların ağır hallarını düşünməkdə şəhərimizdə bəlli olduğundan, indi də iş başına keçərək onların keçirdiyi bu ağır güzaranını yaxşılaşdırmaq təşəbbüsündədir. İşlərə şüuru edərək ən əvvəl füqaraların bilafəq millət hesabını cəmləşdirmişdir. İndi eşitdiyimizə görə şəhəri üç hissə edərək üç yerdə təndirxanalar açıbdır. Hər birində gündəlik 40 pud əppək (çörək) hazırlanıb adambaşına bir girvənkə olaraq bazar qiymətindən 60 qəpik fərqli buraxılacaqdır. Şəhərimizin nainsaf möhtəkirləri qidadatı gətirən kəndçilərdən alıb istədiyi qiymətə satırdılar. Azaq Əfəndi möhtərəm qəza naçalniki Əyyubbəy Rəfibəyov cənablarının məmavinəti ilə möhtəkirləri dustaq etdirib və kəndçilərdən satılmaq üçün almağı qadağan etdirdi. Bunlara binaəm bu gün buğda şəhərimizdə 120 manatdan 80 manata və 70 manata düşüb və yenə düşəcəyinə ümid vardır.

Füqara camaətin aptek əczalarının fövqəladə bahalıqdan ala bilməyib nə qədəri əbəs yerə məhv olduğu aşkardır. Nainsaf aptek sahibləri əczaların qiymətlərini gün-gündən artırmaqda davam etməkdədirlər. Şəhərimizin bu ana qədər əczaxanası olmadığından dolayıdır ki, bunların qabağını almaq mümkün deyildir.

İndi bələdiyyə rəisi bunu nəzərə alaraq yavuq bir zamanda şəhər əczaxanası açmaq istəyir. Şəhərimizi görənlər küçələrin nə qədər dar və natəmiz olduğunu bilirlər. Bu gün bu natəmizlik qabağını almaq üçün Azaq Əfəndi iki taçka kirayə eləmiş və yavuq bir zamanda şəhərə məxsus bir neçə araba almaq fikrindədir.

Azaq Əfəndinin gördüyü işlərə ziyadə təşəkkürlər edəriz və belə şəxslərin xidmətini millət yaddan çıxartmaz zəndindəyiz.

Şəki əhalisi Azaq Əfəndinin böyük bir fəaliyyətini Kiş çayı qabağına çəkiləcək bənddə gözləyir. Hökumətimiz bu bəndin çırpı ilə daşdan yapılması üçün 211 min manat pul buraxmışdır. Belə bənd çar hökuməti zamanında neçə dəfə qayrılmış, hətta hürriyədən bir neçə ay müqəddəm camaatımızdan Azaq Əfəndinin təşəbbüsü ilə bir qədər pul toplanılıb sement alınmış ki, həmişəlik bir hasar qayrılsın və əhali rahat yaşasın. Qarışıqlıq zamanı sement az olmaq münasibətilə işlənməyib qalmışdı. İndi Azaq Əfəndi mövcud olan sement ilə bəndi qayrıtmaq fikrindədir. Buna görə hökumətdən pək zizadə istərham (xahiş) edəriz ki, lazım olan müavinəti bu barədə Azaq Əfəndi versin. Tain ki, şəhərimizin gözəl binalarının, ipək zavodlarının, bağlarının, bazarının böyük hissəsini və cəmaətin vardatını Kiş çayının bəlasından xilas etmək mümkün olsun. Azaq Əfəndi belə bir ağır zamanda öhdəsinə götürdüyü məsuliyyətli vəzifəni asanlıqla ifa edəcəyinə əminiz. E.İ.SULTANZADƏ".

Azərbaycan MEA müxbir üzvü M. Ə. İsmayılov yazır: "1855-ci ildə yerli sakin Əbdül Qafar bəy Hüseynov Şəki qəza məktəbinin nəfinə hər il 500 manat verməyi öhdəsinə götürdü və o, bu məktəbin fəxri hamisi təyin edildi...

1898-ci ildə şəhərdə yeni məktəb - rus-tatar (rus-Azərbaycan) məktəbi açıldı. Məktəb Hacı Əbdürrəhim ağanın təşəbbüsü ilə açılmışdır. O, öz hesabına Cümə məscidinin yanında ikimərtəbəli böyük bina tikdirmiş və onun üçün lazımi avadanlıq almışdı... Bu məktəbi bitirənlərin bəziləri təhsillərini davam etdirmək üçün Qoriyə gedirdilər. Onlardan görkəmli pedaqoq və istedadlı yazıçı Rəşidbəy Əfəndiyevi göstərmək olar...

1910-cu ildə "Şəki şəhəri və qəza müsəlman əhalisi arasında savad yayan Nuxa cəmiyyəti" yaradıldı. Cəmiyyətin 1910-cu il sentyabrın 29-da təsdiq olunmuş nizamnaməsində deyilirdi ki, cəmiyyət müsəlmanlar arasında rus və doğma Azərbaycan dillərində savad və ibtidai təhsil yaymağı öz qarşısına məqsəd qoyur... Cəmiyyətin üzvləri 50 manat, fəxri üzvləri isə 200 manat verməli idilər. Cəmiyyətin təsisçiləri Axund Fərəcüllah Pişnamazzadə, Axund Məhəmməd, Həsən Mövlazadə, Məşədi Abdullah Qafarov, Şirəlibəy Əmircanov, Cabbar bəy Axundov, Məşədi Xəlil Dadaşov, Hacı Zeynalabdin Əliyev, Həsən Həsənov, Məhəmməd Şəmçiyev, Mirzə Məhəmməd Sadiq Quliyev, Əbdürza Şirinov, Hacı İsmayıl Kərbəlayı Məhəmmədrza oğlu, Abbas Əhmədov, Lütfəli Hüseynov, Cəbrayıl Qasımov idi. Təsisçilərin hər biri 100 manat verirdi...

Şəkidə 1914-cü ildə 4 xeyriyyə cəmiyyəti fəaliyyət göstərirdi" ("Şəki" kitabı, 1982-ci il, səh. 98).

Professor Hüseyn Əhmədov və filologiya elmləri namizədi Sabir Əfəndiyev yazırlar: "Şəki hələ qədimdən Azərbaycanın görkəmli elm, mədəniyyət mərkəzlərindən biri olmuş... Şərq elminin və islamiyyətin güclü təsiri ilə Şəkidə bir çox dini məktəb, məktəbdarlar və müdərrislər, katiblər və alimlər fəaliyyət göstərir, islam dinini, Şərq təbabəti, fəlsəfə və dilçiliyə aid ən gözəl əlyazmaları, ən mötəbər kitablar sürətlə yayılır, maarifə meyil güclü bir axına çevrilirdi...

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Şəki əhalisi tərəfindən məktəbə göstərilən maddi yardımın çoxluğuna görə bu qəza məktəbi başqa qəza məktəblərindən fərqlənirdi. Yığılan vəsait Zaqafqaziyanın o zamankı baş hakimi baron Rozenin diqqətini, xüsusilə cəlb etmişdi. Məhz bunun nəticəsidir ki, o, Şəkidə qəza məktəbinin binasını yerli əhalidən toplanan pulla tikməyi lazım bilmiş, bu haqda xüsusi sərəncam vermişdir...

Şirəlibəy Əmircanovun Şəkidə təşkil etdiyi teatr tamaşasın-

dan toplanan 92 man. 67 qəp. şəhər məktəbinin kasıb tələbələrinə xərclənmişdi...

Çarizmin devrilməsi ilə əlaqədar 1917-ci ildə Şəki qəza (şəhər) məktəbində dərslər dayandırılmış, şagirdlər və müəllimlər küçəyə atılmışdılar... "Hürriyyəti-maarif cəmiyyəti" ilk növbədə həmin məktəbi öz himayəsinə aldı və birillik fasilədən sonra məktəbdə dərslər davam etdirildi. Cəmiyyətin 1918-1919-cu illər ərzində topladığı 11 min 611 manat vəsait hesabına qəzada yeni məktəblər, bu məktəblərdə dərs demək üçün müəllimlər hazırlayan savad kursları, ən başlıcası isə daha çox savadsız və yoxsul əhali yaşayan şəhərin Yuxarıbaş hissəsində qız məktəbi açıldı. Cəmiyyətin adı çəkilən hesabat kitabçasında bu barədə belə bir qeyd vardır: "Qız balalarının oxuyub təhsil alması cəmiyyətin məqsədlərindən birisi olduğundan maarifcə ən geridə qalan şəhərin Yuxarıbaş hissəsində pulsuz olaraq bir qız məktəbi açmağa nail olduq. Burada yoxsul qızların kitab, qələm, dəftər xərclərini cəmiyyət ödəyirdi..."

Maddi güdrəti gücləndirmək məqsədilə cəmiyyətin fəaliyyətinə sonralar adlı-sanlı maarifçilər kimi tanınan Əbdülrəşid Əfəndizadə, Əsgərağa Məmmədzadə, Mirhəsən Axundzadə, Rəcəb Əfəndizadə, Ələkbər Mahmudov və b. ilə yanaşı Hacıqədir Hacıəhməd oğlu, Hidayət Hacı Əfəndi oğlu, Yusif Xəlilzadə, Musa Mərdanov kimi tacir və məşhur sənətkarlar, Hacı Məmmədsadıq Əliyev kimi fabrikantlar da daxil idilər. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Şəki şəhər məktəbinin binasını Məmmədsadıq Əliyev 1896-cı ildə öz vəsaiti hesabına tikdirmişdir...

Şəki məktəbinin müəllimləri və şagirdlərinin yaxından iştirakı ilə təşkil edilmiş teatr truppası 1918-ci ildə M. F. Axundovun "Molla İbrahimxəlil kimyagər" pyesinin tamaşasından toplanan 816 manat vəsaiti qəzada maarifin inkişafına xərclənməsi üçün cəmiyyətin xəzinəsinə vermişdilər..." ("Azərbaycan məktəbi" jurnalı, 1982, № 9, səh. 45-57).

HACI MƏHƏMMƏDSADIQ ƏLİYEV VƏ ONUN NƏSLİ

Ən yüksək elm müdriklik,
ən yüksək müdriklik isə xeyirxahlıqdır.
M. AVARELİY.



Hacı Məmmədsadıq Əliyev.

Şəkidəki xeyirxah adamlardan biri də Hacı Məhəmmədsadıq Əliyev olmuşdur. O, XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində yaşamışdır. Haqq-hesabda, alış-verişdə Hacı halallığı çox sevər, düzgünlüyü, sadəliyi və xeyirxahlığı ilə başqalarından seçilərdi. O, Qafqazda və ondan uzaqlarda tanınmış bir şəxsiyyət idi.

Hacı Şəkidə möhtəşəm bir bina tikdirmiş, çoxlu sövdagər dükanları açdırmışdı. Şəkidəki indiki pedaqoji məktəb binası Hacının evi, şəhərin lap yuxarı hissəsindəki kinoteatrın yerləşdiyi bina onun mərkəzi baqqaliyyə dükanı, həmin binanın üst mərtəbəsi isə (indiki müəllimlər evi) onun idarəsi sayılırdı. Şəkidə ilk məktəblərdən biri Hacının hesabına tikilib. İndi bu, Təkmilləşdirmə İnstitutunun filialının binasıdır. Şəkili Molla Kazım həmin məktəbin ilk direktoru olub. Ona görə indi də xalq arasında bu məktəbə "Molla Kazım məktəbi" deyilir.

Məqsəddən bir qədər uzaqlaşıb qeyd etməliyəm ki, Molla Kazım nəsli sonra Azərbaycan maarifinə onlarca tanınmış müəllimlər bəxş etmişdir. Molla Kazımın oğlu, ədəbiyyatşünas, maarifçi Baxşəli Əfəndi atasından sonra həmin məktəbin direktoru olmuşdur. Baxşəli Əfəndinin qızı Diləfruz Axundova respublikanın əməkdar müəllimi idi. Hacı öz övladlarını Avropada oxutdurmuşdur. Bu xeyirxah insan imkansız ailələrdən olan fərasətli uşaqların da Rusiyada və Avropada oxumasına şərait yaratmış, maddi yardım etmişdir.

Hacı Məhəmmədsadığın öz xalqına sədaqəti barədə olan

əhvalatı xatırlamaq yerinə düşərdi: "Deyilənlərə görə, Məhəmmədsadığın Fransada təhsil alan oğlu atasını oraya dəvət edir. Hacı razılaşır. Amma oğlundan gələn bir bağlama onu çox məyus edir. Bağlamada Hacı üçün Fransa libası göndərilmişdi və məktubda yazılmışdı ki, oraya gələndə bu paltarı geysin. Hacı sarsılmış, keçmiş pedməktəb binasının gündoğanında (bu bina 1927-ci ildə yanmışdır) oğlunu evləndirmək üçün tikdirdiyi yaraşıqlı binaya ağsaqqalları yığıb məclis keçirmişdir. Ziyafətin sonunda Hacı üzünü yığışanlara tutub demişdir: " Bu gündən mənim bu adda oğlum yoxdur. O, ləyaqətimi alçaldıb, milli libasımı bəyənməyib" (S. Əfəndiyev, A. Qasımov, "Şəki fəhləsi" qəzeti, 13 yanvar 1990-cı il).

Hacı Bakının məşhur milyonçuları Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyevin yaxın dostu olmuş, onlarla ticarət əlaqəsi saxlamışdır.

Hacı elan etmişdir ki, maddi çətinliyi olub ondan kömək istəyənlər idarəyə yox, onun evinə getsinlər. Həm də gündüz yox, axşam qaranlıqda. Bunun da bir sirri varmış. Yardım istəmək üçün Hacının yanına gələnlər qapını döyər, Hacı qapını açmamışdan əvvəl əl çırağını söndürərmiş, kasıbın nə dilək istədiyini dinləyib qapını örtər və əl çırağını yandırarmış, evə qalxıb pul götürər, yenidən qapını açanda çırağı söndürərmiş ki, gələnin kim olduğunu tanımasın. Bütün bunları bir nəfər yox, onlarca yaşlı nəsil nəql edir.

Hacının ailəsində heç də iyi ətrafa yayılan xörəklər bişirilməzmiş. Kabab bişirilməsi lazım gələndə bütün yaxın qonşulara ət payı göndərərmiş. **Mənim atamın söylədiyindən:** "Bayramlarda və əziz günlərdə Hacının arabaları küçəbəküçə düşüb kasıb ailələrə un, yağ, düyü, çay, parça paylayardı. Hacı bu payın kimin tərəfindən göndərildiyini deməyi qadağan edərmiş. Həmin payı da gecənin elə bir vaxtında paylayardılar ki, qonşular və heç kim bundan xəbər tutmazmış".

Hacı xəstə yoluxmağa gedəndə heç kəsin görmədiyi bir şəraitdə xəstənin yastığının altına pul qoyarmış ki, dava-dərman alsın. Onun 1916-cı ildə Şəkidə vəfat etdiyi və gəncəli məhəlləsindəki "Sona" qəbiristanlığında dəfn olunduğu söylənilir. Rəhmətlik özü vəsiyyət etmiş ki, məni dəbdəbəli dəfn etməyəsiniz və qəbrin üstünü götürməyəsiniz. Ona görə də həmin qəbiristanlıqda Hacının qəbrini tapmaq mümkün olmadı. İslam adəti ilə qəbir itib-batıb. Allah belə xeyirxahlara rəhmət eləsin!

Mənə elə gəlir ki, Hacı Məhəmmədsadığın həyatı, onun Şəki xeyriyyə işlərindəki fəaliyyəti Şəki ziyalıları tərəfindən daha təfsilatı ilə öyrənilməli, xatirəsi əbədiləşdirilməlidir. Bütün yuxarıda təsvir etdiyimiz insani, humanist xüsusiyyətlərin öyrənilməsinin gənc nəslin tərbiyəsində böyük rolu vardır.



Abbas Əliyev.

ƏLİYEV ABBAS ZEYNAL oğlu 1884-cü ildə Şəkidə anadan olmuşdur. O, Şəkidə dördillik məktəbi qurtardıqdan sonra Bakıda realnı kişi məktəbinə daxil olmuşdur. A. Əliyev 1914-1917-ci illərdə Moskva Kommersiya İnstitutunda təhsil almışdır. O, təhsil aldığı müddətdə rus və alman dillərini kamil öyrənmişdir. A. Əliyev Azərbaycanda Şura hökuməti qurulana qədər ticarətlə məşğul olmuş, 1921-1926-cı illərdə Türkiyədə yaşamış, Vətəninə qayıtdıqdan sonra Bakı məktəb və texnikumlarında rus, alman dillərindən dərs demişdir.

Mina xanım Yusif qızı Əliyeva.

A.Əliyev 1913-cü ildə Mina xanımla evlənmişdir. Dövrünün savadlı qadınlarından olan Əmircanova-Əliyeva Mina Yusif qızı 1897-ci ildə Şəkidə anadan olmuş, ev şəraitində dördillik məktəb qurtarmış, Hacı Zeynalabdin Tağıyevin Qız məktəbində təhsilini davam etdirmişdir. Abbas və Mina xanım ailəsinin beş uşaqları olmuş, biri ölmüş, dördü isə salamat böyümüş-

Mina xanım (soldan 2-ci)

dür. Mina xanım Şəki məktəblərində və sonra Bakının uşaq bağçalarında tərbiyəçi işləmişdir.

Zeynal Əliyev.

ƏLİYEV ZEYNAL ABBAS oğlu 1915-ci ildə Şəkidə anadan olmuş, orada 7 illik məktəbi qurtardıqdan sonra 1927-ci ildə Bakıya köçmüşdür. 1927-1931-ci illərdə N. Nərimanov adına texnikumda təhsil almış, sonra Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuşdur. 1936-cı ildə təhsilini başa vuran Z.Əliyev institutda assistent kimi saxlanılmış, 1943-cü ildən Azərbaycan Dövlət Tibb İnstitutu Üzvi kimya kafedrasında assistent işləmişdir.

ƏLİZADƏ SİDDİQƏ ABBAS qızı 1919-cu ildə Şəkidə anadan olmuş, orta təhsilini Bakının 48 nömrəli məktəbində almışdır. O, Azərbaycan Dövlət Tibb İnstitutunda oxumuş (1937-1942), bir müddət evakohospitallarda işləmiş, Vətən müharibəsindən sonra Klinik İnstituta ordinator vəzifəsinə qəbul edilmişdir. S. Əlizadə 1950-ci ildən Bakıda Ə. Əfəndiyev adına klinik xəstəxanasında E.K.Q. kabinetində müdir, 1954-cü ildən isə Ə. Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Fizioterapiya və funksional diaqnostika kafedrasında assistent işləmiş, 1968-ci ildə tibb elmləri namizədi olmuş, 1978-ci ildə təqaüdə çıxmışdır.

ƏLİYEV HÜSEYN Azərbaycan Elmlər Akademiyasında laboratoriya müdiri, fizika-riyaziyyat elmləri namizədi, dosentdir. "İpəkçi" qəzetinin 1 yanvar 1991-ci il tarixli nömrəsində Hüseyn Əliyevin "Babam haqqında həqiqəti yazdığınıza görə..." adlı məktubu dərc edilmişdir. O bu məktubunda XIX əsrin sonunda Şəkidə yaşayan, öz nəcib və xeyirxah işləri ilə fərqlənən, şəkililərin dərin hörmətini qazanan - məktəb binası tikdirən, uşaqları təhsilə cəlb edən, kasıblara həmişə əl tutan, maddi yardım və kömək göstərən milyonçu babası Məhəmmədsadıq Əliyev barədə ilk dəfə əsl həqiqəti yazmağa və onun xidmətləri barədə açıq danışmağa səy göstərmiş "İpəkçi"yə öz adından, habelə Əliyevlərin indiki nəsli adından dərin təşəkkürünü bildirmişdir. H. Əliyev həmin məktubda Şəkidən olan bir neçə tanınmış ziyalıların adını da çəkmiş, onu düşündürən problemlərə toxunmuşdur. Bu baxımdan həmin məktub müəyyən tarixi əhəmiyyət kəsb edir. Ona görə də məktubu olduğu kimi vermək qərarına gəldik.

BABAM HAQQINDA HƏQİQƏTİ YAZDIĞINIZA GÖRƏ...

Hörmətli redaksiya!

Mən Bakıda anadan olmuş, burada boya-başa çatmışam. Ancaq həmişə özümü şəkili hesab etmişəm. Axı başqa cür də ola bilməz. Çünki mənim valideynlərim əslən şəkili olublar. Bundan əlavə, babam - tacir Hacı Məhəmmədsadıq Əliyev XIX əsrin sonunda tanınmış, ən hörmətli adamlardan biri olmuşdur. O, Şəkidə maarifin inkişafı yolunda çox iş görmüş, öz vəsaiti hesabına burada məktəb və gimnaziya açdırmışdır. Lakin o, xalq yolunda öz arzularını tamamilə həyata keçirə bilməmiş, 1916-cı ildə vəfat etmişdir.

Mən bilirəm ki, şəkililər indi də onu böyük hörmət və məhəbbətlə yad edirlər. Hətta çoxlarının evində (əsasən, Gəncəli məhəlləsində) babamın portreti asılıb və qorunub saxlanılır. Eşitdiyimə görə, şəkililər babama məxsus olan evdə onun evmuzeyini yaratmaq fikrindədirlər. Hal-hazırda orada texnikum yerləşir.

Bütün bunlar barədə və bunlara oxşar faktlar haqqında bu yaxınlaradək rəsmən danışmaq və hətta yazmaq mümkün deyildi. Lakin bu xeyirxah insanın xalqa etdiyi yaxşılıqlar indiyə qədər şəkililərin yaddaşından silinməmişdir.

Məlumdur ki, bu yaxınlarda Azərbaycan xalqı Hacı Zeynalabdin Tağıyevin xidmətlərini onun öz adına qaytardı. Onda mən düşünürdüm ki, tezliklə Hacı Məhəmmədsadıq Əliyev haqqında da bütün həqiqətləri danışacaqlar.

Bəlkə də, ilk dəfə babam haqqında əsl həqiqəti 1983-cü il-

də Sabir Əfəndiyevin çapdan çıxmış "150 yaşlı Şəki məktəbi" kitabında yazmışlar. Mən o vaxt V. İ. Lenin adına Pedaqoji İnstitutunda kafedra müdiri vəzifəsində işləyirdim. Həmin kitabı mənə kafedrada işləyən bir şəkili - fizika-riyaziyyat elmləri namizədi, informatika və hesablama texnikası sahəsində gözəl mütəxəssis **VAQİF MUSTAFA oğlu CABBARZADƏ** təqdim etmişdi. Bu müəllimin atası (ləqəbi - Kürən Mustafa) təxminən 1943-53-cü illərdə Şəki Rayon Xalq Maarif Şöbəsinin müdiri işləmişdir.

1990-cı ilin aprel ayında isə respublikamızda görkəmli bir alim kimi tanınan iqtisad elmləri doktoru, professor QÜDRƏT ƏBDÜLSƏLİMZADƏ məni qiymətli bir hədiyyə ilə sevindirdi. O mənə 1990-cı il aprelin 10-da çıxmış "İPƏKÇİ" qəzetinin iki nüsxəsini verdi. Orada - qəzetin 4-cü səhifəsində "Oxucumuz soruşur" rubrikası altında "HACI MƏHƏMMƏDSADIQ kimdir?" sərlövhəli bir yazıda babam haqqında kiçik məlumat verilmişdir.

Bu yaxınlarda isə şəkililərin bir məclisində öyrəndim ki, bir neçə ay bundan əvvəl "Şəki fəhləsi" qəzetində S. Əfəndiyevin Hacı Məhəmmədsadıq Əliyev haqqında məqaləsi dərc olunmuşdur. Əlbəttə, çox istərdim ki, qəzetin həmin nömrəsini tapım və məqaləni oxuyum.

Yəqin sizə maraqlı olar ki, mən ixtisasıma görə riyaziyyatçı olsam da, ildə bir-iki dəfə respublika qəzetlərində xalqımızı düşündürən və ciddi narahat edən problemlər haqqında məqalələrlə də çıxış edirəm. Mənim axır vaxtlarda çap olunmuş əsərlərimdən bir neçəsinin adını çəkə bilərəm: "Kommunist" (indiki "Xalq qəzeti" - **red.**) qəzetinin 30 mart 1989-cu il tarixli nömrəsində "Hamımızı qınasalar yeri var" (dilimiz - qeyrətimiz, sərvətimizdir), "Molodyej Azerbaydjana" qəzetinin 22 dekabr 1988-ci il tarixli nömrəsində "Soveşaniye, kotoroye nadolqo ostanetsya və pamyati", "Vışka" qəzetinin 13 iyul 1988-ci il tarixli nömrəsində "Başenki iz monet" adlı məqalələrim çıxmışdır.

Gənclik illərimlə müqayisədə son vaxtlar Şəkiyə az-az gəlirəm. Yadımdadır, 70-ci illərdə Şəkidə şəkililərlə yaxşı tanış olan rus dili müəllimi (Əlihüseyn müəllim - ləqəbi Bığ Hüseyn) mənə babam haqqında maraqlı söhbətlər etmişdi. İndi babam Hacı Məhəmmədsadıq Əliyevin fəaliyyəti, xarakteri haqqında məndə əlavə məlumat və faktlar çoxdur.

Tarixi həqiqətlərin araşdırılmasında, babamın əziz xatirəsinin yad edilməsində zəhmət çəkdiyiniz üçün sizə ailəmizin adından, şəxsən öz adımdan çox sağ olun deyirəm.

Hüseyn ƏLİYEV,
Azərbaycan Respublikası Milli Elmlər Akademiyasında laboratoriya müdiri, fizika-riyaziyyat elmləri namizədi, dosent.

ŞƏKİ TARİXŞÜNASLARI

Vətəni sevmək də imandandır.
Məhəmməd peyğəmbər.

Bəşəriyyətin böyük şəxsiyyətlərindən biri, islamın yaradıcısı Məhəmməd peyğəmbərin sözlərini yada salmaqda məqsədim odur ki, o, hələ 1400 il bundan əvvəl Vətəni sevməyi iman hesab etmişdir. Vətəni sevmək üçün onun keçmişini bilmək lazımdır. Hər bir millətin, xalqın keçmişi onun tarixidir. Hər bir xalqın tarixi olduğu kimi yazılmalı, ona kənardan heç bir göstəriş, heç bir təzyiq olmamalıdır. Əfsuslar olsun ki, biz Azərbaycan tarixinin indiyə qədər yazılmadığını ya repressiya, ya durğunluq, ya da ayrı-ayrı şəxslərin təzyiqi ilə əlaqələndiririk. Ancaq bu, heç də bizim alimlərimizə və rəhbərliyə bəraət qazandırmır. Tariximizi bütün rəngarəngliyi, mürəkkəbliyi alimlərin, ilk növbədə tarixçilərin üzünə açılmalıdır. Nəinki respublika, hətta lazım gəldikdə xarici ölkələrin də arxivlərinə üz tutmalıyıq. Tarixi sənədlərin öyrənilməsi hər bir ziyalının müqəddəs vəzifəsidir. Tariximizə aid olan hər bir əsəri, hər bir sənədi olduğu kimi xalqımıza çatdırmalıyıq, onu araşdırmalıyıq, obyektiv qiymət verməliyik.

Doğma yurdumuzun qədim guşələrindən biri olan Şəkinin tarixi haqda Kərim Ağa Fateh, Hacı Seyid Əbdülhəmid, Hacı Şeyx Məhəmmədhəsən Mollazadə, M. Ə. İsmayılov və qeyriləri qiymətli məlumatlar vermişlər. Adlarını çəkdiyimiz əksər ilk tarixşünas-alimlərin əsərləri xalq kütləsinə lazımınca çatdırılmamış və məktəblərimizdə tədris edilməmişdir. Unutmaq lazım deyildir ki, Şəkinin tarixi doğma Azərbaycan tarixinin bir qoludur, onun lazımınca araşdırılması gələcəkdə tarixin yazılmasında müəyyən əhəmiyyətə malik olar. Bütün bunları nəzərə alaraq Şəki tarixşünaslarının həyatı və onların əsərləri haqda müəyyən məlumat verməyi məqsədəuyğun hesab edirik.

KƏRİM AĞA FATEH ŞƏKİXANOV

1747-55-ci illərdə Şəkinin xanı olmuş Hacı Çələbi xan Qurban oğlunun nəslindəndir. 1783-cü ildə Şəkidə doğulub. O, Fətəli xanın yeganə oğlu idi. 1804-cı ildə Fətəli xanın qardaşları Məhəmmədhəsən xanla Səlim xan Şamaxı xanına əsir düşdükdə Şəki bəyləri Kərim Ağanı özlərinə xan təyin edirlər. Onun babası Məhəmmədhüseyn xan Hacı Çələbi xanın nəvəsidir. 1759-80-ci illərdə Şəkidə xan olub, Müştaq təxəllüsü ilə şeirlər yazmışdır. Hacı Çələbi xanın özünün də ulu babaları XV əsrin əvvəllərindən etibarən müstəqil və yaxud da yarımmüstəqil surətdə Şəkini idarə etmişlər. 1551-ci ildə Şah Təhmasib onların nəslini hakimiyyətdən uzaqlaşdırmışdır.

Kərim Ağanın atası Fətəli xan 1804-cü ildə hakimiyyət başına gəldikdən sonra Mustafa xanla münasibətləri yaxşılaşdırmaq məqsədilə Kərim Ağanı Şamaxıya göndərir. Ola bilsin ki, Fətəli xan öz qardaşlarının azad edilməsinin əvəzində oğlunu Şamaxıya göndərməyi qərara almışdır.

Əldə olan məlumatlara görə, Kərim Ağa xoş xasiyyətli bir adam olmuşdur. Atası Fətəli xanın sarayında xüsusi təhsil alaraq ərəb və fars dillərinə mükəmməl yiyələnmişdir. Babası Məhəmmədhüseyn xan Müştaq kimi Kərim Ağa da şeirlər yazmışdır. Özünə götürdüyü "Fateh" təxəllüsü onun ürəkləri fəth edən şeirlər yazmaq istəyinə misal ola bilər. Ərəb və fars dillərini mükəmməl bilməsinə baxmayaraq, onun əldə olan qəzəllərindən ikisi Azərbaycan dilində yazılmışdır. Bu qəzəllərdən görünür ki, o, yüksək ilhamlı alim-şair olmuşdur. Fateh olduqca səxavətli, dövrünün tərəqqipərvər ziyalılarına hörmət bəsləyən, onlarla yaxın dostluq edən bir şəxsiyyət idi. Saraydakı məclisləri dostlarsız keçməmiş, M.F. Axundova isə xüsusi məhəbbət bəsləmişdir. Şəkidən Tiflisə onun üçün tez-tez qiymətli töhfələr və sovqat göndərər və onu ziyarət etməyə gedərmiş.

1807-ci ildə Kərim ağa Şamaxıdan qayıtdığı vaxt Xoylu Cəfərqulu xan (Dümbüli) Rusiya imperatoru I Aleksandr tərəfin-

dən Şəkiyə xan təyin edilmiş və eyni zamanda general-leytenant rütbəsinə layiq görülmüşdü. Bu hadisələrlə əlaqədar olaraq Kərim Ağa Şəkinin Otaq Eşiyi məhəlləsində olan ata-baba mülklərindən biri olan və hazırda "Şəkixanovların evi" adlanan evdə yaşamağa başlayır. Kərim Ağa Fətəhin qayıtmasından bir müddət əvvəl əmisi Səlim xan general Nebolsinin dəstələri ilə toqquşduqdan sonra İrana qovulmuş, o biri əmisi Məhəmmədhəsən xan Həştərxana sürgün edilmişdi. Belə qənaətə gəlmək olar ki, çar hökumətinin nümayəndələri Kərim Ağa ilə barışmağa səy göstərmiş, yüksək rütbə təklif etmiş və "Şəkixanov" familiyasını götürməsini məsləhət görmüşlər.

Kərim Ağa Şəkixanov 12 iyul 1858-ci ildə Şəkidə vəfat etmiş, xan məscidinin arxasında xanların nəsillərinə aid qəbiristanlıqda dəfn olunmuşdur. Kərim Ağanın İsmayıl Ağa, Cəfər Ağa, Əbdülhəmid Ağa, Mustafa Ağa adlı dörd oğlu və iki qızı varmış. Tarixən bu altı övlad Şəkixanların ilkini təşkil etmişlər. Mustafa Ağanın Şuxi təxəllüsü ilə şeirlər yazdığı haqda ilk dəfə Salman Mümtaz məlumat vermiş, onun şeirlərinin bəzilərini çap etmişdir.

Ümumiyyətlə, XIX əsrin ikinci yarısında yaşayıb-yaradan Şəki şairi Mustafa Ağa Kərim Ağa oğlu Şəkixanov - Şuxinin iki divanından ibarət əlyazması, şeirləri bizə çatmışdır. Şəkili alim, filologiya elmləri namizədi Əbdürrəhman Abdullayevin araşdırmalarından məlum olur ki, Şuxi poeziyanın bütün növlərində sadə, rəvan və məzmunlu şeirlər yazmışdır. Onun şeirlərinin çoxu insanların əxlaqında müşahidə etdiyi nöqsanların tənqidinə həsr edilmişdir. O bu şeirlərdə əsas etibarilə söz gəzdirib ara qarışdıranları, böhtançılıqla ev yıxanları, bir sözlə, insani keyfiyyətlərini itirənlərin hamısını ciddi tənqid atəşinə tutaraq onları əsl insan olmağa çağırmışdır. Mustafa Ağa Kərim Ağa oğlu Şəkixanov 1892-ci ildə Şəkidə vəfat etmişdir.

Kərim Ağanın oğlanlarından İsmayıl Ağanın nəslinin əsrimizin otuzuncu illərinə qədər "Şəkixanovların evi"ndə yaşadığı məlumdur. Həmin ev 1938-ci ildə Fətəlixan Şəkixanovun

əlindən alınaraq müsadirə edilmiş və Şəkixanovların təqibi başlanmışdır. Bu nəslə mənsub olanların bir qismi tutulmuş, qaçan qaçmış, bəziləri də familiyalarını dəyişməklə canlarını təqibdən xilas etmişlər. İsmayıl Ağanın Bikəxanım adlı bir nəticəsi Bakı şəhərində, Cəmilxan Şəkixanov adlı başqa bir nəticəsi isə Moskvada yaşayır.

Kərim Ağa Şəkixanovun dördüncü oğlu olan Cəfər Ağanın nəticəsi Cəfərağa Cəfərov (əfsuslar olsun ki, Şəkixanov yox, Cəfərov) hazırda Şəkinin Otaq Eşiyi məhəlləsindəki evində yaşayır.

Yuxarıda göstərdik ki, Kərim Ağa gənclikdən şairliyə meyil etmişdir, ancaq onu ədəbi-elmi irsimizdə tanıtdıran "Şəki xanlarının müxtəsər tarixi" əsəri olmuşdur. Əsərdə XVIII əsrin birinci yarısından XIX əsrin ilk illərinə qədərki Şəki xanlığının tarixindən bəhs edilir. Bu tarixi əsəri B. Dorn ilk dəfə 1858-ci ildə Peterburqda, N. Xanıkovun səhvi nəticəsində Hacı Əbdüllətif Əfəndinin adına çap etdirmiş, həmin səhv əsərin 1926-cı ildə Bakı nəşrində də təkrar olunmuşdur. Bu tarixi əsərin Kərim Ağa Şəkixanova mənsub olduğunu 1929-cu ildə şəkili Salman Mümtaz müəyyənləşdirmiş, onu Abbasqulu Ağa Bakıxanov kimi görkəmli bir şəxsiyyətlə eyni səviyyəyə qaldırmışdır. Bu baxımdan Aydın Məmmədovun fikri daha səciyyəvidir: "Kərim Ağanın yazısı Abbasqulu Ağa Bakıxanovun 1841-ci ildə farsca qələmə aldığı "Gülüstani-İrəm"indən həcminə, əhatə dairəsinə görə dəfələrlə kiçik olsa da, Şəkidə baş verən bir sıra tarixi prosesləri öyrənmək baxımından, həmçinin "Gülüstani-İrəm"dən fərqli azərbaycanca yazıldığına görə o dövrə aid tarixi həqiqətləri öyrənmək baxımından tədqiq edilməyə layiqdir" ("Şəki fəhləsi", 24 mart 1990). Kərim Ağa bu əsərində Azərbaycanda baş verən hadisələrin qərəzsiz və dəqiq şərhini vermişdir. O, əsərində babasının öldürülməsinin, atasının gözlərinin çıxarılmasının səbəblərini məşhur tarixçilərə xas olan ustalıqla izah etmişdir. Bu qiymətli əsər Azərbaycan tarixinin öyrənilməsində müstəsna əhəmiyyətə malikdir.

Budur, Şəki ziyalı nəsillərindən biri - Şəkixanovların aqibəti. Həmişə dəm vurmuşuq ki, "bizdə sənətə, şairə, elmə hörmət var". Hanı o hörmət? Əgər Şəkixanovlar xan nəslindəndirlərsə, onların yazıb-yaratdıqlarının ictimai mənsubiyyətə nə dəxli var. Məgər Lev Tolstoy qraf olmayıb? Dahi fransız yazıçısı, Şəkixanovlar ailəsinin hörmətli qonağı Aleksandr Dümanı Şəkiyə gəlməyə nə vadar etmişdi? Şəkinin gözəl havası, füsunkar təbiəti, dadlı körəkləri, yaxud şəkililərin qonaqpərvərliyi? Əsla yox. Onu bu ulu şəhərə gətirib çıxaran şəxsi mənfəəti, ipək ticarəti ilə məşğul olması idi. Məgər yuxarıda adlarını çəkdiyimiz nəhənglərin ictimai mənsubiyyətlərinə görə, dünya mədəniyyəti qarşısındakı xidmətlərinin üstünə qələm çəkmək olarmı? Bəs biz niyə öz alim və ziyalılarımıza qarşı belə biganə, daha doğrusu, amansız olmuşuq?

Qeyd etmək lazımdır ki, Kərim Ağa Fatehin "Şəki xanlarının tarixi", Hacı Seyid Əbdülhəmidin "Şəki xanları və onların nəsilləri" əsərləri Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən "Şəki xanlığının tarixindən" adı ilə kitabça şəklində çap olunmuşdur (Bakı, 1958).

HACI SEYİD ƏBDÜLHƏMİD

Hacı Seyid Əbdülhəmid Əfəndi 1795-ci ildə Şəkidə anadan olmuş, ilk təhsilini oranın mədrəsəsində almışdır. Əbdülhəmid əfəndinin yetkinləşməsində onun müəllimi, tanınmış şəkili şair İsmayıl bəy Sədrəddinbəyovun - Nakamın böyük rolu olmuşdur. Əbdülhəmid Əfəndi uzun müddət Yaxın Şərq ölkələrini gəzmiş, vətənə qayıtdıqdan sonra qazılıq etmişdir. Bununla belə o, Azərbaycan tarixində görkəmli bir tarixçi kimi şöhrət qazanmışdır. Belə ki, Əbdülhəmid Əfəndi rəvayətlərdən, şəxsi müşahidələrdən, əldə etdiyi yazılı mənbələrdən istifadə edərək "Şəki xanları və onların nəsli" adlı tarixi əsərini yazmışdır. Azərbaycan dilində yazılan bu qiymətli əsər Azərbaycan tarixinin, o cümlədən, onun bir qolu olan Şəki tarixinin öyrənilməsində böyük əhəmiyyət kəsb edir. Şəkili Şalman Mümtaz tərəfindən üzü çıxarılan bu tarixi əsər XVII əsrin ortaları - XIX əsrin əvvəllərini əhatə edir. Bu tarixi əsərin ilk müqəddiməsində Salman Mümtaz yazmışdır: "1909-cu ildə Şəkidə şəkili Hacı Yaqub Əfəndi Əfəndizadə kitabxanasından əldə etdiyim bu tarixçə gələcəkdə yazılacaq "Azərbaycan tarixi"nin Şəki qismi üçün mühüm bir vəsiqə və dəyərli bir material ola biləcəkdir. Müsənnifi haqqında isə istər Hacı Yaqub Əfəndinin, istər Calutlu Molla Abbasın verdikləri məlumat bir-birlərinə uyğun və mütabiqdir. Onlara görə, bu tarixçənin müsənnifi Hacı Seyid Əbdülhəmid Əfəndidir ki, hicri ilə 1210 (miladi ilə 1795/96 ildə) Şəki şəhərində anadan olaraq, İmam Hacı Məhəmməd Əfəndi ilə müdərris Hacı Abdulla əfəndilərdən də zamanın elmini təhsil etmişdir. Təhsilini bitirdikdən sonra bir ara səyahətə çıxmış - Məkkə, Mədinə, Misir, Qahirə, İskəndəriyyə, Şam, Beyrut, İstanbul, Trabzon şəhərlərini gəzərək Tiflisə gəlmişdir. Nəhayət, bir müddət Qazax, Gəncə şəhərlərində oturduğu kimi, iki il də Şamaxı şəhərində sakin olmuşdur. Seyidlərin nəcabətləri təhqiq olunan komisyonda da birinci calis təyin olunmaqla bərabər, qırx ildən artıq şəriət məhkəməsində yenə birinci calislik vəzifəsini ifa ilə o, məhkəməni idarə etmişdir. Bu xidmətlərinə mükafat olaraq çar hökumətindən üç qızıl saat, bir qızıl ənfiyadan (burunotu qabı) və bir cavahirli qızıl üzük və ildə də iki yüz manat məvacib ilə təltif edilmişdir".

Bu əsərdə Şəkidə olan tarixi yerlər, şəkililərin İran əsarətinə qarşı mübarizəsi və s. haqda da maraqlı məlumatlar verilmişdir.

Qeyd etdiyimiz kimi, Hacı Seyid Əbdülhəmidin yazdığı "Şəki xanları və onların nəsilləri" əsəri şəkili Kərim Ağa Fatehin yazdığı "Şəki xanlarının müxtəsər tarixi" ilə birlikdə Azərbaycan Elmlər Akademiyası tərəfindən "Şəki xanlarının tarixindən" adı altında 1958-ci ildə üç min tirajla çap edilmişdir. Həmin kitabça hazırda kitabxanalarımızdan yox olmaq üzrədir. Yaxşı olar ki, kitab yenidən nəşr edilsin, məktəblərimizdə

dərsdənkənar oxu materiallarının sırasında olsun. Şübhəsiz ki, Azərbaycan tarixinin öyrənilməsində bu əsər müstəsna əhəmiyyətə malikdir.

HACI ŞEYX MƏHƏMMƏD HƏSƏN MOLLAZADƏ

Hacı Şeyx Məhəmməd Həsən Mollazadə 1853-cü ildə Şəkidə anadan olmuşdur. O, Gəncədə dini təhsil almış, bir müddət qazı işləmiş, sonra şeyxülislam seçilmişdir. M. Mollazadə ərəb, fars dillərini mükəmməl bildiyi üçün ərəb tarixini, islam tarixini, ümumiyyətlə, Şərq tarixini öyrənə bilmiş, zəmanəsinin ən məşhur tarixçilərindən biri kimi şöhrət qazanmışdır. Şeyxin Azərbaycan dilində yazdığı dördcildlik "Zübdət üt-təvarix" ("Tarix kitabı") əsərində ən qədim dövrlərdən başlamış XX əsrin əvvəllərinədək islam ölkələrində baş vermiş hadisələrdən bəhs olunur. Əsərin 4-cü cildinin 1-ci hissəsində Teymurun Azərbaycana hərbi yürüşlərindən, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövlətlərindən, Nadir şahın hakimiyyətindən danışılır. Bu nadir tarixi əsərdə Şamil hərəkatı, 1905-11-ci illər İran inqilabı haqqında da obyektiv məlumatlar vardır.

M. Mollazadə "Kitabi-bəyan", "Hicri və milad tarixi təqvimi" və bir sıra başqa əsərlərin də müəllifidir. Dörd cilddən ibarət olan "Tarix kitabı" 1905-13-cü illərdə Azərbaycan dilində, "Kitabi-bəyan" isə 1908-ci ildə nəşr olunmuşdur.

Hacı Şeyx Məhəmməd Həsən Şəkinin Gəncəli məhəlləsində doğulduğu üçün "Gəncəvi" təxəllüsünü qəbul etmişdir. Lakin bəzi əsərlərində "Şəkəvi" təxəllüsü də işlətmişdir.

RƏŞİD BƏY İSMAYILOV

Şəkili Rəşid bəy İsmayılov "Müxtəsər Qafqaz tarixi" kitabının müəllifidir. Bu tarixi kitab 1904-cü ildə Tiflisdə çap olunmuşdur. Rəşid bəy kitabda Zaqafqaziya tarixi, xüsusən Azərbaycanın Rusiyaya birləşdirilməsi. Qafqazda hakimiyyət sürən çar generallarının fəaliyyətini təsvir etmiş, M.V.Vidadi, Q.B.Zakir, M.F. Axundov və başqa yazıçılar haqqında qısa məlumatlar vermişdir.

TARİXÇİ ALİM, YAZIÇI

Unutmaz tarixin böyük günləri,
Dünyaya mərd gəlib, mərd gedənləri.
S.VURĞUN.



Mahmud İsmayılov.

İnsanın cəmiyyətdə mövqeyi onun varına, vəzifəsinə görə deyil, ideyası, məsləki və insanlarla rəftarı ilə ölçülür. İnsanın ideyası, məsləki o vaxt saf olur ki, onda milli qürur hissi olur. Milli qürur hissi isə insan mənəviyyatının əsas amilidir. Bu hiss də əsl ziyalıda daha tez özünü büruzə verir. Yaxşı deyiblər, xalqın ziyalısı onun düşünən beynidir. Azərbaycan xalqının saf ideyalı, milli qürurlu, məsləkli, mehriban rəftarlı ziyalı alimlərindən biri Mahmud Əliabbas oğlu İsmayılovdur. M. İsmayılov 1920-ci ildə Şəkidə anadan olmuşdur.

Tarix elmləri doktoru (1961), professor (1963), Azərbaycan EA müxbir üzvü (1983), əməkdar elm xadimi.

M.Ə.İsmayılov 1946-cı ildən Azərbaycan EA Tarix İnstitutunda işləmişdir.

İnstitutda əmək fəaliyyətinə o, laborantlıqdan başlamış, sonra aspirant, kiçik elmi işçi, baş elmi işçi olmuş, 1952-ci ildə Azərbaycanın yeni tarixi şöbəsinin rəhbəri, 14 ilə yaxın (1954-1968) institut direktorunun müavini, 1968-1983-cü illərdə şöbə

müdiri işləmişdir. 1983-cü ildən yenidən elmi hissə üzrə direktor müavini olmuşdur.

M.Ə.İsmayılov özünün elmi fəaliyyətinə kapitalizmə qədərki neft sənayesinin inkişafı tarixinin tədqiqi ilə başlamışdır. Aspiranturanı vaxtından yarım il tez qurtararaq, 1949-cu ildə "Azərbaycanın neft sənayesində iltizam sisteminin ləğvi" mövzusu üzrə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Tədqiqatının məzmun və nəticələrini o, bir sıra elmi məqalələrində işıqlandırmışdır.

Namizədlik dissertasiyasının müdafiəsindən sonra M. Ə. İsmayılov XIX-XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi tarixi ilə maraqlanmışdır. Onun tədqiqat obyekti XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatının inkişafı olmuşdur. 1960-cı ildə o, "XX əsrin əvvəllərində Azərbaycan kənd təsərrüfatı", 1964-cü ildə isə "XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan kənd təsərrüfatında kapitalizm" kitablarını nəşr etdirmişdir. Birinci iş Azərbaycan kəndində məhsuldar qüvvələrin inkişaf tarixinə, ikincisi isə istehsal münasibətləri tarixinə həsr edilmişdir. M. Ə. İsmayılovun hər iki monoqrafiyasında, həmçinin sinfi mübarizə məsələləri tədqiq edilmişdir. Bundan başqa, M. Ə. İsmayılov 1955-ci ildə "Birinci rus inqilabı dövründə Azərbaycanda kəndli hərəkatı" adlı kitabını yazmışdır.

M. Ə. İsmayılov Azərbaycanda kənd istehsalatlarının böyük hissəsini təşkil edən dövlət kəndlilərinin tarixinin ilk tədqiqatçılarından biridir. O, "XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanın dövlət kəndliləri" mövzusunda böyük məqalə çap etdirmişdir.

M. Ə. İsmayılov XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan kəndinin məhsuldar qüvvələrinin tarixi problemlərini ümumiləşdirərək 1961-ci ildə müvəffəqiyyətlə doktorluq dissertasiyasını müdafiə etmişdir.

M. Ə. İsmayılov Tarix İnstitutu tərəfindən hazırlanmış bir sıra sanballı kollektiv əsərlərin müəlliflərindən olmuşdur.

M. Ə. İsmayılov özünün elmi fəaliyyətində imperializm dövründə Azərbaycan sənayesinin tarixinin öyrənilməsinə böyük diqqət yetirir. O, 1982-ci ildə çapdan çıxmış "Şəki" (tarixi oçerk) kitabının müəllifidir.

M. Ə. İsmayılov Azərbaycan MEA Tarix İnstitutu tərəfindən hazırlanan çoxcildli "Azərbaycan tarixi"nin əsas müəlliflərindən biri, IV və V cildlərin redaktoru olmuşdur. M. Ə. İsmayılov çoxcildliyin baş redaksiya şurasının üzvü, Azərbaycan MEA Tarix İnstitutu tərəfindən hazırlanan bircildlik elmi-kütləvi "Azərbaycan tarixi" kitabının müəlliflərindən biridir.

M. Ə. İsmayılov, 1962-ci ildə "Dünya xalqları" seriyasından nəşr edilən "Qafqaz xalqları" əsərinin hazırlanmasında və "Kənd təsərrüfatı" bölməsinin yazılmasında iştirak etmişdir. O, bir sıra tarix kitablarının müəlliflər kollektivinin üzvü olmuşdur.

M. Ə. İsmayılov 200 ç.v. həcmində elmi işin, o cümlədən, 150 monoqrafiyanın, 40-dan artıq elmi-kütləvi məqalənin müəllifidir. Onun redaktəsi ilə 30-a yaxın kitab çapa hazırlanmışdır. O, bir sıra respublika, ümumittifaq və beynəlxalq elmi konfransların, simpoziumların və sessiyaların iştirakçısıdır.

ASE elmi məsləhətçisi M. Ə. İsmayılov 1966-cı ildə Romada keçirilmiş sovet və İtaliya tarixçilərinin II Beynəlxalq konfransında iştirak etmişdir. Burada o, Azərbaycanda aqrar münasibətlər mövzusunda məruzə ilə çıxış etmişdir. O, Leninqradda iqtisadçıların V Beynəlxalq konqresinin və Moskvada keçirilmiş tarixçilərin XII Beynəlxalq konqresinin iştirakçısı olmuşdur.

M. Ə. İsmayılov onlarla elmlər namizədləri və doktorları hazırlamışdır.

M. Ə. İsmayılov, eyni zamanda, yeddi tarixi romanın: "Ağ yapıncı, "Xaqani", "El üçün yan", "İki od arasında", "Sənin ulu baban", "Qara Yusif", "Uzun Həsən"in müəllifidir.

Bütün deyilənlər bir daha sübut edir ki, onun elmi və bədii yaradıcılığında yalnız bir məqsəd var: Vətəninə, xalqına, millətinə, dilinə, mədəniyyətinə, tarixinə tükənməz övlad məhəbbəti.

M. Ə. İsmayılov 2001-ci ildə dünyasını dəyişmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

TARİXÇİ - MİLLƏT VƏKİLİ

"Müdrik şəxs-vəzifəli adamlara möhtac olmaya bilər, amma vəzifəli şəxslər müdrikliyə, öyrənməyə möhtacdırlar".

Mirzə Şəfi Vazeh.

Azərbaycan tarixçi alimləri içərisində özünə məxsus görkəmli yer tutan şəxslərdən biri də 1939-cu ildə dünyaya göz açmış, Şəkinin Baş Göynük kəndinin Rəhimuşağı nəslinin nümayəndəsi Mahmudov Yaqub Mikayıl oğludur. O, 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmiş və Elmi Şuranın qərarı ilə "Orta əsrlər tarixi" ixtisası üzrə aspiranturada saxlanmışdır. 1966-cı ildə "XV əsrin 60-70-ci illərində Ağqoyunlu-Venesiya əlaqələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Gənc alim öz böyük zəhməti və araşdırmaları ilə Azərbaycanın görkəmli dövlət xadimi, tanınmış sərkərdə Uzun Həsənin, məşhur diplomat Sara Xatunun həyat və fəaliyyətini elm aləminə məlum etmiş, habelə o dövrün bir çox Azərbaycan diplomatlarının adlarını müəyyənləşdirmişdir. Y. Mahmudov 1966-1971-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (APİ) baş müəllim, dosent, Azərbaycan Sovet Ensiklopediyasında (ASE) elmi redaktor, böyük elmi redaktor, "Ümumi tarix" redaksiyasının müdiri, "Azərbaycan tarixi" redaksiyasının müdiri işləmişdir. Vətənini hədsiz məhəbbətlə sevən alim Kiyevdə ilk dəfə olaraq Azərbaycan tarixi xəritələrinin hazırlanmasına, həmin xəritələrin ayrıca atlas halında Bakıda Azərbaycan və rus dillərində çap edilməsinə nail olmuşdur. O, 1971-1975-ci illərdə Azərbaycan Sovet Ensiklopediyası Baş redaktorunun elmi işlər üzrə müavini işləmişdir. Yaqub müəllim 1981-ci ildən Bakı Dövlət Universitetində (BDU) əmək və elmi fəaliyyətini davam etdirir. Onun təşəbbüsü ilə tarix fakültəsində "tarixi-şərqşünas", "beynəlxalq münasibətlər", "sosiologiya",

"psixologiya", "etnopsixologiya", "etnososiologiya" və bu kimi ixtisasları açılmış, Azərbaycan tarixinin tədqiqi, tədrisi və təbliği üzrə dövlət və hökumət proqramları hazırlanmışdır. Daim tədqiqatda olan alim 1989-cu ildə "XV əsrin II yarısı - XVII əsrin əvvəllərində Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə əlaqələri" mövzusunda dissertasiya müdafiə etmiş və tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. İstedadlı alim 1991-ci ildə universitetin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri seçilir, Azərbaycan diplomatiya tarixini araşdıran elmi məktəb yaradır və hazırda bu məktəbə rəhbərlik edir. Y. M. Mahmudov 5 noyabr 2000-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, Azərbaycanda tarix elminin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

2004-cü ildən AMEA Tarix İnstitutunun direktorudur.

QAFFAROV TAHİR BAQİ OĞLU

Görkəmli tarixşünas alim T. B. Qaffarov 1950-ci ildə Şəkidə anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1969-1973-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsində təhsilini davam etmişdir. O, 1982-ci ildə namizədlik, 1992-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Tanınmış tarixçi alim T.Qaffarov "Azərbaycan tarixi" 1920-1991 (Bakı, 1999), "Azərbaycan tarixi: XX əsrin 80-90-cı illəri" (Bakı, 1997), "Azərbaycan kənd əhalisinin həyat tərzi. 1960-1990 (Bakı, 1991), ingilis dilində "Azerbaiyan in the second World waf" (London, 2001), "Türklərə qarşı erməni terrorizmi" (Bakı, 2000), ingilis dilində "Armenian terrorizm in forvard Asia and Caucasus" - "Ön Asiya və Qafqazda erməni terrorizmi" (Nyu-York, 2000) kimi monoqrafiyaların müəllifidir. T. Qaffarovun tarix elminin tədrisi sahəsində də böyük nailiyyətləri vardır: "Azərbaycan tarixi", XI sinif üçün dərslik, İ. Məmmədov və başqaları ilə birlikdə, Bakı, 2001; "Azərbaycan tarixi" , XI sinif

üçün dərslik, E. İsmayılov və S. Həsənovla birlikdə, Bakı 1994; kimi kitabların müəllifidir.

Azərbaycan tarixinin yorulmaz tədqiqatçısı Tahir müəllim Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun aparıcı elmi işçisi, institut Elmi Şurasının üzvü, İxtisaslaşdırılmış Müdafiə Şurasının elmi katibidir.

BƏXTİYAR VAHABZADƏNİN ARZUSUNU HƏYATA KEÇİRƏN TARİXÇİ MÜƏLLİM VƏ TARİXİN AÇILMAMIŞ SƏHİFƏLƏRİ

"Elmi insanlar üçün nur gördüm - buludsuz parlayan günəş kimi. Günəş hər gün batır, elmin nuru hər gün yanır".

Xəlisəqarızadə Əbdülqəni əfəndi Nuxəvi.

Tarixin neçə-neçə açılmamış, arxivlərdə toz basmış bəzi səbəblərə görə öyrənilməmiş, hətta təhrif olunmuş səhifələri vardır. Yaxın keçmişimizə aid tarixi hadisələrdən biri də 1930-cı il Şəki üsyanıdır. O dövrdə Şəki üsyanı Azərbaycan xalqının apardığı istiqlal savaşının şanlı səhifələrindən biri idi.

Azərbaycan xalqının görkəmli şairi, elin ağsaqqalı, uşaqkən bu hadisələrin şahidi Bəxtiyar Vahabzadənin "Şəki üsyanı" (Bakı, 2004) kitabına yazdığı ön sözdə deyilir. "Azərbaycanın tarixində qızıl hərflərlə yazılmağa layiq olan 30-cu il Şəki üsyanı haqqında bədii əsər yazmaq üçün öncə tarixi faktlar və sənədlərin üzə çıxarılması lazım idi. Buna görə də mən Bakıdakı bir neçə tarixçiyə, o cümlədən də Şəkinin bir neçə qələm əhlinə bu məsələni öyrənməyi təklif etdimsə də, yaxın duran olmadı. Nəhayət, Şəki ziyalılarından Həbibulla Manaflı bu işi boynuna götürdü və arxiv sənədləri əsasında bu kitabı üzə çıxardı... Mən bir vətəndaş və qələm sahibi kimi, Şəki üsyanının yaranma səbəblərini, gedişatını, hazırlıq və başlanma məqamlarını, öndə gendən qəhrəmanlarını böyük zəhmət və səbirlə üzə çıxaran Həbibulla Manaflıya dərin minnətdarlığımı bildirir, bir arzumu da çatdırmaq istəyirəm. Əlimizdəki kitab üsyanın başlanması və dağılması tarixini əhatə edir. Amma üsyanın yatırılmasından sonra da davam edib partizan hərəkatına çevrilməsi Şəki əhlinə yaxşı məlumdur. Ona görə arzu edərdim ki, üsyanın birinci mərhələsi ilə bərabər, sonuncu qaçağın qırxıncı illərdə öldürüldüyünü nəzərə alaraq, hərəkatın ikinci mərhələsi olan partizan (qaçaqçılıq) hərəkatı haqqında yazılmasını da unutmayaq..."

Bəxtiyar Vahabzadə kimi bir el ağsaqqalının təşəkkürünə layiq olan "Şəki üsyanı" kitabının müəllifi kimdir? O, Həbibulla Şirin oğlu Manaflıdır.

Həbibulla Manaflı 1951-ci ildə Şəki şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Uzun müddət Şəki şəhərində 20 saylı orta məktəbdə pedaqoji fəaliyyət göstərmiş, baş müəllim adına layiq görülmüşdür. N. Manaflı 1989-1992-ci illərdə AXC-nin Şəki şöbəsində ideoloji işlərə rəhbərlik etmişdir. 1992-ci ilin iyulundan 1993-cü ilin avqustuna kimi Şəki şəhər İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini vəzifəsində çalışmışdır. 1992-ci ildən Müsavat Partiyasının üzvüdür. 1992-1994-cü illərdə Müsavat Partiyasının Şəki Təşkilatında təbliğat katibi, 1994-1996-cı illərdə isə sədr kimi fəaliyyət göstərmişdir. 1999-cu ilin mart ayında yenidən Müsavat Partiyasının Şəki təşkilatına sədr seçilmişdir. 1999-cu ildə Şəki şəhər bələdiyyəsinə seçilmişdir.

H. Manaflı 1993-cü ildən M. Ə. Rəsulzadə adına Bakı Dövlət Universitetinin Şəki filialında pedaqoji fəaliyyətini davam etdirmişdir. Hazırda Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialının Humanitar fənlər kafedrasında baş müəllim kimi fəaliyyət göstərir.

Tariximizin qaranlıq səhifəsi hesab edilən Şəki üsyanının bəzi məqamlarını yada salmaq istərdim. 1928-1929-cu illərdə kollektivləşdirmə siyasətindəki səhvlər kəndlərdə böyük narazılıq yaratmışdır. Həmin illərdə Şəki Partiya Komitəsi kəndliləri kolxoza cəlb etmək üçün yerlərə məsul işçilər göndərirdi. O

cümlədən, Şəki Siyasi İdarəsinin rəisi Qasımov kolxoz hərəkatını həyata keçirmək üçün Baş Göynük sovetliyinə təhkim edilmişdi. O, kəndlilərin kollektivləşmə üçün çağırılan iclasında deyir ki, kolxoza daxil olan kəndlilərin torpaqlarının, əkin alətləri və heyvanlarının, taxılının və başqa əmlakının birləşdirilməsi onların güzəranının yaxşılaşmasına, hamının bir qazandan bərabər yeməsinə, heç kəsə fərq qoyulmayacağına, ailələrin birliyinə, bərabərliyinə səbəb olacaqdır. Bu zaman kəndlilər ona inanmadıqlarını bildirdikdə, Qasımov "inanmayanları həbs edəcəyik", - deyir. Kəndlilər isə "bax buna inanırıq", - deyirlər. Hamı iclasdan narazı gedir və kolxoz təşkil olunmur.

Əbdürrəhman Abdullayevin ("Kommunist" qəzeti, 15.08. 1989-cu il) məlumatına görə 1930-cı il Şəki üsyanına qədər həmin bölgədə cəmi üç qaçaq var idi: zəyzitli Aydın oğlu Hidayət, bideyzli Cəfər və muxaslı Tapdıq. Çox keçmədi Qasımovun baş göynüklüləri "həbs edəcəyik" hədəsindən qorxaraq qaçaq düşən Yunus və Kərim də onlara qoşuldu və 5 nəfər oldular.

Ölkənin 8 rayonunu əhatə edən hərəkatın mərkəzi Baş Göynük kəndi idi. Aprelin 12-dən 13-nə keçən gecə üsyan başlayır. Şəki əyalətinin rayon mərkəzi üsyançıların əlinə keçir. Sağ qalan kommunistlər poçt idarəsində gizlənir və oradan Bakıya xəbər göndərirlər. Siyasi İdarənin rəisi Qasımov Aşağı Göynükdə üsyançılar tərəfindən öldürülür. Şəki Partiya Komitəsinin 1-ci katibi Riza Babayev qaçıb teleqraf xəttini mühafizə edən əsgərlərin yerləşdiyi rabitə şəbəkəsində gizlənir. Üsyançılar həbsxananı ələ keçirib məhbusları buraxırlar. Ələ keçən fəal kommunistlərdən 25-i öldürülür. 2 gündən sonra Azərbaycan Fövqəladə Komissiyasının sədri Mir Cəfər Bağırovun rəhbərliyi ilə ruslardan ibarət zirehli avtomobillərlə silahlanmış ordu şəhəri mühasirəyə alır. Son ölüm-dirim döyüşündə üsyançıların bir qismi həlak olur, bir qismi isə dağlara çəkilir. Əbdürrəhman Abdullayevin yazdıqlarından: "... Şəhərin Qışlaq hissəsində, indiki Sülh meydanında pulemyot atəşi altında onun (M. C. Bağırovun - Ə.N.) maşını hərəkətdən qaldı. Bağırov maşından çıxıb küçənin qərb tərəfindəki qaratikan kolu ilə hasarlanmış həyətə qaçdı. Qoca, övladsız Sitarə qarı onu əvvəlcə həyətdəki ot tayasının içində, sonra isə yorğan-döşək yükünün dalında gizlətdi. Bağırov üsyançılar tamamilə şəhərdən qaçdıqdan sonra üzə çıxdı. O, Qışlaqdakı 2 №-li ipək fabrikinin klubunda iclas çağırdı. Bu iclasda mən də vardım. O, camaatı təqsirləndirərək "Qeyrətiniz olsaydı, banditləri şəhərə girməyə qoymazdınız", - dedi. Bu zaman qazançı Mustafa replika verdi: "Sənin əlində top, tüfəng, əsgər, zirehli maşın olduğu halda qaçıb qoca arvadın tumanı altında gizləndin, biz silahsız adamlar nə edə bilərdik". Bağırov hirslənərək Mustafa kişinin papağını başından götürüb yerə çırpdı:

- Belə papağın içində olan başda bundan artıq ağıl olmaz və belə pədərəvayi danışmaz.

Bağırov şəhərin mərkəzində əmin-amanlıq olduğunu, həbsxanadakı qərargahın tamam boşaldığını yəqin etdikdən sonra mərkəzə, həbsxana binasına getdi. Həmin gün Bakıya qayıdıb bir bölük əsgər və Fövqəladə Komissiyanın üzvlərini göndərdi. Fövqəladə Komissiyanın Şəki şöbəsinin rəisi vəzifəsinə Bədəlov təyin edildi. Cəllad Novruzov və Qavril Şabanov onun yaxın köməkçiləri oldular.

Bağırov bu hadisəyə görə ömrünün sonuna qədər Şəkini banditizm yuvası, şəkililəri isə bandit adlandırır, gözümçıxdıya salırdı. Halbuki həmin hadisəni Beriya ilə onun özü düzüb-qoşmuşdu.

İndiki dövr tələb edir ki, uzun illər boyu "Şəki banditizmi" adlandırılan 30-cu ilin Şəki faciəsi dərindən təhlil olunsun. Günahsız cəzalandırılan adamlara bəraət verilsin. ("Kommunist" qəzeti, 15.08.1989-cu il).

Şəki üsyanında iştirak edən bəzi şəxslər haqqında:

1. Şəki üsyanının başında Baş Şabalıd kəndinin sakini, savadlı, iti zəkalı və poetik ilhama malik olan Molla Mustafa Şeyxzadə dururdu. O, hörməti və ehtiramı ilə el-obanın hörmətini qazanmış övliyya Şeyx Əhmədin nəvəsi idi. Şeyxin qəbri

Baş Şabalıd kəndindədir, ziyarətgah sayılır - "Şeyx piri". Bu pir təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada tanınır. Molla Mustafa üsyan yatırıldıqdan sonra bir müddət gizli şəkildə Tiflis yaxınlığındakı Soğanlıq kəndində yaşamış, təsadüf nəticəsində ələ keçmiş, həbs olunmuş və qapalı məhkəmədə 10 il müddətinə azaldıqdan məhrum edilib, sürgünə göndərilmişdir. "Ölüm haqqında vətəndaşlıq vəziyyəti aktları" kitabının 1966-cı il avqustun 30-na aid 27 saylı qeydində yazılır: "Şeyxzadə Molla Mustafa Məmməd oğlu 8.XII.1937-ci ildə güllələnib: H. Manaflının yazdığına görə, Molla Mustafa SSRİ miqyaslı üsyan hazırlayan "Xalq Azadəçilər Firqəsi"nin Baş Göynük kəndindəki özəyinə rəhbərlik etmişdir.

Cəlal Qasımov "Yaddaşın bərpası" (Bakı, "Mütərcim" nəşriyyatı, 1999, səh. 109-111) kitabında məlumat verir ki, Baş Göynük kəndinin müəllimi Sadəddin Əfəndiyev həmkəndliləri Paşa Mahmudov və Əli Məmməd oğlu ilə etdiyi söhbət zamanı bildirmişdir ki, ona Sovet hökumətinin devriləcəyi və Milli hökumətin qurulacağı barədə məlumat vermişlər. Molla Mustafanın "Xalq Azadəçilər Firqəsi"nin Baş Göynük özəyinə rəhbərlik etməsi və təşkilatda 450 nəfər silahlı adamın birləşməsi haqqında fakt Sadəddin Əfəndiyevə verilən həmin məlumatdan bəlli olmuşdur.

2. Şəki üsyanının fəal iştirakçılarından biri də vaxtilə Hacı Zeynalabdin Tağıyevin yanında qulluq etmiş Əsədulla Sadıxov idi. Həbibulla Manaflının məlumatına görə, üsyan ərəfəsində Əsədulla Sadıxov Göynük kooperativində mühasib işləmişdir. O, rus dilində orta təhsil almış, sonra Türk kommersiya məktəbini bitirmişdir. Türk, fars və rus dillərini mükəmməl bilirmiş. Ə. Sadıxovun vəzifəsi təşkilatın tapşırığı əsasında hazırlaşan qüvvələri Sovet hökumətinin qəbul etdiyi qərarlar və beynəlxalq vəziyyət haqqında məlumatlarla təmin etmək olmuşdur.

3. Hüseyn İnçəli Əsədulla oğlu müqavimət hərəkatının fəal üzvlərindən olub. Babası Beydulla İncə kəndinin qazısı olub. Hüseyn Molla Mustafanın bacısı ilə evlənib. Hüseynin Göyçay

rayon Hərbi komissarı vəzifəsində işləyən qardaşı Əlibala onu yolundan döndərmək üçün çox səy göstərmiş, lakin məqsədinə nail ola bilməmişdir. Hüseyn doğma vətənini tərk etmək məcburiyyətində qalır, Türkiyəyə gedir və ömrünün axırına qədər Ağrı şəhərində yaşayır.

4. Üsyan hərəkatının aparıcı simalarından biri də Nuxa rayon Hərbi Komissarlığının səfərbərlik şöbəsinin rəisi Bəhram bəy Nəbibəyov olmuşdur. Onun adı Cənubi Qafqaz hakimiyyət orqanlarını lərzəyə salmışdı. H. Manaflı kitabında çox maraqlı bir sənəd təqdim etmişdir: № 452, Sov. sekretno.

Распоряжение Зак. ГПУ, Аз. ГПУ о передислокации воинских растей, принимавших участие в подавлении повстанческого движения в Гянджинском, Закатало-Нухинском и Ширванском округах, "... Частям в процесса следования предложено оказывать возможное содействие ГПУ поразаружению населения в пределах времени указакколм сосредоточения. Зак. ГПУ подвертдает предущие наши директивы, предлагает закрепить имеющиася в вашем распоряжении части, отраядами коммунаров и милиции. На месте договориться с полевым командованием о закреплении пунктов и целесообразном дальнейшей ликвидации банды Набибекова".

Об отданных распоряжениях сообщите, Реденс, Берия (Baş Arxivlər idarəsi, f.1, s. 231, iş 25, v. 155)

Bəhram bəy Nəbibəyov 1884-cü il dekabrın 6-da Şəkidə bəy ailəsində anadan olmuş, Kutaisi realnı məktəbində ilk təhsilini almış, 1904-cü ildə Peterburq Konstantin artilleriya məktəbini birinci dərəcəli diplomla başa vurmuş və Qafqazda 20-ci artilleriya briqadasında podporuçik kimi hərbi xidmətə başlamışdır. O, 1909-cu il sentyabrın 7-də poruçik, 1912-ci il avqustun 31-də ştabs-kapitan rütbəsini almış, 1913-cü ildə 3-cü batareyanın komandiri təyin edilmiş, sonra əlaçı zabit kimi 1-ci ələhiddə Qafqaz Ordusunun qərargahında artilleriya rəisinin müavini təyin olunmuş və 3-cü dərəcəli "Müqəddəs Stanislav" or-

deni ilə ilə təltif olunmuşdur. H. Manaflının araşdırmalarından məlum olur ki, Bəhram bəy qardaşları Vahid bəy və podpolkovnik Hüseyn bəylə birlikdə 1919-1920-ci illərdə daşnaklara qarşı igidliklə vuruşmuşlar.

Azərbaycanda 1920-1930-cu illərdə dövlət tərəfindən edilən haqsızlıqlar, Bəhram bəyi bütün imtiyazlardan, rütbədən, vəzifədən, rahat həyat tərzindən imtina edib, üsyan hərəkatının rəhbərlərindən birinə çevrilmək məcburiyyətinə çatdırmışdır. Bəhram bəy 1930-cu ilin iyul ayında Şəkinin Bideyiz kəndi yaxınlığındakı Buxdur dağında çeka cəlladları ilə döyüşdə qəhrəmancasına həlak olmuşdur. Həbibulla Manaflının "Şəki üsyanı" kitabına istinadən Şəkidə tanınmış iki nəslin nümayəndələrinin düçar olduqları haqsızlıqları olduğu kimi çatdırmaq istərdim.

1. Azərbaycanda bolşevik rejiminin bərqərar olduğu dövr istiqlalçı zümrənin taleyində ağır faciələrlə də əks olundu. XX əsrin inkivizitorları missiyasında çıxış edən "troyka", NKVD və QPU cəlladları istiqlal məfkurəsinin daşıyıcılarını kütləvi şəkildə məhv etməklə xalqı bu məfkurədən imtina etmək həddinə qədər kiçiltmək niyyətinə düşmüşdülər. Onların azğınlığından törənən fəsadlar nə qədər ocağı kor qoydu.

Kərimuşaqlarının taleyi həmin qan qoxulu zamanın məğzini anlamaq baxımından olduqca səciyyəvidir. Onların nümayəndəsi Mustafa Qasım oğlu 1920-ci ildə bolşeviklər tərəfindən güllələndi. Mustafanın yeganə günahı Müsavat Partiyasına mənsubluğu və istiqlaliyyət dövründə vəzifə sahibi kimi milli dövlət quruculuğunda fəal iştirak etməsi olmuşdur.

Kərimuşaqlarının digər nümayəndəsi Şabəddin (Bucu) Salam oğlu elə həmin ildə Qanlı Qobu deyilən yerdə cəza dəstəsi ilə döyüşdə həlak oldu.

Bu nəslə mənsub olan Hacı Salam oğlu, Mirzəməmməd Qasım oğlu və Əmirəhməd Qasım oğlu isə 1930-cu il üsyanında iştirakda ittiham olunaraq məhv edildilər.

2. Eyni taleyi Hacı Göyüşuşaqları da yaşamalı oldular. Bu nəslə mənsub olan İsfəndiyar və Bəxtiyar Türkiyədə hərbi kolleci bitirmişdilər. İsfəndiyar Müsavat Partiyasının üzvü olub. Yeri gəlmişkən bildirək ki, xalaoğlanları olan İsfəndiyarla Bəxtiyarın analarının əmisi oğlu Yusif Şəkidə Müsavatın yerli özəyinin yaradılmasında fəal rol oynamışdır. İsfəndiyar Şəkidən Zəngəzura göndərilən süvari hissənin tərkibində Andronikin quldur dəstələrinə qarşı igidliklə döyüşmüş, 30 kəndin azad olunmasında iştirak etmişdir. İsfəndiyar pantürkist ittihamına tuş gələrək 1923-cü ildə güllələndi. Hacı Göyüşuşaqları ilə qohum olan Əbdülrəhman Məhəmməd oğlu da Şəki üsyanının iştirakçısı olub. Onu 1930-cu il may ayının 28-də həbs edirlər. Əbdülrəhmanı ələ keçirmək üçün gələn cəza dəstəsinə müqavimət göstərilməsi bütün ailənin məhvi ilə nəticələnə biləridi. Bu dəhşətli faciəyə yol verməmək üçün Əbdülrəhmanın anası Zəbirə ona məxsus olan silahı könüllü təhvil verir, Əbdülrəhman isə müqavimətsiz təslim olur. Bu azadlıq mücahidi 1930-cu il iyunun 9-da güllələndi. Əbdülrəhmanın qayınları Əbdülrəşid və Əyyub da iman və əqidə uğrunda döyüşlərin ön cərgəsində olublar. Üsyan hərəkatı amansızcasına yatırıldıqdan sonra onlar sağ qalaraq digər üsyançılarla birlikdə dağlara çəkilib məşəqqətli qaçaq həyatına sinə gərməli oldular. Əbdülrəsid 1934-cü ildə həlak oldu. Əyyub isə məşhur qaçaqlar gəncəli Dəli Alı və samuxlu Məmmədqasımla çiyin-çiyinə dayanaraq bolşevik zülmünə qarşı mübarizəni bir müddət də davam etdirdi. O, 1936-cı ildə dünyasını dəyişdi.

DÜNYA BİR PƏNCƏRƏDİR İNSAN İNAMLA PAK VƏ XOŞBƏXT OLUR

Bir-birinizə paxıllıq etməyin. Bir-birinizə kin bəsləməyin. Bir-birinizin bazarını pozmayın. Ey Allahın qulları, qardaş olun.
Məhəmməd peyğəmbərin kəlamlarından.

1920-ci ildən sonra xalqın zorla beyninə yeridilən ateizmin millətimizə verdiyi nəticələrin artıq şahidiyik. Dedilər, din tiryəkdir, elmin, inkişafın düşmənidir. İnandırdılar! İnanmayanlar səslərini çıxarmadılar. Yeri gələndə özlərini qanmaz yerinə qoydular. Allah Mirzə Cəlilə rəhmət eləsin. Hələ vaxtilə demişdi:

Çünki nəçiyik biz?
Quzu-keçiyik biz!

Dillərini, səslərini çıxaranlar öldürüldülər. Çoxlarının yeri-yurdu indi də bəlli deyil. Lakin Həzrəti-peyğəmbərimiz buyurub: "Elmi beşikdən qəbrədək öyrənin", "Elmin fəziləti ibadətin fəzilətindən əzəldir", "Alim öldü, aləm öldü", "Bir saat elm öyrənmək altmış illik ibadətdən xeyirlidir", "Ən xeyirli sədəqə odur ki, bir müsəlman elm öyrənə və sonra onu öz müsəlman qardaşlarına öyrədə", "Mənəvi paklıq və Təharət imanın bir hissəsidir" və s.

Əsrlər boyu tövsiyə etmişlər ki, qocalara hörmət etməli, ağsaqqal-ağbirçək öyüd-nəsihətinə qulaq asmalı... Məgər müqəddəs Quranımız bunun əksinə idi? Yenə Məhəmməd peyğəmbərin müqəddəs kəlamlarına müraciət edək: "Qocalara yaşlarına görə hörmət edən gənclərə Allah ömürlərini artırmaqla əcr verər". "Qocaya hörmət Allaha hörmət deməkdir". Qurani-Kərimin ayələrində (Nisa surəsi, 3-cü ayə, Ənam surəsi, 34-cü ayə, Əl-isra surəsi, 152-ci ayə) və Həzrəti-Məhəmməd Əleyhissəlamın hədislərində göstərilir ki, insanlara, ələlxüsus yetimlərə, qocalara, xəstələrə və ehtiyacı olanlara şəfqət göstərdikdə, onların mallarına toxunmadıqda bunun savabı qat-qat artıq olur. Bu

şəfqəti yerinə yetirənlər Allah-təalanın və Məhəmməd Rəsulillahın yaxın adamları sayılırlar.

Həzrəti-peyğəmbərimiz buyururdu ki, insanlar mərhəmətli olmaqla bərabər, saf olmağı da yaddan çıxarmamalıdırlar". "Təkəbbür insanı alçaldır və kiçildir".

Müqəddəs Quranımızda nə qədər nəsihətamiz tövsiyələr, sözlər... öz əksini tapmışdır. Bunları yazmaqla, sadalamaqla, araşdırmaqla qurtarmaq mümkün deyil. Bunları deməkdə məqsədim odur ki, müasir dövrdə din xadimlərimiz gələcək nəslin düzgün tərbiyə olunmasında yaxından iştirak etməlidirlər. Onlara paklıq, mərhəmət, vətən məhəbbəti, qocalara hörmət, elmə həvəs və s. insani sifətlər aşılamalı, daha doğrusu, cəmiyyət üçün lazımlı insan olmağı anlatmalıdırlar. Bir sözlə, indiki dövrdə paklığa çağırışa qoşulub bizi mənəvi təmizliyə aparan yolumuzda yenidən mətin addımlar atmalıyıq".

Milləti paklığa, elmə, vətənpərvərliyə çağırışları ilə seçilən, el-obada böyük hörmət və ehtiram sahibi olan şəxslərdən biri Mövlazadə Məhəmmədhəsən İsmayıl oğlu (şəkiyi) idi. M. Mövlazadə 1853-cü ildə anadan olmuş, Şəki mollaxanasında, sonra Gəncə mədrəsəsində, nəhayət, İraqda ali dini təhsil almışdır. O, 1893-cü ildə Tiflisdə Müsəlman Ruhani Məktəbində şəriətdən dərs demiş, sonra Cəbrayıl və Gəncə qəzalarının qazısı olmuşdur. Böyük zəka sahibi olan M. Mövlazadə Quranın ilk tərcüməçilərindən biri olmuş və Qafqaz Müsəlmanları Ruhani İdarəsi İdarə Heyətinin üzvü seçilmişdir. Quranın, şəriətin dərin bilicisi olan M. Mövlazadə Tiflis və Kutaisi şəhərlərinin qazısı olmuş və bu bölgələrdə din xadimlərindən imtahan götürən komissiyaya rəhbərlik etmiş, xeyriyyə işləri ilə məşğul olmuşdur. Onun təhsilə olan münasibəti və milləti savadlanmağa, inkişafa çağırışları "Elmin imanları", "İndi isə diqqət və bacarıq" məqalələrində öz əksini tapmışdır. Fransız şərqşünası Lüsyon Buvanin "Jurnal azyatik"də bu məqalələr barədə geniş təhlil nəşr etdirmişdir. Görkəmli din xadimi M. Mövlazadə 1908-ci ilin əvvəllərində şeyxülislamı əvəz etmiş, həmin ilin ortala-

rında şeyxülislam seçilmiş, Qafqaz canişinliyinin təqdimatı ilə 1909-cu ildə həmin vəzifədən azad edilmişdir. O, ərəb, fars dillərin dərindən bilmiş və tərcüməçiliklə də məşğul olmuşdur. İslamın dərin bilicisi olan şeyxin "Kitabül-əl bəyan, fi təfsirül əl Quran" adlı kitabı 1908-ci ildə Tiflisdə, 1990-cı ildən sonra 2 dəfə müstəqil Azərbaycanımızda çap olunmuşdur. Şeyx tarixlə də məşğul olmuş, "Zübdət üt-təvaris" əsərində ən qədim dövrlərdən başlamış, XX əsrin əvvəllərinədək İslam ölkələrində baş vermiş hadisələrdən, Əmir Teymurun Azərbaycana hərbi yürüşlərindən, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövlətlərindən, Nadir şahın fəaliyyətindən geniş məlumat vermiş, ali ruhani xadimi kimi şərh etmişdir. Həmin kitabda 1905-1911-ci illər İran inqilabı haqqında da obyektiv məlumatlar var. Millətimizin dahi övladı, unudulmaz şəxs şeyxülislam, tarixçi alim Məmmədhəsən Mövlazadə Şəkiyi 1932-ci ildə Tiflisdə dünyasını dəyişmiş və orada müsəlman qəbiristanlığında dəfn edilmişdir.

HACI İSMAYIL

"Xasiyyəti yaxşı olan adam Allahın ən yaxşı bəndəsidir".
Məhəmməd Peyğəmbər

Hacı İsmayıl Hacı Qədir oğlu.

Adlı-sanlı şəkililər arasında bir mötəbər şəxs də olub: Hacı İsmayıl Hacı Qədir oğlu Əhmədov. O, 1907-ci il noyabrın 27-də Şəkidə dünyaya göz açıb. Babası Hacı Əhməd, atası Hacı Qədir dəmirçi olub. Hacı Qədirin ailəsində 10 uşaq tərbiyə alıb. İsmayıl ailənin beşinci uşağı, üçüncü oğlu idi. Yaşlıların deməsinə görə, övladlar içərisində istedadlısı, şair nəfəslisi, dərin hafizəlisi İsmayıl olmuşdur. İsmayıl kiçik yaşlarından

dinə böyük maraq göstərmiş, atası 30 yaşında həccə gedəndə o da belə bir şərəfə nail olmağı arzu etmişdir.

Hacı İsmayıl 1915-18-ci illərdə Şəki ibtidai məktəbində, sonra şəhər məktəbində oxuyub, 1923-30-cu illərdə mədrəsə təhsili alıb. O, "Yanıq məscid"də Molla Əhməddən dərs almış, şəkili Müfti Molla Nuhla birlikdə onun hücrəsində 3 il oxumuşdur. Bununla yanaşı, atasının dəmirçixanasında dəmirçilik də etmişdir. Sonralar bərbər peşəsinə yiyələnmiş və 1936-cı ildə ailə həyatı quranda artıq bərbərliyi özünə əsas peşə seçmişdi. 1941-46-cı illərdə orduda xidmət etmiş, bir çox orden və medallarla təltif edilmişdir. Ordudan tərxis olunduqdan sonra 1967-ci ilə qədər Şəki məişət xidməti kombinatında işləmişdir. Sonra ailəsi ilə Bakıya köçmüşdür. 1967-ci ildə Bakıdakı Əjdərbəy məscidinə imam təyin edilmiş və bu tarixdən onun əsl ruhanilik fəaliyyəti başlamışdır. 1969-cu ilin may ayından Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi sədrinin birinci müavini, müfti seçilir və ömrünün sonuna qədər bu müqəddəs vəzifədə çalışmış, şəriət qanunlarının düzgün tətbiqinə nəzarət etmişdir. Böyükdən kiçiyə kimi idarənin bütün ruhanilərі Hacının xətrini həmişə əziz tutmuşlar. Xüsusən şeyxülislam Hacı Allahşükür Paşazadə ona çox diqqətlə, qayğıkeşliklə yanaşırdı, bir ağsaqqal kimi ehtiram göstərərək məclislərdə ilk sözü ona verirdi,

Son tikəsini də başqaları ilə bölməyə hazır idi Hacı İsmayıl. Yaradanın əbədi sözü olan Quranı heç vaxt əlindən yerə qoymamışdı. Çoxları onu pir kimi tanıyırdılar.

Hacı İsmayıl birinci dəfə 1970-ci ildə, ikinci dəfə isə 1973-cü ildə Məkkəyə getmiş, müsəlmanların qibləsini-müqəddəsdən müqəddəs Kəbəni ziyarət etmişdir. Müfti olduğu 17 il ərzində Hacı İsmayıl bir çox xarici ölkələrdə olmuş, keçmiş sovet müsəlmanları nümayəndə heyətinə başçılıq etmiş, ali müsəlman məclislərində və sülh konfranslarında fəal iştirak etmiş, öz fəaliyyəti və çıxışları ilə xalqlar arasında dostluq, qardaşlıq, qarşılıqlı anlaşma siyasəti yeritmişdir. O bu səfərlərində başqa dini cəmiyyətlərlə keçmiş sovet müsəlman cəmiyyətləri arasında

dostluq əlaqələrinin yaranmasında böyük rol oynamışdır. Sülhün qorunması naminə vətənpərvərlik fəaliyyəti və anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq Fəxri Fərmanla təltif edilmişdir.

Böyük nüfuz sahibi olan Hacı İsmayıl bu nüfuzu xeyirxahlığı, pak əməlləri və insani münasibəti ilə qazanmışdı. Onun ağlı ilə qəlbi həmişə eyni şeyi demişdi. Bir olan Allahın kəlamlarına, Peyğəmbər əleyhissəlamın buyruqlarına dönmədən əməl etməsi el gözündə ucaltmışdı onu. Hacı İsmayıl yetimlərə dərin mərhəmət duyğusu ilə yanaşırdı. Övladlarının dediyinə görə, Məhəmməd peyğəmbərin bu sözlərini tez-tez təkrar edirmiş: "Müsəlman üçün ən xeyirli ev, içində yetimə yaxşılıq edilən evdi. Mərhəmət edənlərə Allah da mərhəmət edir. Müsəlman müsəlmanın qardaşıdır".

Ömrü boyu İslam dininin bütün şərtlərinə dəqiq və inamla riayət edən böyük din xadimi Hacı İsmayılın yazımı həmişə şair təbli olmuşdur. O, bir neçə şeir və qəsidə yazmış, lakin təəssüflər olsun ki, onları nəşr etdirməmişdir. Əminik ki, bu sahənin mütəxəssisləri, tədqiqatçılarımız Hacı İsmayılın əlyazmalarını toplayıb nəşr olunmasına çalışacaqlar.

Qadir Allaha dərin etiqad bəsləyən bu mömin insan həm də yaxşı ailə başçısı idi: dörd oğul və dörd qız böyüdüb tərbiyə etmiş, onlara təhsil vermiş, boya-başa çatdırmış və sağlığında hamısının ailə qurmasına xeyir-dua vermişdir. Axır nəfəsində övladlarına iki vəsiyyət etmişdi: "Ananızın qədrini bilin, o sizin üçün çox əziyyətlər çəkib, məndən sonra onun xatirinə dəyən əməllərdən uzaq olun", deməklə sanki Peyğəmbərimiz Məhəmməd səllahu əleyhi və alihi və səlləmin ana haqqındakı hədisini - "Cənnət anaların ayaqları altındadır" - bir daha övladlarının yaddaşına həkk etmişdi. İkinci vəsiyyətində övladlarının bir-birinə qarşı mehriban olmalarını söyləmişdi.

Oğlanları - Əhmədkamal ADU-nu bitirmişdir, təqaüddə olan mayordur, Əhməd-Cabir elmlər namizədi, dosentdir, Azərbaycan Texnologiya İnstitutunda kafedra müdiridir; Əhmədcamal

ali təhsilli əmtəəşünasdır; Niyazi Azərbaycan İncəsənət İnstitutunu bitirmiş, dram kino aktyorudur, Gənc Tamaşaçılar Teatrında işləyir. Qızları - Sədaqət və Kifayət orta təhsillidir, evdar qadındırlar; Nəzakət orta tibbi təhsili olan şəfqət bacısıdır; sonbeşik Nəhayət Azərbaycan Pedaqoji İnstitutunu bitirmiş, 132 nömrəli orta məktəbdə müəllim işləyir. Hacı İsmayılın 19 nəvəsi və 12 nəticəsi var. Deyirlər, ləyaqətli övladları olan rahat ölür. Hacı da dünyamızdan ayrılanda övlad sarıdan nigaran getməmişdi.

Hacı İsmayıl 18 fevral 1986-cı ildə Bakıda haqq dünyasına qovuşub.

Allah ona rəhmət eləsin, qəbri nurla dolsun.

PAKLIĞA ÇAĞIRIŞ

Şərq dilləri kursunun rəhbəri və müəllimi Məhəmmədəmin Səlimovla müsahibə.

Şəkidə XX əsrin son illərində müsəlmanları paklığa çağıran möminlərdən biri Məhəmmədəmin Səlimovdur. Həddindən artıq təvazökar, gözütox, zəhmətkeş, mülayim, savadlı... bu insana həqiqi ziyalı, mömin müsəlman, müəllim demək olar. Məhəmmədəmin müəllimin bütün insani sifətləri, onun zəhməti jurnalist Arif Qafarovun "Şəki fəhləsi" (27 oktyabr 1990-cı il) qəzetində dərc etdirdiyi müsahibəsində öz əksini tapmışdır. Həmin qeydlərin olduğu kimi verilməsi gələcək nəsillər üçün çox faydalı olardı. (Müəllifə oxucular və özüm adından dərin təşəkkürümü bildirirəm).

- Şərq dilləri kursu iki ilə yaxındır ki, fəaliyyət göstərir. Qabaqlar daimi yeriniz yox idi. İndi isə "Top-Qarağac" məscidinin 500 nəfərlik ibadət zalı, hər birində 80-100 müdavim yeri olan otaqlar sizin ixtiyarınıza verilmişdir. Hər yan o qədər gözəl və təmizdir ki, adam az qala ayaq basmağa qıymır. Burada məktəblilərin və yaşlıların Şərq dillərini öyrənməsi üçün gözəl şərait vardır.

- Məsəldi, cəfa çəkməsən, səfasını da görməzsən. Gördüyünüz qədim bina baxımsızlıq üzündən elə yararsız hala düşmüşdü ki, yıyə duran yox idi. Aşkarlığın, demokratiyanın ab-havası, el gücü qolumuza güvvət verdi. Qeyrətli oğullarımızla birgə öz imkanlarımız hesabına bu binanı abad elədik, çırağını yandırdıq.

- Xəbərimiz var ki, Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədri şeyxülislam Hacı Allahşükür Paşazadə burada olarkən sizə, kursun müdavimlərinə xeyir-dua vermiş, xeyirxah fəaliyyətinizi yüksək qiymətləndirmişdir. Necə oldu ki, Şərq dilləri kursu az müddətdə belə şöhrət tapdı? Kursa qəbul qaydaları necədir, təlim hansı istiqamətlərdə aparılır?

- 14 yaşından 70 yaşına qədər Şərq dillərinə maraq göstərən hər kəsi kursa qəbul edirik. İkiillik təlim üç istiqamətdə aparılır. Müdavimlər əlifba təliminə yiyələnir, qiraət, yazı və xəttatlıq (koliqrafiya) üzrə dərslər keçirlər. Məqsəd təkcə bu deyildir. Biz həm də hüzurumuza gələnlərə İslamın əsaslarını öyrədirik. Axı, İslam təkcə din deyildir. Həyat tərzi, təfəkkür, adət və ənənələr, böyük və zəngin mədəni irsdir.

- Maraqlıdır ki, həm məktəblilərlə, həm də yaşlılarla heç bir təmənna ummadan, pulsuz məşğul olursunuz.

- Bəli, təhsil pulsuzdur. Məktəblilərlə, yeniyetmələrlə ayrıca məşğul oluruq. Uşaqlar buraya həftədə bir gün iki saat gəlirlər. Dörd məktəblilər, səkkiz yaşlılar qrupu fəaliyyət göstərir. Şənbə və bazar günləri isə burada üç məşğələ keçirilir. Gördüyünüz kimi, müdavimlərin məktəb-dərs məşğələlərinə heç bir maneçilik törədilmir. Əksinə, uşaqlar buradan böyük mənəvi qazanc götürürlər. Ruhən, əqlən saflaşırlar. Onlarda yüksək ədəb, böyüyə ehtiram, tariximizə, dilimizə, mədəniyyətimizə, islama maraq, özünüdərketmə kimi zəruri keyfiyyətlər formalaşır.

Müdavimlərin bir qazancı da bu olur ki, onlar Quranı və təfsir kitablarını oxuyurlar. Əski əlifbada yazılmış klassik irsi - Nizaminin, Füzulinin, Sədinin, Hafizin əsərlərini sərbəst mütaliə edirlər. Kursa gələnlər Şərq əlifbasında yazılmış Azərbaycan

tarixinə, mədəniyyətinə dair zəngin irsə yiyələnir, həmin dildə hekayə, şeir, təmsil, peyğəmbərlərin hədislərini, Qurandan tərcümələri oxuyurlar.

- Məktəblilər şöbəsində, yəqin ki, müxtəlif fənlər tədris olunur.

- Əlbəttə, əski əlifba ilə ana dili və hesabdan məşğələlər aparılır, Quran oxunur. Birinci ilin sonunda müdavimlərə fars dili də öyrətməyə başlayacağıq. Bunun üçün müvafiq proqram hazırlamışıq. İldə 204 saat fars dili öyrədiləcəkdir.

- Bir xəbər eşitdik. Müdavimlər ikiillik kursu bitirdikdən sonra təhsillərini Şəki mədrəsəsində davam etdirə biləcəklər.

- Bəli, elmə, dilə ciddi marağı olanları mədrəsəyə - dördillik təhsilə cəlb edəcəyik. Artıq bu barədə əlaqədar təşkilatlarla razılığa gəlmişik. Həmin məqsəd üçün tədris proqramları və dərsliklər hazırlanmaqdadır. Bu vəsaitlər ali ruhani idarəsinin razılığı və təsdiqi ilə həyata vəsiqə alacaqdır. Biz proqramları tərtib edərkən keçmiş Bağdad, Türkiyə, İran və Azərbaycan mədrəsələrinin bu sahədəki zəngin təcrübəsinə, əlimizdə olan 140-a yaxın nümunəyə istinad etmişik. Yeri gəlmişkən bildirim ki, məktəblilər şöbəsi üçün orta məktəb həcmində yeddiillik dərs proqramları da hazırlanmışdır.

- Fəaliyyətinizin ən yaddaqalan, çox nəcib və xeyirxah, alqışa layiq bir cəhəti də var. Siz kollektivin yardımı və gücü ilə şəhər və kəndlərimizdəki məscidləri yenidən təmir və bərpa etdirirsiniz. Biz gördük ki, şəhərin Qışlaq hissəsində Nöyül bulağı yanındakı məscid sökülüb təzədən tikilir. Burada son tamamlama işləri gedir. Və yeni islam məscidi adı ilə yaxın vaxtlarda fəaliyyətə başlayacaqdır. Bundan başqa, Çayqırağı Cümə məscidi, Saray (Ziyalılar evi), Ding-dəyirman və Dodu məscidlərində də təmir işləri gedir. Cari ilin sonunadək beş məscid-abidədə işıq yanacaq. Bəs vəsaiti haradan alırsınız?

- Elin gücü, qüdrəti də böyükdür. Bizim şəhər və kənd cama-

atı, şəkililər həmişə savab, xeyirxah işlər üçün əllərindən gələni əsirgəməyiblər. Düzü budur ki, şəhərin ayrı-ayrı məhəllələrinin sakinləri, kursa gələnlər məscidləri (onlar həm də tarixi-mədəniyyət abidələridir) bərpa etmək fikrimizi biləndə canidildən bu xeyirxah işə qoşuldular. Hərə öz imkanı daxilində, necə deyərlər, "qulpundan" çıxanı əsirgəmir. Üz tutduğumuz ünvanlarda da bizi yaxşı qarşılayırlar. Ustalarımız da elə öz müdavimlərimizdir. İşdən sonra, şənbə-bazar günləri təmənnasız çalışırlar. Adlarını da çəkə bilərəm: Şahin Fərruxoğlu, Aydın Əbdüləlioğlu, Nüsrət Mustafaoğlu, Şirin Babaoğlu, Rəhim Bəhramoğlu, Nurəddin Novruzoğlu, Çingiz Məhərrəmoğlu və başqaları.

- Siz təkbaşına müdavimlərlə necə məşğul olursunuz?

- Müdavimlərimizin sayı get-gedə artır. Amma mən tək deyiləm. Sağ olsun, yetirmələrim Məhəmməd Mustafaoğlu, Şahid Qədiroğlu, Nəzakət Əliqızı, Məlahət Adilqızı, Sevinc Fikrətqızı, Fərhad Paşaoğlu, Vəfa Qəniqızı, Elxan Hilaloğlu, Əbülfət Rəsuloğlu, Rüfət Mürsəloğlu. Bu müəllimlər şagirdlərin böyük hörmət və nüfuzunu qazanmışlar. Mən onların dərslərində iştirak edərkən böyük mənəvi zövq alıram.

- Lap bu yaxınlarda "Vicdan azadlığı və dini təşkilatlar haqqında" qanun mətbuatda dərc edilmiş və dərc olunduğu andan qüvvəyə minmişdir. Hər halda bu qanun fəaliyyətinizi daha da genişləndirmək, manea və çətinlikləri dəf etmək üçün etibarlı sənəddir.

- Buna şübhə ola bilməz. Əslində qayğıya ehtiyacımız çoxdur, lap çox. Bu qanunla bağlı bir məsələni də qeyd edim. Şərq dilləri kursunda yeni "Azəri-İslam Cəmiyyəti" yaratmışıq. Cəmiyyətin əsasnaməsi vardır. Bütövlükdə həm cəmiyyətin işi, həm də bizim ümumi fəaliyyətimiz bir məqsədə yönəldilmişdir. Biz qapımızı təmiz niyyətlə, saf ürəklə açan hər kəsi paklığa, xeyirxah əməllərə səsləyirik.

Amma təmiz ürəklə gördüyümüz işlərə mane olanlar da tapılır. Oxud kəndindəki məscid camaatın arzusu və köməyi ilə təmir edilmişdir. Lakin hələlik məscid camaatın arzusunun ziddinə olaraq bağlı saxlanılır. Heç kəsi yaxına buraxmaq istəmirlər. Şəhər xalq təhsili şöbəsi rəhbərlərinin fəaliyyətimizlə maraqlanmaması da bizi məyus edir. Təhsil şöbəsi istəsə məktəb üçün ştat vahidi ayıra bilər. Axı biz də xalqımızın, balalarımızın maarifləmməsi üçün səy göstəririk. Şəhərin digər rəhbər təşkilatlarının irəli sürdüyümüz təşəbbüsləri bəyənmələri, fəaliyyətimizə geniş meydan vermələri isə təqdirəlayiqdir.

Əfsuslar olsun ki, Məhəmmədəmin müəllim öz arzularını tam həyata keçirə bilmədi, vaxtsız əcəl bu arzuları yarımçıq qoydu.

SƏNƏTLƏRİN ŞAHI ŞƏKİNİN TƏHSİL OCAQLARI

Əgər məndən soruşsalar ki,
ən şərəfli sənət hansıdır,
mən o zaman iftixarla belə deyərdim:
Müəllim!
H. B. Zərdabi

Xalq üçün çörəkdən sonra ikinci ən vacib şey məktəbdir.
Fransa inqilabçısı Dalton.

Çin xalqının gözəl bir atalar sözü var: "Aclığı yeməklə, cahilliyi oxumaqla ləğv etmək olar". "Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətlərində yazılmışdır: "Xalq müəllimi gənc şəxsiyyətin mənəvi aləminin memarı, cəmiyyətin etibar etdiyi şəxsdir. Cəmiyyət ən əziz, ən qiymətli sərvətini - uşaqları, öz ümidini, öz gələcəyini müəllimə etibar edir".

Doğrudan da, görəsən, dünyada müəllimlikdən müqəddəs, məsuliyyətli bir sənət varmı? Heç də təsadüfi deyil ki, ərəb müdrikləri müəllimi ziya saçan nura bənzətmişdir:

Sənə hər kimsə elm edə təlim,
Vacibdir ona eləmək təzim.
Pədərin bir mənəm, bir ustadın...

Bu sözləri deyərkən klassik şairimiz Seyid Əzim müəllim şəxsiyyətini ilahiləşdirmişdir. Müəllim gələcək deməkdir. Axı Yer kürəsində gələcək həyatın mövcudluğu insanların düzgün tərbiyə almasından asılıdır. Deməli, müəllim təkcə şagird, ailə qarşısında yox, bütün bəşəriyyət qarşısında məsuldur. Müəllimlik müqəddəs sənətdir.

Deyirlər ki, öz sabahı haqqında düşünən millət əvvəlcə öz uşağının sağlam, gözüaçıq və ağıllı böyüməsi qayğısına qalmalıdır. Uşağın savadlı böyüməsi, daha doğrusu, uşağın bu günü xalqın, millətin sabahkı günü deməkdir.

F. Köçərli yaxşı deyib: "Əgər bir xalqı məhv etmək, onu adam toplusuna çevirmək istəyirsinizsə, müəllimini savadsız, həkimini kəmsavad eləyin. Biri onun başını, o biri isə canını zay eləsin".

Hörmətli şairimiz Mirvarid Dilbazi yazır:

Biliksiz bir insan qanadsız quşdur,
Qanadsızlar nə vaxt, harda uçmuşdur?
Biliksiz nəsillər yetirənlərin
Əli boş, arzusu, istəyi puçdur.

Azərbaycanın görkəmli tarixçi alimi, respublika MEA-nın müxbir üzvü Mahmud İsmayılovun məlumatından: "Müsəlmanlar... elm öyrənməyə heç bir ehtiyac hiss etmirlər)" (MDTA, Qafqaz Komitəsi fondu, 1864-cü il, iş 137, vər. 479). Çar hökumət dairələrinin belə həyasız bəyanatının əsassız olmasını təkcə ondan görmək olar ki, 1850-ci ildə Şəki əhalisi vəsait toplayaraq öz hesabına məktəb açdı... 1855-ci ildə Şəkidə hələ cəmi bir dövlət məktəbi var idi: bu məktəb 30-cu illərin əvvəllərində açılmışdı. Buna görə də bütün Azərbaycanda, Zaqafqaziyada olduğu kimi, Şəki qəzasında da maarifin əsas ocağı milli məktəblər idi. Xüsusi məktəblərin sayı 32 idi, lakin onların xeylisi ruhani məktəbləri idi...

Vaxtilə Azərbaycan Respublika rəhbərliyi "Şəkidə, Şuşada ümumtəhsil məktəblərinin 150 illiyi və Lənkəranda 1 №-li orta ümumtəhsil məktəbinin 125 illiyi haqqında" (mart, 1982) qərar qəbul etmişdir. Qərarda Azərbaycanda yeni tipli tədris ocaqları olan həmin məktəblərin maarif və mədəniyyət tariximizdə oynadıqları böyük rol xüsusi olaraq qeyd edilmişdir. Pedaqoji elmlər doktoru, professor Hüseyn Əhmədov və filologiya elmləri doktoru Sabir Əfəndiyev "Şəkidə ilk dünyəvi təhsil məktəbi" ("Azərbaycan məktəbi" jurnalı, №9, 1982) məqaləsində 150 illik tarixi olan məktəb haqda çox qiymətli məlumatlar vermişlər. Həmin məqalədən bəzi parçaları oxuculara çatdırmaq çox maraqlı olardı: "... Keçən əsrin 20-ci illərindən başlayaraq Azər-

baycanın bir sıra qəza şəhərləri ilə yanaşı Şəkidə də rus dilində qəza məktəbi açmaq zərurəti meydana gəlmişdir. Burada rus dili ilə yanaşı, Azərbaycan dili, şəriət, hesabdan ilk dörd əməliyyat, hüsnxətt fənləri tədris edilirdi. Qəza məktəbinin təsis edilməsində məqsəd o deyildi ki, azərbaycanlılar maarifləndirsin, elm və mərifət qazansın, savadsızlığın daşını atsın. Məqsəd başqa idi. Çarizm yerli əhalinin kiçik bir qrupunu Rusiya qayda-qanunlarına və maarifinə yaxınlaşdırmaq, ilk növbədə isə dövlət üçün çinovniklər, rus və Azərbaycan dilini bilən tərcüməçilər hazırlamaqdan ibarət idi. Elə 1831-ci il dekabrın 30-da ilk dəfə fəaliyyətə başlayan Şəki qəza məktəbinin şagird kontingentinin tərkibi də bu məktəbin qapılarının yoxsullar və imkansızlar üzünə bağlı olduğunu göstərdi. Şəki qəza məktəbində təhsil alanların ümumi sayı 29 nəfər idi. Bu isə qəza əhalisinin hər 4 min nəfərindən birinin bu məktəbdə oxuması demək idi. Şagirdlərin 21-nin tacir, 8 nəfərinin isə ruhani uşağı olduğunu göstərməklə kifayətlənsək, bu təhsil ocağının hansı məqsədlə açılmasının izahına ehtiyac qalmaz...

Sonrakı illərə nəzər salaq. Məktəbin 1842-ci ildə şagirdlərinin sayı 59, 1845-ci ildə 66, 1850-ci ildə 61, 1860-cı ildə isə 83 nəfər olmuşdur (LMDTA, f. 1268, c. I, iş № 579, yenə orada, f. 733, c. 201, iş № 1047, Gürcüstan Respublikası MDA, f. 425, c. 1, iş № 21, müxtəlif vərəqlər...).

1844-cü ildə Şəki qəza məktəbində oxuyanların sayı 70-ə çatmışdı. Həmin ildə birinci sinifdə 40, ikinci sinifdə 20, üçüncü sinifdə isə 10 şagird oxuyurdu. (LMDTA, f. 733, c. 82, iş № 65, v. 105 arx.). Birinci sinifdə qarşılıqlı təlim üsulu tətbiq edilirdi. Bu illərdə Şəki məktəbində oxumuş Zaqafqaziya təhsil hissə rəisi özünün məlumatında yazırdı: "Birinci sinif şagirdlərinin bir çoxu rus dilində yaxşı oxuyur, həmçinin hesabdan üç əməliyyatı bilirlər, rus dilini kifayət qədər başa düşürlər, yaxşı yazırlar və s..."

Azərbaycanda fəaliyyət göstərən digər məktəblərlə yanaşı,

Şəki qəza məktəbi də 60-cı illərin məktəb islahatı ilə əlaqədar olaraq, 1877-78-ci dərs ilində şəhər məktəbinə çevrildi. (QTD popeçitelinin Sərəncamları, Tiflis, 1877, № 12, səh. 35, rusca). Qəza məktəbi kimi, Şəki şəhər məktəbi də əhali arasında dünyəvi təhsilin yayılmasında xeyli rol oynadı. 1882-ci ildə xüsusi musiqi sinifləri açıldı. Bura 25 şagird cəlb edilmişdi. 1890-cı ilin məlumatına görə Şəki şəhər məktəbində 136 şagird təhsil alırdı. 1895-ci ildə şagirdlərin sayı artıq 167 idi. Bunlardan 112 nəfərini şəhər sakinlərinin uşaqları təşkil edirdi...

Maarif işini tamamilə öz öhdəsindən atan çarizmin üsul-idarəsindən və onun yerli nökərləri olan çinovniklərdən mərhəmət gözləməyin mənasızlığını görən Şəkinin bir qrup ziyalısı məktəb işlərini qaydaya salmaq məqsədilə 1917-ci il aprelin 1-də "Hürriyyəti-maarif cəmiyyəti" təşkil etdilər. Cəmiyyətin 18 nəfərdən ibarət fəxri üzvü var idi. Onun fəxri sədri Şəki qəzası əhalisi arasında böyük nüfuzu olan maarifpərvər, mütərəqqi fikirli Nurməhəmməd Əfəndi İmamzadə, sədr müavini isə maarif fədaisi Abdulla Abdulhəmidzadə idi ("Hürriyyəti-maarif cəmiyyəti"nin 1918-19-cu illər üzrə hesabatı, Şəki 1919-cu il, səh. 3).

XX əsrin əvvəllərində Azərbaycanın digər yerlərində olduğu kimi, Şəkidə də bir neçə rus-müsəlman məktəbindən savayı milli təhsil ocaqları yox idi. "Hürriyyəti-maarif cəmiyyəti" ilk növbədə bu boşluğu doldurmaq üçün "Milli məktəblərin güşadına iqdam etdi". Şəki qəza məktəbi nəzdində açılan və məşhur maarifçi pedaqoq Rəşidbəy Əfəndiyevin başçılıq etdiyi müəllimlər hazırlayan kursda 1918-ci ildə 60-a qədər tələbə oxuyurdu. Onların arasında təkcə Şəki qəzasından deyil, Şamaxıdan, Qarabağdan gələnlər də var idi.

Müəllimlər hazırlayan kursların Azərbaycanda maarif və mədəniyyətin inkişafına güclü təsiri olmuşdur. "Vətən" məktəbinə kursun ən bacarıqlı müdavimləri göndərildi. "Hürriyyəti-maarif cəmiyyəti" məktəbin saxlanması xərclərini öz boynuna

götürdü, məktəb nəzdində yaşı keçmiş gənclər üçün savad kursu təşkil etdi və qəzada 25 məktəb açılmasına nail oldu...

İndi də bir neçə kəlmə Şəkinin ən qədim məktəbi haqda: Şəkidə el arasında ona "Qoxmux işkolu" da deyiblər. Hətta vaxtilə bir adamın savadlı olmasına işarə edəndə deyərdilər: "Filankəs Qoxmux işkolunu qurtarıb".

Şəkinin Qoxmux kəndində rus-tatar, rus-azərbaycan məktəbi 1884-cü ildə təşkil olunmuşdur. Bu məktəb Qafqaz məktəblərinin 1853-cü il Nizamnaməsi ilə təsis edilmişdir. İlk təşkil ediləndə məktəbdə 39 nəfər şagird təhsil almışdır. Şagirdlərin milli tərkibi belə olmuşdur: azərbaycanlı - 31, rus - 2, ləzgi - 6 nəfər.

Azərbaycan dili M. F. Axundov tərəfindən tərtib olunmuş dərslik (bu dərsliyin adı "Əlifba" idi), rus dili isə K.D. Uşinskinin "Uşaq aləmi" kitabı əsasında tədris edilirdi. O zaman məktəbdə üç müəllim işləmişdir. Məktəbin direktoru Oruc Hüseynov olmuşdur.

Qoxmux kənd məktəbi 1941-ci ilədək ibtidai, 1958-ci ilədək 7 illik (səkkizilik) məktəb kimi fəaliyyət göstərmiş, 1972-ci ildən sonra orta məktəbə çevrilmişdir. Hazırda məktəbdə 72 müəllim 800-ə qədər şagirdin təhsili ilə məşğul olur.

İndi isə müxtəlif mənbələrdən əldə etdiyimiz məlumatlar:

- Şəkidə 1906-cı ildə 6 ibtidai məktəb fəaliyyət göstərirdi.
- Rabfak (fəhlə fakültəsi) 1924-cü ildə açılıb.
- Fabrik-zavod təhsili məktəbi 1929-cu ildə açılıb.
- Ümumi təhsilə 1930-31-ci dərs ilində yeddiillik ümumi icbari təhsilə isə 1933-34-cü ildə keçildi.
- 1933-cü ildə 25 tələbəsi və 8 müəllimi olan bir ali kommunist məktəbi açılmışdır.

Fəhlə fakültəsinin müdirinə o vaxtlar dekan deyərdilər. Bu təhsil ocağının ilk dekanı - müdiri, unudulmaz yazıçı-dramaturqumuz Sabit Rəhmanın əmisi Ələkbər Mahmudov olmuşdur. Bu fakültənin zəngin kitabxanası olmuş, indiki müəllimlər evində yerləşmişdir. Dərslər indiki Şəki şəhər 2 №-li orta məktəbin binasında keçirilirdi. Bu təhsil ocağında nəinki fəhlələr, hətta qulluqçular da təhsil alırdılar. Fəhlə fakültəsi 1928-ci ildə bağlanmışdır. Həmin məktəbdə 1926-cı ildə təhsil almış Şəkinin hörmətli ağsaqqal ziyalılarından Əli Qazızadənin dediklərindən: "Fəhlə fakültəsində bizə dəftərxana dərsi də keçirdilər. Məktəbin kitabxanasında olan kitabların çoxu Türkiyədən gətirilmişdi. Mən o zaman kitabxanada V. Hüqonun "Səfillər" romanının İstanbul çapını oxumuşam. Mən müəllimlərdən Veysəl əfəndi Mustafayevi həmişə böyük ehtiramla yad edirəm".

1921-ci ildə Veysəl Əfəndi Şəkidə "Nümunə zəhmət" məktəbi təşkil etmişdir. Belə məktəb respublikamızda ilk dəfə təşkil olunmuşdur. Bu təhsil ocağı gənclərə nümunəvi peşələr: dərzilik, dülgərlik, papaqçılıq və s. sənətləri öyrədirdi. "Nümunə zəhmət" məktəbində dərs deyən məşhur müəllimlərdən biri də Yusif Məmmədov olmuşdur. Ustalardan papaqçı Qaffar, dülgər Bağır, papaqçı Sadıq və b. göstərmək olar. Yaşlıların dediyinə görə, papaqçı Qaffar zəmanəsinin ən tərəqqipərvər ziyalılarından olmuşdur. Papaqçı Qaffar Şərifov (el arasında Qaffar kimi tanınıb) onun bacısı oğlu, papaqçı İsmayıl Şərifov və papaqçı Mustafa Həmidov (müəllifin atası) nəinki Azərbaycanda, hətta Buxarada, Səmərqənddə və Simferopolda da tanınmış sənətkarlar olmuşlar.

1920-ci ilin oktyabrından fəaliyyətə başlayan Şəki Pedaqoji Məktəbinin respublikamızda maarifin inkişafında əvəzsiz rolu olmuşdur. Arxiv materiallarından görünür ki, 1920-ci ildə 49 №-li protokola əsasən Nuxa oğlan və qız seminariyasının təşkilinə başlanmış, avadanlığın, məktəbin saxlanmasına müəyyən pul ayrılmış və maliyyələşdirilmişdir. Beləliklə, Şəki Pedaqoji Məktəbi oğlan və qız seminariyası şəklində özünün ilk addımlarını atmışdır. 1925-ci ildə seminariyanın birinci buraxılışı olmuşdur. Şəki seminariyasını bitirən görkəmli adamlardan Əhməd Rəhimlini uzun müddət respublika Maarif nazirinin müavi-

ni işləyən Heydər Əfəndiyevi, kimyaçı alim, akademik Mirzə Salehlini (sonralar özü müdir olub) göstərmək olar.

Abdulrəşid Əfəndiyev.

Yenə də Əli Qazızadənin xatirələrindən: "Seminariyada Abdulmabud Əfəndi Əfəndiyev, Məmmədəli Xəlfəzadə, Abdulrəşid Əfəndiyev, Ələşrəf Hacıyev, Veysəl Əfəndi Mustafayev, Rəcəb Əfəndi Əfəndiyev, İbrahimbəyli İbrahim (Rəşidbəy Əfəndiyevin kürəkəni), Kəbirə xanım Tabasaranlı, Mahtaban Əfəndiyeva (Rəşidbəy Əfəndiyevin qızı) kimi tanınmış müəllimlər dərs deyirdilər".

1925-ci ildə seminariyaya texnikum adı verilmişdir. 1927-ci ildə ayrı-ayrı fəaliyyət göstərən oğlan və qız texnikumları birləşdirilmişdir. Məktəbin yaradılmasında respublikamızın görkəmli maarif xadimi Rəcəb Əfəndiyevin böyük rolu olmuşdur. 1920-27-ci illərdə bu təhsil ocağının ilk direktoru R. Əfəndiyev, sonrakı illərdə Hacıbala Hacızadə, Məhərrəm Qarayev, Seyfi Hüseynov, Əhməd Abdurahmanlı, Mirzə Salehli, Razi Babayev, Yusif Həmidov, Qurban Abbasov, Əminə Babayeva, Zinyət Məmmədova, Sadiq Naibov, Cəmil Süleymanov olmuşlar.

Məktəbin ilk müəllimlərindən Rəşidbəy Əfəndiyev, Abdumabud Əfəndiyev, Əhmədağa Qaziyev, Əhməd Bayramzadə, Veysəl Mustafayev, Ələşrəf Hacıyev, Baba Qabulov, Məmmədəli Xəlfəzadə kimi pedaqoqların da məktəbin formalaşmasında, özünü doğrultmasında az əməyi olmamışdır. Sonrakı dövrlərdə bu məktəbdə Baxşəli Axundov, Əhməd Rəhimli, Hətəm Mustafayev, Rza Cəlilov, Mahtaban Yusifzadə kimi tanınmış müəllimlər də işləmişlər.

Şəki Pedaqoji Məktəbinin 22 nəfər (17 oğlan, 5 qız) birinci buraxılışı 1925-ci ildə olmuşdur. Bu əlamətdar hadisə ilə əlaqədar Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin katibi Şahbazi Nuxa Qəza Firqə Komitəsinə təbrik teleqramı göndərdi. Həmin

teleqram o zaman "Şəki fəhləsi" qəzetinin 1925-ci il 14 may tarixli 37/424 nömrəsində dərc olundu. Yeri gəlmişkən qeyd edək ki, qəzet bu sevindirici hadisəyə özünün bütün birinci səhifəsini həsr etmişdi. Yuxarıda haqqında danışdığımız teleqramın mətni belə idi: "Nuxa Qəza Firqə Komitəsinə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi heyəti - Rəyasəti Nuxada zükur darülmüəlliminin əvvəlinci dəfə müəllim tərxisi aparan Nuxa zəhmətkeşlərinə atəşin salamlar göndərir.

Mərkəzi İcraiyyə Komitəsi inandırır ki, cavan müəllimlər maarif cəbhəsində cəhalətlə mübarizə edərək Şura hökumətinin kəndlərdə təsərrüfatı yüksəltmək işində ona gözəl yardımçı olacaqlar.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi katibi: Şahbazi".

9 iyun 1928-ci il Şəki Pedaqoji Texnikumuna dahi dramaturq Mirzə Fətəli Axundovun adı verilmişdir.

Şəki Pedaqoji Texnikumu 65 il (1920-85-ci illər) fəaliyyətində 62 buraxılış keçirmiş və respublikamızın təlim-tərbiyə ocaqlarına 7,5 mindən çox orta ixtisaslı pedaqoji kadr vermişdir. Bu təhsil ocağında Ermənistan və Gürcüstandan gələn yüzlərlə azərbaycanlı da təhsil almışdır.

Texnikum öz məzunları ilə fəxr etmişdir. Professor Əzzəl Dəmirçizadə, dramaturq Sabit Rəhman, kinorejissor Rasim Ocaqovun anası, respublikanın əməkdar həkimi Samiyə xanım Ocaqova, Bakı Dövlət Universitetinin professorları Mirəli Axundov, Əbdürrəhim Hacızadə, Abuzər Rəsulov, Azərbaycan Dövlət Neft Akademiyası elmi əməkdaşları Mirəli Əbdürrəhmanov, Əbdürrəhim Şahmirov, respublikanın əməkdar müəllimləri Cavahir Vahabova, Diləfruz Axundova və b. məhz bu maarif ocağının yetirməlidirlər.

Şəki Pedaqoji Texnikumunun yerli əhali arasında savadsızlığın ləğv edilməsində böyük xidmətləri olmuşdur.

Nuxa Qəza İcraiyyə Komitəsinin 27 iyun 1925-ci il iclasında qəbul edilmiş qərarı: "Kəndə doğru" şüarına əsaslanaraq və kəndlərdə qadın müəllimlərə böyük ehtiyacı ödəmək məqsədi-

lə Nuxa Qadınlar Seminariyası nəzdində 40 nəfər azsavadlı kəndli qızlar üçün hazırlıq qrupu açılsın. Xalq Maarif Komissarlığından xahiş edilsin ki, göstərilən qrupun xərcini öz üzərinə götürsün".

Məktəbin bu xidmətini "Şəki fəhləsi" qəzeti özünün 1930-cu il 5 aprel tarixli nömrəsində "Mədəni-maarif ocaqlarında" rubrikası altında dərc etdiyi "1000 nəfər savadlandırılıcaqdır" başlıqlı məqaləsində göstərir. Həmin məqalədən bir parça: "Şəki rayonunda təşkil olunmuş mədəni hücum komissionunun qərarı üzrə pedaqoji texnikum 1000 nəfəri savadlandırmalıdır. Bu vəzifənin ifasına başlanılmış, 150 nəfər tələbə səfərbərliyə alınmışdır.

Bu saat 600 nəfər zəhmətkeş savadlandırılır. Bundan əlavə martın 15-ə kimi 80 fərdi kurs dəxi açılacaqdır. Məktəb savadsızlıqla mübarizədə sürətli hərəkət etməkdədir. A. Kərimzadə".

Əfsuslar olsun ki, respublikamızın aidiyyəti rəhbər orqanları bu müqəddəs təhsil ocağını qoruyub saxlamadı. Bu baxımdan Azərbaycan MEA Tarix İnstitutunun Etnoqrafiya qrupunun rəhbəri, filologiya elmləri doktoru Sabir Əfəndiyevin 1 mart 1991-ci ildə "İpəkçi" qəzetində çap etdirdiyi "Fərasətimizdən danışaq: üç ili çatmayan yetmiş yaş" məqaləsi çox xarakterikdir. Həmin məqalədən bəzi hissələrin verilməsi fikrimizin tam aydınlaşmasına kömək edərdi: "Bəli, Şəki Pedaqoji Məktəbi bağlanarkən onun 70 illik yubileyini keçirməyə cəmi üç il qalmışdı. Amma bağladılar onu. Belə bəhanə gətirdilər ki, guya respublikamızda orta ixtisaslı müəllim kadrlarına ehtiyac (9) yoxdur. Belə bir əmr imzalananda nazirlikdə heç kəs qabağa durub demədi ki, bu nə işdir. 1920-ci ildə Azərbaycanda ilk dəfə təşkil edilən belə qədim maarif ocağını söndürmək milli maarifçilik qürurumuza sığışan bir məsələ deyil. Axı, bu təhsil ocağının yetişdirmələri respublikada savadsızlığın ləğvində, yeni dünyəvi məktəblərin açılmasında, balalarımıza elm, mərifət öyrətməkdə tarixi bir yol keçib. Bu məktəbi Azərbaycan xalq maarifinin

əsasını qoyanlardan biri Rəşidbəy Əfəndiyev açıb. Orada ilk pedaqoji təhsil alanlardan Cəbrayıl Hüseynov, Əbdüləzzəl Dəmirçizadə, Heydər Əfəndiyev akademikliyədək yüksəliblər. Bu məktəbdə 1926-cı ildə görkəmli Azərbaycan şairi S. Vurğun müəllimlərin ixtisasını artırma kurslarında oxuyub.

Azərbaycana ilk qadın pedaqoqları Şəki Pedaqoji Məktəbi verib, "Şərq qadını" jurnalının redaktoru Göylü qızı Gülarə xanım, Zaqafqaziyada ilk hüquqşünaslıq doktoru adını almış Bilqeyis Haşımzadə bu pedaqoji məktəbin yetişdirmələri sıralarında olmuşlar. Qonşu respublikalarda belə şöhrətli elm məbədlərini sökmürlər, əksinə, belə məktəbləri qoruyurdular, yaşadırlar. Onun yetişdirmələri arasından çıxan görkəmli adamların elə həmin məktəbin ərazisindəcə büstlərini qoyurlar, divarlarına xatirə lövhələri vururlar.

Biz isə... Şəki Pedaqoji Məktəbindəki çəkişmə salanları oradan təmizləməyə gücümüz çatmayıb, nəyəsə acıq edib köynəyi yandıranlar səviyyəsinə enməli olduq...

Hazırda Şəki-Zaqatala bölgəsi rayonlarında altıyaşlılarla məşğul olmaq üçün orta pedaqoji təhsilli müəllimlərə ehtiyac var... Hələ məktəbəqədər tərbiyə ocaqlarında yüzlərlə tərbiyəçi yeri boşdur: orta ixtisaslı idman müəllimlərini, müəssisələrdə bədən tərbiyəsi metodistlərini, uşaq idman məktəblərində məşqçiləri çıraqla axtarırlar. Hələ Dağlıq Qarabağın azərbaycanlılar oxuyan məktəblərində orta ixtisaslı müəllim azlığını demirik. Belə olan halda atılan səhv addım düzəlməli, Şəki Pedaqoji Məktəbi yenidən bərpa olunmalıdır.

Xalq maarifində tarixiliyi unutmaq, xüsusi rolu olan təhsil ocaqlarının üstündən qələm çəkmək bizə heç də ucuz başa gəlməyəcək. Həm də belə tədris müəssisələrini bir-birinin dalınca bağlasaq, onda bir neçə onillikdən sonra yaranmasının 100 illiyini keçirməyə bircə məktəb belə tapa bilməyəcəyik.

Düşünmək, bir daha götür-qoy etmək, buraxılmış səhvləri cəsarətlə, respublikamızın, xalqımızın mənafeyinə uyğun gələn şəkildə düzəltmək lazımdır".

Hörmətli Sabir müəllimin ürək yanğısı ilə yazdıqlarını təsdiqləyən aşağıdakı qısa məlumatlarına nəzər salaq (siyahı tam deyil):

1. Abdullayev Əbdürrəhman Məmməd oğlu - 1914-cü ildə anadan olmuşdur. 1933-cü ildə Şəki Pedaqoji Məktəbini bitirmiş, 1963-cü ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 5 kitabın və 30-dan çox elmi məqalənin müəllifidir. 1998-ci ildə vəfat etmişdir.

2. Abdullayeva Nabat Cumay qızı - 1925-ci ildə anadan olmuşdur. 1941-ci ildə Şəki Pedaqoji Məktəbini, 1950-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmiş, 1965-ci ildə namizədlik, 1980-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir.

3. Ağasıyev Fərrux Fərhad oğlu (Ağasıbəyli) - 1937-ci ildə anadan olmuşdur. 1954-cü ildə Şəki Pedaqoji Məktəbini qurtarmış, 1958-1964-cü illərdə Bakı Dövlət Universitetində oxumuşdur, yazıçıdır.

4. Cəfərov Nurəddin Cəmaləddin oğlu - 1933-cü ildə anadan olmuşdur. 1953-cü ildə Şəki Pedaqoji Məktəbini, 1959-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirmiş, 1965-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir.

5. Çələbiyev Məmməd Musa oğlu - 1923-cü ildə anadan olmuşdur. 1940-cı ildə Şəki Pedaqoji Məktəbini bitirmişdir. 1952-1956-cı illərdə Azərbaycan Pedaqoji İnstitutunda qiyabi oxumuşdur. Onlarla povest, roman, dram əsərlərinin müəllifidir. 3 dram əsəri Şəki Dram Teatrında tamaşaya qoyulmuşdur. O, 1987-ci ildə vəfat etmişdir.

6. Əbdürrəhmanov Yusif Ələkbər oğlu - 1912-ci ildə anadan olmuşdur. 1929-cu ildə Şəki Pedaqoji Texnikumunu, 1939-cu ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirmiş, biologiya elmləri doktoru (1964), professor (1965), Azərbaycan MEA müxbir üzvü (1968), 100-dən çox elmi əsərin, 3 monoqrafiyanın müəllifidir. 1977-ci ildə vəfat etmişdir.

7. Əbdürrəhmanov Mirəli İbrahim oğlu - 1923-cü ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu (1941), Azərbaycan Sənaye İnstitutunu (1951) bitirmiş, 1958-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir.

8. Əliyev Manaf Mustafa oğlu - 1917-ci ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu, (1935), Azərbaycan Qiyabi İkiillik Müəllimlər İnstitutunun coğrafiya fakültəsini, sonra Azərbaycan Dövlət Universitetinin coğrafiya fakültəsini bitirmişdir (1968). Tanınmış dövlət işçisi olmuş, 1979-cu ildə vəfat etmişdir.

9. Əfəndiyev Ramiz Məcid oğlu - 1918-ci ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu (1934), Azərbaycan Sənaye İnstitutunu bitirmiş (1939), namizədlik dissertasiyası müdafiə etmişdir (1955). 1973-cü ildə vəfat etmişdir.

10. Əfəndiyev Heydər Xəlil oğlu - 1907-ci ildə anadan olmuş, Şəki Pedaqoji Texnikumunu, Bakı Dövlət Universitetinin təbiət-riyaziyyat fakültəsini bitirmiş, geologiya-minerologiya elmləri doktoru (1958), professordur (1959), 1962-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir. 1967-ci ildə vəfat etmişdir.

11. Əfəndiyev Hüseyn Əhməd oğlu - 1911-ci ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunun, Moskva Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir (1937). Həmin institutda namizədlik (1942), 1967-ci ildə isə Bakıda doktorluq dissertasiyası müdafiə etmişdir. 1968-ci ildə vəfat etmişdir.

12. Əhmədov Lətif Məhəmməd oğlu - 1925-ci ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. Namizədlik dissertasiyası müdafiə etmişdir, maliyyə kafedrasının dosentidir.

13. Hümmətov Nurpaşa Ömər oğlu - 1923-cü ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu (1941), Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini bitirmişdir. (1954). Namizədlik dissertasiyasını müdafiə etmişdir (1971). 250-yə

qədər şeir, 150-dən çox məqalə, oçerk və bir neçə monoqrafiyanın müəllifidir. N. Hümmətov 1989-cu ildə vəfat etmişdir.

14. Xəlifəzadə Çingiz Müzəffər oğlu - 1931-ci ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu (1947), Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsini bitirmişdir (1952). Namizədlik (1955) və doktorluq dissertasiyalarını müdafiə etmişdir (1972), professordur (1974), 200-dən çox elmi məqalənin, monoqrafiyanın müəllifidir.

15. Qasımov Məmməd Əhməd oğlu - 1904-cü ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu bitirmişdir. (1925). O, 1930-cu ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda işə başlamışdır. 1937-ci ildə ona müdafiəsiz elmlər namizədi adı verilmiş, 1957-ci ildə doktorluq dissertasiyasını müdafiə etmiş, 1966-cı ildə vəfat etmişdir.

16. Hacıyev Nazim Məmmədiyyə oğlu - 1924-cü ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu (1940), Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş, dövlət xadimidir. 50-dən çox elmi-publisistik məqalə və kitabların müəllifidir (bu haqda gələcək fəsillərdə hərtərəfli məlumat veriləcək). 1962-ci ildə vəfat etmişdir.

17. Məmmədov Nadir Cəlil oğlu - 1927-ci ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu (1942), Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir (1950). Filologiya elmləri namizədi (1958), onlarla monoqrafiyanın müəllifidir.

18. Məmmədov Sabir Cəlil oğlu - 1925-ci ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu (1941), Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. 1967-ci ildə namizədlik dissertasiyasını müdafiə etmiş, 1984-cü ildə vəfat etmişdir.

19. Məmmədova Ədilə Səttar qızı - 1926-cı ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu, Azərbaycan Dövlət Qiyabi İnstitutunu bitirmiş (1954), tarixi-coğrafiya mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

20. Mustafayev Həsən Bəkir oğlu - 1919-cu ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu (1936). Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmişdir (1943), fizika-riyaziyyat elmləri namizədidir (1966).

21. Mustafayeva Səmayə Məmməd qızı - 1948-ci ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu (1967), Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir (1971). Tarix elmləri namizədidir (1985).

22. Rəsulov Abuzər Məmməd oğlu - 1907-ci ildə anadan olmuş, 1925-ci ildə Şəki Pedaqoji Texnikumunu, 1932-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirmişdir. Professordur (bu haqda gələcək fəsillərdə geniş məlumat veriləcək).

23. Salmanova Dilarə Hüseyn qızı - 1930-cu ildə anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu (1947), Şəki İkiillik Müəllimlər İnstitutunu (1949), Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmiş (1954), namizədlik dissertasiyasını müdafiə (1970) etmişdir.

Bütün bu görkəmli şəxslər haqda Ələfsər Məmmədov və Fikrət Xalıqovun "Şəki-alim və ziyalılar" (Bakı, 2002) kitabında geniş və hərtərəfli məlumat verilmişdir. Özüm və oxucular adından həmin müəlliflərə dərin təşəkkürümü bildirirəm.

Onu da qeyd etmək istərdim ki, yuxarıda adları çəkilən alim və ictimai xadimlər Şəki Pedaqoji Texnikumunu bitirənlərin az bir hissəsidir və həmin məzunlar Şəkidə anadan olmuşlar. Yenə də tanınmış tədqiqatçı alim, vətənini hədsiz sevən insan, Salman Mümtazın ideya davamçısı Sabir Əfəndiyevin sözlərini yada salmaq istərdim: "Xalq maarifində tarixiliyi unutmaq, xüsusi rolu olan təhsil ocaqlarının üstündən qələm çəkmək bizə heç də ucuz başa gəlməyəcək... "Şəki Pedaqoji Texnikumunun üstünə qələm çəkməyə, yalnız dahi M.Ə. Sabirin şeri ilə cavab vermək olar:

Mən nə deyim bizdə olan qeyrətə,
Qeyrətimiz bəllidir hər millətə.

Şəkidə 1939-1940-cı tədris ilindən İkiillik Müəllimlər İnstitutu fəaliyyət göstərməyə başladı. Elə ilk gündən bu instituta Rəsul Rəsullu rəhbərlik etmişdir. İnstitutda ədəbiyyat, fizika-riyaziyyat, tarix, biologiya fakültələri fəaliyyət göstərmişdir. İnstitutda işləyən tanınmış müəllimlərdən aşağıdakıları göstərmək olar:

İmamzadə Səidə-fizika-riyaziyyat kafedrasının müdiri.

Babayev Rza Baba oğlu - marksizm-leninizm kafedra müdiri.

Mövsüm Mikayıl Həsən oğlu - fizika fakültəsinin dekanı, kafedra müdiri.

Rəhimli Əhməd - fizika-riyaziyyat kafedrası, baş müəllim, sonralar uzun müddət Azərbaycan Maarif nazirinin müavini işləyib.

Əhməd Rəhimli.

Əfəndiyev Hüseyn - dosent.

Dəmirçizadə Əbdül əzzəl - professor və qeyriləri.

Şəki Müəllimlər İnstitutu 1954-cü ilə qədər fəaliyyət göstərib. Respublikamız Ermənistan və Gürcüstan məktəbləri üçün minlərcə ali-orta təhsilli müəllim hazırlayıb. Buranı qurtaranların əksəriyyəti sonralar qiyabi surətdə tam ali təhsil almış və öz müqəddəs peşələrini davam etdirmişlər.

Şəkidə fəaliyyət göstərən təhsil ocaqlarından biri də 1923-cü ildə əsası qoyulmuş Kənd Təsərrüfatı Texnikumudur. Onu da qeyd etmək lazımdır ki, bu istiqamətdə təhsil ocağı birinci dəfə Şəkidə təşkil olunub. Həmin təhsil ocağının ilk direktoru Bağbanlı İsgəndər idi.

Texnikumda uzun müddət direktor müavini Abduləli Hacıyev olmuşdur. Kənd təsərrüfatının ən gözəl bilicisi Abduləli müəllim çox vaxt nazirlik işçilərinin də məsləhətçisi olardı. Həmin texnikumda ilk ixtisas "tarlaçılıq" idi. Sonralar taxılçılıq, tütünçülük, bağçılıq-tərəvəzçilik, üzümçülük və s. şöbələr fəaliyyət göstərib. Baytarlıq və kənd təsərrüfatı mühasibat-uçotu şöbələri vaxtaşırı açılıb.

Şəkidə əvvəlcə sərbəst ipəkçilik texnikumu fəaliyyət göstərib, sonradan o, kənd təsərrüfatı texnikumu ilə birləşdirilib.

Bu texnikumun məzunlarından akademik Cəbrayıl Hüseynovu, uzun müddət Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda ipəkçilik kafedrasına rəhbərlik etmiş kənd təsərrüfatı elmləri namizədi Zakir Hacısalam oğlu Əfəndiyevi, elmlər doktoru Lətif Qarayevi və b. göstərmək olar.

Şəkinin böyük tarixə malik təhsil ocaqlarından biri də 1923-cü ildə təşkil edilmiş Toxuculuq Texnikumudur. O zaman Şəki şəhəri Azərbaycanda öz iqtisadiyyatına görə üçüncü sənaye mərkəzi sayılırdı. Şəki ipək sənayesi isə respublikanın iqtisadiyyatında böyük əhəmiyyət kəsb edirdi. Məhz buna görə gələcəkdə respublikanın ipək sənayesini ixtisaslı mütəxəssislərlə təmin etmək məqsədilə Şəkidə sənaye məktəbi yaradılmışdı.

1931-ci ilə qədər Şəkidə yalnız baramaaçan fabriklər mövcud idi. Sonra Şəki ipək kombinatı fəaliyyətə başladı. Hazırda həmin kombinatın əsasında dünyada şöhrət qazanmış nəhəng İpək İstehsalat Birliyi yaradılmışdır.

Toxuculuq Texnikumu həmin müəssisədən baza kimi istifadə edərək, yetkin və işgüzar texniklər hazırlayırdı. Hər il bu məktəbi qurtaran yüzlərlə gənc sənayemizin müxtəlif sahələrində işləmək üçün vəsiqə alırdı.

Vaxtilə bu təhsil ocağında respublikamızda tanınmış şəxslər təhsil almışlar. General-mayor Məmmədşərif Həmidov 1932-ci ildə həmin texnikumda oxuyub. İbrahim Mustafayev - uzun illər Yüngül Sənaye nazirinin müavini, Şəki İpək İstehsalat Birliyinin baş direktoru, Məsmə Məmmədova - elmlər namizədi, Daşkənd Toxuculuq İnstitutunda müəllim, Edison Cabbarov - elmlər namizədi, Gəncə Texnologiya İnstitutunun müəllimi, Yaqub Rüstəmov - Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqı komitəsinin sədri və b. məhz bu texnikumun məzunları olmuşlar.

Respublikamızda tanınmış təhsil ocaqlarından biri də Şəki Tibb Texnikumudur. Bu məktəb respublikamız üçün yüksək ixtisaslı orta tibb işçilərinin hazırlanmasında müstəsna rol oynamışdır. Onun məzunlarından Zinyət Manafova, Lətafət Məmmədova, Əsmər Həsənova, Abdulhəmid Həmidov, Gülü İlyasov və b. Böyük Vətən müharibəsində rəşadətlər göstərmişlər...

Şəkidə 50 ildən çox tarixə malik təhsil məktəblərindən biri də Uşaq İncəsənət Məktəbidir. Bu təhsil ocağı keçmiş 1 №-li musiqi məktəbinin əsasında yaradılmışdır. 50 illik yubileyində (1989) məktəbə heykəltəraş Fuad Əbdürrəhmanovun adı verilmişdir.

Axırıncı məlumatlara görə Şəki rayonunda 54 məktəbəqədər müəssisələrdə 3 mindən çox uşaq tərbiyə olunur. Rayonun 90 ümumtəhsil (11 ibtidai, 28 səkkizillik, 51 orta) məktəbində təqribən 28 mindən çox, 5 texniki-peşə məktəbində 900-dən çox şagird təhsil alır. Rayonda 4 musiqi məktəbi fəaliyyət göstərir. Şəkidə 73 kitabxana, 6 muzey vardır.

ŞƏKİNİN İLK ALİ TƏHSİLLİ MÜƏLLİMİ

Abdullabəy Əfəndiyev.

Bu bir həqiqətdir ki, gələcəyə açıq gözlə baxmaq üçün keçmişimizi araşdırmalı, xalqımızın düşünən beyni olan ziyalılarımızın fəaliyyətini yetişəcək nəslə miras qoymalıyıq. Son dövrlərdə olan axtarışlar göstərir ki, çox ziyalılarımıza bəy, molla, axund, əfəndi... damğası vurub öz əlimizlə tarixdən silmişik. Bu əməllərimizlə sevinmişik, fəxr etmişik, düşmənlərimizin əhsəni üçün fəaliyyət dairəmizi bir daha genişləndirmiş... daha doğrusu, oturduğumuz budağı öz əlimizlə kəsmişik. Belə haqsızlığa məruz qalan ziyalılarımızdan

biri də dahi maarifpərvər Rəşidbəy Əfəndiyevin kiçik qardaşı Abdullabəy Əfəndiyev olmuşdur. Onun barəsində Mövsüm Əliyev ilk dəfə "Odlar yurdu" qəzetində (№ 19, oktyabr 1990) məlumat vermişdir. Cüzi ixtisarla nəzərinizə çatdırırıq: "Abdullabəy İsmayıl oğlu Əfəndiyev 1873-cü il martın 3-də Şəki şəhərində anadan olmuşdur. O, tanınmış Azərbaycan yazıçısı və pedaqoqu Rəşidbəy Əfəndiyevin (1863-1942) kiçik qardaşıdır. A. Əfəndiyev əvvəlcə Şəkidəki rus məktəbini bitirdikdən sonra, 1891-ci ildə Yelizavetpol (Gəncə) Mixaylov sənət məktəbindəki kənd təsərrüfatı şöbəsinə daxil olmuş və dörd il burada oxuduqdan sonra öz doğma şəhərinə müəllim təyin edilmişdi. A. Əfəndiyev Şəkidə iki il müəllimlik etdikdən sonra təhsilini Tiflis Müəllimlər İnstitutunda davam etdirmişdir. O, 1899-cu il iyulun 9-da institutu bitirərək, şəhər məktəbi müəllimi hüququ almışdır. Həmin ildə Bakıya gələn A. Əfəndiyev ikinci dərəcəli şəhər rus-müsəlman məktəbində müəllim vəzifəsində çalışmağa başlamışdır.

Abdullabəy Əfəndiyevin maarifçilik yolu, əsasən, keçən əsrin 90-cı illərindən başlanmışdır. O, həmin dövrdə Şəki məktəbində onunla birlikdə dərs demiş, məşhur "Molla Nəsrəddin" jurnalının banilərindən biri Ömər Faiq Nemanzadə (1872-1938) ilə birlikdə xalq həyatını yaxından öyrənmiş, fanatizm, cəhalət və mədəni gerilik əleyhinə geniş maarifçilik təbliğatı aparmışdır. O, Ömər Faiqlə birlikdə Şəkidə M. F. Axundovun (1812-1878) "Molla İbrahimxəlil kimyagər" və "Müsyö Jordan və dərviş Məstəli şah" komediyalarını tamaşaya qoymuşdur. A. Əfəndiyev Şəkiətrafı kəndlərdən topladığı folklor nümunələrini rus dilinə tərcümə edərək, Tiflisdə nəşr olunan məşhur "Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza" "SMOPK" məcmuəsinin 1894-cü il nömrəsində çap etdirmişdir. Bundan başqa o, rus ədəbiyyatından tərcümələr etməklə də məşğul olmuşdur. A. Əfəndiyev rus klassik poeziyasının nümayəndələri İ.A. Krılov və M. Y. Lermontovun əsərlərini tərcümə edərək, dövri mətbuatda və kitabça halında nəşr etdirmişdi. Onun 1903-cü ilin martında Tiflisdə nəşrə başlayan "Şərqi-

Rus" qəzetindən tutmuş 1917-ci ilə qədər Bakıda və Qafqazın müxtəlif yerlərində çıxan dövri mətbuatda xeyli məqalələri çap olunmuşdur. Bunu da qeyd etmək lazımdır ki, bu məqalələrin çoxu indiyə qədər araşdırılmamışdır.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. A. Əfəndiyev siyasi hadisələrə fəal surətdə qoşuldu. O, həmin il dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan Parlamentinə gizli səsvermə yolu ilə Şəkidən üzv seçilmişdi. 1919-cu il yanvarın əvvəllərində Azərbaycan Parlamentində Abdullabəy Əfəndiyev tərəfindən yeni bir siyasi təşkilatın, yəni "Əhrar" partiyasının yaranması haqqında bəyanat verildi. ("Azərbaycan qəzeti № 18, 14 yanvar 1919-cu il, rus dilində). Beləliklə, Azərbaycan Parlamentində yeni fraksiyanın əsası qoyuldu. Yeni yaranmış "Əhrar" partiyasının proqramı "Müsavat"ın məramnaməsinə daha yaxın idi. Bu partiyaya daxil olanların əksəriyyəti Azərbaycanın Kür çayından şimalda yerləşən hissəsindən və əsasən, sünni məzhəbdən olan kəslərdən ibarət idi. "Əhrar" partiyasının fraksiyası aqrar reformanın layihəsinin hazırlanmasında və Azərbaycan Parlamentində qəbul olunmuş bir çox müsbət qərarların həyata keçirilməsində hərtərəfli rol oynamışdır.

Bildiyimiz kimi, Azərbaycan Demokratik Respublikası hökumətinin göstərişi ilə 1919-cu ilin martında latın əlifbasına keçmək haqqında hazırlıq başlanmış və xüsusi komissiya da yaradılmışdır. ("Azərbaycan" qəzeti, № 68, mart, 1919-cu il). Bununla əlaqədar olaraq A. Əfəndiyevin həmin ildə latın əlifbası ilə "Son türk əlifbası" kitabı çap olunmuşdur.

O, 1920-ci ilin əvvəllərində "Əhrar" partiyasından çıxaraq Azərbaycan Parlamentində sol müstəqil kimi çıxış etmişdir. Həmin ildə onun mətbuatda Azərbaycan əlifbası islahatına aid bir neçə məqaləsi çap edilmişdir ("Azərbaycan" qəzeti, № 23, 32, 59, 63, 1920-ci il).

1920-ci il aprelin 28-də baş verən hadisələrdən sonra A. Əfəndiyev Azərbaycan Pedaqoji İnstitutunda dərs demişdir. Bu illərdə onun ali məktəb tələbələri üçün "Fənni-tərbiyə" adlı kitabı çap olunmuşdur. Əsərdə tərbiyənin insan həyatında böyük rolu işıqlandırılmışdır. Onu da deyək ki, kitab bu sahədə Azərbaycanda ilk addım idi.

Öz dövrünün görkəmli siyasi və ictimai xadimi olmuş Abdullabəy Əfəndiyev 1928-ci ildə Bakıda vəfat etmişdir.

XALQ MÜƏLLİMİ

"Elm tələb etmək Allah qatında namaz, oruc, həcc və Allah yolunda savaşmaqdan daha üstündür".
Peyğəmbər (s)

Rəcəb Əfəndiyev.

Azərbaycan xalqının görkəmli şəxsiyyətləri və maarifçiləri həmişə çalışmışlar ki, qaranlıq mühiti işıqlandırmaq üçün sönməyən bir məşəl yaratsınlar, xalqı qəflət yuxusundan oyatsınlar.

Ətrafına nur saçan, minlərlə gəncin gözünə maarif işığı verən, bütün ömrünü Vətən övladının savadlanmasına, mədəni inkişafına sərf edən belə nəcib insanlardan, müəllimlərdən biri də Rəcəb Əsədulla oğlu Əfəndiyev olmuşdur.

Rəcəb Əfəndiyev 1893-cü ildə Şəki şəhərində sənətkar ailəsində doğulmuşdur. Atası dövrünün açıq fikirli adamlarından biri olduğundan, oğlu Rəcəbin təlim-tərbiyəsinə ciddi fikir vermiş, onun xalqa layiqli bir övlad kimi yetişməsində çalışmışdır.

İlk təhsilini mədrəsədə, sonra isə Nuxa şəhər məktəbində alan Rəcəb Əfəndiyev 1909-cu ildə Zaqafqaziyanın məşhur Qori Müəllimlər Seminariyasına daxil olur.

Rəcəb Əfəndiyev hələ seminariyanın tələbəsi ikən ictimai fəaliyyətə başlamış, bir sıra mədəni-maarif tədbirlərinin həyata

keçirilməsində fəal iştirak etmişdir. O, həm seminariyada, təhsil müddətində, həm də tətillər zamanı Nuxada dram dərnəyi təşkil etmiş, doğma şəhərində qiraətxana, axşam savad kursları yaratmış, müxtəlif mövzularda kütləvi mühazirələr oxumuşdur. Elə həmin illərdən mətbuat səhifələrində də çıxış etməyə başlamışdır. Tələbəlik zamanı, yəni 1912-ci ildə hələ 19 yaşında ikən rus dilində yazdığı "Tərbiyə sistemində həvəsləndirmə və cəza" adlı 2 çap vərəqi həcmində əsərini Qori Müəllimlər Seminariyasının iclasında oxumuş və əsər yüksək qiymətləndirilmişdir.

Gənc Rəcəbin həyatından iki fakt çox maraqlıdır:

1. 1911-ci ilin noyabrında Qori Müəllimlər Seminariyasında M. F. Axundovun anadan olmasının 100 illiyi münasibətilə xatirə gecəsi keçirilmişdi (məşhur pedaqoq F. Köçərlinin rəhbərliyi ilə). Xatirə gecəsində M. F. Axundovun "Müsyö Jordan və dərviz Məstəli şah" komediyası azərbaycanlı tələbələrin ifasında tamaşaya qoyulmuşdu. Rəcəb Əfəndiyev həmin tamaşada Məstəli şah rolunda çıxış etmişdir. Onun ifası o qədər təsirli və güclü olmuşdur ki, tamaşanını axırında F. Köçərli sevimli tələbəsinə demişdi: "Oğlum, Rəcəb, sağ ol, məni sevindirdin. Məstəli şah rolunu çox gözəl oynadın" ("Yeni İrşad" qəzeti, № 78, 12 fevral 1911).

II. Yuxarıda qeyd edildiyi kimi, Rəcəb Əfəndiyev seminariyadan, Nuxaya yay tətillərinə gələndə tamaşalar təşkil edərmiş. "İqbal" qəzetinin 5 avqust 1912-ci il tarixli 130-cu nömrəsində Nuxadan Həsən Tahirzadə adlı birisi yazırdı: "... Şəhərimizin, hümmətli, qeyrətli cavanları Rəcəb Əfəndiyev, Məbud Sərkarov, Yəhya Səfərov, Məmmədiyyə Əzizağayev, Məmmədiyyə Əfəndiyev zavallı cəmiyyəti-xeyriyyəmizin belə fəlakətlər keçirdiyini nəzərə alıb, bir həftə əvvəl hümmət əllərini uzadaraq, cəmiyyəti-xeyriyyəmiz mənfəətinə bir teatr tərtib etdilər... Hasil olan 57 manat 35 qəpiyi cəmiyyəti-xeyriyyəmizin kassasına təslim etdilər. Belə fədakar cavanların xidməti müqabilində şükrani-nemət olmaq birinci vəzifələrdəndir..."

Rəcəb Əfəndiyev 1913-cü ildə Qori Seminariyasını bitirir. Onun seminariyanı bitirərkən müxtəlif fənlərdən aldığı qiymətlər çox maraqlıdır: Qori Seminariyası arxivi, qovluq № 11/51, səhifə 17: "Şəriət - 5: əxlaq - 5, rus dili - 4, Azərbaycan dili - 4, pedaqogika - 4, hesab - 5, həndəsə - 4, təbiətşünaslıq - 4, pedaqoji praktika - 4, kənd təsərrüfatı bilikləri - 4" və s...

Ona hüsnxətdən 3 qiymət verilmişdi. Halbuki Rəcəb Əfəndiyevin istər ərəb, istərsə də rus əlifbası ilə dəsti-xəttini görənlər təsdiq edə bilərlər ki, onun necə dəyərli, muncuq kimi gözəl xətti olmuşdur.

Rəcəb Əfəndiyevin rus dilindən "4" alması da çox qəribədir. Onun hələ seminariyaya daxil olmaq üçün 16 avqust 1909-cu ildə yazdığı ərizəsindən bir misal gətirmək yerinə düşərdi:

"Прощение"

Представляя при семметрическое свидетельство о моем рождении за № 692 имею честь покорнейше просить Ваше превосходительтсво допустить меня к конкурсным экзаменам вверенной Вам семинарии ... и т.д."

Seminariyaya daxil olmamışdan belə gözəl, səlis dildə, yüksək savadla yazmağı bacaran bir adam 5 il seminariyada oxuduqdan sonra necə olur ki, rus dilindən "5" ala bilmir? Görünür, Qori Seminariyasında son dərəcə yüksək tələbkarlıq var imiş.

1913-cü il Qori Seminariyasını bitirən Rəcəb Əfəndiyev Göyçay qəzasına müəllim təyin edilir. Cəhalətlə üz-üzə gələn müəllim əziyyətlər çəkir, çətinliklərlə qarşılaşır. Lakin çətinliklər onu qorxutmur, iradəsini pozmur, təkcə gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmaqla kifayətlənmir, o, həm də valideynlərin gözlərini açmağa çalışır.

1915-ci ildə Rəcəb Əfəndiyev qadın və kişi gimnaziyasına müəllim təyin olunur. O, Rəşidbəy Əfəndiyev ilə birlikdə Şəkidə üçaylıq müəllimlər kursu təşkil edir.

O zaman dərsliklərin olmaması, yaxud da vaxtilə cüzi tirajla buraxılan "Vətən dili", "Uşaq çeşməyi", "Ana dili", "Gülzar" və s. dərsliklərin sıradan çıxması müəllimlər üçün böyük çətin-

lik törədirdi. Dərsliyə olan, xüsusilə qiraət dərsliklərinə olan ehtiyacı müəyyən qədər ödəmək məqsədilə qayğıkeş müəllim Rəcəb Əfəndiyev 1917-ci ildə 160 səhifədən ibarət "Türk qiraəti" dərsliyini tərtib edərək Şəkidə nəşrinə nail olmuşdur. Dərslikdəki oxu materialları uşaqlarda məktəbə, elmə, kitaba məhəbbət hissi tərbiyə edirdi. İşlədiyi ilk illərin qayğısı o qədər çox idi ki, o, öz sevimli müəllimi F. Köçərliyə məktub yazmağa belə bəzən macal tapa bilmirdi; məktəb işi, kurslar təşkil etmək və digər qayğıların çoxluğu Rəcəb müəllimi hətta mətbuat səhifələrində çıxış etməkdən də uzaqlaşdırmışdı. O, gecə-gündüz maarif işi ilə məşğul idi. Elə buna görədir ki, qayğıkeş F. Köçərli öz istedadlı şagirdinə 17 dekabr 1915-ci il tarixli məktubunda yazır: "Mehribanım Rəcəb! Çoxdandır ki, səndən bir əhval yoxdur. Bilmirəm sən mənə yazmamısan, yoxsa mən səni unutmuşam. Nə üçün qəzetlərdə əhval yazmırsan? Mümkün mən səni unutmuşam. Nə üçün qəzetlərdə əhval yazmırsan? Mümkün olsa, "Yeni İqbal"a hekayələrindən göndər, dərc olunsun. İstəyirsən, mən Üzeyirə yazım sənin barəndə və o, sənə məxsusi təklif eləsin yazmağı. Badisəbanın sənə salamı var. Baqiyi-ehtiram, Allah amanında olmağını istəyirəm. Müəllimin Firudin. 17 dekabr 1915, Qori..."

R. Əfəndiyev müəllimini unutmamışdı. Seminariyanı qurtardıqda buraxılış zamanı Firudin bəyin onlara etdiyi nəsihəti bir an da yaddan çıxarmır, ona əməl edirdi.

O zaman Firudin bəy demişdi: Əziz və mehriban balalarım! Seminariyadan aldığımız bilik və mərifəti cəhalət və nadaqlıqda qalan qardaşlarınıza sərf edin, onların nicatına cəhd edin ki, sizi sevsinlər, sizə etibarları olsun. Buradan apardığınız elmi elə yüksək və hündür məqamda saxlayın ki, nuru ətrafı da işıqlandıra bilsin... Müəllimlik ağırdır, amma pak və müqəddəs xidmətdir. Zəhmət çəkin və səy edin ki, fənninizi kəmalınca yerinə yetirəsiniz. Sizin tərifiniz bizi xoşhal və başıuca edəcək, eybiniz isə məyus və məlul qalacaqdır. Əlbəttə, bizi məyus etməyi özünüzə rəva görməzsiniz".

F. Köçərli, Ə. Haqverdiyev və S.S. Axundovla səmimi dostluq edən gənc Rəcəb müəllim xalqının maariflənməsi yolunda əlindən gələni etmişdir. O, təkcə dərs deməklə, məktəblər təşkil etməklə kifayətlənməmiş, pedaqoji və ictimai fəaliyyəti ilə yanaşı, bədii yaradıcılıqla da məşğul olmuşdur. O, hələ seminariyada oxuyan zamandan başlayaraq, müxtəlif mətbuat səhifələrində maraqlı hekayələr dərc etdirirdi.

1911-ci ildə "Yeni İrşad" qəzetində Rəcəb Əfəndiyevin "Gimnazist Vahid, yaxud mütəəlimlərə ibrət", "Aclar", "Əttar dükanında", "Rahat olmaq istəyirəm", "Tərbiyə qurbanı" hekayələri; 1912-ci ildə "Məktəb" jurnalında "Axır çərşənbəsi" pyesi; 1914-cü ildə "İqbal" qəzetində "Kimdir o?", "Yaxşılıq" hekayələri çap olunmuşdur. 1917-ci ildə Nuxa mətbəəsində onun "Namus" povesti ayrıca kitabça halında çıxmışdır. Bu povest hələ 1915-ci ildə bütövlükdə "Dirilik" jurnalında verilmişdir.

Həmin bədii əsərlərdə ailə-məişət məsələlərinə toxunulur, xalq kütlələrinin maariflənməsinə maneçilik törədənlər tənqid edilir, o dövrün sadə insanlarının, binəsiblərin ağır və yoxsul həyat təsvir olunur.

Onun fəaliyyəti, əsasən, üç istiqamətdə olmuşdur:

1. Onun Rəşidbəy Əfəndiyevlə birlikdə Nuxa Pedaqoji Məktəbini təsis etməsi, 1928-ci ildək həmin məktəbin direktoru olması, sonra isə Bakıda qiyabi Pedaqoji İnstitutda dosent vəzifəsində çalışması xüsusilə qeyd edilməlidir.

II. Rəcəb müəllim çox səmərəli elmi tədqiqat və metodik işlə məşğul olmuş, bir sıra elmi-pedaqoji əsərlər yazmışdır: "İş yeri seçmənin pedaqoji prinsipləri", 1931, "İş otağı", - 1933" "Müəllimləri ixtisasını artırmaq işinin təşkili", 1934, "Kurs işlərinin metodları" - 1935, "Qiyabi təhsil sistemində şifahi konsultasiya" 1935-ci illər və s. A. Əfəndiyevin dilimizdə pedaqoji fənlərə aid istilahların müəyyənləşdirilməsində də böyük xidməti olmuşdur. 1930-cu ilin sonunda "İzahlı pedaqoji lüğət" tərtib edən müəlliflər kollektivi yaradılmışdı. Rəcəb müəllim

"İzahlı pedaqoji lüğət"in ən ağır sahəsini öz üzərinə götürərək, 4 min istilahdan ibarət lüğət tərtib etmişdi.

R. Əfəndiyevin yazdığı "Xalq maarifi üzrə təlim kitabı" və "Füzulinin pedaqoji görüşləri" əsərləri də çox diqqətəlayiqdir.

Yorulmaq bilməyən bu görkəmli maarif xadimi Böyük Vətən müharibəsi illərində daha səmərəli işləmişdir. Onun bu illərdə yazdığı "Gənc nəslin hərbi tərbiyəsi", "Şagirdlərin fiziki tərbiyəsi və hərbi hazırlıq" kitablarını, "Müəllimlərin iki sinifdə eyni zamanda işləməsi haqqında", "İki komplektli məktəbdə müəllimin işi", "Pedaqoji məktəblərdə pedaqoji təcrübənin təşkili və üsulları", "Direktor tərəfindən dərslərin dinlənilməsi və təhlil edilməsi üsulu" adlı əsərləri indi də öz elmi-pedaqoji əhəmiyyətini saxlamaqdadır.

III. Rəcəb müəllim tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuş, dünya və rus klassik pedaqoji fikri ilə müəllimlərimizi tanış etmişdir.

Onun tərcümə etdiyi əsərlər sırasında Y.A. Kamenskinin "Didaktik prinsiplər", Uşinskinin "Məktəbdə təlim-tərbiyə işləri haqqında", "Herbatın "Seçilmiş əsərlər"i, H. Pestalossinin "Seçilmiş əsərlər"ini misal göstərmək olar.

Rəcəb Əfəndiyev pedaqogika və psixologiyadan orta və ali məktəblər üçün yazılmış qiymətli dərsliklərin də ilk tərcüməçisi və redaktoru olmuşdur.

Görkəmli maarif xadimi Rəcəb müəllim nəsillərə nümunə olacaq mənalı bir həyat yolu keçmişdir. O, öz istedadı və əməksevərliyi ilə ibtidai məktəb müəllimliyindən alimliyə qədər yüksəlmişdir. Görkəmli alimləri - akademik Makolevski, professor Komarovski və b. Rəcəb Əfəndiyevin elmi-pedaqoji fəaliyyətindən səmimiyyətlə danışmışlar.

Rəcəb Əsədulla oğlu Əfəndiyev 1956-cı ildə Bakıda vəfat etmişdir. 25 dekabr 1973-cü ildə Şəki pedaqoji məktəbində görkəmli maarifçi alim R. Əfəndiyevin anadan olmasının 80 illik yubileyi təntənəli surətdə qeyd edilmişdir. Bu münasibətlə Azərbaycan Dövlət Elmi Tədqiqat Pedaqogika İnstitutunun rəhbərliyi göndərdiyi təbrik məktubunda yazırdı: "... Mənalı ömrünü doğma xalqın maariflənməsinə, neçə-neçə nəslin təlim və tərbiyəsinə vətəndaşlıq hünəri, böyük məsuliyyət hissi və həvəslə sərf edən Rəcəb Əfəndiyev Firudin bəy Köçərli, Rəşidbəy Əfəndiyev, Ə. Haqverdiyev, A. Şaiq, S.S. Axundov, M. Mahmudbəyov, A. Əmirov, C. Cəbrayılbəyli kimi görkəmli xalq müəllimləri və maarif xadimləri ilə çiyin-çiyinə fəaliyyət göstərmişdir. Rəcəb müəllim bu gün də Azərbaycan müəllimlərinin qəlbində yaşayır, hər yerdə hörmət və ehtiramla yad edilir.

R. Əfəndiyev Azərbaycan Dövlət Elmi Tədqiqat Pedaqogika İnstitutunun əməkdaşı olmuş, Y.A. Kamenski, K.D.Uşinski, H. Pestalotsi, B.M.Teplov kimi məşhur pedaqoqların əsərlərini tərcümə etməklə müstəsna iş görmüşdür..."

Həmin təntənəli yubiley günündə R. Əfəndiyevin yetişdirmələrindən olan respublikanın əməkdar rus dili müəllimi şəkili Yusif Zəkəriyyə oğlu Məmmədovun çıxışından: "... Hörmətli müəllim Rəcəb Əfəndiyevi mən 1909-1912-ci illərdə "Vətən məktəbi" adlı rus-tatar (rus-Azərbaycan - **Ə.M.**) məktəbində oxuyan illərdən tanıyıram. O, hələ Qori Seminariyasında oxuyan illərdə yay tətilinə gələn zaman arabir bizim məktəbə gəlib müəllimlərlə görüşərdi. O zamandan coşğun maarifpərvər bir şəxs olduğundan müəllimlərlə söhbət edib, yaxşı oxuyan uşaqlardan bir neçə nəfərini seçib rus məktəbinə daxil olmağa hazırlaşdırardı. Biz altı nəfər uşağı, o üç yay fəsli hazırlaşdırıb 1912-ci il ali ibtidai rus məktəbinə imtahanla qəbul olunmağımıza səbəb oldu. Mən 1912-ci ildə "Vətən məktəbi"ni bitirib, rus ali ibtidai məktəbinin III sinfinə daxil oldum. 1914-cü ildə zükur gimnaziyası açıldıqda orta təhsil almaq üçün gimnaziyaya daxil oldum. Rəcəb müəllim 1916 və 1919-cu illərdə gimnaziyanın hazırlıq siniflərində rus dilindən və əsas siniflərdə Azərbaycan dilindən, həm də yay aylarında açılan müəllimlər kurslarında pedaqogikadan dərs deyərdi. O, gimnaziya tələbələrindən teatr truppası təşkil edib, onlara rəhbərlik edərdi. Teatro və müsami-

rələrdən gələn pullardan kasıb tələbələrə paltar, ayaqqabı, dərsliklər almaq üçün maddi köməklik verdirərdi.

Rəcəb müəllimin əsas arzusu zəhmətkeş balalarını savadlandırıb elmli, müxtəlif peşələrə sahib olan şərəfli və namuslu əməklə yaşayan insanlar yetişdirmək idi". O zaman Şəkinin qabaqcıl maarifpərvər müəllimlərindən Rəşidbəy Əfəndiyevin, Ələkbər Mahmudovun, Abdullabəy Azaqbəylinin, Əhməd Bayramzadənin, Məmmədəli Xəlizadənin, Veysəl Mustafazadənin, Məmmədiyyə Əfəndiyevin, Mabud Əfəndiyevin, Baxşəli Əfəndiyevin, Zahid Əlizadənin və digər çalışqan müəllimlərin köməyi ilə Şəki qəzasının bütün kəndlərində ümumtəhsil məktəblərinin açılmasını, şəhərdə fəhlələr və kəndlərdə kəndlilər üçün savad kurslarının açılmasını təşkil etdilər. Bu tədbirlərlə yanaşı şəhərdə fəhlə, qadın, kəndlərdə kəndli klublarının açılmasına təşəbbüs göstərdilər. Rəcəb müəllim seminariyada tələbələrini həm müəllimliyə, həm də məişətə lazım olan peşələrə hazırlayırdı. Ona görə də seminariyada dülgərlik, dəmirçilik, dərzilik, bağçılıq, ipəkçilik və arıçılıqdan da otlaqlar ayırıb məşğələlər keçirirdi. O, seminariyada nəfəsli və simli orkestr təşkil edib, rəsmi bayramların şəhərdə təntənəli keçməsinə şərait yaradırdı. Qış və yay tətili zamanı orkestr və teatr truppasını təşkil edib. Şəki qəzasının uzaq kəndlərinə aparıb, xalq maarifinin nailiyyətlərini canlı bir surətdə zəhmətkeş kəndlilərin qarşısında nümayiş etdirərdi. O, Şəkidə işlədiyi illərdə qəza maarif xadimləri ittifaqının fəal üzvlərindən olub, müəllimlərin bütün ictimai işlərinə yaxından köməklik etmişdir.

Bir sözlə, o, həmişə insanı, onun həyatını, taleyini, arzu və istəklərini düşünərdi. Mütərəqqi ideyaların tərəfdarı olaraq, ədaləti, insanpərvərliyi, vətənpərvərliyi, əməksevərliyi, təmiz məhəbbəti, xalqlar dostluğunu, xeyirxahlığı və düzgünlüyü təbliğ edirdi. Onun qəlbi həmişə xalqın ürəyilə, ölkənin nəbzi ilə bir vurardı. O, dərin zəkası, fitri istedadı, qüdrətli qələmi ilə sidqlə xalqa xidmət etmişdir.

Məgər ziyalı üçün yuxarıda deyilənlərdən qiymətli sözlər

tapmaq olarmı? Rəcəb müəllim bunların hamısını öz saflığı, öz zəkası, öz sənətə bağlılığı, öz müdrikliyi... ilə qazanmışdır.

"Əkinçi" qəzetinin banisi və mühərriri Həsən bəy Zərdabi 1876-cı ildə üzünü gənc müəllimlərə tutaraq yazmışdır: "Siz xalq üçün zəhmət çəkirsiniz, gələcəkdə millətin gözü açılanda, sizi şəhid hesab edib, sizə rəhmət oxuyacaq" ("Əkinçi" qəzeti, № 1, 11 iyun 1876).

Gəlin, xalq müəllimi, maarifçi alim Rəcəb Əfəndiyevin əziz və əbədi ehtirama layiq adını rəhmətlə xatırlayaq.

Arzu edək ki, onun yaradıcılıq yolu lazımınca öyrənilsin, gələcək nəslə çatdırılsın, müqəddəs xatirəsi vətəni Şəkidə və illərlə işlədiyi Bakıda əbədiləşdirilsin. Hələ savadsızlığın tam hökm sürdüyü bir dövrdə azəri balalarına ana dili ilə birlikdə rus dilini də öyrədən müəllimin uzaqgörənliyi, zəhməti layiqincə qiymətləndirilsin. Şəkidə orta məktəblərdən biri nə üçün bu zəhmətkeş, cəfakeş müəllimin adını daşımasın?...

Hüseyn Əfəndiyev.

Rəcəb müəllimin övladları da öz sənətləri sahəsində tanınmış adamlardır. Onun böyük oğlu Hüseyn Əfəndiyev Azərbaycan Neft və Kimya İnstitutunda dosent işləmişdir. Böyük qızı Münəvvər xanım Azərbaycan Pedaqoji İnstitutunda riyaziyyat ixtisası üzrə dosent olub, kiçik qızı Pirayə isə memardır. Maraqlıdır ki, Pirayə xanım ən çox məktəb binalarının layihələri üzərində işləyir.

Münəvvər Əfəndiyeva.

Rəcəb müəllimin oğlanlarından Əziz Əfəndizadə respublikamızda tanınmış professordur, uzun müddət Azərbaycan Elmi Tədqiqat Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı tədrisi metodikası şöbəsinə rəhbərlik etmiş, 1996-cı ildə dünyasını dəyişmişdir.

ƏMƏKDAR RUS DİLİ MÜƏLLİMİ

"Yaxşı tərbiyə bizim xoş gələcəyimizdir, sevincimizdir, pis tərbiyə isə bizim göz yaşlarımızdır, cəmiyyət qarşısında günahımızdır".
A.S.Makarenko.



Yusif Məmmədov.

Deyirlər ki, Teymurləng qocalanda özü üçün məqbərə tikdirmişdir ki, onu öləndə orada dəfn etsinlər. Teymurun ən çox sevdiyi müəllimi, məsləhətçisi ondan qabaq ölür. Cəsədi yuyurlar, kəfənləyirlər, ancaq onu harada dəfn etmək lazım olduğunu Teymurdan soruşmağa qorxurlar. Nəhayət, Teymur əmr edir ki, müəllimini öz üçün hazırladığı məqbərədə dəfn etsinlər. Cəsədi Teymur özü məqbərəyə salır, göz yaşı töküb ağlayır və eləcə də orada vəsiyyət edir ki, öləndə onu müəlliminin ayaqları altında dəfn etsinlər. Bu, tarixi həqiqətdir.

Öz müəlliminə belə misilsiz məhəbbətlə bağlı olan şagirdlərdən biri də respublikanın əməkdar müəllimi Yusif Zəkəriyyə oğlu Məmmədov olmuşdur. Bu gözəl insan, xalq müəllimi, görkəmli maarif xadimi, H. B. Zərdabi, N. B. Vəzirov, S. M. Qənizadə, Ə. B. Haqverdiyev, N. Nərimanov, R. B. Əfəndiyev kimi sənətkarların yaxın dostu və adları onlarla yanaşı çəkilən Rəcəb Əsədulla oğlu Əfəndiyevin tələbəsi olmuşdur.

Məmmədov Yusif Zəkəriyyə oğlu 1897-ci ildə Şəkidə, fəhlə ailəsində doğulmuşdur. Onun atası Zəkəriyyə Məmməd oğlu 42 il Şəki ipək fabrikində fəhlə olmuş, 1922-ci ildə vəfat etmişdir. Yusif 1908-1911-ci illərdə Şəkidə "Vətən məktəbi"ndə oxumuş, sonra rus ali ibtidai məktəbinin 3-cü kursuna qəbul olunmuşdur. Bu məktəbi qurtardıqdan sonra (1914) Nuxa kişi

gimnaziyasında oxumuşdur. 1919-cu ildə təhsilini başa vuran Y. Məmmədov müəllim hazırlayan qısamüddətli kurs qurtarmışdır. Beləliklə, 1919-1930-cu illər arasında Şəkidə fasiləsiz olaraq ibtidai, orta məktəblərdə, texnikumlarda, fəhlə fakültəsində müəllim, maarif şöbəsinin müdiri, metodist, inspektor işləmişdir.

1930-cu ildə Y. Məmmədov iqtisadiyyat institutuna qəbul olunur. 1932-ci ilə qədər orada təhsil alır. 1932-ci ildə dövlətin qərarı ilə həmin institut ləğv edilir. Bununla əlaqədar Y. Məmmədov Azərbaycan Xalq Təhsili Komissarlığının qərarı ilə Nuxa Pedaqoji Texnikumuna direktor təyin edilir. Vaxtilə bu texnikuma onun unudulmaz müəllimi, tanınmış maarifçi alim Rəcəb Əfəndiyev başçılıq etmişdir. Bununla bərabər, Yusif müəllim yenə də təhsilini davam etdirməyi unutmur. 1938-ci ildə Bakıda orta məktəb rus dili müəllimləri təkmilləşdirmə kursunu qurtarır, 1939-cü ildə rus dilinin tədrisi ilə əlaqədar yeni bir kurs qurtarır, yenə 1939-cu ildə Zaqafqaziya Pedaqoji İnstitutu rus bölməsinin ədəbiyyat şöbəsinə qəbul olur. 1941-ci ildə rus dili və ədəbiyyatı ilə əlaqədar ikiillik kurs bitirir. O, bəlkə də təhsilini yenə davam etdirəcəkdi. Lakin amansız müharibə buna imkan vermədi. 1941-ci ilin sentyabrından 15 mart 1943-cü ilə qədər Böyük Vətən müharibəsində iştirak etdi. Müharibədən qayıdan Yusif müəllim yenə də orta məktəblərdə rus dili və ədəbiyyatından dərs demiş və rayon maarif şöbəsində işləmişdir. Daha sonra istedadlı rus dili və ədəbiyyatı müəllimi Y. Məmmədov Şəkidə fəaliyyət göstərən (1939-1954) ikiillik Müəllimlər İnstitutunda işləmişdir. Qeyd etmək lazımdır ki, Yusif müəllim ömrünün sonuna qədər müqəddəs sənətindən heç vaxt uzaqlaşmamışdır.

Belə ki, müəllimliklə yanaşı, Y. Məmmədov 1924-1929-cu illərdə Nuxa uyezd Maarif İşçiləri İttifaqının məsul katibi, Nuxa-Zaqatala dairəsi İcraiyyə Komitəsinin katibi (1929-1930), Nuxa şəhər Partiya Komitəsi kadrlar şöbəsinin müdiri (1932-1933), Nuxa RİK təşkilat şöbəsinin müdiri (1933-1935) və s. işləmişdir.

Onu da qeyd etmək lazımdır ki, Yusif müəllim ərəbcə çox savadlı idi. Quranı sərbəst tərcümə edə bilirdi. İstedadlı müəllim repressiya dövründə inandığı ailədən olan gənclərə gizlicə

Quranı öyrətmiş, onlardan Hacı Səlim əfəndi sonralar Şəki məscidinə uzun illər başçılıq edib.

Hacı Səlim Əfəndi haqda Ələfsər Məmmədov, Fikrət Xalıqov "Şəki-alim və ziyalılar" kitabında (Bakı, 2002, səh. 507) yazırlar: "Hacı Səlim Əfəndi Səfərov 1940-cı ildə Şəkidə anadan olmuşdur. 1974-cü ildə tanınmış ziyalı Yusif Əfəndidən 6 il dini dərs almış, 1980-cı ildə Şeyxülislam tərəfindən Şəki şəhərinə imam təyin olunmuşdur. 1983-cü ildə Həcc ziyarətinə getmişdir. 1986-cı ildən Şəki-Qəbələ bölgəsinin qazisidir".

Unudulmaz xalq müəllimi Y. Məmmədov 1985-ci ildə Şəkidə vəfat etmişdir.

KOMMUNAL TƏSƏRRÜFAT KOMİSSARLIĞINDAN ... MÜƏLLİMLİYƏ

Ey insanlar, biz sizi kişilər və qadınlar kimi xəlq etdik, sizlərdən xalq və tayfalar yaratdıq ki, bir-birinizi tanıyasınız...
(Quran, 49 surə, 13-cü ayə).

İnsanla yaşayan mərddir, kişidir,
Kimsəni sevməmək namərd işidir.
Nizami GƏNCƏVİ

Əlihüseyn Əfəndiyev.

İnsanı ilahi bir eşq, yüksək məhəbbətlə sevən ədəbiyyat peyğəmbərimiz Nizami həmişə humanizmi təbliğ etmişdir. Onun fikrincə, insan insanı sevməlidir. Bir insanın cəmiyyətdə sevilməməsi onun üçün ağır dərddir. Mərd kişi elinin, obasının sevimlisi olmalıdır. Xoşbəxt o şəxsdir ki, öləndən, dünyasını dəyişəndən sonra da hörmətlə yad edilir, hamı ürəklə deyir: "Allah rəhmət eləsin! Qəbri nurla dolsun, behiştlik olsun. Məgər atalar boş yerə deyiblər: "Mərdin ölüsü namərdin dirisindən hörmətli olar".

Allah rəhmət eləsin dünyasını dəyişmiş bütün mərd kişilərə və ana-bacılarımıza.

Şəkidə ad-san qazanmış, öləndən, dünyasını dəyişəndən sonra da hörmətlə, məhəbbətlə yad edilən mərd kişilərdən biri Əlihüseyn Məhəmməd oğlu Əfəndiyev olmuşdur. O, gənc yaşlarından çox vəzifələrdə oldu, lakin həyatının ahıl çağlarında müəllimlik etdi. O, ahıl yaşlarında öz həqiqi sənətinə başladı. Rus dili müəllimi olmaq o qədər də asan iş deyil, özü də Şəkinin ən nümunəvi məktəbində dərs demək. Qısa bir müddətdə o, həqiqi müəllim, Əlihüseyn müəllim kimi tanındı. Axı Şəkidə hərənin bir ləqəbi olur. Öz tay-tuşları, zarafatı olanlar ona "Bığ Əlihüseyn" də deyərdilər. Allah ona rəhmət eləsin!

Rəhmətlik mənim də müəllimim olub. Əvvəla, Əlihüseyn müəllim həddindən artıq səliqəli və təmiz geyinərdi. Bunu öz şagirdlərindən də tələb edərdi. Qışın ən soyuq çağlarında da Əlihüseyn müəllim sinfə gəlməmişdən qabaq otağın havası dəyişilməli idi. Biz ondan həm qorxur və həm də həddən çox onu sevərdik. Rus dilinə bir o qədər həvəsimiz olmasa da, Əlihüseyn müəllimin dərsini səbirsizliklə gözləyərdik. O, ilk dəfə sinfə gələndə uşaqları bir-bir ayağa qaldırar, atasını-nəslini soruşar və hər nəsil haqda da öz fikrini deyərdi, özü də obyektiv. Əlihüseyn müəllim istər yaxşı desin və istərsə də tənqid eləsin, heç kim inciməzdi. Hətta valideynlər də eşidəndə deyərdilər ki, Əlihüseyn müəllim düz deyir. O, Şəkidə hamının ləqəbini əzbərdən bilirdi. Özü də çox bamәzə idi. Müəyyən qrup adamlarla zarafat edərdi. Onun istər sinfə, istər məclisə, istər yığıncağa, çayxanaya gəlişi hamı tərəfindən xoş təbəssümlə qarşılanar və mütləq canlanma əmələ gələrdi.

Əlihüseyn müəllim kitab həvəskarı idi. Onun şəxsi kitabxanasında minlərlə nadir əsərlər toplanmışdı. Şəki kitabsevərləri Əlihüseyn müəllimin kitabxanasından geniş istifadə edirdilər. Etibarlı olmayan adama dünyasında kitab verməz, onlara öz ki-

tabxanasında məşğul olmağa icazə verərdi. Ə. Əfəndiyev rus dilinin mahir bilicisi idi. O bu dili uşaqlarına da tam öyrətmişdi. Əlihüseyn müəllim ərəb, fars dillərində sərbəst oxuyur, Quranı tam bilirdi. Sevdiyi, hörmət elədiyi adama kitab bağışlamağı sevərdi.

Ə. M. Əfəndiyev 1897-ci ildə Şəkidə anadan olmuşdur. Tiflisdə ibtidai təhsil aldıqdan sonra Şəkidə ali-ibtidai məktəbi bitirmişdir. O, əmək fəaliyyətinə 1917-ci ildə başlamış, 1924-cü ilədək teleqrafçı işləmişdir. Sonralar 1928-ci ilə kimi həmkarlar ittifaqı komitəsində, Azərbaycan İpək İdarəsi sistemində mühasib olmuş, Şəki şəhər İcraiyyə Komitəsi statistika şöbəsinin müdiri işləmişdir. 1928-1930-cu illərdə Ə. M. Əfəndiyev Leninqrad (indiki Sankt-Peterburq - **red**). Kommunal Akademiyasında oxumuşdur. Akademiyanı bitirdikdən sonra o, kommunal təsərrüfatı şöbəsinin, su idarəsinin müdiri, Naxçıvan Muxtar Respublikasında Xalq Kommunal Təsərrüfatı Komissarı və başqa rəhbər vəzifələrdə çalışmışdır. Ə. Əfəndiyev 1938-ci ildən pedaqoji işə keçmişdir. O, Şəki Pedaqoji Məktəbində, Kənd Təsərrüfatı Texnikumunda, bir çox ümumtəhsil məktəblərində çalışmış, 1968-ci ilədək şəhər 10 №-li orta məktəbində müəllimlik etmişdir.

Əlihüseyn müəllim.

Rus dilinin mükəmməl bilicisi, onu həvəslə gənclərə öyrədən Ə. M. Əfəndiyev 1 iyul 1970-ci ildə Şəkidə vəfat etmişdir.

Unudulmaz Əlihüseyn müəllim 5 uşaq atası, 9 nəvə, 9 nəticə babası idi. Böyük qızı Rübabə xanım Şəkidə tanınmış cərrah olmuş, Hicran xanım uzun müddət Azərbaycan Səhiyyə Nazirliyində işləmişdir. Tangiz atasının yolunu davam etdirmiş, rus dili müəllimi işləmişdir. Oğlu Səhhət mühəndisidir. O, Şəkidə oxuduğu orta məktəbə 750 ədəd kitab hədiyyə vermişdir.

Əlihüseyn müəllimin ən çox sevdiyi qızı Rübabə xanımın

yadigarı, tibb elmləri namizədi Aelita Əhmədova respublikamızda tanınmış həkim-ginekoloqdur.

Hörmətli müəllim Ə. M. Əfəndiyev haqda deyilənləri professor B. Əhmədovun "Müəllim şərəfi" ("Azərbaycan gəncləri", 3 iyul 1989-cu il) məqaləsindən bir parça ilə yekunlaşdırmaq istərdim: "Müəllim çinovnik ola bilməz. O, məsləhətçidir, yol göstərəndir, ağsaqqaldır, şagirdin (tələbənin) böyük yoldaşıdır, mənəvi valideynidir". Bu qiymətli sözlər, elə bil ki, Əlihüseyn müəllim üçün yazılıb.

AXUNDOV BAXŞƏLİ KAZIM OĞLU



Baxşəli Axundov.

B.K.Axundov – Baxşəli əfəndi ilk təhsilini atasının başçılıq etdiyi məktəbdə almışdır. Molla Kazım vəfat etdikdən sonra Baxşəli əfəndi həmin məktəbdə müəllim və direktor işləmişdir. B. K. Axundov Şəki maarifinin inkişafı üçün səylə çalışmış və müəllim kimi fəaliyyət göstərmişdir.

Baxşəli Kazım oğlu Axundov 1898-ci ildə Şəki şəhərində anadan olmuşdur. O, XIX əsrdə Şəkidə maarifpərvər bir şəxs olan Molla Kazımın oğludur. Molla Kazım isə Hacı Məhəmmədsadıq Əliyevin açdığı ilk məktəbin direktoru olmuşdur. Sonralar həmin məktəb ümumtəhsil məktəbi olmuş, hazırda Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun Şəki filialı kimi fəaliyyət göstərir.

O, 1920-ci ildə Şəkidə "Fəhlə-kəndli" klubu nəzdində ilk teatr qrupu təşkil etmiş və onun rəhbəri olmuşdur. Qüdrətli sənətkar İsmayıl Osmanlının yetişməsində B. K. Axundov böyük rol oynamışdır. Görkəmli aktyor bu haqda öz fikrini belə ifadə etmişdir: "Mən bu gözəl insana ömrüm boyu minnətdaram. Mənim ilk sənət müəllimim Baxşəli Axundov olmuşdur. Əvvəlan,

Baxşəli Axundov hər bir kobud səhnə hərəkəti və davranışının qəti düşməni idi. Məşqlərdən əlavə saatlarla bizimlə Azərbaycan, rus və Qərb ədəbiyatı haqqında maraqlı söhbətlər aparardı. Biz bilmədiyimiz bir çox pyeslərin məzmununu ətraflı danışardı. Nəinki ədəbiyyat, o bizə dünya xalqlarının tarix və mədəniyyətindən də məlumat verər, müəyyən fəlsəfi cərəyanlardan nağıl edərdi". (T. Kazımov, İsmayıl Osmanlı, Bakı, 1974, səh. 5-7).

B. K. Axundov 1936-cı ildə Gəncə şəhərində redaksiyada şöbə müdiri vəzifəsində çalışmışdır. Baxşəli əfəndi 1937-ci ildə bir çox qabaqcıl ziyalılar kimi repressiyaya məruz qalmış və həbs edilmişdir. Müxtəlif işgəncələrə məruz qalan B. K. Axundov yalnız 1947-ci ildə vətəni Şəkiyə qayıtmışdır. Azərbaycan KP MK-nın keçmiş birinci katibi M.C. Bağırovun mühakiməsindən sonra 1956-cı ildə onun günahsız əzablar çəkdiyi müəyyən edilmiş və o, bəraət almışdır. Yalnız bundan sonra Baxşəli Axundov öz sənəti üzrə əmək fəaliyyətinə başlamışdır. 1959-cu ildə Şəkidə musiqi texnikumunun açılmasına təşəbbüs göstərmiş və həmin texnikumda uzun müddət direktor işləmişdir. Şəkidə "Diyarşünaslıq" muzeyini müasir qaydada təşkil etmiş və orada direktor olmuşdur.

Görkəmli maarifpərvər və yenilikçi müəllim B. K. Axundov 1985-ci ildə Şəkidə vəfat etmişdir.

MƏMMƏDİYYƏ MÜƏLLİM

Məmməmədiyyə İbrahim oğlu Əfəndiyev 1898-ci ildə Şəkidə anadan olmuş, orada təhsil almış, ilk müəllimlik fəaliyyətinə 1917-ci ildə Zaqatalada başlamışdır. Məmmədiyyə müəllim 1918-ci ildən Nuxa (Şəki) ibtidai məktəblərində, sonra "Vətən məktəbi"ndə müəllimlik etmişdir.

M. İ. Əfəndiyev Azərbaycan Xalq Maarif Komissarlığının qərarı ilə 1924-cü ildə Gəncə Darülmüəllimatına türk dili müəllimi təyin edilir. 1925-ci ilin iyun ayında isə Gəncə Pedaqoji

Kursunun müdiri, daha sonra isə Gəncə maarif şöbəsinin müdiri olmuşdur. 1925-ci ilin dekabrında Ali Pedaqoji İnstituta daxil olması ilə əlaqədar maarif müdirliyindən azad edilmişdir.

Məmmədiyyə Əfəndiyev (ortada) Zaqatala qəzasında işləyərkən, öndə soldan 2-ci akademik İmam Mustafayev (1924-cü il).

Ali məktəbi qurtarandan sonra 10 yanvar 1927-ci ildən A. Şaiq adına Pedaqoji Texnikuma türk dili müəllimi təyin edilmişdir. 1828-ci ilin sentyabrından Azərbaycan Xalq Maarifi Komissarlığının əmrilə Ağdamda və Şəkidə müxtəlif tipli məktəblərdə müəllim olmuşdur. 1930-cu ilin mart ayından yenidən Pedaqoji Texnikumda türk dili müəllimi işləmişdir. İstedadlı türk dili müəllimi M. R. Əfəndiyev 1934-37-ci illərdə Nuxa rayon Maarif Şöbəsinin müdiri olmuşdur. 1937-ci ilin dekabr ayında Bakıya qayıdan Məmmədiyyə müəllim kitabxana müdiri təyin edilmişdir. 1943-53-cü illərdə Nuxa Dövlət İkiillik Müəllimlər İnstitutu dil-ədəbiyat kafedrasında baş müəllim vəzifəsində işləmişdir. 1969-cu ilə qədər yenidən orta məktəbdə müəllimlik edən M. İ. Əfəndiyev həmin ildə respublika əhəmiyyətli təqaüdə çıxmışdır. 1971-ci ildə vəfat etmişdir.

İNSAN ÖZ ƏMƏYİ VƏ ZƏKASI İLƏ UCALIR

Kişinin qədr və hörməti öz səy və çalışqanlığına görədir.
Əli əleyhissəlamın hikmətli kəlamlarından.

Əgər insan uşaqlıqdan elmə həvəs edirsə, deməli, o, səbirli və zəhmətkeşdir, ağıllı və tədbirlidir, təmkinlidir, hörmətli və qədirbiləndir... Atalar demişdir: "İş sağlamlığın cövhəridir. Tə-

İsmayıl Mustafayev.

babətin atası Əbu Əli İbn Sina məşhur "Qanun" əsərində yazmışdır:

"Sağlamlığı qorumaq üçün ən başlıca amil fiziki hərəkətlərlə məşğul olmaqdır. Fiziki hərəkətlərlə müntəzəm məşğul olan adam heç bir müalicəyə ehtiyac hiss etmir. "Deyilənə görə, almanların gündəlik həyatlarında əməl etdikləri iki şüar vardır: "Sən dünyaya işləmək, işləmək və bir də işləmək üçün gəlmisən" və "Əlinlə nə qədər ciddi işləsən, beyninlə də o qədər ciddi düşün".

Bəli, insanı əmək və onun zəkacı, ağlı ucaldır. Belə insanlardan biri Azərbaycanın qocaman, ağsaqqal müəllimi İsmayıl Mikayıl oğlu Mustafayevdir.

İsmayıl müəllimin atası Mikayıl Cabbar oğlu Mustafayev 1877-ci ildə Şəkidən Gəncə şəhərinə gəlib şirniçi işləmiş və orada da ailə qurmuşdur. Anası gəncəli Məşədi Aslan Məlikovun qızı Suğra xanım olmuşdur. İsmayıl Mikayıl oğlu 1901-ci ildə doğulmuş, 1913-cü ildə ikisinifli rus-tatar (Azərbaycan) məktəbinə daxil olmuşdur. Bu məktəbdə təhsilini başa vurduqdan sonra, 1917-ci ildə Gəncə kişi Müəllimlər Seminariyasının kiçik ehtiyat sinfinə imtahanla daxil olmuş, orada bir il oxuduqdan sonra böyük ehtiyat sinfinə keçirilmişdir. Həmin il Gəncə şəhərində Azərbaycan dilində seminariya açılır. İsmayıl müəllimin dediyinə görə, o vaxtlar seminariyanın birinci kursu səviyyəsində biliyi olan ancaq 8 nəfər (mən, Atayev Ağa, Mehdi, Nəzər və Talıb Babayevlər, İsfəndiyar Məmmədov, Yusif Verdiyev və Mehdi Əliyev) Azərbaycan dilində seminariyaya qəbul edilir. Çar Rusiyasında o zaman Azərbaycan, Gürcüstan və Ermənistan maarif işlərinin qəyyumu Vasili Vasilyeviç Gəncə seminariyasının direktoru təyin edilir. Seminariyanın Azərbaycan bölməsində dərslər səhər saat 8-də, rus bölməsində isə günorta saat 2-də başlanırmış. İsmayıl Mikayıl oğlu səhərlər Azərbaycan, saat 2-dən sonra rus dilində oxuyur. İsmayıl müəllimin dediklərindən: "Çar Rusiyasının şovinist qəyyumu olan Vasili Vasilyeviç Azərbaycan dilində oxumaq xoşuna gəldmədiyi üçün kinayə ilə mənə dedi: "Əzizim, sən daha seminarist olmusan, rus bölməsində oxumağın yaramaz". O zaman rus dili dərslərində iştirak edə də bilərdim, etməyə də. Rus dili dərslərini Vasili Vasilyeviç özü aparırdı".

İsmayıl Mikayıl oğlu 1924-cü ildə Gəncə kişilər müəllimlər Seminariyasını bitirib Qubadlı dairəsi Müskanlı kənd məktəbinə müdir təyin edilir. Həmin məktəbdə Qazyan, Mirilər və Saray kəndlərindən də şagirdlər təhsil alırdılar. O vaxt məktəblərdə dərslər 15 sentyabrda başlanırdı. Cümə günləri istirahət edirdilər.

İsmayıl müəllimin xatirələrindən: "İstirahət günləri biz rayonun müəllimləri dairə mərkəzi olan Qubablıya gəlib konsertlər və "Dursunəli və Ballıbadı" kimi sadə teatr tamaşaları göstərirdik və ya metodiki işlər, konfranslar keçiririk. Müskanlı kəndinin qabağından keçən Bərgüşad çayının yanında bağ salmaq üçün orada o zaman Bakıdan gələn zemlemer (yerölçən) Rzabəyov Nemətulla ilə danışıb bağ yeri ayırdıq. Şahmat üsulu ilə çalalar qazdırıb hər şagirdə üç ədəd meyvə ağacı gətirib basdırmağı təşkil etdim. Bağ salmağın əhəmiyyətini xalqa başa salır və onlar məmnuniyyətlə bu təşəbbüsə qoşulurdular. Bunlarla bərabər, apardığım gərgin təbliğat nəticəsində xeyli sayda qızları gündüz, qışadın və kişiləri axşam məktəblərinə cəlb etməyə nail oldum. Bu fəaliyyətimizə görə qəza İcraiyyə Komitəsinin sədri Əsəd Qarayevin təşəkkürün aldım. Qızlar savadlandıqdan sonra yerli camaat deyirdi: "Qızlar da oxuya bilərmiş". Mən o zaman I-II növbədə şagirdlərə, III növbədə qadınlara, axşam kurslarında kişilərə dərs deyirdim. Azərbaycan Dövlət Universitetinin rektoru Şəfaət Mehdiyev mənim dərs dediyim Müskanlı şagirdlərindən biridir".

Sonrakı illərdə İsmayıl Mikayıl oğlu Bakının Xızı, Maştağa və şəhər rayonlarında müəllimlik etmişdir. O, 1930-cu ildə Azərbaycan Sənaye İnstitutu elektromexanika fakültəsinin dəz-

gah-inşaat şöbəsinə daxil olub, oranı 1936-cı ildə bitirmişdir. Ali məktəbdə oxuyarkən müəllimliklə də məşğul olmağı unutmamışdır. Məhz bu həvəsi onu yenidən məktəbə qaytarmış, o, Azərbaycan Maarif Komissarlığının əmri ilə Qubada 10 illik məktəbdə direktor işləmişdir.

İsmayıl müəllimin xatirələrindən: "Qubada məktəb direktoru işləyərkən uşaqlar arasında keçəllik geniş yayılmışdı. Onları məcburi rentgen şüasına verdirib, xəstəlikdən xilas etdim. Məktəbin təsərrüfat pulu hesabına kartof əkdirib bol məhsul alır, satdırıb yığılan pulun hesabına yoxsul və yetim uşaqlara həmin hesabdan paltar və tədris ləvazimatı alırdım. İstedadlı uşaqların dərnəklərdə çıxışlarını təşkil edib, onları qiymətli kitablarla, geyimlə mükafatlandırırdım".

İsmayıl müəllim sonra İsmayıllı rayonu Tircan kənd məktəbinə direktor təyin edilir. Gələcəyi, uzağı görən müəllim harada işləmişsə şagirdlərə səlist, gözəl yazmağı, arayış, tərcümeyihal, protokol və s. zəruri, həyatda əhəmiyyəti olan yazıları öyrətmiş və bunları bilməyi tələb etmişdir.

İsmayıl müəllim 1942-ci ildə müharibəyə göndərilmiş, 402-ci Azərbaycan diviziyası rabitə batalyonunda vuruşmuşdur. O, 2 orden, 12 medal, Ali Baş komandanın 9 təşəkkürünə layiq görülmüşdür.

İsmayıl müəllim deyir: "Bir tərəfdən maddi ehtiyac, o biri tərəfdən isə kadrların çatışmaması ilə əlaqədar müharibədən qayıtdıqdan sonra bir müddət 6 yerdə işləyirdim: H. Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunda, Toxuculuq Texnikumunda, M.Ə. Sabir və C. Cabbarlı adına orta məktəblərdə. İstirahət günləri iki yerdə iqtisadçı-mühəndis də işləyirdim".

Tanınmış, zəhmətkeş müəllim 30 il Gəncə Dövlət Pedaqoji İnstitutu fizika-riyaziyyat fakültəsində assistent, müəllim və baş müəllim işləmiş, Moskva, Leninqard, Rostov kimi mərkəzi şəhərlərdə qiyabi oxuyan tələbələrə vaxtaşırı hər cür məsləhətlər vermiş, onların biliklənmələrinə var qüvvəsi ilə çalışmışdır.

El ağsaqqalı İsmayıl müəllimin həyatda bir amalı var idi: işləmək, başqalarına kömək etmək, savadlı və qeyrətli nəsil tərbiyə etmək... Onun bir yolu var - düzgünlük. Hamının sevimlisi İsmayıl müəllim haqda dediklərimi xalq şairimiz Rəsul Rzanın aşağıdakı sözləri ilə yekunlaşdırmaq istərdim:

Mən nə istəyirəm?
Ciyər dolusu, hava!
Könül dolusu sevinc!
Yaradıcı əməklə dolu ömür.
Şəfəqli həyat!
Mübarizəli, dinc.

QANUNPƏRƏST QURBAN MÜƏLLİM

Dünyanın zənginliyi məhz bənzərsiz şəxsiyyətlərdir. Onların əməllərinin sayəsində dünyanın işığı artır.
Filosof Karlyl Tomas.

Qanun terminini ilk dəfə fransız filosofu və riyaziyyatçısı Dekart işlətmişdir. O, biliyin mənbəyi və onun həqiqiliyinin meyarını xarici aləm deyil, insan zəkası hesab etmişdir. Zəkalı, kamil insan qanunlara hörmətlə yanaşır, onun aliliyini dərk edir və məsuliyyət hiss edir. Elin gözü tərəzidir, - demişlər. Yalnız təmiz, pak, əməlisaleh adama xalq "qanunpərəst adı verə bilər. Belə el ağsaqqallarından biri də Abbasov Qurban Cabbar oğlu olmuşdur. O, 1908-ci ildə Şəki şəhərində anadan olmuş, əvvəl mədrəsədə, 1908-ci ildə rus-tatar (Azərbaycan) məktəbində, sonra nümunə-zəhmət məktəbində təhsil almış, daha sonra Şəki Pedaqoji Texnikumunda təhsilini davam etmişdir. 1926-cı ildən müəllimlik fəaliyyətinə başlamış, 1929-1932-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun kimya-biologiya fakültəsində təhsil almışdır. 1932-1941-ci illərdə Şəki Pedaqoji Texnikumunda müəllim, tədris hissə müdiri işləmişdir. Qurban müəllim 1941-1943-cü illərdə müharibədə iştirak etmiş, yaralanıb ordudan tərxis olunduqdan sonra (18 iyul 1943-cü il) 1952-ci ilə ki-

mi yenidən Şəki Pedaqoji Texnikumunda tədris işləri üzrə direktor müavini, 1952-1957-ci illərdə həmin texnikumun direktoru, 1957-1961-ci illərdə Şəki şəhər 10 saylı, 1961-1963-cü illərdə 11 saylı orta məktəblərin direktoru vəzifəsində işləmişdir. 1963-cü ildən şəhər 2 saylı internat məktəbin direktoru təyin edilmiş və ömrünün axırına qədər həmin vəzifədə çalışmışdır.

Q. C. Abbasov 1950-1955-ci illərdə Şəki rayon Xalq Məhkəməsinin iclasçısı seçilmiş, eyni zamanda xalq hakimini əvəz etmiş, qanunçuluğa sədaqətini bir daha sübuta yetirmişdir.

Qurban Abbasov 1973-cü ildə Şəkidə vəfat etmişdir.

MUSTAFA CABBARZADƏ VƏ ÖVLADLARI

Ot kökü üstə bitər.
Azərbaycan atalar sözü

Şəkidə Mustafa adında çox tanınmış şəxslər - şəxsiyyətlər olub və bu ad həmişə hörmətlə qarşılanıb. Bunun bir neçə səbəbi var. Birincisi odur ki, peyğəmbərin adlarından biri Mühəmməd Mustafa olub, digər səbəblərdən biri də türk millətinin böyük oğlu Mustafa Kamal Atatürkün adına olan məhəbbətlə əlaqədardır. Hər təsadüfi deyil ki, "Həm ziyarət, həm ticarət" kinosunda da məhz Şəkidən olan müəllimin adı da Mustafadır. Şəkidə mən tanıdığım Mustafa adlı şəxslərin hamısı ad-san sahibi olub və müəyyən xüsusiyyətlərinə, peşələrinə, hətta dərilərinin rənginə görə biri-birlərindən fərqləniblər: Narkom Mustafa, Yetim Mustafa, Dıqılı Mustafa, Qırmızı Mustafa, Əlimov Mustafa... Mustafa Cabbarzadə də sarışın olduğundan şəkililər ona Kürən Mustafa deyərdilər.

Cabbarzadə Mustafa Cabbar oğlu 1906-cı ildə Şəkidə anadan olmuşdur. O, ilk təhsilini Şəkidə nümunə məktəbində almış, sonra Bakı Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmişdir. Mustafa müəllim 1936-cı ildən Bakı rabitə fəhlə fakültəsi texnikumunda direktor müavini işləmiş, eyni zamanda 44 saylı məktəbdə fizika fənnini tədris etmişdir. Mustafa müəllim 1943-1954-cü illərdə Şəki xalq Maarifi Şöbəsinə rəhbərlik etmişdir. 1954-cü ildən Şəki İpək Texnikumunun direktoru olmuşdur.

M. Cabbarzadə mənim də fizika müəllimim olub. Onun çox vaxtı olmadığından bir və ya iki sinfə fizikadan dərs deyərdi. Uşaqlardan başlamış, məktəb direktoruna qədər hamı onu sevər və onun dərsini səbirsizliklə gözləyərdik. Mustafa müəllimin üzü həmişə gülərdi. Onu bütün Şəki əhli çox sevərdi. Hörmətli ziyalı və el ağsaqqalı M. C. Cabbarzadə 1963-cü ildə vəfat etmişdir.

Mustafa müəllimin oğlu Ramiz Cabbarzadə 1929-cu ildə Şəkidə anadan olmuş, 1947-ci ildə Şəki 10 saylı orta məktəbi bitirmişdir. 1952-ci ildə Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini qurtarmışdır. O, 1952-ci ildən SSRİ Plan Komitəsində, Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində işləmiş, riyaziyyat üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. O, 1958-ci ildən Dubna Atom Elmi Tədqiqat İnstitutunda elmi işçi, 1962-ci ildən Zveniqorod Atmosfer Fizika İnstitutunda laboratoriya müdiri işləmişdir.

Ramiz Cabbarzadə 1999-cu ildə Moskvada vəfat etmişdir.

Mustafa müəllimin qızı Ləman Cabbarzadə 1936-cı ildə Şəkidə anadan olmuşdur. 1953-cü ildə Şəki 7 saylı orta məktəbi bitirmiş və Moskva Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuşdur. 1957-ci ildə universiteti qurtaran Ləman 1961-ci ildə polimerlər kimyası sahəsində namizədlik dissertasiyası müdafiə etmişdir. C. Cabbarzadə Kalininqradda, Moskva yaxınlığındakı Çernoqolovka kimya şəhərciyindəki Elmi Tədqiqat Kimya İnstitutunda polimerlər laboratoriyasının müdiri olmuş, öz elmi işləri ilə bir çox ölkələrdə tanınmışdır.

Ləman Mustafa qızı Cabbarzadə 1979-cu ildə Moskvada vəfat etmişdir.

Allah hər üçünə rəhmət eləsin.

VAHABZADƏ CAVAHİR MƏHƏRRƏM QIZI

Cavahir Vahabzadə.

C. M. Vahabzadə 1911-ci ildə Şəki şəhərində doğulub. O, 1923-cü ildə ibtidai məktəbi bitirib, darülmüəllimata qəbul olunur. Həmin il qızlar sinfində şagird az olduğundan (7 nəfər) Cavahir Bakı darülmüəllimatına göndərilir. 1926-cı ildə oranı bitirib Şəkiyə qayıdır və həmin vaxtdan təqaüdə çıxana qədər fasiləsiz müəllim işləyir.

Cavahir xanım söhbətində deyir: "Sənətimi və dərs dediyim şagirdləri sevmişəm. Bütün qüvvəmi şagirdlərimizin savadlanmasına sərf etmişəm. Savad kurslarında, bəzən də evlərə gedib qadınlara dərs demişəm".

Bütün bu çətinliklərə baxmayaraq, Cavahir xanım təhsilini də davam etdirməyi unutmayıb. O, 1948-ci ildə Şəki ikillik Müəllimlər İnstitutunun dil-ədəbiyyat fakültəsini bitirib. İşlədiyi müddətdə həmişə qabaqcıl müəllimlər sırasında olub. M. Vahabzadə müəllimlərin III qurultayına nümayəndə seçilib.

Respublikamızın maarif cəbhəsində düz 50 il qüsursuz çalışan C. M. Vahabzadə 1960-cı ildə Azərbaycanın "Əməkdar müəllim"i fəxri adına layiq görülmüş, 1976-cı ildən respublika əhəmiyyətli fərdi təqaüdçüdür.

Cavahir müllimənin tərbiyə etdiyi üç oğlundan ikisi analarının müqəddəs yolunu özlərinə sənət seçiblər. Cavahir xanım on bir nəvə və dörd nəticəsinin tərbiyəsilə məşğul olmuş, gənc mütəxəssislərə öz ağıllı məsləhətlərini vermişdir. Şəkidə vəfat etmişdir.

RƏCƏBOV MUSA MUSTAFA OĞLU



Musa Rəcəbov.

M. M. Rəcəbov 1922-ci ildə Şəki rayonunun Oxud kəndində doğulub. O, 1937-ci ildə Oxud kənd 7 illik məktəbini bitirib, Şəki Pedaqoji Texnikumuna daxil olmuş, 1941-ci ildə oranı bitirmişdir. Musa müəllim 1941-42-ci illərdə Balakən rayonu Güluzan kəndində ibtidai məktəb müəllimi işləmişdir. 1942-ci ildə ordu sıralarına çağırılan M. M. Rəcəbov 211-ci atıcı diviziyasının və 19-cu atıcı zirehli briqadasının tərkibində Bryansk cəbhəsində, Oryol və Kursk yürüşlərində yaralanmış, Lebedian və Dərbənd qospitallarında müalicə olunmuşdur. Müalicədən sonra 1945-ci ilin noyabrına qədər hərbi komendaturada xidmət etmişdir. Sonra Böyük Vətən müharibəsinin 2-ci dərəcəli əlili kimi ordudan buraxılmış, 1945-46-cı illərdə Şəki rayonu Qudula kənd 7 illik məktəbində, 1946-49-cu illərdə İnci-Zunud kənd 7 illik məktəbində, 1949-52-ci illərdə Oxud kənd orta məktəbində müəllim işləmişdir. O, müəllimliklə bərabər, 1952-1971-ci illərdə müxtəlif vəzifələrdə işləmişdir. Musa müəllim 1958-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir.

1968-ci ildə ona respublikanın "Əməkdar müəllim"i fəxri adı verilmişdir.

M. M. Rəcəbov 1-ci dərəcəli Vətən müharibəsi, "Şərəf nişanı" ordeni və bir çox medallarla təltif olunmuşdur.

RƏSULOV HÜSEYN BƏXTİYAR OĞLU



Hüseyn Rəsulov.

H. B. Rəsulov 1923-cü ildə Şəkidə anadan olub, 1941-ci ildə Şəki Pedaqoji məktəbini bitirmişdir. Şəki rayonu Aşağı Göynük kəndinə təyinat alan Hüseyn müəllim bir neçə ay işlədikdən sonra avqust ayının 5-də Sovet Ordusu sıralarına səfərbərliyə alınıb. 1941-ci ilin sentyabr ayından 1942-ci ilin fevral ayına kimi Suxumi hərbi piyadalar məktəbində oxumuş, oranı kiçik leytenant rütbəsi ilə bitirmişdir. 1942-ci ilin mart ayından dekabr ayına kimi 416-cı Azərbaycan diviziyasında bölük və vzvod komandiri olmuş, dekabr ayında əlindən ağır yaralandığına görə ordudan buraxılmışdır.

1943-45-ci illərdə Şəki Müəllimlər İnstitutunda dil-ədəbiyyat fakültəsində oxumuş, sonra təhsilini qiyabi davam etdirərək 1948-ci ildə ali təhsil almışdır.

1945-46-cı illərdə Şəki şəhər 6 nömrəli orta məktəbdə dərs hissə müdiri vəzifəsində işləmişdir. Hüseyn müəllim 1946-1974-cü illərdə 10 nömrəli Şəki şəhər orta məktəbində müəllim, ibtidai siniflər üzrə tədris hissə müdiri, direktor işləmişdir. H. B. Rəsulov 1974-cü ilin mart ayından Şəki şəhər, sentyabr ayından rayon Xalq Maarif Şöbəsinin müdiri işləmişdir. 1986-cı ildə fərdi təqaüdə çıxdıqdan sonra Şəki şəhər Xalq Təhsili Şöbəsində metodist işləmişdir. Bir çox orden, medal və fəxri ada layiq görülmüşdür.

Hüseyn müəllim 1991-ci ildə Şəkidə vəfat etmişdir.

AXUNDOVA DİLƏFRUZ BAKŞƏLİ QIZI

Diləfruz Axundova.

D.B. Axundova 1925-ci ildə Şəkidə anadan olmuşdur. Molla Kazımın nəvəsidir. İlk təhsilini Şəki 5 nömrəli orta məktəbdə alıb. 1942-ci ildə Şəki Pedaqoji Texnikumunu bitirib. 1942-44-cü illərdə Balakən rayonunun Talalar kəndində, 1945-88-ci illərdə Şəki şəhər məktəblərində müəllim işləyib. Onun əmək fəaliyyətinin böyük bir dövrü təhsil aldığı Şəki şəhər 5 nömrəli orta məktəblə bağlıdır.

Diləfruz xanımın dediklərindən: "Yaxşı sinif müəllimi olmaq çətindir. Müəllimin, xüsusən uşaqlara həyatın "əlifba"sını öyrədən sinif müəlliminin əməyi ən möhtəşəm, işıqlı binaların bünövrəsini qoyan ustanın əməyi qədər çətin və şərəflidir. Sinif müəllimi gərək uşaqların hər sorğusuna düzgün cavab tapmağı bacarsın. Bunun üçün təkcə bilik, təcrübə azdır. Müəllim şagirdlərə həyat dərsi verməyi, onları layiqli əvəzedicilər kimi hərtərəfli tərbiyə etməyi bacarmalıdır".

D. B. Axundova şagirdlərinə "Ana", "Vətən" sözlərini öyrədə-öyrədə özü də ana olmuş, övladlarına vətəni, əməyi sevdirmişdir. Məhz bu müqəddəs əməyinin bəhrəsidir ki, bir neçə orden, medal, fəxri fərmanla təltif edilmişdir. "Azərbaycanın əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

İstedadlı müəllim D.B. Axundova 1988-ci ildən fəxri təqaüdə çıxmışdır.

MƏMMƏDHƏNİFƏ MÜƏLLİM



Məmmədhənifə Musayev.

Musayev Məmmədhənifə Ramazan oğlu 1941-ci ilin sentyabrında Şəki rayonu Oxut kəndində anadan olub. Orta təhsilini kənd məktəbində başa çatdırıb. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu qurtardıqdan sonra fəaliyyətini Oğuz (keçmiş Vartaşen) rayonunda davam etdirib. Burada 1962-1963-cü illərdə ibtidai sinif müəllimi olub.

M.R. Musayev 1969-cu ildə müsabiqə yolu ilə Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunun əyani aspiranturasına daxil olur. 1974-cü ildə pedaqoji elmlər namizədi adını alır. 1973-1984-cü illərdə Azərbaycan Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunda işləmişdir.

M. R. Musayev 1984-cü ildən Xalq Təhsili Nazirliyində şöbə rəisi vəzifəsində işləmiş, 1999-cu ilin iyul ayından Azərbaycan Pedaqoji kadrların ixtisasının artırılması və yenidən hazırlanması Baş İnstitutuna rektor təyin olunmuşdu.

Elmi fəaliyyəti-rus dili məktəblərinin III, IV sinifləri üçün "Azərbaycan dili" dərsliklərinin, 15 çap vərəqi həcmində dərs vəsaitlərinin, 7 kitabçanın, 120-dən çox elmi məqalənin müəllifidir. Müxtəlif beynəlxalq simpozium, müşavirə və konfranslarda pedaqogika, psixologiya, təhsil problemlərinə aid 9 məruzə ilə çıxış edib. Ümumittifaq elmi-metodik şuralarının üzvü olub. 8 il müddətində ÜMTİ elmi şurasına rəhbərlik edib. Nazirliyin nəzdində yaradılan ibtidai təlim, elmi-metodik şurasının sədri, pedaqogika, psixologiya elmi-metodik şuralarının üzvüdür. "Azərbaycan Respublikası təhsil konsepsiyası", "Azərbaycan Respublikası Təhsil Qanunu" kimi mötəbər sənədlərin əsas müəlliflərindən biridir.

M. Musayev Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri olmuş, respublika radiosu və televiziyasında təhsil proqramları üzrə verilişlərin aparıcısı olmuşdur. Məmmədhənifə müəllim 2004-cü ildə vəfat etmişdir.

CƏLİLOV ƏLÖVSƏT İDRİS OĞLU



Ələvsət Cəlilov.

Ə.İ.Cəlilov 1949-cu ildə Şəki rayonu Baş Zəyzid kəndində anadan olmuşdur. 1966-cı ildə orta məktəbi qurtarmış, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika fakültəsinə qəbul olmuşdur. 1970-ci ildə institutu fərqlənmə diplomu ilə bitirmiş, 1970-71-ci tədris ilində Şəki rayonu Aşağı Küngüt kənd orta məktəbində müəllim işlədikdən sonra ordu sıralarına çağırılmışdır. Hərbi qulluqdan qayıtdıqdan sonra Şəki rayonu Baz Zəyzid kəndində yenidən müəllimlik fəaliyyətinə başlamışdır. 1973-74-cü illərdə Baş Zəyzid kənd orta məktəbində təlim-tərbiyə işləri üzrə direktor müavini, 1974-78-ci illərdə həmin məktəbin direktoru və yenidən müəllim işləməyə başlamışdır.

Yaşının az olmasına baxmayaraq Ə. İ. Cəlilov "Maarif əlaçısı", "Azərbaycanın əməkdar müəllimi" kimi fəxri adlarına layiq görülmüş, 3-cü dərəcəli "Əmək şöhrəti" ordeni ilə təltif edilmiş, Azərbaycan müəllimlərinin 7-ci qurultayının (may, 1987), Respublika Xalq Təhsili işçilərinin respublika konfransının (noyabr, 1988), xalq təhsili işçilərinin ümumittifaq qurultayının (dekabr, 1988) iştirakçısı olmuşdur. İstedadlı müəllim Ələvsət Cəlilov Respublika Maarif Nazirliyinin "Fəxri fərman"ı ilə təltif edilmişdir.

ŞƏKİNİN ƏDƏBİ İRSİNDƏN

ŞƏKİLİ SÜLEYMANIN "ZÜLEYXA"SI

Ürək gözəlliyi sima gözəlliyindən qiymətlidir.
Yapon atalar sözü.

Şəkinin unudulmuş şairlərindən biri XVII əsrdə yaşayıb-yaradan şair Süleyman olmuşdur. Süleyman Məhəmməd Hüseyn xan Müştaqın şeir məclislərinin gözü olmuşdur. Süleyman şeirlərində öz görüşlərini təbliğ etmiş, yeni fikirlər söyləmiş, klassik şairlərə nəzirələr yazmışdır. Onun şeirlərində zülmkarlardan şikayət əsas yer tutur.

Rəfael Hüseynovun "Min ikinci gecə"sinə (Bakı, 1988, səh. 104) müraciət etmək istəyərdim: ..." "Şur"da Bülbül "Züleyxa" rədifli bir şeir oxuyub. İlk dəfə eşitdiyim gündən bu şeir də, oxu tərzi də heyran etmişdi məni. Və uzun müddət bu şerin müəllifinin kim olduğu ilə maraqlanmışdım. Nəhayət, ədəbiyyat loğmanımız Salman Mümtazın 1928-ci ildə ərəb əlifbasında çap etdirdiyi "El şairləri" kitabında tapdım bu cığalı müxəmməsi. Sən demə, gözəl bir şairimizi tanımırıqmış. XVII yüzildə yaşamış Şəkili Süleymandan bixəbərikmiş. O şairi ki, ədəbiyyatımızda mərhələ saydığımız Vaqifə də təsir edib.

Vaqifin: Allaha şükür, lalə yanağında eyib yox,
Dişində, dəhanında, dodağında eyib yox,
Bir zərrəcə zülfündə, buxağında eyib yox,
Qaşında, gözündəvü, qabağında eyib yox...
Dəxi nə yaşınmaq, nə bürünmək, nə utanmaq?
Bəsdir bu dayanmaq!

- sətirləri ilə başlayan müxəmməsi işığını Şəkili Süleymanın "Züleyxa"sından alır. Bunu Salman Mümtaz hələ 1925-ci ildə çap etdirdiyi "Vaqif" kitabçasında dəqiqləşdirib.

Beləcə, Bülbül oxumasıyla bizə tək zövq bağışlamaq istəməyib. Çalışıb, arzu edib ki, ədəbiyyatımızı, söz yatırımızı daha artıq sevək, daha artıq öyrənməyə can ataq.

Süleyman: Ey simi bədən, mehri dürxəşəndə, Züleyxa,
Ey kami məlahət, ləbi türxəndə, Züleyxa,
Qılma saçını bunca pərakəndə, Züleyxa.
Ey gözləri şəhla,
Ey qaməti rəna,
Ey şənayi leyla,
Rüxsari gözəldir,
Rəftarı gözəldir.

ƏDALƏTLİ XAN - ŞAİR MÜŞTAQ

Xeyirxahlıq dövlətdən üstündür.
A. Bakıxanov

"Qabusnamə"də yazılıb: "İstəyirsən ki, ədalətlilər sırasında adın çəkilsin, sənə tabe olanları imkanın daxilində yaxşı saxla". XVIII əsrdə Şəkidə xanlıq edən (1759-1780) Məhəmməd Hüseyn xan Müştaq da məhz belə şəxslərdən olmuşdur. Məhəmməd Hüseyn xan abadlıq sevən, xanlığı ağılla idarə edən bir şəxs olduğundan xalqın ona bəslədiyi hörmət sayəsində Şamaxı xanlığı da ələ alaraq Şəki-Şirvan bəylərbəyi adına layiq görülmüşdür. Şəkidəki məşhur "Xan sarayı"nı, bir məscid və bir hamamı Məhəmməd Hüseyn xan tikdirmişdir (1762-ci ildə). Görkəmli türk şairi Nazim Hikmət demişdir: "Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki xan sarayını dünyaya göstərmək bəs edərdi".

Məhəmməd Hüseyn xan "Müştaq" təxəllüsü ilə farsca və Azərbaycan dilində dövrünə görə qüvvətli şeirlərin müəllifi olmuşdur. Müştaq sarayına Hacı Məhəmməd (Zare), Nafe, Nəbi, Süleyman və başqa şairləri dəvət etmiş, şairlər məclisi qurmuş və onlarla yaxından dostluq əlaqəsi saxlamışdır. O, Azərbaycanın məşhur söz ustaları Vaqif və Vidadiyə hədsiz hörmət bəsləmiş, onlarla da dostluq etmişdir. Hətta Vaqif xanın qonağı ol-

muş, Müştaqın şairlər məclisində iştirak etmişdir. Mənbələrdən məlum olur ki, Müştaq Vaqifə bir bəzəkli tüfəng, bir zərli kürk, bir at bağışlamış və ona şeir yazıb göndərmişdir.

Vaqif və Vidadi Məhəmməd Hüseyn xan Şəki-Şirvan bəylərbəyi təyin olunduğu vaxt ona gözəl mədhiyyələr yazmışlar. Müştaq 1780-ci ildə əmisi Hacı Əbdülqadir xan tərəfindən xaincəsinə öldürüldükdə Molla Vəli Vidadi ədalətli xan - şair Müştaqın bu faciəsinə "Müsibətnamə" adlı şeir yazmışdır. Həmin şeirdən bir parça:

Bivəfadır, mülki-dünya malına aldanma çox,
İzzi cahu, dövlətü iqbalına aldanma çox.
Tutma ümid əqlü rəhm əhvalına aldanma çox,
Qəvmü, qardaşu-rəfiq əhvalına aldanma çox.

Məhəmməd Hüseyn xan Müştaqın şeirlərindən bəzi nümunələri ilk dəfə (1925) Salman Mümtaz toplu halında çap etdirmiş və onun haqqında xalqımıza lazımi məlumat vermişdir. Ədəbiyyatımızın loğmanı S. Mümtazın şəkili şair Müştaq haqda yazdığından bir parçanın olduğu kimi verilməsi məqsədəuyğun olardı: "Məhəmməd Hüseyn xan Müştaq Azərbaycan xalqının abruyi olan Şəkili Hacı Çələbi xanın nəvəsi və Həsən Ağanın oğludur. Hacı Çələbi xan Şəkili Əlican oğullarından kəndxuda Qurbanın oğlu və Hacı Şıxəlinin əmisi oğludur. Çələbi adlı-sanlı, məşhur bir ailədən ərseyi-vücudə gəlmiş eldar, xalqçı və el arasında sözü ötkün, təmkinli, vüqarlı bir şəxs idi.

Məhəmməd Hüseyn xan Müştaq Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Şəkili Nəbi, Şəkili Raci, Aczayazılı Zari, Kəlbirli Rafe və başqaları ilə dost idi.

Müştaq Molla Pənah Vaqifin valehi-məftuni və şeirlərinin aşiqi-aşüftəsi idi. Bunu hiss edən Vaqif artıq rəsmiyyəti buraxaraq hər bir dərdini, istəyini apaçıq Müştaqa söylərdi.

Şəki vilayətini Müştaq gözəl idarə etdiyindən dolayı İran hökuməti Şirvan məmləkətinin idarə olunmasını da ona məhəvvəl etmişdi. Odur ki, İran müvərrixləri Müştaqın ləğəbini "Məhəmməd Hüseyn xan bəylərbəyi Şəki və Şirvan" ibarəsi ilə qeyd edirlər. Müştaq Şəki, həm də Şirvan əmirülüməraşı idi.

Odur ki, Vaqif, Nəbi, Vidadi yeri gələrkən bunu da aydınlaşdırmışlar.

İyirmi iki il hökumət edə bilən Şəki və Şirvan məmləkətlərini gözəl idarə etdiyindən dolayı bir rəqib və düşmənlər qazanmışdı. Ən böyük düşməni Hacı Əbdülqadir xan idi ki, təlimatını Qarabağ xanı olan İbrahim xan və digərlərindən alırdı. Hacı Əbdülqadir xan tarixi-hicri ilə 1194-cü ildə gecə Ərəş və Şəki bəyləri ilə gəlib öz dəstəsini qalanın dalında, dağ arasında gizlətmiş və günorta çağı diva əməlləcatı dağılarkən Məhəmməd Hüseyn xan Müştaqın otağına daxil olaraq onu öldürmüş və ev-eşiyini də məhimsəyərək özünü xan elan etmişdi. Bu ürəkyandırıcı hadisə bütün əhaliyə və baxüsus Müştaqı yaxından tanıyanlara fövqəladə təsir etmişdi. Ömründə kimsəni tərif, tövsif etməyən Molla Vəli Vidadi bu faciəyə dair bir tarixi şeir söyləyərək adını "Müsibətnamə" qoymuşdur ki, məncə, çox münasibdir. Vidadinin o şerindən bir çox mətləblər istixrac etmək də mümkündür. "Müsibətnamə" nəzərimdə Müştaqın qiymətini daha da artırır. Çünki Vidadi tərəfindən də təqdir edilən Müştaqa artıq deyəcək söz qalmayır.

Vidadinin bu "Müsibətnamə"sində tariximizi təsvir edəcək bir çox nöqtələr vardır ki, bəhsimiz xaricində olduğu üçün onlara şəhr və bəsət vermədik. Müştaq Hacı Əbdülqadir xan əli ilə tarixi hicri 1194-də qətl olunaraq "Küli-varın etdilər təracü yəğma, tarümar" məzmunca ev-eşiyi də tərac edilmiş və o cümlədən məcmüeyit əşarı da arada məhv olub getmişdir. Müştaqın qəbri isə Şəkidə özü tikdirdiyi Birinci Cümə məscidinin mehrabı içərisindədir" (Bakı, 5 iyun 1925-ci il).

MÜŞTAQ ŞAİRLƏR MƏCLİSİNİN SEVİMLİSİ

Nəcib, mərd adam olmaq on minlərin içindən seçilmək deməkdir.

Şiller

XVIII əsrdə Şəkidə tanınmış şairlərdən biri Nəbi idi. O, Şəkinin Aşağı Küngüt kəndində anadan olmuşdur. Şəkili alim Əbdürrəhman Abdullayevin araşdırmalarından göründüyü kimi, o, 1743-cü ildə Hacı Çələbinin müstəqil Şəki xanlığının bünövrəsini qoyduğunu, ədalət və insanpərvərliyini vəsf edən şeirlər yazmışdır. Bu dövrdə o, kamil bir şair olmuşdur. Deyilənlərdən təxminən aydın olur ki, Nəbi XVIII əsrin əvvəllərində anadan olmuşdur.

Nəbi Məhəmməd Hüseyn xan Müştaqın sevimlisi olmuş, onun sarayının şairlər məclisində öz istedadı ilə fərqlənmişdir.

Şəkinin bir çox unudulmuş şairləri kimi Nəbini də doğma xalqıma qaytaran, onu tanıdan Salman Mümtazdır. Nəbinin xüsusiyyətlərinə və şairlik qüdrətinə daha da yaxından nəzər salmaq üçün S. Mümtazın "Unudulmuş yarpaqlar" əsərindən bir parçanı xatırlayaq: "... Nadir şahın vəfatından on iki il sonra, 1172-ci tarixi-hicridə Kumıx xanı bulunan Surxay xan oğlu Məhəmməd xan öz yeznəsi Hacı Çələbi xan oğlu Ağakişi bəyi Ərəş sultanı Əlisultan Məlik oğlu ilə bir yerdə öz evinə qonaq çağıraraq namərdliklə öldürtmüşdü. Bu qaranlıq nöqtəni o vaxtın şairlərindən Şəkili Nəbi bir dərəcə aydınlaşdıraraq tariximizə gözəl bir xidmət etmişdir. Bununla bərabər, Nəbinin mənzumələrini oxumadan bu iki qəhrəmanın adlarını başqa məxəzlərdən öyrənsək daha da gözəl olar. Həm də Nəbinin mübaliğəçi bir şair olmadığı bizə yəqin olar.

Şəki şairi Nəbi öz səmimi şeri sayəsində Məhəmməd Hüseyn xan Müştaqa Şəki və bilxassə Küngüt əhalisini əhv etdiyini keçən sayımızda yazmışdıq.

Bu dəfə isə yalnız bu əhvə qənaət etməyən şairimizin bütün Şəki və Şirvan qəzalarında riyasət meylinə düşən əşqiyə və baxüsus Dostməhəmməd dəstəsini Məhəmməd Hüseyn xan Müştaqa tədib etdirdiyindən bir azacıq bəhs edəcəyik. Şəksiz ki, heç bir xilaf hərəkətdə olmayan dinc əhalinin quru bir əhv olunmalarına Məhəmməd Hüseyn xan Müştaq ilə gözəl bir rabitə olan şair Nəbi qənaət hasil etməyəcəkdir. Təqsir və qəbahəti onlar

üçün əhv nə qədər gözəl nemət olsa da, suçsuzlar üçün o dərəcədə əhəmiyyətsiz, həm də gülüncdür. Bundan dolayıdır ki, şair Nəbi də Məhəmməd Hüseyn xan Müştaqdan əhvdən başqa məzlum, dinc əhalinin istirahəti üçün asiləri tədib etdirmək, daha doğrusu, "əşqiya" dəstələrindən fəqir camaatın intiqamını aldırmaq fikri oyanır. Təbii, öz mövqeyini Müştaqın yanında möhkəm hiss edən şair Nəbi birinci arzusuna müvəffəq olduğu kimi, ikinci məqsədinə də nail olur. Vaxtın siyasətini gözəlcəsinə düşünən şair Nəbi ilk əvvəl tədib və intiqam məsələlərindən vaz keçir. Çünki o məsələni təhqiq və tədqiq etmək üçün bir qədər sakitlik və vaxt lazım idi. Təcili surətdə və yaxud bir anda bunca günahlıları günahsızlardan fərq etmək və tanımaq çox çətin, həm də çox güc olurdu.

Bu aşağıda ilk və axır beytlərini verdiyimiz "Müxəmməs" bütün Şəki və Şirvan qəzalarındakı əşqiyanın tədibindən sonra şair Nəbi tərəfindən rişteyi-nəzmə çəkilmiş dəyərli bir müxəmməsdir ki, eynən dərc edirəm:

Müddəilər ürəyi dərdi-qübar oldu yenə,
Xeyli kəmrahə siyasət nə ki, var oldu yenə,
Mənzili-əhli-nifaq əfsəl nar oldu yenə...
Baisi-rahət olub çəkdiyimiz cövrü-cəfa,
Hicrü firqət aləmi nəsli-nigar oldu yenə.
("Xalq ədəbiyyatı həyatdan doğar",
1924-cü il, № 3 (20A), səh. 4.

Görəsən, Şəkinin Aşağı Küngüt kəndində şair Nəbidən daha yüksək düha yetişibmi? Mən demirəm, ali savadlıları. İndi hər kəndin özünün həkimi də var, müəllimi də... Ancaq hər kənd XVIII əsrin əvvəllərində belə şair yetirməyib. Bəs Aşağı Küngüt ziyalıları, Şəki rəhbərləri ulu babamız şair Nəbinin xatirəsini necə əbədiləşdiriblər? Heç olmazsa, anadan olduğu kənddəki məktəbə şair Nəbinin adını verəydik...

QƏMLİ-QÜSSƏLİ ŞAİR ZÖVQİ

İstəyirsən ki, ürəklərdə özünə yurd salıb sevilәsən və xalq sənə nifrət etməsin, xalqın xeyrinə danış.
"Qabusnamə"dən

XIX əsrdə Şəkinin Baş Göynük kəndində doğulub, orada da yaşayıb-yaradan, biliyi, ədaləti, xeyirxahlığı, gözəl şeirləri ilə xalq arasında böyük hörmət qazanmış, həyatı S. Mümtazın yazdığı kimi desək, qəmli-qüssəli keçən Qazı Molla Əhməd Əfəndi Zövqi də unudulmuş şairlərimizdəndir. Əldə olan məlumatlara görə Əhməd Əfəndi dövrünün tərəqqipərvər ziyalısı idi. Xalq içərisində qazandığı hörmət bunun qazı seçilməsinə səbəb olmuşdur. Əhməd Əfəndi Zövqi zəmanəsinin böyük alim və mütəfəkkirləri olan İsmayıl bəy Qutqaşınlı, Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Kərim Ağa Fateh kimi şəxsiyyətlərlə yaxından dostluq etmişdir. Öz biliyi, ziyalı mədəniyyəti, özünəməxsus şairlik qabiliyyətinə görə Zövqi Azərbaycan ziyalıları arasında da xüsusi hörmət sahibi idi. İstedadlı şair, gözəl insan Qazı Molla Əhməd Əfəndi Zövqi 1864-cü ildə vəfat etmişdir.

Xalqımızın bu istedadlı ziyalısı haqda ilk məlumatları toplayıb, çap etdirən Salman Mümtaz olmuşdur. Onun "Qurtuluş" jurnalında (1920, № 2) çap etdirdiyi yazıdan bir hissə: "... Bu sətirləri qaralamaqda məqsədimiz... Baş Göynüklü Əhməd Əfəndidən icmal da olsa məlumat verməkdir. Əhməd Əfəndi XIII əsrin (hicri) sonuncu yarısında yaşamış nəzahətpərvər şairlərimizdən biridir. Mərhumun adı Əhməd, təxəllüsü Zövqi, ləqəbi dəxi "Şikəst" idi. Şərq əhlinə məxsus və öz vaxtının bütün əməlləri ilə cihazlanmış Əhməd Əfəndi qayət dərəcədə dindar, əhli-təqva və Azərbaycanda misli nadir olan füzəladan idi.

"Purpələng" İbrahim bəy, Hacı Abasqulu Ağa Qüdsi mərhumlarla müasir və Qafran Pənah Kərim Ağa Fateh ilə dəxi həmәsr, hətta səmimi bir dost idi. Mərhum Əhməd Əfəndi Zövqinin tərcümeyi-halı qayət dərəcədə tuhaf və olduqca qəmli və qüssəlidir. Bu barədə "Qurtuluş"un gələcək saylarının birində ətraflı məlumat verəcəyik. Vəfatı Şəkidə vaqe ləfz "qurfə" maddeyi-tarixidir ki, bu da 1285-ci il olur. Əhməd Əfəndi Zövqinin gözəl bir şerini təbərrük "Qurtuluş"da dərc edirik.

Könlüm səni istər...
Yüz zümreyi-ərbab gər məkan olsa mövcud,
könlüm səni istər.
Yüz bəzminə zişərəfi-şan ola mövcud
könlüm səni istər.
Yüz hüsni-mələk tək özü insan ola mövcud,
könlüm səni istər.
Yüz ləli-cavahirdir qəltan ola mövcud
könlüm səni istər.
Yüz cənnət ola cövfi dolu huriyi-Qılman
ləli-ləbi xəndan,
Yüz məhliqa qaşı ilə gözləri məstan
inculəri qəltan,
Yüz məhvəş ola gül üzünə zülfi-pərişan
həm telləri əfşan,.
Yüz dilbər ola mah kimi Zövqi sənə qurban
Yüz Yusifi-Kənan
Yüz gülşən, yüz sərv-xuraman ola mövcud
könlüm səni istər".

("Qurtuluş" jurnalı, № 2, səh. 13-14, 1920-ci il).

QASIM BƏY ZAKİRİN MÜASİRİ MOLLA QASIM ZAKİR

"Külli Qarabağın abi-həyatı
Nərmə-nazik bayatıdır, bayatı.
Oxunur məclisdə xoş kələmatı.
Ox kimi bağrımı dələr, ağlarım.
Molla Vəli Vidadi

XIX əsrdə Şəki ədəbi cərəyanının görkəmli nümayəndələrindən biri məşhur qarabağlı Qasım bəy Zakirin müasiri olan şəkili Molla Qasım Zakirdir. Onun doğulduğu tarix məlum deyildir. Filologiya elmləri namizədi şəkili Əbdürrəhman Abdullayevin məlumatına görə Molla Qasım Zakir təxminən XVIII əsrin sonlarında Şəkinin Yuxarıbaş məhəlləsində doğulmuş, yüksək bilik sahibi olmuş, məktəbdarlıq etməklə ailəsini dolandırmışdır. O, ərəb və fars dillərini dərindən bilirmiş. Molla Qasım Zakir müasiri Qasım bəy Zakir kimi həm klassik, həm də xalq şeri üslubunda yazan şairlərdən idi. Onun "Gəlin" müxəmməsi, "Səni tarı" rədifli cığalı müxəmməsi bu baxımdan nəzəri cəlb edir. Əfsuslar olsun ki, bu qüdrətli sənətkarın həyat və yaradıcılığı lazımınca tədqiq edilməmişdir.

F. Köçərli "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərində, Hüseyn Əfəndi Qaibov öz məcmuəsində şair Molla Qasım Zakir haqda qısa məlumat verirlər. Cəmi 45 il ömür sürən bu sənətkar ehtiyac içərisində yaşamışdır. Bunu Molla Qasım Zakirin şəkili Kərim Ağa Fateh Şəkixanova yazdığı şeir sübuta yetirir:

Ağa, bu gülşəni aləmdə bəndə xar qalsınmı?
Deyin, dərgahına bir ərzi-halım var, qalsınmı?
Özün insaf elə, könlümdə ötən atəş baş qalsınmı?
Sənin tək mərd ağası olan naçar qalsınmı?

Molla Qasım Zakirin həyat və yaradıcılığının araşdırılması müasir ədəbiyyatşünas alimlərimizin müqəddəs vəzifəsidir.

Onun irsi müasiri Qasım bəy Zakir kimi doğma xalqımıza çatdırılmalı, unudulmuş adı əbədiləşdirilməlidir.

FÜZULİ QƏLBLİ ŞAİR NAKAM

Şəbi-hicran yanar canım, tökər qan
çeşmi-giryanım,
Oyadar xəlqi əfqanın, qara bəxtim oyanmazmı?
Məhəmməd Füzuli
Nə qəm, uğratsa da bir gün məni ifnaya zaman
Mən gedərsəm də, məramın yenə dünyada qalar.
M. Ə. SABİR

Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi Firudin bəy Köçərli yazmışdır: "Nuxa şairlərinin ən məşhuru və müvtədiri İsmayıl bəy Nakamdır...


İsmayıl bəy Nakamın büstü.

Mərhum İsmayıl yaxşı məlumat sahibi olub, ürəfaməslək, xoş əxlaq və xoş rəftar bir vücud idi. Tamami-Şəki mahalında əvvəlinci şair hesab olunur". Şəkidə çap olunan "Bilgi" jurnalında 1924-cü ildə Nakamın həyat və yaradıcılığı, bir neçə qəzəli, Füzuliyə nəzirə olaraq yazdığı bir müsəddəsi çap olunmuş, onun şairliyi haqda qiymətli sözlər yazılmışdır: "Nakam hüsnü xilqə malik, səxi, soyuqqanlı, ağır düşüncəli... bir takim xəsayilə sahib, doğruluğu və sidqi sevən bir dahi idi... saf vicdanlı və namuslu ziyalılarla müsahibəti də çox arzu edərdi. Füzuli kimi onun da xəstə və aciz qəlbi bəşərin xəstə və aciz qəlbi kimi çarpardı. Sadə lisani qollanmaq və onu müasir vasitə edilmək məziyyətinə malik ola bilməmişdir. Eyni zamanda, həm də böyük bir Nazim və həm də böyük bir şairdir".

Şairin həyat və yaradıcılığından, onun əsərlərindən bəhs edən "Nakam" kitabının müəllifi Əliabbas Müznib dediklərindən: "Qəzəllərində... Füzuli üslubunu qəbul etməyəi çalışmışdır, ələlxüsus, əsərlərinin müqəddiməsini tam Füzulinin müqəddiməsinə bənzər bir tərzdə yazmışdır. Hətta əhli-həsəddən və katibdən şikayət etməkdə daha irəli getmişdir".

Bəs bu gözəl Füzuli qəlbli, insanpərvər şair nə üçün Vətənimizdə məşhurlaşmamış, hətta doğma yurdu Şəkidə belə tanınmamış, unudulmuşdur? Bu suala dahi Səməd Vurğun cavab vermişdir. 1947-ci ildə Aleksandr Fadeyev Şəkidəki "Nakam" adına kitabxanada olarkən onun "Nakam kimdir?" sualına S. Vurğun belə cavab verir: "O, XIX əsrin ikinci yarısında "Nakam" təxəllüsü ilə yazan şair İsmayıl bəy Sədrəddinbəyovdur. Füzuli təsiri ilə yazdığı çoxlu qəzəlləri var. Qəzəllərinin bəzisində dini motivlər olduğu üçün başabəla tənqidçilərin ona vurduğu damğa nəticəsində lazımi qədər çap olunmayıb"

Görün "dindar" deyib nələri bada vermişik. Gəlin general-topoqraf İbrahim Ağa Vəkilovun həyat yoldaşı Yelena Yefimovnanın 1909-cu il martın 2-də dahi yazıçı Lev Nikolayeviç Tolstoya məktubunu və onun azərbaycanlı generalın arvadına cavabını bir daha yada salaq. Yelena Yefimovna yazırdı: "Oğullarım (onların adları Boris və Qleb idi - Ə.H.) atalarının dini etiqadına - müsəlmanlığa keçmək üçün məndən icazə istəyirlər. Onlarda bu fikrin oyanmasına səbəb xırda həyati məsələlər deyil: nə maddi təminat, nə də mənsəbpərəstlik onları bu işə təhrik edir. Ancaq qaranlıqda qalan Azərbaycan xalqına kömək etmək məqsədini güdürlər. Din onlara xalqa qovuşmağa mane olur".

On üç gün keçəndən sonra Lev Tolstoy cavab verir: "Müsəlmançılığın provoslav qarşısındakı üstünlüyünə və xüsusilə, sizin övladlarınızın xidmət etdikləri məqsədin alicənablığına gəlincə, bu hərəkətinə bütün qəlbimlə rəğbət bəsləyirəm. Xristian idealı təlimini onun həqiqi mənasında hər şeydən üstün tutan bir adam

üçün bunu demək nə qədər qəribə olsa da, deməliyəm ki, müsəlmançılığın öz xarici formasına görə kilsə provoslavlığından müqayisə olunmaz dərəcədə yüksəkdə durması məndə heç bir şübhə doğurmur..." ("Azərbaycan gəncləri", 10.08.1989).

L.N.Tolstoyun məktubu ailədə hökm kimi oxunub, qanun kimi qəbul edildi. Zaqafqaziya müftisi Mirzə Hüseyn əfəndi Qayıbzadənin məsləhəti ilə uşaqların adı dəyişildi: Boris - Faris, Qleb - Talib oldu.

Bu kəlamları yada salmaqda məqsədim odur ki, dünya şöhrətli dahi Lev Tolstoy həm qraf və həm də özünün yazdığı kimi, "xristian idealı və təlimini... hər şeydən üstün tutan bir adam" olub.

Nakam dünya şöhrətli olmasa da, onun taleyi qoca qrafın taleyinə çox bənzəyir. Axı Nakam da babasından qalma torpaqları təmənnasız olaraq kəndlilərə paylamış və ömrünün ikinci yarısında sadə həyat sürmüşdür. F. Köçərli bu barədə belə yazır: "40 yaşından sonra dövlət-əmlakı getdikcə əlindən çıxıb, məişəti genişlikdən darlığa, yüsrətdən üsrətə məbəddəl olubdur və axiri - ömrünü əlində baqi qalan bir para xırda mülkdən gələn cüzi mədaxil ilə keçirmiş".

Axı L. Tolstoy da ömrünün son illərində torpaqlarını paylayıb sadə həyat keçirmişdir. Niyə yuxarıda dediklərimizi "başabəla" tənqidçilərimiz unudublar. Məgər onlar bilmirdilər ki, dahi Nizami, Füzuli, Nəsrəddin Tusi... də ilk təhsillərini mədrəsədə almış, dini qəsidələr yazmışlar? Məgər onların bu əqidəsi Nizami, Füzuli şöhrətini azaldıbmı? Əsla yox! Məgər "başabəla tənqidçilər"imiz və "millətə bəla" bəzi rəhbərlərimiz bilmirdilər ki, hələ 1904-cü ildə "Din azadlığı haqqında "manifest" ilə hər hansı bir səbəbdən öz ata-baba dinindən dönmüşlərə yenidən o dinə qayıtmağa icazə verildi. Bəs Nakam niyə öz humanist dini islamdan üz döndərməli idi? Axı hər bir din o millətin keçmişi, onun tarixi, mədəniyyətidir.

İsmayıl bəy Məhəmməd oğlu Sədrəddinbəyov - Nakam

1841-ci ildə Şəkidə anadan olmuşdur. Babası Hacı Sədrəddin bəy Şirvan və Xaldan mahallarında böyük torpaq sahəsi olan mülkədar idi. İsmayıl bəy təhsilini Şəkidə almış, bir sıra Şərq ölkələrinə səyahət etmişdir ki, bu da onun yetişməsində böyük rol oynamışdır. O, ərəb və fars dillərini mükəmməl bilmiş, hətta Şəkidə oxuduğu məktəbdə rus dilini də öyrənmişdir.

Atası Məhəmməd bəyin ölümündən sonra İsmayıl bəy bir mülkədar kimi torpağa sahiblik etmiş, firavan həyat sürmüşdür. Dünya malında gözü olmayan, humanist İsmayıl bəy yuxarıda dediyimiz kimi, 40 yaşından sonra torpaq sahələrini paylamış, ehtiyac içərisində yaşamışdır.

Nakam mütaliəni sevən ziyalı olmuşdur. O, Nizamini, Hafiz və Sədini mükəmməl öyrənmiş, S. Ə. Şirvaninin pərəstişkarı olmuş, onunla dostluq etmiş, məktublaşmış, onu Şəkiyə dəvət etmişdir. Nakam Xurşudbanu Natəvan ilə də şeirlərlə məktublaşmışdır.

Filologiya elmləri namizədi Əbdürrəhman Abdullayevin məlumatından: "Yaradıcılığının (Nakam yaradıcılığının - **Ə.H.**) məhsulu olan çoxlu qəzəl, "Leyli və Məcnun" və "Fərhad və Şirin" poemaları, məktəbə dəvət və gənclərin tərbiyəsinə həsr olunmuş əsərləri üç divanda toplanmışdır. Bu əsərlər hazırda Azərbaycan MEA-nın Əlyazmaları İnstitutunun xüsusi fondunda mühafizə olunub saxlanılır".

Füzuli qəlbli, sözün əsl mənasında, incə qəlbli Nakam 1906-cı ildə Şəkidə vəfat etmişdir.

Onun irsini Salman Mümtaz tədqiq etmiş, poeziya nümunələrinin çap olunmasında xüsusi səy göstərmişdir.

Şairin adını əbədiləşdirmək məqsədilə 50-ci illərdə Şəki Mərkəzi şəhər kitabxanasına onun adı verilmişdir. Vaxtilə Nakam yaşayan küçə indi onun adını daşıyır.

UNUDULMUŞLAR...

Ən böyük xəyanət - soyuqqanlıqdır,
Ən böyük cinayət - biganəlikdir.
B. Vahabzadə

Bu bir həqiqətdir ki, keçmişimizi öyrənmədən bu günümüzü qiymətləndirmək mümkün deyil. Şəki deyəndə hamı fikirləşir ki, gözəl mətbəxi var, adamları mülayim, qonaqsevərdir, sənətkarlar diyarıdır, ipəkçilikdə şöhrət qazanıb. Ancaq daha dərinə gedəndə görürsən ki, Şəki həm də qədimdən şairlər, alimlər, tarixçilər diyarıdır...

Bu şairlərin çoxu klassiklər səviyyəsinə çata bilməsələr də, onların Azərbaycan milli ədəbiyyatının inkişafında müəyyən rolu olub. Onların üstün cəhətlərindən biri budur ki, ərəb-fars dillərini kamil bilsələr də, əksər şeirlərini Azərbaycan dilində yazmışlar. Onları həmçinin mətnşünas, ədəbiyyatşünas, tarixşünas alimlər olmuşlar.

Şəkililərin əksəri ədəbiyyatımızın loğmanı Salman Mümtaz, tarixçi alimlər Kərim Ağa Fateh Şəkixanov, Hacı Seyid Əbdülhəmid, böyük bir nəslin kötüyü Xalisə Qarı və başqaları haqda çox az şey bilir.

Salman Mümtaz nəinki Azərbaycan, hətta Şərq ədəbiyyatının, elminin unudulmuş nümunələrini qapı-qapı gəzib, toplayıb, onları məhv olmaqdan xilas edib, özü isə repressiyanın qurbanı olub.

İmkanımız daxilində belə şair və alimlər haqqında əldə etdiyimiz məlumatları nəzərinizə çatdırmaq istəyirik.

1. Hacı Mahmud Əfəndi Nafe - 1811-ci ildə Şəkinin Dodu hissəsində anadan olmuşdur. Doduda mədrəsədə müəllimlik etməklə bərabər, Azərbaycan dilində şeirlər yazmışdır. Öz savadı, müdrikliyi, şairlik istedadına görə xalq arasında böyük hörmət sahibi olmuşdur. O, şeirlərini "Nafe" təxəllüsü ilə yazmışdır. Müəllim-şair Nafe 1876-cı ildə vəfat etmişdir.

2. Dülgər Rəsul - təxminən 1825-ci ildə Şəkinin Yuxarıbaş məhəlləsində doğulmuş, dülgərlik, bənnalıqla məşğul olmuşdur. O, xüsusi təhsil almamışdır. Bir çox şeirlərin müəllifidir. Onun şeirlərinin əsas mövzusu humanizm, vətənə məhəbbət, insan azadlığı və s. olmuşdur. Dülgər Rəsul 1888-ci ildə Şəkidə vəfat etmişdir.

3. Molla Məhəmməd Hüzni - XVIII əsrin ikinci yarısı, XIX əsrin əvvəllərində Şəkidə yaşayıb-yaradan şairlərdəndir. Doğulduğu yer Şəkinin Küngüt kəndidir. Öz elmi və dünyagörüşü ilə xalq içərisində hörmət sahibi olmuşdur. Hüzninin əlyazmasında bir divandan ibarət olan şeirləri, əsasən, təbriknamə, tərifnamə və qəzəllərdir. Bu şeirlərində Molla Məhəmməd müasirlərini elmə, ədəbə çağırmış, bu əlamətləri var-dövlətdən, simuzərdən üstün tutmuşdur:

Eylə hasil, səy edib şami səhər elmi ədəb,
Malü-mənsəb sahibini eylər bəlayə mübtəla.
Sahibin amma bəladan hifz edər elmi ədəb,
Bəs deyil olmasa, dünya dövlətindən dövlətin,
Olsa gər sərmayeyi - əqlü hünər, elmi-ədəb.

4. Məhəmməd Şəmməduz - Şəkidə xalq içərisində hörmət qazanan şairlərdəndir. O, 1867-ci ildə Şəkidə anadan olmuşdur. Ağlı, bacarığı, cürəti tərənnüm etmiş, fanatizmə qarşı çıxmışdır. Satirik şeir yazmağa da meyil göstərmişdir. Məhəmməd Şəmməduz 1892-ci ildə Şəkidə vəfat etmişdir. O yazırdı:

Çərxi kəcrəftar özü sən kimi bir məxluqdur,
Sən də qıl öz dərdinə həm dərdə dərman, ağlama.

5. Molla İbrahimxəlil Dodun - 1860-cı ildə Şəkinin Dodu məhəlləsində anadan olmuş, ərəb dilində təhsil almışdır. Şəkinin tanınmış ziyalılarından olmuş, ərəbcə təhsil almasına baxmayaraq Azərbaycan dilində şeirlər yazmışdır. Dodun öz şeirlərində hərisliyə, tamahkarlığa, acgözlüyə, yalançılığa qarşı çıxmışdır. O, 1900-cü ildə Şəkidə vəfat etmişdir.

Molla İbrahimxəlil Dodun yazırdı:

Haq verdiyi əmvayi-niəm var ikən onda,
Bişərimliyi aləmə irsar görünmüş.
Hər nədər yığa-söyləyəcək olmadı bir şey,
Bir dəfə adəti inkar görünmüş.

6. Molla İsrafil (Bidaizi) - XVIII əsrin ortalarında Şəkinin Bideyiz kəndində anadan olmuşdur. Ərəb, fars, türk dillərini kamil bilmişdir. Bidaizi kamil ədəbiyyatşünas alim kimi tanınmışdır. O, Şərq poeziyasının üslub xüsusiyyətlərinə dair əsər yazmış, ərəb, fars və türk şairlərinin şeirlərini tədqiq etmişdir.

O dövrlərdə Şəkidə yaşayan şairlərdən Xəstə Qasım, Hüseyn Qəmnək, Dəli Bəbr, Hacı Rəsul, Xəstə Qədir, qədim şairlərdən - Xalisə Qarı, Mahtab, Mah və başqalarını göstərmək olar. Xalisə Qarı haqqında ayrıca danışılacaq. Mahtab xanım və Mah xanım, əsasən, məhəbbət mövzusunda yazmışlar.

Mahtab xanım:

Mahtabam, yaman günüm keçildi,
Dolandı saqilər, badə içildi.
Gözün aydın olsun, baxtım açıldı,
Bir ali-nəsəbi sevmişəm indi.

Mah xanım:

Mah xanımam, bu sinəmi dağlaram,
Öz yaramı öz əlimlə bağlaram.
Gecə-gündüz sızıldaram, ağlaram,
Qəm çərisi sinəm üstə töküldü.

ŞƏKİLİ DAHİ

Türk millətindənəm, islam hümmətindənəm,
Qərb mədəniyyətindənəm.
Məhəmmədəli Xəlfəzadə.

Mirzə Fətəli Axundov 1812-ci ildə Azərbaycanın qədim əyalət şəhərlərindən biri olan Nuxada (Şəkidə) anadan olmuşdur.

Fətəlinin atası Məhəmmədtağı Hacı Əhməd oğlu Təbriz vilayəti Xamnə qəsəbəsinin kəndxudası olmuş, vəzifədən çıxarıldıqdan sonra ticarət etmiş, çərçilik edə-edə gəlib Nuxaya çıxmışdır.

Məhəmmədtağı Hacı Əhməd oğlu 1811-ci ildə nuxalı Axund Hacı Ələsgərin qardaşı qızı Nanə xanımla evlənir və bu nikahdan Azərbaycan xalqının dahi oğlu Fətəli dünyaya gəlir.

Əldə olan məlumatlara görə, Mirzə Fətəlinin anası Nanə xanımın ulu babası zənci imiş.

Bu xüsusda Axundovun nəvəsi (Nisə xanımın qızı) Mahmənzər xanım Qacar öz xatiratında belə yazır: "Anamın dediyinə görə, bizim şairimizin də (Mirzə Fətəlinin - **F.Q.**) rus şairi Puşkin kimi qanında zənci (qara qul) qarışığı varmış: onun anasının ulu babası Nadir şahın zamanında İrandan Nuxa şəhərinə vergi toplamağa göndərilmiş Müzəffər adlı bir zənci imiş" (F. Qasımzadə, XIX əsr Azərbaycan ədəbiyyatı tarixi", 1966, səh. 239-354).



M. F. Axundovun Şəkidəki ev-muzeyi.

1814-cü ildə Şəki (Nuxa) mahalının hakimi xamnəli Cəfərqulu xan öldükdən sonra onun himayəsi altında yaşayan İran mühacirlərini, o cümlədən, Mirzə Fətəlinin atası Məhəmmədtağı ikinci arvadı Nanə xanım və körpə oğlu Fətəlini götürüb Xamnəyə, əvvəlki arvadının və uşaqlarının yanına qayıdır. Lakin Xamnədə günüsü ilə günü-güzəranı ağır keçən Nanə xanım dörd ildən sonra ərindən ayrılıb əmisi Axund Hacı Ələsgərin yanına qayıdır. Axund Hacı Ələsgər bu zaman Cənubi Azərbaycanın Ərdəbil mahalında Şəkinin keçmiş hakimi Səlim xanın yanında qulluq edirdi, Qaracadağ vilayətinin Horand qəsəbəsində yaşayırdı. Nanə xanım qayıtdıqdan sonra Axund Hacı Ələsgər Fətəlini oğulluğa götürdü.

Mirzə Fətəli 2 yaşından 13 yaşınadək (11 il) Cənubi Azərbaycanda olmuş, ilk təhsilini molllaxanada almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir.

1825-ci ildə Axund Hacı Ələsgər Şimali Azərbaycana qayıdır və bir il Gəncədə yaşayır. Bu müddətdə Fətəli ərəbcə və farsca təhsilini davam etdirir.

Bir il keçəndən sonra Rusiya-İran müharibəsi (1826-28) başlanır. İran qoşunları Gəncəni tuturlar və Axund Hacı Ələsgərin bütün var-dövləti qarət edilir. Müflisləşən Axund Hacı Ələsgərin Gəncədə qalmağa maddi imkanı olmadığından ailəsi ilə Nuxaya qayıdır.

Mirzə Fətəli atalığı Axund Hacı Ələsgərin başına gələnlər haqqında yazmışdır: "Bu müharibədə Axund Hacı Ələsgərə və ailəsinə üz verən müsibətlər, düçar olduqları bəlalar, Gəncə qalasında qarət edilərək, bütün mal və əşyalarından məhrum və müflis olmaları kitab və dəftərə sığmazdır" (F. Qasımzadə).

Nuxada Axund Hacı Ələsgər Mirzə Fətəlinin təhsili ilə şəxsən özü məşğul olur, gələcəkdə onun axund olması üçün ərəb dilini təlim edir.

1832-ci ildə Məkkə ziyarətinə gedən Axund Ələsgər Mirzə Fətəlini Gəncəyə aparıb özünün axund dostu Molla Hüseyn Pişnamazzadəyə tapşırır ki, ziyarətdən qayıdana qədər ona məntiq və fiqh kitablarından dərs desin. Mirzə Fətəli, eyni zamanda, məşhur şair Mirzə Şəfi Vazehdən dərs alırdı. M. Ş. Vazeh bu zaman həm də xəttatlıqla məşğul olurdu. Vazehin səyi nəticəsində M. Fətəli müasir elmlə maraqlanır və bu sahədə çoxlu mütaliə edir. Atalığı Məkkədən qayıtdıqdan sonra M. Fətəli onun razılığı ilə Nuxada dövlət tərəfindən təşkil edilmiş rus dilində mək-



Şəkidəki ev-muzeyində M.F.Axundovun heykəli.

təbə daxil olur. Lakin yaşı çox olduğundan bu məktəbdə bir ildən artıq oxuya bilmir. Rus dilində təhsilini davam etdirməyin yolunu Tiflisdə hökumət qulluğuna girməkdə görən M. Fətəli 1834-cü il noyabrın 1-də Qafqazın baş hakimi baron Rozenin icazəsilə onun dəftərxanasında mülki hissə üzrə Şərq dilləri mütərciminin şagirdi qulluğuna götürülür. Rus tərcüməçilərindən birinə təhkim edilən M. Fətəli altı aydan sonra şagirdlikdən mütərcimliyə keçirilir. M. Fətəliyə 1842-ci ildə proporşik, 1846-cı ildə podporuçik, 1850-ci ildə poruçik, 1852-ci ildə ştabs-kapitan, 1861-ci ildə mayor, 1869-cu ildə podpolkovnik, 1873-cü ildə polkovnik rütbəsi verilmiş, orden və medallarla təltif edilmişdir.

Dahi şairimiz S. Vurğun yazmışdır: "Axundov o medallar və paqonlu mundirin içində böyük bir ürək gəzdirir. Bu ürək onun xalq üçün azadlıq və səadət axtaran ürəyi idi. Bu ürək böyük internasionalist və humanist Axundovun bütün insanlara məhəbbətlə dolu qardaşlıq ürəyi idi. Bu ürək Azərbaycan xalqının rus çarizminə qarşı nifrət və üsyan ürəyi, rus xalqına, onun böyük mədəniyyətinə hörmət və məhəbbət ürəyi idi") (F. Qasımzadə).

Mütərcimlik vəzifəsinə qəbul olunduqdan təxminən iki il sonra M. Fətəli əvvəlki qulluğunu saxlamaqla pedaqoji fəaliyyətə də başlamışdır. Beləliklə, o, 1836-cı il dekabrın 8-də Tiflis qəza məktəbinə Azərbaycan dili müəllimi təyin edilir. Bir il sonra (1837) həmin məktəbə müdir təyin olunur. 1840-cı ildə M. Fətəli öz xahişi ilə müəllimlikdən azad olur.

1837-ci ildə Tiflisdə yaşayan A. Bestujev M. Fətəlidən Azərbaycan dilini, bunun müqabilində M. Fətəli ondan rus ədəbiyyatını öyrənmişdir. A. S. Puşkinin yaradıcılığını dərindən öyrənən M. Fətəli 1837-ci il yanvarın 31-də dahi şairin dueldə öldürülməsi xəbərindən dəhşətə gəlmiş, özünün ən yaxşı şerini - "Şərq poeması"nı yazmışdır. Poema fars dilində yazılmış, müəllif tərəfindən ruscaya nəsrən tərcümə edilmişdir.

M. F. Axundov yaradıcılığa şeirlə, "Səbuhi" təxəllüsü ilə başlamışdır. Əvvəllər qeyd etdiyimiz kimi, onun yaradıcılığında

"Şərq poeması" (1837) xüsusi yer tutur. O, 1850-1855-ci illərdə yazdığı altı komediya ("Hekayəti-Molla İbrahimxəlil kimyagər", "Müsyö Jordan və dərviş Məstəli şah", "Vəziri-xani-Lənkəran", "Hekayəti-xırs quldurbasan", "Sərgüzəşti-mərdi-xəsis" və ya "Hacı Qara", "Mürafiə vəkillərinin hekayəti") ilə nəinki Azərbaycan, hətta bütün Yaxın Şərq ədəbiyyatında realist dramaturgiyanın təməlini qoymuşdur. Görkəmli sənətkar yuxarıda adlarını çəkdiyimiz komediyaları özü rus dilinə tərcümə edib, hissə-hissə "Kavkaz" qəzetində çap etdirmişdir.



M. F. Axundovun ev-muzeyinin interyeri.

M. F. Axundov 1857-ci ildə yazdığı " Aldanmış kəvakib", yaxud "Hekayəti-Yusif şah" povesti ilə Azərbaycan realist nəsrinin əsasını qoymuşdur. O, Azərbaycanda materialist estetik fikrin də banisi hesab edilir. Hərtərəfli, geniş bilik sahibi olan bu insan Azərbaycanın elm tarixində bir filosof, tarixçi kimi də şöhrət qazanmışdır.

"Kəmalüddövlə məktubları" əsərini 1865-ci ildən yazmağa başlamış, həyatının son günlərin qədər bu fəlsəfi əsər üzərində çalışmışdır. M.Fətəli bu əsərini Azərbaycan dilində yazmış, sonra rus dilinə tərcümə etmişdir.

Elmin və sənətkarlığın hər sahəsində yenilik tərəfdarı olan M. F. Axundov yeni əlifba uğrunda da mübarizə aparmış, bir neçə əlifba layihəsi hazırlamış, bu münasibətlə 1863-cü ildə İstanbulda olmuşdur. Ədibin Türkiyəyə səfərindən bir məqsədi də bu ölkənin həyatı ilə yaxından tanış olmaq idi. Onu da qeyd etmək lazımdır ki, ilk ana dili dərsliyimiz olan "Əlifba" kitabı 1868-ci ildə Tiflisdə çap olunmuşdur. Onun müəllifi M. F. Axundovdur. Bu kitab vaxtilə Türkiyədə, sonralar isə İranda geniş yayılmışdır.

Ümumiyyətlə, M. F. Axundov kimi bir nəhəngin yaradıcılığını kiçik bir yazıda hərtərəfli araşdırmaq mümkün deyil və buna ehtiyac da yoxdur. Ona görə ki, onun yaradıcılığı ədəbiyyatşünaslar, tarixçilər, filosoflar tərəfindən ətraflı öyrənilmişdir. Onun ailə həyatı da maraqlıdır.

M. F. Axundov 1842-ci ildə Tiflisdən Şəkiyə gəlmiş, Axund Hacı Ələsgərin qızı Tubu xanımla evlənmişdir. Bu zaman Hacı Axund Ələsgər artıq vəfat etmişdi.

M. F. Axundovun on üç övladı olmuş, onlardan oğlu Rəşid və qızı Nisə çox yaşamış, qalanları müxtəlif yaşlarda vəfat etmişlər. Onun üç uşağı bir neçə günün içərisində qızılcadan ölmüşdür.

1872-ci ildə iki uşaq qoyub gedən qızı Seyrabəyimin ölümü onu daha çox sarsıtmış, bu barədə dostu Mirzə Yusif xana yazmışdır: "Qəm-qüssənin çoxluğundan ölüm arzulayıramsa da, mənə qismət olmur. Odur ki, bir neçə saatlığa qəm və qüssəni unutmaq xatirinə özümə bir məşğələ axtarıram. Çünki məhərrəm ayının 17-də Xanbaba xanın arvadı olan qızım, sizə məlum olan xəstəlik nəticəsində ölmüşdür. Onun iki uşağı qalmışdır ki, biri 4 yaşında qızdır, ikincisi 3 yaşında oğlan. Belə isə nə vəziyyətdə olduğumu artıq soruşmayın" (F. Qasımzadə).

M. Fətəli yetim qalan nəvələrini başsız qoymamaq xatirinə və kürəkəninin gözəl əxlaqını nəzərə alıb ikinci qızı Nisə xanımı Xanbaba xana ərə vermişdir. M. F. Axundovun kürəkəni Xanbaba xanın nəsli haqda məlumat gələcək nəsillər üçün çox maraqlı olar. Xanbaba xan Bəhmən Mirzə Qacarın oğludur. Bəs Mirzə Qacar kimdir? O, 1811-ci il oktyabrın 31-də İranda anadan olub. Milliyyətcə azərbaycanlı olan Bəhmən Mirzə İran şahı Fətəli şahın nəvəsi, Qacarlar sülaləsinin 3-cü hökmdarı Məhəmməd şahın qardaşıdır. Bəhmən Mirzə Qacar uzun müddət Təbrizin general-qubernatoru və Cənubi Azərbaycanın hakimi olub. Bəhmən Mirzə Qacarın qanuni 16 arvadı və 63 övladı olub. O, övladlarının hamısına ali təhsil verərək onları vətəninə layiqli bir şəxs kimi böyüdüb. Qızları Tiflis gimnaziyasında oxuyub, müsəlman qadınlarının xeyriyyə cəmiyyətində iştirak ediblər. Eyni zamanda, xeyriyyə işləri ilə məşğul olublar. Belə ki, məscidlər tikdirmiş, yol çəkdirmiş, ibtidai məktəblərin açılmasına nail olmuşlar. Bəhmən Mirzənin gəlinləri, nəvələri Peterburqda, Kiyevdə, Tiflisdə ali Avropa təhsili almış ziyalılar olublar. B. M. Qacarın 15-dən çox oğlu İran və rus ordularında hərbi xidmətdə olub. Onlardan 7 nəfəri - Əmir Kazım Mirzə, Məhəmməd Əli Mirzə, Səməd Mirzə, Mahmud Mirzə, Rzaqulu Mirzə, Əmənulla xan Mirzə və Feyzulla Mirzə general rütbəsinə, 8 nəfəri isə - Şahruh Mirzə, Xosrov Mirzə, Xanbaba xan Mirzə (M. F. Axundovun kürəkəni), Nəsrulla Mirzə, Seyfulla Mirzə, Mənsur Mirzə, Əbdülsəməd Mirzə və Darab Mirzə polkovnik rütbəsinə layiq görülüb. Bəhmən Mirzə Qacar 53 yaşında düşmənləri tərəfindən zəhərlənib öldürülüb.

Bəs M.F.Axundovun Bəhmən Mirzə Qacarla qohumluq əlaqələri necə yaranıb? Şəmistan Nəzirlinin "Arxivlərin sirri açılır" kitabında maraqlı bir fakt açıqlanır. Belə ki, 1851-ci ildə Şuşaya köçən Bəhmən Mirzə Qacar M. F. Axundovla dostluq əlaqələrini kəsməyərək sonda bu münasibətləri qohumluqla davam etdirib. Mirzə Fətəli öz qızı Seyrabəyimi Bəhmən Mirzənin oğlu Xanbaba xan Mirzəyə verir. Onların iki övladı dünyaya gəlir. Seyrabəyim vaxtsız vəfat edir. Əvvəl qeyd etdiyimiz kimi, Mirzə Fətəli həm uşaqların ögey ana əlinə düşməməsi, həm Xanbaba xana olan böyük hörməti və qudası Bəhmən Mirzə ilə möhkəm dostluq əlaqələrinin xatirinə ikinci qızı Nisəni ona ərə verir.

Ev-muzeyin otaqlarından biri.

Əfsuslar olsun ki, bu məlumatlar sovetlər dövründə xalqa çatdırılmayıb. Qacarlar nəsli, o cümlədən Ağa Məhəmməd şah Qacar istər tarixçilərimiz və istərsə də şair və yazıçılarımız tərəfindən Azərbaycan xalqının düşməni kimi göstərilib. Qəhrə-

man Qacar nəsli 7 general yetişdirib. Şəmistan Nəzərlinin məlumatına görə 1920-ci ildə Azərbaycana soxulan daşnak-bolşevik ordusunun rəhbərləri tərəfindən Qacarların əksəriyyəti ölkədən didərgin salınmış və güllələnmişdir.

Mətləbdən bir qədər uzaqlaşsaq da, bu məlumatlar gələcək nəsil üçün faydalıdır.

M. Fətəlinin həyat yoldaşı Tubu xanım böyük iztirablar keçirmiş, uşaqlarının faciəli taleyi onu da sarsıtmışdır. Zahirən çox gözəl olan Tubu xanım xoşrəftar, mülayim, fədakar, səliqə-sahmanı sevən bir qadın imiş. Həyatının belə qəm-qüssəli keçməsinə baxmayaraq, M. Fətəli də gülərüz, xoşsima, zarafatcıl, hazırcavab bir şəxs olmuşdur. Öz xarici görünüşü, səliqəsi, gözəlliyi ilə hamıdan fərqlənmiş, qocalığında da bu təravəti itməmişdir. Evində qonaq qəbul etməyi çox sevərmiş.

Mirzə Fətəli həm də çox qayğıkeş, mehriban bir insan imiş. Onun qız nəvəsi Mahmənzər Qacarın "Unudulan səhifə" adlı xatirətından aydın olur ki, M. Fətəli qızı Nisə xanımın təhsili ilə şəxsən məşğul olaraq ona rus və fars dillərini öyrətmişdir.



Rəşidbəy Axundov.

Bir neçə kəlmə də Fətəlinin sevimli oğlu Rəşid bəy haqda. Rəşid bəy 1854-cü ildə Tiflis şəhərində anadan olmuşdur. Rəşid Birinci Tiflis klassik gimnaziyasında oxumuşdur. Mirzə Fətəli oğluna ərəb və fars dillərini mükəmməl öyrətmiş, İran klassiklərinin əsərlərilə onu tanış etmiş, musiqi təhsili də vermişdir. Fransız dilini öyrənmək üçün Kinyar adlı müəllimə təhkim etmişdir.

F.Qasımzadənin məlumatından: "Mirzə Yusif xana yazdığı məktublarında M.F.Axundov Rəşidin gimnaziyada dərslərindən əla çalışmasını, rus, fransız və fars dillərini mükəmməl bilməsini, yaxşı tar çalmasını... fəlsəfə sahəsində onunla mübahisəyə girişməsi, ümumiyyətlə, onun istedad və əxlaqından qəlbən razı qaldığını böyük bir fərəh hissi ilə təsvir etmişdir".

Rəşid bəy 1874-cü ildə gimnaziyada təhsilini başa vurduqdan sonra Brüssel Universitetinin yol mühəndisliyi fakültəsinə daxil olur. Universitetdə təhsil alarkən Mirzə Fətəli və anası Tubu xanımla onun müntəzəm yazışmaları başlayır. Bu məktublar M. F. Axundovun həyat və yaradıcılığını öyrənmək baxımından çox əhəmiyyətlidir.

M. F. Axundov alim Sahibə göndərdiyi 18 may 1876-cı il tarixli məktubunda yazırdı: "Bircə arzum vardır ki, bir neçə il də yaşayaydım və hal-hazırda Avropada, Belçika ölkəsinin paytaxtı olan Brüssel şəhərində mühəndislik elmini öyrənən yeganə oğlum Mirzə Rəşidin təhsildən qayıtmasını görərək, ona özüm toy edəydim. Ondan sonra "Kəmaləddövlə"ni və bundan əlavə 20 başqa əsərimi gələcək nəsil üçün yadigar qoyaraq, bu fani və puç dünyanı tərk edəydim. Qoy gələcək nəsil "Kəmaləddövlə"nin məzmununa əməl etsin və mənim yolunda illər uzunu çalışdığım köhnə islam əlifbasını da dəyişdirsin" (F. Qasımzadə, 1966).

1877-ci ilin axırlarında unudulmaz alim-sənətkarın xəstəliyi şiddətlənir, yatağa düşür. 1878-ci ilin 15 fevralında xəstəyə baş çəkməyə gələn Əbdüssalam dostlarından birinə yazmışdı: "... Mirzə Fətəlinin xəstəliyi çox uzun çəkdi. Zavallıya nəfəs sıxıntısından başqa bir də ürəkşişmə ariz olmuşdur. Sağalacağına ümid yoxdur. Allah ona rəhm eləsin" (F. Qasımzadə, 1966).

Dahi sənətkar, mehriban ata oğlunun qayıtmasını görmür, ona toy edə bilmir, 1878-ci il martın 10-da Tiflisdə vəfat edir.

Unudulmaz şair, dramaturq, filosof, alim Mirzə Fətəli Axundov öz vəsiyyətinə görə Tiflis qəbiristanlığında hörmətli müəllimi Mirzə Şəfi Vazehin yanında dəfn edilir.

Atasının ölümü Rəşidi çox sarsıdır. Həsən Həsənovun "Keçən əsrdən məktublar" məqaləsində yazılır: "... Rəşid atasının ölümü ilə mənəvi istinadını, ustad və müəllimini itirmiş olur. Bundan başqa, bu hadisə ciddi maddi çətinliklər də yaradır və Rəşidin xəstələnməsi ilə vəziyyət daha da kəskinləşir. O, təhsilini yarımçıq buraxaraq 1882-ci ildə kursu bitirmədən Brüsseldən Tiflisə qayıdır. Lakin məqsədindən dönmür. Az keçmir ki, təhsilini tamamlamaq və mühəndis rütbəsi almaq üçün Peterburqa gedir... Nəhayət, istəyinə nail olur. "Yollar mühəndisi"

diplomu ilə Tiflisə dönür və "Qafqaz dairəsi yollar idarəsi"ndə işə başlayır" ("Şəki fəhləsi" qəzeti, 16.02.1988).

Rəşid bəy tərcüməçiliklə də məşğul olmuşdur. O, əsasən, fransız dilindən tərcümələr etmişdir. Rəşid bəy hələ Brüsseldə təhsil aldığı müddətdə (1874-1878) fransız yazıçısı Alfred-de Breanın "Bir balaca parislinin həyatı" romanını orijinaldan Azərbaycan dilinə tərcümə etmişdir. Həmin kitab "Yazıçı" nəşriyyatı tərəfindən çap edilmişdir. Ön sözün müəllifi Şamil Zaman yazır: "Rəşid bəy nə üçün məhz Alfred-de Breanın "Bir balaca parislinin həyatı"nı tərcümiə üçün seçmişdir? Bizə belə gəlir ki, Rəşid bəyi əsərin ümumi süjeti cəlb etmişdir. Jan Blenin başına gələn çətinlikləri, acı həyatı o zamanlar Vətənindən uzaqlarda yaşayan Rəşid bəy öz həyatında görür. Əsərin surətləri də Rəşid bəyin yaşıdlarıdır".

Rəşid bəy atası kimi xalqının gələcəyinə inanmış, nikbin təbiətli olmuşdur. O yazırdı: "Vaxt olacaq hər şey kökündən dəyişəcək. Gələcək məndə gözəl, aydın və parlaq şəkildə təcəssüm edir" ("Şəki fəhləsi" qəzeti, 16.02.1988).

M.F.Axundovun nəvəsi müəllimə Aliyə Sultanova (1895-1943).

Axundov Rəşid bəy Mirzə Fətəli oğlu 1905-ci ildə Bakıda vəfat etmişdir. M. F. Axundovun Şəkidə ev-muzeyi vardır. Onun adına küçə, mədəniyyət evi və s. qoyulub.

Son araşdırmalar göstərir ki, M.F.Axundov heç də yoxsul olmayıb. O, hətta İrandakı qohumlarına maddi köməklik edib. Şəkidə çıxan "İpəkçi" qəzetinin məlumatları bu baxımdan daha maraqlıdır. Onun Tiflisdəki şəxsi mülkündə indi də neçə gürcü ailəsi yaşayır.

Son vaxtlar müəyyən edilmişdir ki, dahi sənətkarın həyat və yaradıcılığına aid Moskva, Sankt-Peterburq, Tbilisi, Bakı, Paris, İstanbul, Tehran və digər şəhərlərdəki dövlət arxivlərində, kitabxanalarda hələ öyrənilməmiş, üzə çıxarılmamış, geniş oxucu kütləsinə çatdırılmamış materiallar vardır. Bu baxımdan, akademik Ziya Bünyadovun Türkiyə arxivlərindən M. F. Axundovun yeni əlifbaya aid bir yazısını tapması son dərəcə qiymətlidir. Bu böyük sənətkarın əsərləri Fransada, Almaniyada, İngiltərədə, Polşada keçmiş Çexoslovakiyada geniş yayılmışdır. Almaniyada yazıçının "Kəmalüddövlə məktubları" əsəri çapdan çıxıb, ABŞ-da ədibin fəlsəfi əsərləri ilə daha çox maraqlanırlar. Hətta Yaponiyada belə M. F. Axundovun yaradıcılığına böyük maraq var, bu da müəyyən dərəcədə yazıçının qız nəvəsi Pəri xanımın orada yaşaması ilə bağlıdır. 1988-ci ildə anadan olmasının 175 illiyinə həsr olunan yubiley şənlikləri bu dahi sənətkarın xaricdə necə böyük şöhrətə malik olduğunu bir daha sübuta yetirdi.

ƏDƏBİYYAT LOĞMANIMIZ

Var bir dərdim ki, çox dərmandan artıqdır mənə
Qoy məni dərdim, dərman eyləmə,
var, ey həkim!
M. FÜZULİ

Mən yanmasam, sən yanmasan, biz yanmasaq,
Necə çıxar qaranlıqlar aydınlığa?
Nazim HİKMƏT

Rəfael Hüseynov "Min ikinci gecə" kitabında (1988) Salman Mümtazı ədəbiyyatımızın loğmanı adlandırır. Bu heç də təsadüfi deyildir. S. Mümtazın ədəbiyyat tariximizdəki xidmətlərinə yalnız "loğman" adı vermək olar. Loğman isə bilikli, savadlı şəxs ola bilər. Sokrat yaxşı deyib: "Bilikdən daha zəngin xəzinə, pis xasiyyətdən daha rəzil düşmən ola bilməz, bilikdən

daha böyük izzət, həyatdan daha qəşəng zinət ola bilməz" ("Qabusnamə", səh. 40).

Salman Mümtaz.

S. Mümtaz, doğrudan da, loğmandır. Ona görə ki, ulu babalarımızın beyinlərinin məhsulu olan elmi-ədəbi əsərlərini bağlı sandıqlardan, qaranlıq zirzəmilərdən işıqlı dünyaya çıxardı, doğma xalqına çatdırdı, millətin başını ucaltdı.

S. Mümtaz xalqının həqiqi vurğunu idi. Elmə, sənətə vicdanla qulluq edən adam, millətinə qulluq edir, onunla sevinir, onunla kədərlənir. O şəxs həqiqi ziyalıdır ki, vətən, xalq yolunda canından keçsin, bu səda onun qəlbindən gəlsin. Aşıq Sakit Köçəri demişkən:

El dərdini bilən baş ol,
Yurda sadiq vətəndaş ol,
Halala dost ol, qardaş ol,
Harama həmkar olunca.

S. Mümtaz millətin ləyaqətli oğullarını, ziyalı babalarımızı, nənələrimizi xalqa tanıtdı. Adlarının yanında molla, seyid, əfəndi olan, vətənimizin elm-mədəniyyət tarixindən dindar deyib silinən, unudulan dünya şöhrətli alimlərimizi üzə çıxardı.

Məncə, Mümtazı olan bir xalq xoşbəxt adlandırıla bilər. Bizim neçə-neçə Mümtazlarımız var. Əfsuslar olsun ki, keçmişimizlə fəxr edir, müasir Mümtazları az görürük. İndi hamı yaxşı publisist, natiq, "yol göstərən", tənqidçi olub. Yenə də Aşıq Şəmşirin şagirdi Aşıq Sakitə müraciət etmək istəyirəm:

Bəsdir, Qorqud Dədələrlə öyündük,
Hünərin var, özün Qorqud ol görüm.
... Vətən, Vətən deməkdənsə kürsüdən,
Yeri gəlsə, Vətən üçün öl görüm.

Əlli dörd illik ömrünün otuz ildən çoxunu ədəbiyyat tariximizin öyrənilməsinə həsr etmiş Əsgərzadə Salman Məmmədəmin oğlu Mümtaz 1884-cü il mayın 20-də Şəki şəhərində tacir ailəsində dünyaya göz açmışdır. Salman iki yaşında olarkən atası ailəsi ilə Aşqabada köçmüş və az sonra (1887) orada vəfat etmişdir. Atasız qalmış uşaqlar, o cümlədən, Salman dayısının himayəsində yaşamış, ibtidai təhsilini də orada, xalxallı Mirzə Əsədullanın məktəbində almışdır. Uşaqlıqdan böyük bir ailənin qayğısını çəkmək məcburiyyətində qalan Salman müntəzəm təhsil ala bilməmiş, lakin müəllimi Mirzə Əsədulladan ərəb, fars və Hindistanda geniş yayılmış urdu dillərini öyrənmişdir. Şərq dillərini mükəmməl bilməsi, ədəbiyyata olan həvəsi S. Mümtazda ədəbi nümunələri toplamaq, nəşr etmək, onların izahı və şərhi ilə məşğul olmaq, məşhur şair-yazıçı və alimlərin əsərlərini oxuculara çatdırmaq meyli güclənmiş, onun ədəbiyyatşünas, mətnşünas alim kimi yetişməsinə səbəb olmuşdur.

Salman Mümtaz demokratik ədəbiyyatla da maraqlanmış, "Molla Nəsrəddin"i sevinclə qarşılamışdır. O, ticarətlə məşğul olsa da, Zaqafqaziyanın ictimai-mədəni həyatı, dövri mətbuatı ilə ciddi maraqlanmış, "Molla Nəsrəddin"in Türküstan, Ural və Sibir üzrə müvəkkili olmuş və jurnalın yayılmasında yaxından iştirak etmiş, həmçinin, onun fəal əməkdaşlarından olmuşdur. S. Mümtazın "Molla Nəsrəddin" jurnalında 14 şeri, "Xortdan bəy", "Sərçəqulu bəy", "Eşqin arısı", "Sağsağan", "Çalağan", "Qorxaq" və s. imzalarla felyetonları çap olunmuşdur. Onun jurnalda çap etdirdiyi ən böyük əsəri "Mozalan bəyin səyahətnaməsi"dir. S. Mümtazın "Molla Nəsrəddin" jurnalının əməkdaşlarından C. Məmmədquluzadə, M. Ə. Sabir, Ə. Haqverdiyev, N. Nərimanov, M. S. Ordubadi, F. Köçərli, M. Hadi, A. Səhhət, Ə. Qəmküsar, Ə. Nəzmi, R. Axundov və b. ilə yaxından dostluğu olmuşdur.

S.Mümtaz 1911-15-ci illərdə dahi şairimiz M. Ə. Sabirin

əsərlərinin nəşrini və onun ailəsinə vəsait toplanmasını təşkil etmişdir. A. Səhhət bu nəcib iş üçün dostu S. Mümtaza "İqbal" qəzetinin 25 dekabr 1912-ci il nömrəsində öz təşəkkürünü bildirmişdir. "Sabir haqqında xatirələrim" əlyazmasından məlum olur ki, S. Mümtaz dahi şairimiz M. Ə. Sabirlə ilk dəfə 1893-cü ildə Aşqabadda tanış olmuşdur. Mənbələrdən məlum olur ki, S. Mümtaz A. Səhhət haqqında da tədqiqat aparmış, kitab yazmış, əfsuslar olsun ki, bu qiymətli əsər indiyədək tapılmamışdır.

S. Mümtaz türk-azəri balalarının savadlanmasına xüsusi qayğı göstərmişdir. Y. V. Çəmənzəminlinin hələ vaxtilə "Kiyev müsəlman tələbələri cəmiyyəti"nə Aşqabaddan ianə göndərdiyi üçün S. Mümtaza dəfələrlə təşəkkür etməsi buna canlı misaldır.

M. Mümtaz 1917-ci ildə ailəsi ilə birlikdə Bakıya köçmüş, 1919-cu ildə Azərbaycan ədəbiyyatı tarixini tərtib etmək və ədəbi qüvvələri birləşdirmək üçün "Yaşıl qələm" cəmiyyətinin üzvi olmuş və elə ilk yığıncaqda böyük səxavətlə cəmiyyətə 1000 manat ianə vermişdir.

M. Mümtazın "Kommunist" qəzetində "Unudulmuş yarpaqlar" sərlövhəsi altında dərc etdirdiyi silsilə məqalələri, tapıntı və araşdırmaları klassik Azərbaycan ədəbiyyatının öyrənilməsinə əvəzsiz kömək etmişdir. 1925-26-cı illərdə "Kommunist" (indiki "Azərbaycan" - red.) nəşriyyatı bu yorulmaz tədqiqatçı alimin əsərlərini hazırladığı 24 şairin kitabını çapdan buraxmışdır: Nəsimi, Qövsi Təbrizi, Nişat Şirvani, Ağa Məsih Şirvani, M. P. Vaqif, Q. B. Zakir, M. Ş. Vazeh və b. Bunların bir çoxu həmin şairlərin əsərlərinin ilk nəşrı idi. Qeyd etmək lazımdır ki, Mirzə Şəfi Vazeh haqda məlumat toplayıb, onu xalqımıza ilk tanıdan S. Mümtaz olmuşdur.

O, şifahi xalq ədəbiyyatına da maraq göstərmiş, aşıq ədəbiyyatının bir çox əlyazma nümunələrini aşkara çıxartmışdır. O,

aşıq poeziyası nümunələrindən ibarət "El şairləri" kitabını, Sarı Aşığın bayatılarını nəşr etdirmişdir.

Bayatıların yorulmaz toplayıcısı və tədqiqatçısı Salman Mümtaz 1927-ci ildə çap etdirdiyi "Aşıq Abdulla" kitabının müqəddəməsində bayatıların yaranması haqda maraqlı məlumat və izahatlar vermişdir.

S. Mümtazın Azərbaycan ədəbiyyatı klassiklərindən Nəsimi, Şah İsmayıl Xətai, Həbibi, Füzuli, Vidadi, Vaqif, İ. Qutqaşınlı və başqalarının həyat və yaradıcılığına aid araşdırmaları böyük elmi əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, XV əsrin axırı XVI əsrin əvvəllərində yaşamış Həbibi haqda məlumatı xalqımıza ilk dəfə 1921-ci ildə S. Mümtaz vermişdir.

S. Mümtaz şair, ədəbiyyatşünas, mətnşünas olmaqla yanaşı, eyni zamanda gözəl tarixçi idi. XIV əsrdə yaşamış Molla Qasım Şirvani, Şəkinin bir çox alimləri, şairləri haqda ilk məlumatın Azərbaycan oxucularına çatdırılması da onun xidmətidir.

Qaraqoyunlular nəslindən, Cahan şahın nəvələrindən biri, Əbdürrəzzaqın oğlu, məşhur riyaziyyatçı və şair Mirzə Zeynalabdin Əbdürrəzzaq Nəşə Təbrizinin həyat və yaradıcılığı haqda ilk elmi məlumatları S. Mümtaz vermişdir.

S. Mümtazın xeyirxah zəhməti nəticəsində xalqımız dahi Nəsimini yaxından tanımışdır.

Yorulmaz alim L. N. Tolstoy, M. Qorki, A. Tolstoy, S. Ayni, R. Taqor, Mudi, şərqşünas alimlərdən Y. Maro, A. Samoyloviç, Meşşaninov, A. Krımski, Y. Bertels, İ. Yenikolopovla görüşmüş, onlardan bəziləri ilə dost olmuş, məktublaşmışdır. Respublika Əlyazmaları İnstitutuna Salman Mümtazın adının verilməsi hamının ürəyindən olmuşdu.

"BİR GÜN ÖLSƏM..."

Aşıq Ələsgərdən sonra bu dövrdə yetişən görkəmli aşıq Molla Cümədir.
F. Qasımzadə



Süleyman Salah oğlu – Molla Cümə.

Görkəmli ədəbiyyatşünas alim F. Qasımzadənin məlumatına görə XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində yetişmiş Aşıq Ələsgər və Molla Cümə kimi ustad aşıqların simasında aşıq şeirimiz inkişaf edərək həm məzmun, həm də formaca zənginləşmişdir.

Süleyman Saleh oğlu - Molla Cümə 1854-cü ildə Şəkinin Baş Layisk kəndində anadan olmuş, ilk təhsilini Baş Göynük kəndindəki mədrəsədə almış, burada ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Süleyman Saleh oğlu dini kitabların, Şərq poeziyasının, ümumiyyətlə, ədəbiyyat elminin dərin bilicisi olmuş, ona görə də xalq içərisində Molla Cümə kimi tanınmışdır. Cümə isə onun təxəllüsüdür. Molla Cümənin geniş tərcümeyi-halı yoxdur, lakin onun şeirlərində həyatına aid çox hadisələr öz əksini tapmışdır. Aşığın şeirlərindən çoxunda qadına "İsmi Pünhan" deyə müraciət edilir. Bu da təsadüfi deyildir. Molla Cümə bu adla vaxtilə bəyəndiyi, sevdiyi və sonra itirdiyi bir qızı nəzərdə tutur, şeirlərindən bu el qızının hələ aşığın sağlığında nakam öldüyü aşkar olur. Molla Cümə "Neylədin, dünya?" rədifli qoşmasında yazır:

Ey dünya, Cüməyə çox etdin sitəm,
Anamı quyladın, nə qaldı atam,
Könül əyləncəsi, istəkli butam
O İsmi Pünhanı neylədin, dünya?

Molla Cümə bir çox qoşma, gəraylı, təcnis, gözəlləmə, bağlama və şeirlərin müəllifidir. Onu da qeyd etmək lazımdır ki, o, aşıq şeirinə daha çox meyil göstərmiş, el sənətinin bu növünün müqəddəsliyinə inanmışdır. Heç də təsadüfi deyildir ki, sənətkarın qəbirüstü abidəsində bu bənd həkk edilmişdir:

Aşıqlıq Adəmdən icad olubdur,
Ol Adəm atanın nəvəsiyəm mən.
Dünyaya nə qədər aşıq gəlibdir,
Külli aşıqların anasıyam mən.

Molla Cümə bir sıra irihəcmli əsərlər və dastanların da müəllifidir: "Qızla gəlinin deyişməsi", "Aşıq Könüllə deyişmə", "Baxşı bəy və Leyla xanım" və s.

Molla Cümə öz şeirlərində məzlum, zəhmətkeş xalqı müdafiə etmiş, haqsızlığa, zülmə qarşı çıxmışdır. Onun bu insani xüsusiyyətləri "Bilal", "Axsaq Laçın", "Cavad ağa", "Hacı Kərim" kimi şeirlərində öz əksini tapmışdır. O, ömrünün son vaxtlarında Azərbaycanda baş verən siyasi dəyişiklikləri əks etdirən bir neçə şeir də yazmışdır: "Hacılar", "Eşitdim" və s.

Aşıq Sakit xeyli vaxtdır ki, Molla Cümənin dərc olunmamış şeirlərini toplayır və dövri mətbuatda çap elətdirir. Bunlardan "Dostum", "Görəydim", "Gərək" (qəzəl) və s. göstərmək olar.

Ustad şair 1920-ci ildə ölmüşdür. 1989-cu ilin noyabr ayında Azərbaycanın klassik aşıq sənətinin görkəmli nümayəndəsi Molla Cümənin anadan olmasının 135 illiyi münasibətilə Şəkidə təntənəli yubiley keçirilmişdir.

Kənd ağsaqqalı Şərif baba çıxışında Molla Cümənin faciəli ölümü ilə əlaqədar hadisəni danışırdı: 1920-ci ilin yazında XI Qızıl ordu hissələri Şəkidən Qaxa gedərkən yolda Molla Cümə-ni, onun əmisi uşaqları Abbası, Hüseyni və Qara Məhəmmədi qılıncla doğramışdılar. Öldürülənlərin cəsədlərini 3-4 gün sonra kolların arasından tapdıq. İylənmiş cəsədləri kəndə gətirmək

mümkün olmadı, onları yol kənarında dəfn etdik. Molla Cümənin sınmış sazını da qəbrə qoyduq".

Molla Cümənin nəvəsi Mövlud Əzizov: "Ocağ"a minnətdaram. Yoxsa babamın qəbri, doğrudan da, unudulmaqda idi. Aşkarlıq zamanıdır, yəqin babamın vəhşicəsinə öldürülməsi haqqında da həqiqət söyləniləcək. İndiyədək yazıblar ki, 1920-ci ildə XI Qızıl Ordu hissələri buraya gələndə, guya döyüşçülərdən biri uzaqdan aşığın sazını tüfəng bilib onu vurubdur. Həqiqəti gizlədiblər xalqdan. İndi isə olanı aşkar demək lazımdır. Həmin hissələrdən birində daşnakların əlaltısı olan əsgərlər babamı, onun arvadını və bir neçə qonşusunu bax bu bağa gətirib, qılıncla doğrayıblar. Sonradan aşığın qətlindən xəbər tutmuş kənd camaatı isə şaqqalanmış cəsədləri əsgərlərin qorxusundan qəbiristanlığa aparmayıb, burada gizlin dəfn ediblər.

Heykəltəraş Əsgər Kərimov: "Molla Cümə böyük ustaddır. El aşığının adına nə eləsək, azdır. Gün o gün olsun ki, xalq sənətkarının ev-muzeyi açılsın, büstünü də özüm hazırlayım".

SABİT RƏHMAN GÜLÜŞÜ

Həqiqəti yalandan ayırmaqda gülüş tez-tez böyük vasitəçi olur.
V. Q. Belinski.

Sabit Rəhman.

Hörmətli şairimiz B.Vahabzadənin dediyi kimi, Şəki müdrik gülüşümüzün məskənidir. M.F.Axundov, Sabit Rəhman kimi komediya ustalarının Şəkidən çıxması heç də təsadüfi deyildir.

Azərbaycan ədəbiyyatında M.F.Axundovun adı ilə bağlı olan komediya janrını sonralar N.B.Vəzirov, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, Sabit Rəhman və b. inkişaf etdirmişlər. Adlarını hörmətlə yad etdiyimiz şəxslərdən Sabit Rəhman Azərbaycan ədəbiyyatında, demək olar ki, böyük komediyalar müəllifi kimi şöhrətlənib. Azərbaycan Musiqili Komediya Teatrını Sabit Rəhmansız təsəvvür etmək mümkün deyildir.

Mahmudov Sabit Kərim oğlu 1910-cu ildə Şəki şəhərində tacir ailəsində anadan olmuşdur. İbtidai təhsilini Şəkidə almış, 1926-cı ildə Bakı Müəllimlər Seminariyasını bitirmiş və üç il Şəki nümunəvi şəhər məktəbində müəllimlik etmişdir. O, 1932-ci ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirmiş, 1936-1937-ci illərdə Moskvada Kinematoqrafiya İnstitutunun ssenari kurslarında oxumuşdur.

Sabit Rəhman 1926-1927-ci illərdə "Molla Nəsrəddin" jurnalında çıxış etməyə başlamışdır. 16-17 yaşlı gənc Sabit "Molla Nəsrəddin" jurnalında "Şeyx Samit" imzası ilə felyetonlar çap etdirirdi. O, institutu bitirdikdən (1929-1932) conra "Gənc işçi" qəzeti redaksiyasında ədəbi işçi, "İnqilab və mədəniyyət" jurnalı redaksiyasında məsul katib (1932-1933) olmuşdur.

Məhz bu dövrdə o, ədəbi fəaliyyətə başlamış, 1931-ci ildə ilk hekayələr toplusu - "Pozğun" əsəri nəşr olunmuşdur. Sonralar S.Rəhman "Şirin bülbül" (1932), "Vəfasız" (1933), "Gənclik hekayələri" (1934), "Şirin arzular" (1936), "Xəyalplov" (1938) kitablarını buraxdırmışdır.

O, kolxoz həyatını öyrənmək arzusu ilə Şəki MTS siyasi şöbəsində "Mübariz" qəzeti redaksiyasında (1933-1934) işləmişdir. S. Rəhman, Azərbaycan Dövlət Dram Teatrının ədəbi hissə müdiri (1934-1936), eyni zamanda üzvü olduğu Yazıçılar İttifaqında uşaq bölməsinin rəhbəri (1935), Bakı kinostudiyasında ssenari şöbəsinin müdiri (1937-38), Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi (1938), C. Cabbarlı adına Teatr Muzeyində elmi işçi (1939-40) işləmişdir. O, həmin dövrdə "Partizan Məmməd" pyesini, "Son faciə" povestini (1939) və yumoristik hekayələrini yazır. Yazıçının "Son faciə" povesti dahi sənət ustası H. Ərəblinskinin həyat və yaradıcılığından bəhs edir. S. Rəh-

man 1941-42-ci illərlə Azərbaycan Nazirlər Soveti incəsənət işləri idarəsində teatr şöbəsinin müdiri, sonra Bakı kinostudiyasının direktoru, eyni zamanda, Kinematoqrafiya Nazirliyində nazir müavini (1945-46); Yazıçılar İttifaqında dramaturgiya üzrə məsləhətçi (1947-51), Teatr İnstitutunda müəllim işləmişdir.

Yazıçıya ən çox şöhrət gətirən "Toy" (1938) "Xoşbəxtlər" (1941), "Aşnalar" (1945), "Aydınlıq" (1949), "Nişanlı qız" (1953), "Əliqulu evlənir" (1961), "Yalan" (1965). "Dirilər", "Küləklər" (1967) və s. komediyaları olmuşdur.

Unudulmaz sənətkar dünyada şöhrət qazanmış "Arşın mal alan", "O olmasın, bu olsun" filmlərinin ssenari müəllifidir. O, eyni zamanda "Koroğlu", "Əhməd haradadır?" filmlərinə də ssenarilər, "Ulduz", "Hicran" musiqili komediyalarına librettolar yazmışdır.

Sabit Rəhman musiqi təhsili almasa da, bu sahədə fitri istedada malik olmuşdur. Oğlu Emin atası haqda deyir: "Atamın musiqi təhsili olmasa da, güclü musiqi istedadı vardı. Azərbaycan muğamlarını, rəqs havalarını elə ustalıqla çalırdı ki, qulaq asanlar onun musiqi təhsili almadığına inanmırdılar. Hələ gənclik illərində, Şəkidə yaşayanda kino-teatrlarda səssiz filmləri müşayiət edərək piano çalarmış. Bəlkə də elə musiqiyə həvəsi məndə atam oyatmışdır" ("Ədəbiyyat və incəsənət", 06.07.1990).

Yorulmaz sənətkar Azərbaycan Yazıçılar İttifaqının Rəyasət Heyətinin, Akademik Teatrın, Bakı kinostudiyasının və Azərnəşrin bədii şuralarının üzvü, "Ədəbiyyat və incəsənət" qəzetinin, "Kirpi" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

S.Rəhman qələmini tərcüməçilikdə də sınamışdır. O, V.Şekspir, K.Qoldoni, Ş.B.Molyer, N.V.Qoqoldan tərcümələr etmişdir. Onun öz əsərləri də müxtəlif dillərə tərcümə olunmuşdur.

S.Rəhmanın həyat yoldaşı İsmət xanımın xatirələrindən: "Hələ gəncliyində Dağlı məhəlləsində yaşayan Sabit Mikayıl Müşfiq, Rəsul Rza və Mehdi Hüseynlə möhkəm dost olmuşdur.

Rəsul Rza ilə olan ünsiyyətini isə ömrünün axırına kimi davam etdirmişdir. Sabitin qəflətən həyatdan getməyindən Rəsul Rza çox təsirlənmiş, öz dostuna "Ömür keçdi, gün keçdi..." adlı poema həsr etmişdir.

Hüseyn Cavid, Səməd Vurğun, Cəfər Xəndan, Məmməd Arif, Həmid Araslı, Mir Cəlal, Adil İsgəndərov, Səid Rüstəmov, Şəmsi Bədəlbəyli, Ənvər Məmmədxanlı, Rza Təhmasib, İsmayıl Hidayətzadə, Qara Qarayev, Soltan Hacıbəyov və bir sıra başqa görkəmli ədəbiyyat və incəsənət adamları evimizin əziz qonaqları olmuşlar" ("Ədəbiyyat və incəsənət", 06.07.1990).

Xalqımızın sevimli sənətkarı Sabit Rəhman orden və medallarla təltif olunmuşdur. Vətəni Şəkidə dram teatrı onun adını daşıyır.

Unudulmaz komediyalar müəllifi S. Rəhman 1970-ci ildə Bakıda vəfat etmişdir.

BƏXTİYAR - XALQIN ŞAİRİ

Səmədimin sözündən öp,
Bəxtiyarın üzündən öp.
ŞƏHRİYAR

Mən Bəxtiyar Vahabzadə haqqında nə yaza bilərəm? Desəm ki, Bəxtiyar gözəl şairdir, bunu hamı bilir, vətənpərvərdir - xalqımıza məlumdur. Şərqin sevimlisidir - yenə təzə bir şey demirəm, şəkilidir - şairimizin acığı tutur, deyir ki, azərbaycanlıyam, ictimai xadimdir - son hadisələr bunu əla göstərdi...



Xalq şairi Bəxtiyar Vahabzadə.

Nadir halda bir şəxsdə bu qədər müsbət, gözəl xüsusiyyətlər cəmləşə bilər. Yalnız onu deyə bilərəm ki, Bəxtiyar Va-

habzadə xoşbəxtdir. O, xalqına lazımdır. O, xalqından heç bir şeyi əsirgəmir.

"Qabusnamə"də yazılır: "Adamların ən yaxşısı olmaq istəyirsənsə, heç şeyi xalqdan əsirgəmə". Bəxtiyar kimi.

Professor Ağamusa Axundovun dili ilə desək: "Özünün hərtərəfli, parlaq yaradıcılığı ilə xalqımızın dərin məhəbbətini qazanmış Bəxtiyar Vahabzadənini haqqında kitab yazmaq həm asan, həm də çətindir. Asandır, ona görə ki, şair şirəsi el ədəbiyyatından, ətri vətən torpağından, ruhu xalqın ürəyindən gələn doğma ana dilində həyatın bütün sahələrinə, insan qəlbinin ən incə, ən dərin guşələrinə aid əsərlər yazıb".

Şair özü haqda belə yazır:

"Mən həm bakılıyam, həm lənkəranlı,
Gəncəli, qubalı, həm naxçıvanlı,
Şəkili,
Şirvanlı,
Qarabağlıyam,
Bütöv Vətənimə bütöv bağlıyam".

B. Vahabzadə 2700 ildən artıq tarixi olan qədim Şəkidə dünyaya göz açıb - 1925-ci il avqust ayının 16-sında, Şəkinin Yuxarıbaş məhəlləsində. İbtidai təhsilini də oradakı 1 №-li məktəbdə almışdır. 1934-cü ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçən Bəxtiyar təhsilini 176 №-li orta məktəbdə davam etdirmişdir. Onun şeri, sənəti sevməsində ədəbiyyat müəlliminin böyük təsiri olmuşdur.

İlk şeri "Ana və şəkil" 1943-cü ildə çap olunub. "Mənim dostlarım" adlı ilk kitabı 1949-cu ildə nəşr edilib. "Vicdan", "İkinci səs", "Yağışdan sonra" kimi pyeslərin müəllifidir. Dahi Füzuliyə həsr etdliyi "Şəbi-hicran" poeması B. Vahabzadəyə xüsusi şöhrət gətirmişdir. Yadımdadır, Şəkidə oxuyub-yazmağı bilməyən qocalar və ağbirçəklər "Şəbi-hicranı" gənclərə oxutdurub qulaq asır, bəziləri isə göz yaşı tökürdülər. Bax, budur sənətkar qüdrəti. B. Vahabzadənin çox əsərləri, şeirləri dünya xalqlarının dillərinə tərcümə edilib. Dövlət mükafatı laureatı,

Azərbaycanın xalq şairi, Azərbaycan MEA-nın həqiqi üzvü, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Bəxtiyar Vahabzadə bir çox orden və medallarla təltif edilmişdir.

Bax budur qısa həyat yolu. Yazıçı Mehdi Hüseyn Bəxtiyar Vahabzadə haqda yazdığı məqalələrindən birində onu "narahat şair" adlandırmışdır.

B. Vahabzadə özü yazır:

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək,
Onun da həyatı yanmağındadır.

Nəbi Xəzri: "Əziz dostum, sənin taleyin öz gücünü Füzuli müdrikliyindən alıb. Sənin taleyin Vaqif bulağından büllur su içib. Sənin taleyin M. F. Axundov cığırlarıyla adlayıb. Sabir şerindən qidalanıb. Sən Səməd Vurğundan dərs almısan".

Çingiz Aytmatov yazır:" ... Dünyada ad çıxaran çox şair var. Qəzet və jurnalları vərəqlədikcə, görürsən ki, əsl şair azdır. Tək-tənha qalanda bir neçə kəlmə ilə "həyat nədir?" sualına cavab axtaranda yalnız sözü fikrindən, obrazdan, ruh və nəfəsdən yoğrulmuş həqiqi şairlər sənin yaşamaq eşqinə, düşüncələrinə qol-qanad verir. Müasirimiz Bəxtiyar Vahabzadə belə şairlərdəndir".

Bəxtiyar Vahabzadə yazır:

Bizim sənət dünyasının
Qırıq telli sazıyam.
Bircə bundan razıyam ki,
Özümdən narazıyam.

B. Vahabzadə vətənpərvər şairdir. S. Vurğun yazırdı: "Mənsub olduğu xalqın varlığı ilə fəxr etməyən, onun eşqini müqəddəs bir məşəl kimi öz qəlbində yandırmayan bir insan öz vətəndaşlıq haqqını dərk edə bilməz, ona vətənpərvər demək də gülünc olar" ("Azərbaycan məktəbi" jurnalı, № 2, 1945, səh. 13).

"Sevgin gözlərində bizi böyütdü,
Öyündün bizimlə, ey xalq, ey Vətən!
Həmişə qəlbimdən bir sual ötdü:
Sənin hörmətinə layiqənmi mən?"

B. Vahabzadə

B. Vahabzadə məsləkli şairdir. O, öz məsləki uğrunda mübarizədə heç nədən, heç bir maneədən qorxmayan şairdir. Hələ vaxtilə dahi Nizami insanın ideya tərbiyəsini o qədər qiymətləndirirdi ki, sağlam məsləki olan adama dünyanı vəd etsən də, məsləkini verməz, - deyirdi.

Görün B. Vahabzadə nə deyir:

"Gözəldir dünyada
Məsləklə addım atmaq.
Mənə qüvvət verən, ey ana torpaq,
Nə səndən dönərəm, nə məsləkimdən.
Ürəklə yaşadım, ürəklə ancaq,
Yalnız ürəklə də öləcəyəm mən".

B. Vahabzadə təbiətin, torpağın vurğunu, ekoloji normaların pozğunluğunun qəddar düşmənidir. F. Engelsdən sitat gətirərək öz fikrini belə ifa edir: "Təbiət üzərindəki qələbələrimizlə çox da öyünməyək. Hər belə qələbə üçün təbiət bizdən intiqam alacaq, indi təbiət bizdən bu intiqamı alır".

"Təbiətin sümüyündə dirəndik,
İlliyini sorasıydıq, sorası.
Əlimizlə bu anamız torpağın
Dağlanmamış görən qaldı harası?
Yaranışdan biz övladıq, o, ana,
Bu sitəmi necə qıydıq biz ona?
Hara gedir o, fırlana-fırlana,
Sinəsində çalın-çarpaz yarası?"

B. Vahabzadə dil uğrunda ən mübariz ziyalılardandır. Şair yazır: "Biz dilimizə heykəl qoymadıq, heç olmazsa, gəlin ona xəyanət etməyək".

"Doğma vətəninə, doğma elinə,

Ata-babasına, ana dilinə,
Biganə kəsilən əqidəsizdən
hansı həqiqəti tələb edim mən".

B. Vahabzadə maarifpərvər şairdir. O yazır: "Biliksiz müəllim işıqsız çıraq, quruyan bulaq kimidir. Savadsız müəllim olmaq ən böyük cinayətdir; o, neçə-neçə uşaq nəslini şikəst edə bilər, cəmiyyətə nə qədər "zay məhsul" verər. Odur ki, müəllim kadrlarının hazırlanmasına çox böyük diqqət və məsuliyyətlə yanaşmaq lazım gəlir") B. Vahabzadə, "Gəlin açıq danışaq", Bakı, 1988, səh. 81).

Bəxtiyar Vahabzadə, həqiqətən də, xalqının bəxtiyar şairidir.

MÜƏLLİM - YAZIÇI

Yusifzadə Məmmədiyyə Əhməd oğlu 17 noyabr 1902-ci ildə Şəkidə anadan olmuş, ibtidai təhsilini mollaxanada almışdır. Maddi ehtiyacı ilə əlaqədar gənc Məmmədiyyə ipək fabrikində baramaaçan fəhlə, papaqçı yanında şagird işləmişdir. Sonra Bakıya köçmüş, gündüzlər papaqçılıq etmiş, gecələr isə təhsilini davam etdirmişdir. 1922-ci ildə Bakı Pedaqoji Məktəbini qurtarmış, 1927-ci ilə qədər Şəki, Qutqaşen (indiki Qəbələ - **red.**), Zaqatala rayonlarının kəndlərində müəllimlik etmişdir. Həmin dövrədlə (1922-1927) M. Yusifzadə ictimai işlərdə fəal iştirak etmişdir. O, 1931-1935-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində təhsil almışdır. İnstitutu bitirdikdən sonra Zaqatala rayonunun Əliabad kənd orta məktəbində (1935-1936), Zaqatala şəhərinin 1 №-li beynəlmiləl orta məktəbində (1937-1938) dil-ədəbiyyat müəllimi və direktor işləmişdir.

1945-ci ildə ordudan tərxis olunduqdan sonra yenidən Zaqatalada üç il müəllimlik etmişdir. 1949-cu ildə Bakıya köçmüş, Şüvəlanda 156 №-li məktəbdə dərs hissə müdiri (1949-53), Ba-

kı şəhər maarif idarəsinin metodistlər şöbəsində dil-ədəbiyyat fənni üzrə metodist-müəllim (1957-63) işləmişdir.

M. Yusifzadə təqaüdə çıxdıqdan sonra bədii yaradıcılıqla məşğul olmağa başlamışdır. 1970-ci ildən onun hekayə, povest, roman və pyesləri nəşr olunmağa başlamışdır: "Oğul görüşü" (1977), "Artıq tamah" (1978), "Azad çoban" (1980), "Qonşu qonşuya baxar, canını oda yaxar" və s. pyesləri Bakı, Gəncə, Şəki, Zaqatala teatrlarında tamaşaya qoyulmuşdur.

Məmmədiyyə müəllim "İgid ölər, adı qalar" (1975), "Məktəb səhnəsi" (1977), "Həyəcanlarımızın baharı" (1978), "Ömürdən səhifələr" (1982) və s. əsərlərin müəllifidir.

M.Yusifzadə teatr və "Bilik" cəmiyyətlərinin üzvü olmuş, bir çox orden və medallarla təltif edilmişdir.

O, 1983-cü ildə Bakıda vəfat etmişdir.

Məmmədiyyə müəllimin oğlu general-leytenant Ziya Yusifzadə uzun illər respublika Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik etmişdir.

O, HƏM DƏ GÖZƏL MÜƏLLİM İDİ

Mən yazıçılığımdan, ədibliyimdən ziyadə müəllimliyimlə fəxr edirəm".
A. Şaiq

Məmməd Şəkili.

O da həmişə öz müqəddəs sənəti - müəllimliyi ilə fəxr edirdi. Məmməd müəllim - Çələbiyev Məmməd Musa oğlu - Məmməd Şəkili 1923-cü ildə Şəki rayonunun İnçə kəndində doğulmuşdur. 1937-ci ildə İnçə kənd yeddillik məktəbini bitirmiş, Şəki Pedaqoji Məktəbinə daxil olmuşdur. 1940-cı ildə pedaqoji texnikumu bitirib. Aşağı Şabalıd, İnçə-Zunud kənd məktəblərində müəllimlik etmişdir. 1941-ci il dekabrın 22-də ordu sıralarına çağırılmış, 1942-ci ilin axırlarında ağır yaralandığından ordudan tərxis edilmişdir. Müharibədən qayıtdıqdan sonra Şəkinin Aydınbulaq, Aşağı Şabalıd, İnçə-Zunud kənd məktəblərində müəllim, direktor müavini, direktor vəzifələrində çalışmışdır.

1953-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olmuş, 1956-cı ildə təhsilini başa vurmuşdur. O, 1972-1974-cü illərdə Şəki Pedaqoji Texnikumunda, 1974-1987-ci illərdə Şəki Musiqi Texnikumunda Azərbaycan dili və ədəbiyyatından dərs demişdir. 1961-ci ildə "Şəki" fəhləsi" qəzetinin redaksiyasına işə dəvət olunmuş, 1971-ci ilin noyabrına qədər - əvvəllər məktublar, kənd təsərrüfatı şöbəsinin müdiri, sonralar məsul katib işləmişdir.

Məmməd Şəkili 1957-ci ildən ədəbi fəaliyyətə başlamış, həmin ildən hekayələri respublika və yerli mətbuat səhifələrində dərc olunmuşdur: "Feyruz və dostları", "Bəlalı merinos", "Uşaqların atası" hekayələri, "Bahar çiçəkləri" oçerki, "Bu xına o xınadan deyil" felyetonu və s. Məmməd Şəkili eyni zamanda "Azərbaycan" jurnalında "Qızlar bəzək sevir" (5 may - 6 iyun 1965-ci il), "Təmkin" (mart, 1971) povestlərini çap etdirmişdir. O, eyni zamanda, bir dramaturq kimi də tanınmışdır. Məmməd Şəkilinin 1981-ci ildə "Hökm", 1983-cü ildə "Xatalı Qabil", 1986-cı ildə "Yaşıl işıq" pyesləri Sabit Rəhman adına Şəki Dövlət Teatrında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Onun Gəncə Dövlət Dram Teatrında "Fazilə", Mingəçevir Dövlət Dram Teatrında "Namərd körpüsü", Şəki Dövlət Dram Teatrında "Köhnə sədrin adamları" pyesləri oynanılmışdır.

Yazıçının 1983-cü ildə "təmkin", 1987-ci ildə "Bir yay günü" adlı kitabları çap olunmuşdur. "Bir yay günü" kitabına müəllifin üç povesti daxildir. Bu əsərlərdə mənəvi saflıq, insan ləyaqəti, ictimai əməyə münasibət ("Güləsər"), odlu müharibə illərində arxa cəbhədəki çətinliklər, bu çətinliklərin acı, kədərli nəticələri ("Bir yay günü"), əsgər həyatı, xalqlar dostluğu, yaxşı insanların birliyi, xeyirxahlığı ("Mən on birinci stolam") qə-

ləmə alınmışdır. Qeyd etmək lazımdır ki, Məmməd Şəkili axırıncı povestində oğlu Vaqifin hərbi qulluqda başına gələn fəlakətləri qələmə almış, həkimlərin fədakarlığını tərənnüm etmişdir. Məmməd Şəkili yorulmaq bilməyən, məhsuldar yazıçı idi. O, eyni zamanda "Zoğal ağacları", "Lal suçunun ifadəsi", "Qəlbinin səsi", "Tərlan evlənir" povestlərinin müəllifidir.

M. M. Çələbiyev bir çox orden, medal və fəxri fərmanlarla təltif olunmuşdur.

Unudulmaz müəllim, yazıçı Məmməd Şəkili 1987-ci ildə Şəkidə vəfat etmişdir.

ƏHMƏD RƏHİMOV

Rəhimov Əhməd Həsən oğlu 1924-cü ildə Şəki şəhərində anadan olmuşdur. O, 1930-cu ildə ailəsi ilə Bakıya köçmüş, müdafiə sənayesi müəssisələrində çilingər və tokar işləmişdir. 1943-cü ilin axırlarından istehsalatdan "Kommunist" qəzeti redaksiyasına korrektor vəzifəsinə göndərilmiş, 1943-1946-cı illərdə "Xəzər bolşeviki" qəzeti redaksiyasında işləmişdir. Həmin dövrdə Ə. Rəhimov Paris kommunası, Vano Sturua, Zakfederasiya adına zavodlarda jurnalist kimi fəaliyyət göstərmiş, Bakı - Həştərxanarası neftdaşıyan tankerlərdə və yükdaşıyan gəmilərdə qəzet təlimatçısı, xüsusi müxbir olmuşdur. Müharibədən sonra - 1946-1948-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda, N. K. Krupskaya adına siyasi maarif məktəbinin kitabxanaçılıq şöbəsində təhsil almışdır. O, eyni zamanda 1952-ci ildə Moskvada M. Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdir. Ə. Rəhimov bədii yaradıcılığa 1939-cu ildə "Azərbaycan pioneri" qəzetində dərc olunmuş "Pilot qız" şerilə başlamışdır. Moskvada kino-dramaturgiya kursunu bitirən Ə. Rəhimov Bakı neftçilərinin həyatından bəhs edən "Xəzərin sahilində" ssenarisini yazmışdır. Onun başqa əsərlərindən "Mənim ailəm"

(1955) romanını, "Bir evin gəlini" (1957), "Mahur" (1959), "Doğma adamlar" (1967) hekayə və oçerklərini göstərmək olar.

O, "Azərnəşr"də, "Kommunist" qəzeti redaksiyasında, Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində və "Maarif" nəşriyyatında, 1975-ci ildən "Azərbaycan tibb jurnalı"nda işləmişdir. 1965-ci ildə Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl Qələm" mükafatına layiq görülmüşdür.

Əhməd Rəhimov 1998-ci ildə Bakıda vəfat etmişdir.

VAQİF İBRAHİM

Vaqif Əliyar oğlu İbrahimov 30 sentyabr 1945-ci ildə Şəki şəhərində ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini Şəkidə alan Vaqif M. Əzizbəyov adına Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu bitirmişdir. Mühəndis olmasına baxmayaraq, o, əmək fəaliyyətinə jurnalist kimi başlamışdır. Vaqif Sumqayıt şəhər radio verilişləri redaksiyasında redaktor (1968-1970), məsul redaktor (1971-1975), Əli Kərim adına Sumqayıt gənclik poeziya klubunun sədri (1970-1971), "Ulduz" jurnalı redaksiyasında ədəbi işçi (1975-1976), "Göyərçin" jurnalında məsul katib (1976-cı ildən ölümünədək) işləmişdir. Vaqif İbrahimov 1980-1983-cü illərdə gənc yazıçıların respublika ədəbi birliyinə rəhbərlik etmişdir.

Bir çox fəxri adlara layiq görülmüş istedadlı gənc yazıçının "Ömür balladası" (1970), "Dünyanın keşiyində" (1974), "Baykal-Amur magistralında" (1975), "Bu torpaqda doğulanlar" (1970), "Mehribanlıq işığı" (1981), "Baxtla üz-üzə" (1982), "Taleyimə yazılanlar" (1984) əsərlərini göstərmək olar. Vaqif Əliyar oğlu İbrahimov 1983-cü ildə faciəli surətdə həlak olmuş, Sumqayıtda dəfn edilmişdir.

"ÖZÜMLƏ SÖHBƏTİ XOŞLAYIRAM..."

İnsanlıq gah zəhər, gah şərbət içər,
Duyumlu bir sirri var asimanın
Səməd VURĞUN
Dünya yuxusuzdur, ağlaya bilmirəm.
Ömür ömürü pusur.
Rəsul Rza.


Arif Abdullazadə.

Şəkidə tanınmış nəsillərdən biri də öz müdrikliyi, ağsaqqalığı, Vətəninə, xalqına hədsiz məhəbbətilə tanınmış Əbdürrəhman müəllimin ailəsidir. Hansı vəzifədə işləməsindən asılı olmayaraq, xalq ona həmişə "müəllim" deyə müraciət edib. Bu müqəddəs adı o, öz əməli, tükənməz zəhməti, uzaqgörənliyi, xalqına və onun keçmişinə məhəbbəti sayəsində qazanmışdır. Əbdürrəhman müəllimin oğlu Arif də respublikamızda tanınmış ziyalılardandır. Arifin aşağıda verəcəyim bir beyt şeri məni məcbur etdi ki, söhbəti atadan yox, oğuldan başlayım.

Elə bezmişəm ki, mən bu dünyadan,
Ona bir də dönüb başdan-binadan,
Keçirib ömrümü bu lal röyadan,
Sonra həmişəlik sönməyim gəlir.

Arif ABDULLAZADƏ.

Bu hal təbiidir. Şair qəlbli insanlarda, həyatı düzgün dərk edən ziyalıda... təbiidir bu dərd. Ulu Füzulidən, Nəsimidən, Məhəmməd Hadidən miras qalıb bu qəmginlik bizə.

Canü-tən olduqca məndən dərdi-dağ əksik deyil,
Çıxsa can, xak olsa tən, nə can gərək, nə tən mana.

Füzuli

Həyatın bu halına Asif Əfəndiyevin ("Ulduz" jurnalı, № 9, 1990-cı il) cavabı çox obyektivdir: "Dünya böyük olsa da, geniş olsa da, möhtəşəm olsa da, insandan kiçikdir əslində: insan dünyaya sığmır, dünya insanı sıxır; insaniliyin sahili yoxdur, dünyanın sahili var; sahilsiz mahiyyət, məna sahilli dünyaya uyuşmur; dərdlə doğulur insan, dərdlə qoşalaşır; insaniliyin ümdə cəhətidir dərd".

"Özümlə söhbəti xoşlayıram..." bu sözlər də Arifin öz sözləridir. Ruminin "Ya olduğun kimi görün, ya göründüyün kimi ol!" prinsipinə sadiq qalan A. Abdullazadə soruşur: "Belə olmaq, yəni hər yerdə, həmişə və hər cür vəziyyətdə öz-özünə sadiq qalmaq, saxtalaşmamaq, bir-birinin tam eyni kimi görünən iki üzlə bütün bir ömür yolunun enişlərini, yoxuşlarını keçə bilmək mümkündürmü?" Cavab: "Çətindir, amma mümkündür..."

Lakin bu çətinliklər onu qorxutmur. Şairin fikrincə, bunun üçün gərək yaşamağı da bacarasan. Özün üçün yaşamağı yox, xalqın üçün yaşamağa bacarasan.

Kamran Əliyev qələm dostu Arif Abdullazadənin 50 illik yubileyi ilə əlaqədar yazır: "Şairlər öz ömürlərini yaşamırlar. Axı, hamı kimi bir insanlıq həyatı yaşamağa nə var?! Doğulursan, böyüyürsən, işləyərsən, lap elə işləməzsən, yaşadarlar səni. Yıxmağa nə var, pozmağa nə var? Quranlar, yaradanlar ona görə yaddan çıxmırlar ki, çətindir peşələri..."

Arif Abdullazadə şairdir, nasirdir, dramaturqdur, ədəbiyyatşünas və tənqidçidir.

Arif Əbdürrəhman oğlu Abdullazadə 5 aprel 1940-cı ildə Şəki şəhərində anadan olmuşdur. Orada 11 nömrəli şəhər orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır (1956-1961). Universiteti bitirdikdən sonra akademiyanın əsaslı kitabxanasında və Nizami adına Ədəbiyyat muzeyində redaktor-mütəxəssis, kiçik elmi iş-

çi olmuşdur (1962-1968). Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi işləyən A. Abdullazadə, 1966-cı ildə "Qafur Qantəmirin həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, 1968-ci ildən həmin institutda baş elmi işçi vəzifəsinə seçilmişdir. Ədəbiyyat institutunda elmi axtarışlarını davam etdirən gənc alim, 1977-ci ildə doktorluq dissertasiyası müdafiə edir. O, 1970-1972-ci illərdə Türkiyədə tərcüməçi vəzifəsində çalışmışdır.

Mərkəzi mətbuatda A. Abdullazadənin ilk şeri 1957-ci ildə "Gənclik nəğmələri" ədəbi almanaxında çap olunub. İlk şeir kitabı "Arzular" toplusu isə 1964-cü ildə nəşr edilib.

A. Abdullazadə yaradıcılığı əsaslı şəkildə 60-cı illərdə formalaşan və ümumi ədəbi prosesdə orijinal ifadə tərzi, fərdi poetik üslubu ilə seçilən şairlərimizdəndir. Şairin müxtəlif illərdə Azərbaycan və rus dillərində "Könüllərin dünyası" (1966), "Hər yerdə, hər zaman" (1969), "Ana dünyamız" (1974), "Sənsiz sənsiz" (1983), "Bəxtimizin kitabı" (1988), "Vseqda i vsyudu", (1976), "Svet Abşerona" (1986), "Seçilmiş əsərlər"i (1991) adlı şeir kitabları nəşr edilib.

1980-ci ilin əvvəllərindən etibarən A. Abdullazadə poeziya sahəsindəki fəaliyyətilə paralel olaraq, nəsr janrında da müxtəlif mövzulu əsərlər yazır, romançı kimi də tanınmağa başlayır. Eyni zamanda dramaturgiya janrına da müraciət edir, pyesləri tamaşaya qoyulur. "Bir ovuc torpaq" (1982), "Duyum" və "İşıq zolağı" (1986) romanları, "Evlərin axşamları" və "Aqillər" pyesləri belə əsərlərdəndir. "Beşgünlük dünya" və "Qanlı yaddaş" romanları 1992-ci ildə çapdan çıxmışdır.

A. Abdullazadənin əsərləri dünya xalqlarının (fars, macar, türk, polyak, rus, özbək, tacik, qazax) dillərinə tərcümə edilir və müntəzəm nəşr edilir.

Filologiya elmləri doktoru A. Abdullazadənin müxtəlif vaxtlarda nəşr edilən "Novatorluq və üslub" (1986), "Şairlər və yollar" (1984), "Şair Cəfər Cabbarlı" (1989), "Od nə çəkdi"

(1990) monoqrafiyaları, onlarca məqalə və işləri onun elmi fəaliyyətini nümayiş etdirən əsərlərdəndir.

Arif Abdullazadənin müxtəlif janrlarda qələmə aldığı əsərləri haqqında mətbuatda müntəzəm olaraq məqalələr yazılır, yaradıcılığının çoxcəhətliyi, mövzu aktuallığı, məzmun və ideya müəyyənliyi, forma əlvanlığı kimi xüsusiyyətləri ön plana çəkilir. Görkəmli tənqidçi və ədəbiyyatşünaslardan Bəkir Nəbiyev, Məsud Əlioğlu, Azər Bağırov, Vaqif Yusifli, Zaman Əsgərli və s. şair-nasir-alim A. Abdullazadə haqqında məqalələrlə çıxış etmiş, onun əsərlərinin geniş təhlilini vermişlər.

A. Abdullazadənin dediklərindən: "... bəzən yazıçıları "əla", "yaxşı" və "pis" deyə müxtəlif kateqoriyalara ayırırlar. Kökündən səhv təsəvvürdür! "Pis"dirsə, onu necə yazıçı adlandırmaq olar? "Yazıçıdır, şairdir, ya yox?" - bax, məsələ belə qoyulmalıdır. Məhz bu mənada günün əsl yazıçısı gələcəyin klassikidir. Tarix isə ancaq klassikləri yaşadır".

Bəli, Arif düz deyir ki, tarix klassikləri yaşadır, lakin tarix müdrik ağsaqqalları da yaşadır. Şəkidə az adam tapılar ki, Əbdürrəhman müəllimi tanımasın.

Əbdürrəhman Abdullayev.

Arifin atası Abdullayev Əbdürrəhman Məmməd oğlu 1914-cü ildə Şəki şəhərində anadan olmuşdur. O, 1933-cü ildə Şəki Pedaqoji Texnikumunu bitirərək əmək fəaliyyətinə başlamışdır. Ə. Abdullayev 1936-cı ildə Azərbaycan Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsinin qiyabi şöbəsinə daxil olmuş, 1941-ci ildə təhsilini başa vurmuşdur. 1963-cü ildə dissertasiya müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Ə. Abdullayev 1941-ci ilədək Şəki şəhərində müəllim, dərs hissə müdiri, orta məktəb direktoru, 1946-cı ildən Şəki Xalq Maarifi şöbəsində pedaqoji kabinənin müdiri, məktəblər müfəttişi, maarif şöbəsinin

müdiri işləmişdir. 1950-1960-cı illərdə müxtəlif partiya işlərində, Şəki rayon partiya komitəsinin katibi olmuşdur.

Ə. Abdullayev 1960-cı ildə Akademiyanın kadr və aspirantura şöbəsinin müdiri və işlər idarəsinin müdiri işləmişdir. O, 1968-ci ildə EA Şərqşünaslıq İnstitutunda baş elmi işçi, 1970-1991-ci illərdə Nizami adına Azərbaycan Ədəbiyyat Muzeyində "Məktəb işləri" şöbəsinin müdiri işləmiş, respublika əhəmiyyətli fərdi pensiyaya çıxmışdır.

Ə. Abdullayevin 1948-ci ildən başlayaraq, respublika qəzet və jurnallarında ədəbiyyatşünaslıq və sosioloji mövzularda yazıları, elmi məqalələri çap olunmuşdur. O, 50-yə qədər elmi məqalənin müəllifidir. Ə. Abdullayev bir neçə maraqlı monoqrafiyanın da müəllifidir: "Görkəmli maarifçi və demokratik yazıçı Rəşid bəy Əfəndiyev", "Rəşid bəy Əfəndiyevin dram əsərləri", "Rəşid bəy Əfəndiyevin seçilmiş əsərləri", "Maarif pərvanəsi", "XVIII-XIX əsrlərdəki Şəki şairləri" və s.

Ə. Abdullayev bir çox fəxri fərmanlar, orden və medallarla təltif olunmuşdur.

Ədəbiyyatşünas alim Ə. Abudllayev 1990-cı ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Əbdürrəhman Abdullayev 1998-ci ildə Şəki şəhərində vəfat etmişdir.

TANINMIŞ TƏMSİLÇİ



Əfəndiyev Hikmət Ziya oğlu (Hikmət Ziya)

Təmsil janrının tarixi olduqca qədimdir. Şərq ədəbiyyatında nəsihətamiz xüsusiyyəti ilə şöhrət qazanmış "Kəlilə və Dimnə" toplusu buna canlı misaldır. Dahi sənətkarlardan Q.B.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir bu janrın gözəl nümunələrini yaratmışlar. Müasir dövrdə hörmətli şairimiz Hikmət Ziya öz gözəl təmsilləri ilə nəinki böyüklərin, hətta uşaqların da sevimlisinə çevrilmişdir.

Əfəndiyev Hikmət Ziya oğlu - Hikmət

Ziya 13 may 1929-cu ildə Şəki şəhərində müəllim ailəsində anadan olmuşdur.

Atası Ziya Əfəndizadə 40 ilə yaxın riyaziyyat müəllimi olmuşdur. Hikmət "Ömrümün payı" (1986) kitabına müqəddimədə öz əsli-nəcabəti haqqında yazır: "Mənim babam Abdulla bəy Əfəndizadə dövrünün qabaqcıl maarifçisi, pedaqoqu olmuşdur. Onun qardaşı Rəşidbəy Əfəndizadə görkəmli pedaqoq, dramaturq, şair, tərcüməçi kimi ədəbiyyatımızda tanınmaqdadır. Rəşidbəy Əfəndizadəni xatırlayıram. Biz ona "Mirzə əmi" deyərdik. Balaca uşaq idim. O, bir gün bizə gələndə "Durnalar" şerini əzbər dedim... O, başımı sığallayıb dedi: "Əzbərdən şeir deməyin yaxşıdır, istərdim ki, böyüyəndə yaxşı şeir də yazasan". Yaxşılığını bilmirəm, bunu siz oxucular bilərsiniz, amma Mirzə əminin arzusu düz oldu, yazdım".

H. Ziya Azərbaycan Dövlət Universiteti filologiya fakültəsinin jurnalistika şöbəsini bitirmiş, 1952-1969-cu illərdə "Azərbaycan pioneri" (indiki "Savalan" - red.) qəzeti redaksiyasında ədəbi işçi, ədəbiyyat və incəsənət şöbəsinin müdiri, daha sonra "Göyərçin" jurnalı redaksiyasında poeziya şöbəsinin (1969-1984) müdiri, 1984-cü ildən həmin jurnalın məsul katibi işləmişdir.

Azərbaycan ədəbiyyatı tarixində təmsilçi kimi şöhrət qazanmış sənətkarın olduqca duzlu, təravətli təmsilləri arasıkəsilmədən respublika qəzetlərində və kitabça şəklində çap edilir. Onun indiyədək 3 minə qədər təmsili çap olunmuşdur.

Hikmət Ziya şair kimi 1958-ci ildən Yazıçılar İttifaqının üzvü olmuşdur. Onun əsərlərindən: "Atamın hədiyyəsi" (1957), "Bahar gözəldir, ya qış" (1959), "Milçək ürəyi" (1960), "Şerlər və təmsillər" (1963), "Ulduzların söhbəti" (1964), "Qısa təmsillər" (1965), "Xatirə" (1966), "Tülkü arayışda" (1967), "Buludlar" (1968), "Mənim dovşanım" (1970), "Qısqanc qarışqa" (1971), "Günəş və ləkələr" (1972), "Leylək yuvası" (1973), "Mənim misralarım" (1975), "Qardaşlar ovda" (1978), "Qərib cinlər diyarında" (1980), "Təmsillər" (1982), "İlin balaları"

(1983), "Təmsillər" (1985), "Seçilmiş əsərləri" (1992) və onlarca başqalarını göstərmək olar.

"Doğma Azərbaycanımız", "Şəhidlər ölmürlər", "Ulu nənələrimiz", "Balaca Nəsrəddin" və s. rubrikalar məhz onun təşəbbüsü ilə "Göyərçin" jurnalının səhifələrinə çevrilmişdir. O, indi də bu sahədə öz fəaliyətini davam etdirmiş, "Savalan" jurnalının məsul katibi kimi balalara xidmət etmiş, onları doğma Azərbaycanımızın gözüaçıq, mübariz, təəssübkeş övladları kimi boy atmağa çağırmış, yurdumuzun gözəlliklərini, təbiətini, sərvətlərini məhəbbətlə tərənnüm etmişdir. Vətənpərvərlik, xeyirxahlıq mövzusunda yazdığı "Qərib cinlər diyarında" adlı ssenarisi əsasında C. Cabbarlı adına Azərbaycanfilm kinostudiyasının çəkdiyi "Qərib cinlər diyarında" tammetrajlı filmi (rejissoru S. Atakişiyevdir) 1978-ci ildə müvəffəqiyyətlə nümayiş etdirilmişdir. "Sınaq", "Əkiz qardaşlar" pyesləri tamaşaya qoyulmuşdur. "Nənəmin nağılı" uşaq operasının librettosuna bəstəkar Sevda İbrahimova musiqi bəstələmişdir. Bu opera müxtəlif yerlərdə tamaşaya qoyulmuşdur.

H. Ziyanın şeir və təmsilləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. O, özü də müntəzəm olaraq tərcümə ilə məşğul olmuşdur, Krılovdan, Marşakdan, Mixalkovdan və qeyrilərindən tərcümələri çoxdur. Krılovun bütün təmsillərini tərcümə etməyi qarşısına məqsəd qoymuşdur. Artıq təmsilçinin yüz təmsili onun tərcüməsində kitabça şəklində buraxılmışdır.

H. Ziya milli hərəkatımızda, Azərbaycanın tam müstəqil suveren respublika olmasında daim səsini ucaldan ziyalılarımızdandır. O, publisist yazılarında, satirik şeirləri və təmsilləri ilə haqq hərəkatımıza qoşulanlardan biridir. Onun mətbuat səhifələrində nümayiş etdirilən "haqq deyir haqq sözlə Azərbaycanım", "Böyük Sabirə "Xitab", "Qarabağda", "Qərənfil yağışı", "Başgirləyənlər marşı", "Şəhidlər balladası", "Laylay", "Gəncəm", "Dur qaçaq" və s. şeirləri, çoxlu təmsili haqsızlığa, torpağımıza göz dikənlərə üsyan kimi səslənir.

O, yaşının 60 illiyində hesabat kimi səslənən bircildlik "Seçilmiş əsərləri"ndəki "Vətən" şeirində öz vətəndaş qayəsini belə tərənnüm edir:

Mən atasız qalmışam,
Ellər ovudub məni.
Mən anasız olmuşam,
İllər ovudub məni.
Ancaq bir an, bircə an
Çölsüz, çəmənsiz qalsam,
Azərbaycan adlı bir
Doğma vətənsiz qalsam,
Heç nə ovutmaz məni,
Heç nə soyutmaz -
Ya od tutub yanaram,
Ya buz bağlar, donaram!

Azərbaycan ədəbiyyatı tarixində satirik bir şair kimi tanınan Hikmət Ziya 1995-ci ildə vəfat etmişdir.

ZAMAN QARAYEV


Zaman Qarayev.

Zaman Sadıq oğlu Qarayev 1931-ci ildə Şəki rayonunun Böyük Dəhnə kəndində kolxozçu ailəsində anadan olmuşdur. Kənd orta məktəbini bitirdikdən sonra 1947-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olub. Həmin ali məktəbi 1952-ci ildə bitirmişdir. 1952-ci ilin sentyabrından 1960-cı ilin axırınadək Goranboy (keçmiş Qasım İsmayılov rayonu) və Şəki rayonlarının kənd orta məktəblərində müəllimlik etmişdir. 1961-ci ilin yanvarından Bakıya gedərək Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kiçik redaktor, redaktor, böyük redaktor vəzifələrində işləmiş, 1967-ci ildən 1970-ci ilə-

dək "Gənclik" nəşriyyatında, "Kənd həyatı" jurnalında əməkdaşlıq etmişdir.

1971-ci ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində redaktor vəzifəsində çalışır.

Z. Qarayev orta məktəbdə oxuyarkən Qasım bəy Zakirin, M. Ə. Sabirin əsərlərindən təsirlənərək satirik ruhda şeirlər yazmağa başlamış, lakin bu şeirlərinin heç birini çap etdirməmişdir. Bunun da obyektiv səbəbləri vardı.

Z. Qarayevin dediklərindən: "Mən yaradıcılığa başlayanda adəbi aləmdə satirik yazıçılara böyük hücumlar olurdu. Əliağa Vahidin, Sabit Rəhmanın dözümünə heyran qalırdım və onların əsl yazıçı hesab edirdim. Ədəbiyyatda mədhiyyənin əleyhinə idim. Hələ Stalinin sağlığında XIX partiya qurultayında deyiləndə ki, bizə Qoqollar, Şedrinlər lazımdır, mən çox sevindim, lakin bu sevinc uzun çəkmədi. Bu sözlərə əməl olunmadı. Yüksək vəzifəli şəxslərin, ədəbiyyat tənqidçilərinin satirik əsər yazan yazıçılara haqq-nahaq hücumları məni düz yoldan sapdırırdı. İstər-istəməz oçerkvari hekayələr yazırdım, bunları mətbuat işçiləri qəbul edirdi, satirik ruh görən kimi isə "qarası çoxdur" deyə hekayəni özümə qaytarırdılar. Lakin buna baxmayaraq, o mədhiyyəçilik dövründə mən bir neçə satirik əsər yazıb çap etdirə bilmişəm. İndi isə istədiyim kimi əsərlər yazmağa imkanım vardır, ilhamım, istedadım köməyimə gəlsə, bacarsam, Azərbaycan tarixindən, müasir həyatımızdan bir sıra hekayə, povest, roman yazmaq fikrindəyəm".

Onun "Təşəbbüs" adlı ilk hekayəsi 1951-ci ildə "İnqilab və mədəniyyət" jurnalının 9-cu nömrəsində çap olunmuşdur. Z. Qarayev "Kürən" (1959), "Qonağım olun" (1961) - hekayələr, "Göy çəmənlər" (1965) - povest və hekayələr, "Xarqo" (1967) - povest, "Gəlin aparan" (1969) - povest və hekayələr, "Ayrılıqdan sonra" (1981) - povest və bir çox əsərlərin müəllifidir. Z. Qarayevin tarixi-qəhrəmanlıq mövzusunda qələmə aldığı "Əlincə qalası" (1988) romanında XIV əsrin sonu - XV əsrin əvvəllərində azərbaycanlıların yadellilərə qarşı mübarizəsindən

bəhs olunur. Hadisələr, əsasən, Əlincə qalasında, Qəbələdə və Səmərqənddə cərəyan edir. Əsərdə 14 il Teymurləngin qoşununa inadlı müqavimət göstərən Əlincə qalası müdafiəçiləri Altun, Yergey, Yavuz, Sədiman, Pirim kimi cəngavərlərlə yanaşı, yazılı ədəbiyyatımızda ilk dəfə olaraq Molla Nəsrəddinin də bədii obrazı yaradılmışdır.

O, həmçinin dövri mətbuatda elmi və publisistik məqalələrlə də çıxış edir. Ədəbiyyatşünas alim, filologiya elmləri namizədi (1976) Zaman Qarayev 1961-ci ildən Yazıçılar İttifaqının üzvüdür.

Hörmətli sənətkarın gələcək arzu və planlarından". "Məni Mirzə Fətəli də düşündürür. Bu mütəfəkkirdən çox yazıblar, lakin onun şəxsiyyəti, daxili aləmi, həyatı lazımınca öyrənilməyib, gözəl obrazı ədəbiyyatımızda hələlik yaradılmayıbdır. Belə dahi insana yalanlar, böhtanlar çox atılıb. Mən on ildən çoxdur ki, Mirzə Fətəlini öyrənməklə məşğulam. Onun haqda xeyli hekayə və elmi məqalə yazmış, bu yazıları Bakıda çap etdirə bilməyəndə Şəkidə "İpəkçi" qəzetində çap etdirmiş, oxuculardan alqış, afərinlər eşitmişəm. Hər bir ləyaqətli oxucu, düşüncəli ziyalı Mirzə Fətəlini tədqiq etmək, öyrənmək yolunda məni alqışlayıbdı. Dahi sənətkar haqda çap etdirdiyim hər bir məlumatın oxucular tərəfindən rəğbət və maraqla qarşılanması məni daha da ruhlandırmış və məndə bu barədə roman yazmaq həvəsi artmışdır. Artıq bu müqəddəs işə başlamışam. Gələcəkdə söz qədirbilən ziyalılarımızındır".

YAZMAQ, YARATMAQ EŞQİ

Görmək və anlamaq sevinci
təbiətin gözəl hədiyyəsidir.
A. Eynşteyn

Rövzət.

Hələ Rövzətin ilk şeirləri "Şəki fəhləsi" qəzetində dərc olunandan (1960) B. Vahabzadənin diqqətini özünə cəlb etmişdi. B. Vahabzadə sonralar, 1965-ci ildə "Şəki fəhləsi" qəzetində Rövzət haqqında yazırdı: "O, ilk şeirlərindən mənim nəzərimi cəlb etməyə başlamışdır... Rövzət düşünür və bizi də düşündürməyə çalışır. Əsrimiz idrak və düşüncə əsridir. Biz - XX əsrin adamları zamanın hadisələrini yalnız seyr etməklə kifayətlənməməliyik. Biz onların mənasına dalmalı, onları ümumiləşdirməyi bacarmalıyıq. Bu mənada haqqında danışdığımız şairin şeirlərindəki idrak, xəyal və düşüncə bizi sevindirir..."

İstedadlı şair Rövzəq Qafar oğlu Dəmirçizadə 1939-cu ildə Şəki şəhərində anadan olmuş, orta təhsilini oradakı 2 nömrəli şəhər məktəbində almışdır. Orta məktəbi qurtarandan sonra Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. Lakin iki il sonra bədbəxt hadisə nəticəsində ömürlük şikəst olan Rövzəq ixtisasını dəyişmək məcburiyyətində qalır.

Çiçəyin dibini yumşaldan külək,
Bilmədi, çiçəyin kökünü kəsdi.
Yaxşılıq eşqilə yaşayan ürək,
Bir xəta elədi, titrəyib əsdi.
Hərəsi bir yana düşüb qaldılar,
Çiçək də, külək də yazıq oldular.

O, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində qiyabi təhsil alır. Rövzətdəki bu iradə insana N. Ostrovskini, onun "Polad necə bərkidi" əsərindəki Pavel Korçagini xatırladır. R. Rollan çox gözəl deyib: "Yaşamaq - ölümü öldürmək deməkdir". İnsan isə o vaxt yaşayır ki, o yarada bilir. Bədbəxtlik baş verəndə də yaratmaq hissi ilə yaşayan insanı yalnız əsl qəhrəman adlandırmaq olar. Volter demişkən: "Əsl igidlik bədbəxtlik üz verərkən təzahür edir". İstedadlı şair "Gələcəyini axtar! şerini bu baxımdan çox gözəl yazıb:

Ey insan!
İtən keçmişin üçün
Göz yaşı tökmə bu gün,
Bu günü itirmə.
Dərd üstə dərd gətirmə,
Sabah da ağlayarsan
Yoxsa bu günün üçün.
Çalış, vuruş o ki var,
İtən keçmişini də,
İtən gülüşünü də,
Gələcəyində axtar.

Rövzət uzun illər "Şəki fəhləsi" qəzetinin nəzdində fəaliyyət göstərən "Səbuhi" ədəbi məclisinin üzvü olmuşdur. Onun 1968-ci ildə çapdan çıxmış "Qatarda" şeirlər kitabı oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Şair Zeynal Xəlil bu əsər haqda "Ədəbiyyat və incəsənət" qəzetində yüksək rəy söyləmişdir. İstedadlı şairin sonralar "Tut ağacı" (1971), "Səhər duyğuları" (1974), "Səslər" (1978), "Çörək ətri" (1981), "Ürəyimdə yaşayanlar" (1986) və s. kitabları çap edilmişdir.

"Dil bir millətin səs bayrağıdır".
Türk atalar sözü

ANA DİLİ BAŞQA DİLLƏRİN AÇARIDIR AZƏRBAYCAN DİLİNİN QÜDRƏTLİ ALİMİ

"Öz doğma övladına ana dili öyrətməyən analar,
Bəs ana adlanmağa sizin haqqınızmı var?"
B.VAHABZADƏ

"Türklərin bir eli var,
Və yalnız bir dili var.
Başqa dil var deyənin
Başqa bir əməli var".
Ziya GÖYALP

Əbdüləzəl Dəmirçizadə.

Azərbaycan dilçiliyi tarixində adı üreklərdə əbədi məskən salmış qüdrətli alimlərdən B.Çobanzadəni, S.Mümtazı, M.Hüseynzadəni, M.Şirəliyevi, Ə.Dəmirçizadəni xalqımız həmişə hörmətlə yad edib, xatirələri qarşısında baş əymişdir. Bu ona görədir ki, onlar ən müqəddəs bir amala xidmət etmişlər: Ana dilinin qorunmasına, saflığına, müqəddəsliyinə, əbədiliyinə!

Vətənimizə Ana deyirik, dilimizi Ana dili adlandırırıq, deməli, hər ikisi eynidir, müqəddəsdir, hər ikisi toxunulmazdır. Milləti məhv etmək mümkün olmadığı kimi, onun dilini də məhv etmək mümkün deyildir. B.Vahabzadənin dili ilə desək, ana nə qədər mərhəmətli olsa da, öz südünü yalnız qeyrətli, təəssübkeş övladlarına halal edir. Gəlin bu həqiqəti heç vaxt unutmayaq.

Qüdrətli xalqımızın müqəddəs dilinin incəliklərini qoruyan,

araşdıran cəfakeş alimlərdən biri də Əbdüləzəl Məmməd oğlu Dəmirçizadə olmuşdur. Görkəmli türkoloq Əbdüləzəl Məmməd oğlu 1909-cü il iyulun 7-də Şəkidə sənətkar (dəmirçi) ailəsində anadan olmuşdur. O, 1917-1922-ci illərdə Şəkidə "Hədiqətül maarif" adlı yeni tipli məktəbdə ibtidai təhsil almış, sonra, 1923-1924-cü illərdə şəhər zəhmət məktəbində oxumuşdur. 1925-ci ildə Şəki Müəllimlər Seminariyasının 2-ci kursuna daxil olmuş, 1927-ci ildə təhsilini başa vurduqdan sonra 2 nömrəli şəhər məktəbində müəllimlik etmişdir. Müəllimliyə başladığı ilk gündən Ə.Dəmirçizadə "Şəki fəhləsi" qəzetinin fəal müxbirlərindən biri kimi Şəki rayonu üzrə mərkəzi müxbirlər dərnəyinə rəhbərlik eimişdir. O, hələ Müəllimlər Seminariyasında təhsil aldığı vaxtdan bədii yaradıcılığa həvəs göstərib, hekayə və şeirlər yazmış, müəllimlik etdiyi dövrdə "Qızıl Qələm" cəmiyyəti Şəki şöbəsinin təşkilatçılarından biri kimi çalışmışdır.

Təhsilini davam etdirmək üçün 1929-cu ildə Bakıya gəlmiş, Azərbaycan Dövlət Universitetinin pedaqoji fakültəsinə daxil olmuşdur. Ə.Dəmirçizadə yazırdı: "Universitet illəri mənim həyatımda unudulmaz səhifələr açmışdır. Çünki mən professor Bəkir Çobanzadə, Əbdürrəhimbəy Haqverdiyev, Yusif Vəzir, Abdulla Şaiq kimi görkəmli şəxslərin tələbəsi olmuşam, ədəbiyyat, incəsənət və elm sahəsində bir sıra məşhur şəxslərlə - Səməd Vurğun, Süleyman Rüstəm, Əbülhəsən, Sabit Rəh9man, akademik Həmid Araslı, professor Cəfər Xəndan, xalq rəssamı S.Salamzadə və başqaları ilə bir sinifdə (kursda - red.) ozxumuşam".

Tələbə olarkən "Dan ulduzu", "Gənc bolşevik", "Hücum" "Şərq qadını" kimi jurnallarda bədii əsərlər çap etdirmişdir.

Ə.Dəmirçizadə universitetin son kursunda oxuyarkən professor B.Çobanzadənin rəhbərlik etdiyi dillər kafedrasında işləmiş, 1932-ci ildə təhsilini başa vurduqdan sonra doğma şəhəri Şəkiyə qayıtmış, müəllimlik etmişdir. O, Şəki Pedaqoji Məktəbində dərs demiş, gənc müəllimlərin hazırlanmasında yaxından iştirak etmişdir. Lakin onun ən böyük arzusu elmi işlə məşğul

olmaq idi. 1933-cü ildə Ə.M.Dəmirçizadə yenidən Bakıya qayıdır, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dillər kafedrasına aspirant qəbul edilir. O zaman dilçilik elmimizin böyük nümayəndəsi professor B.Çobanzadə onun elmi rəhbəri olur. 1937-ci ilin qara repressiya yeli B.Çobanzadəni də vurmuş və gənc aspirant sevimli elmi rəhbərindən məhrum olmuşdur. O, aspiranturada təhsil almaqla (1933-1937) yanaşı, dillər kafedrasında assistent, daha sonra baş müəllim vəzifəsində çalışmış, 1936-cı ildə onun "Türk dili" adlı ilk kitabı nəşr olunmuşdur. 1938-ci ildə isə "Azərbaycan ədəbi dili tarixi xülasələri" adlı kitabı yazmış və 1940-cı ildə həmin əsəri namizədlik dissertasiyası kimi müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsini almışdır. Görkəmli alimlərdən S.E.Malov, N.K.Dimitriyev, E.S.Bertels tərəfindən orijinal bir əsər kimi yüksək qiymətləndirilmiş, onun digər türk dillərinin tarixini yazmaq üçün istiqamətverici bir nümunə olduğu xüsusi qeyd edilmişdir. Ə.Dəmirçizadə 1940-cı ildən 1943-cü ilədək Azərbaycan Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasına, 1943-cü ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dilçiliyi kafedrasına rəhbərlik etmişdir.

Azərbaycan dilçiliyi sahəsində dərin tədqiqatlar aparan alim 1944-cü ildə "Azərbaycan dilinin tarixi (qədim dövr)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Bir il sonra - 1945-ci ildə ona Azərbaycan dilçiliyi üzrə professor elmi adı verilmişdir.

Professor Ə.M.Dəmirçizadə 1952-1960-cı illərdə Respublika EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunda Azərbaycan dili tarixi şöbəsinə başçılıq etmiş, 1955-ci ildə EA-ya müxbir üzv seçilmişdir. O, 1956-cı ildə Azərbaycan EA İctimai elmlər bölməsinə üzv, Terminologiya Komitəsinin sədr müavini olmuşdur. Şərqşünasların Beynəlxalq Moskva Konqresində (1960) iştirak etmişdir.

Ə.Dəmirçizadə elm sahəsində dəyərli xidmətlərinə və pedaqoji kadrların hazırlanmasında sərf etdiyi əməyinə görə bir çox dövlət təltiflərinə layiq görülmüşdür.

Xalqımızın yurdsevər alim oğlu böyük dilçilik məktəbi qoyub getmişdir. O, onlarla elmlər doktoru, 70-dən artıq elmlər namizədi yetişdirmişdir.

Ə.Dəmirçizadə onlarla kitabın, yüzlərlə elmi və publisistik məqalənin müəllifidir. Unudulmaz alimin fundamental əsərlərindən "Kitabi-Dədə Qorqud" dastanının dili", "Azərbaycan dilinin üslubiyyatı", "Müasir Azərbaycan dili" (fonetika), orfoepiya, orfoqrafiya, "Azərbaycan ədəbi dilinin tarixi" (iki hissədən ibarətdir), "50 söz" və s. kitablarını göstərə bilərik.

Təkcə onu qeyd etmək kifayətdir ki, alim "Azərbaycan ədəbi dilinin tarixi" əsərində dilimizin keçdiyi minillik yolu hərtərəfli araşdırmış, Orxan-Yenisey kitabələri, uyğur yazıları əsasında tədqiqatlar aparmış, oğuz qrupuna məxsus olan Azərbaycan dilinin qədim köklərini, şifahi və yazılı ədəbi dilin yaranması prosesini, dilin inkişaf dövrlərini inandırıcı şəkildə işıqlandırmışdır.

Görkəmli alim, əməkdar elm xadimi, zəhmətkeş müəllim, gözəl insan Ə.M.Dəmirçizadə 1979-cu ildə Bakıda vəfat etmişdir.

ATA YOLUNUN ŞÖLƏSİNDƏ

"Elmin əsirgənməsi halal olmaz".
Məhəmməd Peyğəmbər.

Rəcəb Əfəndi nəsli. Bu nəsil Azərbaycan elminə neçə-neçə tanınmış dühalar vermişdir. Bu ulduzlar kəhkəşanında seçilən, ata yolunu şöləndirən bir ulduz vardır: Əziz müəllim Atası ki-

Əziz Əfəndizadə.

mi həqiqi müəllim. Dilinə, ədəbiyyatına, xalqının adət-ənənəsinə sadiq müəllim. Biliyini, elmini, bacarığını, həyatını, sağlamlığını doğma xalqından əsirgəməyən ustad müəllim. Əfəndizadələr nəslində ata yolunun, ata məsləhətinin davamçısı, tanınmış alim-müəllim.

O, 1924-cü ildə ecazkar təbiətli qədim Şəki şəhərində dünyaya göz açıb. Atası Rəcəb Əfəndi o zaman Şəki Müəllimlər Seminariyasına rəhbərlik edirdi. 1928-ci ildə Bakıya köçən Əziz 18 nömrəli məktəbdə orta təhsil almışdır. O, 1943-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş və 1948-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Həmişə ürəyi doğma yurdu Şəki ilə bağlı olan gənc Ə.Əfəndizadə hələ sonuncu kursda oxuduğu zaman təyinatını Şəkiyə almaq üçün ərizə vermişdi. Lakin vəziyyət başqalaşdı. Fakültənin məzunlarından Pənah Xəlilov, Əziz Əfəndizadə və Məryəm Axundova aspiranturada saxlanıldı. Əlbəttə, rektorluğun qərarı təsadüfi deyildi. Əziz Əfəndizadə hələ tələbəlik illərindəən müəllimləri M.Şirəliyev, Ə.Dəmirçizadə, M.Hüseynzadə, H.Mirzəzadə kimi görkəmli dilçi alimlərin diqqətini cəlb etmiş, onların sevimlisi olmuşdu. O, fakültədə tələbə elmi cəmiyyətinin ən fəal üzvlərindən idi, tədqiqatçılıq bacarığı ilə xüsusi fərqlənirdi. Üçüncü kursda oxuyarkən "Abbas Səhhətin uşaq şeirlərinin dil xüsusiyyətləri" mövzusunda hazırladığı məruzə tələbələrin Ümumrespublika konfransında (1946-cı il) birinci mükafata layiq görülmüşdü. Bir il sonra "Molla Nəsrəddin" jurnalının ədəbi dilimizin inkişafı uğrunda mübarizəsi" mövzusunda oxuduğu məruzəsinə görə isə ümumuniversitet müsabiqəsinin qalibi olmuşdu. Əziz müəllim tələbəlik illərinin ən əziz xatirələrindən birini nəql edir: "Necə olmuşdusa, konfransda bizim bölmənin yığıncağına Səməd Vurğun da gəlib çıxmışdı. Birinci söz mənə

verildi. Özümü itirdiyim üçün sinədəftər danışmağa cəsarət etmədim. Yazdıqlarımı üzündən oxumağa başladım - hamı diqqətlə qulaq asırdı. Axıra yaxın cəsarətlənib mətndən gözümü çəkdim. Səməd Vurğunun üzündə hiss etdiyim mülayim təbəssümün dərin mənası sanki bir ox kimi zehnimə sancıldı... Sonrakı məruzələri gözləmədən müdrik şair və onu müşahidə edən professor Cəfər Xəndan, professor M.Şirəliyev dinməz-söyləməz auditoriyadan çıxdılar. Görünür, başqa bölmələrin də işində iştirak etməyi nəzərdə tutmuşdular.

Yalnız konfransın axırına yaxın professor M.Şirəliyev bizə çatdırdı ki, şair mənim də məruzəmdən razı qalıb, hətta bəzi tərifli sözlər də deyib..."

Ə.Əfəndizadə aspiranturaya daxil olduğu ildən həm də müəllimlik fəaliyyətinə başlamışdı; orta məktəbdə və qiyabi fakültənin yay sessiyasında. Onun müəllimliyə fitri qabiliyyətindəən xəbər tutan o zaman kafedra müdiri professor M.Hüseynzadə qarşıdakı tədris ilindən öz tələbəsini filologiya fakültəsinin əyani şöbəsində seminar məşğələləri aparmağa cəlb etdi. Bir neçə dəfə dərsində oldu. Kafedranın iclaslarından birində Ə.Əfəndizadənin dərsləri haqqında professor M.Hüseynzadə fikrini bu sözlərlə ümumiləşdirdi: "Ona müəllimliyi öyrətmək yox, ondan öyrənmək lazımdır". Az keçmədən kafedra Əziz müəllimə müstəqil mühazirələr oxumağı, hətta xüsusi kurslar aparmağı etibar etdi. O bu imtahandan da uğurla çıxdı. Fakültənin müəllim və tələbə kollektivinin layiqli hörmətini qazandı.

Ə.Əfəndizadə müəllimlik sənətinin sirlərini öyrənməkdə ən çox sevimli müəllimi Əliyar Qarabağlı ilə ünsiyyət saxlayırdı. O zaman Ə.Qarabağlı universitetin müəllimi olmaqla yanaşı, həm də Azərbaydan Elmi Tədqiqat Məktəblər İnstitutunda Azərbaycan dili və ədəbiyyat tədrisi metodikası şöbəsinə rəhbərlik edirdi. Əziz müəllim üçün həmin institut çoxdan doğmalaşmışdı, çünki onun atası da bir neçə il bu institutda baş elmi işçi vəzifəsində işləmişdi. Görünür, bu elm ocağına Əziz müəllimin tez-tez ayaq açmasının tarixçəsi elə o vaxtlardan başlayıbmış.

Aspiranturada təhsilini başa çatdırdığı ildə Əziz müəllimi qiyabi şöbənin filologiya fakültəsinə dekan vəzifəsinə irəli çəkdilər. Təşkilatçılıq bacarığı rektorluğu çox razı saldığı üçün ona qiyabi şöbə üzrə prorektorun köməkçisi vəzifəsi təklif edildi. Lakin Əziz müəllim inzibati vəzifəyə həvəs göstərməyib, sevimli müəllimi Ə.Qarabağlının şöbəsində kiçik elmi işçi yerini tutmaq üçün ərizə verdi.

O zaman filologiya fakültəsinin dekanı, görkəmli ədəbiyyatşünas professor Əli Sultanlı əhvalatdan xəbər tutan kimi, Azərbaycan Elmi Tədqiqat Məktəblər İnstitutunun direktoru professor M.Muradxanova zəng vurub, Əziz müəllimin "özbaşınalığına" qəti etirazını bildirdi... Özünü isə yanına çağırtdırıb o ki var, məzəmmət etdi.

İki-üç gündən sonra onu universitetin rektoru professor Cəfər Xəndan öz kabinetinə çağırtdırdı. Başqa işə keçməsi haqqındakı fikrini öyrənəndən sonra ona Bədən Tərbiyəsi İnstitutunda kafedra müdiri vəzifəsini təklif etdi. Müsahibinin üzünə sevinc hissinin qonmadığını görüb təəccübləndi... fikirləşmək üçün vaxt verdi...

Ən yaxın dostları da onu qınayır, universitet müəlliminin balaca bir instituta köçməsini "cünunluq", "bədnamçılıq" kimi qiymətləndirirdilər.

Əziz müəllim öz düşüncələrinin ağuşunda həyəcanlı günlər keçirirdi. O, iki yol ayrıcında qalmışdı. İkinci yol onu ata yolu-na - pedaqoji aləmə çəkib aparırdı. Axı bu yola meylinin cücərtiləri hələ tələbəlik, aspirantlıq illərində baş qaldırmışdı. Pedaqoji təcrübədə olarkən bütün gününü məktəbdə keçirər, boş dərsləri əvəz edər, şagirdləri sinifdənxaric tədbirlərə cəlb etməkdən xüsusi zövq alardı. Aspiranturada təhsil aldığı illərdə isə orta məktəblərlə daim sıx əlaqə saxlayar, müəllimlərin metodik məclislərində fəal iştirak edərdi.

Əziz müəllimi pedaqoji aləmə çəkib aparan başqa bir səbəb də dissertasiyası üçün seçdiyi "Azərbaycan dilinin orfoepiyası" mövzusu olmuşdur. O, haqlı olaraq, belə bir qənaətə gəlmişdi

ki, bu sahədəki tədqiqatının nəticələrini sınaqdan keçirmək, cilalayıb dəqiqləşdirmək üçün orta məktəblər ən etibarlı laboratoriyadır; həm də orfoepiyanı ilk növbədə məhz məktəb təcrübəsində tətbiq etmək lazımdır.

Atalar gözəl deyib: "Niyyətin hara, mənzilin ora". Əziz müəllim əsas iş yerini elmi tədqiqat institutunda möhkəmləndirdi. Universitetdən də ayrılmadı; ona orada əvəzçilik üzrə müəllimlik fəaliyyətini davam etdirməyə şərait yaratdılar.

1951-ci ilin sonlarından başlayaraq, Azərbaycan Elmi Tədqiqat məktəblər İnstitutunda işlədiyi ilk illərdə "Şagirdlərin orfoqrafik səhvləri və bunların aradan qaldırılması yolları" (1952), "Qrammatik təhlil haqqında" (1954) adlı kitabçaları və kar-lallar məktəbinin beşinci sinfi üçün "Azərbaycan dili" dərsliyi (1952) çapdan çıxdı.

1954-cü ildə o, namizədlik dissertasiyası müdafiə edib filologiya elmləri namizədi oldu.

Kiçik bir haşiyə. Əziz müəllimin dediklərindən: "Elmi şuranın təklifi ilə mənim dissertasiyama birinci opponentliyi professor Cəfər Xəndan öz üzərinə götürmüşdü. Dilçiliyə dair bir sıra dissertasiyalara onun opponentlik etdiyini bilirdim. Odur ki, bu, nə mənə, nə də başqalarına təəccüblü görünmədi. Əvvəlcə çox sevindim. Lakin şuranın yığıncağından çıxandan sonra birdən-birə ürəyimə qorxu düşdü. Axı Cəfər Xəndan çox tələbkar bir alim idi. Düşündüm ki, məni çox get-gələ salacaq. Ancaq üstündən ikicə gün keçmişdi ki, məni universitetin dəhlizində görüb dedi: "Sənin dissertasiyanı əvvəlcə vərəqlədim, xoşuma gəldi. Dünən başdan ayağa qədər oxuyub qurtarmış və qeydlər götürmüşəm. Sabah gəl, rəyini apar". Təəccübümlə sevincim bir-birinə qovuşdu. Səhəri günü vədələşdiyimiz vaxtda rəyi mənə təqdim etdi. Dissertasiyaya çox gözəl təhlil vermişdi. Orfoepiya məsələlərində mənim əsas fikirlərimə şərik çıxmasına heyran oldum, halbuki o zaman bir çox dilçiləri inandırmaqda ciddi çətinliklər qarşısında qalırdım".

Əziz müəllim öz dissertasiyasını müvəffəqiyyətlə müdafiə

edəndən sonra institutda Azərbaycan dili və ədəbiyyat tədrisi metodikası şöbəsinə rəhbərlik etmək ona həvalə edildi. O, müəllimi Ə.Qarabağlının ənənələrini davam etdirməklə şöbənin məktəb və müəllimlərlə əlaqəsini daha da genişləndirməyi, tədqiqatların istiqamətlərini məktəbin və metodika elminin müasir tələblərinə uyğunlaşdırmağı rəhbərlikdə başlıca məqsəd kimi qiymətləndirdi. Məhz bu məqsədə uyğun olaraq, o, bir sıra mühüm problemlərin həlli ilə əlaqədar böyük işlər görmüşdür. Azərbaycan dili və ədəbiyyat tədrisi üzrə 1975-ci ildən ədəbiyyat tədrisinin problemləri ilə ədəbiyyat tədrisi metodikası şöbəsi məşğul olur, 150-yə yaxın proqram, dərslik, monoqrafiya, metodik vəsait və tövsiyələr, təlimati məktublar, həmçinin 200-dən çox əyani vəsait hazırlayıb çap etmişdir. Eyni elm sahələri üzrə 4 pedaqoji elmlər doktoru, 40-dan artıq elmlər namizədi, professor, B.Əhmədovun təbirincə desək, Əziz müəllimin rəhbərlik etdiyi şöbənin "şinelindən" çıxmışdır.

Əziz Əfəndizadə 1975-ci ildə "Azərbaycan dili orfoqrafiyası təliminin elmi əsasları" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək pedaqoji elmlər doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. Görkəmli mütəxəssis alimlərdən Azərbaycan EA-nın müxbir üzvü, professor Ə.Dəmirçizadə, professor S.Cəfərov, professor A.Axundov, professor Y.Seyidov, professor B.Əhmədov, qazax alimi X.Arqunov, eston alimi V.Maonso, Moskva alimlərindən professor N.S.Rojdentsvenski, M.T.Baranov və başqaları Əziz Əfəndizadənin doktorluq dissertasiyasına yüksək qiymət verərək onu təkcə metodika elmi üçün deyil, dilçilik elmi üçün də böyük hədiyyə hesab etmişlər. Həmin əsərində müəllif ilk dəfə olaraq Azərbaycan dili orfoqrafiyasının xüsusiyyətlərini dərindən tədqiq etmiş, düzgün yazı təliminde orfoqrafiyanın orfoepiya ilə qarşılıqlı münasibətinə əsaslanmağın elmi-metodik sistemini işləyib əsaslandırmışdır.

Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunun 60 illik tarixində ilk dəfə olaraq (1983) Ə.Əfəndizadəyə professor elmi adı verilmiqdir. istedadlı alim 300-ə yaxın elmi əsərin, o cümlədən,

iri-xırdalı 60 kitabın, bunlardan əlavə, 300-dən çox qəzet məqaləsinin müəllifidir. Kitablarından bir neçəsinin adlarını qeyd edək: "Qrammatik təhlil haqqında" (1954), "Qrammatik çalışmalar və onların aparılması metodikası" (1961), "Yazılışı çətin sözlər və onların öyrədilməsi yolları" (1964), iki cilddən ibarət "Azərbaycan dilinin tədrisi" (hər iki kitabın əsas müəllifi və elmi redaktorudur (1976, 1977), "Düzgün yazı təliminin nəzəri əsasları" (1975), "Orta məktəbdə imla yazılar" (1983), "IV sinifdə Azərbaycan dili" (1973), "Məktəblinin orfoqrafiya lüğəti" (1956, 1978), "Orfoqrafiya-orfoepiya...lüğəti" (1989), "Ədəbi dilimizin sirləri" (1990), "Dağıstan MSSR məktəblərində Azərbaycan dili tədrisinin problemləri" (1990) və s.

Orta məktəblər üçün Azərbaycan dili dərsliklərinin çoxunda Ə.Əfəndizadənin imzası "möhürlənib": ya müəllif, ya da elmi redaktor kimi. Onun 5-ci sinif üçün yazdığı və hazırda məktəblərin istifadəsində olan "Azərbaycan dili" dərsliyini müəllim və mütəxəssis alimlər müasir tələblərə cavab verən ən mükəmməl və orijinal bir dərslik kimi qiymətləndirirlər.

Əziz müəllimin son illərdə çap etdirdiyi bir kitabı haqqında da ayrıca söz deməyi lazım bilərdim: bu, onun 1983 və 1989-cu illərdə çap etdirdiyi "Orfoqrafiya-orfoepiya ...lüğəti"dir. Mütəxəssis alimlərin qeyd etdikləri kimi, belə bir kompleks sorğu vəsaitini yaratmaq ideyası o vaxt İttifaqda ilk dəfə olaraq professor Ə.Əfəndizadəyə nəsib olmuşdur: həmin kitabı ilə müəllif kütləvi istifadə üçün daha əlverişli və orijinal bir sorğu vəsaiti yaratmaqla yanaşı, həm də sovet leksikologiyasına dəyərli bir yenilik gətirmişdir.

Əziz müəllimin çoxşaxəli elmi yaradıcılığında onun redaktorluq fəaliyyəti də xüsusi yer tutur. O, ali və orta məktəblər üçün onlarla dərsliyin, Azərbaycan dilçiliyi və bu dilin tədrisi metodikasına aid bir sıra kitabların redaktoru olmuşdur. "Azərbaycan dili və ədəbiyyat tədrisi" məcmuəsi 15 ilə yaxın onun redaktəsi ilə çap olunmuşdur.

Əziz müəllim dəfələrlə Moskva, Sankt-Peterburq, Tallin,

Rostov, Kiyev və s. şəhərlərdə elmi-pedaqoji məclislərin iştirakçısı olmuş, məruzələrlə çıxış etmişdir.

Xeyirxahlıq, çətinliyə düşənlərin əlindən tutmaq, imkanı dairəsində kömək göstərmək onun təbiətində çoxdan kök salmışdır. Obyektivliyinə də söz ola bilməzdi. Əziz müəllim nəfsi təmiz, əməli təmiz, hər yerdə öz ləyaqətini gözləyə bilən yüksək mədəniyyətli bir əsl Azərbaycan ziyalısı idi.

Professor Ə.Əfəndizadə 40 ildən artıqdır ali məktəblərin, müəllimləri təkmilləşdirmə institutlarının auditoriyalarında mühazirələr oxumuşdur. O, müəllimlik sənətinin elə vurğunu, həmçinin elə mahir ustası idi ki, bunsuz onun ömür yolunu təsəvvürə gətirmək mümkün deyildi.

Professor Əziz Əfəndizadə respublikamızın ictimai həyatında da geniş fəaliyyət göstərməsi ilə fərqlənən alimlərdən idi. O, uzun illərdən bəri Respublika Xalq Təhsili Nazirliyində tədris-metodik şuranın Azərbaycan dili tədrisi metodikası bölməsinin sədri olmuşdu. Professor Ə.Əfəndizadə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ixtisaslaşmış şuranın (müdafiə şurası) üzvüdür. Respublika Pedaqoji Cəmiyyətində Azərbaycan dili bölməsinə rəhbərlik edir. Respublika Ali Soveti Rəyasət Heyəti yanında Əlifba komissiyasının fəal üzvlərindən biri idi.

1981-ci ildə ona Respublikanın əməkdar müəllimi fəxri adı verilmişdir. "Şərəf nişanı" ordeni və bir sıra medallarla təltif olunmuşdur. Respublika Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı, "Azərbaycanın qabaqcıl maarif xadimi" və başqa nişanlara layiq görülmüşdür.

Əziz müəllim haqqında sözümü yekunlaşdırarkən onun işlədiyi Elmi Tədqiqat İnstitutunun direktoru Z.Qaralovun dərc etdirdiyi bir məqalədəki aqağıdakı sətirlərə diqqəti cəlb etmək istərdim:

- "Son 15 ildən bəri mənim rəhbərlik etdiyim Elmi Tədqiqat İnstitutunda filologiya elmləri namizədi, pedaqoji elmlər doktoru, professor Əziz Əfəndizadə 40 ilə yaxındır ki, fəaliyyət göstərir, Azərbaycan dilinin tədrisi metodikası şöbəsinin müdiri

vəzifəsində çalışır. O, son dərəcə məhsuldar alimdir, zəngin elmi məktəb yaratmışdır, onlarla mütəxəssis yetişdirmişdir. Respublikanın ümumtəhsil məktəbləri üçün orijinal tədris kompleksi işləyib yaratmış və onu zamanın tələbləri baxımından daima təkmilləşdirməyə, yeniləşdirməyə xüsusi əmək sərf edir. Novator müəllimlərlə müntəzəm əlaqə saxlayır və onları şöbənin fəaliyyətinə cəlb edir. müəllim və alimlər arasında böyük nüfuz qazanmışdır, elmin əsl ağsaqqalıdır..." ("Molodyoj Azerbaydjana, 13 noyabr 1989-cu il).

Bəli, Əziz müəllim balaca bir institutda şölə tapıb öz əməyi, öz yaradıcı fəaliyyəti ilə ata yoluna uğurlu start götürdü, yüksəldi, şöhrətləndi, bu institutun da ildən-ilə qol-qanad açmasında, respublikamızda nüfuzlu bir elmi-pedaqoji mərkəzə çevrilməsində öz qüvvəsini əsirgəmədi. Ötüb-keçən illər ərzində Əziz müəllimə dəfələrlə ali pedaqoji institutlarda, Respublika EA-da daha yüksək maaşlı vəzifələrə keçmək üçün imkan yaradılmışdı. Lakin o, ürəkdən bağlandığı tədqiqat institutundan ayrılmadı. Öz fəaliyyətini daha kamil səviyyədə yerinə yerinə yetirmək, Azərbaycan dilinin keşiyində durmaq, bu dilə gənc nəslin daha mükəmməl yiyələnməsinə nail olmaq Əziz müəllimin qayəsi olmuşdur. Doğrudan da, "ot kökü üstə bitər".

Unudulmaz müəllim, görkəmli alim Əfəndizadə Əziz Rəcəb oğlu 1996-cı ildə dünyasını dəyişmişdir.

ÇƏTİN YOLLARIN AXARINDA

Çıxarkən bir sənlik, mənlik ortaya
Ah, necə doymasın cana bu dünya?!
Yox, əgər görsəniz yalançıyam mən,
Baş məndən, təşt ilə qılınc da sizdən.
Nizami Gəncəvi

Təhminənin atası Zəkəriyyə Rüstəm oğlu hələ 1930-cu illərdə Şəkidə mahir ipəkçilərdən biri kimi tanınmışdı. Faşizmin

Təhminə Rüstəmova.

xalqlara gətirdiyi fəlakət dövründə 12 nəfərlik böyük bir ailənin başçısı idi. Müharibənin ilk günlərindən oğlanları Ənsarı və Süleymanı orduya çağırdılar. İki-üç aydan sonra kiçik qardaşı Ağakişiyə də çağırış gəldi. Nəhayət, növbə özünə çatdı. Ömür yoldaşını, dörd qızını və iki oğlunu Allaha tapşırıb ordu sıralarına yola düşdü. Bu zaman uşaqlarından ən böyüyünün 15, ən kiçiyinin isə 4 yaşı vardı. Yaxşı ki, ailə üzvləri torpaqdan bərəkət götürməyə öyrəşmişdir. Evləri şəhərin mərkəzindən xeyli uzaqda olduğu üçün geniş bağ-bağçaları vardı. Vəsilə ana və uşaqları bütün gününü torpağa qulluq etməklə ondan ruzi gözləyirdilər. Qışın şaxtalı aylarında ailənin aclıq çəkdiyi günlər də az olmurdu. İki il keçməmiş ata-ananın 9-cu sinifdə oxuyan üçündü oğlu İsmayılı da orduya çağırdılar. Ən dəhşətlisi bu idi ki, bir-birinin ardınca Ağakişinin, Ənsarın və Süleymanın qara xəbərləri gəlmişdi. Ana ürəyi itirdiyi övladlarının dağına necə dözəydi? Ümid çırağı sönmüş, həyət-baca da onun gözlərində sanki viranəyə çevrilmişdi. Bütün bu müsibətlərə baxmayaraq, Vəsilə ana özünün də, olan-qalan uşaqlarının da başını iş-güclə qarışdırmağa, dolanacaq dərdini övlad dərdi ilə bölüşdürməyə can atırdı. Axşamlar isə Allahdan diləyirdi ki, heç olmasa, evin dirəyi Zəkəriyyə kişini və məktubları daim cəbhədən gələn İsmayılı ona bağışlasın.

Bütün bu ağır illərdə böyük qızı Təhminə dərd-sərdən beli bükülmüş ananın yeganə arxası, sağ əli olmuşdu. Təhminənin dəyanəti, ağıllı tədbirləri ailənin tufanlara sinə gərməsində böyük rol oynayırdı. Özündən kiçik qardaş-bacılarına daim qayğı göstərir, gecəli-gündüzdü onlara göz olur, hər dərdlərinə çatırdı. O, hər cəhətdən nümunəvi bir şagird olduğu kimi, qardaş-bacılarının da məktəbdən qalmamaları, yaxşı oxumaları üçün əlindən gələni əsirgəmirdi.

1944-cü ildə - müharibənin hələ davam etdiyi dövrdə Təhminə Şəki 7 №-li orta məktəbi əla qiymətlərlə başa vurdu. Öz ləyaqəti və istedadı ilə fərqlənən şagirdlərdən biri olduğu üçün sevimli müəllimləri onun ali məktəbdə təhsilini davam etdirməsinin qayğısını çəkdilər. Bilirdilər ki, ailə vəziyyəti ağırdır, köməksiz və arxasızdır. Təhminə riyaziyyatçı olmaq arzusunda idi. Məktəbin müəllim kollektivi çox götür-qoy etdi, nəhayət, çıxış yolu tapıldı. Təhmināni Bakıya aparmağı, ona atalıq qayğısı göstərməyi Şəkinin ağsaqqal ziyalılarından biri kimi tanınmış Seyfi müəllim (Seyfi Hüseynov) öz öhdəsinə götürdü. Hər şeydən əvvəl, qızın anasını arxayın edib onun razılığını aldı.

Təhminə heç vaxt Bakıda olmamış, qatar üzü görməmişdi. Seyfi müəllim onu Bakıya yaxın dostu, məşhur riyaziyyatçı alim Qara Bəhramgilə (professor Bəhram Sultanov) gətirdi. Qız bir həftə bu alimin qonağı oldu. Bəhram müəllim Təhminənin sənədlərini universitetin qəbul komissiyasına verib, onu yataqxanada yerləşdirdi...

1944-cü ilin sentyabrından Təhminə riyaziyyat fakültəsində tələbə stolu arxasında əyləşdi. Universitet həyatına az-çox qaynayıb-qarışdıqdan sonra xəbər tutdu ki, burada yeni bir fakültə açılıb; şərqşünaslıq fakültəsi. İki həftə keçməmiş öz arzusu ilə onu həmin fakültəyə keçirdilər. Böyük maraq və həvəslə fars dilini öyrənməyə başladı. Dolanmaq üçün ümidi ancaq təqaüdünə qalmışdı. Ac-yalavac günlər də keçirir, lakin bunu heç kəsə hiss etdirmirdi.

Birinci dərs ili başa çatmamış, qələbə gününün sədası Təhminənin də qəlbinə böyük sevinc gətirdi. Əvvəl atası, bir il sonra isə qardaşı İsmayıl sağ-salamat evlərinə qayıtdılar.

Təhminə fakültəni əla qiymətlərlə bitirdiyi üçün onu universitetin aspiranturasında saxladılar. Görkəmli şərqşünas alim Rəhim Sultanovun rəhbərliyi altında "Fars dilində feli sifət və feli bağlamaların morfoloji xüsusiyyətləri" mövzusunda elmi tədqiqat işi aparmağa başladı.

Kiçik bir haşiyə. O, hələ aspiranturanın birinci kursunda

təhsil alarkən Sov.İKP sıralarına daxil olmaq üçün ərizə vermişdi. Məsələ fakültə partiya təşkilatının ümumi iclasında müzakirəyə qoyularkən T.Rüstəmovaya ailə vəziyyəti ilə əqəqədar suallar yağdırılır. O, qardaşlarından ikisinin cəbhədə həlak olduğunu bildirir. Büro üzvlərindən kimsə soruşur:

- Bunu təsdiq etmək üçün əlinizdə sənədləriniz varmı?

Qız qəhərlənə-qəhərlənə:

- Bəli var, qara kağızları gəlib.

Kommunistlərdən kimsə təklif edir ki, həmin sənədləri gətirib göstərənə qədər məsələnin müzakirəsi təxirə salınsın. Beləcə də qərar qəbul olunur.

T.Rüstəmova özünü ələ ala bilməyib hönkürtüsünü güclə boğa-boğa zalı tərk edir və bir neçə gündən sonra təşkilatın katibinə qəti şəkildə bildirir ki, o, bitərəf olaraq qalmağı özünə daha münasib hesab edir. Bu hadisə fakültədə böyük səs-küyə səbəb olur. Təhminə xanımı dəfələrlə büroya çağırır, bərkə-boşa çəkirlər. Lakin o, müharibədə həlak olmuş qardaşlarının ruhunu daha əziz tutduğu üçün qərarından axıra qədər dönmür.

Üç ilin tamamında onun namizədlik dissertasiyası müdafiəyə təqdim edilmək üçün kafedrada yekdilliklə bəyənildi. Təhminə Rüstəmova yaxşı bilirdi ki, müdafiə kürsüsünə çıxmaq onun üçün o qədər də asan olmayacaq; hər şeydən əvvəl, ona görə ki, fakültənin müəllim kollektivi arasında bəzi xoşagəlməz söz-söhbətlər gəzirdi. Kimlərsə onun elmi rəhbərinə, bəlkə də öz xarakterindəki prinsipiallıq və əyilməməzliyinə görə özünə zərbə vurmaq üçün fürsət axtarırdılar.

Təhminə xanım yanılmamışdı. Opponentlərindən biri dissertasiyaya yazdığı müsbət rəyi, müdafiəyə beş-on gün qalmış mənfi rəylə əvəz etmişdi. Təhminə xanım bundan bir o qədər də narahatlıq çəkmədi. Çünki rəydə göstərilən subyektiv iradlara əsaslı cavablar verə biləcəyinə möhkəm inamı vardı.

1954-cü ilin martında müdafiə günü gəlib çatdı. Dissertantın ilk sözü də, opponentlərə cavabı da elmi şura üzvlərini tamamilə razı saldı. Lakin müzakirələrdə gözlənilməz səs-küy yarandı.

Mənfi rəy verən opponent öz natiqlik məharətini işə salaraq ümumin fikrini döndərmək üçün dəridən-qabıqdan çıxdı. Elmi şuranın iclası elə bir diskussiyaya çevrildi ki, cilovundan çıxmış qızğın mübahisələr 9 saata yaxın davam etdi. Şura üzvlərinin bəziləri qalmışdılar odla su arasında; opponenti haqlı hesab etsinlər, yoxsa gənc dissertantı? Axı opponent nüfuzlu, tanınmış mütəxəssislərdən biri idi, dissertant isə elm aləminə yenicə gələn gənc bir tədqiqatçı. Axırda məsələ gizli səsə qoyuldu. Bu zaman üzdə özünü qətiyyən sındırmayan dissertant qəlbindəki təlatümlərin zərbəsindən salonu tərk edib qapının arxasında dayanmışdı. Birdən alqış səslərini eşidib dərindən nəfəs aldı. Elmi şura Təhminə Rüstəmovaya səs çoxluğu ilə filologiya elmləri namizədi alimlik dərəcəsi verilməsi haqqında qərar qəbul etdi.

Təhminə xanım həmin vaxtdan universitetin Yaxın Şərq dilləri (indiki fars dili) kafedrasının müəllimi, 1964-cü ildən isə dosenti oldu. O, öz tələbələrini fars dilini mükəmməl, həm də elmi əsasda öyrətmək işinə böyük əmək sərf edir. Fakültənin gənc müəllimləri onun zəngin təcrübəsindən müntəzəm olaraq bəhrələnirlər.

T.Rüstəmova respublikamızda fars dilçiliyi elminin inkişafında xüsusi çəkisi olan görkəmli şərqşünas alimlərdən biridir. Azərbaycanlı qadınlar içərisində ilk dəfə olaraq həm namizədlik, həm də doktorluq üzrə bu sahədə alimlik dərəcəsi almaq ona nəsib olmuşdur.

Təhminə Rüstəmova "Fars və Azərbaycan dillərində feli sifət və feli sifət tərkiblərinin tipoloji qarşılaşdırılması problemi" mövzusunda doktorluq dissertasiyasını Tbilisi Dövlət Universitetində müdafiə etmişdir (1990). Bu sahədə dünya şöhrətli alimlərin bir çoxu əsərə yüksək qiymət vermiş, onu fars dilçiliyi və ümumiyyətlə, dilçilik tipologiyası sahəsində orijinallığına görə yeni bir hadisə hesab etdiklərini bildirmişlər.

Müdafiə şurasının üzvləri üçün xüsusi olaraq bu da maraqlı olmuşdu ki, onlar T.Rüstəmovanın şəxsində fars dilçiliyinə aid

sanballı elmi əsərləri və dərslikləri ilə istedadlı və məhsuldar bir tədqiqatçını "kəşf" etmişdilər.

Professor T.Rüstəmova ümumi həcmi 100 çap vərəqindən artıq - 70-ə yaxın elmi əsərin, o cümlədən, ali və orta məktəblər üçün fars dilinə aid 10-dan çox kitabın - dərslik və dərs vəsaitinin müəllifidir. Onun Azərbaycan, rus, fars və əfqan dillərində yazdığı əsərlərdən bir çox yerlərdə, xarici ölkələrdə istifadə olunur.

İstedadlı alimin Əfqanıstan respublikasının sifarişi ilə yazdığı "Savad amuzi" ("Savad təlimi") dərsliyi dediklərimizə canlı misaldır.

Professor T.Rüstəmova həm də Azərbaycan dilçiliyinə aid bir neçə əsərin müəllifidir. Azərbaycan Ensiklopediyasının nəşr etdiyi "Əski əlifba" adlı kitabı onun bu sahədəki əsərləri sırasında xüsusi yer tutur.

Professor T.Rüstəmova şərqşünas alimlərin ümumittifaq konfranslarında (Bakıda, Daşkənddə, Düşənbədə, Tbilisidə) fars dilçiliyinin müxtəlif problemlərinə aid məruzələrlə çıxış etmişdir.

Əsl alimin ən gözəl şəxsi keyfiyyətlərindən biri onun öz müəllimlərinə - ustadlarına minnətdarlıq hissini heç vaxt itirməməsi ilə bağlıdır. Bu hiss Təhminə xanımda indi də elə güclüdür ki, az qala hər sözü-söhbətinin başında professor Rəhim Sultanovun, professor Mübariz Əlizadənin, mərhum professor Əhməd Şəfainin və başqalarının adlarını çəkməkdən bir sevinc tapır, üzünə təbəssüm qonur. Bu keyfiyyətinə görədir ki Təhminə xanım öz yetirmələrinin ona minnətdarlığı və ehtiramından da böyük rahatlıq tapır, onların həyatda və əmək sahəsindəki yüksəlişlərini özünün ən böyük mükafatı hesab edir. Yaxşı deyiblər ki, gəlin ocağa gələr. Təhminə xanım hörmətli dilçi professor Əziz Əfəndizadənin həyat yoldaşıdır.

GÖRKƏMLİ DİLÇİ ALİM

Dil açanda ilk dəfə
"Ana söyləyirik biz,
"Ana dili" adlanır bizim
ilk dərsliyimiz
B.VAHABZADƏ

Musa İslamov.

Zəmanəmizin dahi söz üstası Ç.Aytmatov yazır: "Xalqın ölməzliyi, əsasən, onun dili ilə ölçülür. Hər bir dil öz xalqı üçün böyükdür. Hər kəsin öz xalqı qarşısında bir oğulluq borcu var: öz ana dilinin təmizliyini qorumaq, onu daha da zənginləşdirmək".

Öz doğma xalqı qarşısında oğulluq borcunu qeyrətlə yerinə yetirən ziyalılardan biri tanınmış dilçi-alim Musa İsa oğlu İslamovdur.

O, 1924-cü ildə Şəki rayonunun Baş Göynük kəndində doğulub. 1930-cu ildə həmin kənddəki orta məktəbin birinci sinfinə daxil olub, 1936-cı ilə kimi orada oxuyub. 1036-cı ildə ailələri Şəki şəhərinə (Qışlaq hissəsinə) köçdüyündən oradakı 11 №-li orta məktəbdə təhsilini davam etdirib. 1940-cı ildə orta məktəbi fərqlənmə attestatı ilə bitirib. 1941-43-cü illərdə Şəki şəhər ipək trestində işləyib.

1944-cü ildə Bakıya gələrək Azərbaycan Dövlət Universitetinin filologiüa fakültəsinə daxil olub və 1949-cu ildə oranı fərqlənmə diplomu ilə bitirib.

1948-ci ildə hələ tələbə ikən "Azərbaycan pioneri" qəzeti redaksiyasında işə girmiş, əvvəlcə ədəbi işçi işləmiş və üç aydan sonra şöbə müdiri vəzifəsinə irəli çəkilmişdir. 1955-ci ilədək pioner və məktəblilər şöbəsinə rəhbərlik etmişdir.

M.İ.İslamov 1954-cü ildə Nizami adına Ədəbiyyat və Dil

İnstitutunun aspiranturasına daxil olmuşdur. Aspiranturanı bitirdikdən sonra həmin institutda kiçik elmi işçi vəzifəsində saxlanılmışdır.

1961-ci ildə M.İ.İslamov "Azərbaycan dilinin Nuxa dialekti" (o zaman Nuxa adlanırdı) mövzusunda dissertasiya müdafiə etmiş və filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Bu əsəri yazmaq üçün o, 1955-56-cı illərdə Şəki rayonunun əksər kəndlərində olmuş, ayrı-ayrı kəndlərin şivələrinə aid zəngin material toplamış və həmin materiallar əsasında dissertasiya işini yazmışdır. Əsər 1968-ci ildə kitab şəklində çap olunmuşdur.

M.İ.İslamov 1963-cü ildə baş elmi işçi vəzifəsinə keçirilmiş, 1967-ci ildə isə Azərbaycan dialektologiya şöbəsinə müdir seçilmişdir. 1969-cu ildə Nizami adına Ədəbiyyat və Dil İnstitutu iki müstəqil instituta - Dil və Ədəbiyyat institutlarına ayrılanda M.İ.İslamov Nəsimi adına Dilçilik İnstitutunda Azərbaycan dialektologiyası şöbəsinin müdiri kimi fəaliyyətini davam etdirmişdir. 22 ildən artıq həmin şöbənin rəhbəri olmuşdur. (1967-ci ilin fevralından 1989-cu ilin aprelinə qədər).

M.İ.İslamov 1973-cü ildə "Azərbaycan dili dialekt və şivələrində əvəzliklər" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, 1980-ci ildə professor adı alıb. O, doktorluq dissertasiyasını genişləndirərək "Türk dillərində əvəzliklər" adı ilə 1986-cı ildə kitab şəklində çap etdirmişdir. Bu doktorluq dissertasiyası türk dilləri dialektologiyası sahəsində yeni bir istiqamətin əsasını qoymuşdur.

M.İ.İslamov dilçilik coğrafiyası (dilçiliyin yeni sahələrindəndir) üzrə respublikada yeganə mütəxəssis idi. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə dünya türkologiyasında ilk dəfə olaraq Azərbaycan dilinin dialektoloji atlası tərtib olunmuşdur. O, başqa türkdilli respublika və vilayətlərdə bu işlə məşğul olan həmkarlarına həmişə kömək edirdi. Dilçiliyə dair konfranslarda, müşavirələrdə maraqlı, dərin məruzələrlə çıxış edir, Azərbaycan dilçiliyini təmsil edirdi.

M.İ.İslamovun rəhbərliyi və bilavasitə iştirakı ilə üç cildən ibarət Azərbaycan dili dialekt və şivələrinin lüğəti hazırlanmışdır.

Onun rəhbərliyi ilə Azərbaycanın müxtəlif rayonlarına və kəndlərinə, eləcə də Gürcüstanın, Ermənistanın, Dağıstanın azərbaycanlılar yaşayan rayonlarına dialektoloji ekspedisiyalar təşkil olunmuş və toplanmış dil materialları əsasında bir çox monoqrafiyalar yazılmışdır.

O, 11 nəfər elmlər namizədi və 2 nəfər elmlər doktoru yetişdirmişdir. 100-dən çox elmi əsərin müəllifidir.

M.İslamov Nəsimi adına Dilçilik İnstitutu və Bakı Dövlət Universitetinin İxtisaslaşdırılmış Doktorluq Müdafiə Şurasının üzvü olmuşdur.

Musa İslamov 1999-cu ildə vəfat etmişdir.

AQİLLƏR DEYİB Kİ...

Dil xalqın namusu deməkdir.
S.VURĞUN

"Axı təbiət kimi, mənəviyyatın da öz "ekoloji" problemləri var. Təmiz su olmasa, sivilizasiya bizə lazım olmaz, təmiz hava olmasa, ekologiya öz-özünə heçə-puça çıxar, təmiz ana dili olmasa, milli mədəniyyət, milli suverenitet gərəksiz və artıq bir şeyə çevrilər... Dil adlı sərvətin sahibi də, müəllifi də məhz xalqdır. Torpağa da, dilə də hər hansı mənəvi qəsd eyni dərəcədə cinayət və günahdır. Dünyanın yaranması barədə əsatirdə, bütün müqəddəs kitablərdə, o cümlədən, Nizaminin "Xəmsə"sində dil torpaqdan da qədim və əbədi elan edilir... Hər hansı kiçik şivənin, dialektin, ləhcənin də silinib itməsi bu gün bizim üçün artıq yalnız milli itki deyil, həm də ümumbəşəri və dünyəvi miqyasda bir itkidir" (Y.Qarayev, "Kommunist", 04.02.1989).

Yaşar Vahid oğlu Qarayev 1936-cı ildə Şəkidə, sənətkar

ailəsində anadan olmuşdur. 1946-cı ildə ailəsilə Bakıya köçmüş, orta məktəbi qurtardıqdan sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır (1954-1958). Müxtəlif dövrlərdə Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş laborant, kiçik elmi işçi, baş elmi işçi, "Nəzəriyyə və ədəbi proses" şöbəsinin müdiri, direktorun elmi işlər üzrə müavini olmuşdur. Filologiya elmləri doktoru (1980), əməkdar elm xadimi (1982), professor (1985), Y.V.Qarayev "Nəzəriyyə və ədəbi proses" şöbəsinə rəhbərlik etməklə bərabər 1987-ci ildən həmin institutun direktoru işləmişdir.

Y.V.Qarayev ədəbi fəaliyyətə 1955-ci ildə "Azərbaycan gəncləri" və b. qəzetlərdə dərc olunan ədəbi qeydlərlə başlamış, sonralar ədəbi prosesə, teatr tənqidinə, bədii ədəbiyyatın bir çox problemlərinə dair elmi məqalələrlə çıxış etmişdir. Tənqidçi və ədəbiyyatşünas Y.V.Qarayev 1976-cı ildən Azərbaycan Yazıçılar Birliyinin tənqid və əbədiyyatşünaslıq şurasının rəhbəri olmuşdur. Onun təşəbbüsü ilə "Ədəbi proses" adlı illik məcmuə təşkil edilmiş və onun məsul redaktoru təyin edilmişdir.

İstedadlı alim Y.V.Qarayev M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun hazırladığı doqquzcildlik "Dünya ədəbiyyatı tarixi", Nizami adına Ədəbiyyat İnstitutunun hazırladığı yeddi cildlik "Azərbğaycan ədəbiyyatı tarixi" əsərlərinin müəlliflərindən biridir.

Professor Y.V.Qarayev "Faciə və qəhrəman" (1965), "Səhnəmiz və müasirlərimiz" (1972), "Tənqid: problemlər, portretlər" (1976), "Poeziya və nəsr" (1979), "Realizm: sənət və həqiqət" (1980), "Mirzə Fətəli Axundov" (1982), "Poeziyanın kamilliyi" (1985), "Ədəbi üfüqlər" (1985) kimi sanballı kitabların müəllifidir.

Yorulmaq bilməyən alim Y.V.Qarayev "Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları" problemi üzrə əlaqələndirmə şurasının sədr müavini, Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun elmi şurasının sədr müavini, Memarlıq və İncəsənət İnstitutu elmi şurasının, Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsi redaksiya şurasının, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin, Mədəniyyət Nazirliyi bədii şurasının, "Yazıçı" nəşriyyatı redaksiya şurasının, "Ulduz" jurnalı redaksiya heyətinin, "Bilik" cəmiyyəti rəyasət heyətinin üzvü kimi ictimai vəzifələri də yerinə yetirirdi.

Y.Qarayev həm də gözəl tənqidçi idi. O, 20 ildən çox Yazıçılar Birliyində tənqid şöbəsinə başçılıq etmişdir. Y.Qarayev respublikamızda ədəbiyyatşünas alimlərin yetişməsində fəal iştirak etmiş, onun rəhbərliyi ilə 18 nəfər elmlər namizədi alimlik dərəcəsi almışdır. Professor Y.V.Qarayev 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Y.V.Qarayev 2004-cü ildə Bakıda vəfat etmişdir.

ŞƏKİNİN TANINMIŞ DİLÇİ ALİMLƏRİ

1. Abdullayeva Nabat Cumay qızı - elmlər doktoru
2. Adilov Məmməd Musa oğlu - elmlər namizədi
3. Alxasov Kamil Kamal oğlu - elmlər namizədi
4. Alxasov Yaşar Kamil oğlu - elmlər namizədi
5. Cəfərova Bahar Cumay qızı - elmlər namizədi
6. Əfəndiyeva Türkan Əliəşrəf qızı - elmlər doktoru
7. Xalıqov Fikrət Ramazan oğlu - elmlər doktoru
8. Mahmudova Rəna Dursunəli qızı - elmlər namizədi

Bu alimlərin həyat və yaradıcılıqları Ələfsər Məmmədov, Fikrət Xalıqovun "Şəki - alim və ziyalılar" (Bakı, 2002) kitabında geniş işıqlandırılıb.

ZƏKA QALİB GƏLƏCƏK

XALİSƏQARI NƏSLİNİN QOL-BUDAQLARI

"O kəsə deyirəm daim bəxtiyar,
Səpdiyi toxumdan görə elə bar
Ki, dünya durduqca heç pozulmaya".
Nizami Gəncəvi

XVIII əsrin ortalarında Şəkidə Xalisə xanım adlı şair yaşamışdır. O, aşıqvarı şeirlər yazmış, özünə Xalisə Qarı təxəllüsünü götürmüşdür. Bu nəsildən olan adamlardan çoxu sonradan Xalisə qarı familiyasını qəbul etmişlər - yəni Xalisə qarının övladları.

Folklor bilicisi olan Xalisə qarı məktəbdarlıq etmiş və şəxsi kitabxana yaratmaqla məşğul olmuşdur. O, Pir Məhəmmədin anası idi. Pir Məhəmməd Şəki şəhərində ipək kombinatının yaxınlığındakı qəbiristanlıqda dəfn edilib. Qəbiristanlıq şəkililərin tanınmış ziyarətgahıdır. Buraya "Məhəmməd Əfəndi" ziyarətgahı da deyirlər. Bir növ fəxri xiyabandır. tanınmış adamları indi də həmin qəbiristanlıqda dəfn edirlər. Şəkidə gözəl bir adət var: toy mərasimində bəylə gəlin əvvəlcə maşınla həmin ziyarətgaha gedir, onlara orada xeyir-dua verirlər və sonra toy məclisi başlanır.

Haqqında danışmaq istədiyimiz mətnşünas alim Şəmsəddin Əbdülğəni Əfəndi Nəzir Nüxəvi Kəmaləddin Məhəmməd Əfəndi oğlu Xalisəqarızadə 1817-ci ildə Nuxa şəhərində Qışlaq məhəlləsində anadan olmuşdur. Əbdülğəni Əfəndi Pir Məhəmmədin nəvəsi, Xalisə qarının nəticəsidir. Əbdülğəni Əfəndi ilk təhsilini atası Kəmaləddin Məhəmməd Əfəndidən almışdır. O, oğluna kiçik yaşlarından Şərq dillərini mükəmməl öyrətmişdi. Əbdülğəni Əfəndi sonra təhsilini Nuxanın Dabbaqxana hissəsindəki Ağməsciddə (1833-1835) Abdulla Əfəndi Axundzadə,

Sədrəddin bəy Nüxəvi və Əlican bəy Nüxəvinin xüsusi məktəblərində davam etdirmişdir. O, 1837-1938-ci illərdə Şəkinin Göynük kəndindən olan Məhəmməd Əfəndinin oğlu Əhməd Əfəndidən də təhsil almışdır. Əbdülğəni Əfəndi 1852-ci ilin mart ayında - Novruz bayramında Şəkinin Qışlaq məhəlləsindən Qalaüstü məhəlləsinə təzə ikimərtəbəli evə köçür, şəxsi kitabxanasını da bu evdə yerləşdirir və 28 il bu evdə yaşayır.

O, 1872-ci ilin dekabr ayından 1873-cü ilin iyun ayınadək Şərq ölkələrində səyahətdə olmuş, qayıdarkən Şəkiyə Şərq alimlərinin çoxlu əlyazmasını və qədim kitablar gətirmişdir. Əbdülğəni Nüxəvidə mətnşünaslıq və kitabşünaslığa rəğbət məktəbdə oxuyarkən İbrahimxəlil Əfəndi Şirvaninin təlimi ilə başlamışdır. Əbdülğəni Əfəndi 36 il Şəkinin müxtəlif məktəb və mədrəsələrində müəllimlik etmiş, 1866-cı ildə Şəki mahalının baş qazısı olmuş və ömrünün axırına qədər bu vəzifədə işləmişdir. Rəşidbəy Əfəndiyev adına Şəki tarix-diyarşünaslıq muzeyinin direktoru F.Zamanov və muzeyin elmi işçisi O.İsmayılovanın məlumatlarına görə ("Şəki fəhləsi" qəzeti, 16.02.1988), Əbdülğəni Əfəndi Nüxəvi Xalisəqarızadənin qazılıq dəftəri və imzaladığı bir sıra müxtəlif rəsmi sənədlər Azərbaycan MEAnın Əlyazmaları İnstitutunda saxlanılır. O, müəllimlik və qazılıq fəaliyyətindən başqa Şərq müəlliflərinin Azərbaycan, ərəb və fars dillərində yazdıqları elmi və bədii əsərləri tədqiq etmiş, XIX əsrdə Azərbaycanda mətnşünaslığın inkişafı sahəsində böyük xidmətlər göstərmişdir. Onun Azərbaycan əlyazma sahəsindəki fəaliyyəti təqdirəlayiqdir. Kamil bir şərqşünas, mətnşünas, kitabşünas alim kimi şöhrət qazanmış Şəmsəddin Əbdülğəni Əfəndi Xalisəqarızadə 18 aprel 1879-cu ildə Şəkidə vəfat etmiş, babası Pir Məhəmmədin adı ilə bağlı olan qəbiristanlıqda basdırılmışdır.

Belə bir alimin unudulmaması və araşdırılması, onun xatirəsinin əbədiləşdirilməsi haqda qoy ziyalılarımız, hörmətli alimlərimiz, ədəbiyyatşünaslarımız fikirləşsinlər.

XALİSƏQARIZADƏ ƏBDÜLQƏNİ ƏFƏNDİNİN NƏVƏLƏRİ

1. Qişlaqi Əhməd Nəbi Əfəndi

Məşhur Əbdülqəni Xalisəqarızadənin nəvəsidir. 1850-ci ildə ruhani ailəsində doğulub. 25 yaşında ikən Türkiyənin Bursa şəhərində ali ruhani məktəbində təhsil alıb. İstanbul şəhərində isə tamamlayıb. Ümumiyyətlə, 15 il ali ruhani təhsil almışdır. Türkiyədə Konya ali ruhani mədrəsəsində dərs demiş, fiqh, təfsir, şəriət elmlərinə böyük maraq göstərmiş, bu elmlərə çoxlu əsərlər həsr etmişdir. 1890-cı ildə Şəkiyə qayıdıb əmisi oğlu, böyük alim Nurməmməd Əfəndi İmamzadə ilə birlikdə yerli gənclərin maariflənməsində böyük əmək sərf etmişdir. Əvvəlcə onu Qişlaq məscidinin, sonralar "Yuxarı məscid" adlı Cümə məscidinin imamı təyin etmişlər. Bu vəzifə ilə yanaşı, o, Şəkidə "Darüs-Süəda" adlı mədrəsə açmışdır. Bu mədrəsə Şəkinin "Otağ eşiyi" adlanan məhəlləsində yerləşmişdi. Buraya təkcə bu məhəllənin gəncləri yox, həmçinin ətraf məhəllələrdən və hətta Göynük, Baş Zəyzid, Kiş və s. kəndlərdən tələbələr gələrdilər. Maarifçilik fəaliyyəti ilə yanaşı, Əhməd Əfəndi İlahiyyat elmini də inkişaf etdirirdi. Bu sahədə onun 100-dən artıq elmi əsəri olub. Əsərlərin taleyi çox faciəli olub, çoxusu qırmızı ordu əsgərləri tərəfindən mədrəsələr dağıdılanda yandırılıb. Buna baxmayaraq, professor Ə.Dəmirçizadənin sayəsində bir neçə qiymətli əsər xilas edilmişdir. Hazırda bu əsərlər Azərbaycan MEA Əlyazmalar İnstitutunda, Sankt-Peterburqda Ermitaj müzeyinin Şərq əlyazmaları fondunda saxlanmaqdadır.

Əhməd Əfəndinin adı Şəki mahalında bir müdrik ruhani, müqəddəs şəxsiyyət kimi xatırlanmaqdadır. Bu el ağsaqqalı dərin zəka sahibi, şəriət alimi kimi bir çox münaqişəli məsələlərin həllində, aradan qaldırılmasında iştirak etmiş, qan tökülməyin qarşısını almışdır. Əmlak iddiaları, torpaq münaqişələri, vərəsəlik haqları, qadın hüquqları, yetim hamiliyi və s. şəriət qanunlarını Əhməd Əfəndi düzgün şərh edib hamını razı salırdı. Sovet Hakimiyyəti dövründə belə müdrik şəxsiyyətə qiymət verilməmədi, onun əmlakı müsadirə edildi və Şəkidə 1930-cu ildə baş verən üsyanın əsas iştirakçısı və havadarı kimi uydurma ittihamla 80 yaşlı ziyalı əvvəlcə Şəki qalasında, sonra isə Bayıl həbsxanasında dustaq edildi, 1935-ci ildə səhhətinin kəskin şəkildə pozulması səbəbindən onu şərti azad etdilər. Ancaq bu əziyyətlərə dözə bilməyən alim-ağsaqqal azadlığın dadını cəmi iki ay hiss edə bildi və 1935-ci ildə dünyasını dəyişdi.

2. İmamzadə Nurməhəmməd Əfəndi Hacı Abdulla Əfəndi oğlu.

Nurməhəmməd Əfəndi 1869-cu ildə Şəkinin Qışlaq hissəsində anadan olub, sonralar isə ailəsi şəhərin Yuxarıbaş məhəlləsinə köçüb, burada yurd salıblar. Nurməhəmməd Əfəndi Azərbaycan ədəbiyyatı və tarixşünaslığında görkəmli xidmətləri olan Xali qarının ulu nəvəsi, Əbdülqəni Xalisəqarızadənin isə nəvəsidir. Atası Hacı Abdulla Əfəndi zamanının ruhani ziyalılarından olduğundan uşaq ikən balaca Nurməhəmmədi mədrəsəyə qoyub. Bu otaqlardan birində qızlar, o birində isə oğlanlar Qurani-Kərim dərsi, ərəb, fars dillərini, şəriət qanunlarını öyrənirdilər. Nurməhəmmədin atası Hacı Abdulla da burada dərs deyərmiş. Nurməhəmməd burada ərəb, fars, türk dillərini öyrənib, Qurani-Kərimə xüsusi həvəslə yiyələnərmiş. 15 yaşınadək Şəkidə təhsil alıb, sonralar oxumaq üçün Türkiyəyə və Misirə getmişdi. Türkiyədə Bursa və Konyadakı ali ruhani məktəblərində təhsilini davam etdirib, yaxşı oxuduğuna görə Misirə "əl-Əzhər" Universitetinə göndərilmişdi. Ruhani təhsilini tamamlayandan sonra o, öz vətəni Şəkiyə qayıtmış və 1881-ci ildə burada birinci Cümə məscidinin imamı təyin edilmişdir.

Bu vəzifə ilə yanaşı, o, fiqh, şəriət, dilçilik (ərəb və fars dilləri), fəlsəfə və s. bu kimi elmlər sahəsində yüzdən artıq əsər

yazmışdır. Onun bəzi əsərləri Azərbaycan MEA-nın Əlyazmalar İnstitutunda saxlanmaqdadır. Dövrünün və mahalın görkəmli ziyalıları ilə yaxından tanış idi. O, öz əmisi oğlu Əhməd Əfəndi Hacı Abdürrəhim Əfəndi oğlu Qışlaqi ilə yanaşı, Şəkinin ən mötəbər və inamlı şəxsiyyətlərindən idi. İkisi də eyni vaxtda Şəki Cümə məscidinin imamı, bir sıra mədrəsələrin müəllimləri idilər. Onlar yaxın dost və məsləkdaş olmuşlar. Təsadüfi deyil ki, Nurməhəmməd Əfəndi Əhməd Əfəndinin qızı Səidəni öz kiçik qardaşı Şakir Əfəndi üçün həyat yoldaşı seçmişdir.

Nurməhəmməd Əfəndi öz övladlarını da yüksək savad sahibi etmişdir. Qızı Əfşan o qədər biliyə malik idi ki, ona hətta 15 yaşında mədrəsədə dərs öyrətmək işini tapşırmışdılar. Sonralar Əfşan xanım məşhur Məmmədəmin Şəkinskinin həyat yoldaşı olmuş, onların oğlu Əkrəm Şəkinski uzun müddət Respublika Geologiya naziri işləmiş, elə bu vəzifədə də həyatını başa vurmuşdur. Hazırda Nurməhəmməd Əfəndinin Bakıda nəvələri - Səltənət və Hikmət Şəkinskilər yaşamaq dadırlar.

Nurməhəmməd Əfəndi 1930-cu ildə vəfat etmişdir.

LAYİQLİ ZİYALI NƏSLİ

Öz Vətəninə mənsub olmayan şəxs,
insanlığa da mənsub deyildir.
V.Q.BELİNSKİ

Qüdrətli çaylar öz başlanğıclarından, qollu-budaqlı ağaclar öz köklərindən ayrıla bilmədikləri kimi, xalqımızın bugünkü irəliləyişi də onun keçmişindən ayrı təsəvvür olunmur.

Azərbaycanda elə tanınmış nəsillər, köklər var ki, onlar doğma yurdumuza əvəzsiz görkəmli şəxsiyyətlər vermişlər. Belə nəsillərdən Qayıbovları, Mehmandarovları, Şıxlinskiləri, Vəkilovları, Hacıbəyovları, Talışinskiləri və qeyrilərini göstərmək olar. Şəki ziyalı nəsillərindən isə Əfəndiyevlər, Hacıyevlər

məşhurdur. Əfəndiyevlər nəslinin kötüyü Rəşidbəy Əfəndiyevdən başlayır.

RƏŞİDBƏY ƏFƏNDİYEV

Rəşidbəy Əfəndiyev.

XIX əsrin sonu, XX əsrin əvvəllərində maarif və mədəniyyət tariximizdə görkəmli yer tutan azərbaycanlı ziyalılardan biri Rəşidbəy Əfəndiyev olmuşdur. R.Əfəndiyev 80 illik ömrünün 60 ilini xalqın maariflənməsinə sərf etmiş və təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziya və Orta Asiyada görkəmli pedaqoq, dramaturq, şair, tərcüməçi, etnoqraf və publisist kimi tanınmışdır.

Rəşidbəy İsmayıl Əfəndi oğlu Əfəndiyev 1863-cü ildə Nuxa şəhərində ruhani ailəsində anadan olmuşdur. İsmayıl Əfəndi 7 yaşlı Rəşidi Cümə məscidi yanındakı molla məktəbinə qoyur, evdə isə özü oğluna əlifba, lüğət, ərəb səhv-nəhvi və məntiq kitablarından dərs verər, Hafizin külliyyatını, Sədinin "Gülüstan" və "Büstan", Füzulinin "Leyli və Məcnun" əsərlərini oxudub əzbərlətdirərmiş. İsmayıl Əfəndi dindar olmasına baxmayaraq, oğlunu rusca oxutmaq fikrinə düşür və onu 1976-cı ildə şəhər rus məktəbinə qoyur. O, günün birinci yarısında rus məktəbində, ikinci yarısında isə molla məktəbində oxuyur.

İsmayıl Əfəndi oğlunun təhsilini davam etdirmək istəsə də, maddi vəziyyətinin ağırlığı onu susmağa məcbur edir.

Rəşid M.F.Axundovun Nuxada yaşayan xalası qızı Fatmanisə xanımdan xahiş edir ki, onu Tiflisə, xalası oğlunun yanına aparsın və onunla tanış etsin. Fatmanisə xanım onun xahişini yerinə yetirir. Rəşid həmin hadisəni tərcümeyi-halında belə xatırlayır: "Gedib Nuxada Fatmanisə xanıma yalvardım ki, məni

Mirzə Fətəlinin yanına aparsın. Tikdiyim skaterti Fatmanisə xanıma o qiymətə satdım ki, məni Tiflisə aparıb-gətirsin. Bu minval ilə 1878-ci ildə Mirzə Fətəli ilə görüşmək mənə müyəssər oldu..."

Mirzə Fətəli Rəşidin hərbi məktəbə girməsinə razı olmur. Bu barədə o, öz tərcümeyi-halında yazır: "O, mənə voyennaya şkolaya girməyi məsləhət görmədi. Ancaq dedi ki, qardaşoğlu, gələn il Qoridə yalnız müsəlmanlardan ötrü tatarski otdeleni açılır. O məktəb sənə çox münasibdir, oraya mən səni indidən kandidat yazdıraram. Sonra mənə öz komediyalarından bir nüsxə verdi və dedi ki, onun hansı biri xoşunuza gəlsə, orada yığışıb səhnəyi-tamaşaya qoyarsınız".

1879-cu ildə Zaqafqaziya Müəllimlər Seminariyasında tatar şöbəsi açılır. Şöbənin müfəttişi Aleksey Osipoviç Çernyayevski tələbə toplamaq üçün quberniyaların qəza mərkəzlərinə göndərilir. Çernyayevski Nuxaya gələrkən Rəşidi axtarır. Çünki M.F.Axundov verdiyi sözə əməl edərək, hələ ölməmişdən qabaq Rəşidin adını seminariyada qeyd etdirmişdi. Çernyayevski Nuxadan onunla birlikdə 5 nəfər tələbə seçir, Rəşid 1879-cu ildə imtahan verərək Qori Seminariyasının birinci əsas sinfinə daxil olur.

1882-ci ildə seminariyanı bitirir və Qutqaşendə açılan ikisinifli ibtidai xalq məktəbinə müəllim təyin olunur və orada 8 il işləyir. O, 1890-cı ildə yeni məktəb təşkil etmək üçün Xaçmaza göndərilir və iki il də orada müdir işləyir.

Rəşidbəy 1892-ci ildə Tiflisə köçür, orada müəllimliklə məşğul olur, Zaqafqaziya müsəlmanlarının ruhani idarəsində katib müavini olur.

Rəşidbəy müəllimlər institutunu qurtarmadığından şəhər məktəblərində dərs vermək hüququna malik deyildi. Ona görə də Tiflisdə işləyə-işləyə Aleksandrovski Müəllimlər İnstitutunda oxuyur. 1890-cı ildə oranı bitirib, Qori Müəllimlər Seminariyasına müəllim təyin olunur. Rəşidbəy Qori Seminariyasında 16 il tatar (Azərbaycan) dili, elmi-ilahi və bəzən də hesab dərsi

vermiş, azərbaycanlı tələbələrin pedaqoji təcrübə dərslərinə rəhbərlik etmişdir. O, 1910-cu ildən 1916-cı ilə kimi gizli səsvermə yolu ilə seminariyanın pedaqoji şurasının katibi seçilmişdir.

1916-cı ildə Rəşidbəy müəllimlər seminariyasından azad edilərək Yerevan quberniyasının müsəlman məktəbləri müfəttişi vəzifəsinə təyin olunur. O, Bakıda, Yerevanda, Naxçıvanda, Nuxada, Kuban vilayətinin tatarlar yaşayan Tiberda rayonunda və Qaraçay vilayətində qısamüddətli müəllimlər kursları təşkil edir, yeni açılası ibtidai xalq məktəbləri üçün müəllimlər hazırlayırdı.

Rəşidbəy 1917-ci ilin noyabrında müəllimlər kursu açmaq üçün Naxçıvana göndərilir və bu vəzifənin də öhdəsindən layiqincə gəlir. 1918-ci ildə Bakıya qayıdan Rəşidbəy Bakı Müəllimlər Seminariyasını təşkil etmiş və ona direktor təyin olunmuşdur.

Rəşidbəy 1920-ci ilin noyabrında Nuxada darülmüəllimin (kişi seminariyası) və darülmüəllimat (qadın seminariyası) təşkil edir. 1933-cü ilə kimi həmin seminariyada pedaqogika və rus dilindən dərs demiş, həyatının son illərinə kimi SSRİ EA-nın Azərbaycan filialında işləmişdir. Azərbaycanın görkəmli maarifpərvər alimi Rəşidbəy İsmayıl Əfəndi oğlu Əfəndiyev 31 avqust 1942-ci ildə Şəkidə vəfat etmişdir.

O, hərtərəfli inkişaf etmiş, geniş dünyagörüşlü həqiqi alimziyalı olmuşdur. Rəşidbəy həm də aktyor idi. Onda bu həvəsi dahi sənətkar M.F.Axundov oyatmış, onun ölməz komediyaları bu həvəsə təkan vermişdir. 1879-cu ildən başlayaraq, arası kəsilmədən 4 il Zaqafqaziya Müəllimlər Seminariyası səhnəsində aktyorluq edən Rəşidbəy tamaşaya qoyulan əsərlərin çoxunun quruluşunu özü vermişdir. Çox nadir hallarda rejissor, həm də aktyor olur. O, hələ 1879-du ildə Nuxa şəhərində "Hacı Qara" komediyasını tamaşaya qoymuşdur.

Rəşidbəy dramaturq idi. Onun bu sahədəki fəaliyyəti diqqəti cəlb edir. Azərbaycan dramaturgiya tarixində onun adı Ə.Haq-

Rəşidbəyin həyat yoldaşı.

verdiyev, C.Məmmədquluzadə ilə yanaşı çəkilir. M.F.Axundov kimi komediya janrına daha çox meyil etmişdir. Onun ilk dram əsəri "Qan ocağı"dır. Bu əsərində o, cəhalətə, nadanlığa qarşı çıxış etmişdir. Rəşidbəyin ikinci dram əsəri "Qonşu qonşu olsa, kor qız ərə gedər" komediyasıdır. Bu məzhəkədə o, elçilik, evlənmək, toy adətlərimizdən bəhs edir.

Onun bədii əsərlərindən "Saqqalın kəraməti", "Arvad məsələsi" və s. göstərmək olar. Rəşidbəy bir yazıçı kimi "Şaki" təxəllüsü ilə də tanınmışdır. Rəşidbəy maarifçi-alim idi. Onu Azərbaycanın Makarenkosu adlandırsaq, heç də səhv etmərik. Təkcə onu qeyd etmək kifayətdir ki, Rəşidbəy hələ Müəllimlər Seminariyasının üçüncü kursunda oxuyarkən "Həndəsə ilə hesab məsələləri məcmuəsi" kitabını yazmış, "Həndəsə" kitabını rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir. 19 yaşlı tələbə Rəşidbəyin bu kitabları 1882-ci ildə Petroqradda təşkil olunmuş Ümumrusiya sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət sərgisində nümayiş etdirilmiş, Zaqafqaziya Müəllimlər Seminariyası bu əsərlərə görə ikinci dərəcəli diplom və gümüş medalla mükafatlandırılmışdır.

Görkəmli alim "Uşaq bağçası" (1898), "Bəsirət-ul-ətfal" (1901) kimi ilk dərsliklərin də müəllifidir. Bu dərsliklərdən birincisi yeni əlifba kitabı kimi Azərbaycan məktəblərinin inkişafında mühüm rol oynamışdır. "Bəsirət ul-ətfal" dərsliyi isə Azərbaycan dilində ilk ədəbiyyat kitabı idi.

Maarifpərvər alim Azərbaycan qadınlarının təhsilinin fəal təşkilatçısı olmuş, əhalini bu işdən ötrü vəsait toplamağa çağırmış, bu haqda bir çox məqalələr yazmışdır.

Rəşidbəy ədəbiyyat tariximizdə bir tərcüməçi kimi də tanınmışdır. O, rus klassiklərindən, dahi Firdovsinin "Şahnamə"sindən ("Rüstəm və Söhrab" hekayəti) tərcümələr etmişdir.

Rəşidbəy Azərbaycanın elm tarixində həm də etnoqraf alim kimi tanınmışdır. O, Azərbaycan xalq əfsanə və rəvayətlərini, adət və ənənələrini, xalq sənətkarlığı və təbabətinə aid topladığı məlumatları "Sbornik materialov dlya opisaniya mestnostey i plemyon Kafkaza" məcmuəsində çap etdirmişdir.

Rəşidbəy 1929-cu ildə "Nuxa qəzasındakı Dəhnələr və Suçma kəndlərinin etnoqrafiyası, iqtisadiyyatı və Trud-Sarıca düzündəki faydalı qazıntılar", 1930-cu ildə "Şəki haqqında bir neçə qeydlər", 1932-ci ildə "Şəki mahalına məxsus ipəkçilik haqqında tarixi materiallar" və 1934-cü ildə "Nuxa şəhərində mövcud olan sənətkarlıq və peşəkarlıq barəsində tarixi məlumat" və s. etnoqrafik əsərlərini yazmışdır. O, 1924-cü ildə Azərbaycanın I ölkəşünaslıq qurultayına nümayəndə olmuş, Etnoqraf cəmiyyətinin Şəki şöbəsinə elmi katib seçilmişdir.

Rəşidbəy tariximizdə bir arxeoloq kimi də dərin iz buraxmışdır. Qafqaz Arxeologiya Komitəsi ilə səmərəli əməkdaşlıq edən Rəşidbəy "Qafqazın ərazi və qəbilələrini təsvir edən materiallar məcmuəsi"nin IX buraxılışında "Yelizavetpol quberniyası Nuxa qəzasında xalq təbabəti" (1887), XXXII buraxılışında "Qəbələ mahalı" (1902) məqalələrini çap etdirmişdir. Onun öz tələbələri ilə apardığı arxeoloji tədqiqatların Qəbələnin Qafqaz Albaniyasının ilk paytaxtı olmasının sübut edilməsində böyük əhəmiyyəti vardır. Dahi alimin Şəkinin Babaratma toponimi haqda da qiymətli tədqiqatları vardır. O, öz əsərlərində göstərir ki, üçüncü ərəb xəlifəsi Osmanın nəslindən olan Babaruten Şəki düzənliyinə gələrək burada məskən salmış və o dövrdən etibarən həmin yer Babaratma adlanır. Doğrudan, indi də Şəki və onun ətraf rayonlarında əhalinin ziyarət etdiyi "Babaratma" ziyarətgahında bir ərəbin dəfn edilməsi rəvayəti söylənilir.

Hörmətli alimin bu sahədəki fəaliyyətini onunla yekunlaşdırmaq olar ki, o, 1923-cü ildə yaradılan Azərbaycan Arxeologiya Komitəsinin üzvü və Nuxa şöbəsinin katibi seçilmişdir.

Əlbəttə, kiçik bir yazıda həqiqi azəri ziyalısı, maarifçi, yazıçı, dramaturq, aktyor, rejissor, tərcüməçi, müəllim, etnoqraf... alimin fəaliyyətini hərtərəfli araşdırmaq mümkün deyildir. Zaqafqaziyanın çox yerlərində yeni tipli məktəblər, seminariyalar təşkil edən, qızların oxumasına can yandıran fədakar maarifçinin adını Şəkidə bir küçəyə verməklə və evini "muzey"ə çevirməklə əbədiləşdirdik. Heç olmazsa, məktəblərdən birinə onun adı verilməyib, büstü qoyulmayıb. Bax budur, bizim keçmişimizə, elmimizə olan münasibətimiz. Yenə laqeydlik, biganəlik...

TANINMIŞ RİYAZİYYATÇI

Professor M. Əfəndiyev (ortada oturmuş), bacısı Nailə xanım (sağda ayaq üstə).

Bu ziyalı nəslinin ikinci nümayəndəsi Məmmədbəy Əfəndiyev 5 oktyabr 1887-ci ildə Şəkidə anadan olmuşdur. O, görkəmli maarifçi-alim Rəşidbəy Əfəndiyevin oğludur. Məmməd bəy 1919-cu ildə Peterburq Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmişdir. Məmməd bəy 1921-ci ildə Nuxa dürülmüəlliminin və darülmüllimatının təşkilində böyük əmək sərf etmişdir. Onun ilk müəllim kadrları hazırlayan ali pedaqoji kursların, ali pedaqoji institutunun təşkil olunmasında da böyük rolu olmuşdur. M.Əfəndiyev 1934-1936-cı illərdə Azərbaycan Pedaqoji İnstitutunda riyaziyyat elmləri fakültəsinin dekanı, 1935-1956-cı illərdə Azərbaycan Dövlət Universiteti Riyazi analiz kafedrasının müdiri işləmişdir. O, uzun müddət universitet nəzdində fəaliyyət göstərən Elmi Tədqiqat Fizika-Riyaziyyat İnstitutuna rəhbərlik etmişdir. M.Əfəndiyevin Azərbaycan dilində riyaziyyat terminləri yaradılmasında böyük xidmətləri olmuşdur. Onun hələ 1925-ci ildə ana dilində nəşr etdirdiyi riyaziyyat terminləri kitabı müasir riyaziyyat terminlərinin əsasını təşkil etmişdir. Ali

məktəblərimizdə ana dilində ali riyaziyyat kursunu ilk dəfə professor M.Əfəndiyev oxumuşdur. Onun tələbələr üçün ana dilində tərtib etdiyi müxtəlif dərs vəsaitləri riyaziyyatdan tədris ədəbiyyatımızı zənginləşdirmişdir. Professor Məmməd bəyin "Adi diferensial tənliklər" adlı sanballı, çox faydalı kitabı, riyaziyyatın tədrisi metodikası və tarixinə dair maraqlı elmi məqalələri respublikamızda riyazi təhsilin və riyaziyyat elminin inkişafında mühüm rol oynamışdır. Fərəhli haldır ki, respublikamızda, həmçinin Gürcüstan, Dağıstan və Orta Asiya respublikalarının orta və ali məktəblərində, elm müəssisələrində professor M.Əfəndiyevin yüzlərlə şagirdi fizika-riyaziyyat sahəsində çalışır. Gözəl alim, nadir pedaqoq, təvazökar insan, tanınmış riyaziyyatçı, professor (1945), Azərbaycanın əməkdar elm xadimi (1943) Məmməd bəy Rəşidbəy oğlu Əfəndiyev bir çox orden və medallarla təltif olunmuş, ona 1949-cu ildə professor, 1944-cü ildə əməkdar elm xadimi fəxri adı verilmiş, 1941-1956-cı illərdə Azərbaycan Riyaziyyat Cəmiyyətinin sədri olmuşdur.

M.Əfəndiyev 1 iyun 1977-ci ildə Bakıda vəfat etmişdir.

DAİM AXTARIŞDA...

Professor Məmmədbəy və qızları - sağda professor Fəridə, solda tibb elmləri namizədi Adilə Əfəndiyeva.

Bu ziyalı nəslinin tanınmış alim nümayəndələrindən biri də Rəşid bəyin nəvəsi Əfəndiyeva Fəridə Məmməd qızıdır. Fəridə xanım məşhur riyaziyyatçı alim, professor Məmməd bəyin böyük qızıdır. O, 1922-ci ildə Bakıda anadan olmuşdur. Fəridə xanımın Azərbaycan Dövlət Universitetində işləyən atası Məmməd bəy, Azərbaycan Dövlət Tibb İnstitutunun müəllimi olan anası Əfəndiyeva Zinaida Andreyevna öz doğma balalarında daim elmə həvəs meyli aşılayırdılar. Fəridə xanım 1948-ci ildə Azərbaycan

Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmişdir. Gənc həkimi respublikamızda aşkar edilməmiş müalicə ocaqları çox maraqlandırırdı. Təbabətin bu sahəsilə daha çox maraqlanan Fəridə xanım 1950-ci ildə Azərbaycan Elmi Tədqiqat Kurortologiya və Fiziki Üsullarla Müalicə İnstitutuna ordinator qəbul edilir. Həmin institutda beş il işlədikdən sonra Bakının Suraxanı rayonu buruq suları ilə ionofarezinin baş beyin qan damarları pozğunluqlarında müalicəvi əhəmiyyətindən bəhs edən namizədlik dissertasiyası müdafiə etdi. Əvvəl kiçik elmi işçi, baş elmi işçi, funksional diaqnostika şöbəsinin müdiri, institutun elmi katibi olmuş, sonralar sinir xəstəlikləri şöbəsində işləmişdir. Bu dövrlə Fəridə xanım Azərbaycanın Daşgil, Ərzani-Qlic, Güzdək, Axtarma-Qaradağ, Kiçik Pilpilə, İlanlı, Çarağan, Məlikçobanlı, Şorbulaq, Bahar, Babazənən, Xıdırlı, Qaynarca və s. vulkan palçıqlarının müalicəvi xüsusiyyətlərinin və insan orqanizminə təsirini tədqiq edib, apardığı elmi araşdırmalar əsasında doktorluq dissertasiyasını müdafiə etdi. Onun bu sahədəki elmi axtarışları və onların nəticələri monoqrafiya şəklində çap olunmuşdur: "Azərbaycanın müalicə palçıqlar" ("Elm" nəşriyyatı, 1971). Professor Əfəndiyevanın təklifilə Salyan xəstəxanasında Babazənən, Duvannı qəsəbəsinin 17 №-li Birləşmiş xəstəxanasında Ərzanni palçığı ilə müalicə şöbələri yaradılmışdır. Yuxarıda adlarını çəkdiyimiz vulkan palçıqlarından respublikamızın bir çox müalicə ocaqlarında geniş istifadə edilməkdədir. O, ilk dəfə Azərbaycan EA Geologiya İnstitutu ilə birlikdə vulkan palçıqlarının iki növ müalicə üsulunu təklif etmişdir; maye və toz şəklində işlədilən palçıqla müalicə. Fəridə xanım 100-dən çox elmi əsərin, iki monoqrafiyanın, 11-dən çox elmi broşüranın, metodik göstərişlərin, çoxlu elmi-kütləvi məqalənin müəllifidir. Azərbaycanın palçıq vulkanlarının tədqiqi respublikamızda tibbi coğrafiyanın öyrənilməsi sahəsində marağa səbəb olmuşdur. Məhz buna görə professor Əfəndiyeva 1962-ci ildə Azərbaycan Coğrafiya Cəmiyyəti Rəyasət Heyətinə üzv seçilmişdir. Professor Azərbaycan Elmi Tədqiqat Kurortologiya və Fiziki Üsullarla Müalicə İnstitutunda tibbi coğrafi-

yanın tədqiqi, mineral suların tərkibindəki mikroelementlərin, o cümlədən, bioloji aktiv mikroelement selenin öyrənilməsi ilə məşğuldur. O, eyni zamanda, EA Coğrafiya İnstitutu ilə palçıq mənbələrinə həsr olunmuş tibbi coğrafiya xəritəsi hazırlamışdır. Professor F.M.Əfəndiyevanın oğlu Qaşqay Çingiz Mirəli oğlu 1941-ci ildə anadan olmuş, geologiya-minerologiya elmləri doktorudur.

Məmməd bəyin ikinci qızı Adilə Əfəndiyeva 1926-cı ildə anadan olmuş, həkim-ginekoloqdur. Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutu mama-ginekologiya kafedrasında assistent işləyir. Tibb elmləri namizədi (1967) Adilə xanım 38-dən çox elmi işin müəllifidir.

Yurdumuzun layiqli ziyalı nəsli Əfəndiyevlər haqda söylənilənləri professor Məmməd bəyin qızı Fəridə xanıma dediyi sözlərlə yekunlaşdırmaq istərdim: "...İnsan daim axtarır, qızım. Sən də axtar. Ömür bizə bunun üçün verilib, qızım. Əvvəl özünü kəşf et, gör kimsən. Nəyə qadirsən. Əgər biri həyatı boyu özünü kəşf etməyibsə, demək, o heç anadan olmayıb. Bununla da iş qurtarmır. Hələ sən kiməsə özünü axtarmaqda kömək etməlisən, bələdçi olmalısan".

ABDULLABƏY ƏFƏNDİZADƏ

Azərbaycanın demokrat pedaqoqu və yazıçısı Abdullabəy Əfəndizadə 1873-cü ildə Şəkidə anadan olmuşdur.

1899-cu ildə altıillik təhsildən sonra Tiflisdə Müəllimlər İnstitutunu bitirən Abdullabəy Əfəndizadə şəhər məktəblərində müəllimlik etmək hüququ alaraq Bakıya gəlir, rus-Azərbaycan məktəbində pedaqoxi fəaliyyətə başlayır. Müəllimlik və təşkilatçılıq bacarığını nəzərə alaraq, 1904-cü ildə o, dördüncü şəhər məktəbinə müdir təyin edilir. 1906-cı il mayın 23-də Azərbaycan müəllimlərinin Krımda keçirilən qurultayına nümayəndə göndərilən A.Əfəndizadə müsəlman müəllimlərinin təcrübəsini öyrənməyi qarşısına əsas məqsəd qoyur.

1911-ci ildən başlayaraq o, Qazax, Gəncə, Ağdam, Nuxa

(indiki Şəki) şəhərlərində qısamüddətli pedaqoji kursların təşkil olunmasında və işlərə rəhbərlik edilməsində böyük rol oynayır. Daha sonralar isə türk dilində Nuxada 4, Şamaxıda 1, Bakıda 5 pedaqoji kursa rəhbərlik edir. Bu işlər o dövrdə maarif sahəsində sensasiya doğuran məsələ idi.

Abdullabəyin Nuxada işlədiyi məktəbdə cəmisi on şagird təhsil alırdı. Bu vəziyyət qeyrətli müəllimi ciddi narahat edirdi. O, şəhərin mərkəzində Yuxarı Qurcanaçayın sahilində yerləşən usta Əbdürrəhman Hacımahmud oğlunun şəxsi binasını dövlət hesabına on il müddətinə icarəyə götürdü. Məktəbi ora köçürdü. Bundan sonra az vaxtda şagirdlərin sayı təxminən 200 nəfərə çatdı. Zəyzid, Göynük, Calud və Nuxaətrafı başqa kəndlərdən, hətta o vaxtkı Qutqaşendən də valideynlər uşaqlarını bu məktəbdə oxutdururdular. 1913-cü ildə isə Nuxada qız məktəbinin açılmasına nail oldu. Abdullabəy, ümumiyyətlə, Nuxada müəllimlik etdiyi vaxtlarda pedaqoji sahədə çox iş gördü. 1914-cü ilin sentyabrında gimnaziyanın açılışı da onun fəaliyyətidir.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. A.Əfəndizadə siyasətə qoşuldu. O, həmin il dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinə gizli səsvermə yolu ilə Şəkidən üzv seçildi. 1919-cu il yanvarın əvvəllərində Azərbaycan parlamentində Abdullabəy Əfəndizadə yeni bir siyasi partiyanın - "Əhrar" partiyasının yaranmasında fəal iştirak etdi. ("Azərbaycan" qəzeti, № 18, 14, yanvar, 1919-cu il). Beləliklə, Azərbaycan parlamentində yeni fraksiyanın əsası qoyuldu. Yeni yaranmış "Əhrar" partiyasının proqramı "Müsavat"ın məramnaməsinə daha yaxın idi.

Azərbaycan Respublikası hökumətinin göstərişi ilə 1919-cu ilin martında latın əlifbasına keçmək haqqında hazırlıq başlandı və xüsusi komissiya yaradıldı ("Azərbaycan" qəzeti, № 68, mart 1919-cu il); Komissiya az bir vaxtda gərgin işlədikdən sonra parlamentə bir neçə layihə təqdim etdi. A.Əfəndizadənin layihəsi bəyənilib təsdiq olundu. Onun "Son türk əlifbası" kitabı

həmin ildə çap edildi. Latın əlifbası ilə yazılmış bu kitabın girişində müəllif latına keçməyin zəruri olduğundan söhbət açmışdır.

Ə.Əfəndizadə, xüsusilə uşaqlar üçün şeirlər, hekayələr yazmış, bir sıra tərcümələr etmişdir.

1922-ci ildə Azərbaycan Pedaqoji İnstitutunda müəllimlik edən A.Əfəndizadə məntiqdən dərs demişdir. Bu illərdə o, ali məktəb tələbələri üçün "Fənni tərbiyə" adlı dərslik yazmışdır. Bu kitab uzun müddət tələbələrin stolüstü kitabı olmuşdur.

Yeri gəlmişkən qeyd edək ki, A.Əfəndizadə Azərbaycanın tanınmış yazıçı-dramaturqu, pedaqoqu Rəşidbəy Əfəndizadənin və görkəmli mütfi Hüseyn Əfəndinin qardaşıdır.

Oğlu Ziya Əfəndizadə 55 illik ömrünün 36 ilini müəllimliyə həsr etmiş, Şəki, Ağdaş, Zaqatala pedaqoji məktəblərində, Ağdam, Gəncə ali məktəblərində riyaziyyatdan dərs demişdir. Bu məcmuədə haqqında söhbət gedən şair-təmsilçi Hikmət Ziya Abdullabəyin nəvəsidir.

Müəllim, yazıçı, demokrat, ictimai xadim Abdullabəy Əfəndizadə 1926-cı ildə Nuxada vəfat etmişdir

UŞAQLARIN SEVİMLİSİ

Müəllimlik ağırdır,
amma pak və müqəddəs xidmətdir.
Firidun bəy Köçərli.

Respublikanın əməkdar müəllimi (1943), biologiya elmləri doktoru (1966), professor (1967), əməkdar elm xadimi (1969), Bakı Dövlət Universiteti Genetika və darvinizm kafedrasının müdiri M.A.Axundov fəaliyyətə adi kənd müəllimliyindən başlamışdır. Hələ 1925-ci ildə keçirilmiş Azərbaycan müəllimlərinin I qurultayının iştirakçısı olmuşdur.

Mirəli müəllimin Azərbaycanda təhsilin vəziyyəti haqda olan məlumatlarından: "Azərbaycanda inqilabdan əvvəl, yəni



Mirəli Axundov.

1914-cü ildə bütün tiplərdən olan 976 tədris müəssisəsi fəaliyyət göstərirdi. Bunların əksəriyyəti birillik, üçillik ibtidai məktəblər idi. Orta məktəblərdə təhsil alanların təxminən 30 faizini azərbaycanlılar təşkil edirdi. Onların da içərisində vur-tut iki min nəfərə yaxın qız var idi. 1925-ci ildə isə 1400-dək birinci dərəcəli, 50-dək ikinci dərəcəli məktəb vardı. Onlarda 150 mindən çox şagird təhsil alırdı. Yeddiillik məktəblər təşkil olunmağa başlamışdı. İlk belə məktəb 1924-25-ci illərdə açılmışdı" ("Azərbaycan məktəbi", № 6, 1987, səh.37).

1902-ci ildə Şəkidə anadan olmuş Mirəli Abdulla oğlu Axundov ilk təhsilini Şəkidə almışdır.

Mirəli müəllimin uşaqlıq xatirələrindən: "Yaxşı oxuduğuma görə 2-ci sinifdən birbaşa 4-cü sinfə keçirilmişəm. Bu hadisə mənim təhsildə ilk uğurlarımdan olduğuna görə elmi sahəyə ürəkdən vuruldum. 1919-cu ildə Qori Seminariyasının məzunu Rəşidbəy Əfəndiyevin rəhbərliyi ilə Bakıda seminariya təşkil edildi. 8 nəfər həmin seminariyaya qəbul olunduq. Bizə Azərbaycanın görkəmli maarifçiləri H.Cavid, P.Qasımov, C.Cəbrayılbəyli, A.Əmirov və b. dərs deyirdilər. 1923-cü ildə seminariyanı əla qiymətlərlə başa vurub Zaqatala rayonunda pedaqoji fəaliyyətə başladım... O vaxtlar mən Zaqatala şəhərində fəaliyyət göstərən yeganə ibtidai məktəbdə müdir işləyirdim. Dörd sinifli ibtidai məktəbi, sonra isə Bakıda yeni açılmış Müəllimlər Seminariyasını bitirmiş və təyinatımı bura almışdım. Məktəbdə ixtisas təhsili alan, başqa sözlə desək, attestatlı müəllim yalnız mən idim" ("Azərbaycan məktəbi" jurnalı, № 6, 1987, səh.36).

Mirəli müəllim Zaqatala rayonunda ədəbiyyat, tarix, coğrafiya fənlərini tədris etmişdir. 1926-cı ildə təhsilini davam etdirmək məqsədilə Bakıya qayıdır, BDU-nun təbiət fakültəsinin biologiya şöbəsinə daxil olur. 1930-cu ildə universiteti əla qiymətlərlə bitirib təyinatla yenidən Zaqatala rayonundakı Pedaqoji Texnikuma müəllim göndərilir. O, müəllimliklə bərabər, genetika sahəsinə aid ədəbiyyatları araşdırır və bu sahədəki yenilikləri öyrənir. Nəhayət, Moskvada genetika üzrə aspiranturaya qəbul olan Mirəli müəllim 1935-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurub namizədlik dissertasiyası müdafiə edir. 1935-ci ildən Bakı Dövlət Universitetinin genetika kafedrasında işləməyə başlayır.

Professor M.Axundovun genetika elmi haqda mülahizələrindən: "...genetika elmi bir vaxtlar "naşı alimlər" tərəfindən bəyənilmirdi, hətta "yalançı elm" kimi qələmə verilirdi... Akademik Budinov deyirdi ki, genetika biologiya elminin açarıdır. Genetika kafedrasını 1937-ci ildə mən açmışam... Bu kafedranın təşkil olunması böyük elmi qələbə idi".

Professor M.Axundov universitetdə işləməklə bərabər məktəblərlə sıx əlaqə saxlayır, şagirdlərin qonağı olur, onlara dəyərli məsləhətlər verir. Heyvanat aləminə aid televizorda 20 ildən artıq apardığı "Təbiəti sevənlər" verilişi onu nəinki uşaqların, hətta böyüklərin sevimlisinə çevirmişdir.

Mirəli müəllimin dediklərindən: "...Mən yaşamağı fəaliyyətdə, həmişə axtarışlarda olmaqda, bildiklərimi gənc nəslə öyrətməkdə görürəm. Uşaqlarla görüşlərim, daim onların əhatəsində olmağım isə sanki məni cavanlaşdırır, yeni-yeni işlərə ruhlandırır. Müəllimlərlə daim əlaqə saxlamağa çalışmağım, imkan daxilində onlara məsləhət verməyim, kömək göstərməyim isə peşəmin xüsusiyyətlərindən irəli gəlir. Mən həm də onlardan öyrənirəm. Axı, müəllim başqalarına öyrətdiyi kimi, özü də daim öyrənməlidir". ("Azərbaycan məktəbi", № 6, 1987, səh.38) .

Mirəli müəllim 1937-ci ildə universitetdə ilk Genetika və darvinizm kafedrasını təşkil edəndə, onun nəzdində Zaqafqaziyada yeganə olan "Təkamül təlimi" muzeyinin də bünövrəsini qoymuş, Azərbaycan dilində genetika və darvinizm fənlərindən

ilk dərsliklər yazmışdır. O, bir sıra dərs vəsaitinin - "Darvin təliminin əsasları", "Yer üzərində həyatın mənşəyi və inkişafı", "İnsanın mənşəyi", "Faktlar milyoneri Ç.Darvin", "Alman faşizminin irqçiliyi və onun norması" və s. müəllifidir.

İlk dəfə olaraq Azərbaycanın ev quşlarının növ və cins tərkibini genetik baxımdan tədqiq etmiş və bu sahədə Azərbaycan MEA-nın Zoologiya İnstitutunun elmi əsərlərinin bir cildində geniş çıxış etmişdir. M.Axundov bioloji maddələrin müxtəlif heyvanların böyümə və inkişafına təsirini tədqiq etmiş və bu sahədə 12 elmi məqalə yazmışdır. XI-XIX əsrlərdə Azərbaycanda bioloji fikirlərin inkişafı sahəsində tədqiqatlar aparmışdır: "Zərdabinin təbiətə dair əsərləri", "Azərbaycan klassikləri təbiət haqqında", "Zamanı qabaqlayanlar" kimi elmi-kütləvi əsərlər nəşr etdirmişdir.

M.Axundov bir sıra elmi-metodiki kitabların da müəllifidir. O, gənc təbiətçilər üçün "Gənc quşçulara məsləhət", "Okeanda bir damla", "Nəğməli və bəzəkli quşlar" kimi maraqlı kitablar yazmışdır.

Xalqımızın sevimlisi, müdrik təbiətli Mirəli müəllim 1992-ci ildə dünyasını dəyişmişdir.

AZƏRBAYCAN RİYAZİYYATÇILARININ AĞSAQQALI

Vətənçün yaşayan, Vətənçün ölən,
Səmimi bir insan nə bəxtiyardır.
Mikayıl Müşfiq

Çox gözəl deyiblər ki, kimliyini soruşsalar, özünə məxsus sənədlə adını, familiyanı söyləyərsən. Amma xalqını, millətini soruşsalar, onda qəhrəmanının, şairinin, bəstəkarının, aliminin bir neçəsinin adını çəkməlisən. Azərbaycan xalqının belə oğullarından biri dünya şöhrətli alim, respublika riyaziyyatçılarının ağsaqqalı, akademik Məcid Lətif oğlu Rəsulovdur.



Akademik Məcid Rəsulov.

M.L.Rəsulov 1916-cı ildə Şəki şəhərində anadan olmuşdur. Şəki yeddiillik məktəbinin 6-cı sinfini bitirərək N.Nərimanov adına Sənaye Texnikumuna girmiş və birinci kursu başa vurduqdan sonra, 1934-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat şöbəsinə qəbul olunmuşdur. 1938-ci ildə institutu birinci dərəcəli (əlaçı) diplomla bitirmişdir. Riyaziyyat ixtisası üzrə Azərbaycan Dövlət Universitetinin aspiranturasın uğurla imtahan vermişdir. Aspirant ola-ola, eyni zamanda, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda assistent vəzifəsində çalışmışdır. M.Rəsulov 1939-cu ilin sonunda ordu sıralarına xidmətə çağırılmışdır. Əvvəlcə artilleriya alayının hesablayıcı bölməsinin komandiri vəzifəsini tutmuş, müharibənin əvvəllərində yaralanmışdır. Müalicədən sonra Qafqaz cəbhəsinə düşmüş, burada ona qvardiya leylenantı rütbəsi verilmiş, 10-cu qvardiya briqadasının xüsusi diviziyasının kəşfiyyat vzvodu komandiri vəzifəsində döyüşmüşdür. 1942-ci ilin sonunda Qroznı şəhərində 23-cü Azərbaycan atıcı diviziyasının təşkili ilə əlaqədar olaraq o, Qafqaz cəbhəsinin ön xəttindən geri çağırılmış, bu diviziyanın artilleriya alayında ştab batareyası komandirinin müavini, bir qədər sonra isə komandiri olmuş və baş leytenant rütbəsi almışdır. O, Vətən müharibəsinin axırına kimi bu vəzifədə xidmət etmiş, 1945-ci ilin sonunda isə mülki mütəxəssis kimi ordudan tərxis edilmiş və Bakı Dövlət Universitetinin aspiranturasına bərpa olunmuşdur.

M.L.Rəsulov elmi rəhbəri Y.B.Lopatinskinin Lvov şəhərinə keçməsi ilə əlaqədar olaraq 1946-cı ilin sentyabrında Ukrayna EA Lvov filialının aspiranturasına keçmiş, burada namizədlik dissertasiyası yazmış və onu 1949-cu ilin əvvəllərində BDU-nun mexanika-riyaziyyat fakültəsinin elmi şurasında müdafiə et-

mişdir. Müdafiədən sonra 1953-cü ilin iyuluna qədər ADU-nun Riyazi analiz kafedrasının dosenti vəzifəsində işləmişdir.

M.L.Rəsulov 1953-cü ilin sentyabrında Lvov Universitetinin dəvətinə əsasən oraya köçmüş, müsabiqə yolu ilə həmin universitetin Diferensial tənliklər kafedrasının dosenti vəzifəsini tutmuşdur. Burada doktorluq dissertasiyası yazmışdır. Həmin dissertasiya SSRİ EA Riyaziyyat İnstitutunun elmi şurasında müdafiə edilmişdir.

Doktorluq dissertasiyasının müdafiəsindən sonra M.L.Rəsulov Bakı Dövlət Universitetinin dəvəti ilə buraya köçmüş, müsabiqə yolu ilə Ümumi riyaziyyat kafedrasının müdiri vəzifəsini tutmuşdur. Bu kafedra tezliklə Riyazi fizika tənlikləri kafedrası adlandırılmışdır.

Doktorluq dissertasiyasından sonra o, bir sıra tətbiqi əhəmiyyətli məsələlərin həlli ilə bağlı olaraq "Kontur inteqral üsulu" adlı yeni güclü üsul işləmişdir.

"Nauka" nəşriyyatında 1964-cü ildə çap etdirdiyi "Metod konturnoqo inteqrala" monoqrafiyasını M.L.Rəsulov özünün yuxarıda adları çəkilən üsullarının tətbiqinə həsr etmişdir.

Daha sonra Londonun sifarişi ilə "Metod konturnoqo inteqrala" kitabı ingilis dilinə tərcümə olunmuş, 1967-ci ildə Amsterdamda Şimali Hollandiya nəşriyyat şirkəti tərəfindən, sonra isə bir neçə dəfə Nyu-Yorkda "İntersayans" nəşriyyatında böyük tirajla çap edilmişdir. Dünya riyazi ədəbiyyatında bu kitaba çoxlu istinadlar edilir.

Görkəmli riyaziyyatçılar M.L.Rəsulovun Metod konturnoqo inteqrala "kitabına yüksək qiymət vermişlər". Məsələn, kitabın redaktoru professor A.V.İvanov öz rəyində yazırdı: "...Beləliklə, Məcid Lətif oğlu Rəsulovun monoqrafiyası riyazi ədəbiyyatda müstəsna haldır. Dünyada buna bənzər kitab yoxdur. Azərbaycan riyaziyyat ictimaiyyətinin fəxr etməyə bütün əsasları vardır ki, belə kitab məhz Bakı Dövlət Universitetində yazılıb".

M.L.Rəsulovun təklif etdiyi üsullardan Moskva, Sankt-Peterburq, Minsk, Sibir, Ural və s. elmi mərkəzlərində çalışan alimlər öz tədqiqatlarında geniş istifadə edirlər.

M.L.Rəsulovun "Nauka" nəşriyyatında 1975-ci ildə çap olunmuş çox sanballı ikinci monoqrafiyası "Primeneniye metoda konturnoqo inteqrala" adlanır.

"Elm" nəşriyyatında 1989-cu ildə çap etdirdiyi üçüncü "Primeneniye vıçetnoqo metoda k reşeniyu zadaç differensialnıx uravneniy" monoqrafiyasını isə o, çıxışlar üsulunun inkişafına həsr etmişdir.;

M.L.Rəsulovun nəşr etdirdiyi elmi işlərin ümumi sayı 80-dən çoxdur.

O, Ümumittifaq riyaziyyat qurultayı (Moskva, 1956) və beynəlxalq konqreslərdə (Moskva, 1966, Fransa-Nitsa, 1970) və s. məruzələrlə çıxış etmişdir.

SSRİ EA-nın məruzələrində M.L.Rəsulovun 25 məqaləsi dərc olunmuşdur. Onun çapdan çıxmış əsərlərinin, demək olar ki, hamısı ingilis dilinə tərcümə edilmiş və çap olunmuşdur.

M.L.Rəsulov yüksək ixtisaslı kadrların hazırlanmasına böyük diqqət verir. Riyazi fizika tənlikləri kafedrasında onun rəhbərliyi altında 17 aspirant namizədlik dissertasiyası müdafiə etmişdir.

Tələbələrindən A.İ.Vahabov (Dağıstan), Y.Ə.Məmmədov, N.M.Məmmədov, F.V.Hüseynov doktorluq dissertasiyası müdafiə etmişlər.

Bir sıra xarici mütəxəssislər M.L.Rəsulovla elmi əlaqə saxlayır və yazışırlar. Məcid müəllim Minsk şəhərində rusca və ABŞ-ın Nyu-York şəhərində ingiliscə çıxan aylıq elmi-nəzəri "Diferensial tənliklər" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

M.L.Rəsulov 10 ildən artıq BDU-nun "Elmi əsərlər" jurnalının fizika-riyaziyyat seriyasının redaktoru olmuşdur.

O, ixtisaslaşmış "Diferensialnıye uravneniya" jurnalının redaksiya heyətinin üzvü idi (jurnalın yarandığı 1965-ci ildən).

M.L.Rəsulov 1968-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1983-cü ildə isə akademiki seçilmişdir.

Əməkdar elm xadimi, respublika MEA-nın həqiqi üzvü, Azərbaycan Ensiklopediyası elmi redaksiya şurasının üzvü Məcid Rəsulov bir çox orden və medallarla təltif edilmişdir.

Dünya şöhrətli alim 1993-cü ildə dünyasını dəyişmişdir.

TANINMIŞ GEOLOQ

Məşhur fransız riyaziyyatçısı Anri Puankaredən hər hansı mürəkkəb problemi necə həll etməsini soruşanda, belə cavab verərmiş: "Mən çətin problemin həllini daim düşünməklə tapıram". Azərbaycan geologiya elminin təşkilatçılarından biri olan Ə.C.Sultanov da bütün həyatı boyu düşünmüş, düşündürmüş, bu elmin inkişafında ağsaqqal səviyyəsinə yüksəlmişcir.

Əzəl Cəfər oğlu Sultanov 1905-ci ildə Şəkidə anadan olmuşdur. Orta təhsilini Şəkidə almış, 1930-cu ildə Azərbaycan Politexnik İnstitutunu bitirdikdən sonra mühəndis-geoloq, geoloji kəşfiyyat dəstələrinin rəisi vəzifəsində çalışmış, Azərbaygan geologiya bürosuna başçılıq etmişdir. 1939-cü ildən ömrünün sonunadək onun bütün elmi və əmək fəaliyyəti respublikanın Elmlər Akademiyası ilə bağlı idi. O, 1939-56-cı illərdə Bakı Dövlət Universitetində prorektor və kafedra müdiri işləmiş və eyni zamanda, Azərbaycan Neft və Kimya İnstitutunda (indiki Neft Akademiyasında) dərs demişdir. Görkəmli alim, geologiya-mineralogiya elmləri doktoru (1944), professor (1949), Azərbaycan EA-nın akademiki (1959) Əzəl Sultanov 1958-70-ci illərdə Azərbaycan EA Geologiya İnstitutunun direktoru olmuşdur.

Ölkənin görkəmli geoloq alimlərindən biri kimi o, respublikanın bir sıra faydalı qazıntı yataqlarının öyrənilməsinə və işlənməsinə mühüm kömək göstərmişdir. Onun elmi rəhbərliyi altında çöküntü süxurlarının tədqiqinin yeni geokimyəvi və fiziki-kimyəvi metodları tətbiq olunmuşdur. Akademik Ə.Sultanovun qeyri-filiz yataqlarının və tikinti materiallarının tədqiqində, Böyük Qafqazın cənub ətəkləri və Balakən-Zaqatala filiz yataqlarının öyrənilməsində böyük rolu olmuşdur. Onun araşdırmalarının nəticələri 200-dən artıq elmi əsərdə, o cümlədən, bir sıra monoqrafiyalarda öz əksini tapmışdır. İstedadlı alim 20 nəfərdən artıq elmlər namizədi hazırlamışdır.

Unudulmaz alim Bolqarıstanda da geoloji işlər aparmışdır. Akademik Ə.C.Sultanov bir sıra elmi komitələrin, cəmiyyətlərin və şuraların sədri və üzvü olmuşdur. Onun xidmətləri orden, medal və fəxri fərmanlarla qeyd edilmişdir.

Gözəl alim və pedaqoq, həssas və qayğıkeş insan Əzəl Cəfər oğlu Sultanov 1990-cı ildə Bakıda vəfat etmişdir.

GEOKİMYA ELMİNİN YARADICILARINDAN BİRİ

"Məslək varsa -
o bilir ki, yaşamağın mənası nə,
Məslək yoxsa -
O bir yükdür, həm dünyaya, həm özünə".
Bəxtiyar Vahabzadə.

Heydər Əfəndiyev.

Geo - yunanca Yer, torpaq deməkdir. Yer elminə aid bütün elm adlarının əsasını bu söz təşkil edir. Yer, torpaq... bu müqəddəs kəlamlar haqda nə qədər fikirlər deyilib, şeirlər yazılıb, müqəddəsləşdirilib, hətta ilahiləşdirilib. Deyirik: ana torpaq, torpaq haqqı. Belə bir müqəddəs sahəyə aid elmlə məşğul olmaq özü bir xoşbəxtlikdir.

Yuxarıda qeyd etdiyim kimi, torpağa, onun xüsusiyyətlərinə aid elm sahələri çox genişdir: geologiya: geodeziya, geokimya,

geokriologiya, geomorfologiya, hətta son dövrlərdə geopolitika deyilən bir sahə də əmələ gəlib.

Doğma respublikamızda bu qədim elm sahələrindən geologiya sahəsində şöhrət qazanmış, yurdumuzda onun yaradıcılarından sayılan "Heydər Xəlil oğlu Əfəndiyev olmuşdur. Onun respublikamızda faydalı qazıntıların öyrənilməsi sahəsində böyük işləri vardır. Azərbaycanda geoloji problemlərin öyrənilməsi sahəsində H.X.Əfəndiyevin adı məşhur akademiklərdən Q.Ə.Əlizadə, Ə.Ə.Əlizadə, Ş.F.Mehdiyev, Ş.N.Məmmədov, Ə.C.Sultanov və b. bir sırada çəkilir.

Heydər Xəlil oğlu Əfəndiyev 1907-ci ildə Şəkidə anadan olmuşdur. O, orta təhsilini Şəkidə almış, ali təhsil aldıqdan sonra, 1933-cü ildən Akademiya sistemində müxtəlif rəhbər vəzifələrdə işləmiş, 1949-cu ildən ömrünün sonunadək Kimya İnstitutunun (indiki Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun) direktoru olmuşdur. Məşhur kimyaçı, geologiya-mineralogiya elmləri doktoru (1958), professor (1959), Azərbaycan EA-nın müxbir üzvü (1962) H.X.Əfəndiyevin əsas elmi işləri nadir elementlər kimyası və geokimyası sahəsində olmuşdur. İstedadlı alim Azərbaycanın mineral və lay sularında nadir və radioaktiv elementlərin yayılma qanunauyğunluqlarını müəyyən etmiş, Kiçik Qafqazın şimali-şərq hissəsindəki hidrotermal filiz kompleksinin mineralogiyası və geokimyasının öyrənilməsində böyük nailiyyətlər əldə etmişdir. Professor H.Əfəndiyev selen, tellur və saf kobalt 2-oksidin alınma texnologiyasının yeni sxemini işləyib hazırlamışdır. Onun Azərbaycan dilində kimya terminologiyasının təkmilləşdirilməsində böyük xidmətləri olmuşdur. Tanınmış alim onlarca elmi işin, monoqrafiyaların müəllifidir. Onun milli kadrların hazırlanmasında da əvəzsiz xidmətləri olmuşdur. Professor H.Əfəndiyev müxtəlif orden və medallarla təltif olunmuşdur. Unudulmaz alim, qayğıkeş müəllim Heydər Xəlil oğlu Əfəndiyev 24 yanvar 1967-ci ildə Bakıda vəfat etmişdir.

ATA-OĞUL

"Nə qədər uzun olsa da, düz yolla get".
Türkmən atalar sözü.

Keçmiş inqilabçı M.Ə.Şəkinskinin oğlu Əkrəm Şəkinski respublikada tanınmış geoloqlardan biridir.

O, 1929-cü ildə Bakı şəhərində doğulub. 1954-cü ildə Azərbaycan sənaye İnstitutunu (dağ mühəndis-geofizik ixtisası üzrə) bitirib, "Azərneft" birliyinin Dəniz Geofiziki Kəşfiyyat İdarəsində böyük radiotexnik, çöl seysmik dəstəsində mühəndis-operator, quruda seysmokəşfiyyat dəstəsinin rəisi və idarənin baş mühəndisi işləmişdir.

1966-68-ci illərdə İrandakı Azərbaycan seysmokəşfiyyat ekspedisiyasının rəhbəri olub.

1969-cu ildə "Azərneftgeofizikikəşfiyyat" trestinə müdir təyin edilmişdir.

1974-cü ildə Respublika Nazirlər Soveti yanında Geologiya İdarəsinin rəisi vəzifəsinə təyin edilmişdir.

Onun rəhbərliyi ilə respublika ərazisində aparılan geoloji kəşfiyyat işlərinin nəticəsi respublikanın mineral-xammal bazasının zənginləşməsində ciddi rol oynamışdır. 1975-1990-cı illərdə polimetal filizlərin və qara metallurgiyanın xammal ehtiyatları 2 dəfədən çox artırılmışdır. Üzlük və dekorativ daşların, inşaat materiallarının, yeraltı suların külli miqdarda ehtiyatı təmin edilmişdir.

Respublikanın geoloji xidməti ilk dəfə olaraq 2 qızıl yatağı kəşf etmiş və onların ehtiyatı sənaye kateqoriyaları üzrə təsdiq olunmuşdur; Bütün bunlar respublikada bir sıra müstəqil sənaye sahələrinin yaranmasına imkan vermişdir.

Ə.M.Şəkinski Azərbaycan əhalisinin sosial-ekoloji və digər problemlərinin həlli ilə əlaqədar olan məsələlərə böyük diqqət yetirirdi. Bura, ilk növbədə, yüksək keyfiyyətli şirin və müalicə əhəmiyyətli mineral yeraltı su ehtiyatlarının aşkar edilməsi, Ba-

kı şəhərinin su təminatının əsaslandırılması, şəhər üçün təhlükə doğuran sürüşmələrin öyrənilməsi, küçə və zirzəmiləri su basmasına qarşı mübarizə, şəhərin sanitar-ekoloji vəziyyətinin yaxşılaşdırılması daxildir.

Onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1988-1989-cu illərdə Bakı, Sumqayıt şəhərləri və Abşeron yarımadası ərazisində radioaktiv çirklənmənin səviyyəsi öyrənilmiş, 100-dək radioaktiv çirklənmə mənbəyi aşkar edilərək müvafiq qaydada ləğv edilmişdir.

O, Azərbaycan Nazirlər Kabinetinin fövqəladə vəziyyətlər üzrə komissiyasının üzvü seçilmişdir. Azərbaycan Ali Slvetinin 1989-cu il 29 dekabr tarixli sessiyasında Naxçıvanda sərhəd xəttinin dəqiqləşdirilməsi üzrə deputat komissiyasının sədri seçilmişdir.

1990-cı il yanvarın 21-də çağırılmış respublika Ali Sovetinin fövqəladə sessiyasında 1990-cı il yanvarın 19-20-də Bakı şəhərində baş vermiş hadisələrin təhqiqatı üzrə Ali Sovet komissiyasının üzvü seçilmişdir.

Respublikanın mineral xammal bazasının inkişafında xidmətlərinə və çoxillik məhsuldar əməyinə görə Ə.Şəkinskiyə əməkdar geoloq, Yer Təkinin Fəxri Kəşfiyyatçısı fəxri adları verilmişdir. Müxtəlif faydalı qazıntı yataqlarının aşkar edilməsi, kəşfiyyatı və ehtiyatlarının hesablanmasındakı xidmətlərinə görə o, keçmiş SSRİ XTNS-nin iki qızıl və iki bürünc medalına layiq görülmüşdür.

Ə.M.Şəkinski 1998-ci ildə vəfat etmişdir.

GÖRKƏMLİ FİZİK

Texnika elmləri doktoru, professor Rəsulov Abuzər Məmməd oğlu 1907-ci ilin 16 dekabrında Şəki şəhərində dəmirçi ailəsində anadan olmuşdur. 1915-ci ildən 1918-ci ilə qədər üçillik ibtidai məktəbdə oxumuş və 1918-ci ildən 1920-ci ilə qədər atasının yanında dəmirçilik etmişdir. 1920 və 1921-ci illərdə nümunə-zəhmət məktəbində, 1921-ci ildən 1925-ci ilə qədər isə Şəki Müəllimlər Seminariyasında oxumuş, oranı qurtardıqdan sonra 10 nömrəli məktəbdə birinci sinif müəllimi işləmişdir. 1926 və 1927-ci illərdə 7 nömrəli oğlan məktəbi ilə 8 nömrəli qız məktəbinin birləşməsindən yaranmış birləşmiş məktəbin müdiri vəzifəsində işləmişdir. İlk dəfə olaraq qız uşaqları ilə oğlan uşaqlarının birlikdə oxumalarının təlim-tərbiyə işini sınaqdan keçirmək ona tapşırılmışdı. O zaman marif şöbəsinə və maarif komissarlığına yazılmış hesabatlarda qeyd olunmuşdur ki, qız və oğlan uşaqlarının birlikdə oxumalarının təlim-tərbiyə işinə və bilik səviyyələrinin yüksəlməsinə müsbət təsiri vardır.

Abuzər Rəsulov.

A.M.Rəsulov 1929-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat şöbəsinə daxil olmuş, 1932-ci ildə oranı bitirmiş və Azsənaye şurasının Şəkidə olan Sənaye Texnikumuna fizika-riyaziyyat müəllimi vəzifəsinə təyin olunmuşdur. 1934-cü ildə bu texnikum Şəki şəhərindən Bakıya köçürülmüşdür. A.M.Rəsulov da Bakı şəhərinə köçmüş və 1934-cü ildən 1937-ci ilə qədər - əsasən - Azneftin Neftayırma Texnikumunda fizika müəllimi vəzifəsində işləmiş, eyni zamanda Azərbaycan Dövlət Universitetinin Ümumi fizika kafedrasında laborant vəzifəsində çalışmışdır.

1937-ci ildən 1941-ci ilə qədər universitetdə assistent və baş müəllim vəzifələrində çalışmışdır. Bu müddət ərzində o, fizika fənninin səmərəli keçirilməsi üçün ən vacib olan mexanika laboratoriyalarının, molekulyar fizika, elektrik və optika laboratoriyalarının, eləcə də fizikadan nümayiş "muzeyinin" təşkilində əsaslı işlər görmüşdür.

1941-ci ilin noyabr ayından 1944-cü ilin avqust ayına kimi ordu sıralarında olmuşdur. Tərxis olduqdan sonra 1945-ci ilin mart ayından 1952-ci ilə qədər Bakı Dövlət Universitetinin Eksperimental fizika kafedrasında baş müəllim və 1952-ci ildən 1978-ci ilə qədər Molekulyar fizika kafedrasında dosent, 1978-ci ildən fizika fakültəsinin Optika və molekulyar fizika kafedrasının professoru vəzifəsində işləyir.

A.M.Rəsulov 1951-ci ildə "Özlü mayelərdə tərpənmiş dalğalarının yayılması" mövzusunda fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsini almaq üçün dissertasiya müdafiə etmişdir. O, 1973-cü ildə "Rezinin deformasiya və quruluşu" mövzusunda apardığı çox mürəkkəb, nəzəri və praktiki əhəmiyyətə malik doktorluq dissertasiyasını müdafiə etmiş və texnika elmləri doktoru adına layiq görülmüşdür.

Professor A.M.Rəsulovun müxtəlif jurnallarda 80-dan çox elmi, elmi-metodik məqalələri dərc olunmuşdur. O, müxtəlif konfranslarda, seminarlarda 100-dən çox elmi məruzə ilə çıxış etmişdir.

Rəsulov Abuzər 1958-ci ildə nəşr olunmuş "Ali məktəblər üçün fizikadan laboratoriya işlərinə rəhbərlik" tədris vəsaitinin əsas müəlliflərindən biridir.

1986-cı ildə "Maarif" nəşriyyatı tərəfindən professor A.M.Rəsulovun "Optikadan laboratoriya işlərinə rəhbərlik" adlı tədris vəsaiti buraxılmışdır.

Professor A.M.Rəsulov universitetin ictimai həyatında yaxından iştirak etmişdir. O, bir çox orden, medal və döş nişanları ilə təltif olunmuşdur.

A.M.Rəsulov 2001-ci ildə vəfat etmişdir.

TANINMIŞ FİZİK-KİMYAÇI

Adamlar dörd şey ilə tanınar:
yazı-yazan yazısı, alim cavabı.
Hikmət sahibi işi, həlim adam yumşaqlığı ilə.
Ərəb atalar sözü.

Yaxşı kəlamlardır: adam dörd xüsusiyyəti ilə tanınar. Daha doğrusu, ərəblər deyirlər ki, dörd adam dörd şey ilə tanınar... Mənə belə gəlir ki, bu dörd xüsusiyyətdən biri hər hansı bir şəxsdə olsa, özünü xoşbəxt hesab edə bilər. Bir adamda yuxarıdakı dörd xüsusiyyətin cəmlənməsi yalnız möcüzəli xoşbəxtlik sayıla bilər, ələlxüsus müasir dövrdə...

Bəli, belə xoşbəxt insanlardan biri alim, hikmət sahibi, təvazökar insan Zülfüqar Hüseynqulu oğlu Zülfüqarovdur. O, 3 dekabr 1913-cü ildə Şəkidə anadan olmuşdur. Orta təhsilini Şəkidə alan Zülfüqar Hüseynqulu oğlu Bakıda ali təhsil aldıqdan sonra 1936-40-cı illərdə Bakı neft emalı zavodlarında mühəndis və böyük mühəndis, 1940-cı ildən Azərbaycan EA Kimya İnstitutunda (indiki Qeyri-üzvi və Fiziki Kimya İnstitutu) baş elmi işçi və laboratoriya müdiri vəzifəsində işləmişdir. İstedadlı, yorulmaz alim 1971-ci ildən həmin institutun direktoru olmuşdur.

Kimya elmləri doktoru (1957), professor (1958), Azərbaycan EA-nın müxbir üzvü (1976), Respublika Dövlət mükafatı laureatı (1978), əməkdar elm xadimi (1974) Zülfüqar Hüseynqulu oğlunun məşğul olduğu sahə, əsasən, bir çox maddələrin fikizikimyavi xassələrini araşdırmaq olmuşdur. Bir neçə kəlmə elmin bu vacib sahəsi haqda. Fiziki kimya-fizikanın ümumi prinsipləri əsasında kimyəvi hadisələri izah edən və onların qanunauyğunluqlarını müəyyənləşdirən elmdir. Fiziki kimya XIX əsrin axırlarında müstəqil elm sahəsi olmuşdur. XIX əsrin sonları və XX əsrin əvvəllərində təbiətşünaslıq sahəsində qazanılan mühüm nailiyyətlər - rentgen şüaları, elektron və radioaktivlik hadisələrinin kəşfi, spektroskopiyanın inkişafı - fiziki kimyanın in-

kişafı üçün əlverişli zəmin yaratdı. Atom və molekullarda elektronların hərəkət qanunlarının (Kvant mexanikası qanunlarının) müəyyən edilməsi Kvant kimyasının yaranmasına gətirib çıxardı. Bu deyilənlərdən aydın olur ki, fiziki kimya elminin əhatə etdiyi sahə nə qədər geniş, hərtərəfli və aktualdır. Belə sahədə məşhur alim olmağın və uzun müddət elmi axtarışlarla məşğul olan böyük bir mərkəzə - Qeyri-üzvi və Fiziki Kimya İnstitutuna rəhbərlik etməyin nə qədər şərəfli və məsuliyyətli olması aydın olur. Professor Z.H.Zülfüqarovun əsas elmi işləri alumosilikatların, mürəkkəb oksid tərkibli katalizatorların və müxtəlif adsorbentlərin sintezi və tətbiqi sahəsində olmuşdur. O, Azərbaycanın bentonit gilləri və təbii seolitlərinin fiziki-kimyəvi xassələrini tədqiq etmiş, neft kimyası sənayesində işlədilən katalizatorlardan bir çoxunun sintezi şəraitinin onun aktivliyinə təsirini öyrənmişdir. Z.H.Zülfüqarov kataliz məsələlərinə dair çağırılan beynəlxalq konqres (Moskva, 1968) və simpoziumlarda (Bolqarıstan, 1971, Monqolustan, 1975) sanballı elmi məruzələrlə çıxış etmişdir.

Yorulmaz alimin elmi kadrların hazırlanmasında da əvəzsiz xidmətləri olmuşdur.

Azərbaycan MEA-nın müxbir üzvü, professor Z.Zülfüqarov 1992-ci ildə vəfat etmişdir.

ZİRVƏLƏR HƏR YERDƏN GÖRÜNÜR

Dövlətdən xeyirxahlıq üstündür.
Biz azəri xalqı həmişə xeyirxah olmuş və olacağıq.
A.BAKIXANOV

Azərbaycanın şimal-qərbində Böyük Qafqaz sıra dağları ilə əhatə olunmuş, əfsanəvi gözəlliyə malik olan bir bölgəsi var: Baş Göynük, Aşağı Göynük, Baş Layski, Aşağı Layski. Sanki Allah təbiətin bütün gözəlliklərini bu diyara bəş edib. Yaşıllıqlara bürünmüş əzəmətli uca dağlara, meşələrə və s. baxmaqla

doymaq olmur. Həbibulla Manaflının məlumatından: "Göynük qədim türk tayfalarından birinin adı olmuşdur. Anadoluda və Cənubi Qafqazda ta qədimdən eyni adla yaşayış məntəqələrinin mövcud olması bu ərazilərin türk arealı olduğunu bir daha təsdiqləyir ("Şəki üsyanı", Bakı, 2004, səh.47). Bu məkanın insanlarının da özlərinə məxsus xüsusiyyətləri var, əsl türk xarakteri: vətənpərvərlik, mərdlik, zülmə baş əyməmək, məğrurluq, elmə hədsiz məhəbbət, duz-çörəyə sadiqlik... Z.Cavadova yazır: "Göynüklülərin tarixi yaddaşında çarizmin müstəmləkə zülmünə qarşı yüksələn 1807-ci il üsyanı ilə bağlı faktlar və adlar qalmışdı. Həmin il aprel ayının 28-də başlanan üsyana sultan Murad başçılıq edirdi. Cəfərqulu xan, İlisu sultanı və mayor Qrekovun birləşmiş qüvvələri ilə üsyançılar arasında həlledici döyüş Bürc dərəsində baş verdi. Toplarla silahlanmış çar qoşunu üsyançıları məğlub etdi. Sultan Murad üsyandan sonra həbs olunsa da həbsxanadan qaçıb Çar-Balakən ərazisində mübarizəni davam etdirmişdir" ("Şimal-Qərbi Azərbaycan", Bakı, 1999). Son Qarabağ döyüşlərində də bu bölgə çoxlu şəhid vermişdir. "Şəki qartalları" (Bakı, 1998) kitabında bu bölgədən olan 32 şəhiddən söhbət açılır. Bu bölgənin insanlarının bir xüsusiyyəti də elmə, quruculuğa olan böyük məhəbbətidir. Bu bölgədə nəinki doğma respublikamızda, hətta onun hüdudlarından çox-çox uzaqlarda da tanınmış alimlər və dövlət xadimləri yetişmişdir: Məmməd Əhməd oğlu Mahmudov (Ləzgi Məmməd), Fərrux Məmməd oğlu Məmmədov, Nadir Alı oğlu Əhmədov, Fikrət Fərrux oğlu Məmmədov, professorlar Yaqub Mikayıl oğlu Mahmudov, Fərman Qəhrəman oğlu İsmayılov, Məmməd Yusif oğlu Qəniyev, Nəsir İsaq oğlu Cəlalov, Məmmədəmin Yaqub oğlu Bəkirov, İlham Vəliyullah oğlu Əliyev, elmlər namizədləri B.H.Babayev, E.M.Əzizov, İ.F.Əliyev, R.A.Hacıyev, F.R.Xalıqov, Ş.Ş.İdrisova, M.S.İmanov, C.S.İsmayılov, V.V.İsrafilov, M.U.Qəniyev, N.H.Nadirov, M.Ə.Teymurov və qeyrilərini göstərmək olar. Yuxarıda adları çəkilmiş şəxslərin çoxu haqda başqa bölmələrdə məlumat verilmişdir. Bu bölmə-

də isə respublikada tanınmış iki şəxsiyyət: Fərrux Məmmədov, Nadir Əhmədov və onların yaxınları haqda məlumat verməyi, daha doğrusu, onların xidmətlərini, gördüyü xeyirxah işləri gələcək nəslə çatdırmağı qarşıma məqsəd qoydum. Bu iki şəxsin həyat yolunu "əsl insan haqda dastan" adlandırmaq olar.

AĞSAQQAL HƏYATININ UNUDULMAZ ANLARI

Allahsız yerdə otur, böyüksüz yerdə oturma.
Azərbaycan atalar sözü


Fərrux Məmmədov.

Məmmədov Fərrux Məmməd oğlu 1915-ci il martın 11-də Şəki rayonunun Aşağı Layski kəndində anadan olmuşdur. Özünün tərcümeyi-halında yazdığı kimi, o, atası Həsənin 8 övladından biri idi və iki yaşında olarkən əmisi Məmməd Əhməd oğlu Mahmudov (Ləzgi Məmməd) onu övladlığa götürərək tərbiyə etmişdir. Ləzgi Məmməd fərdi təqaüdçü olmuş, 1969-cu ildə vəfat etmişdir. F.Məmmədovun anası Məmmədova Gülzar Adışirin qızı 1898-ci ildə anadan olmuş və 1973-cü ildə vəfat etmişdir.

F.Məmmədov ibtidai təhsilini Aşağı Layski kəndində almış, 1928-ci ildə Bakıya getmiş, orada 7 illik məktəbi bitirmişdir. 1930-1934-cü illərdə Avtomobil Yolları Texnikumunda təhsilini davam etdirərək yol tikinti texniki ixtisasına yiyələnmişdir. O, 1934-cü ildə Tiflis Rabitə İnstitutuna daxil olaraq, 1938-ci ilədək orada təhsil almış, lakin həmin il bu institutun bağlanması ilə əlaqədar olaraq Odessa Rabitə Mühəndisləri Elektrotexnika İnstitutuna keçirilmişdir. 1940-cı ildə Bakıya qayıdan F.Məmmədov Rabitə Nazirliyinin 1 saylı rabitə xətləri texniki

qovşağında sahə rəisi vəzifəsində əmək fəaliyyətinə başlamışdır. O, 1941-1946-cı illərdə Bakı ATS-i texniki şöbəsinin mühəndisi, xətt qurğuları üzrə böyük mühəndis, rəis vəzifəsində işləmişdir. F.Məmmədov 1946-cı il dekabrın 24-dən 1 iyul 1985-ci ilədək - 40 ilə yaxın bir müddətdə "Azneft" İstehsalat Birliyi Radio-Telefon Rabitəsi İdarəsinin Baş mühəndisi və ömrünün sonunadək həmin idarənin rəisi işləmişdir. O, özünü Azərbaycanın neft sənayesinin radio-telefon rabitəsi sahəsində yüksək ixtisaslı mütəxəssisi kimi göstərmişdir. Neft Daşlarında, Bulla adasında, Əli Bayramlı şəhərində, Siyəzəndə, Sanqaçalda və s. yerlərdə yeni istifadəyə verilən neft sahələrinin rabitə ilə təmin edilməsinin fəal təşkilatçılarından və rəhbərlərindən olmuşdur. Qocaman rabitəçi F.Məmmədov, eyni zamanda, dəyərli hami-tərbiyəçi müəllim idi. Onun bilavasitə səyi, nəzarəti və atalıq qayğısı ilə Bakı Telefon Şəbəkəsində və "Azneft" İstehsalat Birliyində rabitə sahəsində onlarla bacarıqlı mütəxəssis, rəhbər işçi yetişmişdir. Fərrux müəllimin əməyi dəfələrlə layiqincə qiymətləndirilmiş, orden, medal və fəxri fərmanlarla təltif edilmişdir. Tanınmış ziyalı və ağsaqqalların Fərrux Məmmədov şəxsiyyətinə olan münasibətləri: "Fərrux Məmmədov yolunun sadiq davamçısı Nadir Alı oğlu Əhmədov: "Fərrux Məmmədovu böyük bir palıd ağacına bənzətsək, deyə bilərik ki, bu qocaman palıd ağacının möhkəmliyindən, böyüklüyündən, yaraşığından, kölgəsindən, uzunömürlüyündən, hamı ilə eyni xoş münasibətindən və səmimiliyindən, xeyirxahlığından danışsaq, onun haqqında fəlsəfi fikir yaratmaq çətin olmaz... Sadə, dilində "yox" kəlməsi olmayan, müdrik ağsaqqal, yıxılanın qolundan tutan, təmənnasız, dəqiq, sözübütöv, çox şərəfli və ləyaqətli bir ömür sürmüş, böyük məsləkə sahibi, həyatda özünə layiqli yer tutmuş, ideal, əsl insan..."

El ağsaqqalı, keçmiş Sovxozlar naziri Soltan Hümmət oğlu Əzizov: "50 illik zaman kəsiyində dostluq etdiyim Fərrux müəllimin geniş dünyagörüşü, yüksək mədəniyyəti, ədəb-ərkanı, sa-

vadı var idi. Az danışar, dərin mənalı, qiymətli və dəyərli sözlər işlədərdi. O, ideya, əqidə adamı, məslək sahibi idi".

Səyyad Cabbar oğlu İbrahimov - Azərbaycan Respublikası Neft Şirkətinin keçmiş birinci vitse-prezidenti: "Başını sevimli işə qarışdırıb, darıxmağa vaxt tapmayan və bir də başını qaldıranda ömrünü tamamlanmış görən adam ən xoşbəxt adamdır (Əbül Üla Gəncəvi)...Hayıf səndən, Fərrux müəllim..."

Hacı Cabir Müzəffər oğlu Xəlifəzadə milli Azərbaycan kulinariyasının mükəmməl bilicisi, tədqiqatçısı və təbliğatçısı: "Fərrux müəllimlə 30 ildən artıq bir dövrdə yaxın ünsiyyətdə olmuşam. Ağsaqqallarla ünsiyyət mənim şakərim idi. Mən belə adamlarla ünsiyyətdən mənəvi cəhətdən zənginləşir, dünyagörüşüm, həyata baxışım genişlənirdi..."

Fərrux Məmmədov, öndə solda Dilbər Heydərqulu qızı Məmmədova, sağda Fərrux müəllimin anası Gülzar Məmmədova.

F.Məmmədov vaxtilə Odessa Elektrorabitə İnstitutunda oxuyarkən Dilbər Heydərqulu qızı Məmmədova ilə ailə həyatı qurmuşdur. Dilbər xanım 1914-cü ildə anadan olmuş, 1933-cü ildən əmək fəaliyyətinə başlamışdır. 1940-cı ildə Odessa Elektro-Texnika İnstitutunun şəhərlərarası telefon-teleqraf rabitəsi fakültəsini bitirmiş və Bakı Şəhər Telefon Şəbəkəsində baş mühəndis vəzifəsində işləmişdir. 1956-1967-ci illərdə Rabitə Nazirliyinin 8 saylı rabitə peşə məktəbinin direktoru vəzifəsində işləmişdir. Milli kadrların hazırlanmasında müstəsna rolu olmuşdur. 1967-1984-cü illərdə isə Bakı Şəhər Telefon Şəbəkəsində müxtəlif vəzifələrdə çalışmışdır. İşlədiyi bütün müəssisələrdə fədakarlığı, tələbkarlığı və səmimiyyəti ilə seçilmişdir. O, 1982-ci ildə Azərbaycanın əməkdar rabitəçisi fəxrii adına layiq görülmüşdür.

Fərrux müəllimin övladları da öz valideynlərinə layiq şərəfli insanlardır. Atalar yaxşı deyiblər: "Ot kökü üstə bitər". Ailənin böyük övladı Fərdil Məmmədov 1950-ci ildə anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş, tibb elmləri doktoru, professordur. O, zəngin həkim təcrübəsinə və mükəmməl biliyə malik mütəxəssisdir. Moskva şəhərində ilk özəl tibb mərkəzlərindən birinə rəhbərlik edir. Fərdil valideynləri haqda: "Deyirlər ki, Allahdan sonra valideyn övladlar üçün Allahdır. Mən də, qardaşlarım və bacılarımla birgə ata və anamı müqəddəs sayır, özümüzü ömrümüz boyu onlara borclu hesab edir, qoyub getdikləri saysız-hesabsız gözəl keyfiyyətləri yaşatmağa çalışırıq. Onların mənalı həyatı bizim üçün dəyərli bir öynəkdir".

Fərdil Məmmədov.

Ailənin kiçik oğlu Fikrət Məmmədov Lomonosov adına Moskva Dövlət Universitetinin hüquq fakültəsini qurtarmış, seçdiyi sənətin çətin və şərəfli pillələrini peşəkarcasına keçərək, müstəqil dövlətimizin Ədliyyə Nazirliyinə başçılıq edir.

Soldan 1-ci Fikrət Məmmədov, Fərrux Məmmədov.

Dilarə Məmmədova.

Ailənin iki qızı həkimdir. Dilarə Məmmədova 1947-ci ildə anadan olmuşdur.; Azərbaycan Tibb İnstitutunu bitirmiş, hazırda Respublika Onkoloji Mərkəzində həkimdir. Ümumrusiya Ultrasəs Diaqnostikası Cəmiyyətinin üzvüdür, bu sahədə tanınmış mütəxəssis sayılır.

Arzu terapevtdir. Xalq təbabəti ilə daha çox maraqlanır.

Ailənin kiçik qızı Dilfər Azərbaycan Dövlət İqtisad Universitetində çalışır, Almaniya İqtisad Akademiyasının dosenti adına layiq görülmüşdür.

Bu siyahını davam etdirmək olar: qardaşlar, bacılar, nəvələr, gəlinlər... Ancaq bina özülü üstündə dayanar. Biz özül haqda məlumat verməyi qarşımıza məqsəd qoyduq.

DAĞIN ZİRVƏSİNİN ƏSL ƏZƏMƏTİ UZAQDAN GÖRÜNÜR

"Bənzərəm bir qocaman dağa ki, dəryada durar".
M.Ə.Sabir.

Atalar sözüdür: "Dayaz çaylar səs-küylə, dərin çaylar sakit axar", "Ən böyük dövlət ağıldır, ən böyük ünsiyyət gözəl rəftar, yaxşı xasiyyətdir".

Qışda təpəciklərin üstü qarla örtülür, gözəl görünür, yüksək və dik zirvələrin üstündə isə qar olmur. Yaz gəlir, qar əriyir, təpəciklər ancaq bu vaxt üzə çıxır, aşkar olur. Zirvə isə əvvəlki kimi qürurla, dəyişməmiş qalır. A.S.Puşkin məşhur "Qafqaz" şerində yazıb: "Qaraquş üçmağa qalxarsa uca bir təpədən, nə qədər yüksək uçarsa, yeni dövrəmdə uçar". Ayı da, Günəşi də çıxıb batana qədər zirvə seyr edir, onun üstünə kölgə düşmür. Yalnız qara buludlar müvəqqəti zirvənin üstünə kölgə salır. Bəli, müvəqqəti, sonra çəkilib gedir. Təbiətin şıltaq qasırğasına, küləyinə, zirvə sinə gərir, təpəciklər isə onun kölgəsində gizlənirlər.

Mən bu əsl insan haqda olan fikirlərimi Əhməd Həsən oğlu Məmmədovun sözlərilə başlamaq istərdim: "Hamımız kimi, Nadir müəllimin də oxumasında, o cümlədən, kamil rabitəçi mütəxəssis kimi yetişməsində Fərrux qardaşımın zəhməti çox olub. Nadir müəllim də onun etibarını doğrultdu, istər Bakı Rabitə Texnikumunda, istərsə də Odessada oxuyanda və əmək fəaliyyəti dövründə həmişə seçildi, fərqləndi, başqalarına örnək

oldu, nəslimizin adını ucaltdı. Yadımdadır, Odessadan qonaq gəlmiş tələbələr Nadir müəllimin əlaçı tələbə olmasından, səmimi dostluğundan, qabiliyyətindən, ədəb-ərkanından ağız dolusu danışmaqdan doymazdılar... və qeyd edirdilər ki, Nadir gələcəkdə Azərbaycan rabitəsinin aparıcı simalarından olacaq..." Doğrudan da, zaman odessalı tələbələrin dedikləri fikirləri təsdiqlədi. Nadir müəllim valideynlərinin, Fərrux müəllimin, tələbə dostlarının, bütün xalqımızın etimadını doğrultdu.

Nadir Alı oğlu Əhmədov 1940-cı ildə Şəkidə anadan olmuşdur. 1957-ci ildə Şəki 10 saylı orta məktəbi qurtarmış və Bakı Rabitə Texnikumuna daxil olmuşdur. 1960-cı ildə texnikumda təhsilini başa vurub Bakı Telefon Şəbəkəsində montyor, sonra texnik işləmişdir. Həmin ildə o, Odessa Rabitə İnstitutunun Elektrik rabitəsi fakültəsinə qəbul olmuşdur. 1965-ci ildə təhsilini başa vurub Vətənə qayıtmış, Bakı Telefon Şəbəkəsində mühəndis vəzifəsinə təyin olunmuşdur. Bir qədər işlədikdən sonra 3 saylı ATS-də əvəzedici mühəndis, sonra Mərkəzi Telefon Qovşağında stansiya sexinin rəisi təyin edilmişdir. Bir müddətdən sonra, 1968-1970-ci illərdə hərbi xidmətdə olmuşdur. Ordudan tərxis edildikdən sonra 1970-1975-ci illərdə Bakı şəhər Telefon Şəbəkəsi İdarəsində baş mühəndis, 1975-1985-ci illərdə rəis, 1985-1997-ci illərdə Rabitə nazirinin müavini işləmişdir. 1997-ci ilin ortalarında N.Əhmədov nazir təyin edilmişdir. Budur onun həyat yolu. Bəs Nadir müəllim kimdir? Bu bölməni başlayanda mən atalar sözlərini təsadüfi yazmamışdım.



Nadir Əhmədov.

Nadir müəllim təkrarolunmaz şəxsiyyətdir. Bəlkə də, ona Nadir adını əvvəldən bilərəkdən qoyublar. Təbiətcə çox sakit

və təmkinlidir. Nadir müəllim peşəkardır. Sənətini həddindən artıq sevir. Nizami Gəncəvi demişkən:

Kamil bir palançı olsa da insan,
Yaxşıdı yarımçıq papaqçılıqdan.

Nadir müəllim peşəkardır, ona görə ki, adi fəhləlikdən nazir vəzifəsinə yüksəlib, sənətin hər sahəsini incəliklərinə qədər öyrənib. H.Əhmədov novator təşkilatçıdır. Bu mənim yox, adi vətəndaşların fikridir. O, nazir olduğu müddətdə Azərbaycanda rabitə yenidən quruldu. Vəzifəsindən, maddi vəziyyətindən asılı olmayaraq çox evlərə telefon çəkildi. Respublikamızda onlarla rabitə qovşaqları, poçtlar, televiziya ötürücü stansiyası inşa edildi və xarici avadanlıqlarla təmin edildi. Ölkədə mobil telefon geniş yayıldı. Bəlkə də, mobil telefon təchizatına görə Azərbaycan MDB dövlətləri içərisində birinci yeri tutur.

N.Əhmədov müəllimdir. O, daim öyrətməyi sevir. Onun başçılığı ilə Azərbaycanda böyük bir rabitə ordusu yaranmışdır.

İlk baxışda çox ciddi görünən Nadir müəllim ailədə, dostlar arasında çox mülayim və mehribandır. Həyat yoldaşı Mahirə xanım mehribançılıqda, sadəlikdə, qonaqpərvərlikdə heç də Nadir müəllimdən geridə qalmır. Evin böyük övladı Sevda Əhmədova mama-ginekoloq, tibb elmləri namizədidir. Bu gənc həkim respublikamızın ən böyük müalicə ocağı olan Bakı şəhəri 3 saylı klinik xəstəxanasında baş həkimin mama-ginekologiya üzrə müavinidir. O, Bakıda tanınmış həkimlərdən sayılır. Nadir müəllimin oğlu Vahid çox təmkinli, hərtərəfli dünyagörüşünə malik əsl ziyalıdır. Evin ikinci qızı Vəfa çox cəhətdən anası Mahirə xanıma bənzəyir: gülərüz, qonaqpərvər, mülayim...

Nadir müəllim gözəl babadır. Demək olar ki, o, nəvələrilə nəfəs alır. Ümumiyyətlə, Nadir baba uşaqları çox sevir.

N.Əhmədov gözəl dostdur. O, dostlara qarşı həddən çox diqqətlidir. Dost vəzifəsindən, cəmiyyətdə mövqeyindən, maddi durumundan asılı olmayaraq Nadir müəllim üçün, dostdur. Bir sözlə, Nadir Alı oğlu Əhmədov haqqında dastan yazılası əsl insandır.

FƏXRİ RABİTƏÇİLƏR

Bəşər övladı qədim zamanlardan bəri informasiya mübadiləsinə, məlumatların məsafədən ötürülməsinə daim ehtiyac duymuşdur. N.A.Əhmədovun məlumatına görə, poçt rabitəsinin dövlət səviyyəsində təşkili 1501-ci ildə Səfəvilər dövlətinin başçısı Şah İsmayıl Xətai tərəfindən qoyulmuş, 1918-ci il oktyabr ayının 6-da Azərbaycan Demokratik Cümhuriyyəti tərəfindən Poçt və Teleqraf Nazirliyi yaradılmışdır. Milli rabitəmiz uzun və şərəfli bir yol keçmişdir. Taleyini rabitəyə bağlayan, rabitəçi peşəsini bütün gözəlliyi ilə duyan və sərf etdiyi gərgin əməyin bəhrəsi olaraq ad-san qazanmış bir neçə rabitəçi haqda məlumat vermək istərdim.

BƏŞİROV YAQUB ABBAS OĞLU

1982-ci ildə Azərbaycanın "Əməkdar rabitəçi"si fəxri adına layiq görülüb.

R.Bəşirov 1939-cü ildə Şəki şəhərində anadan olmuşdur. O, 1966-cı ildə Moskva Elektrotexniki Rabitə İnstitutunu radiomühəndis ixtisası üzrə bitirmişdir. 1967-1969-cu illərdə Respublika Rabitə Nazirliyinin 3 saylı rabitə stansiyasında laboratoriya rəisi, sex rəisi və baş mühəndis vəzifələrində işləmişdir.

1969-2002-ci illərdə Milli Təhlükəsizlik Nazirliyində müxtəlif vəzifələrdə çalışmışdır.

2002-ci ildən Mərkəzi Xüsusi Rabitə İdarəsində rəis vəzifəsində işləyir.

SƏFƏROV RİZVAN ZİYANUR OĞLU

6 yanvar 1994-cü ildə Azərbaycan Respublikası Rabitə Nazirliyinin "Rabitə ustası" fəxri adına layiq görülüb.

R.Səfərov 1957-ci ildə Şəki şəhərində anadan olmuşdur. O, 1979-cu ildə Moskva Elektrotexniki Rabitə İnstitutunun çoxka-

nallı elektrik rabitəsi fakültəsini bitirmişdir. 1979-cu ildən rabitə sahəsində işləyir. R.Səfərov 1979-1995-ci illərdə mühəndis, böyük mühəndis, baş mühəndis, baş mütəxəssis vəzifələrində işləmişdir.

Rizvan Səfərov 1995-ci ildən "Az.Eurotel" BM-in baş direktor müaini vəzifəsində çalışır.

SALMANOV NƏRİMAN SÜLEYMAN OĞLU

28 yanvar 2002-ci ildə Azərbaycan Respublikası Rabitə Nazirliyinin "Rabitə ustası" fəxri adına layiq görülmüşdür.

O, 1965-ci ildə Şəkidə anadan olmuşdur. 1989-cu ildə Azərbaycan Politexnik İnstitutunu elektrik rabitə mühəndisi ixtisası üzrə bitirmiqdir. Əmək fəaliyyətinə 1989-cu ildə başlayıb. N.Salmanov 1990-1998-ci illərdə Gəncə telefon şəbəkəsində istehsalat laboratoriyasında elektrik mexaniki, böyük elektrik mexaniki, stansiya mühəndisi, ATS 6-da stansiya sexinin rəisi, Gəncə TKİ-nin baş mühəndisi vəzifələrində çalışmışdır.

O, 1998-ci ildən Gəncə TKİ-nin rəisi vəzifəsində işləyir.

ŞƏKİLİYEV SƏFA ŞƏFİ OĞLU

24 fevral 2003-cü ildə Azərbaycan Respublikası Rabitə Nazirliyinin "Rabitə ustası" fəxri adına layiq görülmüşdür. O, 1953-cü ildə Şəkidə anadan olmuşdur. 1979-cu ildə Azərbaycan Politexnik İnstitutunu avtomatik elektrik rabitəsi ixtisası üzrə bitirmişdir. 1970-ci ildə Bakı şəhər Keşlə Maşınqayırma zavodunda elektrik montyoru vəzifəsində işə başlamış, 1979-cu ildə Oktyabr rayon telefon qovşağının taksofon sexində elektrotexnik, 1980-ci ildə ATS-37-də böyük elektromexanik, 1982-ci ildə ATSKU 94/95 -də böyük mühəndis, 1986-cı ildə ATS 38/39-da avtozalda mühəndis, 1988-ci ildə RBİB-də laboratoriyada mühəndis, 1990-cı ildə Rabitə Nazirliyində ERS-nin aparıcı mühəndisi, 1991-ci ildə Rabitə Nazirliyində ETİ-nin rəis

müavini, 1995-ci ildə RBİB-in baş mühəndisinin müavini, 1997-ci ildə "Azərpoçt" İB-də texniki şöbənin rəisi, 1997-ci ildə "Azərpoçt" İB-nin baş direktorunun müavini vəzifəsində işləmişdir.

S.Şəkiliyev 2000-ci ildə "Azərrabitəlayihə" LAK-ın rəisi vəzifəsinə təyin edilmişdir.

ƏLİYEV AĞALAR HÜSEYN OĞLU

1939-cü ildə Şəkidə anadan olmuşdur. 1962-ci ildə Bakı şəhərində yerləşən 6 saylı Texniki məktəbdə əmək fəaliyyətinə başlamışdır. 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir. O, 1963-1967-ci illərdə "Soyuzpeçat"ın Bakı şəhər şöbəsində, 1967-1980-ci illərdə Rabitə Nazirliyinin "Soyuzpeçat" idarəsində müxtəlif vəzifələrdə işləmişdir. 1981-ci ildən Rabitə Nazirliyinin "Soyuzpeçat" idarəsində ("Azərmətbuatyayımı İstehsalat Birliyi") rəis müavini vəzifəsində işləmiqdir. Dövri mətbuatın abunə və pərakəndə satışı işinin təşkilində müstəsna rolu olmuşdur. 2002-ci ildə Azərbaycan Respublikasının "Əmək veteranı" adına layiq görülmüşdür.

ƏHMƏDOV ABDULLA NOVRUZ OĞLU

1929-cu ildə Şəkidə anadan olmuşdur. 1943-cü ildə Bakı Pedaqoji Texnikumunun fizika-riyaziyyat fakültəsini bitirmişdir. 1951-ci ildə Leninqrad Radiotexniki Rabitə Məktəbinin Almaniyanın Babelsberq şəhərindəki filialında leytenant kursunu bitirmişdir. 1960-cı ildə Əli Bayramlı Avtomat Telefon Stansiyasında əmək fəaliyyətinə başlamışdır. 1960-1988-ci illər ərzində Respublika Radio Televiziya Verici Mərkəzinin Əli Bayramlı RRS-də böyük elektromexanik, mühəndis, 1988-1998-ci illərdə isə "Teleradio" İstehsalat Birliyinin Əli Bayramlı RRS-də elektromontyor vəzifəsində işləmişdir. A.Əhmədov 1998-ci il-

də Azərbaycan Respublikasının "Əmək veteranı" adına layiq görülmüşdür.

SƏFƏROV RAMAZAN HÜSEYN OĞLU

1936-cı ildə Şəkidə anadan olmuşdur. 1952-1956-cı illərdə Bakıda Rabitə Texnikumunda təhsil almış, 1956-1961-ci illərdə isə Odessa Elektrotexnika İnstitutunu bitirmişdir. 1961-1965-ci illərdə Rabitə Texnikumunda və Politexnik İnstitutunda müəllim işləmişdir. 1965-1968-ci illərdə Leninqrad Elektrotexnika İnstitutunun aspirantı olmuşdur. 1968-ci ildən Politexnik İnstitutunda müəllim işləmişdir. 1982-ci ildə dosent vəzifəsinə təyin edilmişdir. Ramazan Səfərov 1992-ci ildə vəfat etmişdir.

ŞAHMƏMMƏDOV BƏXTİYAR ƏLƏKBƏR OĞLU

1916-cı ildə Şəkidə anadan olmuşdur. 1936-cı ildə N.Nərimanov adına Azərbaycan Sənaye Texnikumunu, 1942-ci ildə isə Tbilisi Dəmiryol Mühəndisləri İnstitutunu bitirmişdir. 1955-ci ildə rabitə sahəsində əmək fəaliyyətinə başlamışdır. 1955-1977-ci illərdə Rabitə Nazirliyinin Kadrlar Şöbəsinin rəisi, 1977-1989-cu illərdə isə Rabitə Nazirliyi İşçiləri Təkmilləşdirmə Kursunun rəisi vəzifəsində işləmişdir. 1989-cu ildə Rabitə Nazirliyinin Rayon Rabitəsi İstehsalat Birliyində mühəndis və sonralar "Azərpoçt" DM-də mühəndis vəzifəsində işləmişdir. Milli kadrların hazırlanmasında müstəsna rolu olmuş, işlədiyi müddətdə tələbkarlığı, məsuliyyəti və səmimiyyəti ilə fərqlənmişdir. Azərbaycan Respublikasının "Əmək veteranı"dır, 1998-ci ildən təqaüdçüdür.

DAİM AXTARIŞDA... TİKMİŞƏM Kİ, İZİM QALA

"Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-ləməkan mənəm, kövnü-məkana sığmaram".
Nəsimi

"Dünyanın zənginliyi məhz bənzərsiz şəxsiyyətlərdədir.
Onların əməllərinin sayəsində dünyanın işığı artır".
Filosov Karleyl Tomas.

"Qladiator" filmində Mark Avreli hökumətinin senatorlarından biri özünü öyən digər həmkarına deyir: "Mən özümü xalq arasından çıxmış adam kimi qələmə vermək istəmirəm. Mən xalq üçün adam olmaq istəyirəm". İnsan daim axtarır, ömür bizə bunun üçün verilib. Əvvəl özünü kəşf et, gör kimsən, nəyə qadirsən. Hələ sən kiməsə özünü axtarmaqda da kömək etməlisən, bələdçi olmalısan, düşünməlisən. Məşhur fransız riyaziyyatçısı Pian Kare demişdir: "Mən çətin problemin həllini daim düşünməklə tapıram". V.Q.Belinski yazırdı ki, mən cəmiyyət deyəndə, onun ancaq duyan və düşünən təbəqəsini nəzərdə tuturam. Xalqın düşünən və duyan təbəqəsi yalnız onun ziyalısıdır. Ziyalı insanların önündə gedən, onlara yol göstərən, savad verən, necə yaşamağı, qurmağı öyrədən, maarifləndirən, vətənini, xalqını, dövlətini sevməyi öyrədən təbəqəyə deyilir. "İşıqlı" anlamına gələn ziyalı sözü beyinlərə, zehinlərə işıq gətirən mənasında başa düşülür.

Şəki ziyalılar vətənidir desək, heç də yanılmarıq. Şəkidə elə nəsillər, ailələr var ki, elm, iqtisadiyyat və idarəçilik sahəsində neçə-neçə tanınmış ziyalılar yetişdirmişdir. Şəkinin belə tanınmış ailələrindən biri də Şərifovlar nəslidir. - Qoca kişinin ailəsi. Qoca kişi zəhmətkeş bir insan olub. Dahi filosof Aristotelin bir kəlamı var: "Gözəl sifəti çəkməklə", "sifəti gözəl çəkmək" tamamilə ayrı-ayrı şeylərdir. Təkcə onu demək kifayətdir ki,

Qoca kişinin vəfatından neçə 10 illiklər keçməsinə baxmayaraq, Şəkidə onun öladlarına "Qocanın oğlu", "Qocanın nəvələri" deyirlər. Kişi adının soyadı kimi xalq tərəfindən verilib təsdiqlənməsi hər insana nəsib olmur. Kişi adını qazanmaq üçün akademik, şair, həkim, mühəndis, nazir, müasir dövrdə icra başçısı olmaq lazım deyil. Bu adı sahibinə onun əməli, mərdliyi, düzgünlüyü, ailəsi qazandırır.

Dünyada usta çox, ustad isə az,
Sənətin böyüyü, kiçiyi olmaz.

Səfalı Nəzərli.

Qoca kişinin ailəsində oğlanlar: Mustafa, Şahid, Zahid, Xalid, Vahid, Abid, Qalibiyyət və bir qız övladı boya-başa çatmışdı, adı Analı idi. Analı müəllimə - yüzlərlə uşağın anası, mənəvi anasıdır. Şəkidə 10 saylı bir məktəb var. Bu təhsil ocağını Şəkinin "akademik məktəbi" adlandırsaq, heç də yanılmarıq. Bu məktəbin yetirmələrinin içərisində neçə-neçə akademik, professor, şair, yazıçı, dövlət xadimi, elmlər namizədi, rəssam, heykəltəraş, memar, həkim, mühəndis və s. var. Onlardan çoxlarının yetişməsində Analı müəllimənin, bizim mənəvi anamızın zəhməti danılmazdır. Axı əlifbanı, saymağı, yazmağı, oxumağı bizə mənəvi Anamız öyrədir. Biz uşaqlar onu çox sevirdik. Analı müəllimədən ana qayğısı görürdük. Karleyl demişkən: "Böyük adamın böyüklüyü kiçik adamlarla rəftarında aşkara çıxır".

Dil açanda ilk dəfə "Ana" söyləyirik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz.

Bəxtiyar Vahabzadə.

Deyilənlərə görə, Amerika yazıçısı, dünya ədəbiyyatında dəyərli əsərləri ilə məşhurlaşmış Mark Tven uşaq qəlbinə məxsus həssaslığı, səmimiyyəti, ürəkaçıqlığı, səmimi dostluğu, mənəviyyatı ilə cəmiyyətdə çox sevilirmiş. Mark Tven daxilən nə qədər gözəl və cazibədar olsa da, zahirən kifir imiş. Lakin qadınlar ilk tanışlıqdan onu çox sevirdilər. Bir dəfə Amerikanın tanınmış gözəl aktrisalarından biri Mark Tvenlə evlənməyi təklif

edir. Və yazdığı məktubda qeyd edir ki, bizim gələcək uşağımız ağılda Sizə, gözəllikdə mənə oxşasa, o, dünyanın ən xoşbəxt insanı olacaq. Mark Tven cavab məktubunda yazır: "Birdən əksinə oldu, onda necə olsun?"

Bu əhvalatı yazmaqda məqsədim nədir. Allah gözəl xislətləri bir adamda nadir halda cəmləşdirir. Xarici görkəm, daxili aləm, mənəviyyat, vətənpərvərlik, dost qədrini bilmək, ağsaqqal, ağbirçəklərə ehtiram, mərdlik, duz-çörəyə sədaqət, ziyalılıq, ...kişilik. Bütün bu saydığım xislətlər Qoca kişinin oğlanlarının hamısına aiddir. Ancaq əldə barmaqların hamısının funksiyası eyni deyil. Bəlkə də bu onların həyatda tutduqları mövqedən, sənətlərindən asılıdır. Qoca kişinin övladlarından Abiddə yuxarıda göstərdiyim xislətlərə ikisi də əlavə olur: qurmaq, tikmək və idarə etmək.

A.Şərifovun həyat və yaradıcılığını Ə.Məmmədov, F.Xalıqovun "Şəki - Alim və ziyalılar" (Bakı-2002) kitabından olduğu kimi oxuculara çatdırmaq istərdim. Müəlliflərə özüm və oxucular adından təşəkkürümü bildirirəm.

"Şərifov Abid Qoca oğlu 1940-cı ildə anadan olmuşdur. İlk təhsilini Şəki şəhərindəki 10 saylı orta məktəbdə almış və 1957-ci ildə onu bitirmişdir. Həmin ildə Azərbaycan Politexnik İnstitutunun mülki tikinti fakültəsinə daxil olmuş və 1962-ci ildə ali təhsilini başa vurmuşdur. Təhsil dövründə özünü savadlı və qabiliyyətli tələbə kimi göstərmiş, ali məktəbin ictimai həyatında fəal iştirak etmişdir.

Əmək fəaliyyətinə 1962-ci ildə Bakı Baş Tikinti İdarəsində iş icraçısı, böyük iş icraçısı, texniki istehsalat şöbəsinin rəisi, baş mühəndis vəzifələrində başlamış, tutduğu vəzifələrin öhdəsindən ləyaqətlə gəlmişdir. Daim yenilikçi, yaradıcı mühəndis kimi başqalarına nümunə olmuş, tələbkarlıq və təşəbbüskarlığı ilə fərqlənmişdir. Məhz bu keyfiyyətlərinə görə A.Q.Şərifov 1972-ci ildə Bakı Baş Tikinti Trestinin 23 nömrəli tikinti idarəsinin rəis vəzifəsinə irəli çəkilmişdir. Bundan sonra müxtəlif illərdə Azərbaycan SSR Nazirlər Sovetinin əsaslı tikinti şöbəsin-

də böyük referent vəzifəsində çalışmış və respublikamızda gedən tikinti-abadlıq işlərinin koordinasiya edilməsində öz sərişdə və bacarığını nümayiş etdirmişdir. O dövr üçün çox mühüm strateji obyekt sayılan "Azərnəqliyyattikinti" trestinin respublikamızda ən qabaqcıl bir təşkilat kimi tanınmasında trestin rəisi A.Q.Şərifovun əməyi yüksək qiymətləndirilmiş və sahə həmkarlar təşkilatının fərqlənmə nişanlarına layiq görülmüşdür. 1988-ci ildə "Azərnəqliyyattikinti" tresti əsasında yaradılan "Azərnəqliyyattikinti" Layihə Sənaye-Tikinti Birliyinin rəisi kimi A.Q.Şərifov Azərbaycanda yol çəkilişi məsələlərinə kompleks rəhbərlik etmiş və qısa bir zaman kəsiyində öz sözünü deyə bilmişdir.

1991-ci ildə A.Q.Şərifov Türkiyəyə ezam edilmiş və 1993-cü ilə qədər Çerkesköy-Kapikulu şəhərləri arasında dəmir yolunu elektrikləşdirən tikinti idarəsinin rəis müavini vəzifəsində işləmişdir. Ezamiyyətdən qayıtdıqdan sonra A.Şərifov "Azərnəqliyyattikinti" layihə Sənaye-Tikinti Birliyinin bazasında yaradılmış eyniadlı Dövlət Şirkətinin prezidenti olmuş və 1995-ci ildə Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsinə irəli çəkilmişdir. O, bir sıra dövlət əhəmiyyətli mühüm tikinti obyektlərinin tikintisi, eləcə də tibbi fəlakətlərlə bağlı fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması üzrə dövlət komissiyasının başçısı kimi respublikamızda və onun sərhədlərindən kənarda tanınmış nadir mütəxəssisdir.

Bir sıra xarici ölkələrdə dövlət səviyyəsində münasibətlərin yaradılması və fəaliyyət sahələrinin seçilməsində onun təcrübəsi, elmi və biliyi yüksək qiymətləndirilir.

A.Q.Şərifov geniş quruculuq fəaliyyətinə görə 1976-cı ildə "Şərəf nişanı", 1980-ci ildə "Oktyabr inqilabı" ordenlərinə layiq görülmüş, dəfələrlə keçici bayraqları, döş nişanı və fərmanlarla mükafatlandırılmışdır".

Qoca kişinin övladları hərəsi bir sahədə çalışmış, elinə, obasına, vətəninə xidmət etmişdir. Qardaşlar içərisində öz mülayimliyi və səmimiliyi ilə daha çox seçilən Şahid müəllimdir.

Şərifov Şahid Qoca oğlu 1929-cu ildə Şəkidə anadan olmuşdur. 1946-cı ildə şəhər 10 saylı orta məktəbi qurtardıqdan sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna qəbul olmuş, 1951-ci ildə "Maliyyə və kredit" ixtisası üzrə təhsilini başa vurmuşdur. Ş.Şərifov həmin ildən indiki Səbayel rayonunun icraiyyə komitəsinin maliyə şöbəsində dövlət gəlirləri müfəttişi, 1956-1962-ci illərdə Bakı Şəhər İcraiyyə Komitəsinin maliyyə şöbəsində böyük müfəttiş, 1962-1966-cı illərdə indiki Yasamal rayonu İK-nin maliyyə şöbəsində dövlət gəlirləri şöbəsinin rəisi, 1966-1969-cu illərdə həmin rayonun Partiya Komitəsinin sənaye-tikinti şöbəsinin müdiri vəzifəsində işləmişdir. O, 1973-1983-cü illərdə Yasamal rayon bank şöbəsinin müdiri olmuşdur. 1984-1992-ci illərdə Dövlət Bankının Azərbaycan kontorunda şəhər idarəsinin rəisi işləmişdir. Hazırda Azərbaycan Milli Bankında Xəzinə Departamentinin direktoru vəzifəsində çalışır.

Bu ailəyə olan xalq məhəbbətini Hüseyn Cavidin bir beyti ilə tamamlamaq istərdim:

"Bəxtiyarsan əgər, çəkdiyin əmək
Cahan süfrəsinə versə bir çiçək".
"Sən mükafatını insanlara xidmətdə ara".

A.Səhhət.

RESPUBLİKAMIZDA DƏZGAHQAYIRMANIN İLK YARADICILARINDAN

Böyük işlər, böyük maneələrsiz görülmür.
F.Volter.

Aqillər demişkən, bir ailənin güzəranını yaxşılaşdırmaq bir-iki nəfərin zəhməti bahasına başa gəlirsə, vətənin taleyi onun hər bir oğlunun, qızının işindən-gücündən asılıdır. Xalq öz varlığını, minlərlə, milyonlarla insanın əməlində, işində, zəhmətində yaşadır. Doğma türk xalqının belə zəhmətkeş, qeyrətli oğullarından biri də Əbdüləli Cabbar oğlu Mustafayev olmuş-

Əbdüləli Mustafayev.

dur. Onun keçdiyi həyat yolu, nail olduqlarının maneəsiz başa çatmadığını göstərir. Axı hər bir işdə birinci, ilk olmaq çətindir. Elm yollarında isə ilk cığır salmaq o qədər də asan deyil.

Ə.C.Mustafayev 1906-cı ildə Şəkidə sənətkar ailəsində anadan olmuşdur. Hələ gənc yaşlarından əmək fəaliyyətinə başlayan Əbdüləli oxuya-oxuya Şəkidə 11 illik məktəbi qurtarmış, 1924-cü ildə Azərbaycan Politexnik İnstitutuna təhsil almağa göndərilmişdir. 1925-ci ildən təhsilini davam etdirməklə bərabər, müəllimlik də etmişdir. Hələ tələbəlik illərində Ə.C.Mustafayev elmi axtarışlara dərin maraq göstərmişdir. Bu istəklə o, 1931-ci ildə institutun aspiranturasına qəbul olunmuşdur. Uşaqlıqdan əməyə alışmış Ə.C.Mustafayev elmi işini istehsalatla əlaqələndirmiş və respublikamızda dəzgahqayırmanın ilk yaradıcılarından biri olmuşdur.

Yorulmaq bilməyən alim 1946-cı ildə elmi işini müdafiə edib, texnika elmləri namizədi adına layiq görülmüş, 1947-ci ildə kafedranın dosenti seçilmişdir. Elmi işlərini davam etdirən Ə.C.Mustafayev 1960-cı ildə texnika elmləri doktoru adına layiq görülməklə, 1961-ci ildə professor seçilmişdir. Yenilikçi alim 1950-ci ildən Azərbaycan Neft və Kimya İnstitutunda Maşınqayırma texnologiyası kafedrasına rəhbərlik etmişdir. Ə.Mustafayev Azərbaycan dilində maşınqayırma texnologiyasına aid ilk dərsliyin (1932), terminlər lüğətinin (Rusca-azərbaycanda maşınqayırma texnologiyası terminləri lüğəti, Bakı-1958) müəllifidir. Professor Ə.C.Mustafayev 150-dən çox elmi məqalənin, 2 monoqrafiyanın, 25-ə qədər metodik göstəricinin müəllifi olmuşdur. Onun səmərəli elmi fəaliyyətinin məəhsulu olan "Neft-zavod avadanlığının istehsalı texnologiyası" dərsliyi bütöv bir nəslin yetişməsində əhəmiyyətli rol oynamış və ondan indi də istifadə olunur. Professor Ə.C.Mustafayevin elmi kadrların hazırlanmasında da əvəzsiz rolu olmuşdur. O, 20-dən çox elmi işə rəhbərlik etmişdir. Onun tələbələri sənayemizin müxtəlif sahələrində müvəffəqiyyətlə çalışmaqdadır. Maşınqayırma texnologiyası sahəsində görkəmli alim, Azərbaycanın əməkdar elm və texnika xadimi (1971) Əbdüləli Mustafayevin elmi əsərlərinin çoxu xaricdə çap olunmuşdur . O, neft maşınqayırmasına aid bir neçə beynəlxalq elmi konfrans və simpoziumda çıxış etmişdir. Ə.C.Mustafayev bir çox orden və medallarla təltif edilmişdir.

Görkəmli alim, novator, xeyirxah insan, qayğıkeş müəllim, respublika elmi ictimaiyyətinin tanınmış nümayəndəsi Əbdüləli Cabbar oğlu Mustafayev 1989-cu ildə Bakıda vəfat etmişdir.

HEYKƏL ÖMRÜ



Fuad Əbdürrəhmanov.

Doğma respublikamızın heykəltəraşlıq sənətinin banilərindən biri sayılan Fuad Əbdürrəhmanov nəinki ölkəmizdə, hətta onun hüdudlarından çox-çox uzaqlarda tanınmış xalq sənətkarı idi.

F.Əbdürrəhmanovu məşhurlaşdıran onun xalqa, doğma elinə, obasına bağlılığı olmuşdur. Harda olursa-olsun, Vətəni Azərbaycanla nəvəs almış, yaratdığı əsərlərində milli xüsusiyyətlərə sadiq qalmışdır. O deyərdi: "Harada oluruqsa-olsaq, həmişə gərək elə oturub-duraq ki, bizə baxıb desinlər: - əsl azərbaycanlı bax belə olar"...

Fuad Həsən oğlu Əbdürrəhmanov 1915-ci ildə Şəkidə anadan olmuşdur. İlk təhsilini Şəkidə almış, 14 yaşında olarkən ailələri Bakıya köçmüşdür. Həmin il, yəni 1929-cu ildə Fuad Bakı Rəssamlıq Məktəbinə (indiki Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbi) daxil olur. Hələ rəssamlıq məktəbində oxuyarkən təsviri sənətdən çox incəsənətin heykəltə-

raşlıq sahəsi Fuadı daha çox özünə cəlb edirdi. Lakin o vaxtlar məktəbdə heykəltəraşlıq şöbəsi yox idi. Ancaq Fuad imkan tapıb bu sənətlə müstəqil məşğul olurdu. Bu sahədə Azərbaycanın görkəmli fırça ustası Əzim Əzimzadə Fuada, heykəltəraşlıqla maraqlanan başqa uşaqlara köməkdik edir, incəsənətin bu sahəsi ilə məşğul olmaqda onlara məsləhətlər verirdi. Fuad rəssamlıq məktəbində portret janrı sahəsində müəyyən müvəffəqiyyətlərə nail olur. Yaradıcılığa portret janrı ilə başlayan gənc sənətkar M.F.Axundovun, Ə.B.Haqverdiyevin, Ü.Hacıbəyovun, A.Zeynallının büst-portretlərini, Füzulinin Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin fasadında qoyulmuş heykəlini yaratmışdır. Onun yaratdığı S.Bəhlulzadə, R.Mustafayev, H.Aslanov, B.Bağırova, S.Vurğun, G.Əsədov və s. portretləri həqiqi sənət əsərləridir.

F.Əbdürrəhmanov 1935-1939-cu illərdə İ.Y.Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda təhsil almışdır.

F.Əbdürrəhmanovun II Dünya müharibəsi qəhrəmanlarına həsr etdiyi əsərlər onun yaradıcılığında xüsusi yer tutur. Bu baxımdan sənətkarın "Gəray Əsədov", "Qafur Məmmədov", "Leninqrad göylərinin şahini Hüseynbala Əliyev" büstlərinin hər biri böyük zəhmətin bəhrəsidir. F.Əbdürrəhmanovun Azərbaycanın xalq qəhrəmanlarına həsr etdiyi "Cavanşir", "Babək", "Koroğlu" barelyefləri elə bil ki, bu mövzunun davamıdır.

F.Əbdürrəhmanov hələ gənc yaşlarından Azərbaycanın dahi şair və mütəfəkkirlərinin monementlərini yaratmaq arzusu ilə yaşayırdı. O, hələ müharibədən əvvəl Nizamiyə həsr edəcəyi əsər barəsində fikirləşmiş, ancaq 1941-ci ildə mübaribənin başlanması ilə əlaqədar dahi şairin 800 illik yubileyi təxirə salındığından fikrini həyata keçirə bilməmişdir.

Nəhayət, sənətkar öz arzusuna çatır. 1946-cı ilin əvvəllərində dahi Nizaminin abidəsi başa çatır və onun şairin vətəni Qədim Gəncədə qoyulması qərara alınır. Bu gözəl sənət əsərinin açılışı 1946-cı ilin 28 aprelində olmuşdur. Açılış mərasimində

F.Əbdürrəhmanova söz verilir, lakin həyəcanlanmış sənətkar danışa bilmir. Bu vaxt Səməd Vurğun qabağa çıxıb demişdir: "Əziz yoldaşlar, siz müəllifi eşitmək istəyirdiniz, o isə gördüyünüz kimi susur. Təəccüblənməyin, rəssamlar danışmağı sevmirlər. Bizim əziz dostumuz Fuad nə demək istəyirdisə, bütün bunları özünün bax bu yaradıcılıq əsərində deyib" (Azad Əliyev. Fuad Əbdürrəhmanov, "İşıq, Bakı 1986, səh.20).

1949-cu ildə sənətkar öz arzularından birinə tam nail olur. Həmin ildə Bakının mərkəzində onun yaratdığı Nizaminin tunc heykəli (memarları M.Useynov, S.Dadaşov) öz əzəməti ilə şəhərə xüsusi gözəllik gətirdi.

"Lüksemburqda Nizaminin tunc heykəli ucaldılmışdır. Bu görkəmli heykəltəraş F.Əbdürrəhmanovun bu vaxta qədər az məlum olan bir "Nizami"sinin maketi üzrə hazırlanan işdir. Sənətkarın həmin əsəri hələ 1940-cı ildə, dahi şairin Gəncədə və Bakıda udaldılmış abidələrindən əvvəl yaratdığı bir "Nizami" idi (Azad Əliyev, Fuad Əbdürrəhmanov, "İşıq", Bakı-1986, səh.39).

Hələ 1943-cü ildə Azərbaycanın əməkdar incəsənət xadimi adına layiq görülən F.Əbdürrəhmanov Gəncədə ucaldılan "Nizami"sinə görə 1947-ci ildə Dövlət mükafatına layiq görülür. Sənətkara ikinci şöhrət gətirən "Çoban" əsəridir. 1950-ci ildə hazırladığı bu əsər 1951-ci ildə tuncdan tökülmüş, uzun müddət Moskvada SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi Azərbaycan pavilyonunun qarşısında nümayiş etdirilmiş və nəhayət, Moskvanın Tretyakov qalereyasının daimi ekspozisiyasına qəbul olunmuşdur. Müəllifə 1957-ci ildə bu əsər üçün ikinci dəfə Dövlət mükafatı verilmişdir.

O, 1951-ci ildə "Azad qadın" heykəlini yaratmışdır. Tuncdan hazırlanmış bu gözəl sənət abidəsi 1960-cı ildə Bakıda ucgaldılmışdır.

F.Əbdürrəhmanovun Buxarada Əbu Əli İbn Sinanın, Düşənbədə Rudəki, S.Ayninin, Ulan-Batorda Suxe-Batorun və marşal

X.Çaybalsanın xatirələrinə ucaldılmış abidələri monumental heykəltəraşlığın ən gözəl nümunələrindəndir.

Əksərən Şərq mövzularında işləyən sənətkar, siyasi-ictimai mövzulara da müraciət etmişdir. 1957-ci ildə ona Azərbaycanın xalq rəssamı fəxri adı verilmişdir.

F.Əbdürrəhmanovu heykəltəraşlığın ən yüksək zirvəsinə qaldıran əsərlərindən biri də dahi xalq şairimiz Səməd Vurğunun 1961-ci ildə Bakıda qoyulmuş heykəlidir. "Səməd Vurğun" tunc abidəsi doğma Bakımızın ən gözəl sənət əsərlərindən sayılır.

Sənətkarın son əsəri Mehdi Hüseynzadənin monumental abidəsi olmuşdur. Bakıda 1973-cü ildə həmin abidənin açılışında iştirak etmək unudulmaz xalq sənətkarına qismət olmadı.

Azərbaycanın xalq rəssamı, əməkdar incəsənət xadimi, iki dəfə Dövlət mükafatı laureatı, dahi sənətkar Fuad Əbdürrəhmanov 15 iyun 1971-ci ildə Bakıda vəfat etmişdir.

Görkəmli Azərbaycan rəssamı, akademik Mikayıl Abdullayevin F.Əbdürrəhmanov haqda dediklərini yada salmaq yerinə düşərdi: "Təkraredilməz yaradıcılıq simasına malik Fuad Əbdürrəhmanov monumental plastikanın ən qabaqcıl nümunələrindən biri kimi tanınır. Bədii həlli, təntənəsi, poetika və plastikası baxımından Nizami abidəsi Mixail Anikuşinin Leninqraddakı (indiki Sankt-Peterburq - **red.**) "A.S.Puşkin abidəsi" (1957), Aleksandr Kibalkovun Saratovdakı "N.Q.Çernışevski" abidəsi (1948) ilə müqayisə oluna bilər... Fuad hər şeydən əvvəl ədalət tərəfdarı idi. Sözü üzə deyərdi, çəkinməzdi. Özünüreklamdan xoşu gəlməzdi... Fuad Əbdürrəhmanov kimi sənətkarların təbliğə ehtiyacları yoxdur. O, xatirəsini daş abidələrdə yaşadıb və özü də yaşayır" ("Kommunist", 26 may 1990).

İstər-istəməz fikirləşirsən ki, nə üçün doğma respublikamızın, ölkəmizin, hətta xaricdə bir çox şəhərlərin bəzəyi olan əsərlər yaradıcısının öz abidəsi Bakıda və doğma Vətəni Şəkidə ucaldılmasın.

Doğrudur, onun Bakıda xatirə muzeyi var. Şəki şəhərinin

küçələrindən birinə adı verilib. Lakin bunlar tanınmış sənətkar üçün çox azdır.

Axı bu nəsil Azərbaycana neçə-neçə tanınmış ziyalı vermişdir. Fuadın bacısı elmlər namizədi Səidə Əbdürrəhmanova respublikamızın tanınmış terapevtlərindən idi. Bir alim kimi respublikamızda terapiya elminin inkişafında onun özünəməxsus xidmətləri olmuşdur.

Səidə xanımın oğlu tibb elmləri namizəli Tələt Əli oğlu Qasımov uzun müddət (1979-1992) Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə başçılıq etmişdir.

Fuadın əmisi oğlu Rasim Əbdürrəhmanov da respublikamızda tanınmış memarlardan sayılır.

AQROKİMYAÇI AKADEMİK

Bəlkə də daha çox yaşayarsan, bil,
Dərmanlar dərdinə düz əlac deyil.
Bütün dərdlərinə bax budur dava:
Təbiət, su, günəş və təmiz hava.
Nizami Gəncəvi

Cəbrayıl Hüseynov.

Yer planetində adamların sayı təxminən 8 milyarda çatmışdır. Bəzi tədqiqatçıların fikrincə, bu artıma XXI əsrin axırında bir neçə yüz milyon da əlavə oluna bilər.

Əldə olan məlumatlara görə XX əsrdə kənd təsərrüfatı məhsulları 2,2 dəfə, dünya əhalisi isə 3 dəfə artıb. Beləliklə, insanların artımı və onların kənd təsərrüfatı məhsullarına olan tələbatı arasından heç bir mütənasiblik yoxdur. Deməli, insan kənd təsərrüfatı məhsullarının artırılması yollarını axtarmalı, torpağın hər qarışını göz bəbəyi kimi qorumalıdır. Kənd təsərrüfatı məhsullarını artırmaqda insana

köməyə gələn aqrokimya elmidir. Bitki, torpaq və gübrə arasındakı qarşılıqlı əlaqənin öyrənilməsi həmişə aqrokimyaçıların başlıca vəzifəsi olmuşdur. Əfsuslar olsun ki, bu elmin inkişafının ilk dövründən əsas amil - sağlamlıq, ekologiya yaddan çıxıb. Aqrokimya qanunlarından düzgün istifadə edilməməsi canlı təbiəti təhlükə qarşısında qoyub. Akademik Ziya Bünyadovun dililə desək: "Vaxt vardı ki, Miçurinin bir fikrini əlimizdə bayraq etmişdik. Biz təbiətdən mərhəmət gözləməməliyik..." İndi isə əksinə, təbiət insanlardan mərhəmət umur, bağırır, çağırır, inləyir. Bəsdir, daha nə qədər zülm, sitəm, işgəncə vermək olar, - deyir".

Məgər bütün bunlara səbəb aqrokimya elminin inkişafı olub? Əsla yox. Elm inkişaf edib, lakin onunla münasib aqrokimya savadımız yüksəlməyib. Buna da səbəb təsərrüfata savadsız, məsuliyyətsiz, laqeyd şəxslərin başçılıq etməsidir. "Hər şey plan xatirinə" prinsipi ilə yaşamağımız, gələcəyimizi düşünməməyimizdir...

Aqrokimya elmi insan cəmiyyətinin tələbatını ödəmək üçün labüddür. Bu elmsiz kənd təsərrüfatında inkişaf yoxdur. İnsan cəmiyyətinin gələcək taleyi müəyyən qədər bu elmin inkişafı və onun qanunlarına düzgün və vicdanla əməl etməkdən asılıdır. Ölkəmizdə aqrokimya sahəsində şöhrət qazanmış alimlərdən biri akademik Cəbrayıl Muxtar oğlu Hüseynov olmuşdur.

C.M.Hüseynov 1913-cü ildə Şəkidə anadan olmuşdur. O, 1920-1927-ci illərdə Şəki şəhər üç nömrəli orta məktəbdə oxumuş və təhsilini Ağdam Kənd Təsərrüfatı Texnikumunda davam etdirmişdir (1927-1929). Texnikumda təhsilini başa vurduqdan sonra Gəncə Kənd Təsərrüfatı İnstitutuna qəbul olub (1930), 1934-cü ildə oranı bitirib. Gəncliyindən elmə böyük həvəsi olan C.Hüseynov 1934-1936-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda assistent və Azərbaycan Elmi Tədqiqat Kimya İnstitutunda baş elmi işçi işləyib. 1936-cı ildə Ümumittifaq Elmi Tədqiqat Aqrokimya İnstitutunda aspiranturaya qəbul olunub. 1939-cü ildə Moskvada Timiryazev adına Kənd Təsərrüfatı Akademiyası Elmi Sovetində müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edib. 26 yaşlı gənc alim 1939-1941-ci illərdə keçmiş SSRİ EA Azərbaycan filialının torpaqşünaslıq bölməsində baş elmi işçi işləyib. O, eyni zamanda, üzvi gübrələr laboratoriyasına da başçılıb edib. 1944-cü ildə o, SSRİ EA Azərbaycan filialı Aqrokimya və Torpaqşünaslıq İnstitutunun direktor müavini, 1945-1952-ci illərdə həmin institutun direktoru işləyib. C.Hüseynov 1947-ci ildə V.V.Dokuçayev adına Torpaqşünaslıq İnstitutunun Elmi Şurasında doktorluq dissertasiyası müdafiə edib. Bir il sonra (1948) ona professor adı verilib. Tanınmış alim 1949-cu ildə Azərbaycan EA-nın müxbir üzvü olub. Yorulmaq bilməyən, daim axtarışda olan aqrokimyaçı 1950-ci ildə Dövlət mükafatına layiq görülüb və Azərbaycan sülhü müdafiə komitəsinə üzv seçilib. C.Hüseynov 1952-1953-cü illərdə Azərbaycan EA Torpaqşünaslıq İnstitutunda baş elmi işçi işləyib. O, 1952-1969-cu illərdə Bakı Dövlət Universitetinin biologiya fakültəsində professor işləməklə, Azərbaycan EA Torpaqşünaslıq İnstitutunda aqrokimya laboratoriyasına (1953-1954, 1957-1960) və şöbəsinə rəhbərlik edib (1954-1957).

C.Hüseynova 1960-cı ildə "Azərbaycanın əməkdar elm xadimi" fəxri adı verilmişdir. 1961-ci ildə Azərbaycan EA-nın həqiqi üzv seçilmişdir. Akademik C.Hüseynov 1963-cü ildən ömrünün axırına qədər Azərbaycan EA Torpaqşünaslıq və Aqrokimya İnstitutuna rəhbərlik etmiş, 1964-cü ildən Respublika Ali Soveti kənd təsərrüfatı və meliorasiya daimi komissiyasının sədri olmuşdur. 1966-cı ildə IX Mendeleyev qurultayında iştirak etmiş, 1970-ci ildən D.İ.Mendeleyev adına kimya cəmiyyətinin üzvü olmuşdur.

Akademik C.Hüseynovun elmi tədqiqatlarında neft və kimya sənayesi qalıqları əsasında boy stimulyartorlarının yeni növlərinin (neft-boy maddəsi), üzvi-mineral mikrogübrələrin kənd təsərrüfatında tətbiqi əsas yer tutmuşdur.

Unudulmaz alim bir çox orden və medallarla təltif edilmişdir. O, 1974-cü ildə vəfat etmişdir.

MƏŞHUR İXTİOLOQ

Bizim hər birimiz öz işimizin oğluyuq.
M.Servantes.

Yusif Əbdürrəhmanov.

Dünyada elə elm sahələri və sənətlər var ki, onun adını sadə xalq yaxşı bilir, tez anlayır. Lakin elə elm sahələri də var ki, onun elmi adını geniş kütlə bilmir, ancaq onun məşğul olduğu sahə isanlara gündəlik həyatda, yaşayışında həmişə lazım olur. Elmin bu sahələrindən biri ixtiologiyadır. İxtus-yunanca balıq, logiya - elm deməkdir. İxtiologiya elmi balıqları, onların quruluşunu, orqanlarının vəzifələrini, bütün inkişaf mərhələlərində həyat tərzini, müxtəlif vaxtlarda və hövzələrdə yayılmasının təsnifatını və təkamülünü öyrənir. Azərbaycan Sovet Ensiklopediyasında (5-ci cild, səh.26) qeyd edilir: "İxtiologiya sahəsində ən qədim ümumiləşdirmələr bizim e.ə. 6-cı əsrdə yaşamış hind alimi Susruqanın adı ilə bağlıdır. Balıqçılıq sahəsində ilk kitab isə e.ə. I minilliyin ortalarında Çində nəşr edilmişdir. Balıqlara aid sistemləşdirilmiş məlumatı ilk dəfə Aristotel vermişdir. O, özünün "Heyvanların tarixi" kitabında balıqları su heyvanları qrupuna ayırır".

Respublikamızın tərəqqipərvər ziyalı təbəqəsini həmişə bir sual maraqlandırmışdır: "Dənizdən neft çıxarmaq lazımdırmı?" Hamıya məlumdur ki, mərhum akademik Derjavin, Azərbaycan EA-nın müxbir üzvü mərhum Q.Gül ömürlərinin sonuna qədər dənizdən neft çıxarılmasının əleyhinə olmuş, Xəzər balığının neftdən qat-nat qiymətli olduğunu sübuta yetirmişlər.

Bəli, balıq "ən qiymətli" yeyinti məhsuludur. Neftdən qiymətlidir. Hamının yadındadır ki, müharibə illərində Kür ətrafında olan əhalini aclıqdan balıq xilas elədi. İndi Kürdə balıq qalmayıb. Olan balığın bir qismi kanallarda, bir qismi də Mingəçevir dənizindən turbinlərə su gedəndə tələf olur. Azərbaycan EA Zoologiya İnstitutunun elmi işçiləri Ş.Bağırovanın, A.Əliyevin məlumatından: "Təkcə Xəzərdə 111 növ, daxili sularımızda isə 92 növ balığa rast gələ bilərik... Bu qiymətli sərvətin artıb çoxalmasına Kür çayının rolunu isə heç nə ilə əvəz etmək olmaz. Kür çayı təkcə öz qoynunda bəslədiyi neməti deyil, həm də ətrafdakı göllərdə olan balıqların həyatını təmzim edir... Vaxtilə Kürdən 880 min sentnerə qədər balıq ovlamaq mümkün idisə, indi onun miqdarı 2,3 dəfə azalmışdır... 40-cı illərə qədər Kürətrafı göl-axmazlardan ildə 148 min tondan çox balıq tutulduğu halda, 1984-cü ildə 20 ton balıq ovlanmışdır. 1987-ci ildə göllərimizdən 334 tondan bir az çox, su anbarlarından isə 865 ton balıq tutulmuşdur. Hazırda respublikamızda adambaşına ildə 3,2 kq balıq və balıq məhsulları düşür. Bu göstərici İttifaqda axırıncı yerlərdən biri deməkdir" ("Kommunist" qəzeti, 10 iyun 1989).

Bəs, vaxtilə nərə balığı, qara kürü istehsalında yeganə olan Xəzər dənizindən indi nə istehsal olunur? 50-ci illərdə Xəzərdən mövsüm ərzində 300 min ton balıq ovlanırdısa, indi bu rəqəm 70 min tona zorla çatır. Xəzərdə siyənək, ağgöz, ilanbalığı növlərinin nəsli üzülüb, nərə balığı "Qırmızı kitab"a düşmək üzrədir.

Məlumatlara görə dünyada qızıl balığın təxminən 30 faizi Xəzərdə ovlanır, qara kürünün 90 faizi burada istehzsal olunur. AzərTAC-ın məlumatından aydın olur ki, əgər 30-cu illərdə 6 milyon sentnerdən çox, əsas etibarilə qiymətli növlərdən olan balıq ovlanırdısa, 1988-ci ildə cəmi 3,5 milyon ton balıq tutulmuşdur.

İyirminci əsrin sonuncu onilliyindən, demək olar ki, doğma Xəzərimiz ölü dənizə çevrilmək təhlükəsi altında qalıb. Gözəllər gözəli doğma Xəzərimiz bizdən imdad gözləyir. Bizi bəsləyən ana Xəzərə, onun hesabsız nemətlərinə naxələf çıxmayaq. Hər şeyi neftə - "qara qızıla" qurban verməyək.

Yuxarıda danışdıqlarım, bu böyük həyati vacib problemlər Vətənimizin məşhur ixtioloq alimi kimi Yusif Ələkbər oğlu Əbdürrəhmanovun həyatının başlıca məzmununu təşkil edirdi. Yusif müəllimin üç monoqrafiyası məhz bu sahəyə həsr edilmişdir: "Azərbaycanın balıqları" (Bakı, 1955), "Azərbaycanın faunası" (c.7), "Balıqlar" (Bakı, 1966), "Azərbaycanın şirin su balıqları" (Bakı, 1962). Onun bu sahədə apardığı elmi işlər və çap olunmuş məqalələr saysız-hesabsızdır.

Yusif Əbdürrəhmanov 1912-ci ildə Şəkidə anadan olmuşdur. Şəki nümunə zəhmət məktəbini qurtarmış, Şəki Pedaqoji məktəbində təhsilini davam etdirmişdir (1925-1929), Y.Əbdürrəhmanov 4 il kənd müəllimi işlədikdən sonra, 1934-cü ildə ADU-nun biologiya fakültəsinə daxil olmuş, 1939-cu ildə təhsilini başa vurmuşdur. O, 1945-ci ildən Azərbaycan EA Zoologiya İnstitutunda işləmiş, 1952-ci ildən ömrünün sonuna qədər həmin institutda ixtiologiya laboratoriyasına rəhbərlik etmişdir. Y.Əbdürrəhmanov öz tədqiqatlarını Xəzər dənizinin, həmçinin su hövzələrinin balıq təsərrüfatı və faunasına həsr etmiş, zoologiya terminləri lüğətinin tərtibində yaxından iştirak etmişdir.

Görkəmli ixtioloq, biologiya elmləri doktoru (1964), professor (1965), Azərbaycan EA müxbir üzvü (1968), müharibə iştirakçısı Yusif Ələkbər oğlu Əbdürrəhmanov 1977-ci ildə Bakıda vəfat etmişdir.

O, bir çox orden və medallarla təltif edilmişdir. Ümid edirik ki, Şəki ziyalıları öz şöhrətli alimlərini yaddan çıxarmayacaq və onun adını haradasa əbədiləşdirəcəklər.

TANINMIŞ ZOOLOQ-ENTOMOLOQ

Görmək və anlamaq sevinci təbiətin gözəl hədiyyəsidir.
A.Eynşteyn.

Doğrudan da, təbiətin çox qəribə, özünəməxsus qanunları vardır. Bəzən eyni qrupa mənsub bitkilərdən bir neçəsi insan

üçün qiymətli qida olduğu halda, həmin qrupdan olan digərləri ən dəhşətli zəhərdir. Məsələn, göbələklər buna misal ola bilər. Heyvanlar aləmində də belədir. Həşəratlar dedikdə bir anda adam fikirləşir ki, bunların da görəsən lazımlısı varmı? Bəli, var. Bal arısı!

Niyazi Səmədov.

Məsələdən bir qədər uzaqlaşdıq. Söhbət entomologiya elmindən gedir (yunanca entoma - həşərat, logiya - elm deməkdir). Bu elmin əsası XVII əsrdə qoyulmuşdur. Müasir entomologiya iki hissəyə bölünür: ümumi və tətbiqi. Ümumi entomologiya həşəratların morfologiya, fiziologiya, biologiyasını və s. öyrənir. Tətbiqi entomologiya isə zərərli həşəratları və onlara qarşı mübarizə tədbirlərini öyrənir. Entomologiya praktiki cəhətdən kənd təsərrüfatı, meşə, tibb, baytarlıq entomologiyasına bölünür.

Niyazi Həmid oğlu Səmədov öz mənalı ömrünün çox hissəsini məhz entomologiya elminin kənd təsərrüfatı ilə məşğul olan bölməsinə həsr etmişdir. Arıçılıq və ipəkçilikdə faydalı həşəratların istifadə edilməsi aydındır. Həşəratların torpaq xassələrinə təsirini və onun münbitləşməsində, bərpa olunmasındakı rolunu da məhz torpaq entomologiyası tədqiq edir. Əsərlərindən bir neçəsinin adını çəkək: "Taxıl böcəkləri" (Bakı, 1953), "Azərbaycanda kənd təsərrüfatı bitkilərinin zərərvericiləri və xəstəlikləri, onlara qarşı mübarizə tədbirləri" (Bakı, 1965), "Fauna i biologiya jukov, vredyaşix selskoxozyaystvennım kulturam və Azerbaydjane" (Bakı, 1963), "Redkiye nasekomıye" (Moskva, 1982) və s. Bu əsərlərin, torpağın və ümumiyyətlə, kənd təsərrüfatı ekologiyası tarazlığının pozulduğu bir dövrdə nə qədər böyük bir əhəmiyyətə malik olması aydın məsələdir.

Niyazi Səmədov 1916-cı ildə Şəkidə anadan olmuşdur. O, 1947-1961-ci illərdə Azərbaycan EA Zoologiya İnstitutunda ki-

çik elmi işçi, baş elmi işçi, elmi hissə üzrə direktor müavini, 1961-ci ildən entomologiya laboratoriyasının rəhbəri işləmişdir. Biologiya elmləri doutoru (1964), professor (1971) Azərbaycan EA-nın müxbir üzvü (1980) N.H.Səmədov Hindistan Beynəlxalq Zoologiya Akademiyasının həqiqi üzvüdür (1972), N.Səmədov tərəfindən Azərbaycanda 26 fəsiləyə mənsub 2900-dən çox böcək növü aşkar edilmişdir. Bunların 16-sı elm üçün yeni olmuş, 89-u Qafqaz, 43-ü keçmiş SSRİ, 760 növü isə respublika faunası üçün ilk dəfə göstərilmişdir. O, 120 elmi əsərin və 5 monoqrafiyanın müəllifidir.

N.H.Səmədov 1989-cu ildə vəfat etmişdir.

QOCAMAN COĞRAFİYAÇI

Alimin abiddən olan üstünlüyü bədrlənmiş ayın digər ulduzlardan olan üstünlüyü kimidir.
Məhəmməd peyğəmbər (s).

Aqillər demişkən, elmin vətəni yoxdur. Elm bəşəriyyət üçün, onun rifahı, gələcəyi üçündür. Ancaq hər bir xalq, millət həmin alimin, şairin, bəstəkarın doğulduğu məkanla fəxr edir. Azərbaycan coğrafiya elminin bayraqdarlarından biri, alim-pedaqoq Əbdürrəhim Hacızadə belələrindəndir.

Əbdürrəhim Məmmədiyyə oğlu Hacızadə 1920-ci ildə Şəki şəhərində müəllim ailəsində anadan olmuşdur. Orta təhsilini Şəkidə alan Ə.M.Hacızadə 1946-cı ildə Azərbaycan Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsini bitirmişdir. O, 1950-ci ildə "Kəlbəcər-Laçın rayonlarının iqtisadi-coğrafi səciyyəsi" mövzusunda namizədlik, 1971-ci ildə isə "Azərbaycanın sənaye kompleksi, onun inkişafı və ərazi təşkilinin coğrafi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş 1953-cü ildə dosent, 1973-cü ildə isə professor elmi adına layiq görülmüşdür. Ə.M.Hacızadənin təşəbbüsü və yaxından iştirakı ilə 1960-cı ildə universitetin geologiya-coğrafiya fakültə-

si nəzdində yeni, iqtisadi coğrafiya kafedrası yaradılmış və o, 30 il fasiləsiz həmin kafedraya rəhbərlik etmişdir. İstedadlı alim 190-dan çox elmi əsərin müəllifidir. Onların arasında "Azərbaycan SSR-in əhalisi və onun məskunlaşması", "SSRİ-nin iqtisadi coğrafiyası", "Zaqafqaziya respublikalarının coğrafiyası", "Azərbaycan iqtisadi rayonu" (1964), "Azərbaycan sənaye kompleksi" (1975), "Azərbaycan SSR-in sənayesinin inkişafı, təbii ehtiyatları" (1983), "Bakı-iqtisadi-coğrafi səciyyəsi" (1970) və s. kimi monumental əsərlərini göstərmək olar. Ə.Hacızadənin Azərbaycan Respublikasının və Bakının iqtisadi-coğrafi səciyyəsinə aid kitabları ilk dəfə olaraq ingilis, fransız, ispan, ərəb, hind və başqa xarici dillərə tərcümə olunmuşdur. Onun beynəlxalq aləmdə görkəmli tədqiqatçı kimi qazandığı böyük nüfuz müxtəlif ölkələrin alimləri ilə birgə tədqiqatlar aparmağa əsas vermişdir. Onun coğrafiya elminin ən yeni nailiyyətlərinin Azərbaycana gətirilməsində xüsusi xidmətləri olmuşdur. Yorulmaq bilməyən alim bir sıra əhəmiyyətli kitabların, dərsliklərin Azərbaycan dilinə tərcüməsini də həyata keçirmişdir. Ümumiyyətlə, Ə.M.Hacızadənin apardığı tədqiqatların əhatə dairəsi olduqca geniş və şaxəli olmuşdur. Onun elmi yaradıcılığının başlıca mahiyyətini iqtisadi-coğrafi ərazi komplekslərinin araşdırılması təşkil edirdi. Bu baxımdan professor Ə.Hacızadənin "Azərbaycanın sənaye kompleksi", "Azərbaycan sənayesinin inkişafının təbii ehtiyatları" əsərləri elmimizin sanballı tədqiqat nümunələrindəndir.

Ə.M.Hacızadə Azərbaycanın dövlət-plan və idarə orqanları tərəfindən sifarişlər verilən böyük iqtisadi əhəmiyyəti olan irimiqyaslı, elmin konstruktiv xarakterli tədqiqat işlərinin yerinə yetirilməsinə rəhbərlik etmişdir. Belə mühüm işlərdən tətbiqi əhəmiyyətli Azərbaycanın aliminin xammal ehtiyatları və istifadəsinin irimiqyaslı xəritəsini, Filizçay polimetal, Naxçıvan dağ-kimya komplekslərini göstərmək olar. Ə.M.Hacızadə müxtəlif iqtisadi xəritələrin tərtibinə ciddi yanaşmışdır. Məktəblər üçün divar xəritələri, Azərbaycanın 1963-cü ildə buraxılmış

kompleks atlasında verilən iqtisadi-coğrafi xəritələrin əksəriyyəti onun rəhbərliyi ilə hazırlanmışdır. Azərbaycan Sovet Ensiklopediyası (10 cildlik) üçün yazılan diyarşünaslıq, iqtisadi coğrafiya məqalələrinin, ensiklopediya sözlüyünün çoxunun müəllifi olmuşdur.

Professor Ə.M.Hacızadənin təşəbbüsü və iştirakı ilə 1983-cü ildə Bakı Dövlət Universitetində iqtisadi coğrafiya üzrə elmlər namizədi alimlik dərəcəsi almaq üçün müdafiə elmi şurası təşkil olunmuş və həmin şurada Azərbaycandan, Cənubi Qafqaz və Orta Asiya respublikalarından, Ukraynadan, Rusiyanın cənub regionlarından 20-dən çox dissertasiya müdafiə edilmişdir. Onun rəhbərliyi ilə 14 elmlər namizədi hazırlanmışdır.

Ə.M.Hacızadə Azərbaycan Coğrafiya Cəmiyyətinin (1959) vitse-prezidenti, iqtisadi-coğrafiya şöbəsinin daimi sədri, keçmiş SSRİ Coğrafiya Cəmiyyətinin qurultaylarının iştirakçısı, universitetlərin Elmi-metodik şurasının iqtisadi-coğrafiya bölməsinin üzvü olmuşdur.

Ömrünü elmə, ixtisaslı mütəxəssislər yetişdirməyə sərf etmiş, coğrafiya elminin mahir bilicisi Ə.M.Hacızadə 1991-ci ildə Bakıda vəfat etmişdir.

ŞƏKİLİ PROMETEY

Zəhməti ürəkdən sevsən əgər sən,
Ulduzdan ucaya qalxa bilərsən.
Mirzə Rəcəb Vəssaf
("Əxlaqnamə"dən).

Xalq yazıçısı Mirzə İbrahimov yazırdı: "Neftin yanmaq və yandırmaq keyfiyyətini aşkar edən ulu babalarımız necə də sevinmişdilər! Çünki günəş yurdunun, Odlar yurdunun oda, alova, işığa ehtiyacı heç də başqalarından az deyildir. Bəli, günəşli ölkədə, od-alov xəzinəsinin üstündə otura-otura əsrlər boyu biz istiyə və işığa möhtac olmuşuq...

Yer üzərində hər ölkənin, hər xalqın öz Prometeyi olub. Bu prometeylər insanlıq naminə çalışıblar, bu yolda fədakarlıq göstəriblər. Çox əziyyətlərə dözüblər, həqiqətdən dönməyiblər..." ("Kommunist" qəzeti, 02.10.1970).

Keçmişdə Bakı tozlu, küləkli şəhər kimi, onun neft mədənləri isə dəhşətli cəhənnəm rəmzi kimi dillərə düşmüşdü. Yaşıllıqdan məhrum, yoxsul Bakı Avropanın, Amerikanın diqqətini özünə çəkirdi. Hələ qədimdə öz-özünə çıxan nefti dəvə karvanları ilə səfərə gedənlər xüsusi qablarda məlhəm kimi uzaq ölkələrə aparırdılar. Nobellər və Rotşildlər Abşeron qara qızılını qatar-qatar Qərbi Avropaya, Amerikaya daşıyıb varlandılar, milyonçu oldular. Bunun müqabilində bu müqəddəs torpağın qeydinə qalmadılar, onu yerin dibindən çıxaranları isə dilənçi kökünə saldılar. Sonra neftin daha bir yeni axım sahəsi yarandı - çar Rusiyası.

Xarici kapitalistlər bu məzlum xalqı istismar etməklə bərabər, onları savadlanmağa qoymur, mühəndisləri öz ölkələrindən gətirir, istehsalı onlara tapşırırdılar. Lakin haqq gec də olsa, öz yerini tapmalıdır. XIX əsrdə Azərbaycanda neftxudaların meydana çıxması vəziyyəti bir qədər dəyişdirdi. Hacı Zeynalabdin Tağıyev kimi neftxuda, hamıya məlum olduğu kimi, Bakının gözəlləşməsinə, milli kadrların yetişməsinə, elmin, savadın inkişafına böyük təkan verdi. Azərbaycanda Neft və Kimya İnstitutunun, onlarca elmi tədqiqat institutlarının, akademiyanın yaranması istehsalın bu sahəsinin daha da inkişafına təkan verdi. Mazut içində çırpınan savadsız adamların dünyaya səs salan qəhrəmanları, alimləri, akademikləri və ixtisaslı sıravi fəhlələri yetişdi: Y.Məmmədəliyev, Ağa Nemətulla, neftçi Qurban, adi fəhlələrdən nazir vəzifəsinə yüksələn Bəxtiyar Məmmədov və b.

Bəli, bu inkişaf Bakımızı "Neft akademiyası" kimi şöhrətləndirdi. Usta Ağa Nemətullanın təklifi ilə neftçıxarmada yeni üsul tətbiq edildi: quyuları mail üsulla qazmaq. Bu üsul Dövlət mükafatına layiq görüldü.

Neftçilər dənizə də hücum etdilər - dünyada birinci dəfə də-

Solda Bəxtiyar Məmmədov.

nizdən neft çıxarmaq Azərbaycanda həyata keçirildi. Yeni prometeylər yarandı. Hələ uzaq Şəkinin özündən ... neçə-

8-ci Ümumdünya neft konqresi. Sağdan 1-ci B. Məmmədov. Moskva, iyul 1971-ci il.

Soldan 1-ci SSRİ Dövlət Plan Komitəsinin sabiq sədri N.K.Baybakov, sağdan 2-ci keçmiş Azərbaycan SSR Neft Sənaye naziri B.Məmmədov.

neçə neft qəhrəmanı yetişdi. Bəxtiyar Məmmədov, Sədrəddin Həmidov, Səyyad İbrahimov.

Bəxtiyar Məmmədrza oğlu Məmmədov 1925-ci ildə Şəkidə ipəkçi ailəsində anadan olmuşdur. Orta məktəbi qurtaran ili müharibə başlamışdır. Bəxtiyarın böyük bacısı Səkinə Məmmədova müharibənin ilk günündən cəbhəyə yola düşmüşdü. Səkinə xanım 1945-ci ilə qədər müharibədə iştirak etmiş, tibb leytenantı olmuşdur.

Neftçi olmaq arzusu ilə Bəxtiyar Azərbaycan Neft və Kimya İnstitutuna girir. Vətənin neftə olan tələbatını başa düşdüyü üçün gündüzlər işləyib, gecə oxumaq qərarına gəlir. Bəli, o, əməyə fəhləlikdən başlayır. O dövrdə neftçıxaranların əməyi hər cür qəhrəmanlığa bərabər idi. Belə qəhrəmanlardan biri də 16 yaşlı Bəxtiyar idi. O, 1949-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirir və "neft-mədən işləri" ixtisasına yiyələnir. Qazma ustasının köməkçisi işləyən Bəxtiyarı 1950-ci ildə Moskvaya təkmilləşdirmə kursuna göndərirlər, qayıdanda onu mədənin böyük mühəndisi təyin edirlər.

Bütün çətinliklərdən üzüağ çıxan B.Məmmədov 1951-ci ilin yayında Neft daşlarına mədən müdiri vəzifəsinə göndərilir. O zaman açıq dənizdə quyu qazmaq, neft çıxarmaq üçün Bakının əksər adlı-sanlı neftçiləri Neft daşlarına səfərbər edilmişdi. Bəxtiyarın mədəni beşinci beşillikdə plandan əlavə min tonlarla neft verirdi. Əldə etdiyi nailiyyətlərə görə B.M.Məmmədov 1959-cu ildə bir neçə fəxri ada layiq görüldü.

Yorulmaq bilməyən, hər yerdə işıq axtaran bu insan 1962-ci ildə "Çoxlaylı dəniz yataqlarında quyu və loyaların qazılması, işlənməsi və tədqiq edilməsi prinsipləri" mövzusunda dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi aldı.

O, 24-dən çox çap olunmuş elmi işin, bir monoqrafiyanın, onlarca ixtira və səmərələşdirici təklifin müəllifidir.

1955-62-ci illərdə Neft-mədən idarəsinin rəisi işləyən B.Məmmədov sonra "Azərneft"ə baş mühəndis, bir il sonra isə "Dənizneft birliyi"nə rəhbər təyin edildi. İstedadlı təşkilatçı, alim-neftçi 1963-1965-ci illərdə Azərbaycan Neft Sənayesi naziri işləmişdir.

Daha sonralar müxtəlif rəhbər vəzifələrdə çalışan B.Məmmədov 1974-1976-cı illərdə Nigeriyada işləyən sovet mütəxəssislərinin rəhbəri olmuşdur. O, 1976-cı ildən ömrünün sonuna qədər (1989) Dövlət Elmi Tədqiqat Dəniz Neft-Qaz Qurğuları Layihələşdirmə İnstitutunda elmi işlər üzrə direktor müavini işləmişdir.

Ölkədə şöhrət qazanmış neftçi əməkdar mühəndis, fəxri neftçi adlarına və Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüş, bir çox orden, medal və fəxri fərmanlarla təltif edilmişdir.

Şöhrətli alim-neftçinin adına vətəni Şəkidə küçə vardır.

Bəxtiyar Məmmədov, Qurban Abbasov kimi tanınmış neftçilərin davamçısı İbrahimov Səyyad Cabbar oğlu olmuşdur. Səyyad İbrahimov 1936-cı ildə anadan olmuş, 1954-cü ildə Şəki 10 saylı orta məktəbini qurtarmışdır. Bir çox tanınmış şəxsiyyətlərin yetişməsində bu məktəbin də rolu böyük olmuşdur, lakin onların içərisində Səyyadın öz çəkisi, öz yeri var. Biz bir məktəbdə oxumuşuq. Səyyad hələ uşaqlıq illərindən öz səliqəsi, təmkini, tərbiyəsi və oxumağı ilə hamımızdan fərqlənərdi. Gənc yaşlarından hiss olunurdu ki, o, gələcəkdə tanınmış bir şəxsiyyət olacaq. Bu xüs usiyyətlər, bəlkə də, Səyyadda irsi idi. Atası Cabbar kişi Şəkidə öz səliqəli geyimi, ağır təbiəti, təmizliyi ilə seçilən əsl ziyalı idi.

Səyyad İbrahimovun əmək yolu, zəhmət xəritəsi belədir: 1959-cu ildə Azərbaycan Sənaye İnstitutunu fərqlənmə diplomu ilə qurtarıb indiki Neft Daşları Neft və Qazçıxarma İdarəsində mexanik kimi əmək fəaliyyətinə başlayır, sonradan neft-qazçıxarma ustası, mədənin böyük mühəndisi, mədən müdirinin müavini, rayon mühəndis-texnoloji xidmətin rəisi, İstehsalat Xidmət Bazasının rəisi, baş mühəndis, Neft və Qaxçıxarma İdarəsinin rəisi işləyir. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) birinci vitse-prezidenti olur. Bu yol çox şərəfli bir yoldur. Buna Səyyad İbrahimov öz zəhməti, biliyi, işgüzarlığı sayəsində nail olmuşdur. Yalnız bunlarla kifayətlənməyən Səyyad İbrahimov elmlə də məşğul olmağa vaxt tapmışdır. O, 1992-ci ildə müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. Ş.İbrahimov hazırda "Dənizneftqazlayihə" İnstitutunda baş mühəndisin müavini işləyir. Respublikanın əməkdar mühəndisi Səyyad İbrahimov Vavilov qızıl medalı və bir çox orden və medallarla, fəxri fərmanlarla təltif olunmuşdur. Bax, budur möcüzələr yaradan cəsur neftçinin həyat yolu - təmiz, zəhmətli, qeyrətli...

Memar kimi öz ömür binasını yaradan insan ona Vətən məhəbbəti, el qeyrəti, həqiqi ziyalılıq nəqşlərini vurursa, demək, o xoşbəxtdir. N.Nərimanovun dediyi kimi: "Vətənin qədrini o kimsə bilər ki, Vətən ilə onun ruhən rabitəsi olsun, Vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün".

Akademik Qurban Cəlilov.

Vətəni ilə nəfəs alan, ona ruhən bağlı, öz elmi axtarışları ilə dünyada tanınmış alim Qurban Nizaməddin oğlu Cəlilov məhz belələrindəndir. O, 1927-ci il 27 oktyabrda Şəkidə anadan olmuşdur. 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirir, Respublika EA Fizika və Riyaziyyat İnstitutunun aspiranturasına daxil olur. 1954-cü ildə namizədlik dissertasiyası müdafiə edir. Həmin ildən Azərbaycan EA Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda mühəndis, kiçik elmi işçi, baş elmi işçi, laboratoriya rəhbəri işləyən Q.Cəlilov 1974-cü ildən direktorun elmi işlər üzrə müavini olur. 1980-ci ildən Azərbaycan EA Yer Elmləri bölməsinin akademik katibinin müavini təyin edilir.

Hidromexanika sahəsində görkəmli alim Qurban Cəlilov 1963-cü ildə texnika elmləri doktoru, 1966-cı ildə isə professor olmuşdur. 1972-ci ildə Azərbaycan EA-nın müxbir, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir. Akademik Q.N.Cəlilov yeraltı hidroqazodinamika, neft və qaz yataqlarının işlənib hazırlanması sahəsində görkəmli alimlərdən biridir.

İstedadlı alim 167-dən çox elmi işin, dörd monoqrafiyanın müəllifidir.

Q.Cəlilov elmi kadrların hazırlanmasında da əvəzsiz işlər görmüşdür. O, 22-dən çox elmlər namizədi hazırlamışdır.

İ.M.Qubkin adına mükafat laureatı akademik Q.N.Cəlilov "Xalqlar dostluğu" ordeni və medallarla təltif edilmişdir.

Q.N.Cəlilov 2000-ci ildə vəfat etmişdir.

TƏBİƏT "HƏKİMİ" – ƏYYUBOV QARDAŞLARI



Əsgər Əyyubov.

Hörmətli şairimiz Bəxtiyar Vahabzadənin bir gözəl fikrini yada salmaq yerinə düşərdi: "Azərbaycanın təbiəti dünyada mövcud olan 12 iqlimdən 9-na malik olduğu kimi, bu torpağın xalqı da psixologiyanın bütün iqlimlərinə malikdir. Məsələn, Qarabağ musiqimizin, Qazax və Şirvan - şeirimizin, Bakı - təsviri sənətimizin məskəni olduğu kimi, Şəki də müdrik gülüşümüzün məskənidir" ("Gəlin açıq danışaq", Bakı, 1988, səh.173).

Bu gözəl təbiəti öyrənən, onu qorumaq yollarını axtaran alimlərimizi təbiət "həkimi" adlandırsaq, məncə, səhv etmərik. Öz bilik və bacarığını, sağlamlığını, bütün qüvvəsini bu müqəddəs yolda əsirgəməyən alimlərdən biri də Əsgər Cabbar oğlu Əyyubovdur.

Əyyubov Əsgər Cabbar oğlu 1926-cı ildə Şəkidə anadan olmuşdur. O, orta təhsilini burada almış, Azərbaycan Dövlət Universitetinin coğrafiya fakültəsini bitirdikdən sonra 1951-ci ildə Moskvaya aspiranturaya ezam olunmuşdur. Gənc tədqiqatçı 1954-cü ildə coğrafiya elmləri namizədi alimlik dərəcəsi almış, 1956-cı ildən kənd təsərrüfatı və kurort iqlimi sahəsində elmi işlərlə məşğul olmağa başlamışdır. 1971-ci ildə coğrafiya elmləri doktoru olmuş, 1969-1972-ci illərdə Azərbaycan EA Coğrafiya İnstitutunda təbiəti mühafizə şöbəsinin rəhbəri işləmiş, 1972-ci ildə meteorologiya və kənd təsərrüfatı iqlimşünaslıq şöbəsinin rəhbəri olmuşdur. O, 1970-ci ildə Respublikanın Dövlət mükafatı laureatı adına layiq görülmüş, 1976-cı ildə keçmiş SSRİ Coğrafiya Cəmiyyətinin F.P.Litke adına qızıl medalı ilə təltif edilmiş, keçmiş SSRİ XTNS-nin bürünc medalını almışdır. Yorulmaq bilməyən alim 160-dan çox elmi işin, 6 monoqrafiyanın müəllifidir.

Ə.Əyyubov kənd təsərrüfatı iqlimşünaslığı, bioiqlim Potensialının öyrənilməsi və ümumi işlimşünaslıq sahəsində tanınmış alimlərdən biridir. O, doktorluq dissertasiyasında dağ iqlimşünaslığının bir çox məsələlərini elmi surətdə araşdırmış, əsaslandırmış və kənd təsərrüfatında kara gələn bir çox təkliflər irəli sürmüşdür.

Ə.C.Əyyubov Coğrafiya İnstitutunun Elmi Şurasının "Aqrometeorologiya" bölməsinin, Azərbaycan Həmkarlar İttifaqı Şurasının kurortlar komissiyasının üzvü olmuşdur. Moskvada, Leninqradda, Sofiyada, Krakovda, Dehlidə keçirilmiş beynəlxalq elmi konfrans və simpoziumlarda iştirak etmişdir. O, dünyanın bir çox ölkələrinin - Bolqarıstan, Polşa, Hindistan və Kubanın alimləri ilə elmi əlaqələr saxlayır, həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda elmi kadrların hazırlanmasında böyük işlər görür. O, Kubada, Hindistanda dissertasiya müdafiələrində opponent kimi çıxış etmişdir. Alimin Orta Asiyadan, Sibirdən aspirantları olmuş, müvəffəqiyyətlə müdafiə etmişlər.

Son vaxtlar Ə.Əyyubov ekologiya, tibbi iqlimşünaslıq və fiziki coğrafiya sahəsində də qiymətli elmi tədqiqat işləri aparmışdır. O, uzun müddətdir ki, "Təbiət" radiojurnalının baş redaktoru olmuşdur.

Ə.Əyyubov 2000-ci ilin sentyabr ayında dünyasını dəyişmişdir.

Əyyubov Fikrət Cabbar oğlu 1934-cü ildə Şəkidə anadan olmuşdur. Orta məktəbi bitirdikdən (1951) sonra Azərbaycan

Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsinə daxil olmuş, 1956-cı ildə təhsilini başa vurmuşdur. O, 1956-1958-ci illərdə Şəki rayonunun Baş Küngüt kəndindəki orta məktəbdə coğrafiya müəllimi işləmiş, 1958-1961-ci illərdə isə Bakıda Hidrometeorologiya İdarəsində hidroqrafik partiyanın rəisi vəzifəsində çalışmışdır. 1967-ci ildə "Üçüncü dövr platosunda (Göyçay və Əlciyan çayları arası) torpaqların eroziyası" mövzusunda dissertasiya müdafiə etmiş, kənd təsərrüfatı elmləri namizədi alimlik adı almışdır. F.Əyyubov 1969-cu ildə Azərbaycan EA-nın Coğrafiya İnstitutunda baş elmi işçi, 1976-cı ildən Azərbaycan EA Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyində laboratoriya müdiri işləmişdir. O, 50-dən artıq elmi məqalənin və bir monoqrafiyanın müəllifidir. Unudulmaz alim müxtəlif vaxtlarda Moskva, Perm, Vladivostok, Daşkənd və digər şəhərlərdə kosmik tədqiqatlar, torpaq eroziyası və başqa problemlərlə əlaqədar çağırılan elmi konfrans və simpoziumlarda Azərbaycanı təmsil etmiş və elmi məruzələr etmişdir. O, "İnterkosmos" xətti ilə 1984-1987-ci illərdə Şəkidə keçirilən "Günəş" eksperimentlərinin iştirakçısı və təşkilatçılarından biri olmuşdur. F.C.Əyyubov 1991-ci ildə vəfat etmişdir.

AVTOMATİKA SAHƏSİNDƏ GÖRKƏMLİ ALİM

Nə eşitsən yadında saxla, təkrar et,
lakin uzaqgörən ol, təqlidçi olma.
"Qobusnamə"dən.

Yaxşı kəlamdır: "...təqlidçi olma". İstər alim olsun, istərsə də şair, yazıçı, bəstəkar, ifaçı, rəssam, arxitektor... öz dəst-xətti, öz yolu, öz fikri, öz yaradıcılığı... olmalıdır. Əlbəttə, bu, elmdə daha çox özünü büruzə verir.

Hamıya məlumdur ki, XX yüzil texniki tərəqqi əsri olmuşdur. Yeni kəşflər, elmin yeni sahələrinin yaranması əsri, belə sahələrdən biri də avtomatika, telemexanika və elektronikadır. Avtomatika İkinci Ümumdünya Energetika Konfransında (Berlin, 1930) texnikanın sərbəst sahəsi kimi tanınmışdır. Bəs elmin bu sahəsinin məşğul dairəsi nədən ibarətdir? Konkret desək, texnikanın bu sahəsi insanın bilavasitə iştirakı olmadan idarəetmə prinsipləri ilə məşğul olur. Avtopatikanın inkişafı XX əsrin sonlarında telemexanika elminə təkan vermişdir. Müasir dövrdə kosmosda aparılan tədqiqatları, nəhəng sənaye ocaqlarını telemexanikasız təsəvvür etmək mümkün deyil. Bunları deməkdə məqsədim odur ki, müasir texnikanın ən mürəkkəb və eyni zamanda olduqca aktual sahəsində çalışan ilk azərbaycanlı alimlərdən biri İzzət Əhməd oğlu Nəbiyevdir.

İ.Ə.Nəbiyev 26 yanvar 1923-cü ildə Şəkidə anadan olmuş, 1949-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. Tükənməz təşkilatçılıq qabi liyyətinə malik olan İ.Nəbiyev 1960-1963-cü illərdə Azərbaycan Neft və Kimya İnstitutunun istehsalat proseslərinin avtomatlaşdırılması fakültəsinin dekanı işləmişdir. O, 1970-ci ildən həmin institutun avtomatika, telemexanika və elektronika kafedrasının müdiri olmuşdur. Bu sahədə artıq tanınmış alim, texnika elmləri doktoru (1974), professor (1977) İ.Nəbiyev 1981-ci ildə Azərbaycanın əməkdar elm və texnika xadimi fəxri adına layiq görülmüşdür. Daim axtarışda olan professor İ.Nəbiyev 1969-cu ildə SSRİ Dövlət mükafatı laureatı adını almışdır. Onun yüksəkixtisaslı elmi kadrların hazırlanmasında da əvəzsiz xidmətləri olmuşdur. Respublikamızın hüdudlarından çox-çox uzaqlarda tanınmış görkəmli alim İ.Nəbiyev onlarca sanballı elmi əsərin müəllifi kimi də şöhrət qazanmışdır.

İzzət Nəbiyev 1993-cü ildə vəfat etmişdir.

Şişə çəksəz də diriykən ətimi,
Atmaram mən vətənü millətimi.
Abbas Səhhət.

Məmmədsadıx Sadixov.

Azərbaycan Sovet Ensiklopediyasında (IV c., səh.377) yazılıb: "İqtisadi siyasətin ali məqsədi xalqın maddi və mədəni həyat səviyyəsinin durmadan yüksəldilməsidir".

Xalqın maddi və mədəni həyat səviyyəsinin durmadan yüksəldilməsi hamının arzusudur. Bəs buna necə nail olmalı? İnsan siyasətlə məşğul olmamışdan qabaq yeməli, geyməli, yaşamaq üçün şəraiti olmalıdır. Mən bu sözlərin önünə "yaxşı" kəlməsini əlavə etmədim. Bu hamının arzusudur. Lakin bu arzu hər bir siyasi-ictimai quruluşda müxtəlif formada, müxtəlif cür və müxtəlif səviyyədə həyata keçirilir. "Hər kəsdən bacarığına görə, hər kəsə tələbatına görə" kommunist prinsipini həyata keçirmək üçün iqtisadi əsas yaratmaq məsələsinin həlli uğrunda 70 illik mübarizəmizin nəticələri göz qabağındadır... Mənim məqsədim iqtisadiyyat və istərsə də onun siyasi cəhəti haqda söhbət açmaq deyil. Mənə elə gəlir ki, siyasətsiz iqtisadiyyat və əksinə, iqtisadiyyatsız siyasət yoxdur. Respublikamızın görkəmli alimlərindən Sadıxov Məmmədsadıx Mustafa oğlu ömrünün 40 ildən çoxunu bu vacib məsələyə həsr edib.

M.M.Sadıxov 1924-cü ildə qədim Şəkidə dünyaya göz açıb. Atası 1930-cu ildə vəfat etmişdir. O, 1941-ci ildə orta məktəbi əla qiymətlə bitirib, həmin ildə Şəki İkiillik Pedaqoji İnstitutuna daxil olmuşdur. M.Sadıxov 1942-ci ilin iyun ayında institutun birinci kursunu bitirdikdən sonra könüllü olaraq Qara Dəniz

Hərbi Donanmasına xidmətə getmişdir. Müharibəyə gedəndən dörd ay sonra anası vəfat edir. Dəhşətli orasıdır ki, M.Sadıxovun bu hadisədən əvvəl kiçik qardaşı müharibədə həlak olmuşdur. O faciəli günləri xatırlayan Məmmədsadıx müəllim deyir: "Bizə məxsus olan yaşayış evi sahibsiz qaldığına görə, mən evin və ev əşyalarımızın qonşuya verilməsini öz imzamla təsdiq etmişəm".

M.Sadıxov Qara Dəniz Donanmasında xidmət etdiyi müddətdə bir sıra hərbi əməliyyatlarda iştirak etmişdir: Novorossiysk, Kerç və Sevastopolun azad olunmasında. O, 1946-cı ildə Ali Hərbi Komandanlığın xüsusi əmri ilə hərbi dəniz donanması sıralarından tərxis olunmuşdur. Bakıya qayıdan M.Sadıxov 1947-ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun siyasi iqtisad qrupuna daxil olur. O, 1952-ci ildə institutu fərqlənmə diplomu ilə bitirmiş və elmi şuranın tövsiyəsi ilə Moskva Dövlət İqtisad İnstitutu Siyasi iqtisad kafedrasına göndərilmişdir. 1956-cı ilin fevralında namizədlik dissertasiyasını müdafiə edən M.Sadıxov həmin il Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun Siyasi iqtisadi kafedrasına müəllim təyin edilir. Ona 1961-ci ildə dosent adı verilmişdir. 1965-ci ildən keçmiş Bakı Ali Partiya Məktəbi Siyasi iqtisad kafedrasına rəhbərlik etmişdir. Daim axtarışda olan alim, Moskvada İctimai Elmlər Akademiyası Siyasi iqtisad kafedrasında doktorant olmuş, 1977-ci ildə iqtisad elmləri doktoru adına layiq görülmüşdür. 1979-cu ildən isə professordur. Professor M.Sadıxov 60 çap vərəqindən çox elmi işin müəllifidir. O, bir çox orden və medallarla təltif edilmişdir.

Maraqlıdır ki, Məmmədsadıq müəllimin həyat yoldaşı Leyla xanım da əri kimi iqtisadçıdır. O, M.Ə.Rəsulzadə adına Azərbaycan Dövlət Universitetinin Siyasi iqtisad kafedrasının dosenti, iqtisad elmləri namizədidir. Onların böyük oğulları Mustafa Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və eyni zamanda Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Plan-iqtisadiyyat fakültəsini

qiyabi qurtarmışdır. Azərbaycan Dövlət İqtisad İnstitutunda baş müəllim işləyir.

Məmmədsadıq müəllimin kiçik oğlu Paşa Moskvada Beynəlxalq Əlaqələr İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir, Hindistanda ticarət nümayəndəsi vəzifəsində çalışır. Professor M.Sadıqovun qızı Ruhangül isə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmiş, Mingəçevirdə texnikumda siyasi iqtisad müəllimi işləyir.

Vaxtilə ailənin yeganə yadigarı olan Məmmədsadıq müəllimin belə nümunəvi ailəsi və gözəl balaları var.

M.M.Sadıqov 1994-cü ildə vəfat etmişdir.

MƏSİMOV ƏLİ ƏHMƏD OĞLU

Ə.Ə.Məsimov 1953-cü ildə Şəki şəhərində anadan olmuşdur. 1970-ci ildə orta məktəbi qurtarmış, 1975-ci ildə isə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. O, 1975-1976-cı illərdə orduda xidmət etmişdir. Ə.Məsimov SSRİ EA İqtisadiyyat İnstitutunda aspiranturanı bitirdikdən sonra, 1980-1991-ci illərdə Azərbaycan İqtisad İnstitutunda baş laborant, kiçik elmi işçi, elmi işçi, şöbə müdiri işləmişdir. 1985-ci ildə "Məhsulun keyfiyyətinin stimullaşdırılması" mövzusunda dissertasiya müdafiə etmiş, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. Gənc alim 1991-1993-cü illərdə Azərbaycan Prezident Aparatında iqtisadi məsələlər üzrə koordinasiya bölməsinin müdiri, Azərbaycan Xarici İnvestisiyalar Komitəsinin sədri, Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinin sədri, iqtisadiyyat naziri, Baş nazirin səlahiyyətlərinin icraçısı, Baş nazirin müavini kimi məsuliyyətli vəzifələrdə olmuş, respublikada baş verən siyasi hadisələrlə əlaqədar tutduğu vəzifələrdən istefa vermişdir. Ə.Məsimov 1992-ci ildən Müstəqil İqtisadçılar Birliyinin prezidentidir. O, 1200-dən çox elmi-nəzəri və publisistik məqalələrin müəllifidir. Tanınmış alim Ə.Məsimov vaxtaşırı respublika və Almaniya, İsveç, Türkiyə, Rusiya və digər ölkələrin mətbuatında iqtisadiyyatın aktual problemlərinə həsr edilmiş məqalələrlə çıxış edir. 1991-1993-cü illərdə onun bilavasitə rəhbərliyi və yaxından iştirakı ilə 30-dan artıq qanun və proqramlar hazırlanıb qəbul edilmişdir. Bunlardan "Azərbaycan İqtisadi Müstəqillik Konsepsiyası", "Aqrar islahatlar proqramı", "İqtisadi böhrana qarşı tədbirlər proqramı", "Azərbaycanın iqtisadi tərəqqi proqramı", "Sosial proseslərin tənzimlənməsi proqramı", "Azərbaycanın regional inkişaf proqramı" və qeyrilərini göstərmək olar.

Ə.Məsimov ABŞ-da, Almaniyada, Yaponiyada, Türkiyədə, Malayziyada və Bolqarıstanda iqtisadi islahatlar, demokratiya, inteqrasiya problemlərinə dair çıxış və məruzələr edib.

Şəkidə anadan olmuş, respublikada tanınmış alim iqtisadçılar[1]:

1. **Bayramova Əsmira Mustafa qızı - iqtisad elmləri namizədi.**
2. **Əlibəyova Əruziyə Mustafa qızı - iqtisad elmləri doktoru, professor.**
3. **Əhmədov Lətif Məhəmməd oğlu - iqtisad elmləri namizədi.**
4. **Əhmədov Nəcməddin Hidayət oğlu - iqtisad elmləri namizədi.**
5. **Əhmədov Əhməd-Cabir İsmayıl oğlu - iqtisad elmləri namizədi.**
6. **İsmayılov Cahangir Səlim oğlu - iqtisad elmləri namizədi.**
7. **İsmayılov Tilbert İsfəndiyev oğlu - iqtisad elmləri namizədi.**
8. **İsrafilov Həsən Abid oğlu - iqtisad elmləri namizədi.**
9. **İsrafilov Vəli Vəliyullah oğlu - iqtisad elmləri namizədi.**
10. **Kərimov Qüdrət Osman oğlu - iqtisad elmləri namizədi.**
11. **Quliyev Asiman Aydın oğlu - iqtisad elmləri namizədi.**
12. **Lətifov İsfəndiyar Məmməd oğlu - iqtisad elmləri namizədi.**
13. **Məlikov Yavər Abdulkərim oğlu - iqtisad elmləri namizədi.**

[1] Bu iqtisadçıların həyat və yaradıcılıqları haqda Ələfsər Məmmədov, Fikrət Xalıqovun "Şəki. Alim və ziyalılar" (Bakı, 2002) kitabında geniş məlumat verilib. Müəlliflərə öz adımdan və oxucular adından dərin minnətdarlığımı bildirirəm.

HAMININ HÖRMƏTİNİ QAZANIB

İki cür feyz vardır. İnsanların əksəriyyəti onun varlığından və qiymətindən xəbərsizdir: sağlamlıq və təhlükəsizlik.
Məhəmməd peyğəmbərin kəlamlarından.

Həmişə öz iradənə hakim, vicdanına isə qul ol.
M.Eşenbax.

İradəsi və vicdanı təmiz olan insan sağlamdır və həm də xalqının sevimlisidir. Fridrix Vilhelm Nitsşenin (1844-1900) özünün "Kəlam və oxlar başlığı altında yazdığı aforizmlərindən: "Öz iradəsini işə çevirə bilməyən adam, imkan daxilində işə məna verir, yəni təsəvvür edir ki, artıq onda iradə var (inam prinsipi)".

Respublikamızda öz iradəsi, sağlam vicdanı, paklığı, sadəliyi, gözəl biliyi, natiqliyi ilə tanınmış ziyalılardan biri Qüdrət Yaqub oğlu Əbdülsəlimzadədir.

O, 27 sentyabr 1933-cü ildə qədim Şəki şəhərində anadan olmuşdur. Q.Əbdülsəlimzadə 1952-ci ildə Şəkidə orta məktəbi qurtarmış, elə həmin il də Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdur. 1957-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirmiş, elmi şuranın zəmanəti ilə Azərbaycan EA İqtisadiyyat İnstitutu nəzdində "Azərbaycan xalq təsərrüfatının tarixi" bölməsi üzrə aspiranturaya daxil olmuşdur. Öz istedadı ilə fərqlənən Qüdrət hələ aspirant olarkən kiçik elmi işçi vəzifəsinə (1960) təyin edilmişdir.

1961-ci ildə müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etdikdən sonra, 1962-ci ilin dekabrından baş elmi işçi vəzifəsinə təyin olunur. Daim axtarışda olan alim 1969-cu ildə doktorluq dissertasiyası müdafiə edir. Q.Əbdülsəlimzadə 1971-ci ildən böyük elmi işçi, Azərbaycan EA İqtisadiyyat İnstitutu "Xalq təsərrüfatının və iqtisadi fikrin tarixi" şöbəsinin müdiri işləyir.

Q.Əbdülsəlimzadə respublikamızın görkəmli iqtisadiyyat alimi kimi şöhrət qazanmışdır. O, özünün 40 illik elmi və elmi-təşkilatçılıq fəaliyyəti dövründə Azərbaycan xalq təsərrüfatının və iqtisadi fikrinin tarixi sahəsində bir sıra fundamental əsərlərin yazılmasında bilavasitə iştirak etmiş və rəhbərlik etmişdir. Alimin belə tədqiqatlarından inkişaf təcrübəsinin ümumiləşdirilməsi, iqtisadiyyatın inkişafı və ayağa qalxması, respublikada istehsal qüvvələrinin inkişafında xüsusiyyət və qanunauyğunluqların aşkarı və b. göstərmək olar. Q.Əbdülsəlimzadə 250-dən artıq elmi monoqrafiyanın, kitabın, eləcə də xalq təsərrüfatı və iqtisadi fikrin tarixinə dair Azərbaycan, rus, ingilis və tacik dillərində çıxan qəzet və jurnallarda çap edilmiş məqalələrin müəllifidir. O, 4 nəfər iqtisadiyyat elmləri namizədi, bir nəfər doktoru yetişdirmiş, 20-dən artıq namizədlik və doktorluq dissertasiyanın opponenti və bir sıra elmi işlərin redaktoru olmuşdur.

Respublikada tanınmış iqtisadçı alim, "Xalq təsərrüfatı və iqtisadiyyatının tarixi" əlaqələndirmə şurasının sədri, "Bilik" cəmiyyətinin nəzdindəki iqtisadiyyat bölməsinin üzvü, Azərbaycan Ensiklopediyasının elmi məsləhətçisi, bir sıra elmi şuraların üzvüdür.

Q.Əbdülsəlimzadə narahat alim ziyalılarımızdandır. O, vətənimizdə baş verən istər iqtisadi və istərsə də siyasi dəyişikliklərdə kənarda qalmağı sevmir. Onun öz fikri, öz yolu vardır: haqq və ədalət yolu. Məhz bu keyfiyyətlərinə görədir ki, hamının hörmətini qazanıb.

ADƏT-ƏNƏNƏLƏRİMİZİN TƏBLİĞATÇISI

"Hər xalqın öz iqri, dini və qövmündə yaratdım".
Qurani-Kərimdən.

Hər xalqın öz adət-ənənəsi, özünəməxsus musiqisi, ədəbiyyatı, folkloru, mətbəxi və s. vardır. Bunları ümumilikdə öyrəndikdə, o xalq haqqında sənin təsəvvürün olur. Müasir dövrdə



Fikrət Hacıyev.

bunları kitablardan, kütləvi informasiya vasitələrindən və nəhayət, İnternetdən öyrənmək mümkündür. Keçmişdə isə deyərdilər ki, - hətta buna nağıllarımızda da rast gəlmək olur, - bir vilayətə gedəndə əvvəl onun bazarına və bir də karvansarasına baş çəkmək lazımdır. Bazara baş çəksən, bilərsən ki, bu vilayətdə ədalət, düzgünlük var, ya yox. Şor yağ qiymətinə satılırsa, rəhmətlik Məmməd Arazın dililə desək, "bazarında iti atından baha"dırsa, deməli, bu vilayətdə haqq-ədalətdən söhbət gedə bilməz.

Şərq ölkələrində, o cümlədən, Azərbaycan ticarət yollarında və şəhərlərdə karvanların dayanacaq yeri - karvansaralar (karvansaray) inşa edilmişdir. İlk karvansaralar e.ə. 2-1-ci əsrlərdə yaranmışdır. IX-XVIII əsrlərdə ticarətin inkişafı ilə əlaqədar Azərbaycanda çoxsaylı mehmanxana tipli karvansaralar tikilmiş və onların çoxu tarixi-milli abidə kimi qorunmaqdadır. Belə memarlıq abidələrinə Təbrizdə, Bakıda, Şəkidə, Gəncədə, Şamaxıda, Ərdəbildə, Naxçıvanda və s. yerlərdə rast gəlmək mümkündür.

Hər bir karvansarada istirahət edən qonağın o yerin adət-ənənəsindən məlumatı olardı: istər onların qonaqpərvərliyindən, istər təmizkarlığından, mətbəxindən, musiqisindən və s. Çox şey də karvansaranın başçısının öz işlərini milli adət-ənənələrə uyğun necə qurmasından asılı olardı.

Müasir dövrdə karvansaraları mehmanxanalar əvəz etdi. Doğma Bakımızda olan karvansaralar müasir dövrün tələblərinə cavab verməklə yanaşı, qədim adət-ənənələrimizə sadiqliyi ilə seçilir.

Xacə Nəsrəddin Tusi yazırdı ki, insanlar öz ata-babalarının adət-ənənələrini, məsləklərini, nüfuzlarını, vəziyyətlərini və sairəni qoruyub saxlamalıdırlar.

Səməd Vurğun yazmışdır:

Ömürlük yol yoldaşıdır, doğrudan bizə adət,
Vərdişlərin övladıdır, ömür adlı bu səadət.

Bakıda doğma adət-ənənələrimizi qoruyan, onu təbliğ edən şəxslərdən biri Hacıyev Fikrət Şöyüb oğlu olmuşdur. F.Hacıyev 16 iyun 1933-cü ildə Şəki şəhərində papaqçı ailəsində anadan olmuşdur. Şöyüb kişi o vaxtların tanınmış sənətkarlarından idi. Onun sənət dostları Mustafa Həmid oğlu, İsmayıl Qafarov, Əhməd və Səttar (Kor Səttar) qardaşları bu adamı çox səmimiyyətlə yad edərdilər. Usta Şöyübün mərdliyi, təmizliyi, alicənablığı oğlanları Faiq və Fikrətə də keçmişdi. Böyük qardaş Faiq uzun müddət Şəki Ticarət şöbəsinə başçılıq etmiş və Şəkidə ən nüfuzlu, hörmətli şəxslərindən biri olmuşdur. 1960-cı ildə Fikrət Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun maliyyə-kredit fakültəsinə daxil olmuş, 1966-cı ildən - təhsilin başa vurduqdan sonra Bakı 3 saylı texniki-peşə məktəbində müəllim işləmişdir. 1970-ci ildə F.Hacıyev keçmiş "Moskva" mehmanxanasının restoranına müdir təyin edilmişdir.



Vasif Hacıyev, Gülsüm və balaca Fikrət.

O vaxtlar "Moskva" mehmanxanası xarici turistləri və rəsmi qonaqları qəbul edən yeganə yer hesab edilirdi. F.Hacıyev 1983-cü ildə "Moskva" mehmanxanasının müdiri təyin edilmişdir. Mehmanxananın müdiri işlədiyi dövrdə o, özünü bacarıqlı təşkilatçı, Azərbaycan adət-ənənələrinin hərtərəfli təbliğatçısı kimi göstərmiş, bir sıra orden və medallarla təltif edilmişdir. "Moskva" mehmanxanası bir neçə dəfə ittifaqın keçici qırmızı bayrağını almışdır. Fikrət və həyat yoldaşı Tangis müəllimə üç oğlan böyüdüb boya-başa çatdırmışlar. Rahib, Rüfət və Vasif. Onların hər üçü müxtəlif sahələrdə ataları kimi qeyrətlə xalqa xidmət edirlər. Oğlanlardan Vasif ata sənə-

tinin davamçısıdır. O da atası kimi Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmiş və bu sahədə işləyir. Vasifin həyat yoldaşı Gülsüm (müəllifin böyük övladı) Bakı Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir. Vasifin ailəsində balaca Fikrət böyüyür. Anası Gülsüm balaca Fikrəti danlayanda, hamı birlikdə onu müdafiəyə qalxır. Axı o, baba Fikrətin davamçısıdır.

Fikrət Şöyüb oğlu Hacıyev 15 fevral 1995-ci ildə dünyasını dəyişmişdir.

BİR AİLƏDƏ İKİ ALİM

Həyatda qazandığın təcrübəni başqalarına öyrətmək nəciblik əlamətidir.
Sokrat.

Məlumdur ki, Qurani-Kərimin 6236 ayəsindən mindən çoxu elmin müxtəlif sahələrinə həsr olunub. Həmin səbəbdən, "beşikdən qəbrə qədər öyrənin" deyən Məhəmməd peyğəmbər (ə) elm və alimlərə xüsusi hörmət və qayğı göstərdi: "Biliyi ilə xalqı faydalandıran bir alim 70 il ibadət edəndən xeyirlidir" - peyğəmbər Məhəmməd (ə).

Tanınmış publisist və ictimai xadim Mürşüd Məmmədlinin "Sözün işığı" (Bakı, 2004) kitabından bir parçanı oxucuların nəzərinə çatdırmağı özümə borc bilirəm: "...Ta qədimdən zəmanəmizə qədər elmli, dünyagörüşlü, insanların önündə gedən, onlara yol göstərən, savad verən, necə yaşamağı öyrədən, maarifləndirən, dostunu-düşmənini tanıdan adamlara ziyalı deyiblər. "İşıqlı" anlamına gələn ziyalı sözü beyinlərə, zehinlərə işıq gətirən mənasında başa düşülür... V.Q. Belinski yazırdı ki, mən cəmiyyət deyəndə onun ancaq duyan və düşünən təbəqəsini nəzərdə tuturam. duyan və düşünənləri çıxandan sonra cəmiyyət kimlərin ümidinə qalır? Rəngsiz, qansız və ruhsuz bir kütlənin, qafasının içərisində beyin əvəzinə peyin gəzdirən harınların, nadanların, yekələrin və ikiayaqlı təkələrin..."

Nə yaxşı ki, bu gün Azərbaycanda beyinlərə işıq gətirən ziyalılarımızın çoxu maddi ehtiyac ucbatından, ailəsini dolandırmaq üçün xarici dövlətlərə üz tutublar. Axı aylıq məvacibi ilə hətta yaşadığı evin kommunal xərclərini belə ödəyə bilməyən alim-ziyalı necə elmlə məşğul olsun? Dərs dedikləri universitetlərdə tələbənin "Mersedes"də, müəllimin avtobusda gəlməsinə alim-ziyalı necə dözsün? Əgər alim ailəsini necə dolandırmaq haqqında fikirləşirsə, o necə elmlə məşğul ola bilər? Yenə də rəhmətlik Məmməd Arazın sözləri yada düşür: "Bazarında iti atından baha, mən belə dünyanın nəyindən küsüm?" Bütün bunları yada salmaqda məqsədim iki alimin yaşamaq, daha doğrusu, dolanmaq üçün qardaş Türkiyə dövlətinə üz tutmasının səbəbini əziz oxuculara çatdırmaqdır.

Zöhrab Səmədov.

Ata Zöhrab Rəsul oğlu Səmədov 1939-cu ildə Şəkidə anadan olmuşdur.Orta təhsilini başa vurduqdan sonra Bakı Dövlət Universitetinə qəbul olmuş, 1965-ci ildə fizika fakültəsini qurtarmışdır. 1965-1968-ci illərdə fikiza fakültəsində radiotexnik kimi çalışmış, 1968-ci ildən həmin fakültədə müəllim kimi fəaliyyətə başlamışdır. 1986-cı ildə fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almış, 1990-cı ildən dosent olmuşdur. 1994-cü ildən Türkiyə Cümhuriyyətinin TUBETAK Mərmərə Araşdırma mərkəzində çalışır. 60-dan çox elmi məqalənin müəllifidir. Həmin mərkəzdə çalışdığı müddətdə 17 dəfə müxtəlif mükafatlarla təltif olunub, bir ixtira diplomu almış və Amerikada yayınlanan "KİM KİMDİR" kitabına salınmış, ona sertifikat verilmişdir.

Oğul Fərhad Zöhrab oğlu Səmədov 1972-ci ildə anadan olmuş, 1993-cü ildə Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir. Həmin ildən Azərbaycan Milli Elmlər Akademiyasının Fotoelektronika İnstitutunun aspiranturasına qəbul olmuş,



Fərhad Səmədov.

1998-ci ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. 1999-cu ildən Türkiyə Cümhuriyyətinin BUBETAK mərkəzində çalışır. Fərhadın elmi işləri bir çox beynəlxalq simpoziumlarda dinlənilmiş və çap olunmuşdur. O, Türkiyə optik komitəsinin, elektrooptik, çalışma qrupunun üzvüdür.

Bəli, bu dediklərim 8 milyondan 2 milyonunun dolanışıq naminə əcnəbi ölkələrə üz tutanlarından ikisi haqdadır.

İLK DƏFƏ...

Əfsanəvi Şəki torpağının yetirdiyi onlarla alim-mütəxəssis doğma respublikamızdan çox-çox uzaqlarda şöhrət qazanmış, elmin bir çox sahələrində ilk cığır açmışlar. Onların elmi axtarışları, aldıqları nəticələr, qəribçilikdə "ilk dəfə" kimi qiymətləndirilmişdir. Vaxtilə SSRİ deyilən ölkədə şöhrət tapmış alimlərdən biri də Rəsul Əli oğlu Ələkbərovdur. Rəsul Əli oğlu Ələkbərov 1928-ci ildə anadan olmuşdur. 1947-ci ildə orta məktəbi bitirmiş və Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuşdur. Azərbaycan EA-nın əməkdaşı, kimya elmləri namizədi Ələfsər Məmmədov "Şəki fəhləsi" (06.06.1991) qəzetində "Alimin yaradıcılıq laboratoriyasında" adlı məqaləsində professor Rəsul Ələkbərov haqda geniş və maraqlı məlumat vermişdir. Bu yazını olduğu kimi vermək qərarına gəldik. Müəllifə öz dərin minnətdarlığımızı bildiririk.

"Rəsul müəllim hələ Şəkidəki 5 nömrəli orta məktəbdə oxuyarkən bütün fənlərin öyrənilməsində səy və qabiliyyəti ilə fərqlənsə də, gələcək həyat yolunu istiqamətləndirən bacarıqlı kimya müəllimi Rəhilə xanımın onun qəlbinə bu elmin odundan saldığı qığılcım oldu. Elə bir qığılcım ki, sonradan məşələ çevrilib onun ömür yoluna nur çilədi. Orta məktəbi qızıl medalla qurtarıb, universitetin kimya fakültəsinə daxil oldu. Təhsildə fərqləndiyinə görə R.Ələkbərovu üçüncü kursdan N.İ.Lobaçevski adına Qorki Dövlət Universitetində təhsilini davam etdirməyə layiq gördülər. Qorkidə universiteti müvəffəqiyyətlə bitirib, Tomsk şəhərində üç il "tədqiqatçı-kimyaçı" kimi işlədikdən sonra, 1956-cı ildə Azərbaycan EA Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunun aspiranturasına daxil olan Rəsul Əli oğlu Ələkbərovun sonrakı bütün elmi yaradıcılığı bu institutla bağlıdır. Rəsul müəllim məhz bu institutun doğma divarları arasında kiçik elmi işçidən qeyri-üzvü kimya sahəsində tanınmış, öz sözü olan istedadlı mütəxəssis - professor vəzifəsinə qədər yüksəlmişdir. 1970-1975-ci illərdə institutun elmi işlər üzrə direktor müavini, 1972-ci ildən 1986-cı ilədək "Təmiz maddələrin kimyası və texnologiyası" laboratoriyasının rəhbəri olmuş, 1986-cı ildən isə bir neçə laboratoriyanı birləşdirən "Mineral xammalın kompleks emalı" şöbəsinin müdiridir.

R.Ələkbərovun elmi yaradıcılığının ana xəttini qeyri-üzvi kimyanın əsas şöbələrindən biri - qeyri-üzvi maddələrin ekstrasiyası sahəsində apardığı tədqiqatlar təşkil edir. Onun çoxfazalı sistemlərdə nadir və radioaktiv elementlərin kimyasına həsr edilmiş ilk elmi axtarışları orijinallığı ilə fərqlənərək öz əksini namizədlik dissertasiyasında (1961-ci il) və "Neftli yataqlarda radioaktiv elementlərin geokimyəvi məsələləri" (mərhum, Azərbaycan SSR EA-nın müxbir üzvü H.X.Əfəndiyevlə birlikdə yazılmışdır) monoqrafiyasında tapmışdır.

Bu tədqiqatlarla əlaqədar akademik A.V.Nikolayev yazır: "Hələ 50-ci illərdə R.Ə.Ələkbərov sübut etmişdir ki, təbii neftin tərkibində olan qeyri-üzvi birləşmələrin əksəriyyəti ilkin yox, sonrakı amillərin təsiri nəticəsində toplanır ki, bunların da ən əhəmiyyətlisi neftin tərkibindəki ayrı-ayrı aktiv komponentlərin müxtəlif metallara olan seçiciliyidir. Bu tədqiqatlarla R.Ə.Ələkbərov bir tərəfdən neftin qeyri-üzvi komponentlərinin mənşəyi məsələlərini düzgün aydınlaşdırdı, digər tərəfdən və

ən əhəmiyyətlisi, metalların seçici bir-birindən ayrılmasında tətbiq olunan ekstragentlərin yaradılmasını və axtarılmasını sintetik yolla yox, təbii neftin işlənmə məhsullarının tətbiqinə əsaslanmasını göstərdi ("Ekstraqenti i ekstraksiya,1975).

Təbii neftin turşularının iştirakı ilə ekstraksiya sistemlərinin müntəzəm fiziki-kimyəvi tədqiqi ilə, demək olar ki. D.İ.Mendeleyev cədvəlindəki bütün elementlərin naftenat birləşmələrinin əmələ gəlmə sahələri, onların ikifazalı sistemlərdə ekstraksiyasının kimyası və mexanizmi öyrənilib. Bu işlər R.Ələkbərovun doktorluq dissertasiyasının (1969-cu il) məğzini təşkil edir.

R.Ələkbərov tərəfindən təklif olunan neft mənşəli ekstragentlər üzvi iondəyişdiricilərin fonduna daxil olmuşlar və hazırda onun məsləhəti ilə nadir metalların - misin, kobaltın, sinkin və s. seçici ekstraksiyasına aid işlər əlvan metallurgiüa sahəsində müvəffəqiyyətlə sınaqdan keçirilir.

İçməli suyun keyfiyyətinin yaxşılaşdırılması haqqında mətbuatda çox yazılır, radio və televiziyada çox danışılır. Bu sahədə son zamanlar irəliləyiş hiss olunsa da, respublika əhalisini içməli su ilə təmin etmək problemi, demək olar ki, həll edilməmiş qalır. İçməli su probleminin müsbət həlli məhz professor R.Ələkbərovun rəhbərlik etdiyi mütəxəssislər qrupu tərəfindən tapılıb. Onun bilavasitə rəhbərliyi və iştirakı ilə alınan yüksək səmərəli kimyəvi reagent-koaquleetdirici praktik olaraq suda olan bütün zərərli qarışıqları kənar etməyə və yüksək keyfiyyətli içməli su almağa imkan verir.

Rəsul müəllimin rəhbərlik etdiyi kollektiv xarici ölkələrin bir çox tədris, elmi tədqiqat müəssisələri ilə sıx əlaqə saxlayır və birgə tədqiqat işi aparır. Akademik, SSRİ Dövlət mükafatı laureatı Y.A.Zorlotov yazır: "R.Ə.Ələkbərov Bakıda ilk dəfə ekstraksiya mərkəzi yaratmış, bu sahədə ixtisaslı kadrlar hazırlamış və onun ekstraksiya kimya üzrə verdiyi yeni sinif ekstragentlər və onların əsasında hazırlanmış çox ekstraksiya sistemləri öz təbiiliyi ilə məşhurdur ("Oçerki po ekstraksii", Moskva, 1983).

Keçmiş SSRİ miqyasında ilk dəfə ekstraksiya üzrə mühazirələr BDU-da R.Ə.Ələkbərov tərəfindən oxunmuşdur.

Professor R.Ələkbərov dövri olaraq universitetdə və digər ali məktəblərdə kimya ixtisası üzrə dövlət imtahan komissiyalarının sədri təyin edilir.

Rəsul müəllimin elmi tədqiqatlarının nəticəsi öz əksini iki monoqrafiya, 200 elmi məqalə, işlərinin orijinallığını və yeniliyini bir daha təsdiq edən 50 müəlliflik şəhadətnaməsində tapmışdır. Onun rəhbərliyi ilə iyirmidən çox elmlər namizədi, iki elmlər doktoru hazırlanmışdır. Bir çox aspirant tədqiqat işlərini onun məsləhəti ilə davam etdirir.

Rəsul müəllim Milli Elmlər Akademiyasının və respublikamızın elmi, ictimai həyatında çox fəal iştirak edir. İnstitut elmi şuralarının üzvü, institutun "Qeyri-üzvi kimya" bölməsinin sədridir".

Rəsul Əli oğlu Ələkbərov 2000-ci ildə vəfat etmişdir.

FƏXRİ KİMYAÇI

Yer yağışdan, göz baxmaqdan, alim elmdən doymaz.
Ərəb xalq məsəli.

Yaşar Bilalov.

"Kimya" sözünün mənşəyi güman edilir ki, Misirin qədim adı Xemiyadan götürülmüşdür. Çağdaş kimya həm başqa elmlərlə, həm də xalq təsərrüfatının bütün sahələrilə sıx bağlıdır. Müasir elmin elə bir sahəsi yoxdur ki, kimya ilə sıx bağlı olmasın. Kimya elminin bir çox bölmələri vardır. Çağdaş elmin inkişafı ilə bağlı bu sahələr durmadan artmaqdadır. Elmin belə sahələrindən biri yüksək molekullu birləşmələrin

texnologiyasıdır. Ölkəmizdə bu sahədə şöhrət qazanmış alimlərdən biri də Y.M.Bilalovdur.

Yaşar Mahmud oğlu Bilalov 1936-cı il sentyabrın 29-da Şəki şəhərində doğulmuşdur.

1955-ci ildə Şəki şəhər M.F.Axundov adına 2 nömrəli orta məktəbi bitirib, həmin ildə də Azərbaycan Neft və Kimya İnstitutunun kimya- texnologiya fakültəsinə daxil olmuşdur. 1957-ci ildən təhsilini M.V.Lomonosov adına Moskva Zərif Kimya Texnolojiyası İnstitutunda davam etdirmişdir. 1961-1962-ci illərdə Bakı şin zavodunda işləmişdir. 1962-1965-ci illərdə Moskva Zərif Kimya Texnologiyası İnstitutunun aspirantı olmuş, 1965-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir.

1965-ci ildən Az.NKİ-nin yüksək molekullu birləşmələrin texnologiyası kafedrasında işləməyə başlamış, 1972-ci ildən bu kafedrada müdir vəzifəsində çalışmışdır.

1969-1970-ci illərdə İtaliyada Milan Politexnik İnstitutunda, 1967, 1972, 1974, 1984-cü illərdə Almaniyada, Polşada və Çexoslovakiyada ezamiyyətdə olmuşdur.

1987-ci ildə Moskva Zərif Kimya Texnologiya İnstitutunda dissertasiya müdafiə edərək texnika elmləri doktoru elmi adını almışdır. 1987-ci ildən professordur. 2000-ci ildə "Əməkdar elm xadimi" adına layiq görülmüşdür.

Professor Yaşar Mahmud oğlunun bu sahədə əldə etdiyi uğurlar arzusunda olduğu elmi axtarışların zirvəsi deyildir. Yer yağışdan, göz baxmaqdan, alim elmdən doymaz. İnanırıq ki, zəhmətkeş alim elmdə durmadan, yorulmadan öz axtarışlarını davam etdirəcək, daha böyük uğurlara çatacaqdır. Bunu həyat tələb edir. Ona görə ki, kimyasız xalq təsərrüfatının inkişafı mümkün deyildir. Təsərrüfatımızın inkişafı isə xalqın rifahı deməkdir. Bu müqəddəs yolda alimimizə uğurlar diləyirik.

ZƏKA İŞIĞI

Böyük şəxsiyyətlər heç zaman unudulmur.
Nuhuz Olcay Qılıc.

O hələ orta məktəbdə oxuyarkən öz ağlı, zəkası, xeyirxahlığı, sadəliyi, səmimiliyi ilə hamıdan fərqlənərdi. Aqillər yaxşı deyiblər ki, üzü ağıl və xeyirxahlıq bəzəyər. Müdrik insanın zəkası o, öz dünyasını dəyişdikdən sonra da işıq saçar. Respublikamızın belə zəkalı ziyalılarından biri də Fatiq Xasməmmədov idi.

Fatiq Xasməmmədov

F.İ.Xasməmmədov 1934-cü il fevralın 2-də Şəki şəhərində doğulub. 1952-ci ildə oradakı 10 №-li orta məktəbi əla qiymət və nümunəvi davranışla başa vurub. Həmin il Sənaye İnstitutunun neft-mexanika fakültəsinə daxil olub və 1957-ci ildə fərqlənmə diplomu ilə bitirmiş və həmin ixtisas üzrə mühəndis-mexanik dərəcəsi almışdır. İnstitutu qurtardıqdan sonra (1957-1960-cı illərin əvvəllərində) bir müddət Azərbaycan EA Yesman adına Energetika İnstitutunda, neftayırma zavodlarında neft və qaz emalının avtomatlaşdırılması sahəsində elmi araşdırmalar aparmışdır. 1960-cı ildə "İdarəetmə proseslərinin avtomatlaşdırılması" ixtisası üzrə aspiranturaya daxil olmuş və elmi tədqiqatlarını davam etdirmişdir. 1963-cü ildə "Bir və çoxaxınlı qızdırıcı borulu sobaların avtomatik tənzimləyici obyekt kimi tədqiqatı və onların avtomatlaşdırılma sxemləri" mövzusunda yazdığı dissertasiyanı uğurla müdafiə etmiş və texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

Bundan sonra F.İ.Xasməmmədovun elmi taleyi, əsasən, Azərbaycan Neft və Kimya İnstitutu ilə bağlı olmuşdur. O, öm-

rünün sonuna qədər həmin institutda İdarəetmə sistemlərinin avtomatlaşdırılması kafedrasının dosenti vəzifəsində işləmişdir.

F.İ.Xasməmmədovun elmi fəaliyyəti, əsasən, neftayırma zavodlarında neft və qazın emalı proseslərinin idarə olunmasının avtomatlaşdırılmasına həsr edilmişdir. Elmi tədqiqatlarda idarə olunan obyektlərin riyazi modelləşdirilməsinə, səmərəli idarəetməni təmin edən metod və sistemlərin işlədilməsinə, idarəetmə obyektlərinin optimallaşdırılmasına xüsusi fikir verilmişdir. İstilik obyektlərinin idarəetmə sistemləri müasir avtomatlaşdırma vasitələri əsasında yaradılmış və müxtəlif müəssisələrdə tətbiq olunmuşdur. O bu sahədə respublika və keçmiş ittifaq mətbuatında 60-dan artıq elmi məqalə dərc etdirmişdir. O, idarəetmə proseslərinin avtomatlaşdırılması ixtisası üzrə proqram və metodik vəsaitlər hazırlanmasında da fəal iştirak etmişdir.

Alimin uzunmüddətli elmi və pedaqoji fəaliyyətinin nəticəsi kimi akademik İ.Ə.İbrahimovla birlikdə yazdıqları "Avtomatik tənzimləmə nəzəriyyəsinin əsasları" dərsliyi meydana gəlmişdir. Bu dərslikdən neft-kimya proseslərinin avtomatlaşdırılması sahəsində ixtisaslaşan tələbələr geniş surətdə istifadə ediblər. Avtomatik sistemlərin yaradılmasının ayrı-ayrı məsələlərini əhatə etmək nöqteyi-nəzərindən öz aktuallığını itirməyib və gündəlik tələbatı tam ödəyir.

F.İ.Xasməmmədov öz ixtisası üzrə tanınmış mütəxəssislərdən biri olmuşdur. O, Moldava, Rumıniya, Almaniya və s. yerlərdən olan həmkarları ilə birlikdə bir sıra elmi tədqiqat işləri aparmış və alınmış nəticələrin istər respublikamızdakı neftayırma müəssisələrində, istərsə də Rumıniyadakı neftayırma zavodlarında tətbiqinə nail olmuşdur. Onun tədqiqatları daim həmkarlarının diqqətini cəlb etmiş, bir neçə müəlliflik şəhadətnaməsinə layiq görülmüşdür.

Onun əsərlərindən bir neçəsini göstərmək olar: İbrahimov İ.Ə., Xasməmmədov F.İ. "Avtomatik tənzimləmə nəzəriyyəsinin əsasları", Bakı, "Maarif", 1972.

İbrahimov İ.Ə., Xasməmmədov F.İ., Kərimov C.., Xəlil

Abbas oğlu. "Avtomatik tənzimlərə nəzəriyyəsinin əsasları və istehsal proseslərinin avtomatlaşdırılması", Bakı, "Maarif", 1983.

Xasməmmədov F.İ. "Avtomatizasiya upravleniya trubçatımi peçami" (Moskva, "Ximiya", 1980.)

Monoqrafiyada müasir neft emalı texnoloji qurğularının əsas texnoloji aparatlarından biri olan borulu sobaların avtomatlaşdırılmasına xüsusi fikir verilib. Müxtəlif növlü sobalar idarəetmə nöqteyi-nəzərindən təhlil olunub, sobaların iş rejimlərini optimallaşdırmaq üçün tələb olunan riyazi model və sistemlər yaradılıb.

Xasməmmədovun yaratdığı avtomatik idarəetmə sistemlərinin neft emalı zavodlarına tətbiqi borulu sobaların qənaətcil rejimlərdə istismar olunmasını, yanacağın sərfinin minimallaşdırılmasını təmin edir.

Unudulmaz alim 70-dən çox elmi işin müəllifidir. Onun bu gərgin əməyi sayəsində neft sənayemizdə müxtəlif problemlər həll edilmiş və külli miqdarda gəlir əldə edilmişdir. Fatiqi həmişə bir şey ruhlandırırdı: doğma vətəninə, xalqına xidmət etməsi. O, həmişə fərəhlə deyərdi: "Axı bizim Bakımız planetimizin neft akademiyasıdır". Planları, həyata keçiriləsi elmi fikirləri çox idi. Lakin...

Ölüm onu tez əlimizdən aldı. Bəli, əlimizdən aldı, qəlbimizdən çıxara bilmədi. Faciəli ölüm 2 fevral 1980-ci ildə tanınmış alim Fatiqin, onun Azərbaycan Neft və Kimya İnstitutunda təhsil alan balası Natiqin və anası Əliyə xalanın gözlərini əbədi yumdu. Fatiqin iki qız balası Xuraman və Gülnara ata yolunu davam etdirdilər. Hər ikisi atanın təhsil aldığı institutu qurtarıb, həyata vəsiqə aldılar. İndi Xuramanın ailəsində balaca Fatiq boya-başa çatır. "Ot kökü üstə bitər", "ağac kökündən su içər" - deyiblər. Kim bilir, bəlkə də gənc Fatiq baba Fatiqin layiqli davamçısı olacaq.

GÖRKƏMLİ ALİM, XEYİRXAH İNSAN

Çingiz Xəlifəzadə.

"Qobusnamə"də yazılıb ki, əgər ağlın varsa, sənət öyrən, çünki biliksiz ağıl, paltarsız bədən-simasız adam kimidir. Xalqımızın Nəsrəddin Tusi simalı, öz insanlığını, bilik və alimlik dühasını aynada olduğu kimi əks etdirən alimlərindən biri Xəlifəzadə Çingiz Müzəffər oğludur.

Ç.M.Xəlifəzadə 1931-ci ildə Şəki şəhərində doğulmuşdur. 1947-ci ildə Şəki Pedaqoji Texnikumunu əla vəsiqə ilə qurtarmış və həmin il Azərbaycan Dövlət Universitetinin geoloji coğrafiya fakültəsinə daxil olmuşdur.

1952-ci ildə universitetin geoloji coğrafiya fakültəsinin geoloji şöbəsini qurtarmışdır. 1955-ci ildə Azərbaycan Elmlər Akademiyasının aspiranturasını müvəffəqiyyətlə bitirmiş və geologiya minerologiya elmləri namizədi adını almışdır.

1956-1963-cü illərdə SSRİ EA Dağıstan filialında baş elmi işçi, şöbə müdiri və nəhayət, Geologiya İnstitutunun direktoru vəzifəsində çalışmışdır.

Həmin dövrdə Dağıstanın dəmir filizi və kömür yataqlarını tədqiq etmiş və bu haqda bir sıra sanballı elmi əsərlər və tövsiyələr hazırlamışdır.

Bakı Universitetinin nəzdində paleobiogeokimya problem laboratoriyasını yaratmışdır.

1972-ci ildə Moskvada SSRİ EA-nın Geologiya İnstitutunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1975-ci ildən professordur.

1974-1981-ci illərdə Bakı Universitetinin Faydalı qazıntılar kafedrasının professoru olmuşdur.

1980-1981-ci illərdə Bakı Universitetinin nəzdində BMT-

nin inkişaf etmiş və sosialist ölkələri geoloqları üçün ixtisaslaşdırma kursu açmış və onun direktoru vəzifəsində işləmişdir.

1981-ci ildən Azərbaycan Neft və Kimya İnstitutunda kafedra müdiri vəzifəsində çalışır. Ç.M.Xəlifəzadə litologiya, geokimya və çökmə mənşəli faydalı qazıntılar sahəsində tanınmış görkəmli mütəxəssislərdəndir. O, Qafqazın litologiyasına, geokimyasına və faydalı qazıntılarına həsr olunmuş 4 monoqrafiyanın, bir dərsliyin və 150 elmi məqalənin, elmi hesabatların və bir sıra ixtiraların müəllifidir.

Ç.M.Xəlifəzadəyə fəal elmi və pedaqoji fəaliyyətinə görə 1980-ci ildə Azərbaycanın fəxri geoloqu adı verilmişdir.

Bundan başqa, Ç.M.Xəlifəzadə keçmiş SSRİ Xarici İqtisadi Əlaqələr və Ali Təhsil Nazirliklərinin fəxri medalları ilə təltif olunmuşdur.

Ç.M.Xəlifəzadə IX, XI və XIV beynəlxalq sedimentoloji konqreslərdə (Fransa-1975, Kanada-1982, Bolqarıstan-1989) iştirak etmişdir. Bundan başqşa o, iki Beynəlxalq sedimentoloji Konqresdə (Avstraliya-1986, İngiltərə-1990 qiyabi məruzələrlə çıxış etmiş və Geologiya bölməsinin sədri seçilmişdir.

Ç.M.Xəlifəzadə Litoloji komitənin və Beynəlxalq sedimentoloji assosiasiyasının həqiqi üzvüdür. Ç.M.Xəlifəzadənin rəhbərliyi altında 12 namizədlik dissertasiyası müdafiə olunmuşdur. Onlardan beş nəfəri Misir, Yəmən, Mali və Vyetnam respublikalarının nümayəndələridir.

ƏMƏKDAR SƏMƏRƏLƏŞDİRİCİ

Hətəm Paşa oğlu İsmayılov 1932-ci ildə Şəkinin Güləhli məhəlləsində dünyaya göz açmışdır. 1950-ci ildə orta məktəbi bitirib Sənaye İnstitutunun neft-mədən fakültəsinə daxil olmuşdur. O, 1955-64-cü illərdə institutu "Dağ mühəndisi" kimi bitirib, respublikanın müxtəlif qazma idarələrində iş icraçısından sahə mühəndisinə qədər müxtəlif vəzifələrdə çalışıb. Hətəm 1965-1967-ci illərdə keçmiş Almaniya Demokratik RespublikasınınŞtralzund şəhərində buruq rəisi işləmiş və dərinliyi 5 min metr olan bir quyu qazıb təhvil vermişdir və məhz bu fəaliyyətinə görə diplomla təltif olunmuşdur. Xaricdən qayıtdıqdan sonra 1967-1969-cu illərdə baş mühəndis, sahə mühəndisi, sahə

rəisi vəzifələrində çalışmış, 1967-1969-cu illərdə texnoloji şöbəyə başçılıq etmişdir. H.İsmayılov 1971-1972-ci illərdə keçmiş İliç buxtası adına qazma idarəsində mərkəzi mühəndis-texnoloji sisteminə rəhbərlik etmiş, 1972-1980-ci illərdə 3 №-li qazma idarəsində baş mühəndis vəzifəsində çalışmışdır. İstedadlı mühəndis 1980-1988-ci illərdə neftçıxarmanın daha məsuliyyətli sahəsinə, 2 nömrəli qazma idarəsinə rəhbərlik edir. Onun başçılıq etdiyi idarə olduqca mürəkkəb şəraitdə ən dərin quyuları (6200 m və daha çox) qazıb təhvil vermişdir. O, 1988-ci ildən dərin özüllərin quraşdırılması üzrə rəis müavini işləmişdir. İstedadlı neftçi 60-dan çox səmərələşdirici təklifin müəllifidir. Ona 1960-cı ildə "Respublikanın əməkdar səmərələşdiricisi" fəxri adı verilmişdir. O, eyni zamanda müxtəlif jurnallarda dərc edilən 55 elmi məqalənin müəllifidir. H.İsmayılov 1988-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. O, iki monoqrafiyanın müəllifidir: "Mürəkkəb dəniz şəraitində quyuların qazılma təcrübəsi" (Bakı, 1992) və "Bakı arxipelaqi yataqlarında quyu qazılması zamanı mürəkkəbləşmə və qəzalar" (Bakı, 1998).

Hətəm İsmayılov

H.İsmayılov hazırda "Bakı limanı" adına DKQİ-də mərkəzi mühəndis Texnoloji xidmət şöbəsinin rəisi vəzifəsində çalışır.

ƏMƏKDAR METROTİKİNTİ MÜTƏXƏSSİSİ

Metrotikintinin mühəndis-geologiya sahəsində aparıcı alim və mütəxəssis Ramiz Yəhyayev 1928-ci ildə Şəki şəhərində anadan olmuşdur. O, 1944-cü ildə Şəkidə orta məktəbi, 1951-ci ildə isə Azərbaycan Sənaye İnstitutunu qurtarmışdır. 1964-cü ilə qədər "Azərneftkəşfiyyat" trestinin geoloji-axtarış kontorunda, 1983-cü ilə qədər mühəndis-geoloji şöbəsində rəis, sonra isə "Bakımetrolayihə" Layihə-Axtarış İnstitutunda aparıcı mütəxəssis vəzifəsində çalışmışdır.

Bakı metropoliteninin I - IV növbələrinin və başqa şəhərlərdə bir sıra metropolitenlərin tikintisində yaxından iştirak etmişdir. O, daim dağ işlərinin təhlükəsizliyinə mənfi təsir göstərən amillərin inkişafının qarşısını almaq tədbirlərinin işlənib hazırlanması məsələləri ilə məşğul olmuşdur.

Ramiz Yəhyayev.

R.Y.Yəhyayevin rəhbərlik etdiyi şöbə tunellərdə kessonla su səviyyəsinin aşağı salınması metodlarının əlaqəli layihələrinin işlənib hazırlanması ilə məşğul olmuşdur. Bu isə fövqəladə çətin geoloji şəraitdə yeraltı işlərin görülməsi üçün müsbət imkan yaratmışdır.

1975-ci ildə mühəndis tədqiqatları üzrə Elmi Tədqiqat İnstitutu və sənaye şurasının qərarı ilə ona geologiya-minerologiya elmləri namizədi elmi dərəcəsi verilmişdir. 20-yə yaxın elmi məqaləsi, "Metrostroy", Transportnoye stroitelstvo", "Azərbaycan EA xəbərləri" və s. nəşrlərdə dərc edilmişdir.

Metrotikinti sahəsində böyük xidmətlərinə görə ona "Azərbaycanın əməkdar mühəndisi" fəxri adı verilmişdir.

DEYİBLƏR Kİ...

Aqil o insandır ki, onun dedikləri nəsildən-nəslə keçir. Xalqımız aqil insanlara həmişə ehtiram etmiş, onların arxasınca getmiş, məsləhətlərinə qulas asmışlar. Aqil insan cavan və ya qoca olmasından asılı olmayaraq, ağsaqqaldır. Aqillər xalqın ən yaxşı adət-ənənələrinin saxlayıcısı, daşıyıcısı və ötürücüsüdür.

Aqil Əfəndiyev.

Belə insanlardan biri də Nəsrullah müəllimin oğlu Aqildir. Nəsrullah müəllim

Şəkidə tanınmış ağsaqqallardan biri olmuşdur. Aqil iqtisadiyyat sahəsində böyük şöhrət qazanmışdır.

Şəki ziyalılarının bacarıqlı, işgüzar, vətənpərvər nümayəndəsi Aqil Əfəndiyev Azərbaycan xalq deputatlığına namizəd olarkən seçkiqabağı platformasında demişdir: "Var qüvvəmi Azərbaycanın milli suveren dövlət quruluşunun bərpasına həsr etməyə söz verirəm. Uzun illər xalqımıza "himayədarlıq" pərdəsi altında kölelik ruhu aşılanmasına qarşı mübarizə aparmağa söz verirəm. Azərbaycanın ərazisində yerləşən bütün sərvətlər, iqtisadi, elmi-texniki və intellektual potensial hər şeydən əvvəl Azərbaycan xalqının və respublikada yaşayan bütün xalqların rifahının yüksəldilməsinə yönəldilməlidir: neft və neftdən istehsal edilən məhsullar, pambıq, tütün, üzüm və üzüm məmulatları və sairə. Bununla belə, aşağıdakı məsələlərin həlli üçün çalışacağam. Bunlardan ən ümdəsi:

- azteminatlı əhalinin sosial mühafizəsi;
- xalqın milli və mənəvi dirçəlişi;
- milli spesifika və xarici təcrübədən istifadə edərək xalq təhsilinin inkişaf etdirilməsi;
- ekoloji təhlükəsizliyin təmin edilməsi;
- bazar iqtisadiyyatı və kadrların hazırlanması;
- Azərbaycan gənclərinin öz ərazimizdə hərbi xidmət keçməsi;
- Azərbaycan dilinin sözdə yox, həqiqətən dövlət dili statusu alması barəsində və xalqımın rifah halının daha da yaxşılaşdırılmasına yönəldilən məsələlərin həyata keçirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Aqil Nəsrullah oğlu Əfəndiyev 1929-cu ildə Şəki şəhərində müəllim ailəsində doğulmuşdur. O, 1946-cı ildə orta məktəbi qızıl medalla bitirdikdən sonra Moskva Toxuculuq İnstitutuna daxil olmuşdur. İnstitutu qurtardıqdan sonra Şəki İpək Kombinatına göndərilmiş, 1951-ci ildən 1956-cı ilədək burada işləmişdir.

Aqil Əfəndiyev istedadı, təşkilatçılıq qabiliyyəti ilə qısa bir

müddətdə böyük hörmət qazanmışdır. O, 1956-cı ildə Azərbaycan Yüngül Sənaye Nazirliyinə işə keçirilmiş, orada baş mühəndis, şöbə rəisi vəzifələrində işləmişdir.

Sonrakı illər A.Əfəndiyev üçün daha uğurlu olmuşdur. 1961-1963-cü illərdə A.Əfəndiyev Respublika Nazirlər Sovetində referent, 1955-1965-ci illərdə respublika Dövlət Plan Komitəsində şöbə rəisi, 1965-1974-cü illərdə isə yenə də Nazirlər Sovetində şöbə rəisi vəzifəsində işləmişdir.

1974-cü ildə Aqil Əfəndiyevə daha bir etimad göstərilmişdir. O, Respublika Dövlət Plan Komitəsinin sədr müavini vəzifəsinə irəli çəkilmişdir.

A.Əfəndiyev respublika yüngül, yeyinti və yerli sənayelərinin iqkişafı üçün ciddi səy göstərmiş, bu sahələrdə problemlərin həll edilməsinə, müvəffəqiyyətin təmin olunmasına, imkan və ehtiyat mənbələrinin aşkara çıxarılmasına çalışmışdır. A.Əfəndiyevin xalq istehlakı mallarının artırılması, əhaliyə göstərilən məişət və ticarət xidmətinin yüksəldilməsi sahəsindəki təşəbbüsləri də gözəl nəticələr vermişdir.

Aqil Əfəndiyevin səriştəliyi, zəngin təcrübəsi və istedadı, xüsusən respublikamızda xalq istehlakı malları istehsalının və əhaliyə göstərilən xidmət sahələrinin inkişafı üçün kompleks proqramın hazırlanmasında özünü göstərmişdir. O, həmin proqramın əsas müəlliflərindən biridir.

A.Əfəndiyev eyni zamanda Naxçıvan və Qarabağ rayonlarının, Ermənistanla sərhəd rayonların inkişafına aid proqramların tərtib edilməsində və həyata keçirilməsində yaxından iştirak etmişdir.

Respublikanın əməkdar iqtisadçısı A.N.Əfəndiyev bir çox orden və medalla təltif olunmuş, fəxri fərmana layiq görülmüşdür.

NEYLƏMİŞƏM Kİ...

Mən insanam,
Sadə insan əlinin,
Yaratdığı nemətlərlə
öyünməsəm ölərəm,
Mən ürəyəm, döyünməsəm ölərəm.
Rəsul Rza.

Əsgər Kərimov.

Sənətkarlar yurdu, füsunkar Şəkinin yetişdirdiyi sənətkarlarımızdan heykəltəraş Əsgər Kərimov haqda söhbətimi publisist Arif Qafarovun səmimi sözləri ilə başlamaq istərdim: "Əsgərin varı bir təmiz ürəyidir, bir də Vətəninin, yurdunun igid övladlarına heykəl, abidə ucaldan qızıl əlləri" ("İpəkçi", 05.02.1990).

Sənətkar əməyinin belə qiymətə layiq görülməsi hər adama nəsib olmur. Lakin Əsgərin deyilən təşəkkürlərə, tərifləro bir sabit cavabı olur: "Nefləmişəm ki..."

Əsgər Şakir oğlu Kərimov 1941-ci ildə Şəki şəhərində anadan olmuşdur. 1961-ci ildə Şəkidə orta məktəbi qurtardıqdan sonra, həmin il Ə.Əzimzadə adına Bakı Dövlət Rəssamlıq Məktəbinə daxil olmuş, 1965-ci ildə təhsilini başa vurmuşdur. Əsgər tələbəlik illərində (1963-1966) orta məktəbdə müəllimlik də etmişdir. 1966-1969-cu illərdə Azərbaycan Bədii Fondunda işləyən Əsgər, 1969-cu ildə Tbilisi Dövlət Rəssamlıq Akademiyasına daxil olmuşdur. O, akademiyada təhsil aldığı illərdə respublika, ümumittifaq və hətta xarici sərgilərdə öz əsərlərini nümayiş etdirmişdir. Fərəhli haldır ki, onun "Odlar yurdu" əsəri Drezden muzeyinin daimi eksponatına çevrilmişdir. Əsgərin Akademiyanı qurtararkən diplom işi dahi Nizami Gəncəvinin "İsgəndərnamə" əsəri əsasında yaratdığı üç hissədən ("Çağırış", "Döyüş", "Sakitlik") ibarət "Odlar diyarı" adlı barelyefləri olmuşdur. Ə.Kərimovun bu ölməz işi Gürcüstanın Ritsunda şəhərində, Kremlin istirahət evində keçmiş Sov.İKP Baş katibinin qəbul otağında divarda həkk olunmuşdur.

1975-1982-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda müəllimlik edən Əsgərin, diametri 30 sm olan "Uşaqları qoruyun" (1980) medalyonu BMT-yə göndərilmişdir. İstedadlı sənətkar Azərbaycan xalq rəssamı Cəlal Qaryağdı ilə Bərdə rayonunda Böyük Vətən müharibəsində həlak olanlara həsr olunmuş kompleksi (1979) işləmişdir. Kompleks- abidənin memarı Ömər Ömərovdur. O, 1982-ci ildə həmyerlisi M.F.Axundovun Şəkidə qoyulan tunc abidə kompleksini yaratmışdır (memarı E.Qasımzadə və İ.Ələsgərov). Daim tarixi mövzulara müraciət edən Ə.Kərimov 1983-cü ildə İsmayılbəy Qutqaşınlının (memarı İ.Yüzbaşov) tuncdan qəbirüstü abidəsini yaradır. Onun Bakıda yüksəldilən İkinci Dünya müharibəsində həlak olanlara həsr etdiyi və tuncdan hazırlanan simvolik əsəri (1985, memarı A.Əhmədzadə), "Şən uşaqlıq" əsərləri çox təsirlidir. Ustad aşıq Molla Cümənin qəbri üstündə yüksələn qranit abidənin də müəllifi istedadlı heykəltəraş Ə.Kərimovdur. 1990-cı ildə bu abidənin açılışına həsr edilmiş yığıncaqda Əsgər Kərimova söz verilərdə belə demişdir: "Nə deyim axı... Neyləmişəm ki... Molla Cümə böyük ustaddır. Özü də əbədi yaşayacaq, sözü də. El aşığının adına nə eləsək azdır. Gün o gün olsun ki, xalq sənətkarının ev-muzeyi açılsın, büstünü də özüm hazırlayaram... Həmişə belə mehriban, məhəbbətli, qayğıkeş olaq, elimizin, obamızın vətənpərvər, qeyrətli oğullarının xatirəsini yad edək".

Daim axtarışda olan Əsgər Kərimov doğrudan da xalqımızın qeyrətli oğullarının xatirəsini yad edir. O, yüksək sənətkarlıqla Fuad Əbdürrəhmanovun, Fərman Salmanovun və

Fərman Salmanovun büstü.

başqalarının abidələrini yaratmışdır. Bu ənənəyə sadiq sənətkar 1987-ci ildən "Çələbi xan"ın 13 metrlik tünc heykəli üstündə işləyir. Bu əzəmətli heykət Şəkidə qoyulmalı idi.

Ə.Kərimov tez-tez qadın obrazlarına müraciət edir. Onun misdən düzəltdiyi "Üzümçü qadın", "Şeir oxuyan qadın" və b. bu qəbildəndir.

Heykəltəraş Əsgər Kərimov haqqında deyilənləri Arif Qafarovun sözləri ilə də yekunlaşdırmaq istərdim: "Sağ ol, eloğlu. Böyük Səbuhiyə ucaltdığın tunc heykəl səni sənətsevərlərin, şəkililərin gözündə ucaltdı. Doğma yurduna "Nakam" adlı bir sənət yadigarı qoydun. "Neyləmişəm ki...", əlindən gələni ki, əsirgəmirsən, böyük işdir. Daha bəsdir təvazökarlıq etdin, mənim utancaq dostum" (İpəkçi", 5 yanvar 1990-cı il).

ELDƏN SORUŞ...



Albert Mustafayev.

Xoşbəxt o insandır ki, zəhməti sayəsində xalqının işinə yarayır, onun əməlləri və hətta sənəti adamlara xoşbəxtlik gətirir, dünyada daha gözəl edir.

Xoşbəxt o sənətkardır ki, onun əməyinin bəhrəsindən hamı: uşaq da, böyük də, alim də, savadsız da, zalım da, xeyirxah da... başa düşdüyü səviyyədə həzz alır. Belə sənətlərdən biri heykəltəraşlıqdır. Abidə hamının birlikdə oxuduğu bir kitabdır. Elə bir kitabdır ki, günün hər saatında, bütün fəsillərdə oxumaq mümkündür. Elə bir əsərdir ki, onun oxucusunun yaş hüdudu yoxdur. Xoşbəxtdir belə "kitab"ların - sənət əsərlərinin yaradıcıları. Belə yaradıcı sənətkarlardan biri də Albert Zaman oğlu Mustafayevdir.

O, 23 yanvar 1931-ci ildə Şəkidə anadan olmuş, 1948-ci ildə orta məktəbin 8-ci sinfini qurtardıqdan sonra Bakıda Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinin memarlıq fakültəsinə

daxil olmuşdur. Burada təhsilini başa vuran Albert, 1954-cü ildə İ.Y.Repin adına Rəssamlıq Akademiyasının heykəltəraşlıq şöbəsinə daxil olmuşdur. O, 1960-cı ildə Akademiyada təhsilini qurtarıb, rəssam-heykəltəraş sənətinə yiyələnir və vətəni Bakıya qayıdır. Hələ tələbə ikən 1957-ci ildə o, respublika və Moskvada ümumittifaq və ümumdünya festivallarında "müharibənin faciələri" (memarı H.Sücəddinov) abidə kompozisiyası ilə çıxış etmişdir. A.Mustafayev H.Sücəddinov və Ə.Rüstəmovla birlikdə 1958-ci ildə Bakı şəhərində funikulyorun qarşısında yüksəldilmiş "Bəhram Gur və əjdaha" dekorativ abidəsinin yaradıcılarından biri olmuşdur.

A.Mustafayev tarixi mövzulara və şəxslərə müraciət etməyi daha çox sevir. O, 1968-ci ildə Mirzə Vəliyevin büstünün (memarı T.Yusubov), 1975-ci ildə müharibənin qurtarmasının 30 illiyi münasibətilə Şəki şəhərində yüksəldilmiş memorial abidənin (memarı T.Yusubov), Dağlıq Qarabağın Xankəndində M.Əzizbəyovun abidələrinin (memarı R.Zərbəilov), Şuşada Vaqifin mavzoleyində dahi şairin mərmər qorelyefinin (memarı R.Zərbəilov), Nizami adına kinoteatrın fasadında qoyulmuş Nizami və Məhsəti xanım heykəllərinin (1988), dahi gülüş ustası Lütvəli Abdullayevin yaşadığı evin fasadında qoyulan barelyefin (1991) müəllifidir.

İstedadlı heykəltəraş A.Mustafayev 1966-cı ildən Azərbaycan Politexnik İnstitutunun Təsviri sənət kafedrasında assistent işləmişdir. 1975-ci ildən baş müəllim olan A.Mustafayev 1983-cü ildə kafedranın dosenti seçilmişdir. Doğma respublikamızdan uzaqlarda da tanınmış gözəl sənətkar 1972-ci ildən Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin üzvüdür, 1982-ci ildə ona Azərbaycanın əməkdar rəssamı adı verilmişdir. Bu ad elimizin gözəl sənətkara verdiyi ən yüksək qiymətdir. Aqillər yaxşı deyiblər ki, sənətkarın qiymətini xalqdan soruş.

MEMAR SEYRAN

Mən susmaz bir duyğuyam ki...
Cəfər Cabbarlı

Seyran Məmmədov.

Seyranı həmişə bir məsələ düşündürmüş və narahat etmişdir: tarixi abidələrimizin gələcəyi və bərpası. Axı o, yaxşı başa düşür ki, hər bir saxsı parçası, hər bir divar qalığı... keçmişimizin yadigarıdır. Keçmişi bilmədən gələcəyə körpü salmaq olarmı? Bütün bu arzular Seyranı memarlığa gətirib çıxardı.

Seyran Məmməd oğlu Məmmədov 1949-cu ildə Şəki şəhərində anadan olmuşdur. Orta məktəbi Şəkidə qurtarıb, 1970-ci ildə Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsinə daxil olmuş, 1977-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsini bitirmişdir. O, 1973-1977-ci illərdə Bakı Dövlət Layihə İnstitutunda əvvəlcə texnik, sonra memar vəzifələrində çalışmışdır.

S.Məmmədov 1978-1979-cu illərdə Şəki diyarşünaslıq Muzeyinin elmi işçisi olmuşdur. O, 1979-cu ildən Azərbaycan Mədəniyyət Nazirliyi Elmi Bərpa İdarəsi Şəki layihə qrupunun rəhbəri işləyir. S.Məmmədovun başçılıq etdiyi bu qrupun Şəki-Zaqatala diyarının abidələrinin öyrənilməsi, onların bərpa layihələrinin hazırlanmasında böyük rolu vardır. Hazırda Seyranın rəhbərliyi ilə Şəki şəhərinin qoruq hissəsinin regenerasiya layihəsi hazırlanır. S.Məmmədovun dediklərindən: "Regenerasiya layihələrinin hazırlanması, abidələrin bərpasını həyatımın ən maraqlı anları hesab edirəm. Az da olsa şəhərimizin abadlığı sahəsində tapşırılan işlərin öhdəsindən gəlməyə çalışıram".

Seyran Məmmədov 1989-cu ildə Molla Cümənin qəbirüstü abidəsinin hazırlanmasında görkəmli heykəltəraş Əsgər Kərimovla birlikdə memar kimi işləmişdir. O, Şəkidə Salman Mümtazın abidəsi və 20 Yanvar bağında qoyulan xatirə abidəsinin də memarıdır. S.Məmmədov əsas işi saydığı abidələrin bərpa layihələrinin hazırlanmasını da yaddan çıxarmır. O, Şəkidə Cümə məscidi, Yuxarı və Aşağı karvansaraların, Dairəvi məbədin, Qax rayonunda məscid və məbədlərin bərpasında rəhbər kimi çalışmışdır. Seyran Məmmədov bu müqəddəs işi durmadan davam etdirir.

XƏLİLOV QEYSƏR VEYSƏL OĞLU

Qeysər Xəlilov.

1929-cu ildə Şəkidə sənətkar ailəsində anadan olmuşdur. 1947-ci ildə 10 №-li orta məktəbi bitirdikdən sonra ADU-nun hüquq fakültəsində oxumuşdur. Universiteti fərqlənmə diplomu ilə bitirmişdir.

1951-ci ildən Respublika Radio və Televiziya Komitəsində redaktor, böyük redaktor, baş redaktor vəzifələrində çalışmışdır. 1964-cü ildən 1990-cı ilədək respublika "Bilik" cəmiyyətinə rəhbərlik etmişdir. 1961-ci ildə fəlsəfə elmləri namizədi, 1962-ci ildə dosent, 1984-cü ildə fəsləfə elmləri doktoru adı almışdır. 1990-cı ildə respublikanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Q.V.Xəlilov 1991-ci ildən professordur. O, 40-dan çox elmi əsərin və 10-na qədər elmi monoqrafiyanın müəllifidir.

Qeysər Xəlilov 1990-1991-ci illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin sədri vəzifəsində işləmişdir. O, 1991-ci ildə Azərbaycan Prezidentinin müşaviri vəzifəsinə irəli çəkilmişdir. 1992-ci ilin aprel ayından respublika Nazirlər Kabineti yanında yeni təşkil edilmiş Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsinin sədri təyin edilmişdir.

Qeysər Xəlilov 2000-ci ildə Bakı şəhərində vəfat etmişdir.

ŞƏKİ ZONA ELMİ BAZASI



Şəmsəddin Mustafayev.

Şəki zona elmi bazası 1972-ci ildə yaradılmışdır. Baza həmin ilin aprelindən Azərbaycan Elmlər Akademiyası Fizika İnstitutunun nəzdində olmuş, sonra Radiasiya Tədqiqatları bölməsinin tərkibinə keçirilmişdir.

ŞZEB-da 7 şöbə - ipəkçilik, fizika, kimya, geologiya, genetika və seleksiya, folklor və el sənətləri, sellərə qarşı mübarizə qrupları fəaliyyət göstərir. Son iki qrup sonradan yaranmışdır.

Bazanın əməkdaşları akademiyanın 7 elmi tədqiqat institutu, elmi mərkəzləri, bir neçə xarici ölkələrlə yaxından əlaqə saxlayır. Əsasən, aşağıdakı problemlər daxilində tədqiqat işləri aparır:

1. Tut ipəkqurdunun yeni yüksək məhsuldar cinslərinin yaradılması.

2. Müxtəlif biostimulyatorların və fiziki amillərin kənd təsərrüfatı məhsullarına, heyvanların məhsuldarlığına təsirinin öyrənilməsi.

3. Şəki-Zaqatala zonasının bitki örtüyünün öyrənilməsi, onların yığılması və istifadə edilməsi.

4. Şəki-Zaqatala zonasının biogeokimyəvi xarakteristikasının öyrənilməsi.

Şəki ta qədimdən ipəkçilik diyarı olduğu üçün bu istiqamətdə tədqiqat işləri daha geniş aparılır. Bazanın ipəkçilik qrupunun rəhbəri, kənd təsərrüfatı elmləri namizədi Şəmsəddin Rəhim oğlu Mustafayevdir. O, 1932-ci ildə Şəkinin Oxud kəndində anadan olmuş, 1956-cı ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunun ipəkçilik şöbəsini bitirmişdir. 1962-ci ildə Azərbaycan Elmi Tədqiqat İpəkçilik İnstitutunun əyani aspiranturasına daxil olmuşdur.

Ş.R.Mustafayev 1965-ci ildə "Tut ipəkqurdunun sənaye hibridləşdirilməsi üçün dözümlü xətlərinin yaradılması" üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. O, onlarca elmi əsərin müəllifidir. 1972-ci ildən Gəncə İpəkçilik İnstitutunda seleksiya şöbəsində kiçik və baş elmi işçi işləmiş, 1975-ci ildən ŞZEB-in ipəkçilik qrupuna rəhbər təyin edilmişdir.

Onun seleksiya-damazlıq işləri, əsasən, süni seçmə prinsipinə əsaslanaraq xəttarası sintetik seleksiya, həm də sənaye cütləşmə üsulları ilə aparılmışdır. Nəticədə tut ipəkqurdunun yüksək yaşama qabiliyyətinə malik olan, baraması asan açılan, ipək çıxımı çox olan dörd yeni xətti yaradılmışdır ki, bunlar da xəttarası hibridləşmədə əsas material kimi istifadə edilmişdir. Sonrakı tədqiqat işləri xəttarası hibridlərin yaradılması istiqamətində aparılmış və dörd yeni hibrid əldə edilmiş və bunlardan ikisi: "Şəki I-UF" və "UF-Şəki-I" ən yüksək bioloji və texnoloji göstəricilərə malik olmuş və dövlət komissiyasına verilmişdir. Bundan əlavə, Ş.R.Mustafayev kənardan gətirilmiş cinslərdən seleksiya yolu ilə 3 yeni cins almışdır: "BLM", "Dostluq", "Zirvə". Bu cinslərin birləşməsindən alınan cinslər isə hazırda istehsalatda olan növlərdən xeyli məhsuldar və keyfiyyətlidir. Məsələn, "Dostluq"x "Elm" və "Elm"x "Dostluq" hibridləri bioloji və texnoloji göstəricilərinə görə indi respublika rayonlarında işlədilən ipəkqurdu cinslərindən bir çox üstünlüklərilə seçilir: onlar xarici şəraitə daha dözümlüdür, qurd dövrü daha qısadır, baramaların eyniölçülüyü yüksəkdir, sapı daha uzundur, keyfiyyətlidir. Hər iki hibrid Dövlət Aqrosənaye Komitəsinin sort-sınaq komissiyasına təqdim edilmişdir. Lobarotoriyada yeni axtarışların aparılması davam edir. Ş.R.Mustafayev inbridinq və autooridinq cütləşmə metodlarından istifadə etməklə yeni cinslərin alınmasını davam etdirir.

Ş.R.Mustafayev uzun illərdir ki, "Bilik" cəmiyyətinin tanınmış təbliğatçısıdır. O, ipəkçilik yönümü üzrə rayonda geniş toxmacar bağlarının yaradılmasının təşəbbüskarı, yaxından iştirakçısıdır.

Geologiya qrupuna geologiya-minerologiya elmləri doktoru Əlizadə Zəkəriyyə Mabud oğlu başçılıq edir.



Zəkəriyyə Əlizadə.

Z.M.Əlizadə 1936-cı ildə Şəkidə anadan olub. 1959-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun geoloji kəşfiyyat fakültəsini bitirib, bir müddət "Artyomneft"də operator, 1959-cu ildə Azərbaycan EA Geologiya İnstitutunda işləmiş, aspiranturaya daxil olmuşdur. 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1970-ci ildə institutun palçıq vulkanları laboratoriyasına böyük elmi işçi vəzifəsinə, 1972-ci ildə Azərbaycan EA-nın qərarı ilə Şəki Zona Elmi Bazasına rəhbər təyin edilmişdir. 1974-cü ildə baş elmi işçi olan Z.Əlizadə 1989-cu ildə Ukrayna EA-da doktorluq dissertasiyasını müdafiə etmişdir.

Geologiya-minerologiya elmləri doktoru Z.M.Əlizadənin rəhbərliyi ilə ŞZEB-də beş namizədlik dissertasiyası müdafiə edilmişdir. Onun qrupunun işinin əsasını Böyük Qafqazın cənub yamaclarından başlayaraq Alazan-Həftəran düzənliklərinə qədər bütün torpaq və bitki nümunələrini götürüb onların kimyəvi tərkibini öyrənmək, tənzimləmək təşkil edir.

Aparılan tədqiqatlar nəticəsində Şəki-Zaqatala zonasının Yura və Tabaşir qatlı süxurların - keramzit və aqpororit istehsalı üçün yararlı sahələri müəyyən edilmişdir.

Sübut olunub ki, Böyük Qafqazın cənub yamaclarında gil süxurları ehtiyatlarının aşkar edilib istismara verilməsi xalq təsərrüfatını ucuz inşaat materialları ilə təmin edə bilər. Şəki-Zaqatala zonasında mikroelementlərin bitkilərin normal inkişafı üçün zəruri olan aşağı və yuxarı hüdud normaları müəyyənləşdirilmişdir.

Bitki və torpaq örtüyünün ana süxurlarla əlaqəsinin öyrənilməsinin nəticəsində bir sıra bitki növlərinin faydalı qazıntı yataqlarının aşkar edilməsində indikator kimi istifadə olunması da aşkar edilmişdir.

İlk dəfə olaraq zonanın biogeokimyəvi əraziləri müəyyənləşdirilmiş, oranın biogeokimyəvi xəritəsi tərtib olunmuşdur.

Professor Z.M.Əlizadənin təşəbbüsü və şəxsi köməyilə Şəkidə "İstedadlar məktəbi" yaradılmışdır ki, bura şəhərin bütün məktəblərinin istedadlı və bacarıqlı uşaqları cəlb edilib. Tanınmış, təcrübəli pedaqoqlarla yanaşı, bazanın elmi əməkdaşları da uşaqlara həftənin müəyyən günləri dərs keçirlər. Bu gərəkli tədbirin gələcəkdə yüksək səviyyəli elmi kadrların yetişməsində böyük rolu olacağı görünür.

L.Əlizadə hazırda Milli Elmlər Akademiyası Şəki Regional Elmi Mərkəzinin rəhbəri və Azərbaycan Müəllimlər İnstitutu Şəki filialının professorudur.

Şəki-Zaqatala zonası qiymətli dərman bitkiləri və otlarla zəngindir. Burada çaytikanı, zirinc, yemişan, itburnu, sumax, boymadərən, kəklikotu, acı yovşan və s. bitkilərin böyük ehtiyatı vardır. Bazada bu işlərin aparılmasına biologiya elmləri namizədi Fərhad Şirin oğlu Əzizov rəhbərlik edir.

Hazırda o, Şəkidə yeni yapradılmış "Biotex" elm-istehsalat birliyinin filialında çalışır.

Bazada fizika qrupunda fiziki üsulların kənd təsərrüfatına tətbi sayəsində müəyyən işlər görülüb. Qrupa fizika-riyaziyyat elmləri namizədi Yusif Hacıbala oğlu Şükürov başçılıq edir. O, 1946-cı ildə Şəkinin Baş Şabalıd kəndində anadan olub. 1971-ci ildə BDU-nun fizika fakültəsini qurtarıb. 1974-cü ilədək Qutqaşen (indiki Qəbələ - **red.**) rayonunun Tola kəndində və şəhər 43 №-li peşə məktəbində dərs deyib. 1975-ci ildə istehsalatdan ayrılmadan Azərbaycan EA Fizika İnstitutunun "Yarımkeçiricilər və dielektriklər fizikası" ixtisası üzrə aspiranturaya daxil



Yusif Şükürov.

olmuşdur. 1979-cu ildə aspiranturanı bitirib yenidən Bakı Dövlət Universitetində "Molekulyar fizika" ixtisası üzrə aspirantura kursunu oxumuşdur. 1984-cü ildə "Fibrionin molekul və aşırımolekul quruluşuna selenin təsiri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Hazırda "Fiziki və kimyəvi amillərin kənd təsərrüfatı bitkilərinə və heyvanlarına təsiri məsələləri" üzərində işləyir.

Şəki zona elmi bazasında kiçik eolmi işçi olmuşdur. Elmi işinin əsasını tut ipəkqurdu cinsinin maqnit sahəsi vasitəsilə idarə olunması üsulu təşkil edib. Bu üsulla barama ipəkqurdunun erkəklərinin ipəkliliyi dişisinə nisbətən 20-25 faiz yüksək olur. Yeni üsulla ipəkqurdları kəpənəklərinin cütləşdirilməsi dövründə onları maqnit sahəsində saxlamaqla ailədə erkək ipəkqurdunun sayı 75 faizə çatdırılır. Adi halda isə bu 48-50 faiz olur. Beləliklə, bu üsulun - cinsi idarəetmə üsulunun tətbiqilə ipəkçilik faizi yüksəlir və bununla da yüksək iqtisadi səmərə əldə edilir. Artıq təcrübə üçün hazırlanan bu qurğunun istehsalata tətbiqi planlaşdırılıb.

Y.H.Şükürov apardığı tədqiqat işlərilə mətbuatda fəal çıxış edir.

O, 1999-cu ildə BDU-nun Şəki filialında dekan işləmişdir. Təbiət elmləri kafedrasının müdiridir. Y.Şükürov 5 ixtiranın, 30 elmi məqalənin, bir povestin müəllifidir.

Ümumiyyətlə, elmi bazada aparılan tədqiqat işlərinin bir çoxu əməkdaşların Akademiyanın müvafiq institutları ilə birgə işinə əsaslanır. Məsələn, ipəkçilikdə baramanın ilkin emal olunması əhəmiyyətli rol oynayır. Bu məqsəd üçün müxtəlif üsullardan: isti buxar, qızmış hava, zəhərli maddələrin qazları, oksigensiz mühitdə germetikləşdirmə üsullarından, nəhayət, ifrat yüksək tezlikli elektromaqnit sahəsindən istifadə edilmişdir. Axırıncı üsul ilk dəfə olaraq Şəki İpək İstehsalat Birliyində tətbiq edilmişdir.

Baramanın isti hava emalı ən qədim, köhnə üsuldur. Bu üsulda zay baramanın miqdarı çox olur. Emal zamanı barama qabığının keyfiyyəti pisləşir, alınan sapın açılma qabiliyyəti aşağı düşür, qırılmaların sayı çoxalır. 1 kq baramadan təqribən 310 qram ipək alınırsa, eyni üsulla, yəni elektromaqnit sahəsində eyni miqdarda baramadan 330 qramdan da çox ipək alınır, ipək çıxımı 3,07 faiz artır, əmək məhsuldarlığı yüksəlir.

Bu üsula əsaslanaraq Azərbaycan EA Radiasiya bölməsinin, Şəki zona elmi bazasının əməkdaşları ifrat yüksək tezlikli elektromaqnit sahəsinə əsaslanan "Barama" qurğusunu hazırladılar və 1982-ci ildə bu qurğu Dövlət komissiyası tərəfindən yüksək qiymətlə istehsalata tətbiq edilmək üçün qəbul olundu. Birgə tədqiqatlar sırasına müəlliflik şəhadətnaməsinə layiq görülən daha bir üsul daxildir. Bu yeniliyin mahiyyəti ondan ibarətdir ki, barama qabığında olan yapışqan maddəsini (seritsini) azaltmaqla saf ipəyin (fibroinin) miqdarı 3 faizə qədər artırılır. Bu isə hər 100 kq ipəkdən 3 kq əlavə təmiz ipək almaq deməkdir.

Elmi bazanın nəzdində Genetika və Seleksiya İnstitutunun eyniadlı qrupu da fəaliyyət göstərir. Qrupa Genetika və Seleksiya İnstitutunun baş elmi işçisi, biologiya elmləri namizədi Qabil İmanəliyev rəhbərlik edir. Qrupun əsas məqsədi kökü kəsilməkdə olan qiymətli dədə-baba meyvə sortlarını yenidən bərpa etməkdən, onları qoruyub saxlamaqla perspektivli sortları təsərrüfatımızda yaratmaqdan ibarətdir.

Bu məqsədlə seleksiyaçılar hər il respublikamızın müxtəlif rayonlarına ezamiyyətlərə gedir, meşələrdən, dağlardan ata-babalarımızın əkib-yetirdiklərindən nümunələr toplayır və genefond bağında əkirlər. Elmi bazanın əməkdaşlarının hamılıqla əziyyəti sayəsində Şəkidə məşhur genefond bağı salındı, bu 6 hektara yaxın bağda, 700-dən artıq alça, 450-dən artıq heyva, 200-dən artıq armud, 120-dən artıq zoğal, 140-dan artıq çaytikanı, 100-dən artıq yemişan, 100-dən artıq əsgil və s. meyvələr mədəni və yabanı halda əkilmişdir. Onlardan başqa gilas, xurma, göyəm, itburnu, zirinc bitkilərinin də ən müxtəlif formaları bu bağda əkilərək qorunub saxlanılır. Bazanın əməksevər işçi-

ləri böyük bir sahəni çətinliklərlə çay daşından təmizləmiş, buraya su çəkmiş və əsl təbiət möcüzəsi yaratmışlar.

Mərkəzdən uzaq olan bu elm bazasında aparılan işlər müəyyən imkansızlıqlara baxmayaraq çoxşaxəlidir. Baza əməkdaşları heyvandarlığın elmi əsaslar üzərində qurulması işinə də öz töhfələrini vermişlər.

Şəki aqrar-sənaye birlikləri diyarıdır. Burada sovet dövründə respublikada ilk dəfə olaraq təsərrüfatlararası cins mal-qara birliyi təşkil edilmişdir. Elmi işçilər bu təsərrüfatın inkişafına öz köməkliklərini göstərərək Azərbaycanda qaragül qoyunçuluğunun ilk dəfə Şəkidə əsasının qoyulmasına nail olmuşdular. Azərbaycan EA ölkədə birinci olaraq təsərrüfatlararası qoyunçuluq birliyinin payçısı olmuşdur.

Elmi işçilər qaragül qoyunlarının mühitə uyğunlaşma məsələlərini öyrənib, onların yerli qoyunlarla mayalanması nəticəsində qiymətli xəz-dəri, qaragülçə alınmasını təmin edən təcrübələr aparmışlar. Məlum olduğu kimi, dünya bazarında belə dərilərə tələbat həmişə böyükdür.

Əməkdaşlar Azərbaycanda ilk dəfə olaraq xlorella yetişdirmə təsərrüfatının köməkçiləri olmuşlar. Xlorella yosundur. O, sürətlə artır. Su hövzlarında bir damcı xlorella mayası milyonlarla hüceyrə yaradır. Beləliklə, yaşılımtıl, duru maye-xlorella meydana gəlir ki, onun da tərkibində külli miqdarda zülal vardır. Xlorella - hovuzlarda yaradılan bu möcüzəli maye, su əvəzinə mal-qaraya verilir. Nəticədə heyvanlar sürətlə kökəlir.

Elmi baza əməkdaşları müəyyən etmişlər ki, xlorella verilən hər baş iribuynuzlu mal-qara gündə 220 qrama qədər kökələ bilər.

Respublikamızda ipəkqurdularının məhsuldarlığına xlorellanın təsiri məsələsi də ilk dəfə Şəki Zona Elmi Bazasında yoxlanılmış və yaxşı nəticələr alınmışdır. Xlorella ilə yemləndirilən ipəkqurdularından hər qutu hesabı ilə 8-10 kiloqramdan artıq barama məhsulu alınmışdır. Gələcəkdə rayonun quşçuluq, arıçılıq, baramaçılıq təsərrüfatlarında da xlorelladan istifadə tövsiyə edilmişdir.

Əvvəllər selen mütəxəssislər arasında zəhərli maddə kimi tanınırdı. Sonralar aparılan təcrübələrdə selen maddəsinin sirləri daha dərindən öyrənildi. Elmi bazanın əməkdaşları selen və onun birləşmələrindən heyvandarlıq məhsulları istehsalının artırılmasında biostimulyator kimi istifadə etmişlər. Selen maddələr mübadiləsini sürətləndirir, orqanizmin xəstəliklərə qarşı müqavimətini gücləndirməklə bərabər ət, yun və yumurta məhsuldarlığını artırmağa imkan verir. İlk nəticələr göstərmişdir ki, selen maddəsindən qoyunçuluqda və quşçuluqda istifadə etməklə ət məhsuldarlığını 10-14 faiz, yun məhsuldarlığını 9-12 faiz və yumurta məhsuldarlığını 8-9 faiz artırmaq mümkündür.

Hazırda ayrılıqda fəaliyyət göstərən Seysmik stansiya da uzun müddət Şəki Zona Elmi Bazasının nəzdində olmuşdur. Seysmoloji stansiya bu sahə üzrə zonamızda yeganə elmi idarədir. Burada bütün gün ərzində dayanmadan işləyən cihazlar çoxdur. Stansiya baş verən yeraltı təkanları və zəlzələ hadisələrini vaxtında və dəqiq qeydə alır. Əldə olunmuş məlumatlar Moskvaya, Bakıya, Tbilisiyə göndərilir. Həmin seysmoloji stansiya Zaqafqaziyada ən dəqiq işləyən stansiyaların biri səviyyəsinə yüksəlmişdir.

Ümumiyyətlə, fəaliyyət göstərdiyi illər ərzində Şəki Zona Elmi Bazasının əməkdaşları 10 müəlliflik şəhadətnaməsi almış, Ümumittifaq və respublika jurnallarında məqalələr dərc etdirmiş, geniş miqyasda keçirilən bir sıra konfrans, yığıncaq və simpoziumların fəal iştirakçısı olmuş və orada elmi məruzələrlə çıxış etmişlər. Bunlardan 1975-ci ildə Şəkidə keçirilmiş Şəki-Zaqatala zonasının dərman bitkilərinin öyrənilməsinə həsr edilmiş respublika səyyar elmi konfransı, 1978-ci ildə kənd təsərrüfatı bitkilərinin seleksiyasının genetik əsasları üzrə konfrans keçirilmiş, müxtəlif problemlər üzrə çıxışlar olmuşdur.

1979-cu ildə Bakıda keçirilmiş Ümumdünya Sovet-Hindistan müşavirəsinin iştirakçıları təcrübə mübadiləsi məqsədilə Şəki Zona Elmi Bazasında olmuş, Genefond bağını yüksək qiymətləndirmişlər. Kanada, Çexoslovakiya, Bolqarıstan və s. öl-

kələrin alimləri elmi əməkdaşlıq etməyi təklif etmişlər. Azərbaycan Respublikası EA Rəyasət Heyətinin qərarı ilə bazaya qiymətli, xarici kimya avadanlığı kompleksi verilmişdir.

Daha sonra bazada iki əlavə qrup fəaliyyətə başlamışdır: sellərə qarşı mübarizə və folklorşünaslıq, el sənətləri qrupu.

Şəkinin Kiş və Şin çaylarının şəhərin təsərrüfatlarına, vətəndaşların şəxsi əmlaklarına vaxtaşırı ciddi ziyan vurduğu çoxdan məlumdur.

Kişçayda güclü sellər 1772, 1896, 1901, 1903, 1910, 1911, 1916, 1926, 1936, 1937, 1941, 1955, 1957, 1958, 1959, 1982, 1988, 2004-cü illərdə olmuşdur. Bu da öz növbəsində Şəki şəhərini, Kiş, Oxud, Dodu, Baltalı, Qaradağlı kəndlərini təhlükə altında qoymuşdur.

Selin əmələgəlmə sahəsi 1500 hektardan çoxdur.

Sellərə qarşı mübarizə tədbirləri, əsasən, iki istiqamətdə - passiv və aktiv metodlarla aparılmalıdır. Passiv metodlara aid olan tədbirlərə sellərin keçdiyi, tranzit sahəsi adlanan yataqlarda, yamaclarda müxtəlif mühəndis qurğuların qurulması, dağətəyi sahələrdə yerləşən yaşayış məntəqələrinin və başqa xalq təsərrüfatı obyektlərinin sahil bərkidici - hidrotexniki qurğuları daxildir.

Sellərə qarşı aktiv mübarizə metodlarına daxil olan əsas işlər sel əmələgətirici təbii amillərə qarşı aparılan tədbirlərdir.

Azərbaycan EA Coğrafiya İnstitutu tərəfindən sellərin əmələ gəlməsinin fiziki-coğrafi şəraitini əks etdirən elmi məlumatlar, elmi hesabatlar Şəki şəhərinin seldən mühafizəsi məsələləri ilə məşğul olan layihə institutlarına və təşkilatlarına verilmişdir.

Baza əməkdaşları Azərbaycan EA Coğrafiya İnstitutunun əməkdaşları ilə birgə iş proqramı hazırlayıb şəhərin rəhbər təşkilatlarına və respublikanın lazımi orqanlarına təqdim etmişlər. Əsaslı vəsait qoyuluşu lazımdır ki, bu proqram həyata keçsin.

Folklorşünaslıq qrupunun fəaliyyəti də çox təqdirəlayiqdir. Bu günə qədər onsuz da maddi-mədəniyyət abidələrimizdən

çox şey itirmişik, folklor qrupu bu itkilərin izinə düşüb. Olub-qalan nə varsa, toplayıb gələcək nəslə ərmağan etmək niyyətindədir.

Qrupa Oğuz, Zaqatala, Balakən rayonlarından da əməkdaşlar daxildir. Dürlü ağız kəlamları, el bayatıları, məsəlləri, nağıl, rəvayət və tapmacaları toplanır, sıradan çıxmaq üzrə olan el sənətləri araşdırılır, biliciləri tapılır. Görülən işlərdən qrup vaxtaşırı qəzet və radio ilə camaata məlumat verir.

Folklor qrupu Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, məhrum professor Yaşar Qarayevin iştirakı və tövsiyəsilə tərtib olunmuşdur.

Folklor qrupuna sənətşünaslıq elmləri namizədi, respublikanın əməkdar memarı Əsgərova Nərgiz Saleh qızı rəhbərlik edir. Nərgiz xanımın atası professor Saleh Əsgərzadə (1898) respublikamızda ali riyaziyyatın təməlini qoyanlardan biri olmuş, Azərbaycan Sənaye İnstitutunda işləmişdir. N.Əsgərova 1929-cu ildə Şəki şəhərində anadan olmuşdur. Orta məktəbi bitirib, 1951-ci ildə Azərbaycan Sənaye İnstitutuna qəbul olmuş, sonra bu fakültə Politexnik İnstitutuna verildiyindən həmin təhsil ocağını qurtarmışdır. 1961-ci ildə "Azərbaycanın memarlıq ornamentləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Həmin dissertasiya "Azərbaycanın memarlıq naxışları" adı altında monoqrafiya kimi çap edilmişdir. N.Əsgərova 1971-ci ilə qədər Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutunda baş elmi işçi, 1971-1990-cı illərdə Azərbaycan MEA Nizami adına Azərbaycan Ədəbiyyatı Tarixi Muzeyində direktor müavini, 1990-cı ildən

Nərgiz Əsgərova.

Azərbaycan EA Şəki Regional Elmi Mərkəzində elmi işlər üzrə direktor müavini vəzifəsində çalışır.

Şəki Zona Elmi Bazasının rəhbəri Z.Əlizadə ilə müsahibədən: "Zonanın özünəməxsus xüsusiyyətləri nəzərə alınaraq ipəkçiliklə əlaqəli aparılan elmi axtarışlara yenə də xüsusi əhəmiyyət veririk, ipəkçilikdə məhsuldarlığı artırmaq məqsədilə yaradılmış yeni tut ipəkqurdu hibridlərindən alınan baramanın 2,5 kq-dan 1 kq ipək alınır ki, bu da yaxşı göstəricidir.

Şəki-Zaqatala zonasında geniş yayılmış meyvə və giləmeyvə nümunələrinin toplanması və onların qorunub saxlanması məqsədilə yaradılmış genefond bağında da işlər lazımi səviyyədə davam etdirilir.

Biz bundan sonra da müxtəlif yollarla təsərrüfatlarla əlaqələrimizi yaxşılaşdırmağa çalışacağıq".

ŞƏKİDƏ YENİ ELMİ MÜƏSSİSƏ - "BİOTEX"

Əhalinin sağlamlaşdırılması və bu sahədə təbii ehtiyatlardan səmərəli istifadə edilməsi məqsədilə biologiya elminin müasir sahəsi olan biotexnologiyanın ən son nailiyyətlərinə əsaslanaraq respublikamızın ərazisində geniş yayılmış təbii bitkilərdən və mineral xammaldan yüksək effektliyə malik müalicəvi dərman preparatlarının istehsalının təşkili mühüm əhəmiyyət kəsb edir.

Bu problemlərin vacibliyini nəzərə alan Azərbaycan EA-nın Rəyasət Heyəti və respublika Nazirlər Kabineti yeni "Biotex" elm-istehsalat birliyinin yaradılması haqda qərar qəbul etmişdir. Onun təşkili işində Molekulyar Biologiya və Biotexnologiya İnstitutu, bioloji cihazqayırma, xüsusi konstruktor texnoloji bürosu və "Qələbə təcrübə zavodu" fəal iştirak etmişdir.

Şəki-Zaqatala regionunun iqtisadi potensiala malik olduğunu

nəzərə alaraq 1989-cu ildə Şəkidə "Biotex" elm-istehsalat birliyinin filialı yaradılmışdır.

Bu yeni filiala Şəki zona elmi bazasının keçmiş əməkdaşı, biologiya elmləri namizədi F.Əzizov rəhbərlik edir.

F.Ş.Əzizov 1946-cı ildə Şəkidə anadan olmuşdur. 1964-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun kimya-texnologiya fakültəsinə daxil olmuş, 1970-ci ildə bitirmişdir. 1974-cü ilədək Sumqayıt kimya zavodunda mühəndis işləmişdir. 1974-cü ildə Şəki Zona Elmi bazasında kiçik elmi işçi işləyib. 1975-ci ildə Azərbaycan EA-nın aspirantı olmuş, 1981-ci ildə, əsasən, çaytikanı bitkisini hərtərəfli tədqiq edərək elmi iş yazmış, biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. F.Əzizov çaytikanı bitkisi üzrə respublikada ikinci mütəxəssisdir. Çaytikanı bitkisinin ehtiyatı böyük olduğu üçün bu sahədə elmi tədqiqat işləri daha geniş istiqamətdə aparılır. Bu bitkinin Şəki Zona Elmi Bazasında yayılma cəngəlliklərinin xəritə-sxemi tərtib edilmiş, morfoloji və biokimyəvi tədqiqatlar nəticəsində onun 9 müxtəlif forması aşkar edilmişdir. Müalicə yağı, ekstraktların alınmasının texnologiyası hazırlanmışdır. Bundan başqa, boymadərən, yovşan, lavanda və s. kimi efiryağlı bitkilərin biologiyası öyrənilib, bu sahədə təsərrüfatlar yaratmağın böyük perspektivləri barədə təkliflər verilmişdir.

"Biotex" elm-istehsalat birliyi Şəki filialında, əsasən, aşağıdakı istiqamətlərdə fundamental və tətbiqi xarakterli elmi tədqiqat işləri aparılır:

- Şəki-Zaqatala regionunda geniş yayılmış bitki xammalın bioloji fəal maddələrinin öyrənilməsi;
- xalq təsərrüfatının müxtəlif sahələrinin aztapılan bioloji fəal preparatlara olan tələbatını təmin etmək məqsədilə qiymətli bitki xammalının emalı texnologiyalarının hazırlanması;
- bitki və heyvan mənşəli biostimulyatorların alınması və onların təsərrüfatlara tətbiqi;

- geokimyəvi faktorların canlı sistemlərin sabitliyinə təsirinin təhlil və tətbiqi, onların orqanizmə zərərli təsirlərindən mühafizə üsullarından hazırlanması;
- ekoloji faktorların təsirindən orqanizmdə baş verən mübadilə proseslərinin pozulmasının öyrənilməsi;
- ətraf mühitin mühafizəsi sahəsində xammalın səmərəli işlədilməsi üçün lazımi tədbirlərin həyata keçirilməsi;
- kənd təsərrüfatı məhsulları istehsalı sahəsində tullantısız texnologiyaların hazırlanması və tətbiq edilməsi.

Filialın nəzdində hələlik iki - "Biokimya və ekoloji genetika" və "Təbii maddələrin kimyası" laboratoriyaları yaradılmışdır. Filialın özünəməxsus təcrübə zavodu olacaqdır. Burada bilavasitə dərman preparatları və digər bioloji fəal maddələr və məhsullar istehsalı nəzərdə tutulur.

Filialın təcrübə sahəsini yaratmaq üçün 18 hektar torpaq sahəsi ayrılmışdır. Burada bəzi dərman bitkilərinin introduksiyası öyrəniləcək, becərilməsi təşkil ediləcəkdir. Ayrılmış sahədə üçmərtəbəli laboratoriya korpusunun və təcrübə zavodunun tikintisi üçün layihə-smeta sənədləri hazırlanmış, əlaqədar təşkilatlara təqdim edilmişdir. Filialın yüksək ixtisaslı kadrlara olan ehtiyacını ödəmək məqsədilə rayonun məktəblərindən birində kimya və biologiya təmayüllü qruplar yaratmaq və həmin məktəbi indidən hamiliyə götürmək, fərqlənən şagirdləri müvafiq ixtisasa sahib olmaq məqsədilə respublikanın və ölkənin uyğun profilli ali məktəblərində təhsilə göndərmək də nəzərdə tutulmuşdur.

ŞƏKİDƏ ANADAN OLUB ELMİN MÜXTƏLİF SAHƏLƏRİNDƏ AD-SAN QAZANMIŞ ALİMLƏRİN SİYAHISI[1]

(siyahi tam olmaya bilər)

Filologiya elmləri üzrə:

1. Abdullayeva Nabat Cumay qızı - elmlər doktoru
2. Adilov Məmməd Musa oğlu - elmlər namizədi
3. Alxasov Kamil Kamal oğlu - elmlər namizədi
4. Babayev Baba Hüseynəli oğlu - elmlər namizədi
4. Cəfərova Bahar Cumay qızı - elmlər namizədi
6. Əliyev Ramil Manaf oğlu - elmlər namizədi
7. Əfəndiyeva Türkan Əliəşrəf qızı - elmlər doktoru
8. Xalıqov Fikrət Ramazan oğlu - elmlər namizədi
9. Xəlilova Tamilla Abdulməcid qızı - elmlər doktoru
10. İslamov Musa İsa oğlu - elmlər namizədi
11. Qasımova Sədaqət Əbdürəhman qızı - elmlər namizədi
12. Qafarlı Ramazan Oruc oğlu - elmlər namizədi
13. Mahmudova Rəna Dursunəli qızı - elmlər namizədi
14. Mövlayeva Səmayə Ələkbər qızı - elmlər namizədi

Kimya-biologiya elmləri üzrə:

1. Abbasova Zümrüd İsmayıl qızı - biologiya elmləri namizədi
2. Abdullayev Asim Səbri oğlu - kimya elmləri namizədi
3. Abdullayeva Rima Səməd qızı - kimya elmləri namizədi
4. Ağamirzəyeva Zemfira Süleyman qızı - kimya elmləri namizədi
5. Axundova Ellada Mirəli qızı - biologiya elmləri doktoru
6. Bağbanlı İskəndər Lətif oğlu - biologiya elmləri doktoru
7. Bağbanlı Solmaz İskəndər qızı - kimya elmləri namizədi
8. Bilalov Yaşar Mahmud oğlu - kimya elmləri doktoru

[1] Şəkidə anadan olmuş alimlərin həyat və elmi yaradıcılıqları Ələfsər Məmmədov, Fikrət Xalıqovun "Şəki. Alim və Ziyalılar" (Bakı, 2002) kitabında hərtərəfli işıqlandırıldığından biz siyahi verməklə kifayətlənirik. Müəlliflərə oxucular və öz adımdan təşəkkür edirəm.

9. Cavadova Həqiqət Əliəşrəf qızı - kimya elmləri doktoru
10. Cəlaləddinov Fidail Fətullah oğlu - kimya elmləri namizədi
11. Cəlilov Tacəddin Nizaməddin oğlu - kimya elmləri namizədi
12. Cəfərov Hidayət Cəfər oğlu - kimya elmləri namizədi
13. Cəfərova Susana Abduləziz qızı - kimya elmləri namizədi
14. Əbdürrəhimova Reyhan Əsədulla qızı - kimya elmləri doktoru
15. Ələkbərova Səkinə Əşrəf qızı - kimya elmləri doktoru
16. Əfəndiyev Ramiz Məcid oğlu - kimya elmləri namizədi
17. Əfəndiyev Məcid Ramiz oğlu - kimya elmləri namizədi
18. Əfəndiyeva Şəfiqə Məcid qızı - biologiya elmləri namizədi
19. Əfəndiyeva Nərminə Heydər qızı - kimya elmləri namizədi
20. Əfəndiyeva Şəhla Məmməd qızı - kimya elmləri namizədi
21. Əfəndiyeva İffət Məmməd qızı - biologiya elmdəri namizədi
22. Əhmədov Rüfət Yunus oğlu - kimya elmləri namizədi
23. Hacıyev Şaban Salam oğlu - kimya elmləri namizədi
24. Hacıyeva Tahirə Abdulla qızı - kimya elmləri namizədi
25. Həmidov Rəhman Hüseyn oğlu - kimya elmləri namizədi
26. İbadzadə Edison Qafar oğlu - kimya elmləri namizədi
27. İbadzadə Afaq Cəfər qızı - kimya elmləri namizədi
28. İbrahimov Abdulla Cabbar oğlu - kimya elmləri namizədi
29. İbrahimova Səadət Şərif qızı - kimya elmləri namizədi
31, İsrafilova Sevil Zakir qızı - kimya elmləri namizədi
32. Qasımova Nelli Məmməd qızı - kimya elmləri namizədi
33. Qəribov Adil Xalıq oğlu - kimya elmləri doktoru
34. Quluzadə Esmira Sadıq qızı - kimya elmləri namizədi
35. Məmmədov Ziyəddin Fərman oğlu - kimya elmləri namizədi
36. Məmmədov Ələfsər Bəxtiyar oğlu - kimya elmləri doktoru
37. Məmmədova Rahilə İsmayıl qızı - kimya elmləri namizədi
38. Məmmədəliyev Fətullah Cəlaləddin oğlu - kimya elmləri namizədi
39. Novruzova Firəngiz Əhməd qızı - kimya elmləri namizədi
40. Şıxov Mövlud Ənəs oğlu - kimya elmləri namizədi
41. Mirhəsənov Nəriman Mustafa oğlu - biologiya elmləri namizədi

Fizika-riyaziyyat elmləri üzrə

1. Allahverdiyev Azər Mustafakamal oğlu - elmlər namizədi
2. Cabbarov Cabbar Həsən oğlu - elmlər namizədi
3. Əfəndiyev Hüseyn Əhməd oğlu - elmlər doktoru
4. Əliyev İdris Fərəc oğlu - elmlər namizədi
5. Əliyev İlham Vəliyullah oğlu - elmlər doktoru
6. Əfəndiyev Eldar Hüseyn oğlu - elmlər doktoru
7. Əfəndiyeva Ofelya Arif qızı - elmlər namizədi
8. Əfəndiyeva İzzət Məmməd qızı - elmlər namizədi
9. Əhmədov Faiq Abduləvvəl oğlu - elmlər doktoru
10. Əhmədov Namiq Abduləvvəl oğlu - elmlər namizədi
11. Əhmədov Nicat Faiq oğlu - elmlər namizədi
12. Hacıyev Əliəşrəf Yunus oğlu - elmlər namizədi
13. Hacıyev Vüqar Məmməd oğlu - elmlər namizədi
14. Həmidov Şəmsəddin Qafar oğlu - elmlər namizədi
15. Həmidov Rəfael Hüseyn oğlu - elmlər namizədi
16. Həsənov Allahverdi Biyakir oğlu - elmlər namizədi
17. Hüseynbəyova Almas Məmmədəli qızı - elmlər namizədi
18. Xəlilova Almaz Əhmədiyyə qızı - elmlər namizədi
19. İmanov Elxan Məmmədsadıq oğlu - elmlər namizədi
20. Mədətov Rəhim Səlim oğlu - elmlər doktoru
21. Məmmədov Niyaz Mustafa oğlu - elmlər doktoru
22. Məmmədov Rəşad Sirac oğlu - elmlər namizədi
23. Məsimov Fikrət Əbülfət oğlu - elmlər namizədi
24. Mustafazadə Məmməd Abdulkərim oğlu - elmlər doktoru
25. Nəsrullayev Nüyvər Loğman oğlu - elmlər namizədi
26. Rəsulov Aydın Yəhya oğlu - elmlər namizədi
27. Rəsulov Arif Yəhya oğlu - elmlər namizədi
28. Rəsulov Tofiq Məcid oğlu - elmlər namizədi
29. Rəhimov Rəşad Nizaməddin oğlu - elmlər namizədi
30. Sədrəddinov Sədrəddin Ələkbər oğlu - elmlər namizədi
31. Süleymanov Aydın Məmmədli oğlu - elmlər namizədi
32. Aslanov Məmməd Səməd oğlu - elmlər namizədi
33. Cəlalov Qərib İsaq oğlu - elmlər doktoru

Geologiya-mineralogiya elmləri üzrə

1. Atayeva Elmira Zahid qızı - elmlər namizədi
2. Axundov Fuad Mustafa oğlu - elmlər namizədi
3. Bəşirov Yaqub Mustafa oğlu - elmlər namizədi
4. Əhmədov Aydın Qafar oğlu - elmlər doktoru
5. Hacızadə Ziya Salman oğlu - elmlər namizədi
6. Hacıyev Sabir Saleh oğlu - elmlər namizədi
7. Hüseynov Fikrət Hüseynbala oğlu - elmlər namizədi
8. İlyasov Neymət Rəsul oğlu - elmlər namizədi
9. Qədirov Fəxrəddin Əbülfət oğlu - elmlər namizədi
10. Qurbanova Rahu Ağabala qızı - elmlər namizədi
11. Məmmədov Zaman Mahmud oğlu - elmlər namizədi
12. Mustafayev Həmid Veysəl oğlu - elmlər doktoru
13. Mustafayev Qurbanəli Abdurəhim oğlu - elmlər doktoru
14. Nəbiyev Məmmədsaleh Həmid oğlu - elmlər namizədi
15. Sultanov Rəsul Hacı oğlu - elmlər doktoru
16. Sultanov Əzəl Cəfər oğlu - akademik
17. Sultanov Cəfər Əzəl oğlu - elmlər doktoru
18. Tahirov Çingiz Əhməd oğlu - elmlər namizədi
19. Cəlilov Cəlil Həsən oğlu - elmlər namizədi

Texnika elmləri üzrə

1. Alxasov Siyavuş Məmmədiyyə oğlu - elmlər namizədi
2. Cəlilov Səttar Mustafa oğlu - elmlər namizədi
3. Dadaşova Rəna Bəhram qızı - elmlər namizədi
4. Hacıyev Emil Məmmədiyyə oğlu - elmlər namizədi
5. Hacıyev Məmməd Məmmədiyyə oğlu - elmlər namizədi
6. Həbibullayev Səlahəddin Bəxtiyar oğlu - elmlər namizədi
7. Həzrətov Fərman Zülfü oğlu - elmlər namizədi
8. Hüseynov Rafiq Qurban oğlu - elmlər doktoru
9. Hüseynova Dinarə Fikrət qızı - elmlər namizədi
10. İsmayılov Nazim Qasım oğlu - elmlər namizədi
11. İsmayılova Türkan Ağamalı qızı - elmlər namizədi
12. İsrafilov Nəsir Əli oğlu - elmlər doktoru

13. İsrafilov Telman Davud oğlu - elmlər namizədi
14. Qədimov Rauf Mustafa oğlu - elmlər namizədi
15. Mövlazadə Vaqif Zahid oğlu - elmlər doktoru
16. Mustafazadə Fuad Məmməd oğlu - elmlər doktoru
17. Rəsulov Arif Yəhya oğlu - elmlər namizədi
18. Rəsulov Mahir Abdulla oğlu - elmlər doktoru
19. Səlimov Səlim Vəhyəddin oğlu - elmlər namizədi
20. Gülüzadə Uğuz Ələsgər oğlu - elmlər namizədi
21. Hacıyev Rəmzi Abdulla oğlu - elmlər namizədi
22. Hacıyev Fərman Mustafa oğlu - elmlər doktoru
23. Hacıyev İmran Mustafa oğlu - elmlər namizədi
24. Məmmədov Nazim Həsən oğlu - elmlər namizədi

Kənd təsərrüfatı elmləri üzrə

1. Əbdürrəhimov Hüseynbala Yusif oğlu - elmlər namizədi
2. Əmirov Faiq Əsəd oğlu - elmlər namizədi
3. Əfəndiyev Məmməd Məmməd oğlu - elmlər namizədi
4. İmamverdiyev Məmməd Məmməd oğlu - elmlər namihədi
5. Mustafayev Bahəddin Məmməd oğlu - elmlər namizədi
6. Nadirov Nadir Hüseynbala oğlu - elmlər namizədi
7. Zahidova Bəli Bahab qızı - elmlər namizədi

MÜQƏDDƏS PEŞƏ

TƏBABƏTİMİZİN KÖKLƏRİ

"Siz yer üzərində olan insanlara qarşı şəfqətli olsanız, göydə olan Allah da sizə qarşı şəfqətli olar".
Məhəmməd peyğəmbər.

Dahi sənətkar Əcəmi Möminə xatın türbəsinin üstündə yazıb: "Biz gedəcəyik, dünya durası, biz öləsiyik, bu yadigar qalası". Dəhşət onda yaranır ki, biz keçmişimizi unudur, gələcəyimiz haqda düşünmürük. Məşhur İspaniya rəssamı Fransisko Qoyya çəkdiyi rəsmlərdən birinin aşağısında belə yazmışdır: "İdrak yuxuya gedəndə dəhşət törənir". Qədim hind əfsanələrinə görə allahların qurunu və dənizi hərəkətə gətirməklə yaratdıqları on dörd qiymətli nemətdən biri də alim-təbib olmuşdur. Onların cəmiyyətdə yeri yüksək, qarşılarına qoyulan tələblər böyükdür. Qədim Hindistan etikası tələb edirdi: "...əgər bir həkim öz təcrübəsində müvəffəqiyyətə nail olmaq istəyirsə, o, sağlam, səliqəli, təvazökar, dözümlü...olmalı, xüsusən boşboğazlıqdan qaçmalıdır.

Qeyd etməliyəm ki, Azərbaycanda və ümumiyyətlə, Şərq aləmində təbabətin çox qədim kökləri vardır. Qədim əfsanələrdə, nağıllarda bu öz əksini tapmışdır. Dövrünün əxlaq kodeksi olan islam dininin, Quranın meydana çıxması ilə əlaqədar olaraq, elmin bu sahəsi daha da inkişaf etmiş və dərinləşmişdir.

Hələ qədimdən Azərbaycanda elmin ilk addımları əmələ gəlmiş və inkişaf etmişdir. Yüz illər ərzində Azərbaycan alimləri tərəfindən bir çox kəşflər edilmiş, riyaziyyat və astoronomiya, fəlsəfə və məntiq, təbabət, tarix və başqa elmlər üzrə əsərlər yaradılmışdır. Şərq ölkələrinin digər millətləri və xalqları arasında olduğu kimi, Azərbaycan xalqı arasında da hələ qədim zamandan dövrünün görkəmli həkimi Loğman-Bükrət məşhur

idi və bu ad altında Hippokrat nəzərdə tutulurdu (prof.M.Ə.İbrahimov, "Sovet Azərbaycanı səhiyyəsi", Moskva, 1967). Loğman-Bürkətin müxtəlif xəstəlikləri necə müalicə etmək və onların qarşısını necə almaq barədə tibbi məsləhətləri nəsildənnəslə keçmişdir. Şərqin başqa ölkələrində mədrəsə adlanan ruhani məktəbləri var idi. Burada dini nəzəriyyələr, təbabət öyrənilir və bununla da ruhani vəzifəsi üçün şəxslər, həmçinin də təbabət üçün təbiblər hazırlanırdı. Hələ XII əsrdə Azərbaycanın böyük filosofu, kimyagəri, astronomu və həkimi Ömər Osman oğlu Şamaxı yaxınlığındakı Məlhəm adlı yerdə tibb mədrəsəsi yaratmışdır. Burada ilk dəfə stasionar müalicə təşkil etmişdi. Hətta XIII əsrin axırlarında Azərbaycan alimi Nəcməddin Əhməd Naxçıvani tərəfindən ibn Sinanın əsərlərinə izahlar yazılmışdır (M.Ə.İbrahimov).

Orta əsrlərdə cəmiyyətin inkişafı ilə əlaqədar tibb elmi də tərəqqi etməyə başlayır. Həmin dövrdə təbabət biologiya elmi ilə birlikdə öyrənilirdi. XVI əsrin görkəmli filosofu, məntiqşünas, təbiətşünas və həkimi Qarabağı Yusif Məhəmmədcan oğlu ilk təhsilini Qarabağda almış, sonralar isə Səmərqənddə yaşamışdır. Öz bilik və bacarığına görə Yaxın və Orta Şərqdə Böyük axund təxəllüsü ilə tanınmış Qarabağı Səmərqənddə dərs demiş, fars və ərəb dillərində fəlsəfəyə, məntiqə, təbabətə aid kitablar yaxmışdır. Fərid Ələkbərovun ("Elm", № 29, 22.07.1989-cu il) məlumatına görə, Qarabağının əsərləri indi Daşkənddə Əlyazmalar fondunda saxlanılır və onun əsərlərindən XX əsrin əvvəllərinə qədər Orta Asiya mədrəsələrində dərslik kimi istifadə olunmuşdur. Böyük axund anatomiya, fiziologiya, psixologiya və təbabətin başqa sahələrindən bəhs edən "Həft behişt" əsərinin müəllifi olmaqla, "Xəstəliklərdən qorunma" adlı tibbi əsərə şərh və haşiyə yazmışdır. Aristotelin idrak və məntiq nəzəriyyəsinin, ibn Sina məktəbinin davamçısı Böyük axund - Qarabağı 1591-ci ildə Səmərqənddə vəfat etmişdir.

XIV əsrin əvvəllərində Təbrizdə "Dar üş-Şəfa" ("Şəfa evi") şəhərciyi yaradıldı (İ.K.Əfəndiyev. "Azərbaycanın XIX

əsrə qədər qədim təbabət tarixi", 1964). Qeyd etmək lazımdır ki, Şərqdə ilk Dar üş-Şəfanı ibn Sina təşkil etmişdir. Maraqlıdır ki, XII əsrin böyük mütəfəkkiri və alimi Əbü Əli ibn Sina yaradıcılığının ən məhsuldar dövrünü Azərbaycanda keçirmiş, ona dünya şöhrəti qazandıran "Qanun" və başqa əsərlərini burada yazmışdır. Mənbələrin məlumatına görə, Azərbaycanın təkcə cənub vilayətlərində 67 "Şəfa evi" var idi. 1483-cü ildə Ağqoyunlu hökmdarı Sultan Yaqubun Təbrizdə tikdirdiyi "Həşt behişt" ("Səkkiz cənnət") saray kompleksi "Dar üş-Şəfa"da minə qədər xəstəni müalicə etmək üçün şərait vardı. "Şəfa evi"nə - özünə məxsus universitet olan məktəbə, müxtəlif Şərq ölkələrindən minlərlə tələbə təbiətşünaslığı, təbabəti, dini nəzəriyyəni öyrənmək üçün axışıb gəlirdi. "Şəfa evi"ndə hər həkimə on nəfər tələbə təhkim edirdilər. Bu deyilənlərdən məlum olur ki, Azərbaycanda, mən deyərdim, elmi təbabətin qədim - yeddi əsrdən çox tarixi vardır.

XIX əsrdə Azərbaycanda tanınmış təbiblərdən biri Qayıbov Mirzə Məmmədqulu Mollahəsən oğlu Qarabağı olmuşdur. O, 1818-ci ildə Şuşada anadan olub və 1879-cu ildə orada vəfat etmişdir, xalq həkimidir. Tibbi təhsilini İsfahanda almışdır. Xurşidbanu Natəvanın şəxsi həkimi olmuşdur. Onun təqribən 150 adda qədim tibb ədəbiyyatından ibarət zəngin kitabxanası olmuşdur. Mirzə Məmmədqulu mahir həkim olmaqla yanaşı, həm də gözəl xəttat idi. Onun böyük ustalıqla üzünü köçürdüyü İbn Sinanın "Tibb qanunları", Mirzə Məhəmməd Hüseyn Əfşarın cərrahiyyəyə həsr etdiyi "Risaleyi cərrahi" və Səid Məhəmməd Hüseynin əczaçılıqdan bəhs edən "Məhzəi əl-əbədiyyə" əsərləri respublika Əlyazmaları Fondunda saxlanılır. Əfsuslar olsun ki, Böyük axund-Qarabağı, Mirzə Məhəmmədqulu Mollahəsən oğlu Qarabağının miras qoyub getdikləri qiymətli elmi xəzinə hələ də lazımınca araşdırılıb öyrənilməmiş, qədim el təbabətinin sirləri xalqımıza olduğu kimi çatdırılmamışdır.

Qeyd etmək lazımdır ki, xalqımız ta qədimdən el təbabəti ilə məşğul olub. Belə dəlillərə "Kitabi-Dədə Qorqud"da da rast

gəlirik. "Ana südü - dağ çiçəyi"nin hər dərd üçün məlhəm olması bu kitabda yazılmayıbmı? Hələ qədim zamanlarda Azərbaycanda xəstəliklərin müalicəsi üçün otlar və toxumlardan, köklər və meyvələrdən geniş istifadə edilirdi: dağ nanəsi, çobanyastığı çiçəyinin yarpağı, heyva toxumu, qarğıdalı saçağı, gülxətmi kökü, moruq, zirinc, nar qabığı, sumaq, hil, zəfəran, sirkə, gülab və s. Xüsusi şəxslər dərman bitkilərinin yığılması, qurudulması, saxlanılması və ticarəti ilə məşğul olurdular. Mineral maddələrdən, müxtəlif yağlardan: gənəgərçək, zeytun yağından, keçi piyindən, mis kuporusundan, kükürddən, neft məhsullarından, mumdan, baldan geniş istifadə olunurdu. Qan almaq, küpə qoymaq, dağlamaq və massaj geniş yayılmışdı. Qədimdə alimlər, el təbibləri müxtəlif məlhəmlər, dərmanlar hazırlamış və bir çox dərdləri müalicə etmişlər. Azərbaycanın, demək olar ki, bütün güşələrində az və ya çox tanınmış el həkimləri olub. Eşitdiyim və tanıdığım əsl el həkimlərindən bir neçəsinin adını çəkmək istərdim: Bakıdan məşhur sınıqçı Hacı Məmməd Rəhim, Ağdamdan el təbibləri Kəblə Bəşir, Mirzə Saleh, Əvəz kişi, Şəkidən Həkim Baba, mama Zəhra, Qaxdan Cəlal kişi və s. Bir neçə kəlmə sizə Həkim Baba haqqında danışmaq istərdim, ona Limon Baba da deyərdilər. Bu müdrik insan təbiətin vurğunu idi. Limon bitkisini daha çox sevərdi. Onun Şəkidə böyük bir limon bağı vardı. Müharibə illəri və müharibədən bir neçə il sonra ibtidai sinif dərsliklərində Limon Baba haqda uşaqlara məlumat verilirdi. Həmin dərsliklərdən məlum olur ki, Həkim Baba yetişdirdiyi limon ağaclarından barı üstündə Kremlə, M.İ.Kalininə də pay göndərmişdi. Həkim Baba bir çox cərrahi xəstəlikləri, irinli yaraları, qara ciyər xəstəliklərini müalicə edərmiş. Özünün dərman bitkilərindən hazırladığı məl-

Tanınmış el həkimi Həkim baba – "Limon baba".

həmləri işlədərmiş. Xırda cərrahi əməliyyatlar da apararmış. Rəhmətə getdi, hər şey yaddan çıxdı. Limon bağı məhv oldu, sahəsi xüsusi adamlara paylandı, evlər tikildi. İndi gənc nəsildən soruşsan ki, Həkim Baba - Limon Baba kimdir? Heç kim tanımır, elə bil ki, belə bir müdrik insan Şəkidə yaşamayıb.

Bir həqiqətdir ki, keçmişdə el-obamızda "mama" adı altında bilici ağbirçəklərimiz olub ki, doğuşu qəbul ediblər. Hal-hazırda yeni doğulmuşlar arasında ölüm, sepsis, doğuş zədələnmələri, ana ölümü durmadan artmaqdadır. Bütün bunların səbəbi nədir? Həkimlərin sayı ildən ilə artsa da onların bilik səviyyəsi, təcrübələri aşağıdır. Tibb universitetini qurtaran hər bir qız yalnız qadın həkimi - ginekoloq olmaq arzusunda olur. Bu sahədə işləyənlərin əksəriyyəti də ancaq hamiləliyin süni pozulması - abortla məşğul olmağı qarşılarına məqsəd qoyurlar. İndi hansı "xanım" istər ki, aylarla qadının müalicəsilə məşğul olsun. Hanı keçmişin tanınmış həkimləri, ağbirçək mamaları? Mən belələrindən yalnız bir nəfər barədə sizə danışmaq istərdim.



"Petinin qızı" - Züleyxa xala.

Yadımdadır, Şəkidə təcili yardım stansiyasında "Petinin qızı" - Züleyxa xala adlı bir qoca mama işləyirdi. Təcili yardıma sifariş verəndə deyərdilər ki, mütləq Züleyxa xala gəlsin. Bu nurani qocada necə səliqə, işinə, xəstələrə qarşı necə məhəbbət vardı... O vaxt Şəkidə bütün səhiyyə idarələrinin bir dənə "poltoratonka" maşını vardı... Yaşı 80-dən ötmüş bu nurani qoca qışın çovğununda, yayın istisində, payızın yağışında bütün Şəki kəndlərinə doğuşa kömməyə gedərdi. Neçə-neçə qadının doğuşunu sənətinin vurğunu olan bu qadın maşının kuzovunda tutub. Deyilənlərə görə, istər inqilabdan qabaq və istərsə də sovet dövründə doğum evi açılana qədər, Şəkinin əksər qadınlarına doğuşa kömək edən mamalar içərisində "Petinin qızı" - Züleyxa xala və mama Zəhra böyük şöhrət qazanmışlar. Əfsuslar olsun ki, xalqımızın belə müdrik ağbirçəkləri mama Zəhralar, Züleyxa xalalar öləndən sonra tez unudulur, onların əsrlərdən yadigar qalmış təcrübələri də birdəfəlik yaddan çıxır.

Bu bir həqiqətdir ki, hər bir xalqın tarixini, keçmiş adət və ənənələrini öyrənmək üçün nəsillərimizə miras qalmış kitab və əlyazmalarını araşdırmaq, müəyyən nəticəyə gəlmək lazımdır. Azərbaycanın istər elm, ədəbiyyat, istərsə də tibb sahəsində olan məlumatları 1930-cu ilə qədər ərəb əlifbası ilə yazılmışdır. Hələ mən demirəm, çoxu ərəb və fars dillərində yazılıb. Bu əlifbanın ləğv edilməsilə xalqımızın bir neçə yüzilliklərdə yaratdığı xəzinə ilə əlaqəmiz kəsildi. Sonra latın əlifbası qəbul edildi, bu da qısa müddətdə kiril əlifbası ilə əvəz edildi. Müstəqillik əldə edildikdən sonra yenidən latın əlifbası qəbul edildi. B.Vahabzadənin dili ilə desək, bir xalqın əlifbası neçə dəfə dəyişər? Əgər bizim alimlərimiz, akademiklərimiz, universitet və elmi tədqiqat institutlarımızın əksər əməkdaşları ərəb əlifbasını bilmirlərsə, xalqın tarixini necə yazmaq olar? Məgər orta məktəblərdə ərəb əlifbasını öyrətmək vaxtı yetişməyibmi? Niyə bu əlifbadan biz belə qorxuruq? Məgər ulu babalarımız Xaqani, Nizami, Nəsimi, Füzuli, Tusi, İbn Sina və başqaları bu əlifba ilə dünya inciləri xəzinəsini zənginləşdirməyiblərmi? Bəlkə də bunlar sadəlövhlüyümüzdən, ya da qorxaqlığımızdan başımıza gəlib. Məhəmməd Hadi yaxşı deyib: "Mən bir şeyi bağışlaya bilməyəcəyəm: uşaqlıqdan qorxu hissi ilə böyüməyimi". Aqillər deyiblər ki, insan qorxa-qorxa həqiqəti danar, müti, maymaq olar. Əbdürrəhim bəy Haqverdiyevin dediyi kimi: "...qorxa-qorxa yabıya çevrilərlər!"

Yaxşı bir məsəl var ki, ürək yanmasa, gözdən yaş çıxmaz. Susmaq da həmişə qızıl deyil. Bu cür qorxular, susmaqlar müxtəlif yanlış fikirlərin yaranıb yayılmasına səbəb olur, insanı ən dəhşətli bir bəla olan laqeydliyə yuvarladır. Belə olanda da yaxşı pisdən, şirin şordan, düz əyridən fərqlənmir və nəticədə ədalətsizlik kimi mənfur hallar baş qaldırır, milləti məhvə doğru

sürükləyir. Millətin həm cismani və həm də mənəvi müalicəyə hər zaman böyük ehtiyacı olub və olacaq.

Mən fikirlərimi dahi Füzulinin "Həkim" rədifli qəzəli ilə yekunlaşdırmaq istərdim.

Eşqdən canımda bir pünhan nəzər var, ey həkim!
Xəlqə pünhan dərdim izhar etmə zinhar, ey həkim!

Var bir dərdim ki, çox dərmandan artıqdır mənə
Qoy məni dərdimlə, dərman eyləmə, var, ey həkim!

Gər basıb əl nəbzimə, təşxis qılsan dərdimi,
Al əmanət, qılma hər bidərdə izhar, ey həkim!

Gəl mənim tədbiri-bihudəmdə sən bir səy qıl
Kim, olam bu dərdə artırar giriftar, ey həkim!

Gör təni-üryan ilə əhvalımı hicran günü,
Var imiş ruzi-qiyamət, qılma inkar, ey həkim!

Çəkməyincə careyi-dərdimdə zəhmət bilmədin
Kim, olur dərmani-dərdi-eşq düşvar, ey həkim!

Rənc çəkmə: səhhət ümmidin Füzulidən götür
Kim, qəbuli-səhhət etməz böylə bimar, ey həkim!

İLK AZƏRBAYCANLI SANİTAR HƏKİM

Azərbaycan təbabəti tarixində Şəki həkimləri özlərinə məxsus yer tutmuşlar. Xalqın məhəbbətini qazanmış "Əmək qəhrəmanı" və respublikanın "Əməkdar həkimi" adına layiq görülmüş bəzi şəkili həkimlər haqda söz açmaq, onların həyat və fəaliyyətlərini işıqlandırmaq istərdik. Məlumdur ki, hələ 30-cu illərdə Azərbaycanın görkəmli həkimləri, tibb xadimləri xalq qarşısındakı misilsiz xidmətlərinə görə Azərbaycan Mərkəzi İc-

raiyyə Komitəsi Rəyasət Heyətinin Fərmanı ilə "Azərbaycan SSR Əmək Qəhrəmanı"adı ilə təltif edilirdilər. 1938-ci il dekabrın 27-də "Sosialist Əməyi Qəhrəmanı" adının təsis olunması ilə əlaqədar "Əmək Qəhrəmanı" adı verilməsi dayandırılmışdır.

Azərbaycanda səhiyyə işçilərindən 5 nəfərinə "Əmək Qəhrəmanı" fəxri adı verilmişdir: professorlardan Ə.Əlibəyov və Y.Gintes, dosent B.Qayıbov, həkimlər M.Hacıyev və M.Şərifov. Sonuncu iki nəfər Şəkidəndir.

Mustafa Şərifov.

Şərifov Mustafa İsmayıl oğlu 1875-ci ildə Şəkidə anadan olmuş, 1899-cu ildə Xarkov Universitetinin tibb fakültəsini bitirmişdir. 1901-ci ildə Cavanşir qəzasına kənd həkimi, sonralar Bakıda rayon sanitar-epidemioloji stansiyasına müdir təyin olunmuşdur. 1918-1920-ci illərdə isə Bakı şəhəri tibb-sanitar hissəsinin müdiri işləmişdir.

M.İ.Şərifov Bakı Şəhər Səhiyyə şöbəsinin müdir müavini, Əmək Gigiyenası və Peşə Xəstəlikləri İnstitutu statistika şöbəsinin müdiri, "Azneft"in tibb-sanitar idarəsində müdir müavini vəzifələrində işləmişdir. Azərbaycanda səhiyyənin təşkilində yüksək xidmətlərinə görə Mustafa İsmayıl oğlu Şərifova 1932-ci ildə "Azərbaycan SSR Əmək Qəhrəmanı" fəxri adı verilmişdir. İstedadlı həkim Şərifov M.İ. 1938-ci ildə vəfat etmişdir.

ƏNƏNƏLƏR YAŞAYIR

Atalardan məsəl var: "Ot kökü üstə bitər". Doğrudan da, belədir. Haqqında danışmaq istədiyimiz Məmməd Cəbrayıl oğlu Hacıyev Şəkinin məşhur Xalisə xanım - Xalisəqarı və mətnşünas alim Əbdülğəni Əfəndi Nuxəvi nəslindəndir. Bu ziyalı nəsli Azərbaycan tarixinə onlarca tanınmış alim, həkim və başqa sənətkarlar vermişdir.

Məmməd Hacıyev.

M.C.Hacıyev 1891-ci ildə Nuxada (Şəkidə) anadan olmuşdur. O, Odessa Dövlət Gimnaziyasını bitirmiş və Odessa Dövlət Universitetinin tibb fakültəsinə daxil olmuşdur. 1916-cı ildə təhsilini başa çatdırıb iki ay Odessanın poliklinikalarından birində işləyib, sonra isə Kerç şəhərində xəstəxananın baş həkimi olub. Sonralar N.Nərimanovun təkidi ilə Azərbaycana qayıtmış, bir neçə il Bakıda işləmiş, 1924-cü ildə Şəkidəki Rayonlararası Mərkəzi xəstəxanaya baş həkim təyin edilmişdir. Ömrünün sonuna qədər, yəni 30 il burada işləmişdir. Şəki Mərkəzi xəstəxanasının təşkili məhz M.C.Hacıyevin adı ilə bağlıdır. İlk gündən bu xəstəxananın xidmətindən təkcə Şəki əhalisi deyil, qonşu Qəbələ, Oğuz, Balakən, Zaqatala, Qax və hətta Dağıstan zəhmətkeşləri də istifadə etmişdir.

M.C.Hacıyev əsl ziyalı idi. O, rus, alman və fransız dillərini əla bilirdi. Onun ata-baba yurduna qayıtdığı dövrdə Şəkidə həkim olduqca az idi. Doktor Hacıyev yorulmaq bilmədən xəstələri qəbul edir, hətta vaxt tapıb evləri gəzir, müalicə ilə məşğul olurdu. Onun xəstə ilə mülayim danışığı, sadəliyi, mədəniyyəti hamını heyran qoyardı.

Doktor Hacıyev qayğıkeş müəllim idi. Onun sayəsində Şəkidə yüzlərlə tibb kadrları yetişmişdi. Onlardan Azərbaycanın əməkdar həkimləri F.Həmidzadə, N.Əbdürrəhmanov, C.Abbasova və b. göstərmək olar.

M.C.Hacıyev tanınmış səhiyyət təşkilatçısı idi. Şəkidə səhiyyə müəssisələrinin genişləndirilməsinin əsasını qoymuş, ondan sonra bu şərəfli yolu F.Həmidzadə davam etdirmişdir.

Oğlu Fevzi Hacıyev Azərbaycanın tanınmış cərrahı idi. O, Azərbaycan Dövlət Tibb İnstitutu Ümumi cərrahiyyə kafedrasında dosent işləmişdir. Ata kimi mehriban, alicənab bir insan idi.

Doktor Hacıyevin qızı Faimə Hacıyeva göz həkimidir. Uzun illər Bakı şəhər 4 №-li klinik xəstəxanasında göz xəstəlikləri şöbəsinə başçılıq etmişdir.

Əməkdar Qəhrəmanı Məmməd Hacıyevin xidmətləri yüksək qiymətləndirilmişdir. 1942-ci ildə respublikanın "Əməkdar həkimi" fəxri adı verilmiş, bir çox orden və medallarla təltif edilmişdir. Unudulmaz təbib 1954-cü ildə Şəkifə vəfat etmişcir.

1968-ci ildə Şəki Birləşmiş xəstəxanasına M.C.Hacıyevin adı verilmişdir. Onun adına küçə vardır.

AKADEMİK CƏLİL HÜSEYNOV



Cəlil Hüseynov.

Azərbaycan xalqının görkəmli alimi Cəlil Yusif oğlu Hüseynov 20 dekabr 1896-cı ildə Şəkidə anadan olmuşdur. Hələ uşaqkən o, atasını itirmiş və hədsiz maddi çətinliklər çəkmişdir. Buna baxmayaraq Cəlil 1905-1907-ci illərdə Nuxa şəhər rus məktəbində oxumuş və sonra - 1908-1918-ci illərdə təhsilini Tiflisdə birinci kişi gimnaziyasında davam etdirmişdir. 1919-cu ildə ikinci kişi gimnaziyasını bitirdikdən sonra Bakıda Universitetin tibb fakültəsinə qəbul olunmuşdur. Universitetdə oxuyarkən C.Hüseynov müəllimlik etmiş, 1923-1924-cü illərdə Bakıda fəhlə fakültəsində dərs demişdir.

C.Hüseynov universitetdə oxuduğu dövrdə elmə sonsuz həvəs göstərmiş, elmi konfranslarda iştirak etmişdir. Onun elmə olan bu həvəsinin nəticəsidir ki, 1924-cü ildə universiteti qurtaran kimi bakterioloji və kliniki laboratoriya metodlarını öyrənmək üçün Moskvaya göndərilir. O, 1924-1925-ci illərdə universitetin Patoloji anatomiya kafedrasında prozektor işləmiş, eyni zamanda Muğanda malyariya ekspedisiyasına başçılıq etmişdir. O zaman Cənubi Muğanda bir nəfər də olsa həkim yox idi.

C.Hüseynov həftələrlə xəstələri müalicə edərmiş, O, eyni zamanda elmi işlərini də unutmamış, 1926-1935-ci illərdə Patoloji anatomiya kafedrasında assistent və sonra dosent işləmişdir. Həmin illərdə o, həmçinin Bakının Semaşko adına klinik xəstəxanasında, diş həkimliyi və veterianarlıq texnikumlarında, tibb müəssisələrində, histologiya, patofiziologiya və mikrobiologiyadan dərs deyirdi. 1930-cu ildə o, dosent olur. Gənc alim 5 il ərzində (1930-1935) Azərbaycan dilində patoloji anatomiya elminə aid üç böyük kitab yazmışdır. 1936-cı ildə doktorluq dissertasiyası müdafiə edib. Böyük Vətən müharibəsi illərində Azərbaycanda təşkil edilmiş hərbi qospitalların baş patoloji anatomu işləmişdir. 1943-cü ildə "Səhiyyə əlaçısı" olur. 1936-cı ildən professor olan C.Hüseynov 1946-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutu Patoloji anatomiya kafedrasının müdiri seçilir və ömrünün sonuna qədər bu elmi ocağa rəhbərlik edir. Həmin ili o, Azərbaycan patoloji anatomiya elmi cəmiyyətinin sədri olur, respublikanın baş patoloji anatomu təyin edilir. 1947-1949-cu illərdə Azərbaycan EA Eksperimental Təbabət İnstitutu patomorfologiya şöbəsinə rəhbərlik edir. 1949-cu ildə Azərbaycan Tibb İnstitutu elmi şurasının üzvü, 1953-cü ildən ömrünün axırına qədər respublika Səhiyyə Nazirliyi Elmi Şurasının sədri olmuşdur. Nəinki vətənimizdə, hətta bir çox xarici ölkələrdə şöhrət qazanmış professor C.Hüseynov 1957-ci ildən "Arxiv patologiya" (Moskva) jurnalı redaksiya heyətinin üzvü seçilmiş, onlarla elmi konfransların iştirakçısı olmuşdur. Azərbaycan səhiyyəsinin fəxri sayılan respublikanın əməkdar elm xadimi C.Hüseynov 1959-cu ildə Azərbaycan EA müxbir üzvü, 1967-ci ildə həqiqi üzvü seçilir. O, Ümumittifaq Patoloji Anatomiya Elmi Cəmiyyətinin fəxri üzvü (1971) Azərbaycan EA biologiya bölməsinin akademik katibinin müavini (1972), Azərbaycan Sovet Ensiklopediyası elmi redaksiya şurasının üzvü olmuşdur (1976).

Akademik C.Hüseynovun 130-dan çox elmi əsəri vardır. O, 30-dan çox elmi işçiyə rəhbərlik etmişdir, onların 10-u tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülüb. Akademik C.Hüseynov respublikamızda təbabətin patoloji anatomiya, histologiya sahələrinin əsasını qoymuş, bu barədə Azərbaycan dilində ilk dərsliklər yazmış, doğma yurdumuz üçün gözəl kadrlar hazırlamışdır. Onun zəhməti öz sağlığında layiqincə qiymətləndirilmişdir. Alim onlarla orden və medalla təltif olunmuşdur. Bəs bu alimin vəfatından (21.03.1979-cu ildə, Bakıda) sonra xatirəsini necə əbədiləşdirdik? Heç olmasa vətəni Şəkidə adına bir küçə, bir müalicə ocağı qoymadıq. Hələ büstü haqda demirəm. Bəlkə də şəkililərin çoxu bu görkəmli alimi heç tanımır.

Mən bu sətirləri, bəlkə də, bir neçə dəfə təkrar etmişəm, lakin məcburam bir də dahi M.Ə.Sabiri yada salım:

Mən nə deyim bizdə olan qeyrətə,
Qeyrətimiz bəllibir hər millətə.

ALİM-TƏBİB



Teyyub Əfəndiyev.

Bəzən böyük şəxsiyyətlərə öz sağlıqlarında layiq olduqları qiymət nəsib olmur. Belə insanlar səbirli olurlar. "Qabusnamə"də yazılır: "Hər bir işdə səbirli ol, səbirli olmaq ağıllı olmağa bərabərdir". Yenə orada deyilir: "Deyiblər üç adam yazıq sayılır: axmağın əli altında işləyən ağıllı, gücsüzə tabe olan qüvvətli, xəsisə möhtac olan səxavətli".

Burada respublikamızın alim-təbibi, professor Əfəndiyev Teyyub Musa oğlu haqda söhbət açmaq istəyirik. Onun səhiyyədəki xidmətləri əvəzsizdir. Əfsuslar olsun ki, respublika həkimlərinin ağsaqqallarından olan bu görkəmli alim haqda Azərbaycan Sovet Ensiklopediyasında heç bir məlumat verilməmiş, xatirəsi vətəni Şəkidə belə əbədiləşdirilməmişdir. Lakin haqq gec-tez öz yerini tapır.

Əfəndiyev Teyyub Musa oğlu 1903-cü ildə Şəki rayonunun

min ildən çox tarixi olan Kiş kəndində doğulmuşdur. Teyyub iki yaşında ikən atası vəfat etmişdir. O, 1920-ci ildə Şəki qəzası maliyyə şöbəsində işə düzəlir, 1923-cü ildən isə vergi şöbəsində rəis müavini işləyir. Eyni zamanda 1922-ci ildən fəhlə fakültəsində təhsilini davam etdirir. 1925-ci ildə Bakıya, stomatologiya institutuna göndərilir. 1929-cu ildə təhsilini başa vurduqdan sonra 1932-ci ilə qədər Nuxa şəhər poliklinikasında stomatoloq işləyir. 1932-ci ildə Bakıya gələn T.M.Əfəndiyev ikinci şəhər poliklinikasında baş həkim, 1933-cü ildə Bakı Voroşilov rayonu səhiyyə şöbəsinin müdiri işləmişdir. O, işləyə-işləyə Azərbaycan Dövlət Tibb İnstitutu müalicə-profilaktika fakültəsinin gecə şöbəsində təhsil alır. 1936-cı ildə institutu qurtardıqdan sonra Xaçmaz rayon mərkəzi xəstəxanasına baş həkim təyin olunur. 1937-ci ildə yenidən Bakıya qayıdır, Azərbaycan Dövlət Tibb İnstitutu qospital terapiya kafedrasında ordinator işləyir. O, 1939-cu ildə Leninqrada professor Q.F.Lanqın klinikasına ezam olunur, orada 1941-ci ildə tibb elmləri namizədi dissertasiyasını müdafiə edir. 1941-ci ilin iyun ayında ordu sıralarına çağırılır, XI ələhiddə batalyonun tibb-sanitar hissəsinə rəis təyin edilir. 1941-ci ilin sentyabr ayında ağır yaralanan T.M.Əfəndiyev müalicə olunduqdan sonra - 1942-ci ildə Krım cəbhəsində 47-ci ordunun 825-ci yoluxucu xəstəliklər qospitalında qulluq edir, həmin ilin may ayında yenidən ağır yaralandıqdan sonra 2-ci qrup müharibə əlili kimi ordudan tərxis olunur.

T.M.Əfəndiyev 1943-cü ilin yanvarında ordudan qayıtdıqdan sonra yenidən Azərbaycan Dövlət Tibb İnstitutu qospital terapiya klinikasında fəaliyyətə başlayır. 1945-ci ildə dosent vəzifəsinə seçilir. 1947-ci ildə respublika Vərəm İnstitutu kliniki şöbəsinə müdir təyin edilir. Baş verən vəziyyətlə əlaqədar 1948-ci ildə Salyan rayonuna baş terapevt və xəstəxananın daxili xəstəliklər şöbəsinə müdir göndərilir. 1950-ci ildə isə Bakı 5 nömrəli klinik xəstəxanası terapiya şöbəsində müdir olur. O, 1951-ci ildə müsabiqə yolu ilə Daşkənd Tibb İnstitutu terapiya kafedrasına dosent, 1952-ci ildə isə Daşkənd Həkimləri Təkmilləşdirmə İnstitutu tropik xəstəliklər kafedrasına müdir seçilir, 1958-ci ildə Özbəkistan Səhiyyə Nazirliyinin qərarı ilə Əndican Tibb İnstitutu fakültə terapiyası kafedrasına müdir təyin olunur.

T.M.Əfəndiyev 1960-cı ildə Azərbaycan Səhiyyə Nazirliyinin dəvəti ilə Bakıya qayıdır. 1960-1962-ci illərdə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun Terapiya kafedrasında professor, 1962-ci ildə yeni təşkil edilmiş Terapiya kafedrasında müdir işləyir.

Professor T.M.Əfəndiyev revmatizm və ürək xəstəliklərinin öyrənilməsi, müalicəsi sahəsində böyük işlər görmüşdür. Onun "Azərbaycanda revmatizm" (1969) kitabı bu sahədə ən sanballı əsərlərdən biri sayılır. İstedadlı alim "Ürək" (1977) əsərində qan təzyiqi, miokard infarktı, ürək qüsurları, ürək qüsuru ilə gedən revmokardit zamanı sinir sisteminin zədələnməsi haqqında geniş məlumat vermiş, "ürək çatışmazlığı"nın əsaslarını göstərmişdir. Onun "ürəyin revmatik qüsurları" (1984) kitabı kordiologiyanın ən mühüm sahəsinə həsr olunmuşdur. Burada ürəyin və onun qapaqlarının zədələnməsi üstünlük təşkil edən revmatik xəstəliyin gedişinin kliniki xüsusiyyətləri üzərində uzun illər aparılan müşahidələrin nəticələri verilmişdir.

Tələbkar müəllim T.M.Əfəndiyevin rəhbərliyi ilə iki doktorluq, 10-dan çox namizədlik dissertasiyası müdafiə edilmişdir. Ən maraqlısı odur ki, Rusiyadan, Qazaxıstandan və b. yerlərdən professor T.M.Əfəndiyevin başçılıq etdiyi kafedrada təkmilləşmə kursunda olan həkimlər sonradan onunla əlaqəni kəsməmiş, hətta namizədlik dissertasiyası müdafiə etmişlər.

Professor T.M.Əfəndiyev 1978-ci ilə qədər Həkimləri Təkmilləşdirmə İnstitutu 2-ci terapiya kafedrasına rəhbərlik etmiş, sonra elmi məsləhətçi işləmişdir.

Azərbaycanın görkəmli terapevti, kardioloqu, revmatoloqu, qayğıkeş müəllim, istedadlı səhiyyə təşkilatçısı, hələ də əhəmiyyətini itirməyən 150-dən çox elmi əsərin müəllifi, zəhmət-

keş insan, professor T.M.Əfəndiyev 1987-ci ildə Bakıda vəfat etmişdir.

ATA-OĞUL-PROFESSORLAR

Məhərrəm Mustafayev.

Mustafayev Məhərrəm Qafar oğlu 1906-cı ildə Şəkidə fəhlə ailəsində anadan olmuşdur. O, 1921-ci ildə Bakıda yeni açılmış kişi seminariyasının hazırlıq kursuna qəbul edilir. 1926-cı ildə seminariyanı bitirən M.Mustafayev ibtidai məktəbdə dərs vermək hüququ qazanır, ilk müəllimlik fəaliyyətinə kənddə başlayır. Lakin həmin il (1926) xalq təhsili komissarlığının qərarı ilə təhsilini davam etdirmək üçün ali məktəbə göndərilir. Beləliklə, M.Q.Mustafayev Azərbaycan Dövlət Universitetinin pedaqoji fakültəsinə daxil olur. Pedaqoji texnikumun nəzdindəki nümunəvi məktəbdə də müəllimliyini davam etdirir. Bu nümunəvi məktəbin əsasında 1927-ci ildə indiki Bakı 48 №-li orta məktəb yaranmış və M.Q.Mustafayev onun birinci direktoru işləmişdir. 1930-cu ildə o, aspiranturaya daxil olur, insan və heyvan fiziologiyası kafedrasında çalışır.



Arif Mustafayev.

1933-cü ildə ADTİ-na daxil olur, 1938-ci ildə bitirir. 1932-1942-ci illərdə oxuya-oxuya tibb texnikumunda biologiya, fiziologiya və anatomiyadan dərs demişdir. 1942-ci ildə dərs hissə müdiri təyin edilmişdir. M.Q.Mustafayev 1943-1945-ci illərdə Bakı Feldşer və Diş Həkimi Texnikumuna başçılıq etmişdir. Azərbaycan Tibb İnstitutuna dəvət olunan M.Q.Mustafayev 1948-1954-cü illərdə

dekan işləmiş, gələcək həkimlərin yetişməsində böyük əmək sərf etmişdir. 1954-cü ildə Azərbaycan Bədən Tərbiyəsi İnstitutu Fiziologiya kafedrasına müdir seçilir və ömrünün sonuna qədər (1986) burada işləyir.

M.Q.Mustafayev 1952-ci ildə tibb elmləri namizədi alimlik dərəcəsi alıb, 1968-ci ildən professor olub. O, 80-dən çox elmi işin, 5 dərsliyin, 40 elmi məqalənin müəllifidir. Mustafayevin rəhbərliyi altında namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişdir. O, respublika Fizioloqlar Cəmiyyəti sədrinin müavini olmuşdur. Qayğıkeş müəllim, tanınmış fizioloq bir çox orden və medallarla təltif edilmişdir.

Professor Məhərrəm Mustafayevin oğlu Arif Mustafayev də professordur (1942-ci ildə doğulub). O, 1965-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmiş, Şəki Mərkəzi rayon xəstəxanasında patoloqo-anatom işləmişdir. O, həmişə cərrahiyyə ilə maraqlanır, o dövrdə respublikada tanınmış həkimlərdən V.İ.Danilov, F.Y.Həmidzadə ilə cərrahi əməliyyatlarda iştirak edirdi. A.M.Mustafayev sonralar N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu Uşaq cərrahiyyəsi kafedrasında aspiranturaya qəbul olunur. Gənc alim 1969-1977-ci illərdə həmin kafedrada assistent, dosent (1977-1986), kafedranın professoru (1986-cı ildən), pediatriya fakültəsinin dekanı (1986-cı ildən) işləyir. 1985-ci ildə doktorluq dissertasiyası müdafiə edən gənc professor Arif Məhərrəm oğlu Mustafayev 100-ə yaxın elmi işin, 2 dərsliyin, 1 monoqrafiyanın müəllifidir. Atası kimi A.M.Mustafayev də tibbi kadrların yetişdirilib tərbiyə edilməsində əlindən gələni əsirgəmir.

XALİSƏ QARI NƏSLİNDƏN BUDAQLAR

Xalisə qarı - bu ulu nənəmiz hələ iki əsr bundan qabaq Şəkidə kitabxana təşkil etmişdir. Ulu babamız Əbdülqəni Nüxəvi Xalisəqarızadə təkcə Azərbaycanda deyil, bütün yaxın Şərqdə tanınmış bir şəxsiyyət olmaqla bərbər, İstanbulu, Qahirəni, İs-

gəndəriyyəni və başqa müsəlman şəhərlərini gəzmiş, nənəsi Xalisə qarının kitabxanasını müxtəlif elmlər üzrə yeni kitablarla zənginləşdirmişdir.

Görəsən bu yığılan kitabların, bu incilərin hamısı gəlib bizə çatıbmı? Əlbəttə, yox! Bu sənət incilərinin bizim zəmanəmizə gəlib çatmaması səbəbi hamıya bəllidir. Azərbaycan daim əsarətdə olub. Xalqın ikiyə bölünməsi və nəhayət, repressiya...

Mənim aldığım məlumatlara görə, bu nəsil 200 ildən çox bir dövrü əhatə edir. Bəlkə də bu tarix ondan da dərin qatlara gedir. Bəlkə də mənim minlərlə ulu Xalisə nənəm olub, ulu Əbdülqəni babam olub. Axı hardan alaq bu məlumatları. Onlar tarixin dönümlərində itib-batmış, bizə gəlib çatmamışdır.

Ulu nənəmiz Xalisə qarının törəmələrindən biri də sevimli professorumuz Sürəyya İsmayıl qızı Hacıyevadır.

S.Hacıyeva 31 dekabr 1907-ci ildə Şəkidə anadan olmuşdur. Hələ uşaq ikən atası İsmayıl kişinin ailəsi Krıma köçmüşdür. Sürəyyanın uşaqlıq illəri Kerç və Simferopolda keçmişdir. 1923-cü ildə, yəni 16 yaşında o, təhsilini davam etdirmək üçün Bakıya qayıtmış, yaşının az olmasına baxmayaraq, gimnaziyanı bitirmək barəsindəki sənədində olan qiymətlərinə görə hətta Bakı Dövlət Universitetinin tibb fakültəsinə imtahansız qəbul edilmişdir. 1928-ci ildə təhsilini başa vuran S.Hacıyeva doğma Şəkiyə təyinat alır. 1928-ci ilin avqustundan 1929-cu ilin noyabrına qədər gənc həkim Nuxa şəhər uşaq məsləhətxanasında müdir işləyir. Lakin Ana və Uşaqları Mühafizə İnstitutunun təşkil edilməsi ilə əlaqədar, S.İ.Hacıyeva Bakıya çağırılır. 1929-930-cu illərdə həmin institutun sanitar-statistika şöbəsinə başçılıq edir. Daha sonra - 1930-1932-ci illərdə istedadlı həkim Xalq Səhiyyə Komissarlığının ana və uşaqların mühafizə sektoruna rəhbər təyin edilir. Sürəyya xanım burada işləyərkən doğma Azərğaycanı qarış-qarış gəzmiş, elmi ekspedisiyalara rəhbərlik etmişdir. Sürəyya xanım yenidən Ana və Uşaqları Mühafizə İnstitutuna qayıdır. 1932-1948-ci illər ərzində ordinator və şöbə müdiri işləyir. İstedadlı təşkilatçı 1948-1950-ci illərdə həmin

institutun direktoru olur. 1950-1954-cü illərdə isə institutun uşaq xəstəlikləri bölməsinə rəhbərlik edir. 1954-cü ildə tibb elmləri namizədi olur. Müdafiə etdiyi mövzunun adı "Bakı şəhərində raxit xəstəliyinin yayılması xüsusiyyətləri" olmuşdur. 1954-cü ildən istedadlı alim S.İ.Hacıyeva Ana və Uşaqları Mühafizə İnstitutu direktorunun elmi işlər üzrə müavini işləyir. O, yenə də elmi axtarışlarını davam etdirir. Onun zəhməti 1976-cı ildə doktorluq dissertasiyasının müdafiəsi ilə nəticələnir: "Cənub iqlim şəraitində bağırsaq infeksiyasına tutulmuş uşaqlarda su-duz mübadiləsinin vəziyyəti" əsəri uşaqlarda dizenteriya xəstəliyinin öyrənilməsində böyük rol oynayır. 1963-1966-cı illərdə Azərbaycan Dövlət Tibb İnstitutu pediatriya fakültəsinin dekanı olmuş, həmin ildən fakültə pediatriya kafedrasının müdiri seçilmişdir.

Azərbaycanın əməkdar həkimi (1957), professor S.İ.Hacıyeva 1977-ci ildə təqaüdə çıxmış və o gündən Moskvada yaşamışdır.

Sürəyya xanımın əri Mustafa Məmməd oğlu Əfəndizadə 1898-ci ildə Quba rayonunun Cimi kəndində anadan olmuşdur. Məşhur gigiyenist, tibb elmləri doktoru (1934), professor (1940), respublikanın əməkdar həkimi (1942), əməkdar elm xadimi (1943) M.M.Əfəndizadə Azərbaycanda gigiyena elminin banilərindən biri olmuşdur. Heç təsadüfi deyildir ki, Azərbaycan Elmi Tədqiqat Gigiyena və Peşə Xəstəlikləri İnstitutuna ölümündən sonra Əfəndizadənin, adı verilmişdir (1963).

Bəs iki məşhur alimin - S.İ.Hacıyeva və M.M.Əfəndizadənin, daha doğrusu, Xalisəqarı nənənin Moskvada kimləri yaşayır?

Onların oğlu Cahangir Əfəndizadə Moskvadakı Dekabristlər Muzeyinin direktoru, tarix elmi sahəsində tanınmış alimdir. Sürəyya xanım qızı Səyyarə ilə yaşayırdı. Nəvəsi Nailə Moskvada İdarəetmə İnstitutunda işləyir. Sürəyya xanımın qardaşı, xalq artisti Cövdət İsmayıl oğlu Hacıyev respublikamızın tanınmış bəstəkarı, dövlət mükafatı laureatıdır.

DOKTOR HƏMİDAZƏ

Bir həkimin məharəti, yüzlərlə döyüşçünün hünərindən üstündür.
Homer.

Doktor Fərrux Həmidzadə.

Tarixdən bildiyimiz kimi, xalq öz qeyrətli oğlu N.Nərimanovu məhz "doktor Nərimanov" adlandırmışdır. Bu, qədirbilən xalqımızın həkimlik sənətinə, Nərimanovun öz sənətinə olan məhəbbətilə əlaqədardır.

Haqqında danışmaq istədiyim adamın Azərbaycan xalqı qarşısındakı xidmətlərini Nərimanovla eyniləşdirmək fikrində deyiləm, bu mümkün olan iş də deyil. Lakin bu şəxsin də Vətən, xalq qarşısında özünə görə unudulmaz xidmətləri olub. Bu adam Həmidzadə Fərrux Yunus oğludur. Şəkililər onu "doktor Həmidzadə" - deyə çağırırdılar.

F.Y.Həmidzadə 1913-cü ildə Şəkidə, fəhlə ailəsində anadan olmuşdur. Hələ uşaq ikən atası vəfat etmişdir. Balaca Fərrux, anası, iki bacısı, qardaşı, dayısı Mustafa kişinin (müəllifin atası - **red.**) himayəsində qalmışlar. Bacısı uşaqlarından ən çox Fərruxu sevən Mustafa kişinin arzusu onu savadlı bir adam görmək idi. Bu belə də oldu. Şəkidə 7-ci sinfi qurtaran Fərrux Şəki Kənd Təsərrüfatı Texnikumunun aqronomluq fakültəsini bitirmiş, 1932-ci ilə qədər Şəkinin Zəyzit kəndində aqronom işləmişdir. O, işlədiyi dövrdə fəhlə fakültəsini bitirmiş, 1932-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutu müalicə-profilaktika fakültəsinə qəbul olunmuşdur. F.Y.Həmidzadə 1937-ci ildə Tibb İnstitutunu qurtarmış, əvvəllər Gədəbəy rayonunda, sonra Qax rayon mərkəzi xəstəxanasında baş həkim işləmişdir. Müharibənin ilk günlərindən öz ərizəsi ilə könüllü olaraq cəbhəyə getmişdir. F.Y.Həmidzadə Kerç vuruşmalarının iştirakçısı olmuşdur. Müharibənin ən qızğın nöqtələrində iştirak edən F.Həmidzadə polkovnik rütbəsi almışdır. O, müharibədə batalyon həkimliyindən baş cərrah vəzifəsinə qədər yüksəlmişdir. Göstərdiyi rəşadətə görə orden və medallarla təltif olunmuş, beş dəfə Ali Baş Komandanın təşəkkürünə layiq görülmüşdür. Ordudan tərxis edildən sonra doğma Şəkiyə qayıtmış, bir neçə ay cərrah işləmiş, sonra rayon səhiyyə şöbəsinə müdir təyin olunmuşdur. Ümumiyyətlə, F.Y.Həmidzadə 28 il Şəki səhiyyəsinə başçılıq etmişdir.

Doktor Həmidzadə gözəl, novator cərrah idi. Məhz onun səyi nəticəsində Şəki cərrahiyyəsi yüksək səviyyəyə qalxmış, respublikamızda şöhrət qazanmışdır. O, sümük vərəminin cərrahi müalicəsi, travmatologiya sahəsində gözəl sənətkar hesab edilirdi. Məhz elmin bu sahələrinə aid onun 5-dən çox elmi məqaləsi "Azərbaycan tibb jurnalı"nda çap edilmişdir. Elmi konfranslarda çox fəal olmuşdur. F.Y.Həmidzadə bir cərrah kimi yüksək kateqoriyaya layiq görülmüşdür.

F.Həmidzadə müharibə illərində. Öndə sağdan 1-ci.

Doktor Həmidzadə gözəl səhiyyə təşkilatçısı ici. Bilavasitə onun təşəbbüsü ilə Şəki rayonlararası Mərkəzi xəstəxanası, göz xəstəxanası, uşaq xəstəlikləri xəstəxanası və poliklinikası, onkoloji dispanser, ruhi xəstəliklər xəstəxanası və s. təşkil olunmuşdur.

Ona respublikanın "Əməkdar həkimi", "Səhiyyə əlaçısı" fəxri adları verilmişdir.

Qayğıkeş həkim, gözəl insan, görkəmli səhiyyə təşkilatçısı, yorulmaz ictimaiyyətçi doktor Həmidzadə 1974-cü ildə Şəkidə vəfat etmişdir. Doktor Həmidzadənin övladlarından ikisi atalarının müqəddəs yolunu Bakıda davam etdirir: Dinar anesteziologreanimatoloq, Şəfəq göz həkimi işləyir.

KARVAN YOL GEDİR

Mən ölü olsam da, ən mərd bir kəsəm,
Karvanda gedərəm, karvansız şəxsəm.
Nizami.

Nəsib Əbdürrəhmanov.

Xoşbəxt o sənətkardır ki, həyatdan gedəndən sonra da onu yad edib rəhmət deyirlər. Xalq onu həyatdan getmiş yox, dahi Nizaminin dediyi təki, dirilər karvanında yol gedən kimi qəbul edir.

Belə insanlardan biri də gözəl həkim Nəsib Yusif oğlu Əbdürrəhmənov idi.

N.Y.Əbdürrəhmanov 1913-cü ildə Şəkidə anadan olmuşdur. O, 1916-cı ildə atasını, 1917-ci ildə isə anasını itirmiş, əmisi oğlunun himayəsində böyümüşdür. Nəsib on yaşında ayaqqabı tikən usta yanında şagird olmuş, 1926-1928-ci illərdə Şəki 3 nömrəli ipək fabrikində fəhlə işləmişdir. Sonra Şəkidə bənnalıq kursunu qurtarmışdır. 1934-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olur, 1939-cu ildə həkim diplomu ilə yenidən Şəkiyə qayıdır. Şəki poliklinikasında, Baş Göynük sahə xəstəxanasında həkim işləmiş, 1939-cu ildə Ordu sıralarına çağırılmışdır. 1941-1945-ci il müharibəsində iştirak etmiş, müxtəlif vəzifələrdə çalışmış, bir neçə dəfə yaralanıb hərbi qospitallarda müalicə almışdır. 1946-cı ildə ordudan tərxis olunub doğma Vətəni Şəkiyə qayıtmışdır. Əvvəlcə Şəki Mərkəzi xəstəxanasında yoluxucu xəstəliklər, sonra daxili xəstəliklər şöbəsində həkim işləmişdir. 1953-1957-ci illərdə daxili xəstəliklər şöbəsinin və Şəki şəhər səhiyyə şöbəsinin müdiri, 1957-ci ildən ömrünün sonuna qədər Şəki şəhər mərkəzi xəstəxanası baş həkiminin müavini olmuşdur. N.Y.Əbdürrəhmanov bir çox orden, medal və fəxri fərmanlarla təltif edilmişdir. "Səhiyyə əlaçısı",

"Azərbaycanın əməkdar həkimi" fəxri adlarına layiq görülmüş, yüksək dərəcəli terapevt, Şəkinin fəxri vətəndaşı olmuşdur. Tibbin elə bir sahəsi yox idi ki, onunla maraqlanmasın, öz qiymətli məsləhətlərini verməsin. Cərrahiyyə şöbəsində mübahisəli bir məsələ olanda, diaqnoz qaranlıq qalanda həmişə onu köməyə çağırırdılar.

N.Y.Əbdürrəhmanovun ailə üzvləri də elə bil ki, həkimlik üçün doğulublar. Həyat yoldaşı Səadət xanım uzun illər Şəki Mərkəzi xəstəxanası laboratoriyasının müdiri işləyib. Oğlu Yusif həmin xəstəxanada cərrah, qızı İradə ginekoloq, qızı Sədaqət Bakıda terapevt işlərir. Onlar atalarının doğma peşə yolunu sədaqətlə davam etdirirlər.

MƏNALI ÖMÜR YOLLARINDA

Vaxtını itirən bəxtini itirər.
Atalar sözü.

Əbdülhəmid Rəcəbzadə.

Həyatda elə adamlar var ki, onları istirahətin nə olduğunu bilmirlər. Belələri üçün ömrün bir amili var: xalqının qulluğunda durmaq. Xalqına, sənətinə, işinə bağlı belə insanlardan biri də Rəcəbzadə Əbdülhəmid Yunus oğludur. O, 1915-ci ildə Şəkidə, sənətkar ailəsində doğulmuş, orta məktəbi qurtardıqdan sonra - 1933-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul olunmuşdur. 1938-ci ildə institutun müalicə-profilaktika fakültəsini bitirir və Şəkidə təzə təşkil edilmiş taxılçılıq sovxozuna həkim göndərilir. Gənc həkim sovxozun şöbələrində tibb məntəqələri, 50 çarpayılıq xəstəxana, mama-feldşer məntəqəsi təşkil etmiş, o zaman geniş yayılmış malyariya xəstəliklərinin müalicə və profilaktikasında əsaslı işlər

görmüşdür. Səhiyyənin təşkili sahəsində bacarığını nəzərə alaraq onu Azərbaycan Xalq Səhiyyə Komissarlığının qərarı ilə Şəki Tibb Məktəbinə direktor təyin edirlər. 1940-cı ilin avqustunda xüsusi çağırışla ordu sıralarına gedir. Çita hərbi dairəsinə göndərilir, hərbi lazaretin rəisi təyin edilir. Süvari, nişançı, topçu alaylarının baş həkimi, tibb-sanitar batalyonunun komandiri və nəhayət, diviziya baş həkimi vəzifəsində çalışan Ə.Y.Rəcəbzadə alman faşistlərinə və yapon samuraylarına qarşı ölümdirim mübarizəsində öz vətəndaşlıq borcunu namusla yerinə yetirmişdir.

Müharibədən sonra Bakıya qayıdan Ə.Y.Rəcəbzadə Zaqafqaziya Hərbi Dairəsi hissələrində, Hərbi Mərkəbdə lazaret rəisi, əlahiddə xüsusi qoşun hissələrində hissə komandirinin tibb xidməti üzrə müavini vəzifələrində işləyir. Nəhayət, 30 illik hərbi qulluqdan sonra podpolkovnik rütbəsində daimi istirahətə çıxır. Lakin cəmisi 2 həftədən sonra, 1970-ci ilin avqust ayında Bakı şəhər baş səhiyyə idarəsi 1-ci şöbəsinin müdiri təyin edilir. Bu nəcib insan yorulmadan doğma Bakımızda səhiyyənin inkişafına, gənc kadrların yetişməsinə böyük qayğı göstərmişdir. Ordudan azad edildikdən sonra da o, qəlbən hərbi işə bağlı qalmış, uzun illər Bakıda mülki müdafiənin təşkilində yaxından iştirak etmişdir. O, Bakı səhiyyə işçiləri arasında həmişə bir ağsaqqal kimi hörmət sahibi olmuşdur. Əməyi layiqincə qiymətləndirilmişdir: 19 orden və medalla, fəxri fərmanlarla təltif edilmişdir. "Səhiyyə əlaçısı", "Azərbaycanın əməkdar həkimi" fəxri adlarına layiq görülmüşdür.

Onun mənalı ömür yolu hər bir gənc həkim üçün ibrətamiz həyat dərsliyi ola bilər.

HƏKİM-YAZIÇI

İncə qəlbli, gülərüz, danışığında həmişə mülayim yumor olan Həsənov Lütfəli Əkbər oğlu 1916-cı il mayın 10-da Şəki şəhərində doğulmuşdur. O, 1931-ci ildə Şəki şəhər yeddillik məktəbini bitirmiş, 1932-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olunmuşdur. 1937-ci ildə institutu qurtaran L.Ə.Həsənov iki il müddətində Ağdaş rayonunda həkimlik etmiş, 1939-cu ilin sentyabrında ordu sıralarına çağırılmış, 1941-ci ildə müharibə başlananda onun iştirakçısı olmuşdur. Müharibədən qayıtdıqdan sonra Orta Zəyzit kənd xəstəxanasında baş həkim, 1953-cü ildən ömrünün son günlərinə qədər (1976) Şəki sanitariya evinin müdiri və eyni zamanda şəhər birləşmiş xəstəxanası daxili xəstəliklər şöbəsində həkim-terapevt işləmişdir. Gənc Lütfəli hələ tələbə ikən ədəbi yaradıcılığa meyil göstərmişdir. O, yaradıcılığına hekayə və şeirlə başlamışdır. "Qızıl Bakı", "Gecənin təranəsi" şeirləri 1937-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuşdur. Onun "Qardaş torpağı" pyesi 1956-cı ildə "Azərbaycan" jurnalının altıncа nömrəsində çap edilmişdir. "Günəş" pyesi 1957-ci ildə Gəncə Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. O, "Nuxa fəhləsi" qəzetində müntəzəm olaraq çıxış etmişdir.



Lütfəli Həsənov.

Unudulmaz həkim-yazıçı L.Ə.Həsənov Azərbaycanda sə-



Xalq şairi B. Vahabzadə və yazıçı-həkim L. Həsənov.

L. Həsənov.

hiyyə maarifinin ən gözəl bilicisi və təbliğatçılarından biri olmuşdur. Onun bu sahədə onlarla təklifi, çap olunmuş işi vardır. O, tibb elminin gələcəyini profilaktikada görürdü. O, respublikamızda ilk dəfə "Gənc ananın sanitariya maarifi kitabxanası" adlanan xüsusi "Zərflər" təşkil etmiş və bu zərflər doğum evində öz körpəsi ilə ailəsinə qayıdan anaya təqdim olunurdu. Zərfin içərisində anaya, ataya məsləhətlər, uşağı yedirtmək, onun inkişafı ilə əlaqədar məsələlər, yoluxucu xəstəliklərə qarşı mübarizə qapydaları və s. tövsiyə olunurdu. Orada yazılırdı:

"Hörmətli ana!

Sizi, Vətənimizə bəxş etdiyiniz övladla təbrik edir, ailənizə xoşbəxtlik arzulayırıq... Bizdə ana adı müqəddəsdir.

Anadır həyatın qoca bağbanı,
Anadır dünyanın ilk çırağbanı.
Anasız açılan bir gül, bir çiçək,
Bağbansız göyərən gülüstan hanı?"

Zərfə qoyulan ikinci müraciət atayadır:

"Hörmətli yoldaş!

...Biz əminik ki, Siz və Sizin qadınınız qayğıkeş və diqqətli valideynlər olacaqsınız. Siz uşağı möhkəm və sağlam böyütmək üçün özünüzdən asılı olan bütün tədbirləri görəcəksiniz..."

L.Ə.Həsənov xalq arasında sanitariya mədəniyyətini artırmaq üçün şeir formasından geniş istifadə edirdi. O yazırdı:

"Arzum budur ki,
Nuxanı ən gözəl bir şəhər görüm.
Qoy bütün ürəklər fərəhlə dolsun.
Hamı bu niyyətlə baş-başa verib,
Təmizlik, səliqə vurğunu olsun".

L.Ə.Həsənovun bədii əsərlərindən "İki imtahan" (1960), "Bizim iş təcrübəmiz" (1967), "Ürəklə sözbət" (1971),"Zaman və insan ömrü" (1972) və s. göstərmək olar. O, xidmətlərinə görə bir çox orden və medallarla təltif edilmişdir.

Yorulmaz həkim 1976-cı il avqustun 4-də Şəkidə vəfat etmişdir.

Mən bu yazımda gözəl insan, əsl ziyalı Şəfiqə xanım haqda söhbət açmaq istərdim.

Şəfiqə Ələkbərova

Şəfiqə Mirzə Cabbar qızı Ələkbərova 1919-cu ildə Şəkidə anadan olmuşdur. Kənd mirzəsi olan atası Cabbar kişi 1927-ci ildə ölmüşdür. Balaca Şəfiqə 8 yaşından anası Fatma Sadıx qızının himayəsində qalmışdır. Bakının Lenin (indiki Sabunçu - **red.**) rayonunun müxtəlif idarələrində fəhlə işləyən Fatma xala 1971-ci ildə ölmüşdür. Şəfiqə 1935-ci ildə 7 illik məktəbi qurtarıb 1935-1938-ci illərdə fəhlə fakültəsində oxumuş, həmin ildə də Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika şöbəsinə daxil olmuş və 1942-ci ildə təhsilini başa vurmuşdur. Şəfiqə Ələkbərova əvvəlcə terapevt-həkim, rayon və sonra respublika Sanitar Epidemioloji Stansiyasının baş həkimi, rayon səhiyyə şöbəsinin müdiri, Azərbaycan Səhiyyə Nazirliyi Epidemiologiya İdarəsi rəisinin müavini, respublika Səhiyyə nazirinin müavini, klinik xəstəxananın və sonra zavodda tibb sanitar hissəsinin müdiri işləmişdir.

1968-ci ildə dissertasiya müdafiə etmiş, tibb elmləri namizədi adı almışdır.

O, Moskvanın və başqa iri şəhərlərin tanınmış alimləri ilə əlaqə yaradır, gənc mütəxəssislərin respublikadan kənarlarda alim kimi yetişməsinə çalışırdı. Sonralar həmişə öndə gedən zəhmətkeş səhiyyə bilicisi Sabunçu qəsəbəsindəki 3 nömrəli klinik xəstəxanaya baş həkim təyin edildi. Yorulmaq bilməyən təşkilatçı, Nobeldən qalmış 100 illik barakların yerində rəhmətlik professor A.A.İsmayılovla birlikdə beşmərtəbəli cərrahiyyə korpusu yüksəltdi. Yeni şöbələr təşkil elədi. Heç bir neçə ay işləməmişdi, bir gün rayonun katibi xəstəxanaya gəldi. Mən onda xəstəxana ilk partiya təşkilatının katibi işləyirdim. Katib xəstə-

xana işçilərinə elan etdi ki, Şəfiqə xanım öz xahişi ilə təqaüdə gedir. Bəli, öz "xahişi" ilə (54 yaşında) təqaüdə gedir. O dövrdə bu üsulla işdən götürülmək o şəxs üçün böyük "xoşbəxtlik", "hörmət" idi. Əgər imtina etsəydin, vay o gündən! Başlayırdı yoxlamalar, təhqirlər, hədələr, telefon zəngləri və s... Axırıncı sözü rayon partiya komitəsinin bürosu deyirdi. Qalanlar da başları ilə təsdiq edirdilər. Bir az mətləbdən uzaqlaşdığım üçün üzr istəyirəm. Bütün bunları ürək ağrısı ilə ona görə yazıram ki, özüm şahidi olmuşam.

Ş.Ələkbərova akademik Tariyevlə görüşdə.

Bütün ömrünü Azərbaycanda səhiyyənin təşkilinə həsr edən Şəfiqə Mirzə Cabbar qızı göz yaşları içərisində, katibin gülə-gülə elan etdiyi məlumatı qeyri-ixtiyari başı ilə təsdiq etdi. Baş həkimi bir neçə ay onun müavini əvəz etdi. O da müharibə əlili idi. Sonra həmin üsulla o da yola salındı və nəhayət, hər şey hazır olandan sonra nəzərdə tutulan adam baş həkim kreslosunda əyləşdi. Bəs Şəfiqə xanımın taleyi necə oldu? "Təntənəli" surətdə "fəxri" təqaüdə göndərilən keçmiş nazir müavini qapalı zavodlardan birində tibb səhiyyə hissəsinin müdiri işlədi. Xəstələndi... yatağa düşdü... Hörmətli həkim Şəfiqə Ələkbərova 1986-cı ildə Bakıda vəfat etdi.

Şəfiqə xanımın qızı Rəna Cavadova 1940-cı ildə anadan olmuş, 1963-cü ildə Azərbaycan Tibb İnstitutunu bitirmişdir. 1965-ci ildən endokrinoloq, 1969-cu ildən isə Bakı şəhər endokrinoloji dispanseri baş həkiminin müavini işləyir. 1982-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. Bakının baş uşaq endokkrinoloqudur. Şəfiqə xanımın mənalı ömür yolunu qızı davam etdirir.

ALICANBƏYOV NƏSLİ

Əsl igidlik bədbəxtlik üz verərkən təzahür edir.
Volter.



Qönçə Qazıyeva.

Şəkidə hələ də ata-babadan qalmış belə bir qayda hökm sürür: birinin necə adam olduğunu öyrənmək istəyəndə soruşarlar: hansı nəsildəndir? Axı babalarımız deyiblər ki, ot kökü üstə bitər. Şəkidə tanınmış, alicənab nəsillərdən biri Alıcanbəy nəslidir. Bu böyük nəslin iki nümayəndəsi haqda söz açmazdan qabaq, onlardan biri, respublikada tanınmış həkim, ağbirçək Qönçə xanımın dediklərini sizə çatdırmaq istərdim: "Atam Alıcanbəyov İsmayıl Şəki şəhərindəki həbsxananın rəisi vəzifəsində işləyib, 1922-ci ildə öz əcəli ilə ölüb. Anam Balacaxanım evdar qadın olub, 1917-ci ildə ölüb. 1927-ci ildə Bakı şəhərinə gəlmişik. 1930-cu ildə qardaşlarımı Bakıda həbsə alıblar. Qardaşlarım Alıcanbəyov Bəhram və Mustafanı Bakıdan Şəkiyə aparıb orada üçlüyün qərarı ilə güllələyib, ailəmizi xalq düşməni adlandırdılar. Yalnız 1955-ci ildə aydın oldu ki, ailəmiz haqdakı bu hökm ədalətsizlikdir, qardaşlarımı haqsız güllələyiblər..."

Qazıyeva (Alıcanbəyova) Qönçə İsmayıl qızı 1916-cı ildə Şəkidə anadan olmuş, ilk təhsilini orada almışdır. O, 1932-ci ildə 9 illik məktəbi qurtarıb, 16 yaşında Qazıyev Abdulla Məmməd oğluna ərə getmişdir. Qönçə xanımın bu yaşda ərə getməsinə səbəb o idi ki, familiyasını dəyişməktə instituta girmək imkanı olsun. Beləliklə, o, 1932-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub, 1937-ci ildə müalicə-profilaktika fakültəsini bitirir və Əzizbəyov adına xəstəxanaya işə göndərilir.

1941-ci ildə müharibə başlanan kimi Qönçə xanım və həyat

yoldaşı Abdulla Qazıyev səfərbərliyə alınır, oğlanları Rauf və Fərid hərbi uşaq evinə göndərilir. A.M.Qazıyev 1943-cü ildə müharibədə ölür. Qönçə xanım 1941-1945-ci illərdə qospitalda hərbi cərrah işləyir. Müharibə qurtardıqdan sonra Q.İ.Qazıyeva doğma Azərbaycana qayıdır. Respublika dəmiryol xəstəxanasına müalicə üzrə rəis müavini təyin edilmiş, 1977-ci ilədək orada işləmişdir. Bacarıqlı həkim, gözəl təşkilatçı Q.İ.Qazıyeva 1961-ci ildə "Azərbaycanın əməkdar həkimi" fəxri adına layiq görülmüşdür. Apardığı vəzifənin ağırlığına və məsuliyyətinə baxmayaraq o, elmi işlə məşğul olmağa da vaxt tapmış, 1974-cü ildə iynə batırmaqla refleks əmələ gətirmə üsulu barədə namizədlik dissertasiyası müdafiə etmişdir. Bu qədim müalicə üsulunun Azərbaycanda işlənməsinin ilk təşəbbüskarlarından biri Qönçə xanım olmuşdur. O, bu sahədə onlarda milli mütəxəssis hazırlamışdır. 1977-ci ildən Qönçə xanım bu müalicə üsulu ilə məşğul olur.

Qönçə xanım bir çox orden və medallarla, Azərbaycan Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Qönçə xanımın mərhum qardaşı Mustafanın oğlu Fuad İsmayılovun da keçdiyi həyat yolu bibisinin həyat yolundan az fərqlənir.

İsmayılov Fuad Mustafa oğlu 1924-cü il iyul ayının 15-də Şəki şəhərində anadan olmuş (yuxarıda qeyd etdiyimiz kimi, atası Mustafa Alıcanbəyov 1930-cu ildə Şəkidə üçlük tərəfindən güllələnmişdir), natamam orta təhsilini orada almış, iki il Şəki Pedaqoji Texnikumunda oxuduqdan sonra Bakıya köçmüş və orta məktəbi orada qurtarmışdır. Fuad 1941-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul olunmuş, 1942-ci ildə ordu sıralarına səfərbərliyə alınmışdır. Müxtəlif cəbhələrdə iştirak edən Fuad, əsasən, tank ordusunun 45-ci tank briqadası tərkibində komandir olmuş, Şimali Qafqaz, Kursk ətrafı, 1-ci və 2-ci Belarusiya cəbhələrində, Varşavanın, Berlinin azad edilməsində iştirak etmişdir. 1945-ci il aprel ayının 30-da Berlində yaralanan Fuad İsmayılov hərbi qospitalda müalicə edilmiş, 2-ci dərəcəli Vətən müharibəsi əlili kimi ordudan buraxılmışdır. F.M.İsmayılov 1945-ci ildən Azərbaycan Dövlət Tibb İnstitutunda təhsilini davam etdirmişdir. O, 1950-ci ildə institutu qurtarmış, Türkmənistana işləməyə göndərilmişdir. Əvvəllər Taşavuz vilayətinin dəri-zöhrəvi dispanserinə baş həkim müavini, 1952-ci ildə Türkmənistan Respublika vərəm sanatoriyasına baş həkim təyin edilir. Bu vəzifədə işlədiyi dövrdə iki dəfə yerli sovetlərə deputat seçilir, eyni zamanda respublika həmkarlar ittifaqı şurasına üzv olur. 1958-ci ildə Aşqabad şəhərində respublika vərəm dispanserinə baş həkim təyin edilir. Onun şəxsi səyi nəticəsində respublika vərəm dispanseri əsasında Türkmənistan Elmi Tədqiqat Vərəm İnstitutu təşkil edilir. Yeni yaradılmış institutda F.M.İsmayılov cərrahiyyə klinikasının rəhbəri, sonra isə direktorunun elmi işlər üzrə müavini olur. F.M.İsmayılov 1963-cü ildə namizədlik, 1968-ci ildə isə doktorluq dissertasiyası müdafiə edir. "Türkmənistanın əməkdar həkimi" fəxri adına layiq görülür, 1969-cu il oktyabrın 25-də Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun vərəm kafedrasına müdir seçilən Fuad, nəhayət, Vətənə qayıdır. İstedadlı alim 1976-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutu Vərəm kafedrasına müdir seçilir. Professor F.M.İsmayılovun ağ ciyər vərəminin cərrahi müalicəsi sahəsində xidməti və elmi axtarışları böyük əhəmiyyətə malikdir.

Fuad İsmayılov.

Professor Fuad Mustafa oğlu İsmayılov bir çox orden və medalla təltif olunmuşdur.

Bəli, budur Şəkidə repressiyaya məruz qalmış ailələrdən birinin taleyi. Lakin haqq gec-tez öz yerini tapır. Türk şairi Atsız yaxşı deyib:

İnsan böyüyür beşikdə
Məzarda yatmaq üçün.
Qəhrəmanlar can verir
Yurdu yaşatmaq üçün.

ŞƏRƏFLİ ÖMÜR

Həkimin gücü onun ürəyindədir.
Dərmanın ən güclüsü məhəbbətdir.
Paratels.

Cavahir Abbasova.

Mən heç də təsadüfi olmayaraq "Dünya yaranan gündən ilk kimya professoru" (A.İ.Gertsen), XVI əsrin birinci yarısında Bazel Universitetinin professoru və həmin şəhərin həkimi, ümumiyyətlə, İntibah dövrünün məşhur alimi Paratelsin iki cümlədən ibarət qiymətli fikrini epiqraf kimi verdim. Necə də qiymətli, dərin, fəlsəfi fikirdir.

Belə ürək sahiblərindən biri Abbasova Cavahir Rzaqulu qızıdır. O, 1919-cu ildə Şəkidə anadan olmuş, ilk təhsilini orada almış, 1937-ci ildə Şəki Tibb Məktəbini bitirmişdir. 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirən Cavahir Abbasova, həmin ilin noyabrından 1946-cı ilin iyul ayına qədər Ordu sıralarında xidmət etmiş, Şimali Qafqazda Şərqi Sibirdə tibbi sanitar batalyonlarında, səhra qospitallarında cərrah işləmiş, yüzlərlə yaralını həyata qaytarmışdır. O, 1946-cı ilin iyul ayında kapitan rütbəsində hərbi xidmətdən buraxılmışdır.

Cavahir xanım həmin vaxtdan Şəki Səhiyyə şöbəsinin təcili yardım stansiyası və mərkəzi poliklinikasında baş həkim işləmişdir. Bu dövr başqa bir "cəbhə" idi. İki ən çətin səhiyyə ocağında bir vaxtda baş həkim işləmək o qədər də asan iş deyildi. Müharibədən qayıdan cərrah Cavahir xanım özünə başqa sənət seçdi: nevropatoloq - sinir xəstəliklərini müalicə edən həkim. Bəs niyə cərrah nevropatoloq oldu? Burada da bir hikmət var. O, yaxşı bilirdi ki, hərbi səhra cərrahiyyəsi dinc dövrdəkindən

fərqlənir. Axı müharibədə tibbi batalyon cərrahı olmaq başqadır, dinc dövrdə cərrah olmaq başqa. Axı o dövrdə sinir xəstəlikləri həkiminə paralel olaraq müharibədən qalmış zədələnmə və sarsıntıları müalicə edən həkim lazım idi. Onu da deyim ki, Şəki kimi böyük şəhərdə bu sahədə bir nəfər də olsa həkim yox idi. Cavahir xanım Balakən-Zaqatala-Qaz-Vartaşen (indiki Oğuz - red.) zonasında ilk sinir xəstəlikləri həkimi oldu və Mərkəzi şəhər xəstəxanası nəzdində ilk belə şöbə yaratdı. Cahahir xanım həm də çox gözəl müəllimdir. Şəkidəki sinir xəstəliklərı həkimlərinin çoxu onun yetişdirməsidir. O, Şəki Tibb Texnikumunda dərs demişdir. Onlarca çap olunmuş elmi məqalənin müəllifidir. "Yüksək dərəcəli həkim" (1978), Səhiyyə əlaçısı Cavahir xanım bir çox orden və medalla təltif olunmuşdur.

Bax, budur mənalı ömür. Cavahir xanımın həyat və yaradıcılıq yolu buna canlı misaldır.

Cavahir xanım Abbasova 3 mart 2003-cü ildə Şəkidə dünyasını dəyişmişdir.

ŞƏFQƏTLİ DÖYÜŞLƏR

Dürrə Məmmədova.

1941-45-ci illər müharibəsində iştirak etmiş vətənpərvər qızlarımızdan biri Dürrə Abbas qızı Məmmədova olmuşdur. O, 1923-cü ildə Şəkidə doğulmuş, 1940-cı ildə Bakı Əczaçılıq Texnikumunu bitirmişdir. 22 iyun 1941-ci ilə qədər Şəkidə 85 nömrəli aptekdə işləmişdir. Müharibə başlanan gündən o, könüllü cəbhəyə getmişdir. Burada Dürrə birbaşa Novorossiysk şəhəri 43 nömrəli hərbi-dəniz qospitalının sərəncamına göndərilir.

Dürrə sonralar Novorossiysk Hərbi-Dəniz bazasının sanitar ambarına köçürülmüşdür. O, tibb işçisi kimi 18-ci Ordunun, Qa-

ra dəniz hərbi hissələrinin dərmanla, sarğı ləvazimatı və tibbi avadanlıqlarla təchizi məsələləri ilə məşğul olmuş, yaralılara da yardım göstərmişdir. Bütün işlər top atəşi, təyyarə bombardmanı altında görülürdü. Novorossiysk şəhəri faşistlər tərəfindən tutulduqdan sonra Dürrə xanım Gəlincik və Karbardinka döyüş meydanlarında fəaliyyət göstərmişdir. Dürrə xanım müharibə dövründə yüzlərlə yaralını döyüş meydanından çıxarmış, onları ölümdən qurtarmışdır. Dürrə Abbas qızı Məmmədovanın - Kosmedemyanskayanın bu şücaətləri layiqincə qiymətləndirilmiş, o bir neçə orden, 13 medal və fəxri fərmanlarla təltif olunmuşdur.

Комсорг Мамедова

Cəbhə qəzetindən.

Dürrə xanım 1948-ci ilə qədər hərbi qulluqda saxlanılmış, hərbi-dəniz donanmasının 41 və 45 nömrəli qospitallarında aptek müdiri işləmişdir. O, istefaya çıxsa da, Leninqradda, Uzaq Şərqdə, Port-Artur şəhərində əmək fəaliyyətini davam etdirmişdir. Sonra, 1961-ci ildək Bakı şəhərində 329 nömrəli aptekdə işləmişdir.

Tibb xidməti baş leytenantı, "Tibb xidməti əlaçısı", Azərbaycanın əməkdar səhiyyə işçisi Dürrə Məmmədova 1978-ci ildən fərdi pensiyaçıdır. Bu igid qadın haqda çoxlu oçerk, şeir, povest və s. bədii əsərlər yazılmışdır.

AĞ XALATLI İGİD QIZ

Gəl, ana yurdumun qızı, gəlini,
İndi hünər vaxtı, qeyrət dəmidir.
S.Vurğun.

Əsmər Həsənova.

Tarix 40-cı illərin gəncliyini çox çətin sınaqlara çəkdi, onlardan çoxunun arzusu qəlbində qaldı... Oğlanlarımızla yanaşı kişi qeyrətli qızlarımız da müharibənin birinci günündən əsgər şineli geyib cəbhəyə yollandılar, mərdlikdə-igidlikdə kişilərdən geri qalmadılar. Qeyrətli xalqımızın belə igid qızlarından biri də Əsmər idi. O, Şəkinin tanınmış həkimi Lütfəli Həsənovun bacısı idi - dörd qardaşın bir bacısı.

Həsənova Əsmər Əkbər qızı 1920-ci ildə Şəki şəhərində sənətkar ailəsində doğulmuşdur. İlk təhsilini Şəkidəki 10 nömrəli məktəbdə almışdır. 1934-cü ildə Tibb Texnikumuna daxil olmuşdur. 1937-ci ildə Şəki Tibb Məktəbini əla qiymətlə bitirib Ağdaş rayon xəstəxanasında tibb bacısı işləmişdir. 1939-cu ildə isə Şəki birləşmiş xəstəxanası daxili xəstəliklər şöbəsinə baş tibb bacısı təyin olunmuşdur. 22 iyul 1941-ci ildə gənc tibb bacısı orduya yola düşmüşdür. O, ilk əsgəri qulluğa Kerçdə başlamış, 1941-ci ilin avqustundan Sevastopola 7-ci Hərbi-Dəniz briqadasına feldşer göndərilmişdir.

General-leytenant Y.İ.Jidilovun "Biz Sevastopolu qoruduq" (1960) adlı xatirə kitabından: "...Nəzərim ixtiyarsız olaraq iki qız fiquru üzərində dayanır, ciddi donanma forması bu qızlara necə də yaraşır! Gürcü Keto Xomereki və azərbaycanlı Əsmər Həsənova... Keto qaragözdür, deyəsən, bir qədər böyükdür. Əsmər arıqdır, incə sifətli, qarayanızdır, bir sözlə, yeniyetməyə

bənzəyir. Mən onlara ata narahatlığı ilə baxıram. Bu qızları qarşıda nə qədər çətinlik, təhlükə gözləyir".

Əsmərin xatirələrindən: "Bizim sanitar hissəmiz Mekevizi dağında ikiotaqlı, kiçik pəncərələri olan alçaq daxmada yerləşirdi. Biz beş nəfər idik. Düşmən şiddətli hücuma keçmişdi. Sevastopol başdan-başa döyüş meydanına çevrilmişdi. Biz tez-tez sürünə-sürünə ön xəttə gedib yaralıları arxaya göndərirdik. Bəzən 50-60 yaralı birdən gətirilirdi. Keto və mən bütün günü ölümlə mübarizə edirdik. Yeməyimiz tükənmişdi. Acından ayaq üstə dayana bilmirdik. Hərbi həkim Anna Yakovlevna solğun rəngimizə baxıb çox əzab çəkirdi. Neçə dəfə yemək dalınca getmək istəmişsə də, olmamışdı. Qızlarım, dəyanətli olun", - deyə bizə ürək-dirək verirdi. Təkcə üç günün ərzində biz 750 yaralıya yardım etdik. Buna görə də biz "SSRİ Hərbi Dəniz Donanmasının əlaçısı" döş nişanı ilə təltif olunduq..." (S.Məmmədov, "Azərbaycanın şanlı qızları", Bakı, İşıq", 1988, səh.27).

1942-ci ilin sentyabrında Əsmər ağır kontuziya almış, hərbi qospitala düşmüşdür. Müalicə olunduqdan sonra ordudan tərxis edilmiş, yenidən Şəki Mərkəzi xəstəxanasında tibb bacısı işləməyə başlamışdır.

Ə.Ə.Həsənova müharibədə göstərdiyi rəşadətlərə görə bir çox orden, medal və fəxri fərmanlarla təltif edilmişdir.

Xalqımızın igid qızı Əsmər Həsənova 20 oktyabr 1990-cı ildə Şəkidə vəfat etmişdir.

Sevastopol şəhərinin 36 №-li məktəbinin muzeyində Ə.Ə.Həsənovanın cəbhə həyatından bəhs edən sənədlər nümayiş etdirilir. Onun haqqında çoxlu məqalə, oçerk və s. yazılmışdır.

KÖNÜLLÜLƏR

Biz gəldi-gedərik, sən yaşa, dünya.
S.Vurğun.

1. PAKİZƏ MANAFOVA

Pakizə Manafova.

1941-1945-ci il müharibəsində ömrünü qəhrəmanlıqla bizlərə bağışlamış on minlərlə qadın-qız da olmuşdur. Belə qızlardan biri Pakizə idi.

Pakizə Yaqub qızı Manafova 1921-ci ildə Şəki şəhərində doğulub. 7-ci sinfi qurtardıqdan sonra Şəki Tibb Məktəbinə daxil olmuşdu. Məktəbi bitirib Şəki Mərkəzi xəstəxanasında tibb bacısı işləməyə başlamışdı. Lakin onun bu əmək fəaliyyəti uzun çəkmədi. Müharibənin başlanması hər şeyi yarımçıq qoydu: gənc Pakizə 1941-ci ilin payızında könüllü cəbhəyə yola düşdü. O, yüzlərlə yaralını döyüş meydanından çıxarmış, onlara ilk tibbi yardım göstərmiş, ölümdən xilas etmişdir. Yeri gələndə əsgər kimi düşmənlə də döyüşmüşdür. Pakizə Manafova cəbhədə göstərdiyi rəşadətə görə orden və medallarla təltif olunmuş, onun haqqında cəbhə qəzetlərində geniş yazılmışdır. O, 28 fevral 1943-cü ildə Azov dənizi sahillərində gedən döyüşlərdə həlak olmuşdur.

Şəkidəki küçələrdən biri xalqımızın bu qeyrətli qızının adı ilə əbədiləşdirilmişdir.

2. LƏTAFƏT MƏMMƏDOVA

Cəbhəyə könüllü gedənlərdən biri də Lətafət Rəsul qızı Məmmədova olmuşdur. O, 1921-ci ildə Şəkidə anadan olmuş, 1939-cu ildə Şəki Tibb Məktəbini bitirmişdir. Şəki mərkəzi xəstəxanasında tibb bacısı işləmiş, müharibə başlayanda hərbi komissarlığa gəlib könüllü cəbhəyə göndərilməsini xahiş etmiş-

Lətafət Məmmədova.

Hərbi feldşer L.Məmmədova.

dir. O, 44 və 51-ci cəbhələrdə hərbi feldşer olmuşdur. Müharibədən qayıtdıqdan sonra da hərbi formasını çıxarmamış, respublika Daxili İşlər Nazirliyinin 4 nömrəli islah-əmək düşərgəsində işini davam etdirmişdir. 1950-1952-ci illərdə respublika ali partiya məktəbində təhsil almış, oranı bitirdikdən sonra 1960-cı ilin mayına qədər Şəki şəhər Partiya Komitəsində təlimatçı işləmişdir. Lətafət xanım 1963-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu da bitirmişdir. O, hərbi vəzifələrdə çalışmışdır.

Lətafət Məmmədova bir çox orden və medallarla təltif edilmişdir.

TİBB XİDMƏTİ LEYTENANTI

Ziynət Mənəfova.

Doğru deyiblər ki, aslanın erkəyi, dişisi olmaz. O, elə həmin il avqustun 27-də milyonlardan biri kimi cəbhəyə yollandı. Ziynət ilk günlərdən alman faşistlərinə qarşı ölüm-dirim mübarizəsində böyük fəallıqla iştirak etdi.

Manafova Ziynət Qaffar qızı 1923-cü ildə Şəkidə anadan olmuşdur. Atası Mənəfov Qaffar Murad oğlu balası dünyaya göz açandan 25 gün sonra faciəli surətdə öldürülmüşdür. Anası Xoşqədəm İsrafil qızı ipək fabrikində fəhlə idi. Ziynət ilk

təhsilini Şəki şəhər 5 nömrəli məktəbdə almış, 1938-ci ildə Şəki Tibb Məktəbini qurtarmışdır. Aşağı Şabalıd kəndində əmək fəaliyyətinə başlamış, kənd zəhmətkeşlərinə səhiyyə xidmətini yaxşılaşdırmaq üçün əlindən gələni əsirgəməmişdir. Onun dediklərindən: "Üç ilə yaxın kənddə feldşer məntəqəsində işlədikdən sonra Şəki mərkəzi xəstəxanası daxili xəstəliklər və uşaq xəstəlikləri şöbələrində tibb bacısı işləmişəm".

Əfsuslar olsun ki, gənc tibb bacısına öz borcunu sülh şəraitində, əmin-amanlıq günlərində axıradək yerinə yetirmək nəsib olmadı, cəbhəyə yollandı.

Ziynət xanım müharibə illərini heç vaxt unuda bilmir. Onun xatirələrindən: "Feodosiya şəhərinin yaxınlığı kiçik təpəciklərlə əhatə olunmuş çılpaq bir yerdir. 1942-ci ilin soyuq qış günlərində mənim xidmət etdiyim 483-cü tibb-sanitar batalyonu belə bir yerdə qərar tutmuşdu.

Yanvarın 16-sı gündüz saat 12 radələri olardı. Yaxınlıqdakı qonşu hissələrdən arası kəsilmədən yaralılar gətirilirdi. Vəziyyət çox ağır idi. Faşistlər fasiləsiz olaraq hava hücumları edir, batalyonu hədəfə çevirirdilər. Topların gurultusu, pulemyotların şaqqıltısı, torpağı havaya sovuran bombaların partlayışı yaralıların inliltilərinə qarışmışdı. Alçaq təpəciklərin arasında qurulmuş brezent palatkalarda həkimlər, tibb bacıları ölümlə mübarizəyə başlamışdılar. Hamı necə olursa-olsun yaralılara ilk yardım göstərib onları arxaya - gəmilərlə yaralıları aparmağa gələn sanitarlara çatdırmağa tələsirdi. Nə soyuq, nə aclıq, nə də yorğunluq yada düşürdü..."

Tibb xidməti leytenantı Z. Mənəfova.

Belə döyüşlərdən birində Ziynət Mənəfova yaralanır, hərbi xəstəxanaya müalicəyə göndərilir. Mahaçqala hərbi xəstəxanasında ilk müalicə aldıqdan sonra Nuxaya - 4658 №-li qospitala

köçürülür. Sağaldıqdan sonra o, həmin xəstəxananın cərrahiyyə şöbəsində saxlanılır. Ümumiyyətlə, 1941-1943-cü illərdə cəbhədə olduğu müddətdə Z.Mənəfova iki dəfə ağır yaralanmış, Kerç, Novorossiysk, Kislovodsk, Qazax qospitallarında müalicə olunmuşdur.

Tibb xidməti leytenantı Z.Mənəfova cəbhədəki fəaliyyətinə görə dəfələrlə təşəkkür almış, "Qafqazın müdafiəsinə görə" və "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilmişdir.

Müharibədən sonrakı dövrdə Z.Mənəfova Azərbaycan ipək sənayesi respublika komitəsində sədr müavini, Şəki sanatoriyasının müdiri, yenidən mərkəzi xəstəxanada tibb bacısı və s. vəzifələrdə çalışmışdır. O, səhiyyə əlaçısıdır, ümumiyyətlə, 15-ə qədər orden və medalla təltif olunub. Beş uşaq anasıdır. Şəkinin ictimai həyatında fəal iştirak edir.

TİBB XİDMƏTİ POLKOVNİKİ ŞİRİNOV

Dünyada keçməsin boş cavan çağın,
Yol get ki, güclüdür indi ayağın.
Nizami

Həsən Şirinov.

O şəxs xoşbəxtdir ki, daim qurub-yaratmaq eşqilə yaşayır. Başqalarının tapdaladığı asan cığırla getmir, çətin də olsa, öz adı ilə bağlı cığır açır. Dahi Nizami demişkən, nə qədər cavansan, qılçaların güclüdür, yol get, qolun güclüdür, qur-yarat, gələcək nəslə bir yadigar qoy. Tanınmış həkimlərdən Həsən Şirinovun həyatı buna yaxşı nümunədir.

O, 1926-cı ildə Şəkidə anadan olmuş, 6 yaşında ikən ailəsi ilə Bakıya köçmüşdür. 1943-cü ildə Bakıda 1 nömrəli nümunəvi məktəbi qurtarıb Azərbaycan Dövlət Tibb

İnstitutuna daxil olur. 1948-ci ildə institutu qurtaran H.Şirinov Ukrayna Daxili İşlər Nazirliyinin sərəncamına göndərilir və Dnepropetrovsk şəhərinə təyinat alır. 1953-cü ildə Bakıya qayıdır, Bayılda yerləşən islah-əmək düşərgəsi xəstəxanasına baş həkim təyin edilir, özü əməliyyatlar aparır. Həsən deyir: "O vaxta qədər cərrahi yardım üçün xəstələr prokurorluğun, daxili işlər nazirliyinin icazəsindən sonra Keşlə rayonunda yerləşən xüsusi xəstəxanaya köçürülürdülər. Məhz buna görə də müalicə vaxtı uzanır, xəstəlik fəsadlaşır, bəzən də ölüm halları baş verirdi".

H.Şirinov 1963-cü ildə Azərbaycan Daxili İşlər Nazirliyi islah-əmək düşərgələri şöbəsinin tibb hissəsi rəisi təyin edilir və podkolkovnik rütbəsi alır. Doktorun dediklərindən: "1965-ci ilə qədər Azərbaycan Daxili İşlər Nazirliyinin işçiləri üçün stasionar müalicə ocağı - xəstəxana yox idi. Fövqəladə bir hadisənin nəticəsində Azərbaycan Daxili İşlər naziri general-mayor Xəlil Məmmədov təcili müşavirə çağırıb milis işçiləri üçün tez bir zamanda qospital tikmək məsələsini qoydu və məni oraya rəis təyin etdi. Məsələnin belə təcili həll edilməsinə səbəb bir milis nəfərinin cinayətkarlar tərəfindən yaralanması, onun operasiya olunana qədər Semaşko adına xəstəxanada yenidən həmin cinayətkarlar tərəfindən bıçaqla vurulub öldürülməsi idi".



Cərrah H. Şirinov.



Soldan: Azərbaycan Daxili İşlər naziri (1960-1965) Xəlil Məmmədov (1970-1978), Daxili İşlər naziri Arif Heydərov və tibb xidməti polkovniki Həsən Şirinov.

8 ay müddətində ilk qospital hazır oldu. Ye-

ni qospitala bacarıqlı həkimlər, tanınmış professorlar dəvət olundu. 15 il bu qospitala rəhbərlik edən H.Şirinov Daxili İşlər Nazirliyi işçiləri və onların ailə üzvləri üçün çarpayıların çatmamazlığını nəzərə alıb yeni, daha böyük qospital tikilməsi ideyasını irəli sürdü, nazirlik bu təklifi kollegiya iclasında təsdiq etdi. 220 çarpayılıq yeni qospital 1976-cı ildə istifadəyə verildi. H.Şirinov yeni qospitalda rəis oldu, polkovnik rütbəsi aldı. 37 il Daxili İşlər Nazirliyi sistemində işləyən H.Şirinov 1985-ci ildən təqaüdə çıxmışdır. Ancaq o, öz gözəl sənətini yenə də davam etdirir.

ÇƏTİN SƏNƏTİN MAHİR BİLİCİSİ

Dünyada pis sənət yoxdur, pis sənətkar var.
Atalar sözü.

Ələkbər Əkbərbəyov.

Dahi mütəfəkkir Nizami Gəncəvi öz poemalarında həmişə kainatın sirlərini öyrənmək, həyatda faydalı elmlərin dalınca getmək zərurətini təbliğ etmişdir. O, Vətənə, xalqa xidməti məhz bu insani sifətlərdə görürdü:

O şey ki, bizlərə lap aşikardır,
Orda da gizli bir xəzinə vardır.
Bu pərdə altında gizlənən məna
Çalışsan, aşikar olacaq sana.

Təbabət də bir xəzinədir. Bu xəzinədə nə qədər gizli, aşkar olmayan mənalar vardır. XIX əsrin sonlarında - təxminən 110 il bundan əvvəl - 1895-ci ildə dahi alman alimi Vilhem Konrad Rentgen bəşəriyyətə istər sənayedə, istərsə də təbabətdə əvəzsiz istifadə edilən yeni bir müayinə metodu bəxş elədi və ilk rentgen borusu yaratdı. Görün o vaxtdan təbabətin bu cavan sahəsi nə qədər inkişaf etmiş və insanları nə qədər müsibətlərdən xilas etmişdir. Təbabətin bu sahəsində məşhurlaşan alimləri barmaqla saymaq

olar. Azərbaycanda isə rentgenelogiyanın mahir bilicisi, ilk milli professorlardan biri Əkbərbəyov Ələkbər Allahyar oğludur.

Ə.A.Əkbərbəyov 1927-ci ildə Şəkidə anadan olmuşdur. O, 1942-ci ildə Bakıdakı 6 nömrəli rus orta məktəbini qurtarmışdır. Gənc Ələkbər 1943-1945-ci illərdə Bakı Əczaçılıq Texnikumunda oxumuş, iki il işlədikdən sonra - 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə girmişdir. Təhsilini 1953-cü ildə başa vurmuş, 1955-ci ildən rentgenoloq işləmişdir. 1960-cı ildə Azərbaycan Elmi Tədqiqat Rentgenologiya İnstitutunda aspiranturanı qurtarmış, 1965-ci ildə "Qarın boşluğu şişlərinin rentgen müayinəsi" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. 1967-1971-ci illərdə Moskvada Cərrahiyyə Mərkəzində doktorantura keçmiş, onun bu zəhməti və yuxusuz gecələri, nəhayət, "Diafraqmanın xəstəlikləri və zəifləmələrinin rentgen müayinəsi" elmi işi ilə nəticələnmişdir. O, 1972-ci ildə doktorluq dissertasiyasını müdafiə edir. Azərbaycanda, eləcə də ölkəmizin bir çox yerlərində tanınmış alim 100-dən çox elmi işin və monoqrafiyanın müəllifidir. Onun doktorluq işi rentgenologiyanın və ümumiyyətlə, təbabətin ən nadir sahəsinə həsr edildiyindən kitabça şəklində buraxılmışdır.

Tibb elmləri doktoru, professor Ə.A.Əkbərbəyov uzun müddətdir ki, Azərğaycan Həkimləri Təkmilləşdirmə İnstitutu Rentgenologiya kafedrasına başçılıq edir. Bu olduqca təvazökar və səmimi sənətkarın yanına ölkəmizin hər yerindən rentgenologiya elminin sirlərini öyrənməyə gəlirlər. Onun respublikamız üçün milli kadrların hazırlanmasındakı rolu xüsusilə təqdirəlayiqdir.

GÖRKƏMLİ SƏHİYYƏ TƏŞKİLATÇISI

Əhmədov Əli Əhməd oğlu 1928-ci ildə Şəki şəhərində anadan olmuşdur. 1944-cü ildə orta məktəbi "əla" attestatla bitirib

Əli Əhmədov.

Tibb İnstitutunun sanitar-gigiyena fakültəsinə imtahansız daxil olmuş, 1949-cu ildə başa vurmuşdur.

1953-cü ildə Səhiyyə təşkili kafedrasında aspiranturanı qurtarmışdır. 1954-cü ildən orada dosent və 1983-cü ildən kafedranın müdiri olmuşdur. Ə.Ə.Əhmədov "1939-49-cu illərdə Şəki şəhəri əhalisinin xəstələnməsi" mövzusunda namizədlik dissertasiyası yazaraq 1958-ci ildə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.

Daha sonrakı elmi fəaliyyəti respublikada demokrafik, xüsusən doğum və uşaq ölümü proseslərinin təhlilinə həsr edilmişdir. Müəyyən edilmişdir ki, respublikada doğum prosesi 60-cı illərdən başlayaraq adi tipdən müasir tipə doğru dəyişilir, başqa sözlə, doğum prosesi valideynlərin istək və arzusundan asılı olaraq şüurlu surətdə tənzim olunan bir prosesə çevrilir.

Bu tədqiqat nəticəsində müəllif tərəfindən "Ailədə uşaqların sayının tənzim edilməsi haqqında" metodik tövsiyə hazırlanıb səhiyyə orqanlarına təqdim edilmiş, "Azərbaycan SSR-də ailə büdcəsi" adlı populyar broşüra çap olunmuşdur. Menistrual siklədə nəsil törətmə və sonsuzluq günlərini müəyyən etmək üçün təqvim" hazırlanmış və səmərələşdirici təklif kimi qəbul edilmişdir. Bunlardan başqa, "Tibbi statistika" (Azərbaycan dilində), "Tibbi statistikada praktik məşğələlər üçün metodik göstərişlər" (Azərbaycan və rus dillərində), "Tibb tarixində seminar məşğələləri üçün metodik göstərişlər" (Azərbaycan və rus dillərində) nəşr edilmiş və tələbələr üçün əsas dərs vəsaiti kimi istifadə edilmişdir. Onun müxtəlif jurnallarda, məcmuələrdə 60-dan çox elmi əsəri dərc edilmişdir. Alim elmi-pedaqoji fəaliyyətinə görə "Səhiyyə əlaçısı" adına və "Əmək veteranı" medalına layiq görülmüşdür.

TİBB ELMLƏRİ DOKTORU VƏ NAMİZƏDİ OLAN HƏKİMLƏR HAQDA QISA MƏLUMAT

Axundova Rəfiqə Mirhəsən qızı 1925-ci ildə Şəkidə anadan olmuş, orta təhsilini bitirdikdən sonra, 1943-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olmuşdur. 1948-ci ildə təhsilini başa vurmuş, Qubada əmək fəaliyyətinə başlamışdır. O, 1956-cı ildə göz xəstəlikləri üzrə klinik ordinaturaya, 1961-ci ildə isə Azərbaycan Elmi Tədqiqat Oftalmologiya İnstitutunda aspiranturaya qəbul edilmişdir. 1967-ci ilə "Traxomanın çətin sağalan III stadiyasının konkrementlərlə müşahidə olunan formasının kliniki, patomorfoloji histokimyəvi dəyişiklikləri və müalicəsi mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş, tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Rəfiqə xanım Azərbaycan Dövlət Tibb Universiteti Oftalmologiya kafedrasının dosentidir. 70-dən çox elmi məqalənin və bir monoqrafiyanın müəllifidir.

Ağakişiyev Cahancir Güləhməd oğlu 1952-ci ildə Şəkidə anadan olmuşdur. 1988-ci ildə Moskvada "Böyrəyin cərrahi əməliyyatlarında ön-cəp kəsiyin kliniki, anatomik əsaslandırılması" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Azərbaycan Dövlət Tibb Universitetinin Urologiya kafedrasının assistentidir.

Əsədov Çingiz Daşdəmir oğlu 1950-ci ildə anadan olmuşdur. 1971-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə qəbul olmuş, 1977-ci ildə təhsilini başa vurmuşdur. Bir il Şəki rayonlararası qanköçürmə stansiyasında həkim işləmiş, 1979-cu ildə Elmi Tədqiqat Hematologiya və Qanköçürmə İnstitutunda (ETNQİ) aspiranturaya qəbul olunmuşdur. O, 1984-cü ildə namizədlik dissertasiyasını müdafiə etmiş, tibb elmləri namizədi kimi əmək fəaliyyətini davam etdirmişdir. Bacarıqlı alim ETNQİ-da baş elmi işçi, elmi katib, elmi işlər üzrə direktor müavini, 1986-1993-cü illərdə institutun direktoru vəzifəsində işləmişdir. Respublika Hematoloqlar Elmi

Cəmiyyətinin sədri, Beynəlxalq Qanköçürmə, Beynəlxalq Talassemiya Federasiyasının üzvü, Talassemiya Assosiasiyasının prezidentidir.

Əfəndiyev Akif Zahid oğlu, 1961-ci ildə Şəkidə anadan olmuşdur. 1991-ci ildə Sankt-Peterburqda "Miasteniyalı xəstələrdə qırtlağın daxili sinir-əzələ aparatının funksional vəziyyəti mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu otorinolarinqologiya kafedrasının dosentidir.

Əfəndiyeva Pərvin Abdulla qızı 1937-ci ildə anadan olmuşdur. 1960-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini qurtardıqdan sonra, 1965-ci ilə qədər Bakı dəmiryol xəstəxanasında mama-ginekoloq işləmişdir. 1965-1968-ci illərdə aspiranturada oxumuş, 1971-ci ildə "Bəzi pestisidlərin orqanizmin dəri örtüyündən keçib törətdiyi təsirin toksikoloji xassəsi" mövzusunda dissertasiya müdafiə etmiş, tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. 1974-cü ildən dosent vəzifəsində çalışır.

Əfəndiyeva Nigar Ənvər qızı 1949-cu ildə anadan olmuşdur. 1974-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş, 1983-cü ildə SSRİ TEA Moskva Pediatriya İnstitutunda namizədlik dissertasiyası müdafiə etmişdir. Azərbaycan Dövlət Tibb Universiteti Uşaq xəstəlikləri kafedrasının assistentidir. Beynəlxalq Alleqroloq və İmmunoloqlar Cəmiyyətinin üzvüdür.

Əkbərov Nazim Ziya oğlu 1959-cu ildə Şəkidə anadan olmuşdur. 1995-ci ildə Moskvada "Eşitmə sisteminin maneəyə davamlılığının neyrosensor ağıreşitmənin müxtəlif növlərinin diferensial diaqnostik əhəmiyyəti" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək alimlik dərəcəsi almışdır.

Xəlilov Kənan Tahir oğlu 1948-ci ildə Şəkidə anadan olmuşdur. 1981-ci ildə Kiyevdə "Onurğanın bel-oma hissəsinin osteoxondrozunun müxtəlif yaşlarda diaqnostika və müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Respublika Klinik Xəstəxanasının travmatologiya-ortepediya şöbəsində işləyir.

İsmayılov İsmayıl Məmməd oğlu 1947-ci ildə Şəkidə anadan olmuşdur. 1970-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmişdir. 1972-ci ildən Respublika Klinik Uroloji xəstəxanasında işləyir. 1988-ci ildə Kiyev Elmi Tədqiqat Urologiya və Nefrologiya İnstitutunda "Uşaqlarda sidik kisəsi-axar reflüksunun diaqnostika və müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Respublika Klinik Urologiya xəstəxanasında işləyir.

Qafarov Fikrət Məmməd oğlu 1952-ci ildə Şəkidə anadan olmuşdur. 1969-cu ildə şəhər 3 saylı orta məktəbi bitirmiş və həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Lenin təqaüdçüsü Fikrət İnstitutu 1975-ci ildə "Fərqlənmə diplomu" ilə başa vurmuş, Bakı ET Travmatologiya və Ortopediya İnstitutunun plastik cərrahiyyə şöbəsində əmək fəaliyyətinə başlamışdır. O, Moskvada 1984-cü ildə "Əlin və barmaqların bükücü vətərlərinin ilkin təxirəsalınan tikişi" mövzusu üzrə namizədlik, Moskva və Bakıda "Yuxarı ətrafların ağır müştərək zədələnmələri və onların fəsadlarında bir mərhələdə aparılan kombinə edilmiş cərrahi əməliyyatlar" mövzusunda (1993) doktorluq dissertasiyasını müdafiə etmişdir. Tibb elmləri doktoru Fikrət Qafarov respublikamızda vətər, sinir, əlin anadangəlmə qüsurları, xəstəlikləri, travmaları, dəri plastikası, ümumiyyətlə, mikro-cərrahiyyə sahəsində tanınmış sənətkardır. F.Qafarov Bakı ET Travmatologiya və Ortopediya İnstitutunda plastik cərrahiyyə şöbəsinə rəhbərlik edir.

Qeybullayev Adil Əbülfət oğlu 1962-ci ildə Şəkinin qədim Kiş kəndində anadan olmuşdur. 1978-ci ildə kənd orta məktəbini bitirib Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Adil Qeybulla 1984-cü ildə institutu fərqlənmə diplomu ilə bitirib, akademik M.Topçubaşov adına Klinik və Eksperimental Cərrahlıq İnstitutunda əmək

fəaliyyətinə başlamışdır. O, 1986-cı ildə cərrahlıq ixtisası üzrə aspiranturaya qəbul olunmuş, 1988-ci ildə Bakıda "Dinamik bağırsaq keçməməzliyində uzunmüddətli peridural anesteziyanın hiperbarik aksigenasiya və heparinlə müştərəq tətbiqi" mövzusunda namizədlik, 1992-ci ildə Moskvada "Yemək borusunun döş hissəsinin xərçənginin cərrahi müalicəsinin yaxşılaşdırılması yolları" mövzusunda doktorluq dissentasiyasını müdafiə etmişdir. Tanınmış sənətkar Adil Qeybulla 1992-ci ildən Azərbaycan Tibb Universitetinin Cərrahi xəstəliklər kafedrasının professorudur. Professor Adil Qeybulla 150-dən çox elmi məqalənin, 6 monoqrafiyanın, 2 dərsliyin, 2 dərs ləvazimatının, 3 ixtiranın, onlarla elmi-kütləvi, publisistik məqalələrin müəllifidir. Öz elmində, sənətində ad-san qazanmış professor Adil Qeybulla respublikada ictimai-siyasi xadim kimi də tanınmışdır.

Nağıyev Aydın Ənvər oğlu 1951-ci ildə Şəkidə anadan olmuşdur. 1995-ci ildə Kiyevdə "Fəqərə sütunu-onurğa beyni müştərək travmaları" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, hazırda Azərbaycan Dövlət Tibb Universiteti Neyrocərrahiyyə kafedrasının assistentidir, Respublika Neyrocərrahiyyə Mərkəzində işləyir.

Məmmədov Rüfət Ələfsər oğlu 1950-ci ildə Şəkidə anadan olmuşdur. 1980-ci ildə Kiyevdə "Uşaqlarda bəzi böyrək anomaliyalarında xroniki böyrək çatmamazlığının diaqnostika"sı mövzusu üzrə namizədlik dissertasiyası müdafiə etmiş, hazırda Respublika Klinik Urologiya xəstəxanasında işləyir.

ŞƏKİ QƏZETLƏRİ VƏ QƏZETÇİLƏRİ

...Niyə bəs böylə bərəldirsən, o qare, gözünü?
Yoxsa bu ayinədə əyri görürsən özünü?
M.Ə.Sabir

Ancaq onu demək istərdim ki, əsrimizin ilk illərində mətbuatda, "pisi pis, düzü həmvar" yazan ziyalılarımız az olmamışdır. Düzdür, onların çoxu repressiya qurbanı olmuşdur. Məlumdur ki, həmin illərdə Azərbaycanın böyük şəhər və rayonlarında çıxan ilk qəzetlərin ətrafında toplanan ziyalıların xalqın savadlanmasında böyük rolu olmuşdur. Onların çoxu sonralar respublikamızda tanınmış şəxsiyyətlər, alim, yazıçı və dövlət xadimləri kimi yetişmişlər. Belə mütərəqqi qəzetlərdən biri də "Şəki fəhləsi"dir.


Qulam Axundov.

İstedadlı publisist Q.Axundov Azərbaycanın ilk rayon qəzetlərindən biri, 1921-ci il oktyabrın 3-dən nəşr olunan "Nuxa fəhləsi"i ("Şəki fəhləsi") qəzetinin təşkilatçısı və ilk redaktoru olmuşdur. O, 1877-ci ildə Şəkidə doğulub. Qulam 1917-ci ilə qədər sahibkarlar yanında muzdur işləmişdir. Sonralar bir çox vəzifələrdə işləmiş Q.Axundov ictimai-siyasmi hadisələrlə əlaqədar qaçaq düşmüş günahsız adamlardan çoxunu öz ailəsinə qaytarmış, namuslu əməklə məşğul olmağa şərait yaratmış, onlardan hətta bir neçəsini təhsil almağa vadar etmişdir. Q.Axundov 1924-cü ildə Bakıya gəlmiş, 1947-ci ilə qədər müxtəlif işlərdə çalışmışdır.

Unudulmaz insan, elimizin layiqli ziyalısı Q.B.Axundov 1947-ci ildə Şəkidə vəfat etmişdir. Onun qızı Şəfiqə xanım Axundova xalqımızın ən sevimli bəstəkarlarındandır.

Respublikamızın bir sıra görkəmli yazıçıları, alimləri, ictimai xadimləri üçün "Şəki fəhləsi" qəzeti ilk məktəb olmuşdur. S.Vurğun Şəkidə müəllimlik kurslarında oxuyarkən ilk şeirlərini həmin qəzetdə dərc etdirmişdir.

S.Rəhman və akademik Ə.Dəmirçizadə qəzetin əməkdaşları olmuş, hekayə və şeirlərini orada çap etdirmişlər. Bu münasibətlə Osman Cümazadə ("Aciz") yazır: "Yaxşı yadımdadır. Ə.Dəmirçizadə, Sabit Rəhman və mən hələ Şəkidə məktəbdə oxuyarkən "Şəki fəhləsi" qəzetində satirik şeirlərimizi və felyetonlarımızı dərc etdirərdik. Sabit "Şeyx Samit", "Əbdüləzəl", "Haçasaqqal", mən "Agit" təxəllüsünü qəbul etmişdik. Nöqsanları tənqid edərkən "sual-cavab" formasında satirik şeir yazardıq. Həmin yazıların böyük təsiri olardı.

1926-1936-cı illər ərzində mənim çoxlu şeir və felyetonlarım dərc olunmuşdur. Eyni zamanda "Molla Nəsrəddin", "Şərq qadını" jurnallarının, "Yeni fikir", "Yeni yol" qəzetlərinin müxbiri idim ("Şəki fəhləsi" qəzeti, 07.12.1971).

Bu qəzetin səhifələrində ilk publisist qadınlardan Gülarə Göylü qızı (sonralar o, "Şərq qadını" jurnalının redaktoru olmuşdur), N.Əhmədova, B.Həşimzadə, Z.İmamverdiyeva və b. məktəb, mədəniyyət və qadınlar arasında aparılan işlər barəsində öz sözlərini demişlər.

Qəzetin tarixini araşdırsaq görərik ki, nəinki respublikamızda, hətta onun hüdudlarından çox-çox uzaqlarda məşhur olmuş bir qism alim, yazıçı və ictimai xadim ilk addımlarını məhz "Şəki fəhləsi"ndən başlamışlar.

Azərbaycan KP MK-nın katibi işləmiş N.Hacıyev, respublika ictimaiyyətinin sevimlisi, məşhur jurnalist, Bakı Dövlət Universitetinin professoru Ş.Hüseynov qəzetin əməkdaşları olmuşlar.

Bakı Dövlət Universiteti Jurnalistika kafedrasının keçmiş rəhbəri Həsən Şahgəldiyev, tanınmış tarixçi, Azərbaycan MEA-nın müxbir üzvü Zülfəli İbrahimov, Şəki ikiillik Müəllimlər İnstitutunun uzun müddət direktoru işləmiş dosent Rəsul Rəsullu, respublikanın görkəmli jurnalistlərindən Məhyəddin Abbasov, Məmmədsani Məmmədov, Müseyib Sadıqov "Şəki fəhləsi" qəzetinin sabiq redaktorlarındandır.

1905-ci ildə Ağdaşda anadan olmuş Məmmədsani Mustafa oğlu Məmmədovun təcrübəsindən Şəki jurnalistlərinin bütöv nəsli faydalanmış, gənc qələm sahibləri onun keçdiyi mənalı əmək yoluna bir örnək, məktəb kimi baxmışlar. İki il Nuxa Dövlət Dram Teatrının direktoru, Böyük Vətən müharibəsi iştirakçısı və müharibədən sonra 15 il fasiləsiz "Bakinski raboçi" qəzetinin xüsusi müxbiri olan M.Məmmədov hansı vəzifədə işləyirsə işləsin, "Şəki fəhləsi" qəzeti ilə sıx əməkdaşlığını davam etdirmişdir.



Məmmədsani Məmmədov.

Qocaman jurnalist 1968-ci ildən təqaüdə çıxana (1975) qədər yenidən "Bakinski raboçi" qəzetinin xüsusi müxbiri olmuş, ömrünün sonuna qədər (08.12.1984) "Şəki fəhləsi" qəzetində də müntəzəm çıxış etmişdir. Unudulmaz jurnalistin xatirələrindən: "Zaqafqaziya Kommunist Universitetini bitirdikdən sonra - 1928-ci ilin yayında işləmək üçün Nuxaya göndərildim. Burada bir neçə ay pedaqoji texnikumda direktor müavini və tarix müəllimi işlədim. Sonra qəza firqə komitəsinin qərarı ilə mən "Şəki fəhləsi" qəzetində sədr mühərrir (o vaxtlar baş redaktor belə adlanırdı) vəzifəsini ifa etməyə başladım. Qəzetdə məsul redaktor yerində isə bir qayda olaraq, qəza firqə komitəsi katibi B.Mirsalayevin imzasını verirdik.

İlk günlər heç xatirimdən çıxmır. Qəzeti olduqca çətin şəraitdə buraxırdıq. Cərgə ilə düzülmüş mürəttiblər xırda ərəb əlifbası şriftlərindən sətirlər, sütunlar və səhifələr hörürdülər. Böyük təkəri olan köhnə çap maşını isə elektrik enerjisi zəif olduğundan əl ilə hərəkətə gətirilirdi. Belə ağır işin öhdəsindən qocaman fəhlə Hacıbəy çox məharətlə gəlirdi. Bu şən qoca bəzən çarxı oxuya-oxuya fırladırdı. Öz peşəsini ürəkdən sevən baş mü-

rəttib Şakir Əfəndiyev və mürəttiblər Qədir Qaffarov, İbrahim Məmmədov, çapçı Cahangir Ağamirzəyev qəzeti vaxtında çıxarmaq üçün əllərindən gələni əsirgəmirdilər.

Redaksiyamız mətbəənin bir tərəfində, cəmi bir göz darısqal otaqda yerləşirdi. İki stoldan biri redaktora və məsul katibə məxsus idi. İkinci stolun arxasında növbə ilə R.Rəsullu, H.Kişli, M.Abbasov çalışırdılar. Ştatlı işçilər az olduğundan qəzet, əsasən, fəallara və fəhlə-kəndli müxbirlərə arxalanırdı. Yoxsa 3 nəfər ştatlı işçi ilə qəzeti necə çıxarmaq olardı? Unutmamaq lazımdır ki, o vaxt qəzetə yazanlara yazı haqqı verilmirdi.

İpək fabrikində çoxlu fəhlə müxbirləri vardı. Rəhbər işçilər və ziyalılar da həvəslə qəzetdə çıxış edirdilər. Fəhlə müxbirlərindən ən fəal yazanlardan biri Ə.İsgəndərov idi, O gün olmazdı ki, məktub gətirməsin. Onlardan biri belə dərc edilmədikdə haray salardı. Heç yadımdan çıxmır. Bir dəfə məni təcili qəza firqə komitəsinin katibi Mirsalayev çağırdı. İçəri daxil olduqda Əhmədiyyəni də orada gördüm və məsələnin nə yerdə olduğunu dərhal başa düşdüm. O, şikayət edirdi ki, nə üçün fəhlə müxbirlərinin məktublarına qəzetdə az yer verilir? Ertəsi gün, o, daha iki məktub gətirdi. O zaman qəzetdə müntəzəm yazan fəhlə müxbirlərindən M.Sadıqov, B.Süleymanov, M.Əliyev və başqalarının da adını qeyd etmədən keçmək olmaz. Qəzetimizə kəndlərdən də xeyli yazan vardı. Ə.Cabbarlı (Böyük Dəhnə), M.Səbzəliyev (Qutqaşen), F.Rzayev (Cəyirli), Ə.Məmmədov (Cəfərabad), V.Hacıyev (Baş Göynük). Qadınlardan isə o vaxt qəzetimizdə çıxış edən müəllimə C.Vahabzadə idi ("Şəki fəhləsi" qəzeti, 07.12.1971).

"Şəki fəhləsi" qəzetinin əməkdaşları içərisində son dövrdə respublikamızda şöhrət qazanmış publisistlər yetişmişdir. Maraqlı burasıdır ki, onlardan bəziləri nəinki publisist kimi tanınmsış, hətta yazıçı, şair, tarixçi və elmi işçi kimi şöhrət qazanmışdır. Onlardan biri uzun müddət "Şəki fəhləsi" qəzetinə rəhbərlik edən Nizami Nəbiyevdir.

Nəbiyev Nizami Kərəm oğlu 1932-ci ildə anadan olmuşdur.

Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra (1955) Ağdaşda çıxan "Pambıq uğrunda mübarizə" qəzetində əməkdaşlıq etmiş, bir il sonra isə "Şəki fəhləsi" qəzetində şöbə müdiri, məsul katib, redaktor müavini və nəhayət, 1979-cu ildən hazıradək qəzetin redaktoru işləyir.



Nizami Nəbiyev.

İxtisasca jurnalistdir. 1961-ci ildən Jurnalistlər İttifaqının üzvüdür. N.Nəbiyevin bir sıra hekayələri "Şəki fəhləsi" qəzetinin səhifələrində dərc edilmişdir. Bir çox maraqlı publisistik yazıların müəllifidir. S.T.Əfəndiyevlə birlikdə Baba Səmədova həsr edilmiş "Qəhrəman mexanizator" oçerk kitabını yazmışdır.

N.K.Nəbiyev uzun illər mətbuatda səmərəli fəaliyyət göstərdiyinə görə iki dəfə Respublika Ali Sovetinin Fəxri Fərmanı ilə, 1974-cü ildə isə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.



Sabir Əfəndiyev

Daim axtarışda olan publisist alim kimi şöhrət qazanmış Sabir Tahir oğlu Əfəndiyev 1933-cü ildə anadan olmuşdur. Onun babası keçən əsrin tanınmış alimi idi. Ərəb, fars dillərində yazdığı əsərlər Azərbaycan MEA Əlyazmalar İnstitutunun fondunda saxlanılır. 1955-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdikdən sonra Şəkiyə təyinat almış, əvvəl "Şəki fəhləsi" qəzetində ədəbi işçi, şöbə müdiri vəzifələrində işləmişdir. 1959-cu ildən 1962-ci ilədək Şəki şəhər radio verilişləri redaksiyasının böyük redaktoru işləmişdir. 1967-ci ildən 1971-ci ilədək Azərbaycan Televiziya və Radio verilişləri Komitəsinin Şəki-Zaqatala zonası üzrə xüsusi müxbiri olmuşdur. 1971-ci ildən indiyədək Azərbaycan MEA-nın Şəki etnoqrafiya mərkəzinin rəhbəridir. Filologiya elmləri doktoru, baş elmi işçidir. Bir ixtiranın, 20-dən artıq elmi məqalənin, 5 kitabın müəllifidir.

Şəkinin etnoqrafiyasına dair iki monoqrafiya yazmışdır. Şəki lətifələrini toplayıb çap etdirmişdir.

Bibliofildir. Onun şəxsi kitabxanasında 10 min nüsxədən çox nadir kitab, qədim əlyazması var. S.Əfəndiyevin 200-ə qədər nadir mis qablar kollegiyası daha maraqlıdır.

Ədəbi yaradıcılıqla məşğul olur. Çoxlu satirik şeir və hekayələri respublika və yerli mətbuatda çap edilmişdir. Publisistdir. Azərbaycan oğullarının Fransa müqavimət hərəkatında iştirakına həsr edilmiş "Geriyə yol yoxdur" sənədli povestini nəşrə hazırlayıb. P.Babayevin fəaliyyətindən bəhs edən "Şir mağarası" povestini, Azərbaycan ərazisinə göz dikən qonşu respublika alimlərinin elmə zidd, millətçi baxışlarından bəhs edən "Dərinamə" sənədli povestini yazmışdır.

S.Əfəndiyev gənclərimizə çox fayda verə bilən "Əxlaqnamə" məcmuəsini məsələ toplusunu da qələmə almışdır. Dünyanın ekoloji problemlərindən bəhs edən "Dünya" dram əsəri Şəki Dövlət Teatrı tərəfindən bəyənilmiş və repertuara salınmışdır.

O, 1994-cü ildə müqəddəs həcc səfərində olmuşdur. Həcdən qayıtdıqdan sonra "Məhəmməd peyğəmbərin merac səfəri" kitabını yazıb çap etdirmişdir.

Şəkidə 1933-cü ildən bir qəzet də nəşr edilir: "İpəkçi". Bu qəzet nəinki Şəki rayonunda, hətta respublikamızda tanınmış bir mətbuat orqanıdır. "Şəkinin səsi", "İpəkçi" qəzeti öz prinsipiallığı, kəskinliyi, obyektivliyi ilə xalq içərisində şöhrət qazanmışdır. Bu uğurlar uzun müddət ona başçılıq edən publisist Səlis Məmmədovun əvəzsiz zəhməti və professional qabiliyyəti ilə bağlıdır. Salis respublikamızda tanınmış qəzetçi, vaxtilə "Şəki fəhləsi" qəzetinin redaktoru işləmiş, əvvəllər haqqında bəhs etdiyimiz mərhum Məmmədsani Məmmədovun oğludur.



Salis Məmmədov.

Məmmədov Salis Məmmədsani oğlu 1932-ci ildə anadan olmuşdur. Hələ orta məktəbdə oxuduğu illərdə yerli radio verilişləri redaksiyasında, "Şəki fəhləsi" qəzetinin səhifələrində çıxış etmişdir. Onun yazıları oxucuları və dinləyiciləri özünə cəlb etmişdir. Tbilisidə ordu sıralarında olarkən Zaqafqaziya hərbi dairəsinin "Leninskaya znamya" qəzetində əməkdaşlıq etmiş, 1965-ci ildə işləyə-işləyə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə hələ orta məktəbdə oxuduğu vaxtdan - 1948-ci ildən başlamışdır. Yerli radio verilişləri redaksiyasında işləmiş, sonra isə "Şəki fəhləsi" qəzetində ədəbi işçi kimi fəaliyyət göstərmişdir. S. Məmmədov 1965-ci ildən bu günədək "İpəkçi" qəzetinin redaktoru işləyir. Qəzet dəfələrlə keçmiş ümumittifaq və respublika çoxtirajlı qəzetlərinin müsabiqələrinin qalibi olmuşdur.

S.Məmmədov respublika "Qızıl qələm" mükafatı laureatıdır. 1960-cı ildən Jurnalistlər İttifaqının üzvüdür. Respublika jurnalistlərinin bütün qurultaylarına nümayəndə seçilmişdir. O, uzun illər "Müxbir" jurnalı redaksiya heyətinin üzvü olmuşdur. S.Məmmədovun əməyi "Şərəf nişanı" ordenine, "Əməkdə fərqlənməyə görə" və b. medallara layiq görülmüşdür. Ona 1991-ci ildə "Azərbaycan Respublikasının əməkdar jurnalisti" fəxri adı verilmişdir.



Arif Qafarov.

Şəkidə tanınmış jurnalistlərdən biri də Qafarov Arif Qafar oğludur. Arif istər öz həmkarları və istərsə də xalq içərisində gözəl şair, publisist, əsl ziyalı kimi böyük hörmətə layiqdir:

Satdığım göz nuru - aldığım halal!
Çörəkdən duzacan daddığım halal!
Qaranquş tək çöplə qurduğum halal!
Ucalardan enməz bayraq kimiyəm!

Arif 1945-ci il avqustun 4-də Şəki şəhərində, fəhlə ailəsində anadan olmuşdur. 1964-cü ildə Şəki pedaqoji texnikumunu bitirmiş, 1972-ci ildə Azərbaycan Pedaqoji İnstitutu dil-ədəbiyyat fakültəsini qurtarmışdır. 1973-cü ildən "Şəki fəhləsi" qəzetində müxbir işləmiş, 1982-ci ildən həmin qəzetdə məktublar şöbəsinin müdiridir. Həmin ildən Jurnalistlər İttifaqının üzvüdür.

Arif onlarca şeir, oçerk və publisist məqalələrin müəllifidir.

"MÜBARİZƏ YOLLARINDA" XOYLU ŞƏKİLİLƏR

Heydərbaba, göylər bütün dumandır,
Günlərimiz bir-birindən yamandır,
Bir-birizdən ayrılmayın, amandır.
M. ŞƏHRİYAR.

Dünyada bir-birinə bənzəyən insanlar olduğu kimi, şəhərlər, kəndlər, vilayətlər də vardır. Belə bənzər diyarlardan ikisi də Xoy və Şəki vilayətləridir. Tale elə gətirmişdir ki, Xoy vilayətindən Cəfərqulu xan, İsmayıl xan və qeyriləri Şəkidə xanlıq etmişlər.

Cəfərqulu xanın nəslindən görkəmli sərkərdələr, dövlət xadimləri və ziyalılar çıxmışdır. Onlardan biri də bütün islam aləmində ilk dəfə olaraq respublika üsul-idarəsinə qədəm qoyan ilk müstəqil hökumətin başçısı Fətəlixan Xoyski olmuşdur. Hörmətli publisist Mövsüm Əliyev "Odlar yurdu" qəzetində Fətəlixan Xoyski (yanvar,1989,№1) və onun qardaşı Rüstəmxan Xoyski (iyun,1990, №12-13) haqqında ətraflı məlumat vermişdir. Həmin məlumatlar tariximizin öyrənilməsində gələcək nəsil üçün böyük əhəmiyyət kəsb etdiyindən olduğu kimi çap etmək qərarına gəldik. Böyük zəhmətin bəhrəsi olan bu tarixi məqalələrin müəllifi Mövsüm Əliyevə oxucular və öz adımdan təşəkkürümü bildirirəm.

FƏTƏLİXAN XOYSKİ

Öz dövrünün görkəmli siyasi və ictimai xadimi Fətəlixan İskəndər oğlu Xoyski 1875-ci il dekabrın 7-də Şəki şəhərində anadan olmuşdur. Onun atası rus ordusunun general-leytenantı idi.

FƏTƏLİXANGİLİN əsli-nəsli Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Xoy xanı olan ulu babası Cəfərqulu xan İran şahı Fətəli ilə müharibədə məğlub olduqdan sonra, 20.000 nəfərlik qoşunu ilə Üçkilsəyə (Eçmiədzinə) sığınmışdı. 1803-1806-cı illər rus-İran müharibələri dövründə rus qoşunlarına qoşulan Cəfərqulu xan imperator I Aleksandr tərəfindən bahalı brilyantla bəzədilmiş qızıl medal və lələklə təltif edilmişdir. O, 1807-ci ildə Şəki xanı təyin olunmuş və general-leytenant rütbəsinə layiq görülmüşdür. Cəfərqulu 1810-cu ildə vəfat etdikdən sonra Şəki xanlığını onun oğlu İsmayıl idarə etmişdir. 1819-cu ildə İsmayılın vəfatı ilə Şəki xanlığı ləğv olunmuş və Rusiyanın tərkibinə qatılmışdır. Bu nəsildən görkəmli sərkərdələr, dövlət xadimləri və ali təhsilli çoxlu ziyalı çıxmışdır. Bunlardan biri də Fətəlixan Xoyskidir. O, Gəncə klassik gimnaziyasını, 1901-ci ildə isə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. Fətəlixan əvvəlcə Gəncədə, sonra Suxum, Batum və Kutais dairə məhkəmələrində müxtəlif vəzifələrdə işləmişdir. Yekaterinodar dairə məhkəməsində prokuror müavini təyin edilməsi (1907-ci il) Xoyskinin ictimai-siyasi fəaliyyətində yeni mərhələ olmuşdur. O, Yelizavetpol (Gəncə) quberniyasından II dövlət dumasına deputat seçilmişdi. Fevralın 2-də Peterburqun məşhur Tavriya sarayında toplanan Rusiya parlamentinin iclaslarında çıxış edən Fətəlixan çar hökumətinin Zaqafqaziyada və Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətini tənqid atəşinə tutardı. O, kadet partiyasının üzvü olmasına baxmayaraq, dumanın müsəlman deputatları fraksiyasına daxil idi. F.Xoyski Rusiyanın müstəmləkə xalqlarına məhəlli muxtariyyət verilməsini hökumətdən tələb edirdi. O, sonralar müxtəlif illərdə Bakı və Gəncə dairə məhkəmələrində iş kəsmək üzrə andçı-müvəkkil vəzifəsini icra etmişdir.

1917-ci ildə Rusiyada fevral-burjua inqilabı baş verdi. Fətəlixan Xoyski martın 27-də Bakıda yaranmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmişdir. O, həmin ilin aprelində Bakıda çağrılan Qafqaz müsəlmanlarının qurultayında iştirak etmişdir.

F.Xoyski burjua inqilabından sonra heç bir partiyaya mənsub olmasa da, 1917-ci il oktyabrın 26-dan 31-dək Bakıda keçirilən

"Türk ədəmi-mərkəziyyət partiyası "Müsavat"ın birinci qurultayında çıxış və iştirak etmiş və həmin qurultayda irəli sürülən "Azərbaycana muxtariyyət" şüarını qızğın müdafiə etmişdir. O, 1917-ci ilin dekabrında yaranan Zaqafqaziya seyminin üzvü və müstəqil Zaqafqaziya Federativ Respublikası hökumətinin Ədliyyə naziri olmuşdur.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Təkcə türkdilli xalqlar arasında deyil, bütün islam aləmində ilk dəfə olaraq respublika üsul-idarəsinə qədəm qoyan Azərbaycan xalqının ilk müstəqil hökumətini təşkil etmək bitərəf Fətəlixan Xoyskiyə tapşırıldı. O, hökumətdə həm Nazirlər Şurasının sədri, həm də Daxili İşlər naziri vəzifəsini tuturdu. 1918-ci il iyunun 17-də Azərbaycan Milli Şurasının göstərişinə əsasən, Fətəlixan Xoyskinin başçılığı ilə ikinci hökumət kabinəsi təşkil olundu.

1918-ci il sentyabrın 15-də Bakının oyuncaq Sentrokaspi qüvvələrindən təmizlənməsi münasibətilə Fətəlixan Xoyski çıxış edərək demişdir: "Bizim də həyatda yaşamağa, bizim də azad yaşamağa hüququmuz vardır. Heç bir zirehli maşın, hidroplan, aeroplan, kanonerka, məftilli çəpər, mina və sairə texniki qurğu, heç bir ingilis, heç bir qüvvə və onların havadarları tarixin təbii axarına mane ola bilmədilər. Bakının 50 minlik qoşun və texnika ilə birlikdə kiçik bir qüvvənin həmləsi qarşısında süqutu başqasının fəlakəti üzərində öz xoşbəxtliyini qurmaq istəyənlərə ibrət dərsi olmalıdır ("Azərbaycan" qəzeti, 19.IX.1918, №2).

Professor V.İ.Razumovskinin 1922-ci ildə çap etdirdiyi "Bakı şəhərində universitetin əsasının qoyulması" adlı məqaləsindən məlum olur ki, Azərbaycan Dövlət Universitetinin yaranması təşəbbüsü Fətəlixan Xoyskiyə məxsusdur.

F.Xoyski 1918-ci il dekabrın 26-da təşkil etdiyi üçüncü hökumət kabinəsində də nazirlik şurasının sədri və xarici işlər naziri vəzifəsini tuturdu. Məhz onun dövründə Azərbaycanda dövlət orqanizminin özülü qoyulmuşdu. Müstəmləkə siyasətinin

rəmzi olan Yelizavetopol şəhəri və quberniyasının yenidən Gəncə və Gəncə quberniyası adlandırılması, Qaryagin qəzasının Cəbrayıl qəzası adı ilə əvəz edilməsi, çoxpartiyalı parlament sisteminin yaradılması, Azərbaycan Respublikasının pul və poçt markalarının buraxılması, ana dilində məktəb və seminariyaların açılması və digər mütərəqqi tədbirlər Xoyskinin rəhbərlik etdiyi hökumət kabinələri dövründə həyata keçirilməyə başlamışdır. Həmin illərdə sinfi ziddiyyətlərin qalmasına baxmayaraq, yuxarıda qeyd edilən bütün tədbirlər öz dövrü üçün müsbət xarakter daşıyırdı.

1919-cu il martın əvvəllərində Fətəlixan Xoyskinin başçılıq etdiyi hökumət kabinəsi istefaya çıxdı.

Fətəlixan Xoyski Nazirlər Şurasının sədri Nəsibbəy Yusifbəylinin (1881-1920) 1919-cu il dekabrın 23-də təşkil etdiyi ikinci hökumət kabinəsində Xarici İşlər naziri vəzifəsini icra etmişdir. Azərbaycan Demokratik Respublikasının beynəlxalq aləmdə və xarici dövlətlər tərəfindən tanınmasında Fətəlixan Xoyskinin müəyyən xidmətləri vardır.

1920-ci il yanvarın 2-də RSFSR-in xarici işlər üzrə xalq komissarı G.V.Çiçerin (1872-1936) ağqvardiyaçı general Denikinə (1872-1974) qarşı vahid cəbhə yaratmaq üçün Xoyskiyə nota ilə müraciət etdi. Həmin ayın 19-da F.Xoyskinin verdiyi cavabda göstərilirdi ki, "Azərbaycan Respublikası Sovet Rusiyasının daxili işlərinə qarışmır və bu məsələdə bitərəfdir".

G.V.Çiçerin 23 yanvar tarixli ikinci notasında yenə həmin məsələyə qayıdaraq, Azərbaycanı RSFSR-lə əməkdaşlığa dəvət edir və yazırdı ki, biz həmişə bir səma altında, bir yerdə yaşamışıq və yenə də bir yerdə yaşamalıyıq. Xoyski fevralın 1-də Çiçerinə öz hökumətinin rəsmi fikrini bildirmiş, onun təklifini rədd etmişdir.

1920-ci il fevralın 20-də Çiçerinin üçüncü notası və martın 7-də Xoyskinin cavabı eyni məsələyə həsr olunmuşdur. Martın axırında Çiçerin sonuncu notasını göndərmiş, aprelin 27-də Xoyski Azərbaycan parlamentində cavab notasını oxuyarkən XI

Qızıl Ordunun Bakıya yaxınlaşdığı xəbər alınmışdır. Bu hadisələrdən sonra Fətəlixan öz ailəsi ilə Tiflisə getmişdir. F.Xoyski muzdlu bir qatil tərəfindən 1920-ci il iyunun 19-da Tiflisdə arxadan güllə atəşi ilə öldürülmüş və Azərbaycan dramaturgiyasının banisi M.F.Axundovun (1812-1878) qəbri yanında dəfn olunmuşdur.

RÜSTƏMXAN XOYSKİ

Rüstəmxan İsgəndər oğlu Xoyski 1888-ci ildə Şəkidə anadan olmuşdur. Onun atası rus ordusunun general-leytenantı idi. O, öz dövrünün görkəmli siyasi və ictimai xadimi Fətəlixan Xoyskinin (1875-1920) kiçik qardaşıdır. Onların əsli-nəsli Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Rüstəmxanın böyük qardaşı Hüseynqulu xanın oğlu Zahidxan Xoylunun 1989-cu il avqustun 18-də Nyu-Yorkdan yazdığı məktubdan məlum olur ki, Xoyskilərin nəslinin adı Dünbülü Batman Qılıncdır. 1803-1806-cı illərdə Azərbaycanı işğal edən rus ordusunun başçısı general Sisyanov Peterburqa göndərdiyi raportla Rüstəmxanın ulu babası, Xoy xanı olan Cəfərqulunu Xan-Xoyski kimi təqdim etmişdir. Həmin dövrdən bu nəsil rus müstəmləkəsi olan Azərbaycanda Xoyski familiyası ilə məşhur olmuşdur.

Rüstəm xan Xoyski orta təhsilini Gəncə klassik gimnaziyasında almış, Peterburq Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. O, burada azərbaycanlı tələbələrin təşkil etdiyi həmyerlilər təşkilatının üzvü olmuşdur. Rüstəmxan 1913-cü ildə ali hüquqşünas diplomu alaraq, Gəncəyə qayıtmış və dairə məhkəməsində iş kəsmək üzrə andçı-müvəkkil müavini vəzifəsində çalışmışdır. O, Gəncənin mədəni həyatında yaxından iştirak etmişdir.

1916-cı ildə Bakıya köçən R.Xoyski Bakı dairə məhkəməsində eyni vəzifədə işləmişdir.

1917-ci ildə Rusiyada fevral-burjua inqilabı baş verdi. Bitərəf R.Xoyski siyasi hadisələrə qoşuldu. Onun bir siyasi xadim kimi formalaşmasında böyük qardaşı Fətəlixanın da müəyyən təsiri olmuşdur.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Təkcə türk ellərində deyil, bütün islam aləmində ilk dəfə olaraq respublika üsul-idarəsinə qədəm qoyan Azərbaycan xalqının ilk müstəqil hökumətini təşkil etmək bitərəf F.Xoyskiyə tapşırıldı. Həmin gün Rüstəmxan Xoyski hökumətin dəftərxana müdiri təyin olundu. O bu vəzifədə 1919-cu il yanvarın 1-dək işləmişdir. Azərbaycanda dövlət aparatının təşkilində onun xidmətlərini qeyd etmək lazımdır.

1918-ci il dekabrın 22-də F.Xoyskinin üçüncü hökumət kabinəsində R.Xoyski Sosial-Təminat naziri təyin edilmişdir. Həmin dövrdə Ermənistandan qovulmuş azərbaycanlı qaçqınların yerləşdirilməsi və onlara maddi kömək göstərilməsi kimi ağır vəzifə Rüstəmxan Xoyskinin üzərinə düşmüşdür.

1919-cu ilin martında F.Xoyskinin kabinəsi istefaya çıxdığı üçün Rüstəmxan Xoyski tutduğu vəzifəni tərk etmişdir.

R.Xoyski daha sonra Nəsibbəy Yusifbəylinin (1881-1920) təşkil etdiyi birinci (14.IV.1919) kabinədə Sosial-Təminat, ikinci (24.XII.1919) kabinədə isə İctimai-Təminat və Səhiyyə nazirinin müavini olmuşdur.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra Rüstəmxan Xoyski Respublika Dövlət Plan Komitəsində hüquq məsləhətçisi vəzifəsində işləmişdir. 1920-ci ilin axırında Moskvaya köçən R.Xoyski burada ailə həyatı qurmuş və müxtəlif dövlət idarələrində çalışmışdır.

Rüstəmxan Xoyski 1948-ci ildə Moskvada vəfat etmiş və sonralar dövlət tərəfindən fəxri qəbiristanlığa çevrilən Novodeviçye qəbiristanlığında dəfn olunmuşdur.

MƏSLƏK MÜCAHİDİ

Dünyanın bütün xoşbəxtləri də,
bütün bədbəxtləri də ziyalı adı ilə bağlıdır.
Ziyalılıq qədimdən işıq gələn,
üz tutulan yer, pir, ocaq kimi dərk edilib.
Sabir RÜSTƏMXANLI.

"Ziyalı - öz məsləkinin qulu, mücahid, fədai!.. Ziyalı özünü unudub başqalarını düşünən, qızmar dəmirin üstünə düşən su damlaları kimi son nəfəsinədək cızıltıyla yanıb, buxarlanıb yox olan! Ziyalı - axına qarşı, zülmətə qarşı dayanan, təkbaşına olsa da, daim vuruşan və ümiddən düşməyən, haqqın qələbəsinə inamını itirməyən! Ziyalı - aza qane, zillətə dözümlü, düz yolda dərisi soyulmağı və daş qalaq olunmağı xoşbəxtlik sayan... xalqının pərvanələri! Ziyalı işığı əsrlərin zülmətini yarıb keçənlər... ("Azərbaycan" qəzeti, 27 aprel 1990-cı il). Məgər ziyalılığa bundan gözəl tərif vermək olarmı? Xalq ziyalıları, həqiqətən də, qərinələrcə bu sifətə malik olub. Lakin həmişə belə olmadı... Elin inkişafı, texnikanın tərəqqisi elə bil ki, bəzi ziyalıları da dəyişdi.

Milli qeyrətlilərin də çoxunu məhv etdilər. Adını qoydular: millətçi, idealist, dindar, pantürkist, panislamist... nə bilim nə, nə... Qıranlar da kim oldu? Tarix boyu bizimlə düşmənçilik edənlər. İlana ağı verənlərin çoxu kim oldu? Çoxu qanı bir, dili bir, dini bir, məsləki müxtəlif "özümüzünkü"lər. Lənət belələrinə!

Belə haqsızlıqlara məruz qalan ziyalı, alim ziyalılardan biri Mustafayev Veysəl Nurməmməd oğlu olmuşdur. Azərbaycanın bu layiqli ziyalısı haqda istefada olan polkovnik Sadıq Zeynal oğlu Sadıqov ilk dəfə "Elm" qəzetində (5 yanvar 1991-ci il) arxiv materialları əsasında geniş məlumat vermişdir. Sadıq Zeynal oğlunun bu maraqlı məlumatını olduğu kimi vermək qərarına

gəldik. Müəllifə öz adımdan və oxucular adından səmimi təşəkkürümü bildirirəm.

ALİMİN TALEYİ

...Veysəl Nurməmməd oğlu Mustafayev 1894-cü ildə Şəki şəhərində anadan olmuş, pedaqoji işə 1912-ci ildə başlamışdır. 1920-ci ildə o, respublika təcrübi-nümunə məktəbini təşkil etmiş və 1920-26-cı illərdə bu məktəbə rəhbərlik etmişdir. 1926-cı ildə o, Azərbaycan Dövlət Universitetinin elmi işçisi olmuş, psixologiya üzrə aspirantura keçmişdir.

1929-cu ildə o, universitetin privat-dosenti təsdiq edilmişdir. 1930-cu ildən 1937-ci ilə qədər Azərbaycan Ali Pedaqoji İnstitutunun dosenti və eyni zamanda pedaqogika üzrə elmi tədqiqat institutunun böyük elmi işçisi olmuşdur. Azərbaycanda milyonlarla insan və on minlərlə ziyalı üçün dəhşətli olan il Mustafayev üçün də əzab və bədbəxtlik ili olmuşdur. 1935-ci ildən başlayaraq o, təqiblərə məruz qalırdı. 1937-ci ildə o, işdən çıxarılmış, 7 ay işsiz qalmış, sonra yenidən işə qəbul olunmuşdur.

Onun keçmiş Azərbaycan KP MK birinci katibi İ.D.Mustafayevin adına göndərdiyi ərizəsindən: "Mən 1942-ci ildə yenidən repressiyalara məruz qalırdım. 24 saat ərzində mənim mənzilim alınmış, ev əşyaları küçəyə atılmış, özüm isə xəstə arvadımla birlikdə Şimali Qazaxıstan vilayətinə inzibati qaydada sürgün edilmişdim. Mənə gedib 7-9 yaşında olan iki xəstə uşağımı götürmək imkanı verməbdilər. Yalnız dörd ildən sonra mən Bakıya qayıtmaq imkan əldə etdim. Lakin mənə nə mənzilimi, nə də ki, öz əsas ixtisasım üzrə işim qaytarılmadı. Keçirdiyi sarsıntılar nəticəsində həyat yoldaşım həlak oldu. Mən yenidən uşaqları qoyub Azərbaycandan xaricdə iş axtarmağa məcbur oldum. 1948-ci ilin sentyabrında mən Türkmənistanda işləməyə başladım, lakin Azərbaycandan olan təqibçilər məni sakit buraxmırdılar. Onların səyi nəticəsində mən Çardcou Pedaqoji İnstitutunda işdən azad edildim.

Sov.İKP MK-ya dəfələrlə müraciətdən sonra işdən çıxarılmağım haqqında əmr ləğv olundu. 1954-cü ilin sentyabrında müsabiqə üzrə Saransk Pedaqoji İnstitutunun Pedaqogika kafedrasının dosenti kimi işə götürüldüm.

Mənim təqiblərimin səbəbini Müsavat partiyasının üzvü olmağımla izah edirdilər. Həqiqətən, mən Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər bir il Şəkidə Müsavat Partiyasının üzvü olmuşam, lakin heç bir inzibati və ya seçkili vəzifədə olmamışam (namus həmişə namuslu adamlara yaşamağa mane olmuşdur).

İndi 63 yaşım var. Həyatımın 44 ilini xalqın maariflənməsi işinə həsr etmişəm. Ömrümün qalan hissəsini, öz bilik və təcrübəmi bütünlüklə böyüyən nəslə vermək istəyirəm. Xahiş edirəm mənə, xüsusilə mənim sürgün olunmağım, əsərlərimin müsadirə edilməsi və mənzildən məhrum olunmağım məsələlərində, 20 il üzərimdə qalan mənəvi təzyiqdən azad edilməyimə kömək edəsiniz". 3/IX-56-cı il.

1942-ci il avqustun 27-də V.N.Mustafayevə doldurulmuş vərəqədə qeyd olunmuşdur: Təcrübəli müsavatçı Nuxa şəhərində Müsavat Partiyası qəza komitəsinin keçmiş sədr müavini Sovet hakimiyyətinə qarşı düşməncəsinə münasibət bəsləyir".

Bütün şüurlu həyatını böyüyən nəslin tərbiyələnməsinə həsr edən bir adamı bu qədər əzablara düçar edən və bütün arxivlərdə olan məlumatlar yalnız bunlardan ibarətdir. KP MK-ya Prokurorluğa və DTK-ya göndərilən ərizələr DTK İstintaq şöbəsinin Baş müstəntiqi kapitan Arutyunova tapşırılmışdı (ümumiyyətlə, 30-cu illərin cəzalandırılanlarına dair bütün işlər yalnız ermənilərə tapşırılırdı. Belə ki, ermənilər 30-cu illərdə Azərbaycan xalqına qarşı cəza tədbirlərinin ən fəal icraçıları idi). Kapitan Arutyunov Mustafayevin ayaq basdığı hər bir yerə sorğu göndərmişdi.

XX qurultaydan sonra bütün respublikalarda cəzalandırılanlarla gərgin məşğul olmağa başladılar, yalnız bizim respublikadan başqa. Çünki respublika DTK və DİN-in mərkəzi aparatlarında işləyənlər özləri 30-50-ci illərin repressiyalarının bilavasitə iştirakçıları olmuşdular.

Buna görə də cəzalandırılanlara və sürgün edilənlərə, eləcə də onların ailələrinə ədalətin bərpa edilməsində inzibati qaydada rədd cavabı verilirdi. 27 dekabr 1956-cı ildə Arutyunov belə bir qərar vermişdi ki, Mustafayevin Bakının hüdudlarından sürgün edilməsi düzgün hesab edilsin. Bu da rəsmi cavab: "Saransk şəhəri, Demokratik küçəsi, ev 69, mənzil 19, vətəndaş Mustafayev Veysəl Nurməmməd oğluna. Bildiririk ki, sizin 1942-ci ildə Bakı şəhərindən sürgün edilməyinizin əsaslı olması məsələsinə yenidən baxılmaq barədə ərizənizə Azərbaycan SSR Prokurorluğunda və Azərbaycan SSR Nazirlər Soveti yanında DTK-da baxılmış və nəticəsiz qalmışdır, çünki siz düzgün olaraq sürgün edilmişdiniz. DTK şöbəsinin rəis müavini Biliçenko. 27 yanvar 1957-ci il. İcraçı Arutyunov."

Beləliklə, V.Mustafayev öz vətənində ədalətin bərpa edilməsinə nail ola bilmədi.

Mən onun elmi fəaliyyətinə qiymət verə bilmərəm, lakin onu qeyd edə bilərəm ki, onun özünə və ailəsinə qarşı ən böyük qanunsuzluq edilmişdir.

Mordova Pedaqoji İnstitutunun direktoru Romadin, Salavat Yulayev adına Myasaqutov Pedaqoji İnstitutunun direktoru Z.Batrşin, Aşqabad Pedaqoji İnstitutunun direktoru P.Əzimov, professor T.Nusinov, Həmkarlar Komitəsinin sədri dosent N.Maqkova, 1948-ci il sentyabrın 2-də Aşqabadda APİ-nin kafedra müdiri, professor V.Komarovskinin V.Mustafayevin əsərləri haqqında verdiyi rəylər, xasiyyətnamələr və s. Mustafayevin pedaqoji və elmi tədqiqat işinin müsbət xarakteristikasıdır.

Bu "sosial təhlükəli ünsür" artıq yaşlı vaxtında - 1948-ci il oktyabrın 5-dən 6-na keçən gecə Aşqabad şəhərində baş verən zəlzələ zamanı uşaqların xilas edilməsində iştirak edirdi. O, on iki uşaq xilas etmişdir. Aşqabadda APİ-nin Psixologiya kafedrasının müdiri Zəkuzadənin imzası ilə 1948-ci il avqustun 24-də yazılmış xasiyyətnaməni oxuyun: "Mənim bildiyimə görə,

V.Mustafayev qabiliyyətli, bacarıqlı elmi işçi idi, ona tapşırılan pedaqoji və elmi tədqiqat işlərini müvəffəqiyyətlə yerinə yetirmiş, özünü dosent elmi dərəcəsinə layiq bir adam kimi göstərmişdir". Lakin Arutyunovu nəinki Azərbaycanın, hətta başqa respublikaların alimlərinin verdikləri çox gözəl xasiyyətnamələr maraqlandırmırdı. Daha bir türkü öz Vətənində yaşamağa qoymamaq imkanı var idi.

Yalnız 48 ildən sonra Daxili İşlər üzrə Xalq Komitəsinin 27 avqust 1942-ci il tarixli qərarı ləğv edilmiş, Mustafayevin hərəkətlərində inzibati pozuntular olmadığı üçün dayandırılmışdır.

Biz V.N.Mustafayevin ölümündən sonra bəraət qazanması barədə arayışı vermək və ən başlıcası, ailəsinə gətirilən kədərə görə üzr istəmək üçün qohumlarından heç kimi tapa bilmədik.

İstefada olan polkovnik

Sadıq Zeynal oğlu SADIQOV.

Mustafayev Veysəl Nurməmməd oğlu 1975-ci ildə Bakıda vəfat etmişdir.

Ocağı yaxşı qala,
Odun qoy, yaxşı qala.
Nə olar bu dünyada,
Pis ölə, yaxşı qala.

MUSTAFA QULİYEV

Qüvvə hər şeyi sındırır, ağıl qüvvəni.
Azərbaycan xalq məsəli.

Quliyev Mustafa Zəkəriyyə oğlu Azərbaycan tarixində maarifçi publisist və fəal ictimai xadim kimi tanınmışdır. O, 1893-cü ildə Nuxada, xırda ticarətçi ailəsində doğulmuşdur. Burada ibtidai və realnı məktəbdə oxumuş, 1913-cü ildə Tiflisdə gimnaziya qurtardıqdan sonra Kiyev Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. 1919-cu ildə Bakıya qayıdan M.Z.Quliyev sonralar AK/b/P Qaraşəhər rayon komitəsinin katibi (1921-1922), Respublika Xalq Maarif komissarı (1922-1928) işləmişdir.

O, Moskvada Kommunist Akademiyasını qurtardıqdan sonra Qazaxıstanın Qarayazı MTS-nin siyasi şöbəsinin rəisi, Çimkənd rayon Partiya Komitəsinin katibi, 1937-ci ildə Odessa vilayət Partiya Komitəsində şöbə müdiri işləmişdir.

M.Z.Quliyevin ədəbiyyatşünaslığın inkişafında da müəyyən xidmətləri vardır. İctimai dövlət xadimi, tənqidçi, publisist, bir çox elmi əsərlərin müəllifi Mustafa Quliyev "Maarif və mədəniyyət" (1923-1926), "İnqilab və mədəniyyət" (1929-1931) jurnallarının redaktoru olmuşdur.

M.Z.Quliyev 1926-1936-cı illərdə ədəbi tənqidlə məşğul olmuş, M.F.Axundov, H.Cavid, C.Cabbarlı, Ələkbərzadə Əbülhəsən, Hacıbaba Nəzərli və başqaları haqda klassik və müasir Azərbaycan ədəbiyyatına dair məqalələri ilə çıxış etmişdir.

Onun mədəni irsə münasibət məsələsində milli ənənələri rədd etmək kimi səhvləri də olmuşdur.

M.Z.Quliyev 1938-ci il repressiyasının qurbanlarındandır.

MUXTAR ABDULLAYEV

Muxtar Abdullayev.

M.Abdullayev 1898-ci ildə Şəkidə anadan olmuşdur. Oradakı rus-tatar (Azərbaycan) məktəbində oxumuşdur. Olduqca gözüaçıq, diribaş və ətrafında baş verən hadisələri düzgün qiymətləndirmək qabiliyyətinə malik olan gənc Muxtar yeni hökumət tərəfindən Daxili İşlər Xalq Komissarlığında rəis müavini vəzifəsinə təyin edilmişdir. Üç il bu çətin və məsuliyyətli vəzifədə çalışan M.Abdullayev sonralar Qazaxda, Şamxorda, Göyçayda rayon İcraiyyə Komitəsinin sədri olmuş və hər yerdə xalqın etimadı-

nı qazanmışdır. O, 1935-ci ildə Nuxa şəhər Soveti İcraiyyə Komitəsinin sədri seçilmişdir.

M.Abdullayevin savadsızlığın ləğv edilməsində böyük xidmətləri olmuşdur. Onun təşəbbüsü ilə Şəki rayonunun Orta Zəyzid, Aşağı Göynük, Böyük Dəhnə kəndlərində məktəblər tikilmiş, şəhərdə Nuxa fəhlə fakültəsi (1923) açılmışdır.

Xalqın gələcək taleyini, onun inkişafını savadlanmaqda görən M.Abdullayevin yaxından iştirakı ilə 1924-cü ildə Nuxada kişi seminariyası təşkil olunmuş və onun üçün 0,5 hektar yer, 30 baş mal-qara alınmışdır.

M.Abdullayev 1930-cu ildən Şəki-Zaqatala dairə prokurorluğunda fəaliyyət göstərən komissiyanın fəal üzvlərindən biri olmuşdur. 1937-ci ildə M.Abdullayev İspaniya əməkçilərinə kömək məqsədilə Nuxa zəhmətkeşlərinin mitinqini təşkil etmiş, bir sıra dəyərli təşəbbüslər irəli sürmüşdür.

Mərkəzi Dövlət Arxivi Şəki filialının müdiri Rəhimə Səfərovanın məlumatından: "Təəssüf ki, stalinizm dövrünün rəhbərləri işgüzar, təşəbbüskar ziyalıları sevmirdilər. Buna görə də onlar az-çox milli təəssüb çəkən rəhbər işçiləri, təsərrüfat başçılarını, fəalları bir-bir aradan götürürdülər. M.Abdullayev də 1937-ci il oktyabrın 12-də "xalq düşməni" elan edilərək susduruldu. Muxtarın arvadı, 6 körpə uşağın anası, evdar qadın olan Həyat Abdullayeva isə ərinə görə Sibirə sürgün edildi...

M.Abdullayevin övladları heç vaxt atalarını "xalq düşməni" hesab etməmişlər. 1956-cı il avqustun 6-da M.Abdullayevə ölümündən sonra bəraət verilərkən onların haqlı olduqları bir daha sübut edilmişdir" ("Şəki fəhləsi" qəzeti, 8 avqust 1989-cu il).

İLK AZƏRBAYCANLI HÜQUQŞÜNAS QADIN

İnsanlar, insan olun.
Bu sizin birinci vəzifənizdir.
J. RUSSO.

İlk azərbaycanlı hüquqşünas qadın Həşimzadə Bilqeyis Əhməd qızı olmuşdur. O, 1900-cü ildə Şəkidə, fəhlə ailəsində doğulub. Bilqeyis iki yaşında olarkən atası rəhmətə getmiş, o, Şəki 2 №li ipək fabrikində fəhlə işləyən əmisi Lüti Həsən oğlunun himayəsində qalmışdır. Ailədə maddi vəziyyətin ağır olması ilə əlaqədar əmisi 7 yaşlı Bilqeyisi Şəkinin tanınmış bəylərindən olan Rzaqulu bəyin evinə qulluqçu verir. O zaman Rzaqulu bəy evinin yuxarı mərtəbəsində qızlar üçün məktəb təşkil etmişdi.

Nabat Nərimanova.

Sağdan: Şükür Həşimzadə, Bilqeys Həşimzadə və şəkili Ələkbər müəllim.

Həmin məktəbdə N.Nərimanovun bacısı qızı Nabat Nərimanova dərs deyirdi. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Nabat xanım inqilabdan qabaq Şəkidə, Bakıda qız məktəblərində dərs demiş, "Dəbistan", "İşıq" və s. məcmuələrdə maarifə dair yazılarla çıxış etmişdir. Nabat xanım Rzaqulu bəyin qız məktəbində dərs deməklə bərabər, həm də onun evində yaşamışdır. Balaca Bilqeyis Nabat xanımla yaxınlaşır, onun otağını təmizləyir, su gətirir və başqa xırda işlərlə məşğul olur. Bunun müqabilində Nabat xanım Bilqeyisin təbriyəsi ilə məşğul olur və onun dərs dediyi məktəbi qurtarmasına köməklik edir. O, sonra kənd müəllimi Şükür əfəndiyə ərə gedir.

Həşimzadə Şükür Məmməd oğlu Şəkinin Qoxmux məktəbinin direktoru olmuş, "Azərbaycanın əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür. Bilqeyis xanım pedaqoji kurs qurtarmış və müəllim işləməyə başlamış, 1923-1926-cı illərdə fəhlə fakültəsində oxumuşdur.

Müəllim işlədiyi və oxuduğu dövrdə o, müxtəlif ictimai vəzifələrdə fəal çalışmışdır. 1925-1928-ci illərdə Şəki qəza Komitəsinin şöbə müdiri işləyir. 1928-ci ildə Bakıya rəhbər işə dəvət edilir. O, 1928-1938-ci illərdə keçmiş Azərbaycan SSR Prokurorunun müavini, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun rektoru (1938-1941), respublika Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri (1941-1945) işləmişdir. 1945-ci ildə hüquq elmləri üzrə namizədlik dissertasiyası müdafiə edən B.Ə.Həşimzadə 1945-1951-ci illərdə Azərbaycan Dövlət Universitetinin hüquq kafedrasının dosenti olmuşdur. İlk azərbaycanlı hüquqşünas qadın, ilk azərbaycanlı qadın - hüquq elmləri namizədi, ilk azərbaycanlı qadın - institut rektoru Bilqeyis Əhməd qızı müxtəlif vaxtlarda məsul ictimai işlərdə çalışmışdır. Dosent B.Ə.Həşimzadə bir çox elmi tədqiqat və publisistik əsərin müəllifidir.

Xalqımızın qeyrətli, zəhmətkeş qızı Bilqeyis xanım 1961-ci ildə Bakıda vəfat etmişdir.

BABAM OLACAM*...

"Gözəlliyə, gözələ könlünü bağlayanda Füzuli "heyrət" dedi.
Millətinin halına güləndə, ağlayanda Sabirim "qeyrət" dedi.
Heyrət ilə qeyrəti yoğurdular, yapdılar,
Bu ölümlü dünyada bir ölməzlik tapdılar".
Zəlimxan YAQUB.

Bəzən bircə ailə, bir nəsil öz xalqına unudulmaz şəxsiyyətlər bəxş edir. Şəkidə belə nəsillərdən biri də Məmmədiyyə müəllimin ailəsidir. Azərbaycanda bu zəhmətkeş, dünyagörmüş, müdrik ağsaqqal müəllimin oğlanları Əbdürrəhim və Nazim Hacıyevləri kim tanımır? Məmmədiyyə müəllim Şəkidə rus məktəbində Azərbaycan dilindən, onun həyat yoldaşı Bəxti xanım Azərbaycan məktəbində rus dilindən dərs demişdir. Bəxti xanım ömrünün son illərində Azərbaycan Dövlət Tibb İnstitutunda müəllimlik etmiş, 1947-ci ildə xəstəxanada qan köçürülərkən onun fəsadından vəfat etmişdir. Nazim Hacıyevin Azərbaycan və rus dillərini dərindən bilməsi və hər iki dildə natiqlik qabiliyyəti bəlkə də ona valideynlərindən keçmişdir. Hacıyevlər nəsli indi də davam edir. Əbdürrəhim müəllimin oğlu Hikmət Hacızadə, Nazimin oğlu Aydın və onun balaca oğlu Nazim...

Osman Mirzəyev rəhmətlik Nazim Hacıyevin evində olarkən baş verən bir epizodu çox gözəl təsvir etmişdir: "Qapını Nazim Hacıyevin oğlu Aydın açdı. Onun yanında balaca bir oğlan dayanmışdı, qonağa diqqətlə baxırdı.

- Sənin adın nədir? - deyə ondan soruşdum.
- Nazim, - deyə o cavab verdi.
- Bəs familiyan?
- Hacıyev. Nazim Hacıyev.
- Böyüyəndə kim olacaqsan?
- Babam..."

İnsanın cəmiyyətdə mövqeyi onun varına, vəzifəsinə görə deyil, ideyası ilə ölçülür. Müsbət ideya o şəxsdə inkişaf edir ki, onda milli qürur vardır. Yaxşı deyiblər ki, milli qürur hissi insan mənəviyyatının əsas amilidir. Saf mənəviyyat düzgün tərbiyənin ("Vışka" qəzeti, 30 iyun 1989-cu il) nəticəsidir. V.Q.Belinski demişdir: "Tərbiyə çox böyük şeydir, insanın taleyini o həll edir". İnsan gəncliyində aldığı tərbiyənin təsirindən heç vaxt xilas olmur. Əgər insan uşaqlıqdan Vətənə, xalqa... məhəbbət ruhunda tərbiyə alıbsa, bu ənənə sonradan da davam etməlidir. Böyük sənətkar Musa Cəlilin dediyi kimi:

"Ölümün qolları güclü olsa da,
Vətən məhəbbəti güclüdür ondan!

* Bu oçerk N.Hacıyevin bir şəxsiyyət kimi təqdim etmək niyyəti ilə verilmişdir – **red.**)

Bax bu məhəbbətdir, aparan bizi
Ağır döyüşlərə hər vaxt, hər zaman."

Şəkinin üç məşhur ziyalısı. Sağdan: Nazim Hacıyev (oturub), professor Məmmədbəy Əfəndiyev, filologiya elmləri namizədi Əbdürəhman Abdullayev.

Bəli, yuxarıda adlarını çəkdiyimiz bütün müsbət xüsusiyyətləri özündə cəmləşdirən nadir şəxslərdən biri Nazim Məmmədiyyə oğlu Hacıyev olmuşdur.

N.Hacıyev 1924-cü ildə Şəkidə anadan olmuşdur. O, Böyük Vətən müharibəsindən əvvəl Şəki Pedaqoji Texnikumu bitirmiş və Şəki rayonunun Baş Küngüt kəndində müəllim, sonra dərs hissə müdiri işləmişdir. Gənclik illərində, hətta ömrünün son günlərinə qədər şeir yazmış, ilk şerini "Şəki fəhləsi" qəzetində çap etdirmişdir. Bəlkə də bu həvəs onu "Şəki fəhləsi" qəzetinə işləməyə (1942-1943) gətirmişdir. N.M.Hacıyev müharibə dövründə Azərbaycan Dövlət Universiteti filologiya fakültəsinə daxil olur. Ancaq təhsilini davam etdirə bilmir, onu zabitlər hazırlayan kursa göndərirlər. Bu kursu kiçik leytenant rütbəsi ilə qurtaran N.M.Hacıyev Daxili İşlər Komissarlığına işə göndərilir. Bakıya gəlir, ona ev verirlər və beləliklə, bütün ailə Bakıya toplanır. Daxili İşlər Komissarlığında müəyyən dövr işlədikdən sonra - 1949-cu ildə Bakı şəhər Komsomol Komitəsinin katibi olur. 1950-ci ildə şəhər Partiya Komitəsinin təlimatçısı işləyir. Çox çəkmir ki, onu Azərbaycan Dövlət Tibb İnstitutu partiya komitəsinə azad katib seçirlər. Sonralar Nazim özü yaxın adamlarına təəccüblə danışarmış ki, hələ indi də başa düşə bilmir ki, nə üçün Bağırovun tapşırığı ilə həmin yığıncaqda nazir Yemelyanov iştirak etmişdir.

Tezliklə Tibb İnstitutunun yeni partiya təşkilatı katibi haqda

şəhərdə söhbət yayıldı: onu kimsəsizlərin müdafiəçisi adlandırırdılar.

N.M.Hacıyev yenidən komsomol işinə qayıdır - Azərbaycan komsomolu MK-nın təşviqat üzrə katibi (1951), bir il sonra - 1952-ci ildə komsomolun birinci katibi seçilir. Onun birinci katib olmasına şəxsən Mir Cəfər Bağırov razılıq vermişdi. Bu barədə Bakı şəhər Partiya Komitəsinin keçmiş birinci katibi Əli Həbib oğlu Kərimov öz xatiratlarında qeyd etmişdir (Osman Mirzəyev, "Vışka" qəzeti, 30 iyun 1989-cu il). Bağırov iş başından götürüldükdən sonra onunla təmasda olan bütün rəhbər işçilərin yoxlanılması başlayır. Bu dövrdə N.M.Hacıyev diqqət mərkəzində olan şəxslərdən biri idi. 1954-cü ilin fevral ayında Azərbaycan LKGİ qurultayı keçirilir. N.M.Hacıyevə qarşı aparılan təbliğata baxmayaraq, o, yenidən birinci katib seçilir. Bu ona görə belə idi ki, həm gənclər və həm də namuslu adamlar onu ürəkdən sevirdilər.

1956-cı ildə Azərbaycan KP MK-nın keçmiş birinci katibi İmam Daşdəmir oğlu Mustafayevin şəxsi təklifi ilə N.M.Hacıyev MK-nın məktəblər şöbəsinə müdir təyin edilir. Onun rəhbərliyi dövründə bu şöbənin funksiyası daha da genişləndirilir, "Məktəblər, ali təhsil, elm" adlandırılır.

1958-ci ildə İ.D.Mustafayevin təşəbbüsü ilə N.M.Hacıyev Sov. İKP MK-nın aparatına işləməyə göndərilir. O, Orta Asiya təşkilat məsələsi şöbəsində işləmişdir. N.M.Hacıyev bu şöbədə işlərkən mesxeti türklərinin yaşayış tərzləri ilə yaxından tanış olmuş, hələ o vaxtlar MK qarşısında onların öz vətənlərinə qayıtması məsələsini qoymuşdur. Lakin N.S.Xruşşov o vaxtlar Gürcüstanın birinci katibi olan V.Mjavanadze ilə razılaşmışdı ki, onların öz torpaqlarına qayıtması heç cür mümkün deyil. Ona görə ki, torpaqlar artıq başqaları tərəfindən tutulmuşdur. Bütün fəaliyyəti boyu azsaylı xalqların taleyi ilə oynayan M.Suslov bu məsələdə V.Mjavanadzeni müdafiə etmişdir.

İki ilə yaxın MK aparatında işləyən N.M.Hacıyev (1958-1960) keçmiş Azərbaycan Kommunist Partiyası XXIV qurultayında MK-nın təşviqat üzrə katibi seçilir.

Bu onun axırıncı vəzifəsi oldu. Burada iki il yarım işlədi, onun son ayları xəstəxanada keçdi.

Osman Mirzəyevin qeydlərindən: "Nazim Hacıyevin əşyaları və məruzələri evində hələ də saxlanılır. Onun "Pravda" qəzeti üçün M.F.Axundovun 150 illik yubileyinə yazdığı məqalə də buradadır... Lakin bu yubiley onsuz keçirildi". ("Vışka" qəzeti, 30 iyun 1989). Bəli, Azərbaycan və rus dillərinin mahir bilicisi, gözəl natiq, bacarıqlı publisist, yorulmaz təşkilatçı, xalqını misilsiz dərəcədə sevən, onun gələcəyinə inanan Nazim Məmmədiyyə oğlu Hacıyev artıq 38 yaşında (30.07.1962) həyatda yox idi.

Sözümü Nazim Hacıyevin uşaqlıq dostu B.Vahabzadənin sözləri ilə yekunlaşdırmaq istəyirəm:

Ey ana təbiət, de, neçün, niyə
Gülün budağında tikan bitirdin?
Bulağın gözünü qotur keçiyə,
Bulanlıq suyunu ceyrana verdin?
Biz Nazimin əziz xatirəsi önündə indiyədək borclu qalmışıq.

VƏTƏN MƏHƏBBƏTİLƏ YAŞAYAN İNSAN

Vətən məhəbbətim heç vaxt sönməyəcək,
mən onunla yaşayıb, onunla da öləcəyəm.
N. OQARYOV.

Bəlkə, bu tale onların alın yazısıdır. Bəlkə də, bu nəslin genindədir bu xüsusiyyət. Babaları Məmmədiyyə müəllim də həmişə vətən, millət, torpaq deyib həsrətlə yanıqlı söhbət edərdi. Yadımdadır, Məmmədiyyə müəllim atam Mustafa kişi ilə dostluq edərdi. Atam adi bir sənətkar - papaqçı, Məmmədiyə müəllim isə Şəkinin üzdə olan ziyalısı idi. Onlar saatlarla oturub söhbət edərdilər. Mən balaca uşaq idim, bir küncdə oturub onların söhbətlərinə hərdən qulaq asardım. Onda mən heç nə anlamırdım. İndi mənə aydın olur ki, repressiya dövründə onlar öz dərdlərini, yalnız yaxın dostla bölüşə bilərdilər...

Məmmədiyyə müəllimin oğlanları kimi, nəvələri də başqa yolla gedə bilməzdilər. Axı ot kökü üstündə bitər, deyiblər. Nə qədər ki, həyat var, Məmmədiyyə müəllim irsi davam edəcək. Bu həqiqi ziyalılıq, vətənpərvərlik, paklıq, düzgünlük, ədalətlik, insanpərvərlik, saflıq... irsidir.

Bu müqəddəs irsin davamçılarından biri də Məmmədiyyə müəllimin nəvəsi, novator alim Əbdürrəhim Hacızadənin oğlu Hikmətdir.

Hacızadə Hikmət Əbdürrəhim oğlu 1954-cü ildə anadan olmuşdur. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirmiş, 1983-cü ildə Moskvada dissertasiya müdafiə edib fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. O, sonradan Azərbaycan EA-nın Fizika İnstitutunda baş elmi işçi vəzifəsində işləmişdir.

Hikmət Hacızadə Azərbaycan Xalq Cəbhəsinin (AXC) yaradıcılarından biridir. O, 1988-ci ildə başlanan xalq azadlıq hərəkatının ön sıralarında addımlamış, AXC İdarə Heyətinin üzvü olmuş, "Svoboda" ("Azadlıq" - rus dilində) qəzetinin redaktoru vəzifəsində işləmişdir. Azərbaycanda xalq hərəkatı qalib gəldikdən sonra H.Hacızadə Baş nazirin müavini, sonra Azərbaycanın Rusiyada səlahiyyətli səfiri işləmişdir. O, 1993-cü ildən Müsavat Partiyası və onun Divanının üzvü, Demokratiya və İnsan Haqları ilə məşğul olan İqtisadi və Siyasi Araşdırmalar Mərkəzinin (FAR SENTRE) vitse-prezidentidir.

İstedadlı alim "Demokratiya haqqında 150000 işarə" (1995), "İnsan haqları - bəşəriyyətin əsas ideyası" (1997), "Demokratiya: Gediləsi uzun bir yol" (Demokratiya Antologiyası) kitablarının müəllifidir.

Fikrimi dahi yazıçımız M.İbrahimovun sözləri ilə yekunlaşdırmaq istərdim: "Zatı, südü təmiz, alnıaçıq, namuslu və mərd adam, xalqını, vətənini, elini sevməlidir".

HƏYATIN HƏR ÜZÜNÜ GÖRMÜŞƏM...

Mübahisəsiz elm, bazarsız ticarət,
siyasətsiz dövlət mümkün deyil.
SƏDİ.



Şirməmməd Hüseynov.

1950-ci ildən siyasətlə məşğul olan Şirməmməd Hüseynovu təkcə paytaxtımızda - M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetində deyil, respublikamızın hər yerində yaxşı tanıyırlar. Bəlkə də həyat, keçirdiyi daşlı-kəsəkli yollar, şahidi olduğu tarixi haqsızlıqlar, ictimai ədalətsizliklər onu mübariz bir jurnalist kimi məşhurlaşdırmışdır.

"Həyatın hər üzünü görmüşəm. Dağdan odun da gətirib satmışam, 10 kilometrlərlə məsafə qət edib zəmilərdən sünbül də yığmışam. İlk dəfə təzə ayaqqabını isə 25 yaşımda geymişəm. 1930-cu il Şəki üsyanının şahidiyəm. Onda uşaq idim. Lakin evimizin qabağındakı dağda adamların necə güllələnməsini gözlərimlə görmüşəm. Digər tərəfdən, mən vəzifəlilərin və onların uşaqlarının firavan həyatını uzun illər müşahidə etmişəm. Ədalət hissi, həqiqət hissi insanın qanına ictimai ədalətsizliklərlə daxil olur. Kim ictimai ədalət uğrunda mübarizə aparmırsa, deməli, yel dəyirmanları ilə mübarizə aparır.

Yer üzündəki bütün təbii fırtınalar günəş enerjisinin qeyri-bərabər bölünməsi nəticəsində baş verir. Planetimizdə ictimai böhranlar, maddi nemətlərin qeyri-bərabər, insafsızcasına bölünməsi ictimai-siyasi, milli ədalətsizlik zəminində meydana gəlir və buradan də ictimai inqilablar, sarsıntılar, böhranlar yaranır. Bu həqiqəti dərk etmək lazımdır.

Ailədə, orta məktəbdə, ali məktəbdə adamın tərbiyəçisinin şəxsiyyəti əsasdır, bundan çox şey asılıdır. Məsələn, mən nəfsimə hakim olmağı anamdan öyrənmişəm, düzlüyü, həqiqəti sevməyi, yalan danışmamağı, vətənə və elə məhəbbəti inqilabdan əvvəl təhsil almış müəllim-ziyalılarımızdan əxz eləmişəm. Ali məktəbdə də bu sahədə bəxtim gətirib. Məmməd Arif, Abdulla Qarayev, Məmmədhüseyn Təhmasib, Məmməd Cəfər, Zümrüd Axundova müəllimlərim olub. Bütövlükdə mən bu fikirdəyəm ki, böyük vətənpərvər, alim və müəllim Firudun bəy Köçərli vaxtilə yaxşı demişdir ki, bir milləti məhv etmək üçün ikicə şərt kifayətdir: belə ki, əgər müəllimi savadsız olsa, onu ruhən məhv edər, həkimi kəmsavad olsa, cismən" - bu sözləri hörmətli professor "Azərbaycan" qəzetində (1990) Elman Gədikli ilə müsahibəsində demişdir.

Professor Ş.Hüseynov 1924-cü il dekabrın 17-də Şəki şəhərində anadan olmuşdur. 1940-1942-ci illərdə Şəki Müəllimlər İnstitutunu bitirmişdir. Bir müddət Zaqatala və Şəki məktəblərində fizika-riyaziyyatdan dərs demişdir. 1944-cü ildə, həmçinin "Şəki fəhləsi" qəzetində ədəbi işçi olmuşdur. 1945-1950-ci illərdə Bakı Dövlət Universitetinin jurnalistika şöbəsində oxumuşdur. Bu, həmin şöbənin ilk buraxılışı idi. O, Nizami təqaüdü alan 4 tələbədən biri olub. Hələ tələbə ikən universitet çoxtirajlı qəzetinin yaranmasında fəal iştirak edib. Ali təhsildən sonra qısa müddət "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri vəzifəsində işləyib. Sonra - 1950-1954-cü illərdə Moskva Dövlət Universitetinin aspiranturasında oxumuşdur. Çox maraqlı faktdır ki, keçmiş SSRİ-də jurnalistika ixtisası üzrə ilk namizədlik dissertasiyasını Şirməmməd Hüseynov müdafiə etmişdir. Ondan sonra isə elə həmin şurada indi məşhur yazıçı olan Vasili Roslyakovun müdafiəsi olmuşdur. 1954-cü ildən etibarən BDU-nun jurnalistika fakültəsində müəllim, baş müəllim, dosent, professor, dekan müavini, dekan, kafedra müdiri işləmişdir.

Şirməmməd müəllimin tədqiqat obyekti Azərbaycan mətbuat tarixinin 1832-1920-ci illərini əhatə edir. O, onlarca sanballı kitabın, dərs və tədris vəsaitinin, elmi məqalənin müəllifidir. Hazırda M.Ə.Rəsulzadənin əsərlərinin 12 cildlik akademik nəş-

ri üzərində iş aparır. Həmin nəşrin ilk 3 cildi artıq nəşriyyata təhvil verilmişdir.

Şirməmməd müəllim ilk dəfə "Qızıl qələm" mükafatı laureatıdır. 1988-ci ildə "Respublikanın əməkdar jurnalisti" fəxri adını almış, 1991-ci ildə isə ilk dəfə təsis olunmuş "Zərdabi" mükafatına layiq görülmüşdür. O, 30 ildən çoxdur ki, respublika radiosunda və televiziyasında nüfuzlu və mötəbər bir siyasi icmalçı kimi çıxış edir. Şirməmməd müəllim güclü məntiqi olan məharətli natiqdir.

Fikrimi Şirməmməd müəllimin öz sözləri ilə yekunlaşdırmaq istərdim: "Xalqın mənəvi sağlamlığı, maddi rifahı, hər şeydən əvvəl, ziyalılardan asılıdır. Mənəvi sağlamlığın dərmanı və təminatçısı isə həqiqətdir, sosial ədalətdir, daimi tərəqqiyə, ümumbəşəri qayəyə əsaslanan məqsəddir və idealdır. Həqiqət və ədalətin bərabər olması ictimai və siyasi sistemin xarakteri ilə müəyyənləşir. Yalana, zora və qorxuya, inamsızlıq və imansızlığa, əlçatmaz xəyala əsaslanan rejimi müdafiə edənlərə, ona haqq qazandıranlara necə ziyalı demək olar? Axı, ziyalılığın əsas meyarı savad və diplomdan artıq vicdandır, ictimai vicdan, milli vicdandır. Ağa qara, qaraya ağ deməklə ziyalılıq bir yerə sığışan deyil. Xalqın, geniş kütlənin ziyalılarından gileyinin, narazılığının kökü də, məncə, bundadır. Bizim hər birimiz bunu dərk etməli, bu xəstəlik və bəladan mümkün qədər tez yaxamızı qurtarmağa çalışmalıyıq. Özü də indiki dövrdə - yenidənqurmanın özünün yaratdığı yeni durğunluq dövründə, başqa sözlə desək, yağışdan çıxıb yağmura düşdüyümüz dövrdə..."

ƏMƏYİ İLƏ UCALIR İNSAN

El arasında bir adama qiymət verəndə deyərlər ki, qeyrətlidir, xalqını sevəndir, böyük-kiçik tanıyandır, zəhmətkeşdir. Babalarımız haqlı deyiblər: "İş insanın cövhəridir". Tarix boyu insanı ucaldan, şöhrətləndirən onun əməyi olmuşdur. İnsan şüurunun formalaşmasında, ümumiyyətlə, cəmiyyətin inkişafında əmək prosesi ilkin amildir.

Bu bölməmizdə Şəkinin belə əmək qəhrəmanlarından - istehsalat qabaqcılları, ziyalılar, dövlət və mədəniyyət xadimlərindən söhbət açacağıq.

YUNİS MƏMMƏDOV



Yunus Məmmədov.

Şəkidə tanınmış rəhbər işçilərdən biri Yunis Mirzəmməd oğlu Məmmədov olmuşdur. O, 1900-cü ildə Şəkinin Qışlaq kəndində doğulmuşdur. Həmin kənd indi şəhərlə birləşdirilmişdir. Atası arabaçı olmuş, 1914-cü ildə vəfat etmişdir. Gənc Yunis 1914-1920-ci illərdə ipək fabrikində fəhlələk etmiş, 1920-1921-ci illərdə Hacı Abdulla Hacı Rəsul oğluna muzdur olmuşdur. Yunis ordu sıralarında qulluq etmiş (1921-1923) və üç il hərbi-siyasi məktəbdə oxumuşdur (1923-1925). Məktəbi müvəffəqiyyətlə qurtardıqdan sonra 1925-1930-cu illərdə Azərbaycan milli diviziyasının siyasi şöbəsinin təlimatçısı işləmişdir.

Bacarıqlı siyasi işçi 1932-1936-cı illərdə Leninqrad Hərbi Akademiyasında oxumuş və oranı bitirdikdən sonra 77-ci Azərbaycan Milli Diviziyası 229-cu polkunda hərbi komissar olmuşdur (1936-1937). Sonra müxtəlif rəhbər vəzifələrdə işləyən Y.Məmmədov 1941-1943-cü illərdə müharibədə iştirak etmişdir. Müharibədən sonra müxtəlif vəzifələrdə çalışan Yunis

Sosialist Əməyi Qəhrəmanları haqda bioqrafik oçerklər tarixi faktlar kimi kitaba daxil edilmişdir – **red.**

Məmmədov Şəki rayonunun tütünçülük sahəsində əldə etdiyi göstəricilərə görə 1949-cu ildə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüşdür. O, bir çox orden və medalla təltif edilmiş, 1963-cü ildən fərdi təqaüdçü olmuşdur.

Görkəmli təşkilatçı, tanınmış rəhbər işçi Y.M.Məmmədov 1987-ci ildə Şəkidə vəfat etmişdir.

HÜSEYN ƏBDÜRRƏHİMOV

Hüseyn Əbdürrəhimov.

Əbdürrəhimov Hüseyn Yəhya oğlu 1912-ci ildə Şəkidə anadan olmuşdur. O, 1934-cü ildən Şəkidə aqronom, 1947-1952-ci illərdə kənd təsərrüfat şöbəsinin müdiri işləmişdir. H.Əbdürrəhimov 1948-ci ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 1949-cu ildən Sosialist Əməyi Qəhrəmanıdır. O, işdə olduqca tələbkar idi, hamı onu sevir, ağsaqqal kimi hörmətini saxlayırdı. Hüseynin sadə həyat tərzi hər bir namuslu adam üçün nümunə idi. O, 1953-1957-ci illərdə Şəki Rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri işləmişdir. H.Y.Əbdürrəhimov 1966-cı ildə Şəkidə vəfat etmişdir.

SOLTAN ƏZİZOV

Soltan Əzizov

Əzizov Soltan Hümmət oğlu 1920-ci ildə Şəki şəhərində anadan olmuşdur. Şəhərin Qışlaq hissəsində məskunlaşmış Cəlallar nəslindəndir. Yeddiillik təhsildən sonra Şəki Kənd Təsərrüfatı Texnikumunu bitirib rayonun Böyük Dəhnə kəndində aqronom işləmişdir. 1939-1946-cı illərdə ordu sıralarında qulluq etmişdir. İkinci Dünya müharibəsinin iştirakçısı olmuşdur.

Ordudan tərxis edildikdən sonra Şəki şəhər Partiya Komitəsində şöbə müdiri və ikinci katib vəzifələrində işləmiş, sonralar Azərbaycan KP MK aparatında rəhbər və məsul vəzifələrdə, Ağdam və Sabirabad Rayon Partiya Komitəsində birinci katib, Dövlət Meyvəçilik və Tərəvəzçilik Komitəsi sədrinin müavini, Sovxozlar naziri vəzifələrində işləmişdir.

NƏSİB HƏSƏNOV

Nəsib Həsənov.

Həsənov Nəsib Məhəmmədhəsən oğlu 1912-ci ildə Şəkidə anadan olmuşdur. Orta təhsilini Şəkidə almış, 1929-cu ildə S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş, 1933-cü ildə bitirmişdir. O, 1933-36-cı illərdə Nuxa MTS-ində sahə aqronomu, 1936-1938-ci illərdə Qax rayonunda aqronom işləmişdir. 1938-ci ildə Şəkiyə qayıtmış, 1943-cü ilə kimi baş aqronom olmuşdur. 1945-1947-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində baş aqronom işləmişdir. Yenidən Şəkiyə qayıdaraq 1947-1951-ci illərdə rayon kənd təsərrüfatı şöbəsində baş aqronom olmuşdur. O, tütünçülük sahəsində yüksək əmək göstəriciləri qazanmışdır. 1949-cu ildən Sosialist Əməyi Qəhrəmanıdır. Sonrakı illərdə kolxozda aqronom (1951-1954), Şəki Kənd Təsərrüfatı Texnikumunda dərs hissə müdiri (1965-1975), 1975-ci ildən istehsalat təlimi üzrə direktor müavini vəzifəsində çalışmışdır.

N.Həsənov 1979-cu il yanvarın 1-də Şəkidə vəfat etmişdir.

"MARAL, AY MARAL..."

Maral Zakir qızı Sadıqova 1917-ci ildə Şəki mahalının Aşağı Şabalıd kəndində anadan olmuşdur. İbtidai məktəbi qurtar-

Maral Sadıqova.

dıqdan sonra - 1935-ci ildə ailəsi ilə Şəki rayonunun Qaradağlı kəndinə köçmüşdür. O, 11 yaşından kolxozda tütünçü işləmişdir. Öz sənətinin mahir ustası olan M.Sadıqova 1939-cu ildən manqabaşçısı olmuşdur. O, 1948-ci ildə üç hektar sahənin hər hektarından 33,9 sentner "Trabzon" növlü tütün götürmüşdür. 1949-cu ildə Sosialist Əməyi Qəhrəmanı olmuşdur. Maral Sadıqovanın başçılıq etdiyi manqa 1962-ci ildə illik planı 265,5 faiz yerinə yetirmişdir. Şəkidə əmək qəhrəmanlarının "ağsaqqalı" hesab edilən Maral Sadıqova bir çox orden və medallarla, keçmiş ümumittifaq Kənd Təsərrüfatı Nailiyyətləri Sərgisinin Qızıl medalı ilə təltif edilmişdir. Dəfələrlə deputat seçilmişdir.

İstəkli xalq şairimiz B.Vahabzadə bu yorulmaz insan haqda "Maral" şerini yazmış, unudulmaz bəstəkarımız Ələkbər Tağıyev isə ona gözəl musiqi bəstələmişdir.

1967-ci ildən ittifaq əhəmiyyətli fərdi pensiyaçı olmuşdur.

SÜRƏYYA ƏLİYEVA

Sürəyya Əliyeva.

Əliyeva Sürəyya Haşım qızı 1926-cı ildə Şəki rayonunun Qaradağlı kəndində anadan olmuşdur. O, 1940-cı ildən kolxozda işləməyə başlamış, təhsilini davam etdirə bilməmişdir. Onun çalışdığı "Azərbaycan" kolxozu taxılçılıq, baramaçılıq, heyvandarlıq və tütünçülüklə məşğul olurdu. Sürəyya Əliyeva tütünçü idi. 1943-1950-ci illərdə manqabaşçısı işləyən S.Əliyeva həmişə qabaqcıllar sırasında olmuşdur. 3,1 hektar sahənin hər hektarından 34,3 sentner "Trabzon" növlü tütün götürdüyü üçün o, 1950-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Deputat olmuşdur. Bir çox orden, nişan, "Analıq şərəfi" və "Rəşadətli əməyə görə" medalları ilə təltif olunmuşdur.

HÜSEYN LƏTİFOV

Hüseyn Lətifov.

Lətifov Hüseyn Məhəmməd oğlu 1927-ci ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuş, 1941-1974-cü illərdə Balakən rayonunun Nizami adına kolxozunda manqabaşçısı, MTS-də briqadir, məişət xidməti kombinatında işləmiş, kolxozda briqadir olmuşdur. Tütünçülük sahəsində yüksək əmək göstəricilərinə görə 1949-cu ildə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüş, ordenlərlə təltif edilmişdir.

HÜMMƏT MƏMMƏDOV

Hümmət Məmmədov

Məmmədov Hümmət Musa oğlu 1928-ci ildə Şəki rayonu Çay Qaraqoyunlu kəndində anadan olmuş, əmək fəaliyyətinə 1942-ci ildə kolxozda başlamışdır.

1950-ci ildən Bakıda metro tikintisində yeraltı qazmaçı, 1952-ci ildən isə briqadir işləmişdir. Sosialist Əməyi Qəhrəmanı H.Məmmədov 1973-cü ildə səhhəti ilə əlaqədar təqaüdə çıxmışdır.

SƏFURƏ ƏBDÜRRƏHMANOVA

Səfurə Əbdürrəhmanova.

Əbdürrəhmanova Səfurə Dadaş qızı 1929-cu ildə Şəki rayonunun Orta Zəyzid kəndində doğulmuşdur. Doqquz yaşında atadan yetim qalan Səfurə 1941-ci ildə (12 yaşında) kolxozda işləməyə məcbur olmuşdur. 1942-1956-cı illərdə Lenin adına kolxozda manqabaşçısı işləmişdir. O, 1949-cu ildə 3 hektar sahənin hər hektarından 28,6 sentner "Trabzon" növlü tütün götürərək yüksək əmək göstəricisinə nail olmuşdur. 1950-ci ildə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüşdür.

NÜYVƏR QULİYEVA

Nüyvər Quliyeva.

Quliyeva Nüyvər Xəlil qızı 1929-cu ildə Şəki rayonunun Bideyiz kəndində anadan olmuşdur. Dördüncü sinfi qurtardıqdan sonra kolxozda işləməyə başlayıb. "Karl Marks" adına kolxozda 1947-1955-ci illərdə tütünçülük manqalarından birinə başçılıq etmişdir. 1949-cu ildə 3 hektar sahənin hər hektarından 24,3 sentner "Samsun" növlü əla tütün götürərək yüksək əmək göstəricilərinə nail olmuşdur. 1950-ci ildə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüşdür. Dəfələrlə rayon və kənd sovetlərinə deputat seçilmişdir.

QƏRİBƏ İBRAHİMXƏLİLOVA

Qəribə İbrahimxəlilova.

İbrahimxəlilova Qəribə Süleyman qızı 1929-cu ildə Şəki rayonunun Orta Zəyzid kəndində anadan olmuşdur. Qəribə 1947-ci ildə yeddiillik məktəbi bitirdikdən sonra "Lenin" adına kolxozda işləməyə başlamış və həmin il də manqabaşçısı seçilmişdir. Düz bir il sonra (1948) "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir. 1949-cu ildə öhdəsində olan 4,5 hektar sahənin hər hektarından 26,9 sentner əla növ tütün yığmışdır. Məhz bu nailiyyətlərinə görə 1950-ci ildə ona Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilmişdir.

SODƏR İSMAYILOVA

Sodər İsmayılova.

İsmayılova Sodər Mabud qızı 1930-cu ildə Şəki rayonunun Baş Zəyzid kəndində anadan olmuşdur. O, yeddiillik məktəbi qurtardıqdan sonra "Şəfəq" adına kolxozda işləməyə başlamışdır. 1946-1953-cü illərdə manqabaşçısı olmuşdur. 3 hektar sahənin hər hektarından 25,1 sentner "Trabzon" növlü tütün götürmüş və 1949-cu ildə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüşdür. Dörd qız, iki oğul anası Sodər İsmayılova birinci dərəcəli "Analıq şərəfi" medalı ilə təltif edilmişdir.

SOVQAT MƏMMƏDOVA

Sovqat Məmmədova.

Məmmədova Sovqat Baba qızı 1930-cu ildə Şəki rayonunun Orta Zəyzid kəndində anadan olmuşdur. Sovqat hələ orta məktəbdə oxuyarkən kolxozda işləməyə başlamış, sonra "Lenin" adına kolxozda manqabaşçısı olmuşdur. S.Məmmədova 1949-cu ildə 3 hektar sahənin hər hektarından 20,1 sentner "Samsun" növlü tütün götürdüyünə görə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüşdür (1950).

ZÜLQƏDƏ QASIMOVA



Zülqədə Qasımova

Qasımova Zülqədə Allahverdi qızı 1932-ci ildə Şəki rayonunun Bərəzət kəndində anadan olmuşdur. Onun atası təcrübəli tütün aqronomu, anası isə manqabaşçısı idi. Zülqədə 12 yaşından (1944) "Şəfəq" kolxozundu işləməyə başlamışdır. 1948-1955-ci illərdə manqabaşçısı olmuşdur. Z.Qasımova 3 hektar sahənin hər hektarından 25,5 sentner tütün yığmışdır. Əldə etdiyi nailiyyətlərə görə ona 1949-cu ildə Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilmişdir. O, həm də Qəhrəman anadır. 1976-cı ildən fərdi təqaüdçüdür.

NADİR PEŞƏ USTALARI

"Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan".
Nizami GƏNCƏVİ.

Söhbətimizə jurnalist Tahir Məmmədovun qeydləri ilə başlamaq yerinə düşərdi: "Sənət məbədi qədim Şəkini "Açıq səma altında maddi-mədəniyyət muzeyi", "qaynar sənət həyatına malik möhtəşəm diyar" adlandıranlar yanılmayıblar. Burada intişar tapıb cilalanmış xalq sənəti nümunələrini saymaqla qurtaran deyil: gümüşbənd, silahsazlıq, sərraclıq, şalbafluq...

1848-ci ilə aid bir sənəddən öyrənirik ki, o zaman Şəkidə 235 papaqçı, 178 dabbaq, 147 başmaqçı, 154 dərzi, 41 gümüşbənd, 82 şəridçi varmış. Ümumiyyətlə, həmin dövrdə Şəki sənətkarlarının sayı 1735 nəfərə çatıbmış. XIX əsrdə Şəkidə 80-ə yaxın təkəlduzçuluq emalatxanası fəaliyyət göstərmişdir. ("Azərbaycan qadını" jurnalı, № 3, 1990).

Aqillər demişlər ki, sənətin pisi yoxdur, sənətkarın pisi var. Nadir peşənin kamil sənətkarı olmaq - bu xoşbəxtlikdir. Bu oçerkimizdə belə nadir peşə sahibləri haqqında məlumat verəcəyik.

MÖHTƏRƏM AĞAHÜSEYNZADƏ

Möhtərəm Ağahüseynzadə.

Möhtərəm xanım Şərqdə nadir peşə sayılan təkəlduzçudur. Xoşbəxtliyi də orasındadır ki, bu çətin peşənin mahir ustasıdır. Bu, heç də təsadüfi deyildir. Məlumdur ki, Şərqdə bu gözəl sənətin beşiyi qədim Təbriz və Şəki sayılır. Vaxtilə Şəkidə Sadıq Hacı Vahab oğlu, Məmmədağa Musa oğlu, Kərbəlayı

Cabbar Bəxtiyar oğlu və onların davamçısı Rzaqulu Tağızadə məşhur təkəlduzçu kimi şöhrət qazanmışlar.

Tarixi sənədlərdən görünür ki, təkəlduzçuluqla ancaq kişilər məşğul olmuşlar. Bu ənənəni ilkin Möhtərəm xanım "pozmuşdur". O, atası Rzaqulu kişinin sənətini davam etdirmiş və şöhrətlənmişdir.

Ağahüseynzadə Möhtərəm Rzaqulu qızı 1933-cü ildə Şəkidə doğulmuşdur. O, 1948-ci ildə 7-ci sinfi bitirdikdən sonra Şəki Pedaqoji Texnikumuna daxil olmuşdur. Hələ orta məktəbdə oxuyarkən atasından təkəlduzçuluğu öyrənməyə başlamışdır. 1953-1956-cı illərdə Azərbaycan Xarici Dillər İnstitutunun ingilis dili fakültəsində təhsil almışdır. Lakin həmin peşəyə dərin məhəbbəti onu Şəki pionerlər evində əl işlərindən, ələlxüsus təkəlduzçuluqdan da dərs deməyə gətirib çıxarmışdır. Yuxusuz gecələrin, tükənməz əməyinin bəhrəsidir ki, Möhtərəm xanım 1975-ci ildə Bakıda "Əməyə eşq olsun" devizi altında keçirilən sərginin diplomuna layiq görülüb. Yaratdığı sənət əsərləri Almaniyada, Həbəşistanda, İordaniyada sərgilərdə tamaşaçıların rəğbətini qazanıb. 1986-cı ildə Moskvada keçirilən satış-sərgidə ingilislər onun əsərlərindən birini almışlar. "Ürkək maral", "Ovda", "Bülbül nəğməsi" və s. onun ən gözəl əl işlərindən sayılır. Möhtərəm xanımın nümunələri ölkəmizin bir sıra etnoqrafiya muzeylərində nümayiş etdirilir. 1973-cü ildən Rəssamlar İttifaqının üzvü olan M.Ağahüseynzadə 1988-ci ildə "Azərbaycanın əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. Haqqında "Qədim ev sənətini yaşadanlar" silsiləsindən sənədli televiziya filmi çəkilmişdir.

Ailə ənənəsinə sadiq qalan Möhtərəm xanım bu qədim el sənətini qızı Səxavət Qədirbəyovaya da öyrətmişdir.

ƏŞRƏF RƏSULOV



Əşrəf Rəsulov.

Əşrəf Rəsulov 1928-ci ildə Şəki şəhərində anadan olmuşdur. Şəbəkə sənətinin sirlərini atasından öyrənmişdir. O, 1952-ci ildən bu sənət növü üzrə müstəqil fəaliyyət göstərmişdir.

1958-ci ildən 1989-cu ilə qədər Respublika Mədəniyyət Nazirliyinin xüsusi elmi bərpa istehsalat idarəsində instruktor işləmişdir.

1973-cü ildən Rəssamlar İttifaqının üzvü olan Ə.Rəsulov "Şərq xalqları muzeyi"nin, "Bakı" restoranının, Rostovdakı "Azərbaycan" mağazasının, Dərbənddəki "Narınqala"nın, Şəkidəki "Şəkixanovların evi"nin, "Xan sarayı"nın bədii tərtibatında yaxından iştirak etmişdir. Böyük sənətkarlıqla işlədiyi müxtəlif şəbəkə nümunələri dəfələrlə Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində müvəffəqiyyətlə nümayiş etdirilmiş, fəxri fərman və diplomlara layiq görülmüşdür. 1987-ci ildə 2-ci Ümumittifaq xalq yaradıcılığı festivalının laureatı medalı ilə təltif edilmişdir. Ustanın hazırladığı şəbəkə nümunələri Moskvadakı "Şərq xalqları muzeyi", Leninqrad Etnoqrafiya muzeyi, Azərbaycan tarixi muzeyi və Şəki Dövlət rəsm qalereyasının daimi eksponatları sırasındadır.

Mahir ustanın sənətkarlığına dair Azərbaycan və dünya xalqlarının bir çox dillərində nəşr məhsulları buraxılmış, haqqında sənədli filmlər çəkilmişdir. Ə.Rəsulov bu qədim xalq sənətinin sirlərini yeniyetmə və gənclərə həvəslə öyrədir. O, on ildən artıq Şəkidəki gənc texniklər stansiyasındakı şəbəkə dərnəyinə rəhbərlik etmişdir. Ustanın yeniyetmələrindən Soltan İsmayılov, Tofiq Rəsulov, Hüseyn Hacımustafazadə, Kamal Kərimov, İlham Qafarov, Rəşid Kərimov, Sərdar Qafarov və başqaları bu sahədə artıq uğurlu addımlar atmışlar.

Ə.Rəsulov 1965-ci ildən Şəkidəki "Yuxarı baş" muzey-qoruğunda bərpaçı usta işləyirdi.

1986-cı ildə İordaniyanın paytaxtı Əmməndə, 1988-ci ildə Efiopiyanın paytaxtı Əddis-Əbəbədə "Azərbaycan dekorativ-tətbiqi sənətkarlığı" sərgisində əsərləri nümayiş etdirilmişdir.

Nadir sənət ustası Əşrəf Rəsulova 1989-cu ildə respublikanın əməkdar rəssamı fəxri adı verilmişdir.

TOFİQ RƏSULOV

O, 1961-ci ildə Şəki şəhərində anadan olmuşdur. Tofiq məşhur şəbəkə ustası Əşrəf Rəsulovun oğludur.

O, 1984-cü ildən Rəssamlar İttifaqının üzvüdür. Şəbəkə peşəsi ilə 1978-ci ildən məşğul olmuş, Şəkixanovların ev-muzeyinin bərpasında və Rəşid bəy Əfəndiyev adına tarix-diyarşünaslıq muzeyinin tərtibatında yaxından iştirak etmişdir. Onun hazırladığı ayrı-ayrı sənətkarlıq nümunələri Moskvada sərgidə nümayiş etdirilmişdir. Azərbaycan Dövlət Xalça Muzeyinin eksponatları sırasında bu gənc şəbəkə ustasının da işləri vardır.

ŞÖYÜB MƏMMƏDOV

Şöyüb Məmmədov.

O, 1929-cu ildə Şəki şəhərində doğulmuşdur. Dulusçuluqla 1955-ci ildən məşğul olur.

1973-cü ildən Şöyüb Məmmədov Rəssamlar İttifaqının üzvüdür.

Onun hazırladığı dulus nümunələri ölkəmizin bir sıra şəhərlərinin etnoqrafiya muzeylərində eksponat kimi nümayiş etdirilir. O, 1970-ci ildə Bakıda təşkil edilmiş sərginin birinci dərəcəli diplomu ilə təltif olunmuşdur.

Bu el sənətkarı haqqında müxtəlif dillərdə kitablar, kitabçalar, illüstrativ bukletlər nəşr edilmiş, respublika televiziyası "Qədim el sənətini yaşadanlar" silsiləsindən sənədli film çəkmişdir.

Dulusçuluq Məmmədovlar ailəsinin ənənəvi sənətidir. O, dulusçuluğun sirlərini oğluna öyrətmişdir.

MÜQƏDDƏS İŞİN NADİR SƏNƏTKARLARI

Quruda, dənizdə kim çəksə zəhmət,
Balıqdan dürr alar, öküzdən sərvət.
Nizami GƏNCƏVİ.

Tanınmış mətbəx ustası Əhməd-Cabir Əhmədov "Azərbaycan kulinariyası" (Bakı, "İşıq", 1990) kitabında yazır: "Azərbaycan Şərqin zəngin tarixə malik ən qədim ölkələrindən biridir. Onun bugünkü yüksək mədəniyyətinin kökləri uzaq qərinələrdən gəlir. Zamanın sərt sınaqlarından çıxan bu mədəniyyət ilk insan məskənlərindən biri olan Azıx mağarası, sehirli Gəmiqaya yazıları, Qobustan qayaüstü rəsmləri və s. təkzibedilməz örnəkləri ilə özünü dünyaya təsdiq etdirmişdir...

Azərbaycan milli mətbəxinin tarixi də elə xalqın tarixi qədər qədimdir. Bir çox Azərbaycan xörəklərinin adlarına qədim yazılı mənbələrdə, səyyahların xatirələrində rast gəlmək olur..."

Gözəl, rəngarəng, bir-birindən ləziz milli xörəklərin hazırlanmasında qədim Şəkinin də öz payı, öz xüsusiyyətləri vardır. Şəkinin saymaqla qurtarmayan müxtəlif növ plovları, paxlavası, fətiri (ovma), bamiyəsi, mürəbbələri, şərbətləri, ovşalası bütün dünyada məşhurdur. Hər dövrdə Şəkidə milli xörəklərin hazırlanmasında neçə-neçə tanınmış, məşhurlaşmış aşbazlar yetişmişdir. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Xoruzoğlunun hazırladığı pitini yemək üçün Azərbaycanın müxtəlif guşələrindən Şəkiyə gələrmişlər. Çayın dadını anlayanlar yalnız Məbud Seyranovun çayxanasına gələrdilər. Saqqaloğlunun, Mabud dayının, Muxtar kişinin bişirdikləri çörəyin ətrindən, da-

dından doymaq olmurdu. Məgər bütün bunları sadalamaqla qurtarırmı?...

Şəkinin iki tanınmış kulinarı Azərbaycan mətbəxinin şöhrətini daha yüksəklərə qaldırdı: Əhməd Cabir və Hacı Cabir.

ƏHMƏD-CABİR İSMAYILOĞLU ƏHMƏDOV

Əhməd-Cabir Əhmədov.

1942-ci ildə Şəki şəhərində dəmirçi ailəsində doğulmuşdur. 2 №-li orta məktəbi qurtardıqdan sonra 1958-ci ildə Bakı Ticarət Kulinar Şagirdliyi məktəbinə (indiki 68 №-li texniki peşə məktəbi) girmiş və 1960-cı ildə oranı bitirmiş və 7-ci dərəcəli qənnadı ustası ixtisası almışdır. Şəki yeyinti kombinatında qənnadı ustası işləmişdir.

1964-cü ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuş, 1968-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu Ərzaq malları əmtəəşünaslığı və ticarətinin təşkili ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. İnstitutu qurtardığı il elmi şuranın qərarı ilə istehsalatdan ayrılmaqla "Ərzaq malları əmtəəşünaslığı" ixtisası üzrə aspiranturaya daxil olmuş və 1973-cü ildə "Abşeronda becərilən zəfəranın əmtəəlik xassələrinin öyrənilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1971-ci ilin dekabrından D.Bünyadzadə adına Azərbaycan XTİ-də əvvəlcə assistent, sonrakı illər baş müəllim, dosent, dekan müavini, kafedra müdiri və dekan vəzifələrində işləmişdir. Hal-hazırda Azərbaycan Texnologiya İnstitutunda Ərzaq malları əmtəəşünaslığı kafedrasının müdiridir. 2000-ci ildə ona professor adı verilmişdir.

Ə.Əhmədov 160-dan çox elmi əsərin, o cümlədən 20-dən çox kitab və kitabçanın müəllifidir. "Şəki şirniyyatı" adlı ilk kitabı 1970-ci ildə çap olunmuşdur. Sonrakı illər "Zəfəran"

(1976), "Azərbaycanın yabanı meyvə və giləmeyvələri və onların sənaye əhəmiyyəti" (1978), "Azərbaycan üzümü və onun sənaye əhəmiyyəti" (1982), "Azərbaycanın ətirli ədviyyə bitkiləri və onların sənaye əhəmiyyəti" (1984), "Spirtsiz içkilər" (1987) adlı kitabları nəşr edilmişdir. Ali məktəb tələbələri üçün ərzaq malları əmtəəşünaslığının ayrı-ayrı bölmələri üzrə yazılmış bir çox dərs vəsaitinin müəlliflərindəndir. Bunlardan başqa nəşr olunmuş onlarca metodiki tədris vəsaitlərini tərcümə etmiş və ya onların elmi redaktoru olmuşdur. Azərbaycan, rus və ingilis dillərində nəşr edilmiş "Azərbaycan kulinariyası" (1987) və "200 xörək" (1990) kitablarının dünyanın bir çox ölkələrində Azərbaycan xalqının kulinar mədəniyyətinin nümayiş etdirilməsində böyük əhəmiyyəti olmuşdur. "Dadlı və ləzzətli xörəklərin sirri" adlı kitabı 1992-ci ildə çap edilmişdir.

Əhməd-Cabir tez-tez dövri mətbuatda çıxış edir. "Bilik" cəmiyyəti xətti ilə mühazirələr oxuyur. Mühazirəçilərə kömək məqsədilə bir neçə kitabça hazırlamışdır. Azərbaycan Sovet Ensiklopediyasının V-X cildlərində 72 məqaləsi dərc edilmişdir. Müxtəlif jurnallarda, eləcə də elmi əsərlər külliyyatında çap olunmuş 20-yə qədər əsəri var.

Əhməd-Cabir İsmayıloğlu yorulmaq bilməyən, daim axtarışda olan bir alimdir. O, Azərbaycan kulinariyasında ayrı-ayrı xörəklər qrupu üzrə (məsələn, "Plovlar", "Kabablar", "Dolma" və s.) bir neçə kitabın, "Azərbaycan çörəyi", "Meyvə-tərəvəzlərin ev şəraitində konservləşdirilməsi", "Ev şəraitində şirniyyat məmulatının hazırlanması" adlı kitablar üzərində işləyir. Əsas məramı xalqımızın zəngin kulinar mədəniyyətini hərtərəfli öyrənmək, onları toplamaq və çap etdirib gələcək nəsillərə çatdırmaqdır.

HACI CABİR

Hacı Cabir Xəlifəzadə.

1935-ci ildə Azərbaycanın cənnət guşələrindən olan qədim Şəkidə dünyaya göz açmış Hacı Cabir Müzəffər oğlu Xəlifəzadə tanınmış kulinarlardan biridir. C.Xəlifəzadə 1953-cü ildə Şəki şəhər 10 saylı məktəbi qurtarmış, Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsinə daxil olmuş və 1964-cü ildə təhsilini başa vurmuşdur. Uzun müddət Bakı şəhəri Nəsimi rayonu ictimai iaşə trestinin "Kulinariya" kombinatına başçılıq edən, sənətini ürəkdən sevən, daim öz üzərində işləyən, kulinariya sənətinin nailiyyətlərini, birinci növbədə Azərbaycan mətbəx və məişət mədəniyyətinin zəngin təcrübəsini, ənənə və vərdişlərini diqqətlə öyrənən və araşdıran C.Xəlifəzadə milli Azərbaycan kulinariyasının ən yaxşı və mükəmməl bilicilərindən, tədqiqatçı və təbliğatçılarından biridir. C.Xəlifəzadə 200-dən artıq milli xörəyin texnologiyasını və reseptini hazırlamış, onun xeyli hissəsini müxtəlif metbuat orqanlarında çap etdirmişdir.

C.Xəlifəzadənin uzunmüddətli əməyinin nəticəsi olan "Şəki mətbəxinin sirləri" əsərini xüsusi qeyd etməliyik.

C.Xəlifəzadə ilk mətbəx və məişət mədəniyyətinin sirlərini, dadlı-duzlu, ətirli yeməkləri, təmli içkiləri hazırlamaq qaydaları və vərdişlərini öz doğma ailəsindən, Şəkinin məşhur aşpaz, şirniyyatçı, çayçı və digər sənətkarlarından görüb-götürmüş, öyrənmişdir.

Məlumdur ki, indiki elmi-texniki tərəqqi dövründə hər bir sənət kimi kulinariya da öz milli ənənələrini saxlamaq şərti ilə müasir elmə, müasir texniki, maddi sərvət və imkanlara söykənməlidir. Bunu vaxtında dərk edən cavanlar içərisində Cabir də

vardı. O, əvvəlcə ixtisası üzrə texnikumu qırmızı diplomla bitirmiş, sonra ali iqtisadçı təhsili diplomu almışdır. Cabir Azərbaycanı, onun tarixini, xüsusilə mətbəx və məişət mədəniyyətini ciddi surətdə öyrənməyə başladı. O, mədəniyyətimizin çox az öyrənilmiş bir sahəsində ilk əməli külüng vuranlardan biri oldu. Azərbaycan kulinarlarının müxtəlif yerlərdə keçirilən tədbirlərində "Kulinariya" kombinatı kollektivinin fəal iştirakı və bununla əlaqədar alınmış fəxri fərmanlar və diplomlar çox iş deyir. Respublikada öz sənətinin bilicisi kimi C.Xəlifəzadə təbiidir ki, Azərbaycan mətbəxini xarici ölkələrdə də təmsil etmək işinə cəlb edildi. O, "Azərbaycan dünyası" Beynəlxalq Əlaqələr Mərkəzi İdarə Heyətinə üzv seçildi.

İtaliya və Macarıstan, Belçika və İsveçrə, Norveç və Portuqaliya, Almaniya və Avstriya - dünyanın neçə-neçə ölkəsində Azərbaycan mədəniyyəti və incəsənəti günləri çərçivəsində elm, iqtisadiyyat və mədəniyyət sahəsindəki nailiyyətlərimiz, zəngin irsimiz, gözəl sənət əsərləri və milli musiqimizlə yanaşı, Azərbaycan mətbəxi də öz böyük imkanları ilə hamını heyran etdi. Azərbaycanın bərəkətli süfrəsində neçə-neçə millət və xalqın nümayəndələri əyləşdilər, zəfəranlı plovlara, müxtəlif çeşidli milli xörək, şirniyyat və çərəzlərə, şərbət və ətirli Azərbaycan çayına qonaq oldular, öz heyranlıqlarını bildirdilər. Xarici mətbuat səhifələrində dərc olunmuş saysız-hesabsız yazılar, rəsmi təşəkkür məktubları və rəylər, müraciətlər bunu əyani təsdiq edir.

Almaniyada keçirilən günlər zamanı ölkə ictimaiyyətinin xahişi ilə C.Xəlifəzadənin rəhbərliyi ilə nümayiş etdirilən Azərbaycan mətbəxi Lüdviqfaxen şəhərində əlavə olaraq on gün daha saxlanılmışdı. İsveçrədə keçirilən incəsənət həftəsində Azərbaycan mətbəxi daha böyük uğur qazanmışdı.

Azərbaycan mətbəxi Lüksemburqda da səmimi qarşılanmışdır, görüşdən sonra verilən ziyafətdə Azərbaycan kabablarının, plovlarının, gül şərbətlərinin ətri bütün salonu bürümüşdü. Ziyafətin sonunda alqışlar altında kulinar C.Xəlifəzadəyə Lüksem-

burqun gerbi həkk olunmuş divar nimçəsi hədiyyə verilmişdi. Hədiyyəni tanınmış siyasi xadim - Urbaninin qızı, Dostluq cəmiyyətinin sədri xanım Fişer təqdim etmişdir.

Cabirin həyatında belə yaddaqalan anlar onlarladır. Onların hər biri doğma Azərbaycanımıza əsl şöhrət və hörmət gətirmişdir.

Bu sahədəki böyük xidmətlərinə görə o, neçə-neçə orden, medal və fərmanlara layiq görülmüşdür. C.Xəlifəzadə dünyanın çox ölkəsini gəzmiş, müxtəlif kulinariya məktəbləri, milli mətbəxlərlə tanış olmuşdur. O, Azərbaycan kulinariya mədəniyyətinin ən yaxşı ənənə və təcrübəsini ümumiləşdirmək, yaymaq, inkişaf etdirmək, ictimai iaşənin səviyyəsini dövrün tələbləri səviyyəsinə qaldırmaq həvəsi ilə indi də işləyir, çalışır.

Gənc kulinariya mütəxəssisləri yetişdirmək, zəngin təcrübəni cavanlara öyrətmək onun fəaliyyətində xüsusi yer tutur. O, respublika hami tərbiyəçilər şurasının üzvü, Nəsimi rayon ictimai iaşə trestinin hami tərbiyəçilər şurasının sədridir.

Gənclərin kulinar mütəxəssis kimi yetişməsində olan xidmətlərinə görə 1979-cu ildə "Ən yaxşı hami tərbiyəçi" nişanı ilə təltif edilmişdir.

Dadlı yemək, halal süfrə, bərəkətli çörəyin insanın mənəvi varlığı ilə əlaqəli olduğunu bildiyi, paklığı sevdiyi üçün C.Xəlifəzadə bir qrup azərbaycanlı zəvvarla Səudiyyə Ərəbistanının Məkkə, Mədinə şəhərlərinə Həcc ziyarətinə getmişdir. Beləliklə, bizim eloğlu məişət mədəniyyətinin ustası, istedadlı kulinar C.Xəlifəzadə Hacı tituluna layiq görülmüşdür.

Şəkidə ta qədimdən "halal duz-çörək", "halal süfrə", "Allah adamı" kimi çoxmənalı kəlamlar işlədilir. Cabir əgər Hacı Cabir olursa, bu əvvəlki ada adicə bir əlavə deyil.

Zəngin, bərəkətli, dünya şöhrətli Azərbaycan süfrəsinin qayğısına qalanların xidməti Allaha da xoş olar, bəndəyə də. Hacı Cabir belə deyir, halal olsun!

USTA ƏLİ

Bir elm öyrənmək istədikdə sən,
Çalış ki, hər şeyi kamil biləsən.
Nizami GƏNCƏVİ.

Şəki ta qədimdən sənətkarlar diyarı sayılır. Şəki sənətkarlarının şöhrətinin əks-sədası çox-çox uzaqlardan gəlmişdir. Elm və texnikanın inkişaf etdiyi bir dövrdə, XX əsrin sonlarında usta kimi şöhrət qazanmaq hər kişiyə nəsib olmur. Belə xoşbəxt sənətkarlardan biri çəkməçi Usta Əlidir. Tanınmış usta, eyni zamanda gözəl ədəbiyyatçıdır. Məhz bu xüsusiyyəti onu məşhur şair və yazıçıların, ziyalıların, daha doğrusu, xalqın sevimlisinə çevirmişdir. Usta Əlinin gözəl xüsusiyyətlərindən onu tanıyanlar çox danışa bilərlər. "Şəki fəhləsi" qəzetində (6 yanvar 1990-cı il) usta Əli haqda Ə.Azər və Q.Arifin "Qızıl barmaqların nağılı" adlı məqaləsi verilmişdi. Məncə, usta Əli haqda ən gözəl, səmimi fikirlər bu məqalədə öz əksini tapmışdır. Ona görə də həmyerli sənətkarımız haqda olan bu yazını olduğu kimi vermək qərarına gəldim. Məqalənin müəllifinə oxucular adından və öz adımdan dərin minnətdarlığımı bildirirəm.

"QIZIL BARMAQLARIN NAĞILI"

Xalq şairimiz Bəxtiyar Vahabzadə çəkməçi Əlinin gözəl mənəvi dünyasına, peşə ustalığına yaxından bələd olduğu üçün ona şeir həsr etmiş, çəkməçi Əliyə xitabən belə demişdir:

Nəcabət saçılır söz-söhbətindən,
Eşqi xeyirxahlıq,
Qəsdi məhəbbət,
Çəkməçi Əlinin tanrısı Vətən,
Dostu sənətkarlar,
Mehrabı sənət.

Çəkməçi Əli bu peşəni həmyerlisi, məşhur usta Şıxməm-

məd kişidən öyrənmişdir. Şıxməmməd kişi Əliyə təkcə peşə öyrətmirdi. Əlinin bəxti onda gətirmişdi ki, usta xalqını ürəkdən sevən gözüaçıq, sənət adamlarına rəğbət bəsləyən, adət və ənənələrimizi təbliğ edən nəcib, ülfət sevən, xoşqılıq bir insan idi. Əli özü deyir ki, ustamdan müəllim kimi həyat dərsi aldım.

Əli Əhmədov otuz səkkiz ildir ki, çəkməçi peşəsi ilə ailəsini dolandırır, bacarıqlı usta kimi tanınmışdır. Çoxlu dost, tanış qazanıb. Cavanlar Əli kişinin başına pərvanə kimi dolanır, onun şirin ixtilatlarından doymur, öyüd-nəsihətlərini həvəslə dinləyirlər.

İndi Əli Bakını özünə yurd seçib, ailə, ev-eşik sahibi olub. Böyük şəhərdə çəkməçilər çoxdur, lap çox. Amma Əli Əhmədov o sənətkarlardandır ki, onu gözdən qaçırmaq, yaddan çıxarmaq, yaratdıqlarından zövq almamaq mümkün deyil. Bircə dəfə Əli ilə üzləşən, onunla həmsöhbət olan adam - istər ahıl, istər cahıl olsun, Əlini unutmayacaq, onu özünə səmimi dost, ağıllı müsahib hesab edəcək. Yadımızdadır. Əli barədə televiziya verilişindən sonra bütün Bakıya, Şəkiyə səs düşdü. Əlinin dostları sevindi. Əlini görənlər, onunla həmsöhbət olanlar ustanın nikbinliyinə, bacarığına sevinirlər. "Allah sənə qüvvət versin, ay Əli", - deyirlər, - əllini də aşırdın, yenə də sənət eşqin, həvəsin azalmayıb.

Usta Əli belə məqamlarda əlindəki işini yerə qoyacaq, üzgözündən aşkar qürur oxunacaq, ürəkdən gələn bir səslə deyəcək:

- Bu sənət eşqi ki var, bir ilahi eşqdir, Allah vergisidir. Elə bir eşqdir ki, Füzuli demişkən: "Cöhərindən eyləmək cismi cüda asan deyil".

Sonra da iş stolunun gözündən elə bir uzunboğaz çəkmə, ya da məst, çarıq çıxaracaq ki, baxmaqdan doymayacaqsan. Zərifliyini, incəliyini görüb ustanın qabiliyyətinə, istedadına heyran qalacaqsan. Ustanın mərmərdən yonulmuş kimi görünən düyünlü əllərini sıxıb deyəcəksən: Afərin usta, yaratdıqların əsl sənət nümunəsidir. Özü də müxtəlif biçimli bu çəkmələr, məstlər, çarıqlar az qala dünyanın o başında - İtaliyada, Fransada, Türkiyədə, İranda görünür. Rəqqas və rəqqasələrimiz bu ayaqqabıları geyinib dünyanın hər hansı bir yerində səhnəyə çıxanda özlərini elə güclü, qüdrətli hiss edirlər ki, milli rəqslərimizi elə zərifliklə, incəliklə, coşğunluqla oynayırlar ki, tamaşaçı onların geyimlərinə baxarkən ürəklərindən yurdumuzun ustalarına minnətdarlıq hissi də keçirir. Və bu qiymətdən çəkməçi Əliyə də layiqli pay düşür.

Çəkməçi Əlinin iş emalatxanası Bakıda - M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının alt mərtəbəsində yerləşir. Bu emalatxananın pəncərələri şəhərin ən izdihamlı küçələrindən birinə açılır. Yolu bu səmtə düşən şəkililər usta Əlidən hal-əhval tutmağı, onu xoş qılıqla dindirməyi özlərinə borc bilirlər. Cavanların şirin Şəki ləhcəsi, "ağru alım, Əli dayı" deməsi ustanın ruhunu təzələyir.

Ən bacarıqlı çəkməçinin otağında nə olar ki? Kiçik masa, bir az üzdə, bir az altda ya hazır, ya da yarı-yarımçıq ayaqqabılar, qəliblər, mismar, çəkic. Amma çəkməçi Əlinin emalatxanasına düşsəniz çaşıb qalacaqsınız. Divar boyu düzülmüş rəflər kitablarla doludur. Yanına gedənlərdən əvvəlcə hal-əhval tutacaq, sonra da ilk sözü bu olacaq:

- Təzə nə oxumusan? Kitab mağazalarında nə var, nə yox?

Ürəyindən keçirdiyi, sorağını eşitdiyi, arzusunda olduğu kitabın adını bilən kimi bir yerdə qərarı olmayacaq. Səni də özünə yoldaş edəcək, istədiyi kitabı almayınca, gözdən keçirməyincə rahatlanmayacaq. Çəkməçidə kitaba sevginin də öz tarixi var. Usta Əlidə ədəbiyyata, kitaba vurğunluq böyük Nizaminin "Xəmsə"si ilə bağlıdır. Usta deyir ki, Nizami Gəncəvinin qırx il bundan əvvəl yubileyi keçiriləndə dayım mənə böyük şairin "Xəmsə"sini bağışladı. O vaxtdan kitab vurğunuyam.

Kitablarının sayı 2000-dən çoxdur. Onun kitabxanasında Xaqaninin, Nəsiminin, Füzulinin, Sədinin, M.F.Axundovun indi nadir nüsxəyə çevrilən əsərləri var. Əli daha çox klassik irsin vurğunu və təbliğatçısıdır. Bu kitablar çəkməçi Əlinin emalat-

xanasında ustanın yaxın həmdəmi, ən müdrik müsahibləridir. Usta Əli həmyerli söz ustalarının - M.F.Axundovun, Salman Mümtazın, Sabit Rəhmanın, Bəxtiyar Vahabzadənin də əsərlərini sevə-sevə oxuyur.

Tanınmış usta-sənətkar Əli Əhmədov adi çəkməçi deyil, əsl yaradıcı adamdır. Milli geyimlərimizin mahir bilicisidir. Azərbaycan Dövlət Rəqs Ansamblının üzvləri Əlini sevir, onu qiymətləndirirlər. Onun sənətkar axtarışlarının bəhrəsi olan müxtəlif biçimli çəkmələr, məst və başmaqlar gözəl sənət nümunəsi kimi uzaq-uzaq ellərdə də diqqəti cəlb edir. Əlinin tanınmış söz-sənət ustaları arasında hörmət qazanması, maraqlı müsahib, kitab həvəskarı olması da onun yaradıcı təbiətindən irəli gəlir. Əlinin öz demişkən, varı, dövləti gözündə, könlündə gəzdirdiyi Vətəndir, bir də insanlara, sənətə, sənətkara ehtiram duyğusu ilə çırpınan qəlbi. Arzu edirik ki, bu qəlbin, qızıl barmaqların hərarəti heç zaman azalmasın.

SÜLH, ƏMİN-AMANLIQ KEŞİYİNDƏ

Mən gəncəm, bilirəm istiqbalım var,
Hələ bədr olmamış bir hilalım var.
Yelkənim açılır, qara yel, əsmə!
Mənim bu dəryada bir sandalım var.
Mikayıl MÜŞFİQ.

Azərbaycan xalqı hələ ta qədimdən öz döyüş bacarığı, xalq qəhrəmanları, hərbi rəhbərləri, generalları ilə fəxr etmişdir: Cavanşir, Babək, Koroğlu, Qaçaq Nəbi, rus artilleriyasının "allahı" Ə.Şıxlinski, əfsanəvi generallar S.Mehmandarov, H.Aslanov və b.

Bəlkə qəhrəmanlıq bu xalqın qanındadır? Gözəl təbii şəraitdə yaşayan azərbaycanlıların cəngavər böyüməsinin səbəbi görəsən nədədir? Nədəndir, təbiətcə mülayim, hər şeyə dözümlü xalqın qadınları da igidlikdə heç də ərənlərdən geri qalmırlar: Mehrican xanım, Tuti Bikə, Rüstəmə, Zeynəb, Həcər... Onları saymaqla qurtaran deyil.

1941-ci ildə müharibə başlayanda hamı kimi, Azərbaycanın oğlan və qızları da birinci gündən silaha sarıldılar. Rəşadətli övladlarımız 77, 223, 402 və 416-cı diviziyaların tərkibində Qafqazdan Berlinə qədər şərəfli bir döyüş yolu keçdilər. Bu mərd döyüşçülərin içərisində neçə-neçə şəkili qəhrəmanlıq göstərdi. Onları xatırlamamaq, haqlarında söz açmamaq olmaz.

"DE-QOLL ƏHMƏDİYYƏ"

1941-1945-ci illər yüz minlərlə ailənin həyatını faciəyə çevirdi. Müharibədən sağ çıxanların bir çoxlarının aqibəti işgəncələr, sürgünlər oldu. Keçmiş əsirlər vətən xainləri kimi şübhə altına alındılar. Amma o zavallılar "Vətən uğrunda!" deyib ölümə getmişdilər, özlərini qumbara ilə tankın altına atmışdılar, atəş nöqtəsini söndürmüşdülər. Hansı müharibədə əsir düşülməyib? Bu, adi haldır. Şüurlu satqınlıq, xəyanət isə başqa şey-

Əhmədiyyə Cəbrayılov.

dir. Haqq gec-tez öz yerini tapacaq. Müharibədən sonra Vətənə qayıdan, min cür əzab-əziyyətdən təhqirdən sonra öz layiqli adını əldə edən igid döyüşçülərdən biri də Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov olmuşdur. Şəkililərin dili ilə desək: de-Qoll Əhmədiyyə.

Bu şərəfli təxəllüsün də öz tarixi var.

Ə.M.Cəbrayılov 1920-ci ildə Şəki rayonunun Oxud kəndində anadan olmuşdur. O, 1941-ci ildə ordu sıralarına çağırılmışdır. 1942-ci ildə aviasiya məktəbini bitirməyə bir ay qalmış, burada düşmənin arxa cəbhəsinə atmaq üçün desant qrupu təşkil edilir. Qrupun üzvləri bir neçə gündən sonra faşistlərlə üzləşməli olurlar. Həmin atışmada ağır yaralanıb huşunu itirən Əhmədiyyə gözünü bir də Lvov əsir düşərgəsində açır. O, Daxau və Elzas-Lotaringiya ölüm düşərgələrində müəyyən müddət saxlanıldıqdan sonra Fransaya göndərilir. Fransada ona, fiziki cəhətdən zəif olduğuna görə, maşınlara zibil doldurmağı tapşırırlar. Türk dilini gözəl bilən yaşlı bir yunan qadınla tanışlıq ona Fransa partizanları ilə qovuşmağa imkan yaradır. Əhmədiyyə partizanlıqda Şarl de-Qoll, Fransa Kommunist Partiyasının baş katibi Moris Torez, Fransa Müqavimət Hərəkatının rəhbəri Jak Düklo ilə şəxsən tanış olur, onların rəhbərliyi altında əfsanəvi igidliklər göstərir.

Hər dəfə tapşırıqdan qayıdan partizanlar Şarl de Qolla, Moris Torezə sadə türk balası Əhmədiyyənin şücaətlərindən danışırlar. Tezliklə onun şöhrəti bütün Fransaya yayılır. Ona müxtəlif ləqəblər verirlər: Şarl de Qoll onu "Quraji" (gözəgörünməz cəngavər), Moris Torez "Xarqo" (cəsur), başqa yoldaşlar "Rus Armed", "Armed Mişel", "Kovaler Mişel" - deyə çağırırdılar. Əhmədiyyə general Şarl de Qollun sevimlisi olmuş, ondan atalıq qayğısı görmüşdür. General ona şəxsi pistolet bağışlamışdır. Ə.Cəbrayılov Fransa Müqavimət hərəkatındakı əfsanəvi igidliklərinə görə Fransanın rəsmi Milli Qəhrəmanı səviyyəsinə

qalxmışdır. Burada bir çox orden və medalları da əlavə etsək, bütün bunlar ona hərbi paradda generallardan irəlidə addımlamaq hüququ verir.

O, 1946-cı ildə müharibədən doğma yurdu Şəkiyə qayıdır. İşgəncələr, təhqirlər, sorğu-suallar... başlayır. Nə yaxşı ki, Şarl de Qoll 1966-cı ildə keçmiş Sovet İttifaqına gəldi və öz keçmiş dostu Əhmədiyyə ilə görüşmək arzusunda olduğunu bildirdi. O gündən Əhmədiyyəyə münasibət dəyişdi. Əhmədiyyə 1970-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirdi. Həmin vaxtdan doğma kəndində - N.Nərimanov adına kolxozda baş aqronom işləməyə başladı.

Əfsanəvi qəhrəman Ə.Cəbrayılov bir çox orden və medallarla təltif edilib. Onun haqqında bir sıra bədii əsərlər yazılmış, sənədli filmlər çəkilmişdir.

FRANSANIN XİLASKARLARINDAN BİRİ



Nuru Abdullayev.

Böyük Vətən müharibəsi dövründə Fransada partizan hərəkatının şöhrət qazanmış iştirakçılarından biri də əfsanəvi qəhrəman Əhmədiyyə Cəbrayılovun həmkəndlisi Nuru Abdullayev olmuşdur. Bu sadə qəlbli insanın mənim xahişimlə özü haqda yazdığı xatirəni olduğu kimi oxuculara çatdırmaq istərdim: "Mən, Abdullayev Nuru Mahmud oğlu 1913-cü ildə Şəkidə yoxsul kəndli ailəsində anadan olmuşam. Oxud kənd orta məktəbində 5 il oxuduqdan sonra fabrik və zavodlarda fəhlələk etmiş, 1938-ci ildə ordu sıralarına çağırılmışam. Kursk vilayətinin Belqorod şəhərində əsgərlik etmişəm. Xidməti borcumu çəkib qurtarmağa iki gün qalmış müharibə başladı. Daha 5 gün keçdikdən sonra məni 5 min nəfər əsgərlə birlikdə 1-ci Belorusiya cəbhəsinə yola saldılar. Belorusiyada, Ukraynada (Jitomir vilayətində, Karpat dağətəyi rayon-

Fransa müqavimət hərəkatının iştirakçısı Nuru Abdullayev.

larında və bir sıra başqa rayonlarda) düşmənə qarşı vuruşmuşam. Mən müharibənin başlanğıcında piyada alayında kiçik serjant kimi döyüşürdüm. 12 nəfər tüfəngli piyada əsgər mənim komandirliyim altında idi. Belorusiya torpaqlarında almanlarla qısamüddətli döyüşlərdən sonra bizi Ukraynanın Ovolovski kəndi yaxınlığındakı böyük şam meşəliyində müdafiəyə çəkilməyə məcbur etdilər. Burada müdafiə xəttini möhkəmləndirməyə başladıq.

Bir neçə gündən sonra bizə xəbər gətirdilər ki, almanlar irəli keçmiş, bizi mühasirəyə almışlar. İrəlicədən bizə tapşırdılar ki, əsir düşəcəyimiz halda hər kəs özünü məhv etmək üçün son gülləsini saxlasın. Başqa sözlə, heç vəchlə düşmənə əsir düşmək olmaz. Siyasi rəhbərlər deyirdilər ki, əsir düşən adamın gözünü çıxarırlar. Mən üç güllə saxlamışdım. Səhərə yaxın almanlar hər tərəfdən uca səslə qışqıra-qışqıra bizə təslim olmağı təklif edib üstümüzə hücum çəkdilər. Mən güllələri tüfəngin mağazasına doldurub onların yaxınlaşmasını gözləyirdim. Birdən yekəpər bir alman zabitinin mənə doğru gəldiyini gördüm. Dərhal nişan aldım. Mənə çatmağa təxminən 10 metr qalanda tətiyi çəkdim. Alman zabiti yerə sərildi. Demə, gizləndiyim yerdə məni görüb nişan almışdılar. Mən yaralandım və xəndəyin içərisində qana boyanmış halda sərilib qaldım. Huşumu itirmişdim. Haçandan-haçana gözlərimi açanda düşmən əlində olduğumu dərk etdim.

Almanlar bütün yaralılar kimi, məni də yaxınlıqda olan dəmir yolu stansiyasına gətirdilər və bizi uzadılmış şəkildə saman üzərinə yığdılar.

Buradan bizi Belorusiya əsir düşərgəsinə apardılar. Əsir düşərgəsində vəziyyətimiz həddindən çox ağır idi. Bizi döyür, söyür, işlədir, hər cür alçaldırdılar. Müəyyən müddətdən sonra

Almaniyaya gətirdilər. Burada bizdən dəmir yolunda yüklü eşalonları boşaltmaq üçün istifadə etməyə başladılar. İki ay burada işlətdilər. Sonra xəbər yayıldı ki, əsirləri Fransaya göndərirlər.

Buradan 950 nəfər əsiri yük vaqonlarına doldurub 7 gün yol getdikdən sonra Fransaya gətirdilər. Hər vaqona 200 nəfərədək adam doldurulduğundan oturmağa imkan yox idi. Ancaq ayaq üstə dayanırdıq. Ona görə də 2 gün yol getdikdən sonra vaqonlardakı əsirlər qırılmağa başladı. Ölən yoldaşlarımızı qatarın vaqonlarından bayıra atırdılar. 3 gündən sonra ölənlərin yeri boşaldığı üçün oturmaq imkanı yarandı. Yolda bizə hər on iki nəfərə cəmi 700 qram çörək, 200 qram krupa, bir qaşıq pavidla verirdilər.

Bizi Fransanın Rodez şəhərinə gətirdilər. Vaqonların qapılarını açıb düşməyi əmr etdilər. Lakin heç kəsin düşməyə amanı qalmamışdı. Vaqonlara taxtalar söykədilər ki, onun üstü ilə düşək. Yerə endikdən sonra bizi dəmir yolunun kənarına apardılar. Bir-iki saatdan sonra çay və sıyıq verdilər. Sonra sıraya düzdülər. Olduğumuz yerdə kiçik tribunaya oxşar yer vardı. 7 nəfər rütbəli alman zabiti bizə yaxınlaşdı. İndi də yadımdadır. Bunlar Rodez şəhərinin komendantı qəddar general Hopman Lippi, hakim Haffetfebel Qray, unter-zabit Quqliştadt, onların tərcüməçisi Dolmeçe Qullit, adam güllələyən unter-zabit Buday, daha iki nəfər sıravi alman əsgəri idi.

Burada komendant tribunaya çıxıb danışmağa başladı. O dedi ki, bizim çörəyimizi kim yemək istəyir, kim bizə xidmət etmək istəyir, sırada qalsın, istəməyənlər kənara çıxsın.

Biz 6 nəfər azərbaycanlı kənara çəkildik. Bu zaman general qalanları aparmağı əmr etdi. Bizim isə hər birimizə 6 şallaq vurmağı, 6 gün isə şəhərin mərkəzi küçəsində elektrik dirəklərinə sarıtmağı əmr etdi.

Hərəmizə bir alman əsgəri təhkim olunmuşdu. Qaş qaralanda bizi şəhərə apardılar və hərəmizi bir dirəyə sarıdılar. Hər birimizin sinəsindən onlara xidmət etmədiyimiz üçün 6 gün cəza aldığımız haqda yazı olan taxta asdılar. Yerli fransızlar buradan

keçərkən almanlara nifrətlərini bildirirdilər. Gecəyarı idi. Biz ancaq qabağımızı görürdük. Ayaq səsləri eşitdim. 2 nəfər mənim bərabərimə çatanda dayandı. Azərbaycan dilində məndən "Abdullayev Nuru sənsənmi?" - deyə soruşdular. Qorxduğumdan cavab vermədim. Təkrar dedilər ki, qorxmayım. Mən başımı tərpədib "mənəm" dedim. Dərhal həmin adamlar məni dirəkdən açdılar, biri irəlidə, o biri arxada məni apardılar. Onlarda silah yox idi. Məni mehmanxanaya gətirdilər. Nömrələrdən birinin qapısı ağzında saxlayıb qapını döydülər. İçəridən səs gələndə, məni gətirənlər: "Gətirmişik" - deyə bildirdilər.

"Gəlsin!" - cavabı səsləndi. Mən içəri keçdim, onlar isə bayırda qaldılar. Gördüm ki, mənimlə əsirlik düşərgəsində olan Hakim Mirzəxanovdur. Biz qucaqlaşıb öpüşdük. Mənə dedi ki, sənə tapşırmışdım ki, özbaşına iş görməyəsən. Səni güllələyə bilərlər. İndi təzədən aparıb səni öz yerinə sarıyacaqlar.

Mən ac olduğumu bildirdim. Dərhal məni yedizdirdilər. O biri 5 nəfər üçün də çörək götürüb, məni gətirən adamlarla birlikdə dirəklər olan yerə qayıtdıq. Çörəyi əsir yoldaşlarıma yedirtdikdən sonra məni öz yerimə, yəni altıncı dirəyə sarıyıb çıxıb getdilər.

Səhər açılanda həmin adamlar gəldilər. Onlarla birlikdə Hakim Mirzəxanov da var idi. O, gizli təşkilatın başçısı idi. Mirzəxanov general Hopman Lippinə dedi ki, bunları açıb verin mənə, özüm cəzalarını verəcəyəm. General dedi ki, "bitte, bitte" (buyur, buyur). Onlar hamısı çıxıb gedəndən bir saat sonra gəlib bizi açıb apardılar.

Hakim Mirzəxanov məni mətbəxə işləməyə göndərdi. Mən burada 10-15 gün işlədim, sonra isə Mirzəxanov mənə tapşırıq verdi ki, haçan nə etmək lazım olduğunu bildirsəm, yerinə yetirərsən. Biz 22 nəfərdən ibarət gizli təşkilatın üzvü olduq. Bu vaxtadək bir-birimizi tanımırdıq. İçərimizdə satqın ola bilərdi. Bir neçə gündən sonra partizanlarla əlaqə saxlamağa başladıq. Bizə Hakim Mirzəxanov rəhbərlik edirdi. O, müharibəyədək müxtəlif vəzifələrdə işləmiş, ordenlə təltif olunmuşdu. Ordu sı-

ralarında mayor rütbəsində idi. Döyüşlərdən birində ağır yaralanmış, almanlara əsir düşmüşdü. Düşmənlər onu həmin rütbə ilə özləri üçün işləməyə təklif etmişdilər. O, almanların etibarını qazana bilmişdi. Həqiqətdə isə Vətən üçün canından belə keçməyə hazır olan bu adam almanlarla mübarizə məqsədilə gizli təşkilat yaratmış və əsirlər içərisində siyasi təbliğat təşkil etmişdi.

Fransada partizan hərəkatı gücləndikdən sonra partizanlarla əlaqəni gücləndirib, əsirlikdən qaçıracağı adamları partizan dəstələrinə qoşmaq fikrində idi. Bu işlər 1943-cü ilin sonu, 1944-cü ilin əvvəllərində baş verirdi.

Hakim Mirzəxanov həmin 22 nəfəri ayrı-ayrılıqda yığıb hamının səhər bir yerə yığışacağını, almanlar yatandan sonra gecə saat bir tamamda Rodez şəhərində olan almanların hansını kimin öldürəcəyini müəyyən etdi. Rodezdə 90 nəfər alman əsgəri və zabiti var idi. Partizanlar bizə silah verməli idilər. Həmin axşam bizimlə yeyib-içən 22 nəfər tapşırıqdan sonra hər kəs öz yatdığı yerə çıxıb getdi. Mən isə qabaqcadan tanış olduğum Tanuel adlı fransızın bacısıgilin evinə yollandım. Bir gecə orada qaldım, səhər tezdən durdum. Flora hər gün tezdən gedib, almanların nə işlər gördüklərini öyrənib, dörd qardaşına xəbər verirdi.

Mən əl-üzümü yuyanda artıq Flora qayıdıb anası ilə nə barədəsə söhbət edirdi. Mən şübhələndim və fransızca soruşdum ki, "Kös ke parle vu?" (Siz nə haqda danışırsınız?)

O, mənə dedi ki, "Se fornzən, yəni heç nə". Sonra mən alman dilində soruşdum ki, "Qa siste no iste", yəni "təzə nə xəbər var?". O, dedi ki, bu gecə harada olmusunuz?

Soruşdum ki, nə olub axı? O dedi ki, 22 nəfərin içərisindən 2 nəfər sizi satıb. Sən demə, biz Mirzəxanovun yanından çıxandan sonra 2 nəfər "yoldaşımız" Rodezin komendantı general Hopman Lippinə xəbər vermişdi ki, sabah saat 1 tamamda sizi qırıb partizan dəstələrinə qoşulmağı planlaşdırmışıq. Generalın qapısında bir nəfər polkovnik və onun köməkçisi Aşurka ləqəb-

li itlə dayanırdılar. Həmin iki nəfər Atayev və Rəhimov familiyalı adamlar idi. General birdən hadisələrin həmin gecə ola biləcəyini nəzərə alıb dərhal həyəcan siqnalı vermiş və şəhəri mühasirəyə aldırmışdı. Gecə 6 nəfəri dərhal tutub mühakimə edib güllələtdirmiş, 12 nəfəri isə dustaq etmişdi ki, sabah axşam onları da qəbiristanlıqda güllələtdirməli idilər.

Mən isə Flora və Tanuelin köməyilə 30 nəfər qabaqcadan tanış olduğum əsirlərdən (üç-üç, beş-beş) işlətmək bəhanəsilə gətirib, silahlandırıb gecəykən qaçıb Fransa partizanlarına qoşuldum.

Rodezdən 28 km aralı Arevru adlı kəndə gəldik. Bizi partizan bölməsinin komandiri podpolkovnik Rişadte, mayor Bruje, bir də adyutant-şef Vişeble bir yerə yığıb yemək-içməkdən sonra partizan forması geyindirdilər. Bizdə olan silahları alıb, amerikan silahları verdilər.

Burada 70 nəfər partizan var idi. Bizimlə 100 nəfər olduq. Bunların içərisində hər millətdən var idi: fransız, həbəş, ərəb, polyak, ispan, italyan, rus, azərbaycanlı və s. Məqsədimiz bir idi, - almanları Fransadan yox etmək.

Fransanın bir neçə şəhər və kəndinin alınması uğrunda vuruşmuşuq: Marsel, Rodez, Tuluza, Karpinax, Naptinax, Qaseqin, Bic, Montavan və s. Bu vuruşmalarda qaçırdığım 30 nəfərdən 17 nəfəri həlak oldu. 13 nəfər qaldıq. Başqa millətlərdən də çoxu qırılmışdı. Müharibə tam qurtardı. Mayın 9-nu Marsel şəhərində qarşılayıb bayram etdik. Bundan bir neçə ay sonra general Şarl de-Qoll mənə təklif etdi ki, orada qalım. Sizin üçün hər bir şərait yaradacağıq, dedi. Mən ona dedim ki, nəinki Fransanı, Amerikanı da mənə versələr, qala bilmərəm. Doğma Vətəndə ana-bacılarımın üzündən öpməyi dünya malına dəyişə bilmərəm.

Fransanın ən yüksək 2 orden və 2 medalı ilə məni təltif etdilər. Pul mükafatı və kostyum verdilər. Fransa Kommunist Partiyasının 1-ci katibi Moris Torez və 2-ci katibi Jak Düklo müharibə zamanı partizanlarla gizli iş aparır, müqavimət hərəkatına

rəhbərlik edirdilər. Biz isə 1947-ci ildə doğma Vətənə qayıtdıq. Bizi gül-çiçəklə yola saldılar.

Vətəndə isə əsgərliyə getmiş dörd qardaşdan bircə özümün qayıtdığımı bildim. Gördüm ki, dörd əsgər anası dilənir. "Yaman günün ömrü gödək olar" deyiblər. Hər şey, çox çətinliklə yoluna düşdü. Mən gələndən indiyəcən öz kəndimizdə - N.Nərimanov adına kolxozda işləyirəm. Yaxşı işimə görə 5 orden, 12 medal və bir çox nişanlarla təltif olunmuşam.

Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin dəfələrlə iştirakçısı olmuş, onun 1 qızıl və 4 gümüş medalı ilə təltif edilmişəm. Əməkdar gülçüyəm.

QƏLƏBƏ PARADININ İŞTİRAKÇISI

Süleyman Eldarov.

Tarix qırxıncı illərin gənclərini çox çətin sınaqlardan keçirdi. Həyatın nə olduğunu yenicə başa düşən zaman əyinlərinə əsgər paltarı, əllərinə silah götürüb döyüşə gedən gənclərimiz ölümlə üz-üzə gəldilər. Onlardan çoxunun arzuları ürəklərində qaldı, qayıdanların içərisində ad-san qazanmış qəhrəmanlar da az deyildi. Belə şöhrətli igidlərdən biri də Süleyman Ələsgər oğlu Eldarov idi.

S.Ə.Eldarov 9 may 1922-ci ildə Şəkidə anadan olmuş, orta təhsilini orada almışdır. 1942-ci il yanvarın 9-da ordu sıralarına çağırılmış, Moskva-Tula cəbhəsində, birinci və dördüncü Ukrayna cəbhələrində vuruşmuş, döyüş yolunu Çexoslovakiyada bitirmişdir. İlk döyüş sınağından Moskva altında çıxmışdır.

Süleymanın xatirələrindən: "...1943-cü ilin yayında faşist işğalçıları Oryol-Kursk ətrafına güclü qoşun toplamışdılar. Onlar Moskva və Stalinqrad ətrafındakı döyüşlərdə verdikləri itkilərin əvəzini çıxmaq, Sovet dövləti ilə birdəfəlik hesablaşmaq istə-

yirdilər. Lakin qoşunlarımız onları "layiqincə" qarşıladılar. 1943-cü ildə Oryol-Kursk ətrafındakı döyüş xidmətlərinə görə 3-cü dərəcəli "Şöhrət ordeni" və "İgidliyə görə" medalı ilə təltif olunmuşdum."

1944-cü ildə Kiyev-Jitomir magistral şose yolunu kəsib, düşməni mühasirəyə almaqda fərqləndiyinə görə S.Ə.Eldarov 2-ci dərəcəli "Şöhrət ordeni" ilə təltif edildi. Ona 1-ci dərəcəli "Şöhrət ordeni" 1945-ci ildə Moravska Ostrova şəhərindəki döyüşlərə görə verildi.

Göstərdiyi qəhrəmanlıqlara görə "Şöhrət ordeni"nin hər üç dərəcəsi ilə təltif edilmiş S.Ə.Eldarov 24 iyun 1945-ci ildə Moskvada Qızıl meydanda keçirilən ilk qələbə rəsmi paradının iştirakçısı olmuşdur. O, 1945-ci ildə ordudan buraxılmış, Şəkidə zərgər işləmişdir.

GENERAL HƏMİDOV

Bilsin ana torpaq, eşitsin Vətən,
Müsəlləh əsgərəm mən də bu gündən.
S. VURĞUN.

General-mayor Məmmədşərif Həmidov.

Məmmədşərif Həbibulla oğlu Həmidov 1917-ci ildə Şəki şəhərində anadan olmuşdur. İbtidai məktəbi qurtardıqdan sonra - 1929-cu ildən (12 yaşından) Şəkidə ipək fabrikində şagird işləmişdir. 1932-ci ildə texniki-peşə məktəbini qurtaran Məmmədşərif Şəki toxuculuq kombinatında usta vəzifəsində işləyir. Axşamlar ipəkçilik texnikumunda təhsilini davam etdirir. Təhsilini başa vurduqdan sonra müxtəlif vəzifələrdə çalışan M.Həmidov 1940-cı ildə ordu sıralarına çağırılır. Müharibədə vzvod komandirinin müavini, batalyon qərargahının rəisi, diviziya qərargah əməliyyatı bölmə rəisinin köməkçisi olmuşdur. 1945-ci ildə Ali Hərbi Məktəbi bitirən M.H.Həmidov 1946-1949-cu illərdə Xaçmaz rayon hərbi komissarı işləmişdir. O, 1949-1956-cı illərdə Respublika Hərbi Komissarlığında şöbə müdiri, Bakı şəhər hərbi kommissarı (1956-1960) olmuşdur. Hərbi işlə yanaşı, Bakı Dövlət Universitetinin tarix fakültəsində oxumuşdur. 1960-1969-cu illərdə Azərbaycanın hərbi komissarı olmuşdur.

M.H.Həmidov 1962-ci ildə general-mayor rütbəsi almışdır. Mehriban insan, görkəmli hərbi xadim, həssas qəlbli M.H.Həmidov 14 fevral 1969-cu ildə xidməti vəzifəsini yerinə yetirərkən faciəli surətdə həlak olmuşdur. Onun qəzaya uğradığı Qasım-İsmayılov (Goranboy red.) - Gəncə avtomobil yolunun kənarında xatirə abidəsi qoyulmuş, Bakıda və Şəkidə adına məktəb, küçə, gəmi vardır. O, 2-ci dərəcəli Vətən müharibəsi ordeni, iki "Qırmızı ulduz" ordeni və medallarla təltif edilmişdir.

Azərbaycan Respublikası Tibb və Səhiyyə Təşkilinin Tarixi Muzeyinin direktoru, tibb xidməti podpolkovniki, müharibə veteranı, əməkdar həkim Əli Mahmud oğlu Fərzəliyev general M.H.Həmidovla uzun müddət komissarlıqda birgə işləmişdir. Onun general haqda olan təəssüratlarını olduğu kimi vermək maraqlı olardı: "Mən general M.H.Həmidov ilə 1947-ci ildən 1969-cu ilə qədər bir yerdə hərbi xidmətdə olmuşam. Bu dövrdə o mənim rəisim idi. O zaman mən Bakı şəhərinin hərbi komissarlığında 3-cü şöbədə rəis müavini və Azərbaycan Hərbi Komissarlığının 2-ci şöbəsində rəis müavini vəzifəsində işləyirdim. General Həmidovla yaxın iş yoldaşı kimi dostluq etmişik. O, öz millətini sevən və Azərbaycanda hərbi kadrların hazırlanmasında, gənc nəslin vətənpərvərlik tərbiyəsində böyük fəallıq göstərirdi. O, genişqəlbli insan idi. Heç vaxt özünü başqalarından üstün tutmazdı. Həmişə hərbi qulluqçuların dərdinə qalar, çətin vaxtlarda əlindən gələn bütün köməkliyi edərdi. Həmidov eyni zamanda yaxşı ailə başçısı idi. Çətin vəziyyətlərdə özünü olduqca sakit və təmkinli aparırdı. Generalın faciəli ölü-

mü məni çox sarsıtdı. Nə yaxşı ki, o, həyatda öz xalqı qarşısında əlindən gələn hər şeyi etmişdi. Adam bununla təskinlik tapır. Həmidovu tanıyanların hamısı onu həmişə iftixarla xatırlayır və xatırlayacaqdır".

GENERAL-POLKOVNİK TOFİQ AĞAHÜSEYNOV

General-polkovnik Tofiq Ağahüseynov.

Tofiq Yaqub oğlu Ağahüseynov 1923-cü ildə Şəkidə anadan olmuşdur. O, 1941-ci ildə ordu sıralarına çağırılmış, 1942-ci ildə Bakı Artilleriya Məktəbini bitirmiş, Arxangelsk rayonunda Hava Hücumundan Müdafiə (HHM) qoşunlarında xidmət etmişdir. Böyük Vətən müharibəsində 1-ci Belorusiya cəbhəsində alman faşistlərinə qarşı vuruşmuşdur. Gənc zabit cəbhədə vzvod komandiri, əlahiddə zenit artilleriyası divizionu qərargah rəisinin köməkçisi olmuş, Visla-Oder və Berlin əməliyyatlarında iştirak etmişdir. Müharibədən sonra müxtəlif hərbi vəzifələrdə çalışan T.Y.Ağahüseynov 1954-cü ildə F.E.Dzerjinski adına Ali Artilleriya Akademiyasını bitirdikdən sonra HHM hissələrində qulluq etmişdir. O, diviziya, alay və ordu birləşmələrinin komandanı olmuşdur. 1972-ci ildən general-leytenant olan T.Y.Ağahüseynov 1975-ci ildən Bakı Hava Hücumundan Müdafiə Dairəsi komandanının birinci müavini işləmişdir. İstedadlı hərbi xadim sonralar general-polkovnik rütbəsi almışdır.

General-polkovnik T.Y.Ağahüseynov neçə-neçə orden və medallarla təltif edilmişdir. Hazırda istefadadır. Lakin o bu gün Azərbaycan Prezidentinin hərbi işlər üzrə müşaviri kimi öz fəaliyyətini davam etdirir.

GENERAL YUSİFZADƏ

General-leytenant Ziya Yusifzadə

Ziya Məmmədiyyə oğlu Yusifzadə 1929-cu ildə Şəkidə anadan olmuşdur. O, 1952-ci ildə Moris Torez adına Moskva Dövlət Pedaqoji Xarici Dillər İnstitutunu bitirmişdir. Ali savad aldıqdan sonra Bakıya qayıdan Z.M.Yusifzadə 1952-55-ci illərdə Respublika Maarif Nazirliyində və Respublika Nazirlər Sovetində məsul vəzifələrdə çalışmışdır. 1956-cı ildə Respublika Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi orqanlarında işə qəbul edilən Z.M.Yusifzadə 1976-80-ci illərdə Komitə sədrinin birinci müavini, sonra isə sədri (1988-ci ilə qədər) olmuşdur. 1977-ci ildə general-mayor rütbəsi almışdır.

Sonralar general-leytenant rütbəsi alan Ziya Yusifzadə orden və bir çox medallarla təltif edilmişdir.

Hazırda Azərbaycan Dövlət Milli Təhlükəsizlik Akademiyasının rektorudur.

DÜNYADA İZİM QALACAQ

KEÇMİŞ MALİYYƏ NAZİRİ

Xalqımızın unudulmuş, qəribçilikdə vəfat etmiş siyasi-ictimai xadimlərindən biri də şəkili Əbdüləli bəy Əmircanov olmuşdur. Onun haqqında Mövsüm Əliyev tərəfindən "Odlar yurdu" qəzetində (№ 24, dekabr,1989) verilmiş məlumatı olduğu kimi verməyi qərara aldıq: "Dövrünün tanınmış siyasi və ictimai xadimi Əbdüləli bəy Şirəli bəy oğlu Əmircanov 1870-ci ildə Şəkidə anadan olmuşdur. O, 1876-1883-cü illərdə Şəki şəhər məktəbində oxumuş, sonra Tiflisdə Aleksandrovsk Müəllimlər İnstitutuna daxil olmuşdur. Əbdüləli bəy sonralar Azərbaycanın məşhur maarif xadimləri kimi tanınmış S.M.Qənizadə (1866-1942), H.Mahmudbəyov (1864-1928) və S.Əbdürrəhmanbəyovla (1860-1922) birlikdə oxumuş və yaxından dostluq etmişdir.

1888-ci ildə təhsilini başa vuran Əbdüləli bəy Əmircanov Şəki şəhər məktəbinə müəllim təyin olunmuşdur. Məktəbdə Azərbaycanca dərs keçilməsi, rus dilinin öyrədilməsi, tarix, coğrafiya, təbiətşünaslıq və riyaziyyatın tədrisi sahəsində onun xidmətləri böyükdür.

Ə.Əmircanov XIX əsrin axırlarında Lənkərana köçərək müəllim işləmiş, görkəmli maarifçi Teymur bəy Bayraməlibəyovla (1862-1937) birlikdə bir çox mədəni-maarif tədbirlərini həyata keçirmişdir. O, həmin şəhərdə də ailə qurmuşdur.

XX əsrin əvvəllərində Bakıya köçən Əmircanov şəhərin rus-Azərbaycan məktəblərində dərs deməklə yanaşı, dövlət idarələrində və müxtəlif şirkətlərdə mühasib vəzifəsində də işləmişdir. O, Bakıda fəaliyyət göstərən bir sıra mədəni-maarif cəmiyyətlərinin fəal üzvü olmuş, Azərbaycan müəllimlərinin 1-ci (1906) və 2-ci (1907) qurultaylarında yaxından iştirak etmişdir.

1917-ci ildə Rusiyada fevral-burjua inqilabı baş verdi. Ə.Əmircanov siyasi hadisələrə qoşuldu. 1918-ci il martın 18-dən 22-dək Bakıda cəbhədən qayıdan nizami erməni əsgər birlikləri 30 minə yaxın azərbaycanlı qırdı. Onları S.Şaumyanın göstərişi ilə Bakı Sovetinin qoşunu tərkibinə daxil etmişdilər. Şəhərdə bu qırğının qarşısını almağa çalışanlardan biri də Ə.Əmircanov idi. O, martın 27-də yaranmış Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü idi.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Bitərəf Ə.Əmircanov Azərbaycan Respublikası Nazirlər Şurasının sədri Fətəlixan Xoyskinin (1875-1920) təşkil etdiyi II hökumət kabinəsində (17.07.1918) Maliyyə naziri təyin olundu. Onun rəhbərliyi altında Azərbaycan Hökumət Bankı fəaliyyətə başlamışdır.

Bakı 15.10.1918-ci ildə oyuncaq Sentrokaspi diktaturası qüvvələrindən təmizləndikdən sonra Azərbaycan Respublikası hökuməti Gəncədən Bakıya köçmüş və Ə.Əmircanov öz vəzifəsini burada icra etmişdir. Həmin il oktyabrın 6-da hökumət kabinəsində bəzi dəyişikliklərlə əlaqədar Əbdüləli bəy Əmircanov öz vəzifəsindən azad olunmuş, həmin gündən dövlət nəzarətçisi vəzifəsini tutmuşdur.

Ə.Əmircanov 1918-ci il dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinə üzv seçilmişdir. O, parlamentdə bitərəflər qrupuna daxil idi.

1918-ci ilin dekabrında F.Xoyski kabinəsi istefaya çıxdığı üçün Ə.Əmircanovun yaxından iştirakı ilə Bakıda "Dəyanət" şirkəti yaradılmışdır. Həmin dövrdə Bakıda həyata keçirilən bir sıra mədəni-maarif tədbirlərinin təşkilatçılarından biri də Ə.Əmircanov idi.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra Əbdüləli bəy Əmircanov Azərbaycanı tərk edərək İstanbula köçmüş və 1948-ci ildə orada vəfat etmişdir".

SİYASİ VƏ İQTİSADİ SUVERENLİYİN İLK CARÇILARINDAN

"Sənin xeyrinə olmasa da, həqiqəti deməkdən çəkinmə".
Ərəb xalq hikməti.

Mustafabəy Əlibəyov.

Hələ vaxtilə Həsən bəy Zərdabi yazırdı: "Bəs, qardaşlar, bunun səbəbi elmsizlik deyilmi ki, bizim gözəl vətənimizdə çörək olmadığına görə xalq baş götürüb diyarbədiyar gəzib, külfətindən, millətindən, məzhəbindən əl çəkib milçək kimi tələf olur" ("Kommunist" qəzeti, 01.11.1989). Bu faciə indi ləğv olunubmu? Əsla yox! İndi də gənclərimiz kənddən gedir, torpaqla təmasda olan, onu sevənlər durmadan azalır. Nə qədər gənc iş axtarmaq üçün başqa dövlətlərə yayılıb. Əldə olan məlumata görə Azərbaycanda bütün ailələrin 43 faizi aztəminatlıdır. Bütün bu problemləri həll etmək üçün respublikamız siyasi və iqtisadi suverenliyə malik olmalıdır. Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində bu fikirdə, bu əqidədə olan ziyalılarımıza "xalq düşməni" damğası vurulub. Yurdumuzun belə mütərəqqi ziyalılarından biri də Mustafa bəy Əlibəyov olmuşdur.

Şəkinin yaşlı əhalisi arasında Mustafa bəy haqda çox xoş, səmimi təəssüratlar var. Onlardan bəziləri əfsanə xarakteri daşıyır. Şəkinin bu sahədə geniş tədqiqat aparan ziyalılarından Sabir Əfəndiyev və Əbuzər Qasımov "Şəki fəhləsi" qəzetində (11 sentyabr 1990-cı il) çap elədikləri "Geri qayıtmadı" məqaləsində Mustafa bəy və onun həyat yoldaşı Xədicə xanım haqda geniş məlumat vermişlər. Məqaləni cüzi ixtisarla veririk:

"O da bir dövr, bir zaman idi. İndi biz bu dövrü "cəza illəri"

kimi lənətləyirik. O illərdə insan bir göz qırpımında "itirdi". Daha doğrusu, itirirdilər. Nə üçün, nəyə görə? Bunu ancaq "itirənlər" bilirdilər.

Cahil rəhbərlər üçün savadlı, bilikli adamlar onlara qutuda ilan kimi görünürdü. Bələləri onların sığındıqları vəzifələrə göz dikə bilərdilər. Vəzifə xurafatının qurbanları isə Azərbaycanda az olmamışdır. Bu işdə onları bic siyasət işbazları olan erməni hiyləgərləri dəhmərləyir, necə deyərlər, ələkçiyə qıl verirdilər. Beləliklə, Azərbaycanı parçalamaq, zəiflətmək siyasətinə nail olurdular.

Yığıncaqların birində Azərbaycanda neft tapılmaması, onun qıtlığı müzakirə ediləndə ziyalılardan biri belə təklif irəli sürmüşdü:

- Azərbaycan bütün ölkəyə neft verir. Olmazmı ki, öz neftinə sahiblik bu respublikanın öz ixtiyarında olsun. Heç olmasa, öz ehtiyacını özü ödəməyə gücü çatsın.

Bu sözlərinə görə iki nəfər həmin yığıncaqdaca Mustafa bəyi salondan çıxarıb qabağına qatmışdı... Bir daha o, geri qayıtmamışdı.

Mustafa bəy kim idi?

Mustafa bəy Mirzə Cabbar oğlu Əlibəyov 1875-ci ildə Şəki şəhərində anadan olmuşdur. Hüquqşünas idi. Ərəb, fars, rus və fransız dillərini mükəmməl bilirdi, ədib, mühərrir idi.

1892-ci ildə Bakı şəhər məhkəməsində baş müstəntiqin tərcüməçisi işləmiş, 1911-1912-ci illərdə "İşıq" adlı həftəlik qəzetin naşiri, arvadı Xədicə xanım Ələddin qızı Əlibəyova isə redaktoru olmuşdur. Bu qəzet Zaqafqaziyada ilk qadın nəşrlərindən biri idi.

Mustafa bəy haqq işi uğrunda çarpışan mübariz kimi tanınırdı. Ədalətin qələbəsi, insanların hüquqlarının qorunması, şəxsiyyətin maüqəddəsliyi Mustafa bəy üçün ali qanun idi. O, həyata, xalqa, millətə verimini, borcunu bitmiş hesab etmirdi. Eyni zamanda, Azərbaycanın çiçəklənməsi, tərəqqisi və müstəqilliyi üçün əlindən gələni əsirgəmirdi. Cəza dövrünün demokrati-

yası, aşkarlığı isə belə "açıq-saçıqlığı" öz "mədəsində" həzm etmirdi. Bu cür açıq fikirli ziyalılar "xalq düşməni" kimi məhv edilirdilər. Məntiqə bir baxın! Xalq üçün çalışan, çarpışan necə ola bilər ki, xalqın düşməni olsun? Cəza dövrünün mafiyası "özümüzün düşmənləri" ifadəsini "xalqın düşmənləri" sözləri ilə məharətlə pərdələyə bilirdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Mustafanın ad və familində olan "bəy" kəlmələri quruluşa düşmən obrazının rəmzi kimi səslənirdi. Belə adamlar yeni quruluşa canlarını qurban versələr də xeyli yox idi... Bəy, bəy idi! Guya xalqı fəlakətə, nahaq qana düşməsinə, ac-yalavac qalmasına onlar səbəb olmuşdular.

Bu səbəbdən də Mustafa bəyi burunlayırdılar. Bakıdan çıxıb Şəkiyə gəlməyə Mustafa bəyi vadar edən belə bir şərait idi. Onun oturmalı olduğu yüksək hüquqşünaslıq postlarında pərdələnmiş daşnak ünsürləri və qeyri millətlərin Azərbaycan xalqının üzdə "xeyirxahları", dalda isə bədxahları əyləşirdilər. Nə etmək olardı? Yuxarı dairələrdə bizim çox asanlıqla saqqalı ələ verə bilmək "bacarığımıza" bələd idilər.

Amma onlar unudurdular ki, heç kəs xalqından öz xidmətini əsirgəyə bilməz. Mustafa bəy Əlibəyov da Şəki mühitində dar çərçivəyə salınsa da, Azərbaycanın milli mənafeyi uğrundakı mübarizədən kənarda qala bilməzdi. 1936-cı ildə SSRİ Konstitusiyasının, 1937-ci ildə isə Azərbaycan SSR Konstitusiyasının layihələrinin ümumxalq müzakirəsində fəal iştirak etmiş və onlara öz faydalı əlavələrini bildirmişdi. Respublikanın siyasi və iqtisadi suverenliyi barədə Mustafa bəyin təkliflərinə millətçi donu geyindirilmişdi. Mustafa bəyə "bəy soveti bəyənmir" damğası yapışdırılaraq sorğu-sualsız aradan götürülmüşdü.

Təkcə ziyalılığı ilə deyil, həm də öz zəhməti ilə Şəki əhalisinin böyük nüfuzunu qazanan Mustafa bəy cəza dövrünün qurbanlarından biri kimi nahaq güdaza getdi. Xədicə xanımın saysız-hesabsız ərizələrinə, şikayətlərinə hər dəfə bir cümlədən ibarət cavab verilirdi: "Xalq düşməni Mustafabəy Əlibəyov 8 il

həbs cəzasını Daşkənddə çəkir" "Cəzanın" çəkilib qurtarmasına beşcə ay qalmış Mustafabəy gözlərini əbədi yumdu və qərib torpaqda basdırıldı.

İnqilabdan əvvəl Azərbaycanın bitkin ziyalı ailələrindən birinin də faciəsi belə oldu. O ailənin ki, Azərbaycan qadınlarının oyanması, zülm və məzlumluqdan qurtarması yolunda ilk işıq olan "İşıq" qəzetini nəşr etmiş, onun səhifələrində qadınlarımızın qaranlıqdan aydın həyata qədəm qoyması üçün hər cür məsləhət vermişdi. Xədicə xanım o dövrün mütərəqqi Azərbaycan qadınlarından Hənifəxanım Məlikovanı, Rübabəxanım Qasımovanı, Sürəyyaxanım Axundovanı, Saraxanım Vəzirovanı, Səkinəxanım Əmircanovanı, Rəhiləxanım Hacıbabəbəyovanı, Pəri Sultanxanım Xanlarovanı, Aişəxanım Hacıqasımovanı bu qəzetin ətrafına toplaya bilmişdi və onların köməyi ilə əvəzsiz xidmətlər göstərmişdir.

Xədicə xanım Əlibəyova əri ilə təkcə ömür-gün yoldaşı olmayıb, həməqidə idi. Mustafabəy istedadlı mühərrir, publisist kimi öz dövründə şöhrət tapmışdı... Görün Mustafabəyin adı kimlərlə bir sırada idi. Məmmədəmin Rəsulzadə, Maarif naziri Həmidbəy Şaxtaxtlı, Üzeyirbəy Hacıbəyov, Mustafabəy Əlibəyov, Əbdürrəhimbəy Haqverdiyev, Nəcəfbəy Vəzirov, Rza Təhmasib, Salman Mümtaz, Abdulla Şaiq, Cəfər Cabbarlı, Yusif Kənan və başqa mühərrir və şairlər.

Birinci dünya müharibəsində evsiz-eşiksiz qalanlara, sahibsiz uşaqlara, baxımsız qocalara yardım etmək üçün Azərbaycan Qadınlarının Xeyriyyə Cəmiyyətinin fəal üzvlərindən biri olan Mustafabəyin arvadı Xədicə xanım idi. Ümumiyyətlə, Mustafabəyin ailəsi dövrün bütün mütərəqqi proseslərində yaxından iştirak edirdi. Bu, evin böyüyünün şəxsi nümunəsindən irəli gəlirdi.

Mustafabəyin iki qızı və bir oğlu vardı. Böyük qızı Əruziyə iqtisadçı alim kimi uzun illər kafedra müdiri işləmişdir. O biri qızı Əliyyə atasının yolu ilə getmiş, hüquqşünas olmuşdur. Oğlu Ənvər Böyük Vətən müharibəsində alman faşizminə qarşı

vuruşmalarda mərdlik göstərmiş, bütün ömrünü hərbi qulluğa sərf etmişdir. Hazırda təqaüdçüdür.

Mustafabəy Əlibəyov Şəkini, onun təbiətini çox sevirdi. Şəhərin yuxarı hissəsində böyük bir ərazidə bağ salmış, orada 700-dən çox meyvə və bəzək ağacı əkmiş, uzaq məsafədən su gətirmiş, səfalı dağ ətəyində istirahət ocağı yaratmışdı. İndi də hamı bu cənnətməkanı "Mustafabəyin bağı" deyib çağırır.

Həmin bağ 1939-cu ildə Xədicə xanım tərəfindən o zaman Şəkidə fəaliyyət göstərən istirahət evinə təmənnasız bağışlanmışdır. Sonra burada ipəkçi uşaqlarının "Səadət" pioner düşərgəsi yerləşirdi.

Öz xalqının ləyaqətli, qayğıkeş, istedadlı ziyalısı, əsl vətənpərvəri Mustafabəy Əlibəyova əkdiyi ağacların kölgəsində əyləşib nurani bir qoca kimi o yüksəklikdən Şəkini seyr eləmək qismət olmasa da, şəhərimizin qədirbilənləri onu unutmurlar. O, xatirələrdə yaşayır və bundan sonra da yaşayacaqdır".

GÜLARƏ - KÖYLÜQIZI

"Köylüqızı" – Gülarə.

Həyatda qranit kimi möhkəm, dağ suyu kimi büllur, Vətəninə, xalqına sadiq türk qadınlardan biri də Gülarə - Köylüqızı olmuşdur. Gülarə İbrahim qızı Qədirbəyova (Hacıyeva) 1903-cü ildə Şəki rayonunun Baş Göynük kəndində doğulub. Gülarə Qədirbəyova 19 yaşında Şəki Pedaqoji Məktəbi nəzdindəki müəllimlik kursuna qəbul edilmiş, oranı qurtardıqdan sonra doğma kəndi Baş Göynüyə qayıtmış, orada ilk qadın məktəbi təşkil etmişdir. O, 1923-1931-ci illərdə Şəki, Şamxor və Quba qəzalarında qadınlar şöbəsinin təlimatçısı, şöbə müdiri, Bakı Partiya Komitəsində qadın şöbəsinin müdiri, Respublikanın Mərkəzi İcraiyyə Komitəsi nəzdində Qadınlar Komitəsinin sədri, 1930-

cu ildə Tiflisdə Zaqafqaziya Vilayət Komitəsinin Qadınlar bölməsinin müdiri vəzifəsində işləmiş, qadınların ictimai həyata cəlb edilmələri və maarifləndirmələri yolunda əvəzsiz işlər görmüşdür.

Bu mübariz qadın 1931-37-ci illərdə Bakıda Əli Bayramov adına qadınlar klubunun direktoru işləməklə bərabər "Şərq qadını" jurnalına redaktorluq etmiş, öz publisist məqalələrini "Köylü qızı" ("Kəndli qızı") təxəllüsü ilə dərc etdirmişdir. Köylüqızı Azərbaycanda qadınların ictimai-siyasi və mədəni həyatda fəaliyyətlərinə əngəl törədənlərə amansız olmuş, kəskin publisistikası ilə onlarla mübarizə etmiş, heç bir hədə-qorxu onu bu yoldan çəkindirməmişdir. Bəzi məlumatlara görə Gülarə Qədirbəyova 1937-ci ildə vaxtsız vəfat etmişdir (Sabir Gəncəli. "Ömürlərdən səhifələr", Bakı - 1973, səh.55). Şəkidən Sabir Əfəndiyevin məlumatlarından aydın olur ki, Köylü qızı 39 yaşında (1942) vəfat etmişdir.

Gülarə Qədirbəyova – "Köylüqızı".

Köylü qızı haqda tam məlumatı akademik Ziya Bünyadov "Qadınlarımız, qurbanlarımız" adlı məqaləsində ("Ədəbiyyat və incəsənət" qəzeti, 28.09.1990) vermişdir. Hörmətli akademikimizin əldə etdiyi qiymətli məlumatların bəzi hissələrini olduğu kimi veririk: "1938-ci il avqust ayının 8-də Dövlət Təhlükəsizlik İdarəsinin 4-cü şöbəsinin 6-cı bölməsinin rəisi leytenant M.Mustafayev 4-cü şöbənin müdiri, baş leytenant Atakişiyevə belə bir arayış təqdim edir:

"Azərb. SSR XDİK DTİ-si əksinqilabi millətçi təşkilatının üzvləri Qasımov Mirzə Məmməd (Sabirabad RİK-in keçmiş sədri) və Sultanov Həmid (Az.SSR Kommunal Təsərrüfatı Komissarlığının keçmiş rəhbəri) öz ifadələrində göstəriblər ki, Qədirbəyova Gülarə əksinqilabi millətçi təşkilatının üzvüdür...

Qədirbəyova Gülarə haqda mən bunları bilirəm: o, Nuxa

uyezdinin keçmiş kəndxuda ailəsindəndir. Onun qız familiyası Əfəndiyevadır və bu ailə çox varlı idi, Nuxada məşhur idi. Dəstəbazlıq dövründə AZK (b) P MK rəhbərliyinin əleyhinə mübarizədə fəal iştirak edirdi (1930-31-ci illərdə). Məbud Zeynalov və onu partiyaya götürən İbrahim Tağıyevlə sıx əlaqədə idi". (Qasımov Mirzə Məmmədin 1937-ci il 14 sentyabr tarixli ifadəsindən).

"Şərq qadını" jurnalı (1923-1938).

"Bizim əksinqilabi təşkilatın üzvlərindən əlavə bunları tanıyıram... Qədirbəyova Gülarə - Azərb. XKS nəzdində olan İdman Komitəsinin keçmiş sədri və "Şərq qadını" jurnalının baş redaktoru, onu təşkilata Qasımov Mirzə Məmməd cəlb etmişdir". (Sultanov Həmidin 1937-ci il iyulun 31 tarixli ifadəsindən).

...1939-cu il yanvarın 20-də Qədirbəyova Gülarə xanımın işi üzrə istintaqın bitməsi haqda protokol tərtib olunur. Həmin gün Qədirbəyovanın işi üzrə ittihamnamə tərtib olunur: "Qədirbəyova Gülarə xanım İbrahim Xəlil qızı müqəssirdir ona görə ki, o, əksinqilabi millətçi təşkilatın fəal üzvü idi... O, Azərbaycan K(b)P MK rəhbərliyini hörmətdən salmaq üçün millətçi söhbətlərdə iştirak edirdi və əksinqilabi iş aparırdı, yəni Azərb. SSR CM 72 və 73 maddələrilə cinayət məsuliyyəti daşıyır. Qədirbəyova özünü müqəssir bilməyir".

Bu qərara 1939-cu il fevralın 1-də keçmiş Azərbaycan SSR Prokuror müavini Seliverstov və martın 28-də XDİK yanında Xüsusi Müşavirə katibliyinin müvəkkili leytenant Xolidorov, Xüsusi Müşavirə katibliyinin 1-ci şöbə müdiri leytenant Borokov və Xüsusi Müşavirə katibliyinin rəisi kapitan Markeyev razılıq verirlər.

1939-cu il iyunun 9-u tarixli Xüsusi Müşavirənin qərarı (14№-li protokol): "Qədirbəyova Gülarə İbrahim Xəlil qızı an-

tisovet təşkilatında iştirak etdiyinə görə beş il konslagerdə həbs olunur" (həmin Xüsusi Müşavirənin gündəliyini keçmiş Azərbaycan SSR XDİ komissarını əvəz edən baş leytenant Xoren Markaryan tərtib edib).

1950-ci il oktyabrın 4-də Respublika DTK 5-ci şöbə, 3-cü bölməsinin rəisi podpolkovnik Ələkbərov, nazir müavini polkovnik Kərimovun adına belə bir raport yazır: "1942-ci ilin may ayında məhbus Qədirbəyova Gülarə İbrahim Xəlil qızı Sibir lagerlərindən (Marinskdən) yox olub və onun indi harada olduğu yer məlum deyil. Qədirbəyova Gülarə DTK və SSR Prokurorluğunun 66/241 ss nömrəli 1948-ci il oktyabrın 28-i tarixli qərarına görə yenidən həbs olunmalıdır.

Xahiş edirəm, Qədirbəyovanın axtarılmasına sərəncam verəsiniz" (Kərimovun dərkənarı: "Axtarış elan edilsin, həbs müddəti qurtarandan sonra Qədirbəyova yox olub və olduğu yer müəyyən edilməyib, faktiki olaraq Qədirbəyova agentlərin gözlərindən qaçıb. Qədirbəyova axtarılmalı və tapılmalıdı və yeri müəyyən olunandan sonra həbs edilməlidir").

1957-ci ildə sentyabrın 13-də Respublika Prokurorunun müavini İsmayılov Qədirbəyova Gülarə xanımın işi üzrə etirazını bildirir və xahiş edir ki, Qədirbəyova haqqında Xüsusi Müşavirənin qərarı ləğv edilib, işi isə hərəkətlərində cinayət tərkibi olmadığı üçün xətm olunsun.

1957-ci il oktyabrın 30-da Respublika Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası qərara alır: "Azərbaycan SSR Prokurorluğunun etirazı təmin edilsin: SSRİ XDİK Xüsusi Müşavirəsinin Qədirbəyova Gülarə xanım İbrahim Xəlil qızı haqqında olan 1939-cu il 9 iyun tarixli qərarı ləğv edilsin, onun işi isə hərəkətlərində cinayət tərkibi olmadığı üçün xətm olunsun".

Doğma respublikamızın ilk qadın jurnalistlərindən sayılan Köylü qızının adına Şəkidə məktəb, küçə vardır. Məncə, Köylü qızının publisist məqalələri toplusunun çap edilməsi daha çox məqsədəuyğun olardı.

ŞƏKİLİDİRLƏR: ON ÜÇ YAŞLI ŞƏHİD QIZ VƏ İZZƏT BABA

"Məktəbli Larisanın qara lentə tutulmuş partasında səslənir:
- Axı biz neyləmişik?"
Bəxtiyar VAHABZADƏ.

1990-cı il yanvarın 19-dan 20-sinə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş qanlı və cinayətkar faciə haqda çox yazılıb. Sevimli xalq şairimiz Bəxtiyar Vahabzadənin dili ilə desək:

O şənbə gecəsi Vətən başına,
Elə Vətən boyda qara bağladı.
Dözdü böhtana da, dözdü şərə də,
Yedi şəkər kimi hər dərdi xalqım.
Azadlıq yolunda ölümlərə də,
Hazır olduğunu göstərdi xalqım.

"Şəhidlər" poemasından.

Yazılanları oxumaq bir, şahidi olmaq bir başqadır. Bu dəhşətli gecədən bir həftə qabaq xəstəxanada (Bakı, 26 №-li Birləşmiş xəstəxanası, Əzizbəyov rayonu, Mərdəkan qəsəbəsi), demək olar ki, iş bacaran hissə növbədə qalırdı. Yaralıların sayından asılı olmayaraq, onları qəbul edib, təcili yardım göstərmək üçün əvvəldən düşünülüb hazırlıq görülmüşdü. Bunu da bizə irad tutdular. Niyə belə hazır vəziyyətdə olmuşuq? Bu sualı bizə mərkəzdən gələnlər və hətta özümüzünkülər də çox verdilər. Məgər biz bir ziyalı kimi respublikamızda və yanvarın əvvəllərində (1990-cı il) Bakıda baş verən hadisələrə düzgün qiymət verməməli idik? Məgər bu hadisələrdən əvvəl (1989-cu il) Tiflisdə olan faciənin şahidi olmamışdıq?

Həmin gecə Mərdəkan yolunda təcili yardım həkimi Marxevka Aleksandr Vitalyeviçi (1958-ci ildə anadan olmuşdu) güllə ilə öldürdülər. Səhərə qədər ən humanist peşə sahibi olan

Aleksandr Vitalyeviçin meyitini asfalt üstündən götürməyə qoymadılar. Başqasına həyat verməyə gedən həkim özü də öldü. Kim bilir, bəlkə də yaralanan kimi xəstəxanaya gətirilsəydi, ölümündən xilas olardı. Həmin gecə həkim-anesteziologlar dalınca gedən təcili yardım maşınını gülləbarana tutub geri qaytardılar. Həkim Zakir İsmayılzadə ağ xalatda maşından düşüb iki əlini yuxarı qaldırıb, "xilaskar ordu" nümayəndələrinə müraciət edib, maşına yol verilməsini xahiş etdi. Əvəzində üstünə güllə yağdırıldı, eşitmədiyi söyüşlərə məruz qaldı. Yalnız təsadüf nəticəsində sağ qaldı. Xəstəxanamıza köməyə tələsən, cərrahiyyə materialları gətirən 29 №-li birləşmiş şəhər xəstəxanasının (Binə qəsəbəsi) sürücüsü Əşrəfov Rəhman İsmixan oğlu (1955-ci il təvəllüdlü) maşınla tank altında qalıb həlak oldu. Bakı Səhiyyə Baş İdarəsinin həkimi Mirzəyev Elçin Hüseyn oğlu (1961-ci ildə anadan olmuşdur) "azadlıq ordusu" əsgərləri tərəfindən güllə ilə vurulub öldürüldü.

Həmin gecə xalqımda olan mərdliyin, qoçaqlığın, qorxmazlığın şahidi də oldum. Birinci yaralını qəbul edəndən yarım saat sonra Mərkədanda yaşayan tibb işçilərimizin əksəriyyəti ölümdən qorxmayıb köməyə gəlmişdilər. Rayonun Partiya Komitəsinin katibi Billurə İbrahim qızı Ələkbərova həmin gecə yaralılara göstərdiyi köməyə görə elə bil Nigar xanım Şıxlinskayanı xatırladırdı. Bu mərd azərbaycanlı qızı yaralılara sarğı qoyur, qanköçürmədə iştirak edir, hətta bir hadisədə narkoz aparatını müvəqqəti ona tapşırmağa məcbur oldum. Əhsən belə azəri qadınlarımıza.

Həmin gecə təcili təşkil etdiyimiz qangötürmə məntənəsi qarşısında nə qədər adam yığılmışdı. Doğum şöbəsindən zahı qadınlar belə qan vermək üçün inad edirdilər. Bax, budur qəhrəmanlıq...

Bəli, həmin gecə və ondan sonrakı günlərdə istər Bakı və istərsə də respublikamızın başqa rayonlarında ölənlərin tam siyahısı verilməsə də, ancaq onu bilirik iki, müqəddəs yolda həlak

olanlar şəhid oldular, Bakıda onların çoxu Dağüstü parkda dəfn olundular. Bu xiyabana yeni ad verildi: "Şəhidlər xiyabanı".

İctimai dəfn komissiyasının sədri Qüdrət Əbdülsəlimzadənin qeydlərindən: "Şəhidlər xiyabanı"nda 66 yaşlı İxtiyar kişinin və 13 yaşlı məktəblinin, gözləri görməyən kor əlilin və "təcili yardım" həkiminin, 9 uşaq atası və subay cavanların 79 məzarı əbəbi sıralanmışdır. Burada azərbaycanlılarla yanaşı yəhudilər də, ruslar da, tatarlar da, ləzgilər də dəfn olunmuşlar. Bu kədərli və ibrətamiz fakt sübut edir ki, millətimizə qarşı düşünülmüş, habelə amansızlıqla həyata keçirilmiş qəfil hərbi cəza əməliyyatı, uzun illər boyu Odlar Yurdunda yaşayan, işləyən, respublikamızın əhalisi ilə qaynayıb-qarışmış çoxmillətli bir xalqa qarşı çevrilmiş təcavüzkarlıqdır...

Allah Sizə rəhmət eləsin... Məğrur və ölməz ruhunuz şad olsun... Nakam qəbirləriniz nurla dolsun...

Bəli, 79 məzar sırasında, həyatdan nakam gedənlər içərisində, Qüdrətin dediyi kimi, 13 yaşlı bir məktəbli vardır: - Larisa! Gəncə Kənd Təsərrüfatı İnstitutunun tələbəsi Eldar İskəndərzadə on üç yaşlı məktəbli Larisa Məmmədovanın xatirəsinə həsr etmişdir:

QƏHRƏMAN KİŞİ

Dərslərin başlanıb, xəbərin yoxdur,
Sən ki, dərslərindən qalmazdın heç vaxt.
Yanvar gecəsində aldığın dərsi,
Yuxunda yadına salmazdın heç vaxt.

Oturub yerində yoxluğun sənin,
O yerin xətrinə kim dəyə bilər?
Axı müəllimən hardan biləydi,
Bir gün yoxluğuna dərs deyə bilər!

Həyat böyütmədi, ölüm böyütdü,
Ömrün kiçiyisən, dərdin böyüyü...

Körpə ürəyinə güllə sancıldı,
Barmağın görmədi nişan üzüyü.

Onu öz məktəbli çantası ilə dəfn etdilər:
Mənə deyirlər ki, ağlama bəsdi
Necə ağlamayım, millət ağlayır.

13 yaşı təcəzə tamam olmuş, Bakıdakı 134 №-li orta məktəbin 7-ci sinif şagirdi Larisa Məmmədova Şəkinin Qayabaşı kəndindən olan Fərmanın balasıdır. Şəhid balamız Larisa haqda çox yazılıb, mənim onlara əlavələr etməyə cürətim çatmır. Həmyerlimiz, yazıçı Zaman Qarayev Larisanın həyatından bəhs edən "Şəkilidir: Yaralı ata, şəhid qız" adlı bir məqalə yazıb, "İpək-çi" qəzetində (18 mart 1990-cı il) çap etdirib. Unudulmaz şəhidlər içərisində ən balaca balamız Larisa haqda tam məlumat verən bu məqaləni olduğu kimi çap etmək qərarına gəldim, əvvəlcədən Zaman Qarayevə öz səmimi minnətdarlığımı bildirirəm.

Bundan əvvəl Ayatxan Ziyadoğlunun "Göy üzündə daşlaşmış ağılar" (yanvarın 22-sini xatırlarkən...) məqaləsində ("Respublika" qəzeti, 5 yanvar 1991-ci il) çap edilmiş "Şəhidlər xiyabanı"na gedən yolun ünvanını gələcək nəslə çatdırmaq istərdim:

"Şəhidlər xiyabanı"na gedən yolun ünvanı: Bakı, Azadlıq meydanı, Neftçilər prospekti, Azərneft meydanı, Azərbaycan KP Mərkəzi Komitəsinin qabağı, Azərbaycan Nazirlər Sovetinin qabağı, M.Hüseyn küçəsi, Azərbaycan Ali Sovetinin qabağı, Dağüstü park.

Ölüm günü: 20 Yanvar 1990-cı il.

Dəfn günü: 22 Yanvar 1990-cı il.

...Ana, hələ dayan, saçını dağıtma üzünə, hələ başına döyməyə macal edərsən, saçını küləklərə verməyə aman taparsan.

Bacım, hıçqırtını bir az qıs, onsuz da gücün yoxdu daha, iniltidən savayı heç nəyin qalmayıb.

Qardaşım, ürəyini daş elə, bəsdi susub-susub qəfil nalə çəkdiyin. Dağı-daşı ağlatdığın.

Atam, dayan, onu ki, sən dünyaya gətiribsən. Bu qədər göynək olmaz axı. Atalar ağlamaz axı. Atalar ağlayarsa, deməli, dünyanın sonudu. Atalar ağlayanda göylər yerə daş yağdırar, atam. Yer üzünün ən ağır saatıdı ata ağlayışı, atam."

ŞƏKİLİDİR: YARALI ATA, ŞƏHİD QIZ.

Hörmətli redaktor!

Sizə, bütün şəkililərə qanlı Yanvar faciəsi günlərində qurban gedən şəhidlərimizin, yaralılarımızın ailələrinə göstərdiyiniz mənəvi və maddi yardım, qayğı üçün dərin minnətdarlığımı bildirirəm.

Məlum səbəblər üzündən imkan tapıb şəhidlərimizin hamısının ailəsinə baş çəkə bilməmişdim. Günahsız qurban gedənlərdən biri məktəbli qız Larisa Məmmədovadır. Larisa ata yurdu, qədim ipək şəhəri Şəki ilə fəxr edirdi, hər il məktəbdən yay tətilinə buraxılanda Şəkiyə gələr, atasının doğulub, boya-başa çatdığı Qayabaşı kəndindən ayrılmaq istəməzdi... İndi Larisa dünyadan getmişdir. Şəhidlərin axırıncı cümə axşamı başsağlığına Larisagilə getmişdim. Anası Qalina bacı ağır kədər içərisində idi. Atası Fərman hüzrdə iştirak etmirdi, o qanlı gecədə yaralanıb, hələ də xəstəxanadadır.

13 yaşı təzəcə tamam olan Larisa Bakıdakı 134 nömrəli orta məktəbin 7-ci sinfində oxuyur, musiqi təhsili də alır, tikmə-toxuma peşələrini öyrənirdi. İndi ailədəki 5 yaşlı Emilin, bir yaşlı Nərminənin gözləri bacıları Larisanı axtarır.

Martın 2-sində şəhidlərin qırxı idi. Larisanın qohumları, qonşuları ilə birlikdə "Şəhidlər xiyabanı"na getdik. Günahsız qurban gedənlərimizi ziyarət etdik. Buraya gələn insan axınının ardı-arası kəsilmirdi. Yasin oxundu. Şəhidlərin məzarına səpilən qərənfillər də ağlayırdı...

Ziyarətdən qayıdandan sonra Larisanın Qayabaşı kəndində

yaşayan əmisi Əyyub Məmmədovla Semaşko adına xəstəxanaya gedib orada yaralı yatan Fərmanla ilk dəfə görüşdüm. Onu sorğu-suala tutub narahat etməyə ürəyim gəlmədi. Söhbətimiz beş dəqiqədən çox çəkmədi. Öyrəndim ki, Fərman Məmmədov Qayabaşı kənd məktəbini bitirdikdən sonra təhsilini Ukraynanın Donetsk şəhərindəki milis məktəbində davam etdirmiş, həmçinin qiyabi yolla politexnik institutunu da bitirmişdir. Bir neçə il Donetsk, Perm şəhərlərindəki milis məktəblərində idman müəllimi, sahə müvəkkili, həbsxana rəisi vəzifələrində çalışmışdır. Sonra Qalina adlı ukraynalı qızla evlənmiş və ailəsi ilə birlikdə Bakıya köçüb, buradakı 2 nömrəli avtobus parkında işə girib mexaniklik edirdi. Fərman söylədi ki, yanvarın 19-dan 20-nə keçən gecə o, parkdan axırıncı avtobusla evlərinə qayıdırmış. Qızı Larisa da onun yanında idi. Ağlına heç cür qara fikirlər gəlmirdi. Bilirdi ki, Bakı şəhərində nəqliyyat, bir qayda olaraq, gecə saat bir tamamacan işləyir. Nədənsə, dayanacaqlarda minik gözləyənlər çox idi. "Gənclik" metrosunun yaxınlığındakı dayanacaqda adamlar avtobusa doluşaraq, parka gedən maşının sürücüsündən xahiş etdilər ki, onları Şmidt zavodu yaxınlığınacan aparsın. Avtobus adamla doldu, ayaq üstə dayananlar da çox idi.

Avtobus Bədən Tərbiyəsi İnstitutunun yanından ötüb Şmidt adına zavoda sarı irəliləyində sürücünü güllə ilə vurdular. Hər tərəfi silahlı əsgərlər, zirehli transpartyorlar kəsmişdi. Onlar heç bir xəbərdarlıq etmədən avtobusumuzu aramsız atəşə tutdular. Dəhşətə gəldim, heç nə başa düşmədim: dinc, silahsız əhaliyə atəş açan Sovet Ordusunun əsgərləri idi, yoxsa xarici düşmənlərimiz? Ağına-bozuna baxmadan atəş açan soldatların güllələri özlərini də qırırdı. Larisa sinəmə sığınmışdı, atasından imdad gözləyirdi. "Ata" - Bu, qızımın son sözü oldu. Mən Larisanın öldüyünü bilmədim, onu qollarım arasında avtobusdan düşürmək istəyəndə namərd güllələri məni də tutdu, qəzəblə bağırdım: - Soldatlar, siz neyləyirsiniz, kimi qırırsınız?! Biz ki, sizə dəyib-dolaşmırıq! - Lap yaxındakı soldat əlindəki rezin dəyənəyi güclü zərbə ilə başıma endirdi, huşumu itirdim... Dəyənəyin izi hələ də bilinir...

Gözümü açanda xəstəxanada idim. Qızımı xəbər aldım, dedilər ki, "salamat"dır. Eşitdim ki, dəhşətli qırğından 7 saat sonra Bakıda hərbi fövqəladə vəziyyət elan olunub. Bu elan vaxtında bildirilsəydi, mən evimə tez qayıdardım, ölənlərin, yaralananların, itkin düşənlərin sayı az olardı... Mən bu faciədə ilk övladımı itirdim, özüm də hələ sağalmamışam. Həkimlərimizə, tibb işçilərimizə necə minnətdarlıq edəcəyimi bilmirəm. Biz yaralılar operasiya olunarkən qəsdənmi, ya nədənsə, xəstəxananın işıqları söndü. Cərrahlar şam işığında, neft lampası işığında əməliyyatlarını davam etdirdilər.

Fərman Məmmədov ümidini itirməmişdir. O, tezliklə sağalıb evlərinə qayıdacaq.

Mən bizim xeyirxah, qədirbilən, Şəki camaatından təvəqqə edirəm ki, məktubla, teleqramla, xoş sözlərlə həmyerlimiz Fərman Məmmədova, onun ailəsinə təskinlik versin, imkanı olan maddi kömək göstərsin.

Fərman Məmmədovun ünvanı belədir: Bakı-I, Müqtədir küçəsi, 8, mənzil 6. Evinin telefon nömrəsi: 492-89-49.

Səmimi hörmətlə: Zaman Qarayev.

1990-cı ildə xalqımızın müsibətli günlərindən, şəhidlərimizdən bəhs edən bir kitab çap olundu: "Şəhidlər". Azərbaycan xalqı bu kitab üçün onun müəllifi Rafiq Səməndərə minnətdar olmalıdır. Kitabın əsl qiymətini sevimli şairimiz Bəxtiyar Vahabzadə ön sözdə vermişdir: "Bu kitab hər şəhidin ölümünə deyilən ağılardan ibarətdir. Bunlar adi yazılar deyil, bədii sözlə bir qədər əfsanələşdirilmiş, qeyri-adiləşdirilmiş nəğmələrdir. Çünki bu yazıların qəhrəmanları özləri adi olduğu qədər ölümləri qeyri-adi, ağlasığmazdır. Axı, heç kəsin ağlına gələ bilməzdi ki, qəlbi Vətən hissilə çırpınan, əli silahsız, özü günahsız olan bu atalar, analar, balalar özünü dost kimi, qardaş kimi qələmə verən bir ordunun əlində qətlə yetirilsin. Onların günahı nə idi? Vətəni sevmək, onun namusunu çəkmək, hansı qanunda, hansı cinayət məcəlləsində, hansı ölkədə və hansı dövrdə günah sayılmışdır ki, bu günahsız qətli də günah sayaq?"

Müəllif: "Şəhidlər" kitabı əsrlərdən bəri əzilən, küsdürülən

taleyimizin qara oyanışıdır. 1990-cı ilin ömrümüzə yazılan qanlı, tufanlı-leysanlı günləri qəlbimizdə yaranan əbədi bir məşəldir. Bu məşəlin alovu ömrümüz olanı, nəsillər dəyişəni yandıracaq bizi...

Şəhidlərin qara taleyini əfsanələşdirən Rafiq Səməndər özünün dediyi kimi yanıb-yaxılmış, dəfələrlə "ölüb-dirilmişdir". Yalnız belə bir insan, əsl azərbaycanlı, qeyrətli ziyalı, vətənpərvər insan... "Şəhidlər"i yaza bilərdi.

Rafiq Səməndər bu müqəddəs kitabında əsli Şəkidən olan məktəbli - Larisa və baba - İzzət kişinin qara taleyini qələmə almışdır. Bəxtiyar Vahabzadənin dililə desək: "Yazıçı Rafiq Səməndər bu kitabı yazmaqla vətəndaşlıq borcunu namusla yerinə yetirmişdir".

Hörmətli Rafiqin Larisa və İzzət Həmidov haqqında ürəyi yana-yana, ürəyi ağlaya-ağlaya yazdığı sətirləri olduğu kimi vermək qərarına gəldim. Axı bu sətirlərə nə artırmaq olar? Mümkün deyil! Müəllifə özümün və oxucuların dərin minnətdarlığını bildirirəm.

ÇİÇƏKLƏR MƏNİM KİMİ SOLMASIN

- Kimdi o çiçək?

- MƏMMƏDOVA LARİSA FƏRMAN qızı. Ömürlük 7-ci sinifdə qalan bir şagird.

13 yaşlı şəhid Larisa Məmmədova.

Larisa haqqında çox yazılıb, çox deyilib, çox eşitmisiz, şəklini, qəbrini çox görmüsüz. Onun haqqında yazmağa başlayanda mən də çox fikirləşdim. Necə edim? Hardan başlayım? Nə formada yazım? Evə, anasının, kiçik qardaşının yanına getsəm, gözlərim yanar.

Larisanın doğulub böyüdüyü, gəzib dolaşdığı, sıyıq yediyi, şıltaqlıq elədiyi, sonra da "yalandan" uzanıb öldüyü evə, otaqlara baxmaq hər gözün işi deyil. Mən öz gözümü yaxşı tanıyıram.

Xəstəxanaya, ağrılar içində qovrulan Fərman kişinin, boyu bir bala boyda gödələn atanın yanına getmək yaraları qoparıb, sonra da oturub axan qana tamaşa eləmək üçün gərək qansız olasan. Mən Larisanın oxuduğu məktəbə zəng elədim. Soruşdum 7 "v" sinfində "Azərbaycan dili" dərsi nə vaxtdır. Dedilər, həftənin beşinci günü saat beşdə. "Azərbaycan dili"ndən dərs deyən Eldar müəllimdən soruşdum:

- Gəlmək olarmı sizin dərsə?

Dedi:

- Buyurun, gözləyirik.

Həftənin beşinci günü aprelin 13-nə düşürdü. Beləliklə, dəftərçəmə qeyd elədim:

"Aprelin 13-ü 1990-cı il.

Tofiq Hüseynov adına 134 nömrəli rus məktəbinin 7-ci "v" sinfinin "Azərbaycan dili" dərsində olmalıyam".

Niyə tarix, coğrafiya yox, məhz Azərbaycan dili dərsində?



Şəhidlər Xiyabanında Larisanın qəbri.

Bu sualı mən öz-özümə verirdim. Burda hər kəsin öz cavabı var. Mən özüm-özümə öz cavabımı vermişəm, öz içimdə qiymətimi də yazmışam.

13 aprel. Məktəbə getməmişdən qabaq Şəhidlər xiyabanına gəldim. Larisanın qəbriylə, şəkliylə üz-üzə durub söhbət elədim.

- Salam, Larisa...
- Salam...
- Necə yatmısan, qızım, soyuq olmayıb sənə?
- Yox, torpağımız istidir...
- Ürəyin necədir???
- Yaxşıdı, döyünmür daha...
- Dünən ürəyinə dəyən gülləni görmüşəm...
- Neynədin ona?

- Tüpürdüm üzünə...
- ...!!!
- Ağlama...
- Hardan bilirsən ağlayıram?
- Qəbrin titrəyir. Qərənfillər əsir.
- Qərənfilin biri düşüb gəlib lap yanıma, sinəmin üstündədi.
- O, güllə yerindən bitib, qızım!!!
- Ola bilər... Bayırda yazdı?
- Həə....
- Ağaclar çiçək açıb?
- Yox...
- Niyə?
- Sənə yas saxlayıb bu yaz.
- ...
- Yenə ağlayırsan?
- Yox... anam yadıma düşdü. Hər il bu vaxtı mənə güllü sarafan tikdirərdi.
- Yenə tikib gətirib, qızım...
- Doğrudan?
- Hə... sərib qərənfillərin üstünə. Mən gedəndən sonra götürüb geyinərsən.
- Atamdan xəbərin yoxdu? Onu yuxuda görmüşəm bu gecə.
- O da səni bu gecə yuxuda görüb.
- Doğrudan? Bəs qardaşım necə?
- Hər gün şəklini öpür...
- Mən də onu öpürəm...
- Larisa, bilirsən indi hara gedirəm?
- Hara?
- Sənin məktəbinə.
- Nə yaxşı...
- Bilirsən bu gün hansı dərslərin var?
- Hə... Tarix... Riyaziyyat... Rəsm... bir də Azərbaycan dili. Mən də gedərdim sənlə. Ancaq dərslərimə hazır deyiləm.
- Çantan ki, buradadı, niyə oxumamısan?

- Bilmirəm nə keçmişik...
- İstəyirsən çantanı aparım məktəbə...
- Yoox... qoy yanımda qalsın...
- Uşaqlara nə deyim səndən?
- Salam de...
- Bəs müəllimlərinə?
- Denən mənə qayıb yazmasınlar.
- İcazə verirsən gedim?
- Get, gecikərsən... Sonra müəllim səni sinfə buraxmaz.
- Sağ ol!
- Sən də sağ ol... Partama salam de...

Xiyabandan çıxanda gözümdə bütün qəbirlər titrəyirdi. Bütün qərənfillər əsirdi. Bütün qəbirlər ağlayırdı. Ayağımın altından yer qaçırdı.

134 nömrəli məktəb:

Dəhlizdə uşaqlar qaçır... Pilləkənlərlə uşaqlar qalxıb-enir... Diqqətlə baxıram. Onların arasında Larisa yoxdur. Uşaqların səs-küyü, gülüşü, danışığı məktəbi götürüb başına. Diqqətlə qulaq asıram, onların içində Larisanın səsi yoxdu...

Dəhlizdə divardan Larisanın şəkli asılıb. Uşaqlara baxır, müəllimlərə baxır, mənə baxır... Qəribə baxışları var.

Zəng çalınır. Hamı sinfə girir. Larisadan başqa.

- Ay uşaq, gəlin keçin sinfə, dərs çoxdan başlayıb.

Larisaya bu sözü deyən yoxdu. Şəklinə baxıb özüm ürəyimdə deyirəm:

- Larisa, gəl gedək səninlə sinfə...

Mən keçirəm, ancaq Larisa qalır dəhlizdə. Sinif qapısını açan kimi baxıb görürəm Larisanın bu şəkli məndən qabaq keçib əyləşib partasında. Üstünə qara örtük salıb. İçi qərənfil dolu güldan da qabağında. Uşaqlara salam verirəm. Uşaqlar xorla salamımı alır. Gözümsə Larisanın partasında, Larisanın şəklindədir.

Hamının qabağında dəftər-kitabı. Larisanın partasının üstünə isə 696 nömrəli şəxsi işi...

Tabaşiri götürüb yazı taxtasına dörd cümlə yazıram:

1. Larisa necə qız idi?
2. Larisa mənim yadımda necə qalıb?
3. Larisanın acı sözü.
4. Larisanın şirin sözü.

Uşaqlardan xahiş edirəm ki, hərə bir ağ vərəqdə bu suallara cavab yazıb mənə versin. Özüm keçib Larisanın şəxsi işini vərəqləyirəm. Uşaqlarsa suallara cavab yazmağa başlayır.

Larisanın şəxsi işindən sətirlər:

1984-cü il sentyabrın birində birinci sinfə gəlib...

Qiymətləri: təsviri incəsənətdən "5" - "4".

Qardaşı və gəlinciyi üçün paltar toxuması yadıma düşdü.

1987-ci ildə pionerə qəbul olunub (şəkillərində qalstuk görməmişəm). Buraxılmış dərslərin miqdarı: Yeri boş qalıb. Bundan sonra illərlə də boş qalacaq.

Azərbaycan dilindən aldığı qiymətlər: üç...dörd...

Larisanın şəxsi işini bağlayıb üstünə gül qoyuram. Uşaqlardan vərəqləri yığıb, sağollaşıb düz evə gəlirəm. Oturub tək-tək o ağ dama-dama vərəqlərdə yazılmış cümlələri oxuyuram, oxuyuram və olduğu kimi də sizin üçün yazıram:

Sandul Tanya

7 "v" sinfi

Larisa necə qız idi? Larisa mənim yadımda necə qalıb?

Лариса была моя близкая подруга. Тихая, отзывчивая и добрая девочка, была Лариса. Она сидела со мной, по парте. Ей было 12 лет. Лариса была хорошей подругой, ни с кем ни ссорилась, а наоборот со всеми дружила. Такой была Мамедова Лариса, и осталась в моей жизни.

Ни разу Лариса ни сказала плохого слова, со всеми она говорила мягко, спокойно. Ласковые слова всегда были в Ларисиной речи. Она очень любила маленьких детей, и дома помогала своей маме. Лариса погибла сметью, которая потрясла сердче Азербайджанского народа.

7 “в” Киселев Алеша.

1. Лариса какая была девочка?

2. Какой она осталась в моей памяти?

Лариса была тихой стеснительной девочкой. Она стеснялась разговаривать и с мальчиками. Она была обидчивая девочка, иногда стеснялась отвечать у доски. Никогда ни говорила грубых слов. Она осталась в моей памяти скромной, тихой девочкой, даже немножко доброй. Она всегда в моей памяти.

Гулийев Заур

1. Лариса какая была девочка?

2. Какой она осталась в моей памяти?

Лариса была тихая девочка, хорошо училась. Она была очень отзывчивая, добрая.

2. Мне кажется никогда я не забуду Ларису. И когда я со своими товарищами и классным руководителем, нам трудно было смотреть на ее могилу. Читая газеты я много узнаю про нее. Я не могу много написать про нее, так как я новый ученик. Она останется в моем сердце навсегда!!!

Рудакова Ирина:

13.04.90г.

Лариса неъя гыз иди? Лариса мяним йадымда неъя галыб?

Лариса училась со мной 6 лет в школе, и была моей близкой подругой. Она была тихой, скромной, застенчивой девочкой. Как товарищ она была очень отзывчивой: часто я обращалась к ней за помощью и она никогда не отказывала мне.

Еще в детстве я с ней дружили в садике. В классе она была тихой, всегда и стороне. Училась она плохо, но не смотря на это у нее было очень доброе сердце, хороший характер. Она никогда ни с кем не ругалась. Горьких

слов я почти от нее не слышала, единственное слово было “отстань, не кричи на меня”.

Она часто говорила, что у нее теперь есть сестра. Что она будет со своей маленькой сестрой всегда играть, что очень любит ее. Но случилос горе, которое потрясло сердце каждого человека. Нам всем очень больно и горько видеть на могиле и игрушки, ранец, фартук.

Лариса всегда останется жить в моем сердце.

Sadıqova Nərminə.

1. Larisa necə qız idi?

2. Larisa mənim yadımda necə qalıb?

Larisa sakit və yaxşı qız olmuşdu. O, heç kimə pislik eləməmişdi. O mənimlə üçüncü sinifdə yaxın dost olmuşdu. Biz birbirimizə məktub yazırdıq. O mənə şəklini verib. Sonra biz ayrıldıq, ancaq onun şəkli məndə qalıb.

Larisa mənim yadımda çox yaxşı qız qalıb. Axı o, neyləyib. Larisanın ən şirin sözü çox sağ ol, dəyməz idi.

Larisa həmişə mənim ürəyimdə yaşayacaq.

Əfəndiyeva Afət.

1. Larisa necə qızıydı?

2. Larisa mənim yadımda necə qalıb?

Cavab:

Larisa yaxşı qızıydı və sakit idi. O, çox geri qalırdı dərslərindən, ancaq istəyirdi ki, heç kəs dərsdən geri qalmasın. Məmmədova Larisa pianinoda çox yaxşı çalırdı, yaxşı oxumağı bilirdi, çəkməyi bilirdi. Bir adam ona bir söz deyəndə, o özünü geri qoymur, o adama öz sözünü deyirdi. Məmmədova Larisaya deyəndə ki, mənə şəkil çək, o, tez, sözsüz çəkirdi. O, çox yaxşı şəkil çəkirdi. Düzdü, o, Azərbaycan dilini çox yaxşı bilmirdi, amma mən ona kömək edirdim.

Bax bu qədər mən Larisadan bilirəm.

Feyzullayev Cəmil.

1. Larisa necə qız idi?

2. Larisa mənim yadımda necə qaldı?

Larisa yaxşı və sakit qız idi. Larisa hamı ilə dostluq edirdi. Larisa çox mehriban qız idi. O bizim qruppada oxuyurdu. O mənim yadımda qaldı. Mənə çox çətindir onun şəklinə baxmaq.

Məmmədov Ramin.

Larisa necə qız idi?

Larisa mehriban qız idi. Mehribanlığını hamı bilirdi.

Larisa mənim yadımda necə qalıb?

Larisa çox ürəyi açıq və mehriban qız idi. Mən bir dəfə rus dili üçün təmiz dəftəri yadımdan çıxarmışdım. Heç kimdə yox idi. Amma o mənə yaxınlaşıb dəftəri uzadıb dedi: Al! Mən dedim ki, sabah gətirərəm. O dedi ki, lazım deyil. Mən "çox sağ ol" deyib gedib yazdım.

Larisanın ən acı sözü?

Larisanın ən acı sözü "durak" idi.

Larisanın ən yaxşı sözü?

Larisanın ən yaxşı sözü "spasibo", "pojalusta", "izveni", "prosti".

Şıxaliyeva Fidan.

Sual

1. M.Larisa necə qız idi?

2. M.Larisa mənim yadımda necə qalıb?

3. Acı sözü.

Cavab

1. Larisa çox sakit və yaxşı qız idi, düzdü, o, çox vaxtlar dərslərindən geri qalırdı, ancaq buna baxmayaraq istəyirdi heç kimdən geridə qalmasın, istəyirdi hamı kimi, o da yaxşı oxusun.

2. Bir sakit qız kimi.

3. O, söz güləşdirməyi sevirdi.

...Uşaqların, sinif yoldaşlarının bu cümlələrini gedib Larisa üçün də oxudum...

Güllər gülür, qəbir gülürdü... Larisanın qəbri sevindiyindən çiçək açmışdı. Sevinirdi ki, sinif yoldaşlarının yadında yaxşı qız, yaxşı dost kimi qalıb. Onu həmişə xatırlayacaqlar.

Qəbrinin üstündə bitən qərənfüillərdəın dəstə bağlayıb sinif yoldaşlarına göndərdi.

- Bayırda yazdı?
- Hə, Larisa...
- Ağaclar çiçək açıb?
- Yox, Larisa, bu yaz sənə yas saxlayır.
- Denən, qoy ağaclar çiçək açsın. Çiçəklər yazıqdır.
- Özün denən, Larisa, mən desəm inanmazlar.
- Ağaclar, çiçək açın... Çiçək açın... Çiçək açın... Çiçəklər yazıqdır... Qoy çiçəklər mənim kimi qönçədə solmasın...

BAŞINIZI UCA TUTUN

Bu sözlər hamıya aiddir.

HƏMİDOV İZZƏT ATAKİŞİ oğlu - (1930-cu il).

Deyirlər, hər kəsin ölümü öz xasiyyətinə bənzəyir. İzzət kişinin ölümü də təpədən-dırnağa kimi özünə, xasiyyətinə oxşadı. Mərd, qürurlu, ölümün qabağında da boyun əymədi. Öz ölümündən tez öldü. Ölümü də dərs olub qaldı.

Son nəfəsində balalarını başına yığıb vəsiyyət də eləyib:

"Mənim adımı doğruldun. Xalqım bədbəxt oldu. Xalqımın dərdini ürəyimdə aparıram. Beş-on ilə öləsiyəm. Bəlkə elə bu gündə ölməyim yaxşıdır. Belə gündə şərəfdir ölmək. Bununla fəxr etmək lazımdır. Başınızı uca tutun, möhkəm olun, mənim adımı doğruldun..."

"Mənim adımı doğruldun". Doğrudan da, İzzət kişinin adı nümunəvi, doğrulası addır. Əgər ömrün hər hansı bir dolayında çaşıb, yolunu azsan, çıxış görməsən, dilinə "neyləyim" gəlsə, onda götür İzzət kişinin ömrünü varaqla. Orda qaranlığına işıq, "neyləyim"inə cavab tapacaqsan. Düşdüyün dalandan yol tapacaqsan.

Ömrü boyu ən ağır nöqtələrdə, ən çətin işlərə yiyə durub... Yaxşı, rahat işin, ağıllı balanın atası hamı ola bilər. Bəs?...

Elə bu bəslərdən biri... Gecə qonşularında səs-küy qopur. Narkoman ər arvadını döyür. Bıçaqla hədələyir. Heç kim qorxudan bayıra çıxmır. Hamı o narkomanı tanıyır. Hamı qulağına pambıq tıxayıb oturur. Hətta qonşu milis işçiləri də. Ancaq İzzət kişi gecə paltarında yorğan-döşəkdən çölə atılır. Sinəsini o bıçağın qabağına verir. Bıçaq da bu mərd kişinin sinəsində sınmağından qorxub oğlu Rafiqin üstünə gedir. Onun böyrünə sancılır. Qonşu qız sağ qalır. İzzət kişinin evində isə qan tökülür. Balası Rafiq sağalan kimi əhvalat da yaddan çıxır...

İzzət kişi belə kişi idi. İşdə də, evdə də. Bir ara Şəkidə yaşamalı oldular. Qoca ata-anasına görə. Raykomda təlimatçı işləyirdi. Səhər gedib, axşam baş-qulağı dinc, evinə, ailəsinə gəlirdi. Ancaq bu sakit həyat, bu gediş-gəliş onun xarakterinə yaraşmırdı. Bir gün rayonun ən geridə qalan "9 Yanvar" kolxozunda sədr olmağı təklif elədilər ona. Kolxoz olduqca kasıb idi. Neçəsinə təklif eləmişdilər... Ancaq İzzət kişi o dəqiqə yollanmışdı həmin kolxoza. İki ilə kolxoz tanınmaz, görünməz dərəcədə varlandı. İzzət kişinin də ömür pilləkəninə, ömür nərdivanına ilk möhkəm pillə, gələcək həyatının özülü, dayaq nöqtəsi oldu. Ancaq hayıf ki, kolxozun adı "9 Yanvar" idi. O yanvar da qırğın günü ilə yadda qalıb. Bu yanvar da. Aralarında cəmi on gün fərq olub. Həyatda heç bir təsadüf-filan olmur. Hər bir təsadüf hardasa ölçülüb-biçilib, kim tərəfindənsə məxsusi göndərilir. Mənə elə gəlir ki, yanvar ayı da o vaxt İzzət kişinin həyatının əzəlinə elə-belə göydən düşməyib. O yanvar qaldırıb, bu yanvar... İstədim yazam ki, endirib. Sonra fikirləşib gördüm ki, yox... Yanvar ayı nə qədər qanlı-qadalı olsa da, İzzət kişini həmişə əlləri üstə tutub. Yanvar həmişə İzzət kişidən aşağıda durub.

O "9 Yanvar" kolxozundan sonra İzzət Həmidovu yenidən Şəki rayon partiya komitəsinə dəvət edirlər. Burda ona müxtəlif illərdə müxtəlif stollar, müxtəlif qayğılar tapşırılıb. Vəzifə otaqlarında bu günlərin faciəsini, qarasını görür, duyur, hiss edirdi.

Uşaqlar Bakıda oxuyurdu. İki oğlu, bir qızı. O da Mərziyə xanımla köçdü Bakıya. Uşaqlara yaxın oldu. Gözü, nəfəsi üstündə oldu. Ancaq Bakıda da işsiz dayana bilmədi. Əhmədlidəki 5 nömrəli texniki peşə məktəbinə rəhbərlik elədi. Yeni-yeni kurslar açdı, peşələr gətirdi bu məktəbə. Çilingər, rəngsaz, qaynaqçı... Nə az-nə çox, səkkiz ilə məktəbi məktəb elədi. Sonra hər şeyin yenə yağ kimi getdiyini görüb həvəsdən düşdü. Yerini dəyişdi.

Respublikada yenicə Aqrarsənaye Komitəsi yaradılmışdı. Torpaq şöbəsinə rəis gəldi. Bu da bir təzə sahə, xam bir torpaq idi. Burda çox işləyə bilmədi. Burda ömrünün yanvarı gəldi.

Ümumiyyətlə, ölümdən, itkidən, yoxluqdan söhbət salan adam deyildi. Elə şeyləri heç ağlına gətirməzdi. O gecə şəhərə tanklar girəndə uşaqlarını, nəvələrini yığıb başına sakitləşdirib. Bambaşqa şeylərdən danışıb onlara. Uşaqlarınsa fikri-zikri elə küçədəki hay-küydə, tankda olub. "Qorxmayın, sovet əsgəri öz xalqına atəş açmaz. Elə-belə, göyə atırlar". Hamını inandırıb özünü isə inandıra bilməyib. Bütün gecəni qohum-əqrəbaya zəng edib hal-əhval tutub. Salamatçılıq olduğunu eşidib toxtayıb. Oğlu milis sistemində işləyirdi. Onun da səsini eşidib lap rahat olub. Səhəri oyanıb ki, işdən nigaranam, gedim baş çəkim. Nə işdən, hansı işdən? O günü iş günü deyildi. Komitənin binasından narahat idi. Binanın daşlarından, şüşələrindən nigaran idi. Birdən daşlara güllə dəyər, şüşələr sınar. Özü maşına əyləşən kimi Mərziyə xala da gedib əyləşib ki, mən də gedirəm. Niyə, nə üçün, nə mən soruşmuşam, nə də özləri cavab verib. Çox güman ki, Mərziyə xala hara və niyə getdiyini heç özü də bilməyib. Maşın İnqilab küçəsini qalxanda qarşıdan yolun bağlı olduğunu görüb, İzzət kişi düşür ki, yola baxsın. Onu tanıyan biriki nəfər yaxınlaşır ona ki, ay İzzət müəllim, hara gedirsiz, nə işiniz var orda? Bu vaxt bu kişilərin arasından təkcə İzzət müəllim yıxılır yerə. Öz iş tərəfindən gələn güllə arxadan dəyib mədəsini dəlib çıxıb. Mərziyə xala şaxsey-vaxseylə güllə gələn tərəfə qarğışlarını yağdıranda yanındakılardan biri deyib, ay bacı,

qarğış vaxtı deyil... Çəkil, kişini xəstəxanaya çatdıraq. Öz maşınıyla İzzət müəllimi xəstəxanaya gətiriblər. Gətiriblər ki, burda balalarını başına yığıb vəsiyyətin eləsin: "...Belə gündə şərəfdir ölmək... Mənim adımı doğruldun. Başınızı uca tutun..."

İzzət kişinin bu sözləri təkcə ailəsinə yox, hamımıza, bütün torpağımıza, xalqımıza deyilən bir ağsaqqal sözüdür. Vəsiyyət deməyə dilim gəlmir.

"BABA" NAĞILI

Bu nağılı İzzət babanın gəlini Xatirə xanım yazıb.

Mən bir baba haqqında söhbət açmaq istəyirəm. Babaların ən yaxşısı, ən müdriki, ən mehribanı İzzət baba. Babaların ən ulusu, ən cavanı və nəhayət, babaların ən şərəflisi, ən müqəddəsi İzzət baba.


İzzət Həmidov.

Dörd nəvənin babası oldu İzzət baba. Heç birisindən doymadı. Dördünü də əzizlədi, bəslədi, oxşadı, bir dəfə də olsun xətirlərinə dəymədi, nazlarını çəkdi. Dördünü də hər gün, hər dəqiqə yanında görməyə çalışdı. Elə bil bilirmiş, yarıda qırılacaq bu nəvəli ömrü. Nəvələri heç doymadı babalarından, ürəklərinə baba dağı, baba həsrəti çəkildi. Ölümündən sonra hər gün onu soruşur, onun nəvazişinə ehtiyac duyurlar. Ata-anaları tərəfindən incidiləndə də, yıxılanda da İzzət babanı haraylarına çağırırlar, nənələrini də kövrəldirlər.

İlk nəvəsi Esmiranın 6 yaşı var. Ən çox Esiyə təsir edib baba itkisi. Babası onu Esi çağırırdı. Özü vermişdi bu adı ona. Sevimli müğənnimiz Zeynəb xanımın oxuduğu "Esmira" mahnısını eşidən kimi ilki Faiqin təzə anadan olmuş ilk qızına Esmira adını verdi. İlk nəvə baldan şirin olur, deyirlər. Esi babasının nəvələrinin tacı oldu. "Dünyada ən çox kimi istəyirsən, Esi?" "İzzət babanı". Baba da bundan xoşlanır, fərəhlənirdi.

Oğlu Rafiqin oğlu oldu. Babanın sevincindən gözləri doldu. Fərid babanın ev nəvəsi oldu, babacanlı oldu. "Babanı nə boyda istəyirsən?". "Dünya boyda".

Yeganə qızı Yeganənin oğlu Azər gəldi dünyaya. Bu yaxınlarda işdən evə gələrkən danışdığı maraqlı bir söhbəti yazmaya bilmirəm. Üzünü Yeganəyə tutub söhbətə başladı. Dedi ki, kimsə Türkiyədən gəlib, deyir orda bir türk azərisinin qonağı oldum, 2 uşağı vardı. Oğlu Azər, qızı Baycan vardı. Yaman xoşuna gəlmişdi İzzət babanın bu ad... Dedi, əgər qızınız olsa, mütləq adını Baycan qoyacağam...

Heyf... heyf ki, canını Azərbaycanı uğrunda qurban verən İzzət babanın dodaqlarında son dəfə "Azər" sözü qaldı.

Ayçin Faiqin sonbeşiyidir. Babasının yumru qız balasıdır. "Ayçinim, göyərçinim" deyərdi babası ona.

Esmiranı məktəbə gedən görə bilmədi, baba. Halbuki bu onun ən ümdə arzusu idi. Fəridənin, Azərin, Ayçinin 3 yaşı tamam olmadı hələ. Onlar tez-tez Şəhidlər Xiyabanına gedir, İzzət baba adlı bir əzəmətli abidənin üzərinə güllər qoyur, babalarının və onun kimi canından keçən şəhidlərin qəbirlərini ziyarət edirlər.

İzzət babanın qəbri.

Vaxt gələcək, qədirbilən xalqımız şəhidlərə abidə ucaldacaq, nəvələri öz məktəbli dostları ilə oraya gedib fəxrlə deyəcəklər:

"Bax, bu bizim İzzət babamızdır".

Rafiq Səməndər. "Şəhidlər" kitabı.

TEZ APARDI ÖLÜM SƏNİ

Üç sözdən artıq deyil bütün ömrüm, bu üç söz: xam idim, bişdim, yandım.

Ölümümüzdən sonra məzarımızı yerdə arama. Arif kişilərin könülləridir məzarımız bizim.

Mövlana Cəmaləddin Rumi.

"Mövlana Güldəstəsi", Ankara, 1971, səh. 14, 38.

İranın məşhur azadlıq carçısı, riyaziyyat, topçuluq və tarixə dair sanballı əsərlərin müəllifi Xosrov Ruzbehin edamından qabaq dediyi bir kəlamı yada salmaq istərdim: "İnsanı məhkum etmək olar, lakin şücaəti, mərdliyi, vətənpərvərliyi, şərəfi və fədakarlığı məhkum etmək olmaz".

Deyilən bu insani sifətlərin hamısı elə bil ki, Aydında öz təzahürünü tapmışdır. Aydın Mirsaleh oğlu Məmmədovu yaxından tanıyanlar bilirdilər ki, o, gözəl insan və qayğıkeş dost idi. Dahi Nizaminin dediyi kimi,

Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir kömək.

O, nəinki öz yükünü çəkirdi. Onu Allah yaratmışdı xalqının, millətinin yükünü çəkməyə. Ona görə ki, Aydın xalqın övladı idi. O, heç kimə bənzəmək istəmirdi. O, yalnız özünə bənzəməyi xoşlardı.

Nəsənsə, özün ol,
Təzəsən onda,
Sən köhnə olursan
Yamsılayanda.

B. VAHABZADƏ.

Aydın xalqımızın vətənpərvər oğlu idi. Aydının bir mövqeyi, bir yolu, bir məsləki vardı: "Heç bir partiyanın üzvü deyiləm. Lakin bir yolum, bir məsləkim var: xalqa həqiqəti olduğu kimi çatdırmaq, heç kimin qarşısında əyilməmək, xalqa düzgün yol göstərmək".

A.Məmmədov sözün həqiqi mənasında siyasi xadim idi.

Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin üzvü, Azərbaycan Respublikası Ali Sovetinin Milli siyasət və millətlərarası münasibətlər daimi komissiyasının sədri, Qarabağ Xalq Yardımı Komitəsi sədrinin müavini, Azərbaycan Yazıçılar Birliyinin katibi, "Vətən", "Qayğı" və "Azərbaycan-Türkiyə" cəmiyyəti idarə heyətlərinin, keçmiş SSRİ Altayşünaslar Şurasının və Sovet Türkoloqlar Komitəsinin üzvü idi.

Unudulmaz A.Məmmədovun faciəli ölümü münasibətilə "Ədəbiyyat" qəzetində (26 aprel 1991-ci il) çap edilmiş nekroloqdan bir parça: "Aydın Məmmədov son dərəcə narahat insan idi. Xalqın mənəvi inkişafına xidmət edən elə bir sahə yoxdur ki, Aydın orada öz alim-vətəndaş sözünü deməmiş olsun. Aydın Məmmədov televiziya ekranlarında bütün azərbaycanlılar üçün doğmalaşmışdı. Hamı, qiyabi də olsa, bu müdrik insanla məsləhətləşirdi".

Müdrik ağsaqqallar xalqın ən yaxşı adət-ənənələrinin saxlayıcısı, daşıyıcısı və ötürücüsüdür. Ağsaqqal yetimlərin, kimsəsizlərin, əlillərin qayğıkeşidir. Ağsaqqal bütün el-obaya müdriklik tələqin edib, yeni doğulmuşa ad qoyub, nikah üçün gənclərə xeyir-dua verib, ağsaqqal tövsiyəsi ilə qan davası aradan qaldırılıb, ədavətə son qoyulub.

Şəkildə soldan sağa: Kamal Abdullayev, Oljas Süleymenov, Aydın Məmmədov, Kamil Vəliyev.

Aydın da belə ağsaqqallardan idi. Onun Azərbaycan Ali Soveti sessiyalarındakı (1991-ci il) çıxışları buna misal deyilmi? O, xalqı həmişə birliyə, dostluğa, həmrəyliyə çağırardı. Sabir Əfəndiyevin "Vida anı" məqaləsində yazır: "Elm günü"ndə (20 aprel 1991-ci il - **Ə.H.**) alimi torpaq öz ağuşuna çəkdi. Yetkinliyi, kamalı ilə seçilən, həmişə el-obasına ağsaqqal məsləhətləri verən, yol göstərən

Aydın Azərbaycan səmasının aydınlığı uğrunda bütün varlığını verməkdən çəkinmirdi: xalq suverenliyini, müstəqilliyini tapsın, aydın günlərə qovuşsun" ("İpəkçi", 25 aprel 1991-ci il).

Aydın Məmmədovu respublika ictimaiyyəti yüksək mədəniyyətli, təmkinli bir ziyalı kimi tanıyırdı. Onun əqidəsincə ömür insana xeyirxah iş görmək üçün verilir, ədalətli, obyektiv olmaq insanı ucaldır. Haqq-ədalət, xalqın mənafeyi uğrunda mübarizə lazımdır. Pislik, nifaq, düşmənçilik, zülm, bərabərsizlik, fanatizm insana və ələlxüsus ziyalıya xas olan sifət deyil, ancaq ədalət, humanizm, zəhmət, müdriklik milləti irəliyə apara bilər. Məhz bu xüsusiyyətləri, bu insani duyğuları, saf amalı Aydını vətəndaş-alim səviyyəsinə qaldırmışdı.

Yaşından asılı olmayaraq xalqın gözündə böyüklük səviyyəsinə çatmaq hər insana nəsib olmur. Aydın istər ziyalılar, alimlər, cavanlar, yaşlılar və istərsə də xalq elçiləri içərisində böyük kimi tanınırdı. Ədalət Tahirzadə: "...Aydınla bağlı bütün sözlərin qarşısında bir "böyük" də işlətmək gərəkdir: "böyük dilçi", "böyük natiq", "böyük siyasətçi", "böyük müəmma"... O, həyatda həmişə, doğrudan da, yalnız böyük ölçülərdə tanınmağı sevirdi...

Aydın xalqını sevirdi, ancaq dəlicəsinə yox, ağıllıcasına. O, bu sevincini heç vaxt dilinə gətirməzdi, ancaq əməlləri yalnız buna yönələrdi.

O, ayıq siyasətçi idi, hər şeyə öz baxışı vardı. "Yuxarılar"a da, "aşağılar"a da eyni dərəcədə yaxşı bələd idi və onlar arasında körpü salmağa çalışardı" ("Elm" qəzeti, 27 aprel 1991-ci il).

Azərbaycan ədəbiyyatı tarixində tənqidçi, ədəbiyyatşünas, türkoloq və ictimai xadim kimi tanınmış Aydın Mirsaleh oğlu Məmmədov 16 yanvar 1944-cü ildə Şəki rayonunun əfsanəvi guşəsi qədim Kiş kəndində anadan olmuşdur. Orta məktəbi qonşu Oxud kəndində qızıl medalla qurtardıqdan sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdur (1960). Təhsilini başa vurduqdan (1960-1965) sonra Respublika EA Nəsimi adına Dilçilik İnstitutunun aspiranturasına daxil olub, Moskvaya ezam olunmuşdur (1966-1969). Sonra qısa fasilələrlə Dilçilik İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışmışdır (1969-1981). Aydın sonrakı illərdə Ağdaş rayonu Ağcayazı kənd səkkizillik məktəbində müəllim, Azərbaycan Dövlət Universiteti Hesablama Mərkəzində böyük mühəndis kimi çalışmış, Azərbaycan EA Ədəbiyyat, Dil və İncəsənət bölməsinin elmi katibi və Nəsimi adına Dilçilik İnstitutunun Ümumi və tətbiqi dilçilik şöbəsinin müdiri olmuşdur (1981-1986). Filologiya elmləri namizədi (1980) Aydın Mirsaleh oğlu Məmmədov ədəbi fəaliyyətə 1979-cu ildə "Ulduz" jurnalında çıxan "Bugünkü nəsrimizin poetik mənzərəsi" məqaləsi ilə başlamışdır.

O, 1987-ci ildən "Sovetskaya türkologiya" jurnalı baş redaktorunun birinci müavini idi. Elm və elmi-təşkilatçılıq fəaliyyətini üzvi şəkildə birləşdirən A.M.Məmmədovun təşəbbüsü ilə buraxılan "Azərbaycan filologiya məsələləri" toplusunun iki buraxılışı (1983,1984) dil, tarix və mədəniyyətimizin qaranlıq səhifələrini işıqlandırmaqda, milli özünüdərkimizin güclənməsində xüsusi rol oynamışdır. Hamı Aydın Məmmədovu səriştəli dilçi kimi tanıyardı. O, türk dillərinin əsasını tədqiq edir. Azərbaycan dilinin təmizliyi üçün çalışırdı. Aydın bir ziyalı, alim, ictimai xadim və parlamentdə xalq elçisi kimi respublikamızın latın əlifbasına keçməsində yorulmaz mübarizlərdən biri idi. Unudulmaz alimin bu sahədəki "Son müsahibə"sini (Vahid Naxış, "Azərbaycan" qəzeti, 25 aprel 1991-ci il) olduğu kimi gələcək nəslə çatdırmaq istərdim.

SON MÜSAHİBƏ

Müxbir: - Aydın bəy, əlifbanın bərpası məsələsinə Sizin münasibətinizi bilmək maraqlıdır...

Aydın Məmmədov - Əvvəlcə, problemin maddi və mənəvi tərəfi barədə danışaq. Düzdür, iqtisadi baxımdan çoxlu çətinliklər mövcuddur, milyonlarla xərc, o sıradan ölkədəki kağız qıtlığı,

istehsal vasitələrinin yararsızlığı və s. Gördüyünüz kimi, qayğılar çoxdur. Ancaq başlıcası, işin mənəvi tərəfidir. Yəni Kiril əlifbasıyla yazılmış tarixi-fəlsəfi, ədəbi irsi latına köçürmək lazım gələcək. Lakin bu problemlərin hamısı bir yerdə belə, əlifbanın restavrasiyası kimi xalqa daha böyük mənəvi dəyərlər gətirə biləcək prosesin qarşısını almağa haqq vermir. Unutmayaq ki, biz Azərbaycanın kompyuterləşməsinin astanasındayıq.

Müxbir: - Bəs bu restavrasiya hansı yolla getməlidir, referendum yoluyla, yoxsa parlamentin fərmanıyla? Bəlkə parlamentin qərarını gözləyək?

Aydın Məmmədov - Deyim ki, heç bir referendumun, ya fərmanın belə taleyüklü məsələni həll etmək səlahiyyəti yoxdur. Parlament, yalnız parlament belə məsuliyyətin altına girə bilər. Mənim fikrimcə, parlament qərar qəbul etməlidir. Və bu qərara əsasən, biz qəti şəkildə latına keçməliyik. Bu bizim borcumuzdur. Xalq qarşısında borcumuzdur!

A.Məmmədov müxtəlif yerlərdə keçirilən müxtəlif toplanış və "Dəyirmi stol"larda Azərbaycan mədəniyyətini ləyaqətlə təmsil etmişdir. Onun ictimai əsaslarla sədrlik etdiyi respublika Bədii Tərcümə Mərkəzinin qurulmasından az vaxt keçməsinə baxmayaraq bu tipli təşkilatlar içərisində ən nüfuzlularından olmuş, Mərkəzin orqanları - "Xəzər" və "Xazar" jurnalları isə ilk nömrələrdən oxucuların sevimlisinə çevrilmişdir.

A.M.Məmmədov 1988-1989-cu illərdə Türkiyənin müxtəlif şəhərlərində beynəlxalq konqreslərin və II "Türkiyə-SSRİ" kollokviumunun iştirakçısı olmuş, 1989-cu ildə Fransada və həmin ildə İran Respublikasında xalqımızın qayğı və istəklərinin dünya ictimaiyyətinə olduğu kimi çatması üçün böyük əməli iş görmüşdür.

Aydın çox işlər görəsi idi. Lakin... ucuz ölüm, avtomobil qəzası 20 aprel 1991-ci ildə xalqımızın iki mübariz alimini Dilarə Ələkbər qızı Əliyeva və Aydın Mirsaleh oğlu Məmmədovu əlimizdən aldı.

Azərbaycan MEA Tarix İnstitutunun baş elmi işçisi Sabir Əfəndiyev: "Qismətə bax, taleyə bax. Vertalyot qəzasından burnu da qanamayan Aydın Məmmədovu əcəl hərləyib heç bir həftə keçməmiş Alatəmir kəndi ərazisində avtomobil qəzasının qurbanı etdi. İstedadlı alim, Azərbaycan xalqının ləyaqətli oğlu, onun şadyanalığına sevinən, qəminə, kədərinə yanan odlu bir qəlb, qaynar ürək söndü. Özü də nə vaxt. "Elm günü"ndə alimi torpaq öz ağuşuna çəkdi. ("İpəkçi" qəzeti, 25 aprel 1991-ci il).

Qədim albanlar yurdunun yadigarı, möhtəşəm Kiş kəndinin müdrik ağsaqqalı Mirsaleh kişi yeganə oğlunu ulu torpağında dəfn etdi. Yox, Aydın xalqın idi, türk xalqlarının qeyrətli oğlu idi. İşə bir bax! Aydını torpağa tapşıranda bir neçə dəqiqə təbiət də ağladı, yağış yağdı. Kiş kəndinin səmasında peyğəmbər qurşağı əmələ gəldi.

Xalqımızın mübariz, qeyrətli oğlu Aydın Məmmədov haqda fikrimi Ağdamdan Mütəllim Sadıqovun dedikləri ("Azərbaycan" qəzeti, 25 aprel 1991-ci il) ilə yekunlaşdırmaq istərdim: "Həyatda hər oğula xalqının oğlu demirlər. Bu adı qazanmaq da hər oğulun işi deyildir. Aydın bu adı çoxdan qazanmışdır. Mən demirəm Aydın öz şirin canını canından əziz sevdiyi xalqının yolunda şəhid etmişdir. Aydın ölməmişdir. Aydın harda qeyrətli Azərbaycan xalqı varsa, onun qəlbində özünə qəm mülkü tikmişdir. Bu ağır gündə Allah-təala Aydın Məmmədovun ailəsinə səbir versin".

SƏHNƏDƏ, KİNODA, EKRANDA MƏNƏVİ QİDA USTALARI

Teatrın qılıncı hakimlərin
qılıncından daha kəsərli olur.
Şiller

Azərbaycan teatrının təşəkkül tapmasında, inkişafında qədim Şəkinin öz yeri, öz payı vardır. XIX əsrin ikinci yarısından başlayaraq M.F.Axundov tərəfindən yazılmış səhnə əsərləri Azərbaycanda teatr sənətinə marağın xeyli artmasına səbəb oldu. Artıq Şuşada, Bakıda və bir sıra başqa yerlərdə teatr tamaşaları hazırlanması sahəsində ilk cəsarətli addımlar atılmışdı. Onu da qeyd etmək lazımdır ki, bu sahədə aparılan iş o zamankı milli ziyalılarımızın dövrün hadisələri ilə ayaqlaşa bilməsinə dəlalət edirdi. Söz yoxdur ki, belə bir vaxtda Şəki ziyalıları da kənarda qala bilməzdi və onlar hiss edirdilər ki, xalq üçün teatr gərəklidir. Nəhayət, 1879-cu ildə görkəmli maarifpərvər yazıçı və dramaturq Rəşidbəy Əfəndiyev öz ətrafına bir dəstə həvəskar yığaraq və barama anbarında səhnə düzəldərək M.F.Axundovun "Hacı Qara" komediyasını tamaşaya hazırladı. Rəşidbəy özü həmin tamaşada Hacı Qara rolunda çıxış etmiş və sonralar özünün yazdığına görə, ilk tamaşa çox böyük müvəffəqiyyətlə keçmişdir. O dövrün mətbuatı, yaşlı adamların bu günümüzə qədər gəlib çıxan xatirələri ilə tanış olduqda məlum olur ki, şəkililər teatr tamaşalarına xüsusi maraq göstərmiş və həmin tamaşaları təşkil edənlərə çox böyük hörmət bəsləmişlər. Məhz bu hörmətdən istifadə edən truppa öz fəaliyyətini daha da genişləndirmiş, repertuarının zəngin olmasına xüsusi diqqət yetirmişdir. Şəki səhnəsində 1880-1908-ci illər ərzində M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah", N.B.Vəzirovun "Hacı Qəmbər", Ə.B.Haqverdiyevin "Dağılan tifaq", "Millət dostları", N.Nərimanovun "Nadir şah", R.B.Əfəndiyevin "Qan

ocağı" və s. bu kimi əsərlər tamaşaya qoyulmuşdur. Həmin tamaşaların hazırlanmasında aktyor kimi Rəşidbəy Əfəndiyevlə çiyin-çiyinə Şəki ziyalılarından Məşədi Məhdi, Sadıqov, Lütfəli bəy Əmircanov, Məmməd Lütfəlibəyov, Cəmil Şərifov, Məşədi Cəmil Məmmədov və qeyriləri yaxından iştirak etmişlər. Truppanın belə məşhurlaşması bir sıra görkəmli sənətkarların diqqətini cəlb etməyə başladı. 1908-ci ildə Hüseynqulu Sarabskinin Şəkiyə gəlişi də məhz həmin məşhurlaşma ilə əlaqədar idi.

Sarabski həmin il Şəki teatr truppası ilə birlikdə N.Nərimanovun "Nadir şah" və Ə.B.Haqverdiyevin "Dağılan tifaq" tamaşalarında çıxış etmişdir.


Zahid Məlikov.

Rəşidbəy Əfəndiyevin teatr truppasının fəaliyyəti Şəkidə və ətraf kəndlərdə yeni-yeni dərnəklərin, dəstələrin yaranmasına güclü təkan verir. 1915-ci ildən başlayaraq rayonda Böyük Dəhnə, Baş Küngüt, Baş Göynük, Baş Layski kəndlərində dram dərnəkləri yaradılır. Şəhərin özündə isə ayrı-ayrı məhəllələrdə "Darvaza" dram dərnəkləri təşkil olunur. Bu dərnəklər bir-biri ilə çox güclü yaradıcılıq rəqabəti aparırdılar. Dərnəklərə o zaman müəllim işləyən Baxşəli Axundov, iqtisadçı Zahid Məlikov və başqaları başçılıq edirdilər. 1920-ci ildən sonra Baxşəli Axundovun təşəbbüsü ilə həmin dərnəklərin fəaliyyəti mərkəzləşdirildi və şəhərdə olan fəhlə klubu nəzdində çox güclü bir teatr truppası yaradıldı. Truppa tez-tez kənd və qəsəbələrdə, şəhərin meydanlarında, qadınlar klubunda, məktəblərdə çıxışlar edirdi. Belə çıxışlar kollektivi adamlara daha da yaxınlaşdırırdı. Onun hörmətini daha da artırırdı. Truppanın repertuarı da get-gedə zənginləşirdi. H.Cavidin "İblis", "Şeyx Sənan", C.Cabbarlının "Oqtay Eloğlu", "Aydın", Ü.Hacıbəyovun "Arşın mal alan", "Aşıq Qə-

rib", "Leyli və Məcnun", C.Məmmədquluzadənin "Ölülər" əsərləri repertuarda özünə möhkəm yer tutur. 1925-ci ildə Şəkidə ilk dəfə olaraq Dram cəmiyyəti təşkil olunur. Həmin cəmiyyətin rejissoru Yusif Bədəlov, müdiri Zahid Məlikov seçilir. Elə həmin ildən başlayaraq Şəki Dram cəmiyyətində qadınların sayı durmadan artır. Zabella, Leyla, Günəş, Məryəm, Səyyarə adlı fəhlə qadınlar böyük həvəslə tamaşalarda iştirak edirdilər. 20-ci illərin sonuna yaxın Şəkidə əsl teatr mühiti yaranmışdır. Bir tərəfdən yerli dram cəmiyyəti tərəfindən hazırlanan tamaşalar və digər tərəfdən Tbilisi və Bakı aktyorlarının Şəkiyə olan qastrol səfərləri şəhəri sözün tam mənasında teatr səhnəsinə çevirmişdi. O vaxtkı qəzetlərin yazdıqlarına görə 1925-ci ildə İ.İsfahanlının başçılığı ilə Tbilisi aktyorlarının və 1927-ci ildə A.A.Tuqanovun başçılığı ilə Azərbaycan Dövlət Dram Teatrının qastrolları Şəkidə böyük bayram əhval-ruhiyyəsi yaratmışdır. Əlbəttə, bu illər, yəni 1925-1930-cu illər mübarizələrlə dolu idi. Xüsusən 1927-1930-cu illər daha çətin idi. Ölkədə kolxozlar yaranır, kollektivləşmə gedirdi. Məhz belə bir dövdə teatr tamaşaları təşkil etmək böyük cəsarət və hünər tələb edirdi. Dram cəmiyyətinin maddi-texniki bazası zəif idi. Nəqliyyat yox idi. Aktyorlar çox vaxt kəndlərdə çıxış etməyə piyada və ya kəl qoşulmuş arabalarla gedib-gəlirdilər. Bu sahədə qadın aktrisaların vəziyyəti daha pis idi. Şəkinin kəndlərində baş alıb gedən bəzi qaçaq, quldur dəstələri xüsusən onlara qarşı amansız idilər. Biz bu gün Şəki teatrsevərləri həmin çətin illərdə Şəkinin teatr ənənələrini yaşadan, hədələrdən, təhqirlərdən qorxmayan Yusif Bədəlovu, Sabir Vəkilovu, Səməd Tağızadəni, Zahid Məlikovu, Baxşəli Axundovu, Məmmədkəbir Hacıoğlunu, İbrahim Azərini, Bilqeyis Ələsgərovanı, Yunus Məmmədovu və başqalarını hörmətlə yad edirik. Onların Şəki teatrının fəaliyyəti üçün çəkdikləri zəhməti yüksək qiymətləndiririk. Elə bu dövrdə A.M.Şərifzadə, M.A.Əliyev, Y.Rəcəb, M.Davudova, M.Sənani, M.Mərdanov, S.Ruhulla, tez-tez Şəkiyə gəlir və Dram Cəmiyyəti ilə birlikdə tamaşalarda çıxış edirlər. Hər şeydən görünürdü ki, artıq Şəkidə rəsmi Dövlət Dram Teatrı açılmalıdır.

Nəhayət, belə bir vaxt gəlib çatdı. 1934-cü ildə əslən Şəkidən olan və Bakı teatr məktəbində müəllim işləyən Həsən Əliyev həmin məktəbi qurtaran bir qrup tələbə ilə Şəkiyə gəlir. Onlar yerli Dram Cəmiyyəti ilə birləşərək M.F.Axundovun "Hacı Qara" komediyasını tamaşaya hazırlayırlar. Baş rollarda Yusif Vəliyev, Məmmədkəbir Hacıoğlu, Məşədi Məmməd Xalıqov, Rzabala Rzayev, Səməd Tağızadə, Bilqeyis Ələsgərova və başqaları çıxış edirlər. Tamaşaya baxan görkəmli sənətkarlar ona çox yüksək qiymət verirlər. Nəticədə təxminən 10 ilə yaxın fəaliyyət göstərən Şəki Dram Cəmiyyəti Dövlət Dram Teatrına çevrilir. Bu, əlbəttə, Şəkinin mədəni həyatında çox böyük hadisə idi.

Teatr yarandığı gündən səmərəli fəaliyyətə başlayır. Aktyor heyətinə bacarıqlı, istedadlı gənclər əlavə olunur, teatr öz ətrafına yerli müəllifləri daha çox cəlb edir, repertuara diqqəti artırır. Tezliklə Şəki teatrında C.Cabbarlının "Aydın", "Oqtay Eloğlu", H.Cavidin "İblis", "Şeyx Sənan", Ə.Haqverdiyevin "Bəxtsiz cavan", Ü.Hacıbəyovun "Ər və arvad", Qoldoninin "İki ağanın bir nökəri", Z.Hacıbəyovun "Evli ikən subay", V.Şekspirin "Otello" və s. bu kimi müəllifləri əsərləri tamaşaya hazırlanır. 1934-cü ildən fəaliyyətə başlayan Şəki Dövlət Dram Teatrında Mikayıl Ağayev, Yusif Yulduz, Niyazi Bədəlov, Cahangir Məmmədov, Həsən Əliyev kimi rejissorlar çalışmışlar. Bu teatrın ömrü çox qısa, yəni cəmi 13 il olmuşdur. Lakin bu qısa müddətdə Şəki səhnəsində SSRİ xalq artistləri İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı, respublikanın xalq artistləri Əlövsət Sadıqov, Lütvəli Abdullayev, Yusif Vəliyev, Məmməd Bürcəliyev, Sədayə Mustafayeva, əməkdar artistlər Səməd Tağızadə, Məmmədkəbir Hacıoğlu, Bilqeyis Ələsgərova kimi böyük sənətkarlar ilk addımlarını atmışlar. Şəki teatrı müharibə illərində də səmərəli fəaliyyət göstərmişdir. Bu dövrdə teatrın səhnəsində S.Vurğunun "Vaqif", "Fərhad və Şirin", Mdivanin "Vətən namusu", S.S.Axundovun "Laçın yuvası", S.Rüstəmin "Qaçaq Nəbi", C.Cabbarlının "Od gəlini", "Solğun çiçəklər" pyesləri tamaşaya hazırlanmışdır. Müharibədən sonra da te-

atr pis işləməmişdir. Lakin tezliklə teatrların təsərrüfat hesabına keçirilməsi bütün başqa teatrlarda olduğu kimi, Şəki teatrına da öz mənfi təsirini göstərdi. Öz xərcini-borcunu ödəyə bilməyən Şəki teatrı 1947-ci ildə öz fəaliyyətini dayandırdı. Beləliklə, çox istedadlı bir kollektiv dağılmış oldu.

Ancaq Şəkinin teatr həyatı davam edirdi. Dövlət Dram teatrı ləğv olunarkən onun bir neçə aktyoru, o cümlədən, Zahid Məlikov, Mustafa Əhmədzadə, Nəzir Məmmədov, Yunus Məmmədov, Bilqeyis Ələsgərova, Ramiz Sadıqov və başqaları Şəkidə qaldılar. Onlar əməkdar artist Məmmədkəbir Hacıoğlunun rəhbərliyi ilə rayon mədəniyyət evində dram dərnəyi təşkil etdilər. Həmin dərnək 1959-cu ilə qədər fəaliyyət göstərdi. Həmin il Şəkidə Xalq teatrı təşkil olundu. Xalq teatrı öz fəaliyyətinə C.Cabbarlının "Solğun çiçəklər" pyesi ilə başladı. Bu istedadlı kollektiv bir neçə dəfə Respublika və keçmiş İttifaq baxışlarında, müsabiqə və festivallarda müvəffəqiyyətlə iştirak etmişdir. Onun repertuarı olduqca zəngin idi. Burada C.Cabbarlının, V.Şekspirin, M.F.Axundovun, Mdivaninin, Korneyçukun, N.Vəzirovun, Ə.Haqverdiyevin, S.Vurğunun, Ş.Qurbanovun, M.Hüseynin, B.Vahabzadənin, S.Rəhmanın əsərlərinə geniş yer verilmişdir. Xalq teatrının aktyor heyəti də çox güclü idi. Bu teatrda hazırda Mingəçevir Dövlət Dram Teatrında aktyor işləyən İsa Əlimov, Şirəli İlyasov, Şəki Dövlət Dram Teatrının aktyorları Rafiq Yunusov, Aydın Əlibalayev, Sovqat Səmədova, Fərman Abdullayev, Oqtay Əhmədov və başqaları kimi çox istedadlı gənclər çalışırdılar. Teatr tez-tez qonşu rayonlara, Bakı şəhərinə, Gürcüstan Respublikasına qastrol səfərlərinə çıxırdı. Artıq hamı bu kollektivə dövlət teatrı kimi baxırdı. Respublikanın adlı-sanlı sənətkarları tez-tez Şəkiyə gəlib həmin kollektivlə birlikdə çıxış etməyi özlərinə şərəf sayırdılar. Şəhərin rəhbərləri də xalq teatrının fəaliyyətinə qayğı göstərirdilər. Buna şəhər və rayonun 1970-ci illərdə həm sosial, həm də iqtisadi inkişafının sürəti də imkan verirdi. Şəki həmin illərdə respublikanın ən böyük maldarlıq və taxılçılıq rayonlarından birinə çevrildi. Şəhərdə yeni-yeni sənaye müəssisələri yaradılırdı. Şəkinin

özündə 15-ə qədər orta məktəb, 5 texnikum, 2 peşə məktəbi və s. var idi. Rayon və şəhərdə muzeylərin, kitabxanaların, klubların, mədəniyyət evlərinin sayı sürətlə artırdı. Bəzi kəndlərdə müasir tələblərə cavab verə biləcək mədəni-maarif binaları inşa edilirdi. Sosial və iqtisadi inkişafın belə sürətində Şəki Dövlət Dram teatrının açılması zəhmətkeşlər tərəfindən tələb olunurdu. Nəhayət, 1975-ci ildə Xalq teatrının bazasında Şəkidə yenidən Dövlət Dram Teatrının açılması haqqında qərar verildi. Teatra görkəmli komediya ustası Sabit Rəhmanın adı verildi. Elə həmin il Dövlət Dram Teatrı üçün nəzərdə tutulmuş binanın inşası başa çatdırıldı. Kollektivi daha da möhkəmləndirmək məqsədilə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsinin bir qrup tələbəsi daimi işləmək üçün Şəki teatrına dəvət olundular. Tələbələr öz müəllimləri Vaqif Abbasovla Şəkiyə gəlib yerli aktyorlarla birləşərək fəaliyyətə başladılar. Teatrın ümumi yığıncağı Vaqif Abbasovu teatra baş rejissor təyin etdi. Koolektiv açılış üçün M.F.Axundovun "Hacı Qara" komediyasını hazırlamağı planlaşdırdı. Bunun da rəmzi mənası var idi. Hələ təxminən 100 il bundan əvvəl Şəkidə ilk dəfə teatr tamaşası kimi "Hacı Qara" oynanılanda tamaşa çox böyük təmtəraq və müvəffəqiyyətlə keçdi. Açılışda iştirak edən qonaqlar və yerli tamaşaçılar Şəkidə Dövlət Dram Teatrının yenidən təşkil olunmasından razı qaldıqlarını bildirdilər.

İndi S.Rəhman adına Şəki Dövlət Dram Teatrının fəaliyyətə başladığı vaxtdan 30 ilə qədər vaxt keçir. Həmin müddət ərzində teatrın səhnəsində 100-ə qədər pyes tamaşaya qoyulmuşdur. Burada Şekspirin, Stoyanovun, Petefenin, Brextin, Dumbadzenin, Nesinin, Qorkinin, S.Rəhmanın, C.Cabbarlının, B.Vahabzadənin, C.Məmmədquluzadənin, Ç.Aytmatovun, H.Cavidin, Xuqayevin və başqa bu kimi dramaturqların əsərləri tamaşaya hazırlanmışdır. Teatr müxtəlif illərdə keçirilən alman, çex, bolqar, rumın, macar teatr festivallarında iştirak edərək müvəffəqiyyət qazanmışdır. Burada R.Stoyanovun "Ustalar", Şekspirin "Romeo və Cülyetta", Anarın "Adamın adamı", S.Rəhmanın "Toy", M.F.Axundovun "Müsyö Jordan və Dərviş

Məstəli şah", A.Çxaidzenin "Çinari manifesti" pyesləri üzrə çox güclü və yaddaqalan tamaşalar hazırlanmışdır. Aktyorlardan İ.Əliyev, N.Cəfərov, M.Əmirov, M.İbadov, R.Yunusov, F.Abdullayev, X.Həşimzadə, Q.Məmmədova, Qən.Məmmədova, Ə.Rəhimov və başqaları müxtəlif illərdə ən yaxşı ifaçılığa, festivallarda fəal iştiraka görə pul mükafatlarına, fəxri fərmanlara, diplomlara layiq görülmüşlər. Teatr fəaliyyət göstərdiyi müddətdə bir neçə dəfə Moskvada, Kazanda, Daşkənddə, Səmərqənddə, Tbilisidə qastrol səfərlərində olmuşdur. Kollektiv Kuba Xalq Respublikasında və Çexoslovakiyada yaradıcılıq səfərlərində olmuşdur. Teatrın aktyorlarından Gülşad Baxşıyeva və Muxtar İbadov respublikanın əməkdar artisti və teatrın baş rejissoru H.Atakişiyev əməkdar incəsənət xadimi kimi fəxri ada layiq görülmüşlər. Teatr dəfələrlə keçmiş SSRİ və Respublika Mədəniyyət Nazirliyinin, Naxçıvan Mədəniyyət nazirliyinin, Respublika və keçmiş İttifaq Teatr Xadimləri İttifaqlarının, bir neçə şəhər icraiyyə komitəsinin fəxri fərmanlarına, mükafatlarına layiq görülmüşdür. Şəki teatrının yaxşı işindən danışarkən onun fəaliyyətini təmin edən və teatrı bu günümüzə gətirib çıxaran adamların da adını çəkmək, zəhmətlərini qeyd etmək lazımdır. Bu sözlər ilk növbədə teatrın ilk baş rejissoru Vaqif Abbasova aiddir. Bu kollektivin təşəkkül tapmasında V.Abbasovun zəhməti əvəzsizdir. Müxtəlif illərdə Şəki teatrında baş rejissor işləmiş H.Atakişiyev və C.Novruzov, teatrın yarandığı ilk gündən direktor işləyən Nazim Bilalov da kollektivin professional səviyyəyə qalxmasında böyük zəhmət sərf etmişlər. Bəstəkarlardan E.Sabitoğlu. A.Əzimov, C.Quliyev, E.Mansurov, balet-meysterlərdən Əli Əştari, dramaturqlardan R.Rövşən, V.Səmədoğlu, B.Vahabzadə, Anar və başqaları Şəki teatrı ilə həmişə sıx yaradıcılıq əlaqələri saxlamışlar.

KLASSİK SƏNƏTKAR

Bəxtiyarsan əgər çəkdiyin əmək
Cahan süfrəsinə versə bir çiçək.
H. CAVİD.

İsmayıl Osmanlı.

Bəxtiyar sənətkar o kəsdir ki, həyatdan köçdükdən sonra da onun xatirəsi hörmətlə yad edilir. Azərbaycan mədəniyyəti tarixində belə şöhrət qazanmış sənətkarlardan biri də xalqımızın sevimli artisti İsmayıl Osmanlı olmuşdur.

Osmanlı İsmayıl Osman oğlu 1902-ci ildə Şəkidə keçəçi ailəsində anadan olmuş, ilk təhsilini də orada - "Vətən" məktəbində almışdır. On bir yaşında atasını itirən İsmayıl gah əmisi, gah da dayısının himayəsində yaşamaq məcburiyyətində qalmış, lakin təhsildən ayrılmamışdır. 1914-cü ildə əmisi onu Şəki rus məktəbinə qoyur. Lakin maddi vəziyyətilə əlaqədar olaraq təhsilini davam etdirə bilmir, dərzi şagirdi, ipək fabrikində fəhlə və dabbaqxanada işləməli olur. İsmayıl Azərbaycanda Yeni hökumət qurulduqdan sonra şəhərdə təşkil edilmiş dram dərnəyinə yazılır. Şəki dram dərnəyi və mədəniyyət evinin müdiri Baxşəli Axundov onun yetişməsində böyük rol oynamışdır. İ.Osmanlı belə deyirdi: "...Bir gün mədəniyyət evinin müdiri Baxşəli Axundov məni yanına çağırıb klubun katibi işləməyi mənə təklif etdi... Yadımdadır ki, mənə ayda beş manat maaş verirdilər... Artıq ardı-arası kəsilmədən rollar alırdım. Mənim ilk müəllimim Baxşəli Axundov olmuşdur. Onun məşqlərdə dediyi fikirlər indi də mənim xatirimdən çıxmayıb" (T.Kazımov. İsmayıl Osmanlı, Bakı 1974, səh.5).

İ.Osmanlının professional aktyor kimi yetişməsində rolu

olan şəxsiyyətlərdən biri də Azərbaycanın xalq artisti Mövsüm Sənani idi. M.Sənani Şəki mədəniyyət evinin müdiri B.Axundov tərəfindən dram dərnəyinə dəvət edilir. O, Şəki həvəskarları ilə S.S.Axundovun "Laçın yuvası" pyesini tamaşaya hazırlayır və özü Əmiraslan bəy rolunu oynayır. Artıq məşhurlaşan Şəki dram dərnəyi Ağdam, Ağdaş, Göyçay və və gəncə şəhərlərində qastrol tamaşalarında olur. Bütün bu qastrol tamaşalarında gənc İsmayıl da iştirak edirdi. 1923-cü ildə İ.Osmanlı Gəncə dram dərnəyinə qəbul edilir. O, gündüzlər Gəncə fəhlə fakültəsində təhsilini davam etdirir, gecələr aktyorluqla məşğul olurdu. Gəncədə tamaşaçıların rəğbətini qazanan İ.Osmanlı dərnəyin rəhbəri seçilir və kollektivdə rejissor kimi fəaliyyət göstərir. Həmin dövrdə Gəncə dram dərnəyində xalqımızın sevimli sənətkarı Adil İsgəndərov fəaliyyət göstərmişdir. Osmanlının bir aktyor kimi yetişməsində Gəncə mühitinin böyük rolu olmuşdur. İ.Osmanlının əsl yaradıcılıq fəaliyyəti, bir sənətkar kimi yetişməsi Tiflis Azərbaycan Teatrından (1928) başlayır. O zaman Tiflis Azərbaycan Teatrına başçılıq edən, olduqca məlumatlı, istedadlı teatr xadimi Mir Seyfəddin Kirmanşahlının mahir aktyor Osmanlıya təsiri böyük olmuşdur. Daha sonra - 1929-cu ildən ta ömrünün sonuna qədər İ.Osmanlı Azərbaycan Akademik Dövlət Dram Teatrında işləmişdir. Bakı fəaliyyətinin ilk dövründən o, görkəmli səhnə ustaları A.A.Tuqanovdan, İ.Hidayətzadədən çox şey öyrənmişdir. Özü bu barədə belə nağıl edirdi: "Bakıya teatra daxil olduğum ilk gündən hiss etdim ki, tamamilə başqa bir mühitə düşmüşəm. Mənim diqqətimi çox cəlb edən İ.Hidayətzadə idi. Bu aktyorun oyununu, onun təbii, inandırıcı və çox məharətli səhnə obrazlarını unuda bilmirəm".

Unudulmaz, çoxşaxəli aktyorluq istedadına malik olan İ.Osmanlının yaratdığı rolları saymaqla qurtaran deyil: Heydərqulu ("Solğun çiçəklər" - C.Cabbarlı), Surxay, Mirzə Qərənfil, Xəlil ("Toy", "Xoşbəxtlər", "Əliqulu evlənir" - S.Rəhman), Əmrah ("Pəri cadu" - Ə.B.Haqverdiyev), Məşədi Oruc, Hacı Nail ("Ölülər", "Dəli yığıncağı" - C.Məmmədquluzadə), Təlxək

("Kral Lir" - V.Şekspir), Karaıdışev, Tixon ("Çəhizsiz qız", "Tufan" - A.Ostrovski), Malının ("Lyubov yarovaya" - K.Trenyov), İsidor ("Darıxma, ana" - N.Dumbadze) və s. İ.Osmanlı Azərbaycan mədəniyyəti tarixində ölməz bir kino aktyoru kimi də şöhrət qazanmışdır: "Kəndlilər"də daxili işlər naziri, "Bəxtiyar"da restoran xidmətçisi, "Bir məhəlləli iki oğlan"da Mahmud, "O olmasın, bu olsun"da Rza bəy, "Həqiqi dost"da usta Şirəli, "Yenilməz batalyon"da usta Yusif, "Poçt qutusu"nda Novruzəli, "Su ərizəsi"ndə Qədim dayı, "Nəsimi"də Fəzlullah Nəimi, "Yeddi oğul istərəm"də Kələntər dayı, "Ulduzlar sönmür"də Hacı Zeynalabdin Tağıyev, "Mən ki, gözəl deyildim"də Şərif kişi, "Dəli Kür"də faytonçu Məmmədəli və s.

T.Kazımov istedadlı kino sənətkarı İ.Osmanlı haqqında yazmışdır: "O, ekranda müxtəlif xarakterlər yaratmaqla sənətdəki boyalarının tükənməzliyini bir daha nümayiş etdirmişdir. İ.Osmanlının kinematoqrafiya sahəsindəki yaradıcılığında yaxşı bir cəhət də odur ki, artist həmişə yekrəng rolda oynamır. Əksinə, hər bir obrazı bir insan taleyinə, bir insan xarakterinə çevirir. Təbii istedad, kino sənətinə nəhayətsiz məhəbbət, zəhmətsevərlik və tələbkarlıq - bütün bu keyfiyyətlər İsmayıl Osmanlının yaradıcılığını həmişə təravətli edir, onun sənətinə pərəstişkarların məhəbbətini qat-qat artırır (İsmayıl Osmanlı, Bakı, 1974, səh.67). Xalqımızın böyük oğlu N.Nərimanovun həyatından bəhs edən "Ulduzlar sönmür" filmində İ.Osmanlının yaratdığı Hacı Zeynalabdin Tağıyev obrazına "Pravda" qəzetinin 3 fevral 1972-ci il nömrəsində yuksək qiymət verilmişdir.

1968-ci ilin mayında Zaqafqaziya, eləcə də Ukrayna telefilmlərinin festivalında nümayiş etdirilən "Poçt qutusu" (rejissor Rauf Kazımovski) telefilmi böyük müvəffəqiyyət qazanmış, İsmayıl Osmanlı kişi rollarının ən yaxşı ifaçısı kimi qiymətləndirilib, ona festivalın birinci dərəcəli diplomu verilmişdir.

İ.Osmanlının "Yeddi oğul istərəm" filmində yaratdığı Kələntər obrazı əvəzsizdir. "Ədəbiyyat və incəsənət" qəzetindəki resenziyadan: "Qocaman və sevimli sənətkarımız İsmayıl Os-

manlının kino yaradıcılığında Kələntər surəti yeni bir səhifədir. Usta aktyor bu surəti elə real, elə təbii və təsirli yaradır ki, tamaşaçı yerində sakit əyləşə bilmir... Təcrübəli aktyorun bu yeni işi gənclərimiz üçün əsl yaradıcılıq nümunəsidir (10.10.1970).

Tükənməz istedad sahibi, gözəl sənətkar İ.Osmanlıya 1940-cı ildə respublikanın əməkdar, 1948-ci ildə xalq artisti, 1974-cü ildə isə SSRİ xalq artisti fəxri adı verilmiş, bir çox orden və medallarla təltif edilmişdir.

Xalqımızın qəlbində əbədi yaşayan sənətkar İsmayıl Osmanlı 1978-ci il iyunun 22-də Bakıda vəfat etmişdir.

İLK SƏHNƏ QARANQUŞUMUZ

Azərbaycanlı aktrisalar içərisində nəzəri cəlb edən qüvvətli simalardan biri də Sona xanımdır.
Cəfər CABBARLI.

Vaxt var idi ki, səhnədə gəlin, qız rolunda oynayanlar kişilər olub.

Əhməd Bəşir oğlu Bədəlbəyli - Əhməd Ağdamski 12 il səhnəyə qadın qiyafəsində çıxmış, bir-birindən fərqlənən obrazlar yaratmışdır: Leyli ("Leyli və Məcnun"), Minnət ("Ər-arvad"), Gülnaz ("O olmasın, bu olsun"), Xurşidbanu ("Şah Abbas və Xurşidbanu"), Təhminə ("Rüstəm və Söhrab", Əsli ("Əsli və Kərəm"), Şahsənəm ("Aşıq Qərib") və s. 1921-ci ildən Hüseynağa Hacıbabəyov da Ağdamskinin gördüyü işi yerinə yetirməli olur. Həmin il Bülbül Kərəmi oynayanda Əsli - Hüseynağa idi.

Bütün bunları deməkdə məqsədim odur ki, XX əsrin əvvəllərində opera və dram sənəti inkişaf etdiyi, görkəmli kişi aktyorlarının yetişdiyi bir dövrdə səhnəmizdə qadın aktyorları yox dərəcəsində idi. Bu hal isə səhnə sənətimizin inkişafına maneçilik törədirdi. O zamanlar qadının səhnəyə könüllü gəlməsi böyük

hadisə sayılırdı. Məhz belə bir dövrdə Sona Hacıyeva və anası Əzizə Məmmədova çadralarını atıb səhnəyə gəlmişdilər. Bu ana-balanın səhnəyə gəlişi ilə səhnədə Azərbaycan qadınının saf nəfəsi hiss edilmiş, milli mədəniyyətimizin çiçəklənməsinə geniş yol açılmışdır.

Sona xanımın anası Əzizə Əbdülbağı qızı Məmmədova 1892-ci ildə Tiflisdə anadan olmuşdur. O, Azərbaycanın görkəmli xanəndəsi, Əmək Qəhrəmanı (1927) Zülalov Əbdülbağı Kərbəlayı Əli oğlunun - Bülbülcanın qızıdır. Bülbülcan 1841-ci ildə Şuşada doğulmuş, ilk musiqi təhsilini orada - Xarrat Qulunun məktəbində almış, Gəncə, Şəki, Qarabağ və s. yerlərdə xanəndəlik etmişdir. Geniş diapozonlu, məlahətli səsə, güclü zənguləsərə malik Bülbülcan 1920-ci ildən Bakıya köçmüş, "Qısamüddətli Şərq musiqisi kursları"nda ("Şərq konservatoriyası"), 1923-cü ildən Azərbaycan Dövlət türk Musiqisi Məktəbində muğamdan dərs demişdir. Bütün bunları yada salmaqda məqsəd odur ki, haqqında danışmaq istədiyimiz Leylilərdən biri - Sona Hacıyevanın nəsli-kökü haqda müəyyən məlumatımız olsun.

İlk Azərbaycan aktrisası olan Əzizə xanım səhnə fəaliyyətinə Bakıda Əli Bayramov adına klubun nəzdindəki dram dərnəyində başlamış, sonra Bakı Tənqid-Təbliğ Teatrında (1921-1925), Bakı Türk İşçi Teatrında (1925-1933), 1933-cü ildən Azərbaycan Dövlət Dram Teatrında işləmişdir. Görkəmli Azərbaycan aktrisası qadın obrazlarının ən yaxşı ifaçılarından sayılırdı: Tükəz, Ziba ("Hacı Qara", "Lənkəran xanının vəziri" - M.F.Axundov), Hafizə ("Pəri cadu" - Ə.B.Haqverdiyev), Fatmanisə, Gülnisə, Şərəbanı ("Almaz", "Solğun çiçəklər", "Yaşar" - C.Cabbarlı), Zalxa ("Toy" - S.Rəhman), Sənəm ("Göz həkimi" - İ.Səfərli), Vasilisa ("Həyatın dibində" - M.Qorki) və s. Əzizə xanım kinoya çəkilmiş ilk azəri qadınlarından biridir: "Hacı Qara", "İsmət", "Almaz", "Yeni horizont", "Görüş", "Səhər" və s. filmlərdə çəkilmişdir.

Respublikanın əməkdar artisti (1936) Əzizə Məmmədova 1961-ci ildə Bakıda vəfat etmişdir.

İndi isə Əzizə Məmmədovanın qızı, Bülbülcanın nəvəsi Sona xanım haqda. Hacıyeva Sona Salman qızı 25 iyun 1907-ci ildə Şəkidə doğulmuşdur. 1908-ci ildə Salman kişi vaxtsız öldüyündən kiçik Sona öz qardaşı ilə birlikdə babası Əbdülbağı Zülalovun - Bülbülcanın himayəsində Tiflis şəhərində yaşamışdır. 1916-cı ildə Bülbülcan Tiflisdən Aşqabada, 1919-cu ildə isə Bakıya köçmüşdür. 1920-ci ildən Sonanın anası Əzizə xanım əvvəlcə Əbilov adına klubda, sonra Əli Bayramovun adını daşıyan və Azərbaycan qadınlarının həyatında çox mühüm rol oynamış klubda çıxış etməyə başlamışdır. Kiçik Sona anasının sənətinə güclü meyil salmış, onun iştirak etdiyi tamaşalara maraqla baxmışdır.

Əliheydər Ələkbərovun (1959) məlumatından: "1923-cü ildə indiki M.Əzizbəyov adına Azərbaycan Dram Teatrında Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" əsərinin tamaşası göstərilirdi. Tamaşaların birində Səlimə rolunu ifa edən Lizina xanım xəstələnir, teatrın direktoru Rza Təhmasib bu rolu oynamaq üçün Sonanı teatra dəvət edir. Cəmi bir gün məşq etməyinə baxmayaraq Sona Hacıyeva bu rolu məharətlə oynayıb kollektivin diqqətini özünə cəlb edir. Bundan sonra onu Bakı işçi teatrından o zaman Azərbaycan Dövlət Bədaye Teatrı adlanan indiki M.Əzizbəyov teatrına qəbul edirlər".

Maraqlı orasıdır ki, istedadlı aktrisa həmin illərdə Azərbaycan opera sənətinin banilərindən biri olan Hüseynqulu Sarabskinin məsləhəti ilə opera teatrında da çıxış etmiş, öz mənalı oyunu və gözəl səsi ilə tamaşaçıların böyük rəğbətini qazanmışdır. Sona xanım Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında Leyli, "Əsli və Kərəm"ində Əsli, "Arşın mal alan" operettasında Asiya, Z.Hacıbəyovun "Aşıq Qərib" operasında Şahsənəm rollarında çıxış etmişdir.

Sona xanımın yaratdığı rollar öz rəngarəngliyi, koloriti ilə bir-birindən fərqlənir: Sona ("Hacı Qara" - M.F.Axundov), Xumar ("Şeyx Sənan" - H.Cavid), Atlas ("Həyat" - M.İbrahimov), Gülnar, Mehriban ("Vaqif", "Xanlar" - S.Vurğun) , Zinyət

("Toy" - S.Rəhman), Ofeliya, Cülyetta ("Hamlet", "Romeo və Cülyetta" - V.Şekspir), Qalçıxa ("Günahsız müqəssirlər" - A.Ostrovski), Anna ("Həyatın dibində" - M.Qorki). Sona xanımın yaradıcılığında Cəfər Cabbarlı dramaturgiyası mühüm rol oynamışdır: Solmaz ("Od gəlini"), Sevil, Gülüş ("Sevil"), Yaqut ("Yaşar"), Almaz ("Almaz") və s. Ümumiyyətlə, Sona Hacıyeva 150-dən çox rolda oynamışdır. Tamaşaçılar onu həm lirik, həm də komik rollarda görmüşlər. Sənətkarın qüdrəti onda idi ki, hər iki janrda eyni uğurla çıxış edə bilirdi. Unudulmaz sənətkar Bakı kinostudiyasında "Bəxtiyar", "Qızmar günəş altında", "O olmasın, bu olsun" kimi filmlərdə də çəkilmişdir.

Sona Hacıyeva 1941-1945 müharibəsi illərində hərbi xəstəxanalarda, qoşun hissələrində, fabrik və zavodlarda tez-tez çıxışlar edirdi. Görkəmli Azərbaycan aktrisası, respublikamızın xalq artisti (1949) Sona Hacıyeva bir çox orden, medal və fəxri fərmanla təltif olunmuşdur.

Unudulmaz sənətkar 1979-cu ildə Bakıda vəfat etmişdir.

BƏLİ, MƏN ŞƏKİLİYƏM... KATIRLA, GÜLÜMSƏ

Həmişə deyif-gülənlərin canını yeyim. Qoy heç kəsin üzünən gülüş əysiy olmasın.

("Şəkinin gülüş çələngi" kitabına Hacı dayının müsahibəsindən).

Fəqət ölən deyil onun sənəti,
Bağlamış adına əbədiyyəti.
Mikayıl Müşfiq.

"Qabrovo lətifələri"ni 1987-ci ildə tərcümə edən və ön sözün müəllifi Cahangir Aslanoğlu yazır: "...Qabrovodakı yumor festivalının qayəsi belə adlanır: "Dünya gülməsə idi, yaşamazdı."

Dünyada şöhrət qazanmış gülüş diyarlarından biri də Şəki-

Lütvəli Abdullayev.

dir. Heç təsadüfi deyildir ki, Zaqafqaziyada ilk dəfə (11 iyun 1983-cü il) Şəkidə gülüş bayramı keçirilmiş, Qabrovo ilə qardaşlıq-dostluq əlaqələri yaranmışdır.

Hikmət Əbdülhəlimovun toplayıb tərtib etdiyi "Şəkinin gülüş çələngi" ("İşıq", 1988) kitabına professor Əfəndizadənin yazdığı girişvari sözdə şəkililərin şirin, səmimi, incə və olduqca ağıllı zarafatlarına işarə edən bir şeir verilmişdir:

Şəkiliyəm, şəkili,
Sözüm ağır çəkili,
Zarafatdan qaçmaram,
Söz həddini aşmaram.
Gülüşüm qanatdıdı,
Ləzzətlidi, datdıdı.
Şit sözə baş qoşmaram,
Hər sözüm urvatdıdı.

Şəkidə elə bir adam tapılmaz ki, onun özünəməxsus hazırcavablığı, yumoru olmasın. Xalq şairimiz Bəxtiyar Vahabzadənin dililə desək: "...Şəki müdrik gülüşlərin mərkəzidir. Heç də təsadüfi deyil ki, M.F.Axundov, Sabit Rəhman kimi komediya ustalarımızın, İsmayıl Osmanlı, Lütvəli Abdullayev kimi komik aktyorlarımızın ömür-gün yolları Şəki torpağından keçmişdir".

Lütvəli Abdullayev. Bu gözəl sənətkarı kim tanımır?

Yenə Bəxtiyar Vahabzadənin xatirələrindən: "Həkim Nurəhməd Əfəndiyevin (Nurəhməd Əfəndiyev məşhur cərrah, tibb elmləri namizədi. Bakı 4 №-li klinik xəstəxanasında cərrahiyyə şöbəsinin müdiri işləmiş, olduqca səmimi, hazırcavab, bəmzə, zarafatcıl bir adamdı, həddindən çox lətifə bilirdi - **Ə.H.**) aktyor Lütvəli Abdullayevlə çoxdan zarafatı olduğunu bilirdim. Bir gün Nurəhməd mənə zəng vurub dedi ki, Lütvəli xəstəxanada yatır, gedək onu görməyə. Vədələşdiyimiz vaxtda

görüşdük. Nurəhmədin yanında başqa bir kəs də vardı. Məlum oldu ki, bu adam baytar həkimidir və o da bizimlə getmək, çoxdan pərəstiş elədiyi Lütvəli ilə tanış olmaq istəyir. Lütvəli ilə görüşəndə Nurəhməd həkimi ona təqdim edib:

- Bu kişi həkimdir, veterinardır, gətirdim ki... - deyincə Lütvəli Nurəhmədin əsl məqsədini başa düşüb, dərhal sözünü kəsdi:

- Veterinar olduğunu bildim. İndi de görək, hansınızın həkimidir?...

Bir dəfə də Lütvəlidən soruşdum:

- Söz döyüşündə heç səni bağlayan olubmu?

- Olub, - deyə başladı əhvalatı danışmağa:

Şəkidə ərzaq dükanına girib satıcıdan soruşdum:

- Sizdə palan-quşqun olarmı?

Satıcı cavab verdi:

- Lütvəli əmi, var, amma sənin ölçünə çətin tapılar, nədən ki, çox yoğunsan..."

Abdullayev Lütvəli Əmir oğlu 22 mart 1914-cü ildə dünyanın tanınmış gülüş diyarı qədim Şəkidə anadan olmuşdur. Lütvəlinin səhnəyə gəlişi də çox maraqlı olmuşdur. 1928-ci ildə Bakı artistləri Şəkidə Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasını nümayiş etdirirlər. Tamaşada H.Sarabski, Əhməd Anatolu kimi tanınmış sənətkarlar iştirak edirlər. Gənc Lütvəlinin Ə.Anatolu ilə tanış olmağı onu opera teatrına gətirib çıxarır. Özünəməxsus gözəl səsə malik L.Abdullayev 10 il Azərbaycan Opera və Balet Teatrında işlədikdən sonra Musiqili Komediya Teatrına keçir, ömrünün axırına qədər bu gülüş ocağında qalır.

Musiqili Komediya Teatrı dedikdə, ani olaraq Lütvəli Abdullayev, Bəşir Səfəroğlu, Nəsibə Zeynalova yada düşür. L.Abdullayevin yaratdığı Möhsün ("Beş manatlıq gəlin" - S.Rüstəmov), Qoşun ("Toy kimindir?" - A.Məşədibəyov), Dursun ("Durna" - S.Rüstəmov), Qəhrəman ("Gözün aydın" - F.Əmirov), Məhəmməd ("Ulduz" - S.Ələsgərov), Mitoş ("Hicran" -

E.Sabitoğlu), Vəli ("Arşın mal alan" - Ü.Hacıbəyov) obrazları heç vaxt yaddan çıxmayacaqdır.

L.Abdullayevi xalqa sevdirən, onu nəinki respublikamızda, onlarla xarici dövlətlərdə tanıdan "Arşın mal alan" kinofilmindəki Vəli obrazı oldu. Hətta Şəkidə çoxları onu Vəli adlandırırdılar. Bu, Lütvəlinin 1946-cı ildə kinoda ilk çıxışı idi. L.Abdullayev bu çıxışına, yaratdığı Vəli obrazına görə o vaxtkı Stalin mükafatına layiq görülmüşdü.

Sevimli sənətkara Azərbaycanın xalq artisti adı 1960-cı ildə verildi. Lakin buna qədər o, xalqın idi. Xalq onu sevirdi. Onu xalq 1946-cı ildən özünün artisti, özünün sənətkarı, özünün övladı bilirdi.

L.Abdullayev gözəl sənətkar olmaqla bərabər, sadiq ər, mehriban ata, dəyanətli dost, təvazökar ziyalı, yumşaq qəlbli, xeyirxah bir insan olmuşdur. Onu tanıyanların xatirələrindən məlum olur ki, həqiqi insana məxsus bütün gözəl keyfiyyətlər L.Abdullayevdə öz əksini tapmışdır.

Deyirlər ki, ərlə arvadın kündəsi eyni xəmirdən tutular. Sənətləri müxtəlif, dünyaya göz açdıqları mühit başqa-başqa olsa da, çox xasiyyətləri bir-birinə bənzəyirdi. Bəli, Lütvəli ilə həyat yoldaşı Sevda xanımın çox xasiyyətləri eyni idi; sadəlik, təvazökarlıq, mehribanlıq, sadiqlik, gözütoxluq, qonaqpərvərlik... saymaqla qurtaran deyil. Mən yenə də təkrar edirəm: dünyaya göz açdıqları mühit bambaşqa olsa da. Axı deyirlər, ot kökü üstə bitər. Sevda xanım məhz belə köklü yerin, Həsənbəyin qızıdır.

Dövrünün görkəmli siyasi və ictimai xadimi Həsənbəy Məşədi Hüseyn oğlu Ağayev 1875-ci ildə Azərbaycanın qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Gəncədə anadan olmuşdur. Orta təhsilini Gəncə klassik gimnaziyasında aldıqdan sonra Hacı Zeynalabdin Tağıyevin (1838-1924) vasitəsilə Moskva Universitetinin tibb fakültəsini qurtarmışdır (1901). Vətənə qayıdan Həsənbəy həkimliklə bərabər "Molla Nəsrəddin" jurnalında da əməkdaşlıq etməyə başlayır. İlk müsəlman sosial-

demokrat partiyasının üzvü olan H.Ağayev təşkilatın tapşırığı ilə "Mülk-sinif-firqə" (müəllifi məlum deyil) kitabını rus dilindən Azərbaycan dilinə tərcümə edir və bu əsər 1906-cı ildə "Qeyrət" mətbəəsində çap olunur. Qeyd etmək lazımdır ki, bu kitab Azərbaycan dilində ilk inqilabi əsərlərdən biri sayılır. Buna görə də H.Ağayev təqiblərə məruz qalmış, 1906-1907-ci illərdə İranda mühacirətdə yaşamaq məcburiyyətində qalmışdır. H.Ağayevin bir həkim və ziyalı kimi xalqın qarşısında böyük xidmətləri olmuşdur: 1907-ci ildə keçirilən Qafqaz müsəlman müəllimləri qurultayı mərkəzi komitəsinin sədri, Gəncədə rus dilində çıxan "Yujnı Qafqaz" adlı qəzetin redaktoru (1911-1912), Gəncə müsəlmanları arasında maarifi yayan cəmiyyətin sədri, görkəmli ictimai xadim Xudadat bəy Rəfibəyovla (1878-1920) Gəncə şəhərində ilk tibb cəmiyyəti (1914) yaradıcılarından biri, "Türk ədəbi-mərkəziyyət partiyası"nın (bu partiya Rusiyanı federativ şəkildə qurmaq və onun tərkibində Azərbaycana muxtariyyət vermək uğrunda mübarizə aparırdı) banilərindən biri, Rusiya müsəlmanları qurultayının (may, 1917-ci il) iştirakçısı, Zaqafqaziya seyminin üzvü (dekabr, 1917-ci il), Azərbaycan Dəmir Yolu İdarəsinin baş həkimi (sentyabr, 1918-ci il), Azərbaycan Demokratik Respublikası (28 may 1918-ci il) parlamenti sədrinin - Əlimərdan bəy Topçubaşovun (1862-1934) müavini (7 dekabr 1918 - 2 fevral 1920-ci illər) işləmişdir. M.Əliyevin məlumatından ("Odlar yurdu", № 3, fevral 1989-cu il) aydın olur: "Parlament sədri Əlimərdan bəy Topçubaşov Bakıda olmadığı üçün Həsənbəy Ağayev onun vəzifəsini 1920-ci il fevralın 2-dək icra etmişdir. Bu vəzifədən azad olunan H.Ağayevə bütün parlament üzvlərinin imzası ilə təşəkkürnamə də verilmişdir.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra Həsənbəy Ağayev Tiflisə getmişdir. O, həmin il iyulun 19-da düz bir ay əvvəl Fətəlixan Xoyskiyə (1875-1920) qəsd edən muzdlu qatilin gülləsi ilə öldürülmüşdür. O da F.Xoyski kimi Azərbay-

can dramaturgiyasının banisi M.F.Axundovun (1812-1878) məzarı yanında dəfn edilmişdir".

Bütün bunları ətraflı şərh etməkdə məqsədim nədir? Repressiya dediyimiz bir dövrdə bəziləri belə ailədən olanlara hətta salam verməkdən çəkinmişlər. Belə ailələrlə qohum olmaq arzusunda olmağı yalnız möcüzə adlandırmaq olardı. Bunun üçün həqiqi insanlıq, saf məhəbbət, mərdlik-kişilik tələb olunurdu.

Unudulmaz Lütvəli Abdullayevin həyat yoldaşı Sevda xanımın təəssüratlarından: "Lütvəli ilə 1943-cü ildə tanış olmuşam. 1949-cu ildə toyumuz olmalı idi. Müəyyən səbəblərə görə 1956-cı ildə evləndik. Atam Həsənbəy Ağayev 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikası parlamenti sədrinin müavini olmuş, öldürüldükdən sonra xalq düşməni elan edilmişdir. Hətta babam, əmilərim də xalq düşməni hesab olunurdu... Lakin Lütvəli heç bir şeydən çəkinmədi..."

Bəli, mərd insan L.Abdullayev bilirdi ki, gec-tez haqq öz yerini tapacaqdır. Xalqının xoşbəxtliyi, suverenliyi, dili, savadlanması uğrunda canından keçməyə hazır olan Həsənbəy kimi bir ziyalı onun düşməni ola bilərdimi? Onun təqsiri xalqını sevməsində idi.

Yenə Sevda xanımın xatirələrindən: "18 il bir yerdə yaşamışıq. Lütvəli mənim üçün həm ata, həm dost, arxa və ər olub. Mən kitab aləmində böyümüşəm. Evlənəndən sonra kitabla məşğul olmağa az vaxt tapırdım. Qapımız heç vaxt bağlı olmazdı. Evimizdən qonaq əskik olmazdı. O, hamının dərdinə şərik olardı, əlindən gələni əsirgəməzdi. Həyatda çox ciddi idi. Ailədə artıq zarafat etmək, şit danışmazdı. Hətta evimizdə anektod danışmağa yol verməzdi. Lakin uşaqlara, qohumlara qarşı səmimi olub, ciddiliyi bir qədər unudulardı. Rol üzərində evdə işləməzdi. O, çox müşahidəçi idi. Küçədə, məclisdə müəyyən tiplərə rast gələndə onlarla söhbət eləməyi xoşlayar, sonra onların hərəkətlərindən yaradıcılığında istifadə edərdi..."

Lütvəli sənətinin, Lütvəli yumorunun, Lütvəli gülüşünün vurğunu olan dahi xalq şairimiz B.Vahabzadə deyir ki, həyatda

olan eybəcərlikləri görən adam, qəlbən içəridə ağlayıb, sonra gülməlidir. Belə olmasa adam gülə bilməz. L.Abdullayev məhz belə sənətkar idi. O, hər şeyi açıq gözlə görür, düzgün qiymətləndirir, haqsızlıq-ədalətsizlikləri hiss edir, həyatın, dövrün nəbzini düzgün tutur... qəlbində ağlayıb, səhnədə gülürdü, evdə ciddi, rolda komik olurdu. Lütvəli tək güldürmürdü, o, həm də düşündürürdü. Bax, budur əsl sənətkarlıq.

Lütvəli Abdullayev olduqca sadə, səmimi qəlbə malik bir insan olmuşdur. O, paxıllığın nə olduğunu bilməmişdir. Sevimli gülüş ustalarımızdan xalq artisti Nəsibə Zeynalova deyir: "Mənim, Bəşir Səfəroğlunun, Səyavuş Aslanın bir sənətkar kimi yetişib tanınmasında L.Abdullayevin böyük xidmətləri olmuşdur. "Ulduz" tamaşasında məni şəxsən o xalqa tanıtdı. Lütvəli olduqca xeyirxah bir adam idi..."

L.Abdullayevi məşhurlaşdıran xüsusiyyətlərindən biri də onun məlahətli səsi olmuşdur. Əgər belə olmasaydı, gözəl sənətkarımız on il müddətində opera teatrında işləyə bilərdimi? Bəstəkar Vasif Adıgözəlov deyir: "L.Abdullayevin muğamat üstündəki xırdalıqları əsl sənətkara məxsus idi. Ancaq təvazökarlıqla deyərdi ki, zarafat eyləyir. Ancaq belə deyildi".

Doğrudan da, bu belə idi. Bir misal bu fikri tamamlaya bilir: "Ulduz" tamaşasında Məhəmmədlə Nargilənin dueti.

Unudulmaz gülüş ustası L.Abdullayevin yaradıcılığından, xalqı qarşısındakı xidmətlərindən çox danışmaq olar. Sözümü rəhmətlik ustadın son lent yazısından götürdüyüm bir neçə kəlamla yekunlaşdırmaq istərdim: "Mən yaşımı gizlətmirəm, 50 olub. Anam sağ olanda deyərdi: "Oğlum əl boyda uşaqdır". Evdə deyirlər ki, dəyişməmişəm. Qrimlənib 30 yaşında cavanı, yeri gələndə buğuburma oğlan rolu da oynayıram. Tamaşadan sonra güzgüdə özümə baxanda görürəm: "yox", o söz. Məşədinin adamlığı olmasa da, bu kəlamı yaxşı deyib: "Mən nə qədər, nə qədər qoca olsam da dəyərəm min cavana..."

Şirəli baba qədər olmasa da, şəkili Həkim Baba qədər də olsa yaşayacağam. Sağlıq olsun..."

Ancaq namərd ölüm buna imkan vermədi. O, hətta Həkim Baba yaşına da çatmadı. Xalqımızın sevimlisi Lütvəli Abdullayev 9 dekabr 1973-cü ildə Bakıda vəfat etdi. Yox, xalqın sevdiyi sənətkara öldü demək günahdır. Sənətkar ölmür, o dünyasını dəyişir. Sənətkar ölmür, o xalqının qəlbində yaşayır. Sənətkar ölmür, o, xalqını yaşadır, onun gözəl adətlərini təbliğ edir. Sənətkar ölmür... Xalq şairimiz Nəbi Xəzrinin dililə desək:

"...Yox, yox, ölmək üçün doğulmur insan,
Doğulur yaşamaq, yaşatmaq üçün."

HACI OĞLU

Ölüm də Allahın verdiyi paydı,
Hər kəs öz qoynunda gəzdirir onu.
Fikrət QOCA.

Məmməd Kəbir Kərimov.

Müharibədən sonrakı illər. Şəkinin mərkəzində əzəmətli bir ağac, daha doğrusu, qarağac vardı. Bu ağacın gövdəsini əl-ələ tutmuş bəlkə 12-15 adam zorla qucaqlayardı. Şəhərin hər yerindən bu ağac görünərdi. İlahi, bu ağac neçə-neçə yüzilliklərin şahidi idi! Lakin "ağıllı" rəhbərlərdən biri bir gün əmr verdi ki, keçmişimizin tarixini kəsin, oradan yol salınır...

Bu ağac haqda xatirələrimi yada salmaqda bir məqsədim var. Həmin möhtəşəm ağacın altında bir əzəmətli bina vardı. Vaxtilə Şəki Xalq Teatrı bu binada yerləşirdi. Şəkililər buranı "Klub" adlandırır, "Qarağac" deyəndə onun qarşısındakı ağacı nəzərdə tuturdular.

O dövrdə Şəki teatrında bir qrup istedadlı artist fəaliyyət göstərirdi: Hacıoğlu, artist Səyyarə, artist Bilqeyis, artist Asya, Dev Nəzir və qeyriləri. Nəzir Məmmədov "Məlik Məmməd"

tamaşasında Dev rolunu o qədər gözəl, o qədər təsirli oynamışdı ki, şəkililər tez ona "Dev" ləqəbini vermişdilər. Nəzir müəllim Şəkidə teatr bağlandıqdan sonra mədəniyyət şöbəsində müxtəlif vəzifələrdə işləmiş və eyni zamanda gözəl ictimaiyyətçi idi. Belə ki, Nəzir müəllim uzun müddət məhəllə sovetinin sədri olmuşdur.

Şəkililər başqa tanınmış sənətkarların - Səyyarə, Bilqeyis, Asya və s. adlarının qarşısına "artist" sözü əlavə etmişlər. Bu söz onların sənətlərini göstərirdi. Onların içərisində tanınmış ağsaqqal və əsl sənətkar Hacıoğlu idi. Ona artist demirdilər. Ona Qacar, Yaqo, Məşədi İbad, Dövlət bəy, Süleyman demirdilər. Baxmayaraq ki, Hacıoğlu yuxarıda adlarını çəkdiyimiz obrazların həqiqi yaradıcısı idi. Onun öz adı vardı: Hacıoğlu! Şəkililər bilirdilər ki, Hacıoğlu artistdir. Lakin o, öz sənətinin mahir bilicisidir. Sözün əsl mənasında xalqın sevimlisi, gözəl sənətkarıdır.

Kərimov Məmmədkəbir Hacı oğlu 1906-cı ildə Şəki şəhərində anadan olmuşdur. Uşaqlıq illərində heç bir təhsil almamış, atası Hacı kişinin dükanında ona köməklik etmişdir. Teatr tamaşalarına xüsusi həvəs gətirən M.Kəbir təxminən 1920-ci illərdə şəhərdə fəaliyyət göstərən məhəllə ("Darvaza") dram dərnəklərinə qoşulur. Onun ilk rolu M.F.Axundovun "Hacı Qara" komediyasında Bədəl surəti olmuşdur. 1924-cü ildə M.Kəbir Şəkidə fəaliyyətə başlayan dram dərnəyinə daxil olur. Dərnəyə Baxşəli Axundov - Baxşəli əfəndi rəhbərlik edirdi. M.Kəbir həmin dərnəkdə İsmayıl Dağıstanlı, İsmayıl Osmanlı, Səməd Tağızadə, Zahid Məlikov və b. sənətkarlarla çiyin-çiyinə fəaliyyət göstərməyə başlayır. 1934-cü ildə Şəkidə ilk dəfə Dövlət Dram Teatrı təşkil olunur. 1940-cı ilə qədər M.Kəbir həmin teatrda aktyor kimi çalışmışdır. Hacıoğlu elə həmin il (1940) Sabir adına Şəki Dövlət Dram Teatrına direktor təyin olunur. Şəkidə Dövlət Dram Teatrı 1947-ci ilə qədər fəaliyyət göstərir. Həmin il Hacıoğlu rayon mədəniyyət evində fəaliyyət göstərən dram dərnəyinə rəhbərlik etməyə başlayır. 1959-cu ildə Şəkidə Xalq Teatrı təşkil

olunur və respublikanın əməkdar artisti Kərimov Məmmədkəbir Hacıoğlu həmin teatrın rejissoru olur. Xalq Teatrı 1975-ci ildə Dövlət Teatrına çevrilir və Hacıoğlu həmin teatra aktyor kimi daxil olur, ömrünün axırına kimi burada işləyir.

Səmimi, təkrarolunmaz gözəl xasiyyətli, həmişə şən, olduqca səliqəli, şirin danışıq qabiliyyətinə malik, unudulmaz aktyor, şəkililərin sevimlisi Hacı oğlu 1978-ci ildə Şəkidə vəfat etmişdir.

Əməkdar artist M.Kəbir Hacıoğlu onlarca obrazların mahir yaradıcısı olmuşdur: Qacar (S.Vurğun, "Vaqif"), Süleyman (M.İbrahimov, "Həyat"), Yaqo (V.Şekspir, "Otello"), Məşədi İbad (Ü.Hacıbəyov, "O olmasın, bu olsun"), Dövlət bəy (C.Cabbarlı, "Aydın") və b. O, həmçinin "Ögey ana", "Koroğlu" kinofilmlərində epizodik rollarda çəkilmişdir. Ümumiyyətlə, M.Kəbir Hacıoğlu Şəki teatrının tarixinə istedadlı bir aktyor kimi daxil olmuşdur.

BİR AİLƏDƏ İKİ XALQ ARTİSTİ

Atalar yaxşı deyiblər ki, ərlə arvadın torpağı bir yerdən götürülüb. Ola bilər ki, ər-arvad eyni sənətin sahibi olsun. Lakin onların ikisinin də sənətə vurğunluğu, məşhurluğunun eyni dərəcədə olması nadir haldır. Belə nadir ailələrdən biri Məmməd İsmayıloğlu və onun həyat və məsləkyoldaşı Sədayə xanım İsmayıl qızıdır.

Sədayə Mustafayeva.

Sənətləri eyni, fəxri adları eyni, tale elə gətirib ki, atalarının adı da eyni olmuşdur.

Mustafayeva Sədayə İsmayıl qızı 15 iyul 1926-cı ildə qədim Şəki şəhərində anadan olmuşdur. O, müxtəlif illərdə Şəki, Ağdaş, Göyçay teatrlarında çalışmış, 1950-ci ildən Gəncə Dövlət Dram Teatrının aktrisasıdır. Sədayə xanım neçə-neçə yaddaqalan rolların yaradıcısıdır: Sara,

Gültəkin ("Solğun çiçəklər", "Aydın" - C.Cabbarlı), Xuraman, Şirin ("Vaqif", "Fərhad və Şirin" - S.Vurğun), Həyat, Bənövşə ("Həyat", "Kəndçi qızı" - M.İbrahimov), Nargilə ("Sən həmişə mənimləsən" - İ.Əfəndiyev), Anacan ("Anacan" - Y.Əzimzadə), Zərri ("Həmyerlilər" - A.Məmmədov), Emiliya ("Otello" - V.Şekspir), Aliyə ("Dairəni genişləndirin" - İ.Qasımov) və s. S.İ.Mustafayeva kinoda da ("Qanun naminə", "Şərikli çörək", "Gün keçdi", "Qayınana" və s.) öz qüvvəsini yoxlamış və neçə-neçə unudulmaz obrazlar yaratmışdır.

Sevimli aktrisamız Sədayə xanım 1981-ci ildə Azərbaycanın xalq artisti fəxri adına layiq görülmüşdür.

Məmməd Bürcəliyev.

Bürcəliyev Məmməd İsmayıl oğlu 25 aprel 1914-cü ildə Şəkidə anadan olmuş, 1935-ci ildən Gəncə Dövlət Dram Teatrında işləyir. M.İ.Bürcəliyevin yaratdığı obrazlar öz rəngarəngliyi, səmimiliyi və gözəlliyi ilə fərqlənir: Osip ("Müfəttiş" - N.V.Qoqol), Şəkərlinski ("Kəndçi qızı" - M.İbrahimov), Azər baba ("Fərhad və Şirin" - S.Vurğun), Səfər ("Əliqulu evlənir" - S.Rəhman) və s. O, bir rejissor kimi də uğurlar qazanmışdır. Onun tamaşaya qoyduğu əsərlərdən "Ölülər" (C.Məmmədquluzadə), "Həmyerlilər" (A.Məmmədov), "Anacan" (Y.Əzimzadə), "Ürək yanması" (T.Məmmədov), "Dağlı qızı" (R.Həmzətov) və s. göstərmək olar. Azərbaycanın xalq artisti (1958) Məmməd Bürcəliyev "Mən ki, gözəl deyildim", "Dəli Kür" və s. filmlərdə yaddaqalan kino obrazları yaratmışdır.

AZƏRBAYCAN KİNOSUNUN VETERANI

Azərbaycan kinosunun veteranı, daha doğrusu, ağsaqqalı Niyazi Bədəlov yazır: "Mən Şəkidə anadan olmuşam... Atam saatsaz idi. Dövrünün maarifpərvər, qabaqcıl adamları ilə oturub-



Niyazi Bədəlov.

durardı. İnqilabdan əvvəl indiki ipək kombinatının ərazisində teatr yerləşirdi. Atam və dostları asudə vaxtlarında həmin teatrda aktyor kimi çıxış edirdilər. İki qardaşım da sonralar həmin təbliğ teatrının aktyoru olublar... Teatr tamaşalarına baxmaqla yanaşı, kinoya da böyük maraq göstərirdim. Klubumuzda film nümayiş etdiriləndə kinoaparat otağından ekrana axan güclü işıq seli məni ovsunlayırdı. Mən bu işıq şüalarının mənbəyinə can atırdım. Atalar sözüdür: niyyətin hara, mənzilin də ora. 20-ci illərin sonunda mən artıq Şəki kinoteatrlarında kinomexanik işləyirdim (A.Ələsgəroğlu. "Portretlər fonunda portret", "Kino yenilikləri" qəzeti, 08.07.1989).

Niyazi Mustafa oğlu Bədəlov 1909-cu ildə qədim Şəkidə sənətkar ailəsində dünyaya göz açmışdır. Orta təhsilini orada alan gənc Niyazi 11 yaşından (1920) Şəki kinoteatrında əmək fəaliyyətinə başlamışdır. Kinoya hədsiz məhəbbəti olan Niyazi sonralar Moskvada Kinematoqrafiya İnstitutunda təhsil almışdır.

Niyazi deyir: "Mən və H.Seyidzadə ("O olmasın, bu olsun", "Dəli Kür" və s. filmlərin quruluşçu-rejissoru - **Ə.M.**) S.Eyzenşteynin emalatxanasında rejissorluq sənətinin incəliklərinə yiyələnirdik. Belə bir korifeydən dərs aldığımız üçün özümüzü xoşbəxt hesab edirdik" (Yenə orada).

Böyük Vətən müharibəsində N.Bədəlovun bir kinorejissor kimi xidmətləri danılmazdır. Onun qəhrəman Bakı neftçiləri haqda çəkdiyi kinosüjetlər daim ekranlarda göstərilirdi. Bu baxımdan onun H.Seyidzadə ilə birlikdə, yazıçı İ.Qasımovun ssenarisi əsasında yaratdığı qısametrajlı "Sovqat" filmi daha xarakterikdir. Müharibə illərində o, tanınmış rejissor Q.Aleksandrovun çəkdiyi "Bakının işıqları" bədii filmində rejissor assistenti olmuşdur. İstedadlı sənətkar yaradıcılığının ilk illərində "Böyük həyat", "Tüfəngli adam", "Oyanmış torpaq" və s. bədii filmlərin Azərbaycan dilinə dublyajını təşkil etmişdir. Bu haqda məşhur kinorejissor S.Yutkeviç yazırdı ki, "Tüfəngli adam" filminin Azərbaycan dilinə dublyajını uğurlu və vicdanlı iş hesab edirəm.

Ümumiyyətlə, N.Bədəlovun respublikamızın kino sənəti tarixində sənədli süjetlərin çəkilişindəki xidmətləri əvəzsizdir. Bu filmləri saymaqla qurtaran deyildir. Mövzu cəhətdən də bu filmlər rəngarəngdir. Bunlardan Füzuli və M.F.Axundova həsr olunmuş süjetləri, "Azərbaycan aşıqları", "General Həzi Aslanov", "Yeni kənd", "Dağlıq Qarabağ", "Dağlarda ada", "Dostluq məşəli", "Bakı neft akademiyasıdır", "Serafino", "Hanı mənim övladlarım", "Torpaqda iz", "Estafet", "Xəzər üzərində "körpü" və s. göstərmək olar.

"Ədəbiyyat və incəsənət" qəzetinin 1985-ci il tarixli 48-ci nömrəsində dərc edilmiş "Sənədli ekranın gözü ilə" məqaləsindən bir parça: "...rejissor N.Bədəlovun filmləri mənalı, təravətli və baxımlıdır. Kiçicik bir epizod, bir kadr belə onsuz çəkilmir. Rejissor gələcək filmi öz xəyalında canlandırır, onu aydın görür. Nə çəkəcəyini və necə çəkəcəyini yaxşı bilir. N.Bədəlov "Füzuli", "Srafino", "Hanı mənim övladlarım?" sənədli filmlərində az sözlə, yığcam montajla böyük fikirlər ifadə etmiş, fəlsəfi və bədii ümumiləşdirmələr verə bilmişdir".

Bu sətirlər kinomuzun ağsaqqalı Niyazi Mustafa oğlu Bədəlova verilən dəqiq qiymətdir.

KİNO USTASI

İstedadlı kinorejissor Rasim Ocaqov haqda yazıya onunla aparılan söhbətdə dediyi bəzi fikirlərlə başlamaq istərdim: "Kino ənənəsiz inkişaf edə bilməz. Ənənə olmayan yerdə hərəkət, irəliləyiş yoxdur... Axı, kino mədəniyyətdir, xalq yaxşı filmlərə baxmağa böyük ehtiyac duyur... Kinomuz üçün Azərbaycan mədəniyyətini, qədim incəsənətimizi, ədəbiyyatımızı, tariximizi yaxşı bilən kadrlar hazırlanması indi ciddi zərurətə çevrilib...



Rasim Ocaqov.

Tariximizin mürəkkəb qatlarına gəldikdə isə ...gəlin etiraf edək ki, nəinki rejissorlar, kino işçiləri, hətta tariximizlə məşğul olan elm xadimləri belə öz xidmətlərinin bəsitliyinə, yarımçıqlığına görə ancaq utana bilərlər... Gəlin inanaq ki, ekran sənətimizin dirçələcəyi, milli məktəb kimi formalaşacağı gün gələcək" ("Gənclik" jurnalı, avqust 1988-ci il, səh. 42-47).

Rasimin yuxarıdakı fikirləri müqabilində əgər desəm ki, o özü təvazökar, milli ruhlu, vətənpərvər, tələbkar... bir sənətkardır, heç də səhv etmərəm. Vətənimizin istedadlı, tanınmış bir kino xadimi olması qiymətini isə Rasimə xalqımız özü verib.

Rasimin atası, əməkdar həkim Mirqasım Ocaqov.

Rasimin valideynləri də respublikada tanınmış, ləyaqətli sənətkarlar olub. Ancaq mədəniyyət işçisi yox, insan sağlamlığı keşiyində duran həqiqi xalq həkimləri - təbibləri kimi.

Rasimin atası Mirqasım Ocaqov nəinki Şəkidə, hətta respublikamızdan uzaqlarda tanınmışdı. Özüm şahidiyəm: Şəkidən bir nəfər müharibədən əvvəlki illərdə Krıma müalicəyə gedir. Ona orada tanınmış professorlardan bir nəfər deyir ki, sizin yerdə bu sahəni bizdən də yaxşı bilən doktor Ocaqov var. Nahaq xərc çəkib bu boyda yolu gəlmisən, geri qayıdıb orada müalicə olunmağın məsləhətdir.

Doğrudan da, Böyük Vətən müharibəsi vaxtı Şəki bölməsində iki tanınmış həkim

Rasimin anası, əməkdar həkim Samiyə Ocaqova.

olub: Mirqasım Ocaqov və Məmməd Hacıyev. Onların hər ikisi respublikanın əməkdar həkimi idi.

M.Ocaqov uzun müddət Şəki vərəm xəstəxanasına rəhbərlik etmişdir. Rasimin anası - respublikanın əməkdar həkimi Samiyə xanım Ocaqova Şəkidə ginekoloq işləmiş və uzun müddət xəstəxananın ginekologiya şöbəsinin müdiri olmuşdur. Şəkidə ginekoloqların əksəriyyəti onun yetişdirmələri olub. Camaat onu bu gün də böyük hörmətlə yad edir.

Rasim Ocaqov 1933-cü ildə Şəki şəhərində anadan olmuş, orta təhsilini də orada almışdır. 1956-cı ildən "Azərbaycanfilm"də işləməyə başlamış, 1966-cı ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir. Görkəmli kinorejissor və operator kimi şöhrət qazanmış R.Ocaqovun iştirakı ilə çəkilən filmlərin çoxu ölkəmizdə böyük şöhrət qazanmışdır: "Bir məhəlləli iki oğlan" (1957), "Uzaq sahillərdə" (1958), "Onun böyük ürəyi" (1959), "Mən rəqs edəcəyəm" (1963), "Bir cənub şəhərində" (1969) və s. İstedadlı kinooperator 1974-cü ildən rejissor kimi də fəaliyyət göstərməyə başlamışdır: "Qatır Məmməd" (1974), "Tütək səsi" (1975), "Ad günü" (1977), "İstintaq" (1979), "Bağlı qapı" (1981) və s. R.Ocaqovun "Ad günü" filmi 8-ci Ümumittifaq televiziya filmləri festivalının (1979) mükafatını, "İstintaq" 13-cü Ümumittifaq kino-festivalının (1980) baş mükafatını, "Bağlı qapı" 15-ci Ümumittifaq kinofestivalının (1982) mükafatını almışdır.

Görkəmli kino ustası Rasim Ocaqov Azərbaycanın xalq artisti (1982), Azərbaycanın (1967) və Çeçen-İnquşun (1964) əməkdar incəsənət xadimi, Dövlət mükafatları laureatı fəxri adlarına layiq görülmüşdür.

MUSİQİ DƏ XALQIN DİLİDİR

Yoxluğunla bitmədi sənət,
bitməyəcək.
Yaradacaqlar;
bəlkə səndən yaxşı,
bəlkə pis.
Lakin sən yarada biləcəyin
yaranmayacaq sənsiz.
Rəsul Rza.

Görkəmli şairimiz Bəxtiyar Vahabzadə yazır: "Xalqın dili kimi musiqisi də onun ruhundan, xarakterindən xəbər verir. Əslində musiqi də xalqın dilidir. Üzeyir bəyin dediyi kimi, "musiqinin ehtiraslı dilində nitqə nisbətən yüz qat artıq enerji vardır" (Gəlin açıq danışaq, Bakı, 1988, səh.203).

Azərbaycan musiqisinin kökü və zirvəsi - aşıq musiqisilə yanaşı, həm də muğamdır.

Muğam xalqımızın keçmişi, mübarizliyi, qəmi, qüssəsi, müdrikliyi, həm xeyrinin, həm də yasının yaraşığıdır.

Hələ əcdadlarımızdan bizə miras qalmış xalq mahnılarımız! Sevimli bəstəkarlarımızdan F.Əmirovun, S.Rüstəmovun, Ş. Axundovanın, T. Quliyevin, C.Cahangirovun, S.Ələsgərovun, E.Sabitoğlunun bəstələdikləri bir çox mahnılar xalq mahnısı səviyyəsinə qalxmışdır.

Dünya şöhrətli operalarımız milli mədəniyyətimizin zirvəsi deyilmi? "Koroğlu"nun uverturasına qulaq asanda insan məğrurlaşır, mübarizləşir, qartala çevrilir. Azərbaycan milli musiqisi dedikdə istər-istəməz Qarabağı, onun konservatoriyası Şuşanı düşünürsən. Axı bu füsunkar diyar musiqi xəzinəmizə neçə-neçə nəhənglər verib: Üzeyir bəy Hacıbəyov, Bülbül, Rəşid Behbudov, Niyazi...

Azərbaycanın qədim mədəniyyət diyarı olan Şəkidə də neçə-neçə belə sənətkar yetişib, musiqi tariximizə öz layiqli töhfəsini verib.

ŞƏKİLİ ƏLƏSGƏR

Ələscər, biz səni yox, "Rahab"ı dəfn edirik.
Cabbar QARYAĞDIOĞLU.

Azərbaycan xalq musiqisinin, muğamatın mahir bilicisi, yorulmaz araşdırıcısı F.Şuşalı "Azərbaycan xalq musiqişünasları" (Bakı, 1985, səh.174-178) kitabında muğam ustası, "Rahab"ın ən gözəl ifaçısı Abdullayev Ələsgər Baba oğlunu - Şəkili Ələsgəri oxuculara ətraflı təqdim edib, onun haqqında öz qiymətli fikirlərini söyləyib.

Ə.Abdullayev 1856-cı ildə Şəkidə yoxsul bir ailədə anadan olmuş, ehtiyac onu gənc yaşlarından bənna köməkçisi işləməyə vadar etmişdir. Ə.Abdullayev 20 yaşından xanəndəlik etməyə başlamışdır. Onun bu sənətə meyil etməsinə səbəb xanəndə Həşimlə təsadüfi görüşü olmuşdur. O, ustad Həşimdən oxumağın qanunlarını öyrənir və onunla toy məclislərində iştirak edirdi. F.Şuşalının məlumatına görə, Ələsgər Bakıya gələnə qədər Həşimdən "Bayatı-Şiraz" və "Segah" muğamlarını mükəmməl öyrənmişdi.

Ə.Abdullayevin ikinci müəllimi Bakı taciri, həvəskar xanəndə Ağa Səid oğlu Ağabala olmuşdur.

F.Şuşalının yazdığından: "Bir gün Ağa Səid oğlu Ağabala Şəkiyə qonaq gəlir. Fayton şəhərə daxil olarkən Ağa Səid oğlu bir gəncin divar tikdiyi yerdə yanıqlı səslə "Segah" oxuduğunu eşidib faytonçuya atları saxlamağı əmr edir. Bənna "Segah"ı oxuyub qurtardıqdan sonra tacir onu yanına çağırtdırır və onunla Bakıya getməyi məsləhət görür. Ələsgər bu təklifi qəbul edir və Bakıya gəlir. Ələsgər müəllimi Ağa Səid oğlundan təlim alır. Bir müddətdən sonra Ələsgər nəinki Bakıda, hətta Azərbaycanın şəhər və kəndlərində usta bir xanəndə kimi tanınır.

Ə.Abdullayev 1902-1903-cü illərdə Bakıda təşkil edilən "Şərq konsertləri"ndə "Çahargah", "Bayatı-Şiraz", "Şüştər" muğamlarını, gürcü mahnılarını məharətlə ifa etmişdir. Şəkili

Ələsgər təkcə Azərbaycanda deyil, Gürcüstan, Dağıstan, Orta Asiya, hətta İran və Türkiyənin bir çox şəhərlərində konsertlər vermiş və böyük müvəffəqiyyətlər qazanmışdır. O, İranda gözəl ifaçılıq qabiliyyətinə görə şah tərəfindən qızıl saatla mükafatlandırılmışdır. Şəkili Ələsgər sənətinin ən düzgün və layiqli qiymətini məşhur tarzən Qurban Pirimov vermişdir: "Mən Cabbardan sonra ikinci bir xanəndə Ələsgəri gördüm. Ələsgərin çox yağlı və ipək kimi yumşaq "boğazı" var idi. Rəhmətlik Cabbar həmişə deyərdi: "Əgər Ələsgərin boğazı məndə olsaydı, bülbülü ağacdan yerə endirərdim".

Məlahətli və zil səsə malik Ə.Abdullayev "Rahab" muğamının mahir ifaçısı sayılmışdır. Ustad sənətkar 1913-1914-cü illərdə "Sport-Rekord" və "Ekstrafon" səhmdar cəmiyyətləri tərəfindən Tiflis və Kiyev şəhərlərinə dəvət olunur və onun ifa etdiyi "Çahargah", "Rast", "Mahur-hindi", "Zabul-segah", "Rahab", "Şüştər" muğamları vala yazılır.

Unudulmaz muğam ustası Ələsgər Abdullayev 1 aprel 1929-cu ildə Bakıda vəfat etmişdir.

MAHİR TARZƏN

Əhmədbəy Tahirov

Tarzən Tahirov Əhmədbəy Mahmud oğlu 1876-cı ildə Şəkidə, dərzi ailəsində anadan olmuşdur. O, xalqımızın dahi muğam ustalarından şəkili Böyük Ələsgər, Cabbar Qaryağdıoğlu ilə musiqi məclislərində, toylarda iştirak etmişdir. Əhmədbəy Şəkidə 1939-cu ildə əsası qoyulan bir nömrəli Uşaq Musiqi Məktəbinin ilk müəllimlərindən biri olmuşdur. Məktəbdə istedadlı sənətkar muğam dərsi aparmışdır. Əhmədbəy 1940-cı ildə respublikanın əməkdar müəllimi adına layiq görülmüşdür. Yaşlı nəslin deməsinə görə, unudulmaz bəstəkarımız Səid Rüstəmov muğam nümunələrini onun ifasında lentə almışdır. Çox güman ki, S.Rüstəmovun şəxsi arxivində həmin lent yazıları saxlanmaqdadır. Əhmədbəy Tahirov ömrünün axırına qədər Şəki 1 nömrəli Uşaq Musiqi Məktəbində müəllim işləmiş, 1958-ci ildə orada vəfat etmişdir.

GÖZƏL ZƏNGULƏLƏR USTASI

Azərbaycan operalarından söz açanda onun ilk yaradıcısı Üzeyir bəy Hacıbəyov yada düşür. Məgər Azərbaycan operasını "Leyli və Məcnun"suz, "Koroğlu"suz düşünmək mümkündürmü?!

Opera səhnəmiz həmişə Bülbül, Əlövsət Sadıqov, Gülxar Həsənova, Həqiqət Rzayeva, Rübabə Muradova, Yavər Kələntərli kimi ölməz sənətkarlarla fəxr etmişdir.

Onlardan biri - Əlövsət Şirəli oğlu Sadıqov 1906-cı ildə Şəkidə anadan olmuşdur. İlk təhsilini orada aldıqdan sonra - 1928-1930-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasında oxumuşdur. Konservatoriyanı bitirib, 1930-1963-cü illərdə fasiləsiz olaraq Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. İstedadlı səhnə ustası Qərib ("Aşıq Qərib" - Ü.Hacıbəyov), Məcnun ("Leyli və Məcnun" - Ü.Hacıbəyov), Kərəm ("Əsli və Kərəm" - Ü.Hacıbəyov), Şah İsmayıl ("Şah İsmayıl" - M.Maqomayev) və s. rolların mahir ifaçısı kimi məşhurlaşmışdı. Xüsusilə əsrarəngiz zəngulələr ustası Ə.Sadıqovun Məcnunu xalqımız heç vaxt unutmayacaqdır.

Ə.Sadıqov xalq mahnılarının və muğamların da gözəl ifaçısı idi. O, müğənni kimi 1942-1944-cü illərdə İranda qastrollarda olmuşdur. İki "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdir. Böyük ustad müğənni 17 oktyabr 1971-ci ildə Bakıda əbədiyyətə qovuşmuşdur.

İLK AZƏRBAYCANLI DİRİJORLARDAN BİRİ

"Vaxt var ikən
Elə yaşa, elə çalış,
bir gün sən olmayanda,
hər kəsə aydın görünsün.
Yerində qalan boşluq."
Rəsul Rza.

Əşrəf Həsənov.

Hamıya bəllidir ki, doğma yurdumuz Azərbaycan öz unudulmaz musiqişünasları ilə dünyada şöhrət qazanmışdır: Üzeyir bəy Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi və... Onlardan hər birinin öz yeri duyulur. Ölməz xalq şairimiz Rəsul Rzanın dililə deyək: "Görünür, yerində qalan boşluq". Xalqımızın belə görkəmli sənətkarlarından biri də Azərbaycanın ilk dirijorlarından olan Əşrəf Həsən oğlu Həsənovdur.

Ə.Həsənov 1909-cu ildə respublikamızın mənzərəli guşələrindən biri olan qədim Şəki şəhərində anadan olmuşdur. Hələ kiçik yaşlarında o, Azərbaycan xalq musiqisi ilə maraqlanır.

1922-ci ildə on üç yaşlı Əşrəf Bakıya gəlir. Üzeyir Hacıbəyov tərəfindən yaradılmış ilk Azərbaycan musiqi məktəbinin skripka sinfinə daxil olur. Bu məktəbdə onunla bir sinifdə gələcəkdə professional musiqiçi kimi geniş şöhrət tapan, respublikamızın adlı-sanlı bəstəkarları Asəf Zeynallı, Səid Rüstəmov, musiqi tarixçisi Xurşud xanım Ağayeva təhsil alırdılar. Həmin məktəbdə 1925-ci ildə tələbələrin qüvvəsi ilə Üzeyir Hacıbəyovun şah əsərlərindən olan "Arşın mal alan" musiqili komediyası tamaşaya qoyulduqda gənc Əşrəf Həsənov orkestrdə skripka çalırdı.

Musiqi məktəbini bitirdikdən sonra, Azərbaycan Dövlət

Konservatoriyasının nəzəri-bəstəkarlıq fakültəsində təhsilini davam etdirir. Ə.Həsənov 1932-ci ildə Konservatoriyanı müvəffəqiyyətlə qurtarır. Dirijorluq sənətinə hədsiz marağı onu Çaykovski adına Moskva Dövlət Konservatoriyasına gətirib çıxarır. O, burada dirijorluq üzrə ixtisas dərslərini görkəmli sənətkarlar və pedaqoqlar A.Qauk və Q.Stolyarovdan alır. 1938-ci ildə Əşrəf Həsənov birinci dərəcəli diplom ilə Moskva Konservatoriyasını bitirir. Moskva Konservatoriyasının son kursunda oxuyarkən, ona Azərbaycan operasının tacı "Koroğlu" operasını tamaşaya hazırlamaq nəsib olur. Çünki Üzeyir Hacıbəyov Azərbaycan incəsənətinin birinci ongünlüyündə özünün ən sevimli əsəri "Koroğlu"nun tamaşaya hazırlanmasını məhz Əşrəf Həsənova tapşırmışdı. Opera keçmiş SSRİ Dövlət Akademik Böyük Teatrının səhnəsində göstərilirdi. Üzeyir Hacıbəyovun bəstəkarlıq sahəsində ustalığı bir daha səmimiyyətlə qarşılandı. Koroğlu rolunda xalqımızın böyük müğənnisi Bülbül çıxış edirdi.

"Koroğlu"dan əlavə Əşrəf Həsənov Avropa, rus, sovet bəstəkarlarının 35-ə yaxın məşhur operalarını Azərbaycan səhnəsində göstərmişdir. Bunların siyahısına "Aida", "Karmen", "Faust", "İvan Susanin", "Knyaz İqor", "Qar qız", "Mazepa", "Aleko", "İolanta", "Çar gəlini", "Şahsənəm" və başqa bu kimi səhnə əsərləri daxildir.

M.F.Axundov adına Opera və Balet Teatrında 47 ildən çox işlədiyi zaman, Əşrəf Həsənov bir çox məşhur ifaçılara dirijorluq etmişdir. Onlardan Rumıniyanın xalq artisti Zenaida Pallinin, Anqara milli operasının solistləri Suna Koralin, Mete Uğurun, beynəlxalq müsabiqələr laureatı polşalı Paulos Rantisin, amerikalı Jan Pirsin, Litsisianın, Atlantovun, Miroşniçenkonun, Amiranaşvilinin və başqalarının adını çəkmək olar.

Əşrəf Həsənov opera teatrında işləməklə yanaşı, 1938-ci ildən 1950-ci ilə qədər Azərbaycan radio komitəsinin nəzdindəki simfonik orkestrə rəhbərlik etmişdir. Onun baş dirijor kimi işlədiyi 12 il ərzində Azərbaycan bəstəkarlarının bir sıra simfonik əsərləri ilk dəfə məhz bu orkestrin ifasında səslənmişdir. Professional təhsil almış ilk azərbaycanlı dirijorlardan biri sayılan

Əşrəf Həsənov dahi bəstəkar D.Şostakoviçin 7-ci ("Leninqrad") simfoniyasının ilk ifaçılarından biri olmuşdur. Qara Qarayevin 1-ci və 2-ci simfoniyaları, Fikrət Əmirovun "Nizami" simfoniyası, Cövdət Hacıyevin və Soltan Hacıbəyovun birinci simfoniyaları və başqaları ilk dəfə Əşrəf Həsənovun təfsirində dinləyicilərə çatdırılmışdır. Əşrəf Həsənov eyni zamanda bir müəllim kimi də uzun müddət Azərbaycan Dövlət Konservatoriyasında fəaliyyət göstərmişdir. O, dirijorluq məktəbinin ən yaxşı ənənələrini öz müəllimlik işində davam etdirmişdir. Dosent Əşrəf Həsənovun tələbələri indi təkcə respublikamızda deyil, onun sərhədlərindən çox-çox uzaqlarda fəaliyyət göstərirlər.

Ə.Həsənov ömrünün son günlərinə qədər musiqi aləmi ilə əlaqələrini itirməmiş, bir neçə il Azərbaycan Dövlət Konservatoriyasının dövlət imtahan komissiyalarının sədri olmuşdur. Onun fədakar zəhməti bir neçə orden və medallarla qiymətləndirilmişdir. O, Azərbaycanın xalq artisti fəxri adına layiq görülmüşdür.

Ə.Həsənov 1983-cü ilin avqust ayında Bakı şəhərində vəfat etmişdir.

İLK MUSİQİŞÜNAS

Məmmədsaleh İsmayılov.

Məmmədsaleh Cəlil oğlu İsmayılov 1914-cü ildə Şəki şəhərində doğulmuş, ilk təhsilini orada aldıqdan sonra 1929-1935-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki fəhlə fakültəsində oxumuşdur. A.İ.Simberovun və professor S.L.Bretanitskinin sinfində dərs almışdır. Fəhlə fakültəsini bitirdikdən sonra Azərbaycan Dövlət Konservatoriyasında professorlardan L.M.Rudolf, P.B.Ryazanov, B.İ.Zeydmanın sinfində təhsilini davam etdirmişdir.

O, 1940-cı ildə konservatoriyanın nəzəriyyə və musiqişünaslıq şöbəsini bitirmiş ilk məzunlardan biridir. Ümumiyyətlə, Məmmədsaleh müəllim musiqişünaslıq sahəsində ali təhsilli ilk milli mütəxəssisimizdir. Respublikanın əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, professordur.

O, 1957-1971-ci illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında "Azərbaycan xalq musiqisi kafedrasının, 1980-1990-cı illərdə Azərbaycan xalq musiqisi tarixi və nəzəriyyəsi kafedrasının müdiri olmuşdur".

O, Ü.Hacıbəyovun məşhur "Azərbaycan xalq musiqisinin əsasları" kitabını Azərbaycan dilinə çevirmiş və onun çapını təşkil etmişdir. 1953-cü ildə F.Zeynalova ilə birlikdə "İbtidai musiqi nəzəriyyəsi" dərsliyini yazmışdır. Həmin əsər 1962 və 1969-cu illərdə təkrar nəşr olunmuşdur.

1960-cı ildə "Azərbaycan xalq musiqisinin janrları" fundamental monoqrafiyasını yazmışdır. Bu əsər sonralar təkmilləşdirilərək 1984-cü ildə "İşıq" nəşriyyatında təkrar nəşr edilmişdir. 1982 və 1991-ci illərdə onun çoxlu elmi məqalələri, kitabları, metodik vəsaitləri, broşüraları və s. çıxmışdır. ASE üçün muğam haqda 100-ə qədər elmi oçerk işləyib vermişdir. Məmmədsaleh müəllim bir pedaqoq kimi təkcə respublikamızda deyil, xaricdə də yaxşı tanınır. Onun yetişdirmələri arasında ərəb, türk musiqişünasları da vardır.

MİLLİ SİMFONİYAMIZIN YARADICILARINDAN BİRİ

Xalisəqarı, Əbdülqəni Nüxəvi nəslinin görkəmli xələflərindən biri də Əhməd Cövdət İsmayıl oğlu Hacıyevdir. O, 1917-ci ildə Şəkidə sənətkar ailəsində anadan olmuşdur.

1924-cü ildə İsmayıl kişi öz ailəsi ilə Bakıya köçür. Cövdət Bakıda orta təhsilini bitirdikdən sonra musiqi məktəbinə daxil olur. Musiqi təhsilini A.Zeynallının sinfində almışdır. Sonra təhsilini Azərbaycan Dövlət Konservatoriyası yanındakı fəhlə

fakültəsində davam etdirir. 1935-1938-ci illərdə L.M.Rudolfun bəstəkarlıq sinfində oxuyur. Hələ gənc yaşlarında musiqiyə və ədəbiyyata tükənməz həvəsi olan C.Hacıyev bəstəkarlıq sinfində oxuyarkən öz ilk instrumental pyeslərini və fortepiano üçün əsərlərini yaradır. Həmin dövrdə dahi bəstəkarımız Ü.Hacıbəyovun sinfindəki məşğələlər onun gələcək inkişafına silinməz təsirini göstərmişdir.

C.Hacıyev 1938-1941-ci illərdə Moskva konservatoriyasında A.N.Aleksandrovun sinfində də oxumuş, 1947-ci ildə D.D.Şostakoviçin sinfində musiqi təhsilini başa vurmuşdur.

Geniş musiqi təhsili aldıqdan sonra C.Hacıyev simfonik janra müraciət etmişdir. Altı simfoniya bəstələyən istedadlı sənətkar Azərbaycan milli simfonizminin banilərindən biri sayılır. Dahi sənətkar Ü.Hacıbəyov ənənələrini davam etdirən C.Hacıyev xalq musiqisinin müxtəlif janrlarından, eləcə də muğam sənətinin bədii ifadə vasitələrindən də bacarıqla istifadə etmişdir. O, 1945-ci ildə Q.Qarayevlə birlikdə "Vətən" operasını yazmışdır.

Görkəmli sənətkar 1957-1969-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasının rektoru olmuş, eyni zamanda Kompozisiya kafedrasında pedaqoji işini davam etdirmişdir. 1950-1960-cı illərdə Azərbaycan Bəstəkarları İttifaqı idarə heyətinin üzvü olmuşdur. N.Əliverdibəyov, N.Məmmədov, F.Quliyeva, A.Əlizadə, R.Mirişli, O.Felzer və başqaları onun yetişdirmələridir. Qeyd edək ki, Azərbaycan Dövlət Konservatoriyasında xalq musiqi nəzəriyyəsi və xalq ifaçılığı şöbələri məhz C.Hacıyevin rektor olduğu vaxtlarda təşkil edilmişdir.

Cövdət Hacıyev 1963-cü ildən professordur.

Azərbaycanın xalq artisti (1960), Dövlət mükafatı laureatı (1946), istedadlı bəstəkar Cövdət Hacıyev bir çox orden və medallarla təltif olunmuşdur.

C.Hacıyev 1995-ci ildə Bakıda vəfat etmişdir.

Şəfiqə Axundova.

Görkəmli söz ustası B.Vahabzadənin mahnı haqda çox gözəl fikirləri vardır: "Nəğmə musiqinin ən kütləvi janrıdır. Bəzən böyük bir romanın deyə bilmədiyi mətləbi kiçik bir mahnı deyə bilər... Mahnı qədər insanları bir-birinə doğmalaşdıran ikinci bir sənət növü tanımıram" ("Gəlin açıq danışaq", Bakı, 1988,səh.203).

Şəfiqə xanımın bir bəstəkar kimi formalaşmasında Ü.Hacıbəyovun rolu böyük olmuşdur. O, Ü.Hacıbəyovun məsləhəti ilə 1944-cü ildə Azərbaycan himninin yaradılması müsabiqəsində iştirak etmiş, filarmoniyada Dövlət komissiyası qarşısında "Azərbaycan himni"ni ilk dəfə Şəfiqə xanım ifa etmişdir. 1948-ci ildə Moskvada keçirilən plenumda Şəfiqə xanımın vokal əsərləri ifa olunmuşdur.

Şəfiqə Axundovanın bəstələdiyi gözəl mahnılar artistlər, müğənnilər tərəfindən sevilə-sevilə oxunmuş, illərlə öz təravətini itirməmişdir. Bəstəkarın bəstələdiyi mahnıları saymaqla qurtaran deyil: "Qələbə marşı", "Qələbəmiz", "Vətənimiz", "Bala", "Çiçək", "Arzular", "Sevgi və həyat", "Xoşbəxtlik mahnısı", "Hindli qız", "Anacan", "Gözəl kəndimiz", "Lirik mahnı", "Sevirsən məni" və s... Vaxtilə B.Vahabzadənin "Vicdan" pyesində səslənən "Nədən oldu" mahnısı. Bu gözəl mahnının unudulmaz sənətkarımız Rübabə Muradovanın ifasında səslənməsini kim unudub? Vaxt var idi balacadan böyüyə qədər, səsi olan da, olmayan da bu mahnını özü üçün zümzümə edirdi. Şəfiqə xanımın unudulmaz şairimiz Süleyman Rüstəmin sözlərinə bəstələdiyi "Sevəcək məni" mahnısı və yenə də onun ilk dəfə Rübabə Muradovanın ifasında səslənməsi heç yaddan çıxmır.

Gözəl sənətkarımız Şövkət Ələkbərovanın ifa etdiyi "Şəki" mahnısı. Şəkidə radio verilişləri Şəfiqə xanımın Şixəli Qurbanovun "Şəki" şerinə bəstələdiyi bu gözəl mahnı ilə başlayır.

Şəfiqə xanım yalnız mahnı bəstəkarı olaraq qalmır. O, ilk azəri qadındır ki, opera janrına müraciət etmişdir. İstedadlı bəstəkar "Ev bizim, sirr bizim" operettasının, "Gəlin qayası" operasının musiqisini bəstələmişdir.

Rafael Hüseynovun bəstəkarın "Gəlin qayası" operası ilə əlaqədar qələmə aldığı bir hadisəni olduğu kimi oxuculara çatdırmaq yerinə düşərdi: "Mən (Şəfiqə xanım - **Ə.M.**) "Gəlin qayası"nda muğama çox uymamışdım, nisbətən az yer vermişdim. Ancaq Rübabə inad eləyirdi ki, mən muğamatçıyam, burada mütləq muğam oxuyacağam. Tez-tez İsgəndər Coşğunu kənara çəkirdi, müxtəlif səhnələrlə bağlı fikrini deyirdi və xahiş eləyirdi ki, müvafiq şeir parçaları yazsın...

Operada belə bir yer var. Sənəm xanın əlindən xəncəri alıb özünü vurur. Ölməmişdən qabaq bunu oxuyur:

Nə bəmim, nə zilim oldu,
Qəlbim dilim-dilim oldu.
Mən gəzdim yar həsrətində,
Yarımsa qatilim oldu.

Həmin parça Rübabənin təkidi ilə yazıldı. Dedim:

- Ay Rübabə, qorxuram "Leyli və Məcnun"dakı ölüm pərdəsinə oxşaya.

- Oxşamaz. Bunu "Sarıtorpaq şikəstəsi" üstə oxuyacağam.

Həmin tamaşada Rübabə yarımrejissor olmuşdu" (R.Hüseynov, "Min ikinci gecə", "İşıq", 1988, səh. 344-345).

Şəfiqə xanım bir çox dram tamaşalarına da musiqi yazmışdır: "İliç buxtası" (C.Məcnunbəyov), "Nəsrəddin şah", "Aydın" (C.Cabbarlı), "Qaynana" (M.Şamxalov), "Onun böyük ürəyi" (K.Seyidbəyli), "Vicdan" (B.Vahabzadə), "Günəş" (L.Həsənov), "Sabir" (H.Quliyev), "Yaz mahnıları", "Aqil və Sərvinaz" (Ə.Abbasov), "Etibar", "Axırıncı məktub" (R.İsmayılov), "Qonşular" (Y.Əzimzadə), "Əlvida, Hindistan" (T.Rəsulov) və s.

Ş.Axundova simfonik orkestr üçün də əsərlər yazmışdır: "Cahanda", "Mənim qəlbim", "Mənin məhəbbətin", "Qələbə bizimdir", "Nuxa rapsodiyası", "Üç pyes", M.Rahimin sözlərinə "Qəzəl" melodiyaları və qeyriləri bu silsilədəndir.

Sevimli bəstəkar gələcəyimiz olan balaları da yaddan çıxarmamışdır. Onun əsərləri içərisində kukla teatrı tamaşalarına bəstələdiyi musiqi hissələri təqdirəlayiqdir: "Balaca qəhrəman", "Tülkü və canavar" və s. kimi.

Şəfiqə xanım xalq çalğı alətləri orkestri üçün "Rəqs", kvartet üçün "Pyes" və bir çox romansların müəllifidir.

Xalqızımın sevimlisi olan Şəfiqə Qulam qızı Axundova Şəki torpağının yetirməsidir. O, 1924-cü ildə anadan olmuş, ilk təhsilini də burada almışdır. 1956-cı ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Azərbaycanın əməkdar incəsənət xadimi (1973) adı almış, orden və medallarla təltif edilmişdir.

CAZ-MUĞAM JANRININ YARADICISI

"Ey insan, sən özünün kiçik bir cism olduğunu sanırsan, amma ən böyük aləm sənin içində gizlənir".

Həz. Əli (ə).

"Başqalarının uğurlarına qibtə edirik, ancaq bu uğurların onlara nəyin bahasına başa gəlməsi barədə düşünmürük".

S. SMOYLS.

"Vaqif Mustafazadə ekstra ifaçıdır. O, mənim indiyə kimi dinlədiyim ən gözəl lirik pianoçudur".

Velis KONOVER.

Azərbaycanda caz musiqisi çox da böyük tarixə malik deyil.

Bu musiqinin əsası ölkəmizdə 1939-cu ildə Niyazi və Tofiq Quliyevin yaratdığı Azərbaycan Dövlət Estrada Orkestri ilə qoyulmuşdur. İlk konsert proqramına caz klassikası ilə yanaşı, Niyazi və Tofiq Quliyevin pyesləri daxil edildi. Beləliklə, Niyazi, Tofiq Quliyev, saksofon ustası Pərviz Rüstəmbəyovun əməyi sayəsində milli caz məktəbinin əsası qoyuldu. 60-cı illərin ikinci yarısında Qara Qarayev, Niyazi, Tofiq Quliyev, Rauf Hacıyevin birbaşa rəhbərliyi və dəstəyilə Azərbaycanda estrada və caz musiqisinin ikinci həyatı başladı: "Qaya" vokal kvarteti, Rafiq Babayevin caz kvarteti və Vaqif Mustafazadə erası başladı.



Vaqif Mustafazadə və qızı Əzizə.

Vaqif Mustafazadə - içində bir dünya gizlənmiş bu ecazkar insanın soy kökü haqqında. Vaqifin atası Əziz Abdulkərim oğlu Mustafazadə Şəki xanlığının banisi Hacı Çələbi xanın nəslindəndir. O, həkim olmuş, tarda və kamançada gözəl çalırmış. Vaqifin ulu babası Hacı Kazım Çələbi xanın oğludur. Hacı Kərimin iki oğlu olub: Mustafa və Abdulkərim. Vaqifin babası Abdulkərimin də iki oğlu: Əziz və Məmməd Mustafazadələr. Vaqifin əmisi Məmməd Mustafazadə (1909-1989) orta təhsili Şəki şəhərində almış, 1935-ci ildə APİ-nin fizika-riyaziyyat fakültəsini qurtarmış, fizika-riyaziyyat elmləri doktoru olmuş, Milli Akademiyanın Kibernetika İnstitutunda işləmişdir. 1984-cü ildə Azərbaycan Respublikası Dövlət mükafatına layiq görülmüşdür. Məmməd Mustafazadənin oğlu Fuad Mustafazadə (1939-1999) texnika elmləri doktoru, professor, Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda kafedra müdiri olmuşdur. Məmməd Mustafazadənin ikinci oğlu Fərhad Bakı Dövlət Universitetində dosentdir.

Vaqifin atası Əziz Mustafazadə.

Vaqifin anası Zivər xanım.

Vaqifin anası Zivər Ağasəf qızı Əliyeva dahi bəstəkar Üzeyir Hacıbəyovun tələbəsi olmuş, muğam müəllimi işləmişdir. Vaqifin muğama olan həvəsinin səbəbkarı məhz Zivər xanım olmuşdur. Zivər xanım Bakı neft milyonerlərindən olan Ağasəf Əliyevin qızıdır. Zivər xanımın anası Sona xanım Seyidzadə Mir Möhsün Ağanın qohumu, zəngin torpaq sahibi Hacı Nemət Seyidzadənin qızı idi. Hacının çar II Nikolayın yanında şəxsi kreslosu var idi. Bəli, budur bu ecazkar insanın soy kökləri.

Vaqif Əziz oğlu Mustafazadə 13 mart 1940-cı ildə anadan olmuşdur. 1963-cü ildə A.Zeynallı adına Bakı Musiqi Məktəbini bitirdikdən sonra, 1965-ci ildə Gürcüstan Dövlət Flarmoniyasında "Qafqaz" caz-triosunu yaratmışdır. V.Mustafazadə 1969-1970-ci illərdə Azərbaycan Dövlət Estrada Orkestrinin solist-pianoçu olmuş, 1970-ci ildə "Leyli" adlı ilk qadın vokal kvartetinə, 1971-1977-ci illərdə "Sevil vokal-instrumental ansablına, 1977-1979-cu illərdə isə "Muğam" instrumental ansamblına rəhbərlik etmişdir. O, muğam ladı ilə uzlaşan harmoniyalar fonunda Şərq muğam elementləri ilə Qərb caz improvizasiyalarının sintezindən yaranan caz musiqisinin Şərq dünyasını da fəth

"Vaqif Mustafazadə adına xeyriyyə fondu" rəhbərliyinə Vaqifin soy kökü haqda verdiyi məlumat və illüstrasiyalara görə təşəkkürümü bildirirəm - müəl.

etdiyini göstərmişdir. 1960-cı illərin sonunda V.Mustafazadənin əsasını qoyduğu caz-muğam bu gün də inkişaf edir. Vaqifin əvəzsiz xidməti ondadır ki, o, ilk dəfə Şərq muğamını Qərb dinləyicisinə onun daha yaxşı başa düşdüyü dildə, yeni caz dilində çatdırdı. Və əksinə, Azərbaycan dinləyicisinə cazı doğma muğamımızın dili ilə anlatdı. Hər iki janrın incəliklərini illərlə mənimsəmiş bu pianoçu Qərbin caz krallarının heyrət və

sevgisini qazanmaqla bərabər, Azərbaycan muğamını da bütün dünyada tanıtdı. Azərbaycan caz məktəbinin qurucusu V.Mustafazadə bir çox müsabiqələrdə öz kompozisiyaları ilə Azərbaycanı təmsil etmişdir. Beləliklə, "Tallin-66", "Tbilisi-78", Ümumittifaq caz festivallarının laureatı olmuş, bəstəkarların Monte Karloda 8-ci Beynəlxalq caz müsabiqəsində (Monako, 1978) 1-ci mükafata layiq görülmüşdür. Vaqif Mustafazadə muğamları və xalq havalarını orijinal ifaçılıq üslubuyla işləyirdi. Ayrıca fortepiano və simfonik orkestr üçün konsertini bitirə bilmədiyi "Muğam" simfoniyasının müəllifi Vaqif, 1979-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülmüşdür. Vaqif Əziz oğlu Mustafazadə 16 dekabr 1979-cu ildə vəfat etmişdir. 1982-ci ildə vəfatından sonra ona Azərbaycan Dövlət mükafatı laureatı adı verilmişdir.

Bu gün Azərbaycanda yeni cazmenlər nəsli artıq dünyada məhşur muğam-cazın müxtəlif istiqamətlərini inkişaf etdirirlər. Milli caz məktəbimizin yetirməsi, dahi pianoçu-bəstəkarın qızı Əzizə Mustafazadə artıq neçə ildir ki, bütün dünyada Azərbaycan cazını yüksək səviyyədə təbliğ edir. Əzizə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Hazırda Almaniyada yaşayır. Vaqifin böyük qızı Lalə Fransada yaşayır, Paris Konservatoriyasında müəllimədir. Tanınmış pianoçudur. O, "Qran-pri-91" mükafatı laureatıdır.

Unudulmaz dahi insan Vaqif Mustafazadə və onun soy kökü haqda qısa qeydlərimi Vilyam Şekspirin sözləri ilə yekunlaşdırmaq qərarına gəldim: "Biz hər hansı bir şeyin qədrini yalnız onu itirdikdən sonra bilirik".

EMİN SABİTOĞLU

Mahnı janrı sahəsində şöhrət qazanmış bəstəkarlarımızdan biri də Emin Sabit oğlu Mahmudovdur. Onun bəstələdiyi mahnılar öz təravəti, gözəlliyi və populyarlığı ilə seçilir. Emin Sabitoğlunun yaradıcılığında milli ruh özünü daha çox göstərir.

Emin görkəmli söz ustası, unudulmaz dramaturq Sabit Rəhmanın oğludur.

Eminin dediklərindən: "Atam həmişə zarafatla deyərdi ki, indi səni mənə görə tanıyırlar, o gün olsun ki, məni sənə görə tanısınlar. 1970-ci ildə atam dünyadan köçəndən sonra anamla məsləhətləşib familiyamı "Sabitoğlu" yazdırdım. İstəyirəm ki, mənim adım çəkiləndə atam da xatırlansın".



Emin Sabitoğlu.

Emin Sabitoğlu 1937-ci ildə Bakıda anadan olub. 1944-cü ildə Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki onillik orta musiqi məktəbinə (indiki Bülbül adına Orta İxtisas Musiqi Məktəbi) daxil olur. Professor Kövkəb Səfərəliyevanın sinfində oxuyur. Eyni zamanda, o, dram teatrında musiqi hissə müdiri işləyirdi. Əməkdar incəsənət xadimi Saveli Ayzendən evdə dərs alırdı. Gənc Emin axırıncа siniflərdə oxuyanda bəstəkarlığa meyil etməyə başlayır. Bir dəfə atası gənc Eminі bəstəkar Qara Qarayevin yanına aparır, oğlunun əsərlərini ona göstərir. Qara Qarayev onu dərhal özünün bəstəkarlıq sinfinə qəbul edir. Üç ildən sonra Q.Qarayevin məsləhətilə Moskva Dövlət Konservatoriyasında təhsilini davam etdirir. 1961-ci ildə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasını bitirir. O, məşhur professorlardan Y.Şaporin və D.Roqal-Levitskinin sinfində oxumuşdur. Təhsilini başa vurduqdan sonra "Azərbaycanfilm" kinostudiyasında musiqi şöbəsinin müdiri olmuş, 1963-cü ildən Azərbaycan Dövlət Konservatoriyasında müəllim işləməyə başlamışdır.

Respublikanın əməkdar incəsənət xadimi Emin Sabitoğlu təkcə mahnı yox, musiqinin başqa janrlarında da əsərlər yazmışdır. Bəstəkarın belə əsərlərindən aşağıdakıları göstərmək olar: - "Suita", "Çiçəklən, Vətənimiz" (kantata), fortepiano üçün "Variasiya", skripka və fortepiano üçün "Poema", dahi türk şairi Nazim Hikmətin və xalq şairi Rəsul Rzanın sözlərinə həsr edilmiş romanslar, estrada mahnıları və s.

Emin Sabitoğlu dram əsərlərinə, kinfilmlərə də musiqi bəstələmişdir.

Sabit Rəhman oğlu Eminə məsləhət verib deyərdi ki, hər bir bəstəkar ən əvvəl öz xalqı üçün, xalqının başa düşəcəyi tərzdə musiqi əsəri yazmalıdır... O bəstəkarı ki, öz xalqı qavramır, onu başqa xalqlar necə başa düşə bilər?...

Atası Sabit Rəhmanın "Yalan", "Xoşbəxtlər", "Əliqulu evlənir", "Nişanlı qız", "Küləklər", "Hicran" komediyalarının musiqisini də Emin yazmışdır.

Emin Sabitoğlu 2000-ci ildə Bakıda vəfat etmişdir.

CAVANŞİR QULİYEV



Cavanşir Quliyev

İstedadlı gənc bəstəkar Cavanşir Rəhim oğlu Quliyev 1950-ci ildə Şəkidə anadan olmuşdur. Cavanşir orta məktəbi bitirdikdən sonra Şəki musiqi məktəbinin tar sinfinə daxil olmuşdur. Bu heç də təsadüfi deyildi. Axı, Cavanşirin anası Tavat xanım Şəkidə tanınmış müəllim olmaqla yanaşı, eyni zamanda, tarda da gözəl çala bilirdi. Elə tara və ümumiyyətlə, musiqiyə həvəs Cavanşirə anası Tavat müəllimədən keçmişdir. Bu sahədə yetkinləşən gənc 1968-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olur. 1975-ci ildə professor Cövdət Hacıyevin sinfini bitirir. 1976-cı ildən Azərbaycan Dövlət Teleradiosunda səs rejissoru işləməyə başlayır. Bəstəkarlar İttifaqının üzvüdür.

C.Quliyev hələ konservatoriyada təhsil alarkən artıq bir neçə əsərin müəllifi kimi tanınmışdı. O, həmişə Azərbaycan milli musiqisindən ilham almış və yaradıcılığında ondan geniş istifadə etmişdir. Bəstəkarın skripka və saz üçün sonatası (1980) buna misaldır.

Simfoniya hər bir bəstəkarın yetkinliyini bildirən janrdır. 1984-cü ilə qədər C.Quliyev artıq üç simfonik əsərin müəllifi

idi. O, tamaşalara və filmlərə musiqi bəstələməkdə də öz bacarığını sınamışdır. Onun mahnıları yaddaqalandır. İlk mahnısı "İydələr çiçəkləyəndə" (1984-cü il, sözləri D.Mustafayevindir) hələ də repertuardan düşməmişdir. İstedadlı bəstəkarın "Ana yurdum", "Gözlərin", "Lirik mahnı", "Sehirli mücrü", "Xəzər neftçiləri", "Bir ömür istərəm", "Xoş gəldin" və s. mahnıları öz orijinallığı ilə fərqlənir. O, həm də indi dillər əzbəri olmuş əsgər marşının müəllifidir.

Cəsarətlə demək olar ki, Cavanşir güclü potensiala malik, böyük gələcəkli bəstəkardır. Onun uğurları hələ qabaqdadır.

KİM GÖZƏL BİR CIĞIR AÇARSA, HÖRMƏTLƏ YAD EDİLƏR

Yükümüz nə qədər ağır və zəhmətli olarsa, ruhumuz o nisbətdə inkişaf edib ucalar.

A. LİDE.

Aqillər demişkən: "İnsan ömrü onun dünyaya baxmağı və dünyanın onu görməsi ilə yox, insanların onu yada salması ilə ölçülür". İnsanlar nadir sənəti, qəhrəmanlığı, dahiliyi, vətənpərvərliyi, quruculuğu, mərdliyi, yaxşılığı və s. xüsusiyyətlərinə görə yad edilir və zəhmət qazanır. Tarın gözəl ifaçıları deyəndə Mirzə Sadıq - Sadıqcan, Qurban Primov, B.Mənsurov yada düşür. Şərqin opera sənətinin banisi kimi Ü.Hacıbəyov yad edilir. Dünyada kamançanın mahir ustası kimi Habil Əliyev tanınmışdır. Kamil Cəlilov ilk dəfə Azərbaycan muğamlarını və el havalarını qaboyla səsləndirib xalqı heyrətə gətirmişdir. Belə mahir sənət ustalarından biri də zurna ustası Ələfsər Şəkili olmuşdur.

Zurna Azərbaycanda qədimdən geniş yayılmış nəfəslə çalınan musiqi alətidir. Zurnanın güclü və zil səsi var. Azərbaycanda iki zurnaçı (usta və dəmkeş) və nağaraçılardan ibarət ansambl geniş yayılmışdır. Bu alət Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin də tərkibinə daxildir. Dahi Üzeyir bəy "Koroğlu" ope-

rasında simfonik orkestr partiyasında zurnadan istifadə etmişdir. Qədimdən Azərbaycanın bir çox yerlərində toy şənlikləri, Azərbaycan milli güləşi, bayramlar zurna ilə müşayiət olunur.

Ələfsər Şəkili.

Rəhimov Ələfsər - Şəkili Ələfsər 1930-cu ildə Şəki şəhərində anadan olmuşdur. O, kiçik yaşlarından musiqiyə çox həvəs göstərmişdir. Qamışdan tütək-ney düzəldib el havalarını, rəqsləri gözəl ifa edərdi. Ələfsər öz musiqi savadını Şəki Orta ixtisas musiqi məktəbində davam etdirir, həmin məktəbin klarnet sinfini bitirir. Ələfsər Şəkili Respublika və Ümumittifaq festivallarında iştirak edir və dəfələrlə laureat adına layiq görülür. Artıq tanınmış sənətkar 1959-cu ildə Moskvada keçirilən Azərbaycan dekadasının iştirakçısı olur. Həmin dekadada Ələfsər Şəkili Xan Şuşinski, Şövkət Ələkbərova, Sara Qədimova kimi sənətkarlarla çıxış etmişdir. O, eyni zamanda dahi bəstəkar Səid Rüstəmovun başçılıq etdiyi Xalq Çalğı Alətləri Orkestrinin tərkibində çıxış etmişdir. Dekada günləri Azərbaycan incəsənət ustaları Ümumittifaq Kənd Təsərrüfatı Nailiyyətləri Sərgisində, Kremlin Sütunlu salonunda konsertlər vermiş, Ələfsər də bu tədbirlərdə yaxından iştirak etmiş, öz gözəl və rəngarəng çıxışları ilə hamını heyran qoymuş, laureat adına layiq görülmüşdür. Ələfsərin solo çıxışları həm tamaşaçıları və həm də karifey sənətkarlarımızı ovsunlamış və heyran etmişdir. Qatarla Moskvadan Bakıya qayıdarkən, S.Rüstəmov, Şövkət Ələkbərova Ələfsəri öz kupelərinə dəvət edir və xahiş edirlər ki, zurnada bir "Segah" muğamı çalsın. Ələfsər çox məmnuniyyətlə onlar üçün "Segah" və başqa muğamları ifa edir. İfadan sonra Şövkət xanım özünü saxlaya bilməyib ağlayır və deyir ki, Ələfsər, zurnanı sən ifa etmirsən, sən bu alətdə oxuyursan. Bu aləti Allah sənə göndərib, sənə məxsusdur və səninlə də gedəcək (Ş.Ələkbərovanın dedikləri, Ə.Şəkilinin söylədikləri).

Bəli, budur sənət, sənətkar qüdrəti. Necə ki, Ələsgər Şəkili dəfn olunarkən Cabbar Qaryağdıoğlu demişdir: "Ələsgər, biz səni yox, "Rahab"ı dəfn edirik".

Mən özüm iştirakçısı və şahidi olduğum bir əhvalatı gələcək nəslə çatdırmaq istərdim.

1964-cü il oktyabr ayının ortaları idi. Ermənistanın Allahverdi rayonu "Lenrudniki" deyilən bir kəndindən gəlin (azərbaycanlı qızı) gətirməyə getmişdik. Bu kənd yüksək çılpaq dağların üstündə yerləşirdi, evlərə maşınla getmək hətta mümkün deyildi. Vaxtilə bu bölgədə mis mədənləri olub və fransızlar Allahverdi şəhərində böyük zavod tikiblər, o, hələ də fəaliyyət göstərir. Kənddə 15-ə qədər azərbaycanlı ailəsi yaşayırdı. Qalanları isə yunanlar və ermənilər idi. Şəkidən 30-dan çox adam və o cümlədən, Ələfsər öz ansamblı ilə getmişdi. Kəndə axşamtərəfi çatdıq, bir tikə çörək yeyəndən sonra qonaqları 3-4 nəfər evlərə payladılar ki, istirahət etsinlər, səhəri toy məclisi olası idi. Ələfsər, qardaşım Sabir (onun haqda əvvəllər məlumat vermişəm), Şəkinin adlı-sanlı ziyalılarından olan Temurçin və Zərdüştü kəndin lap yuxarı hissəsindəki bir evə göndərdilər. Səhər saat 7 radələri idi. Hələ yataqdan durmamışdım. Bir də eşitdim ki, zurnada çalınan muğam sərin gəlir. Sən demə, Ələfsər hündür bir qayanın üstünə çıxıb növbə ilə zurnada və klarnetdə muğamları və xalq mahnılarımızı çalır. Bütün kənd camaatı sıldırım yollarla həmin səmtə axışır.

Günorta toy başladı, kənddə çağırılan və çağırılmayan bütün əhali həmin evə axışdı ki, bu çalğıya qulaq assın.

Ələfsəri S.Rüstəmov Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinə dəvət edir. Lakin o, öz doğma Şəkisindən kənara çıxmır. 1983-cü ildə dünya şöhrətli Rəşid Behbudov Ələfsəri özü ilə Belçikaya qastrola aparır. O, 1982-ci ildə Fransada keçirilmiş dünya xalqlarının festivalında uğurla çıxış edir.

Unudulmaz sənətkar Ələfsər Şəkili 1984-cü ildə vəfat etmişdir. Şəkidə 2 saylı musiqi məktəbi Ələfsər Rəhimovun adınadır. Hazırda Ələfsər cığırının, Ələfsər yolunun, Ələfsər sənə-

Əbülfət Şəkili.

tinin mahir davamçısı onun qardaşı oğlu, Rəşid Behbudov adına Mahnı Teatrının solisti Məmmədrəhimov Əbülfət Yaqub oğludur. O, 1952-ci ildə Şəki şəhərində anadan olmuşdur. Əbülfət Şəkili 1967-ci ildə Şəki Uşaq Musiqi Məktəbini, 1971-ci ildə Şəki Orta İxtisas Musiqi Məktəbini bitirmişdir. Əsgəri xidmətini başa vurduqdan sonra 1975-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuş, müəllim-ifaçı-dirijor ixtisasına yiyələnmişdir. 18 ildən çox müəllimlik stajı var. Hazırda Asəf Zeynallı adına Musiqi Kollecində tar ixtisası üzrə müəllimlik edir. O, ən çox tanınmasının səbəbini 1988-ci ildən R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının ansamblında solist kimi çalışmasında görür. İstedadlı tarzən tardan başqa saz, ud, türk sazı, gitara, nağara və qoşa nağara kimi alətlərin də mahir ifaçısıdır. 1998-ci ildə bir albomu buraxılmışdır. O, Fransa, Belçika, İsveç, Avstriya, Almaniya, İran, Türkiyə, Moldova, Tümen, Moskva, Sankt-Peterburq, Ekaterinburq kimi ölkə və şəhərlərdə konsert proqramları ilə uğurla çıxış etmişdir. Əbülfət Şəkili 2001-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti günləri dekadasının fəallarından biri olmuşdur.

Əbülfət Şəkili yaradıcılığında əmisi Ələfsər Şəkili çığırının davamı görünür, xalq onun ifaçılıq sənətini çox sevir.

AZƏRBAYCAN TARININ VƏ MUĞAM SƏNƏTİNİN MAHİR TƏBLİĞATÇISI

Azərbaycan milli musiqisi və muğam sənətinin inkişafı, onun təbliği sahəsində Şəki sənətkarlarının da özünəməxsus yeri vardır. Bu gün xalqımız Şəkili Ələsgəri, Ələvsət Sadıqovu, Əhmədbəy Tahirovu və b. hörmətlə yad edirlər. Müasir dövrdə Azərbaycan musiqisi ifaçılıq sənətinin mahir ustalarından Qurban Pirimov, Bəhram Mənsurovun davamçılarından biri də Faiq Çələbidir. Akif Salamov "Şəki fəhləsi" (30.07.1991) qəzetində "Neva üzərində muğam məclisi" sərlövhəsi altında Faiq haqda maraqlı məlumat vermişdir. Bu məqaləni bütünlüklə çap etmək qərarına gəldik.

"Ümumrusiya Elmi Tədqiqat Sənətşünaslıq İnstitutunun Yaşıl zalında tez-tez konsert-müsamirələr keçirilir. Onlardan biri - cari ilin iyun ayında keçirilən "Muğam" məclisi ilə tamaşaçıların nəzər-diqqətini daha çox cəlb etmişdir. Bunu mübaliğəsiz son vaxtlar Leninqradın (indiki Sankt-Peterburq - red.) mədəni həyatında baş vermiş vacib hadisələrə aid etmək olar.

Bu, Azərbaycanın görkəmli musiqi xadimləri, tarzənlər Qurban Pirimovun (1880-1965) və Bəhram Mansurovun (1911-1985) yubileylərinə (110 və 80 illiyinə) həsr olunmuşdu. Həmin gecənin təşkilatçısı gözəl musiqiçi - tarzən, muğam sənətimizin bilicisi və fəal təbliğatçısı, Leninqrad Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutu folklor şöbəsinin keçmiş aspirantı, hazırda isə A.İ.Gertsen adına Rusiya Dövlət Pedaqoji Universitetinin müəllimi Faiq Çələbidir.

Ümumiyyətlə, özünəməxsus musiqili-ədəbi məclislər son vaxtlar Leninqradda ənənəvi hal almışdır. Onun iştirakı ilə son on ildə Neva çayı üzərindəki şəhərin böyük konsert salonlarında bu cür məclis-müsamirələr, konsertlər tez-tez keçirilir. Onu da xatırlatmaq yerinə düşər ki, F.Çələbi bu gözəl ənənəni Leninqradın məşhur pianoçusu A.V.Romodin ilə birgə qoymuşdur. Gənc musiqiçi həm də həmin silsilədə təkcə özü çıxış etməklə kifayətlənmir, oraya tez-tez Azərbaycanın görkəmli sənət ustalarını da dəvət edir.

Ancaq haqqında danışdığımız bu gecə başqalarından fərqlənirdi. Təkcə ona görə yox ki, buraya çoxlu tamaşaçı toplaşmışdı. Həm də ona görə ki, tamaşaçıların tərkibi milləyyətcə, dünya baxışı etibarilə müxtəlif idi.

Təsadüfi deyil ki, gecəni giriş sözü ilə həmyerlimizin elmi rəhbəri, sənətşünaslıq elmləri doktoru İ.İ.Zemkovski açmışdır.

O qeyd etmişdir ki, Faiq Çələbi bu qeyri-adi çıxışını özünün sevimli müəllimlərinə - məşhur Azərbaycan tarzənlərinə həsr etmişdir.

Faiq Çələbi gözəl ustalıq məktəbi keçmişdir. Onun üçün əsl xoşbəxtlikdir ki, Faiqə məhz Qurban Pirimov və Bəhram Mansurov kimi tanınmış sənətkarlar dərs demişlər.

Azərbaycan musiqi ifaçılığı sənətinin ən yaxşı nailiyyətlərində Q.Pirimovun və B.Mansurovun da payları var. Onlar nəsillikcə musiqiçi olsalar da, öz dövrlərində yaşamış görkəmli musiqiçilərin ifaçılıq sənətini mənimsəmişdilər.

Belə ki, Qurban Azərbaycan tarının yaradıcılarından olan Mirzə Sadığın ən sevimli tələbəsi olmuşdur. Onun müəlliminə el arasında "Sadıqcan", bəzən isə "Azərbaycan tarının atası" deyə müraciət edirdilər. O, Qurbana xüsusi qiymət verirdi və bir azdan Qurban, həqiqətən də, tar sənətinin böyük ustası kimi tanındı.

Bəhram Mansurov da Qurban dayının mənsub olduğu klassik muğam ifaçılığı məktəbinin görkəmli nümayəndəsidir. Hörmətli və nüfuzlu musiqiçi Azərbaycanın indiki musiqi mədəniyyətinə də güclü və emosional təsir göstərmişdir. Onun sənəti bir çox musiqiçilər üçün əsl örnək olmuşdur.

Yuxarıda adını çəkdiyimiz tədbirin təşkilatçısı F.Çələbi də onların biridir. O öz taleyini məhz həmin sənətkarların tövsiyəsi ilə əbədi olaraq musiqi ilə bağlamışdır. Bu mənada hər iki sənətkar F.Çələbinin mənəvi həyatına möhkəm daxil olmuşdur. Buna görə də həmyerlimiz indi onların ənənələrini sədaqətlə davam etdirir və Azərbaycan tarını, muğam sənətimizi dünyaya tanıdır.

Bütün bu fikirlər həmin muğam gecəsində geniş əks olunmuşdur. Konsertin proqramına hər iki musiqiçinin repertuarından muğamlar və rənglər daxil idi. Əlbəttə, söhbət bizim musiqi mədəniyyətimizin klassik nümunələrindən gedir.

Özü də bu muğamlar təkcə məzmununa və formasına görə deyil, həm də ifa tərzinə görə fərqlənirdi. Onların içərisində

məşhur muğamlar - "Şur", "Bayatı-Şiraz", "Mahur-hindi", "Segah" və az-az ifa olunan "Rahab", "Nəva", "Şüştər" də var idi.

Konsert qurtarsa da, dinləyicilər heç yana tələsmir, ecazkar Azərbaycan musiqisinin təsiri altında öz təəssüratlarını bildirirdilər. "F.Çələbinin ifaçılıq sənəti çoxşaxəlidir". "Onun təfsirində muğamlar sanki yeni həyat kəsb edir, yeni çalarlarla zənginləşir". "Biz F.Çələbinin simasında, hər şeydən əvvəl, gözəl musiqiçi və muğam sənəti bilicisini görürük". Bu fikirlər, bu sözlər Leninqradın görkəmli sənət və elm xadimlərindən professor T.S.Berşadskayaya, professor B.N.Putilova, şairə Y.A.Casovaya məxsusdur.

Yeri gəlmişkən qeyd edək ki, həmin alimlər xalqımızın mədəniyyətinə, incəsənətinə yaxşı bələddirlər. Məsələn, şairə Casova Qətran Təbrizidən üzü bəri klassik poeziyamızı rus dilinə tərcümə etmək kimi nəcib və xeyirxah bir işin müəllifidir.

Leninqrad qəzetləri yazırdılar ki, F.Çələbinin ifa etdiyi muğamların dərin fəlsəfi mənası var. Onlar bu ifada yeni həyat vəsiqəsi alırlar.

Ölkəmizdə milli münasibətlərin kəskinləşdiyi bir vaxtda Leninqradda Azərbaycan musiqisinə həsr olunmuş tədbirlərin təşkili həm də rəmzi məna kəsb edir. Musiqi xalqları birləşdirir, onların daha da yaxınlaşması üçün vasitə rolunu oynayır.

Şübhəsiz, Faiqin ifa tərzi də bu məsələdə az əhəmiyyət kəsb etmir. Axı, onun çalğısında dünya şöhrəti qazanmış sənətkarlarımızın müxtəlif nəsillərinə məxsus üslubların sintezi müşahidə olunur. Yoxsa o, tələbkar və incə zövqlü Leninqrad tamaşaçılarının diqqətini o qədər də cəlb edə bilməzdi.

Əlbəttə, F.Çələbinin bu fəaliyyəti həmyerlilərini də ürəkdən sevindirir. O, şəhərimizdəki 10 nömrəli orta məktəbin yetirməsidir. Musiqi məhsilini isə Bakıdakı A.Zeynallı adına orta ixtisas musiqi məktəbində almış (B.Mansurovun sinfində), Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Burada isə

onun sənət müəllimi sevimli bəstəkarımız Səid Rüstəmov olmuşdur.

Faiq Azərbaycan Dövlət Filarmoniyasının, Teleradio Şirkətinin tarzəni kimi də musiqisevərlərə yaxşı tanışdır. Sonra isə, məlum olduğu kimi, təhsilini davam etdirmək üçün Leninqrada getmişdir".

RƏŞİD BEHBUDOV ADINA AZƏRBAYCAN DÖVLƏT MAHNI TEATRININ SOLİSTLƏRİ

1. Könül Xasıyeva.
2. Nüşabə Ələsgərli.
3. Gülyaz və Gülyanaq Məmmədova bacıları.
4. Vaqif Şıxəliyev.

Könül, Nüşabə, Gülyaz və Gülyanaq respublikamızın tanınmış əməkdar artistləridir. Onların hər birinin özlərinə məxsus repertuarları var. Könül milli muğamlarımızın və xalq mahnılarının mahir ifaçısıdır. İndiki dövrdə "Qatar" muğamını Könül qədər məharətlə və ustalıqla ifa edən ikinci bir sənətkar yoxdur. Könül Xasıyeva sözün əsl mənasında dahi Şövkət, Rübabə... irsinin davamçısıdır.

Gülyaz Məmmədova.

Son dövrlər musiqi mədəniyyətimizdə iki ulduz parladı. Onlar öz gözəllikləri, incəlikləri, təravətləri ilə başqalarından fərqləndilər, xalqımız tərəfindən sevildilər. Onlar cüt bacı: Gülyaz və Gülyanaqdır. Nadir, gözəl səsə malik bu bacılar başqalarından hansı xüsusiyyətlərinə görə fərqlənirlər? Milli geyimləri ilə, səhnə mədəniyyətinə görə və milli musiqimizə olan sədaqətlərinə görə. Onlar ilk dəfə sübut etdilər ki, nəinki mahnıları, hətta muğamları belə duet şəklində oxumaq mümkündür. Bacılar televiziya ekranında görünəndə hər bir ailəyə sevinc gəlir, hamının üzü gülür. Gülyaz və Gülyanaq nəinki respublikamızda,

hətta başqa dövlətlərdə də məşhurlaşmışlar.

Gülyaz və Gülyanaq bacıları.

Gülyaz Məmmədova 1970-ci ildə Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuş, 1987-ci ildə kənd orta məktəbini bitirmişdir. 1988-1992-ci illərdə A.Zeynallı adına Musiqi Texnikumunun xanəndəlik şöbəsində oxumuşdur. 1992-ci ildən Rəşid Behbudov adına Mahnı Teatrının, 1993-cü ildən isə Azərbaycan Dövlət Milli Opera və Balet Teatrının solistidir. İstedadlı müğənni Ü.Hacıbəyovun "Leli və Məcnun" operasında Leyli, "Arşın mal alan" operettasında Telli, Z.Hacıbəyovun "Aşıq Qərib" operasında xanəndə qız, Niyazinin "Rast" baletində muğam hissələrini, Ş.Axundovanın "Gəlin qayası" operasında Gülbahar, R.Mustafayevin "Vaqif" operasında xanəndə qız obrazlarını məharətlə ifa etmişdir. Gülyaz Almaniya, Fransa, Strasburq, Türkiyə, ərəb ölkələri, Moskva, Ukrayna, Belarus, Moldova, Yekaterinburq kimi ölkə və dövlətlərdə uğurla çıxış etmişdir. Onun Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin qızıl fondunda "Mahur-hindi", "Bayatı-Şiraz", "Şahnaz", "Heyratı" muğamları, saysız-hesabsız xalq mahnıları, bəstəkar mahnıları, qiymətli sənət əsərləri kimi qorunmaqdadır. Gözəl sənətkar 1997-ci ildən Musiqi Kollecində muğamdan dərs deyir. G.Məmmədova 1998-ci ildə Respublikanın əməkdar artisti adına, 2002-ci ildə Prezident mükafatına layiq görülmüşdür. Gülyazın bir oğlu var, onu gələcəkdə tarzən görmək arzusundadır.

Gülyanaq Məmmədova.

Kiçik bacı Gülyanaq Məmmədova 1973-cü ildə Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuş, 1990-cı ildə kənd orta

məktəbini qurtarmış, 1991-1992-ci illərdə A.Zeynallı adına Musiqi Texnikumunun xanəndəlik şöbəsində oxumuşdur. 1993-cü ildən Azərbaycan Dövlət Mahnı Teatrının solistidir. O, 1992-2000-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin aktyorluq fakültəsində, 2000-2002-ci illlərdə isə magistr şöbəsində oxumuşdur. Gülyanaq hələ tələbə olarkən bir çox tamaşalarda yaddaqalan obrazlar yaratmışdır: Ü.Hacıbəyovun "O olmasın, bu olsun" komediyasında Gülnaz, "Arşın mal alan" operettasında Gülçöhrə, S.Ələsgərovun "Hərənin öz ulduzu" komediyasında Məleykə, "Ağa Kərim xan" komediyasında Bədircahan. İstedadlı sənətkar 1998-ci ildə Respublikanın əməkdar artisti adına, 2002-ci ildən Prezident mükafatına layiq görülmüşdür.

Vaqif Şıxəliyev haqda bir az geniş məlumat vermək istərdim. Gənc olmasına baxmayaraq, böyük gələcəyi var, bir çox müsabiqələrin laureatıdır. Vaqif 1978-ci ildə Şəkidə anadan olub. Şəki Uşaq Musiqi Məktəbində, sonra 2 saylı musiqi məktəbində təhsil alıb. 1994-cü ildə Bakıda Bülbül adına Musiqi Məktəbinin xanəndəlik sinfinə daxil olub. Həmin məktəbdə xalq artisti Əlibaba Məmmədovdan "Şur", "Segah-Zabul", "Bayatı-Şiraz", "Mirzə Hüseyn segahı", "Rast" və təsnifləri öyrənib. 1997-ci ildə Bakı Musiqi Akademiyasına qəbul olub, tanınmış muğam ustası, xalq artisti, professor Arif Babayevdən dərs alıb. Vaqif 2001-ci ildə təhsilini başa vurub, 2003-cü ildə "Bakı payızı" estrada müsabiqəsinin laureatı olub. O, Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının solistidir. Vaqif Şıxəliyev özünəməxsus bir gözəlliklə muğamları, xalq mahnılarını və bəstəkarlarımızın əsərlərini ifa edir.

Vaqif Şıxəliyev "Azəri Star - 2005" müsabiqəsinin qalibidir.

ÖLÜM VAR Kİ, HƏYAT QƏDƏR DƏYƏRLİ...

"Mən sizə hücum etməyi yox, ölməyi əmr edirəm".
"Vətənimiz üçün qan, dostumuz üçün göz yaşı, ailəmiz üçün tər töküm".

M.K.Atatürk.

"Torpaq - əgər uğrunda ölən varsa Vətəndir".

Midhəd Camal Kuntay.

"Türk xalqının düşməni olmaq bütün insanlığın düşməni olmaq deməkdir. Allah məni belə bir günah işləməkdən qorusun".

Altons Mari Lui de Lamartin, fransız şairi.

"Ah Vətən, candan keçmək istədim,
Bu əziz yolda ölmək istədim".

Ü.Hacıbəyovun "Vətən və cəbhə" kantatasından.

"Dağa desəm eşidir, sonra verir əks-səda,
Daşa dönmüşlərə əks eyləmədi fəryadım".

Məhəmməd Hadi.

ƏZƏLİ VƏ ƏBƏDİ DÜŞMƏNİMİZ ERMƏNİLƏRİN SİFƏTİ

Bəs kimdir bu "erməni" deyilənlər?
Bu suala
"Elturan" jurnalı
cavab verir.

ERMƏNİSTAN VƏ ERMƏNİLƏRİN OLMAYAN TARİXİ BARƏDƏ[1]

Ermənidir Yer üzünün Əhrimənı,
İnsanlığın düşmənidir, düşməni!
Sədi ŞİRAZİ.

"Tarixin müxtəlif dönəmlərində ermənilər, onların yaşadıqları ərazilər zaman-zaman araşdırıcıları məşğul etmişdir. Ermənilərlə bağlı mübahisələrdə əsas məsələ bunun üstündədir ki, bu xalqın toplu halında yaşadığı dəqiq ərazisi var, ya yox? Uzun illər boyu tarixçi alimləri məşğul edən bu mübahisəyə son qoyulmamışdır. Amma ümumi bir fikri bir çox alimlər təsdiq edirlər ki, onların dəqiq müəyyənləşdirilmiş ərazisi yoxdur. Tarixdə mövcud olmuş Ermənistan dövlətinə gəlincə, bu dövlətin özlərini "hay" (bəzənsə "hayk") adlandıran ermənilərlə heç bir əlaqəsi yoxdur. Heç bir tarixi qaynaqda qədim "Armeniya" adının indiki Ermənistanda yaşayan ermənilərə məxsusluğu haqqında məlumat yoxdur, hətta erməni tarixçilərinin özləri belə, məsələn, Moisey Xorenli, Pascırmaçıyan, Nalbandyan, Hovhanesyan və başqaları indiki ermənilərin xalq olaraq o vaxtkı Ermənistanla heç bir əlaqəsi olmadığını göstərmişlər. Təsadüfi deyil ki, indi ermənilər ölkələrinə də "Hayastan" deyirlər. Özünün mövcudiyyətindən XX əsrə qədər onlar həmişə dağınıq halda, müxtəlif ölkələrin ərazilərində yaşamış, həyat şəraitinə uyğun olaraq yerlərini tez-tez dəyişmişlər.

Məşhur tarixçilərdən Herodot, Toynbi, Qatteymas, Jan de Morqan, Makler, Lanq və başqaları Ermənistan və ermənilər mövzusuna toxunaraq dəfələrlə qeyd etmişlər ki, qədim Anadolu torpaqlarında heç bir millətlə əlaqəsi olmayan bir neçə coğrafi bölgə adları olub və onlardan biri də "Ermənistan" deyilən toponimik yerdir. Həmin torpaqlarda isə zaman-zaman müxtəlif

[1] **Bu bölmədə verilən 3 məqalə əziz dostum Səfalı Nəzərlinin "Ləmbəli" kitabından (Bakı - "Nurlan" - 2004, s.11-23) götürülmüşdür. Öz adımdan və oxucular adından müəllifə dərin təşəkkürümü bildirirəm.**

millətlər yaşayıb. Buradan da belə qənaətə gəlmək olur ki, qədim Oğuz məskəni olan indiki Ermənistanın, hətta qədim "Ermənistan" adı ilə heç bir bağlılığı yoxdur və bu torpaqlara ermənilərin sahib çıxması tarixi ədalətsizlikdir. Tarixin dönəmlərində - həm Türkiyə ərazisinə, həm də Qafqaza gəlib çıxmış ermənilər əslində heç vaxt bu torpaqları özlərinə vətən saymamışlar. Çoxlu tarixi faktlar da bunu sübut edir.

Bu xalq müxtəlif tarixi gedişat nəticəsində siyasi situasiyalara uyğun olaraq (xüsusən dövlətlərarası müharibələr vaxtı) həmişə əldə oyuncaq olmuş, ondan bu və ya digər məqsədlərlə istifadə edilmişdir. Siyasət qanunlarına onlar çox asanlıqla tabe edilmişlər, çünki ermənilərin heç vaxt dövləti olmamışdır və onların "müstəqil olmaq arzularından" istifadə edən bəzi dövlətlər erməniləri öz tərəflərinə çəkməyə nail olmuşlar. Məlumdur ki, XIX əsr həm müharibələr, həm də siyasi hadisələrlə dolu, zəngin, eyni zamanda mürəkkəb idi. Qərb-Şərq qarşıdurması, dünyanın yenidən bölüşdürülməsi uğrunda çarpışmalar müəyyən ərazilərdə Qərb dövlətlərini özlərinə "dayaq" axtarmağa vadar edirdi. Qərbin öz "xristian" qardaşlarını müdafiə adı ilə apardığı təbliğat erməni ailələrini özünü daha tez cəlb etdi. Bu siyasət bir az da dəyişəndən və yerlərdə özünə tərəfdarlar toplayandan sonra Qərb "Ermənistan" dövlətinin yaradılması ideyasını ortaya atıb, ermənilərı daha da şirniklərdirdi. Bu məsələdə Avropa xristian dövlətləri ermənilərin türklərə düşmən kəsildiyi məqamlardan ustalıqla faydalanır və onlardakı kin-küdurəti daha da qızışdırırdılar. Tarixdən bu da məlumdur ki, vaxtilə Bizans imperatorları məzhəb ayrılığı xaricində müstəqil bir dövlət qurmaq məqsədi güdən müsəlman-türk əmirlikləri ilə siyasi əməkdaşlığa girmiş və tez-tez üsyanlar edən ermənilərə qarşı hərbi əməliyyat aparmışlar. O vaxt Raspurakan və Armeniyadakı ermənilər orta Anadoluya və Kilikiyaya sürgün edilmişdilər. Deməli, narazılığın kökü vaxtilə qoyulmuşdu və səlcuq idarəsinin zəiflədiyi vaxtlar buraya sürgün edilmiş ermənilər səlibçilər və monqollarla əməkdaşlığa girmişlər.

Ayıq Qərb diplomatları bu tarixi məqamları gözdən qaçırmır

və Osmanlı dövlətinin zəiflədilməsi üçün incə yerlər axtarırdılar və onu tapdılar. "Erməni məsələsi"nin kökünü məhz burada axtarmaq lazımdır.

Həmin əsrlərdə baş vermiş hadisələri qabardan Qərb siyasətçiləri hətta bunu da yaxşı bilirdilər ki, ermənilər sonrakı əsrlərdə Osmanlı dövlətinin tərkibində çox normal həyat sürür və sülh şəraitində yaşayırdılar.

XIX əsrin əvvəllərində təkcə İstanbulda 150 min erməni yaşayırdı. Onlara geniş dini və milli imkanlar verilmişdi. 1863-cü ildə "Erməni milləti Nizamnaməsi" fəaliyyətə başlamışdı. 140 təmsilçidən formalaşan məclisin 80 nəfəri paytaxtdan, yəni İstanbuldan idi. İlk erməni qəzeti 1859-cu ildə burada nəşr edildi, sonra çoxaldı, 60-cı illərin ortalarında erməni dilində çıxan qəzetlərin sayı 14 idi. Vanda, ən uzaq əyalətdə də qəzet çıxırdı. Deməli, ötən əsrdə Osmanlı dövlətində ermənilərə qarşı heç bir təzyiq olmamışdır, onlar bu ölkənin tamhüquqlu vətəndaşları kimi çox firavan yaşamışlar. Buradan belə bir nəticəyə gəlmək olur ki, türk-erməni münaqişələri XIX əsrdə süni surətdə yaradılmışdır. Qərb dövlətləri Osmanlı imperatorluğunu məhv etmək, bu ərazilərdə öz nüfuz dairələrini genişləndirmək istəyirdilər. Bu dövləti süqut elətdirmək üçün onlar bəzən birləşir, bəzənsə ayrı-ayrılıqda mübarizə edirdilər. Hər dövlətin isə öz mənafeyi vardı.

Daxildə qızışdırılan ermənilər öz milli müqəddəratlarını təyin etmək adı altında təxribatlar edir və Rusiyadan, Avropa ölkələrindən yardım alırdılar. Beləcə, "erməni məsələsi" dünya arenasına çıxarılırdı.

"Erməni məsələsi"ndən danışılarkən daha çox erməni kilsəsinin rolu açıqlanmalıdır. Ermənilər öz mövcudiyyətini qorumaq üçün güclü bir dövlətə ehtiyac olduğunu açıq şəkildə bəyan edirdilər. Erməni dövləti fikrini doğuran erməni milləti deyil, əslində erməni kilsəsi olmuşdur. Ümumilikdə müsəlmanlığa və müsəlman olduğu üçün türklərə qarşı işləyən bu din amili Osmanlı dövləti daxilində bir "erməni məsələsi"nin ortaya çıxarılmasının səbəblərindəndir. Erməni kilsəsi bu amildən çox rahatlıqla istifadə etmişdir. Müstəqil, ən azı muxtar bir erməni dövləti adı ilə şirnikləndirilən erməni kilsəsi Osmanlı dövləti üzərində oynanan oyunlarda alət oldu. Göründüyü kimi, bəzən türk idarələri belə bir oyunun oynanılmasına şərait yaratmış, yüksək vəzifəli məmurlar buna çox vaxt əhəmiyyət verməmişlər. Ümumiyyətlə, türklərin ən zəif tərəfi təbliğat işi idi.

Osmanlı dövləti idarələrində, böhtan və yalanlara, iftiralara çox soyuqqanlı yanaşılır, ona cavab verməyə çalışılmır, siyasətdə, yalnız özünü qorumaq məqsədindən irəli gedilməmişdir. Qərb ölkələri öz məqsədlərini həyata keçirmək üçün "Şərq", "Şərq məsələsi", "Orta Doğu", "Çağdaş" və s. kimi məsələlər də ortaya atmışdılar. Onlardan ən təhlükəlisi "erməni məsələsi" idi.

Bəsit mənada "məsələ" (problem) kəlməsi hər şey üçün işlədilən məfhumdur. Amma "erməni məsələsi" deyiləndə isə Qərbdə bu, həlli vacib olan bir siyasi məsələ kimi qəbul edilmişdir. Bu siyasətin məqsədi belə idi: Qərb dövlətlərinə və bu ölkələrdə yaşayan xalqlara belə bir fikir təlqin edilsin ki, Türkiyədə "erməni məsələsi" mövcuddur və bunu həll etmək adı ilə bu ölkəni inkişafdan saxlamaq; Türkiyənin və digər türk birliklərinin (dövlət mənasında) diqqətini əsas məsələlərdən yayındırmaq. Əks təqdirdə, Türkiyənin Rusiya, ABŞ, Fransa, İngiltərə, Yunanıstan, İran, Livan, Bolqarıstanla "işi" ola bilərdi. Çünki tarix boyu bu dövlətlər Osmanlı dövlətinin çökməsində dəridən-qabıqdaq çıxmış, bu regionda, Orta və Yaxın Şərqdə türk nüfuzunu heçə endirmək üçün hər şey etmişlər. Bundan başqa, Türkiyənin bəzi ölkələrlə milli marağı vardı və bir çox ölkələrdə yaşayan türkdilli xalqların əzilməsi, onlara edilən basqıya yeganə türk dövləti olan Türkiyə etinasız ola bilməz və seyrçi kimi qala bilməzdi. Onu etinasızlığa məcbur etmək, seyrçiliyə düçar etmək üçün "erməni məsələsi" Qərbin əlində çox gözəl "kozır" idi. Bu da "erməni məsələsi"nin XIX əsrin ortalarında meydana atılmasının bir səbəbi idi.

Krım müharibəsindən və 1870-ci ildə Fransa-Rusiya savaşından sonra beynəlxalq aləmdə baş verən hadisələrin gedişi bəzi ölkələri razı salmadı. Mərkəzi Avropada Almaniyanın möhkəm özüllər üstündə bərqərar olması bu ölkələri müəyyən mənada qane edirdi. Amma dünya hakimliyi iddiasında olan istər bu, istərsə də digər ölkələrin müharibə istəyi beynəlxalq aləmdə rahatlığı pozurdu. Bu, ölkə daxilində milliyyətçiliyin oyanmasına səbəb olurdu. Məhz milliyyətçilik hissinin təsirindən idi ki, öz ərazilərini genişləndirmək məqsədi güdən güclülər yeni torpaqlar fəth etmək ümidində idilər. Dünyanın bölüşdürülməsi hələ başa çatmamışdı. Məsələn, Balkanlarda Avstriya-Macarıstan və Rusiya, Mesopotamiya və Orta Asiyada rus və ingilis, Şərqi Ağdəniz və Misirdə ingilis və fransız, Türkiyədə fransız, ingilis və alman mənafeyi vardı. Ancaq bu güclülərdən hər birinin "ancaq öz müstəqilliyini qoruyacaq qədər zəif olması" səbəbindən bu rəqabət mütləq müharibəyə aparıb çıxarırdı. Böyük güclərin dünyanı qatı rəqabət içərisində, amma bir-biri ilə savaşmadan paylaşma mübarizələri çox uzun sürdü (1870-dən 1914-cü iləd ək), düz 45 il. Bu dövr ərzində Türkiyə istər-istəməz bu "qarmaqarışıqlıqların" mərkəzində oldu və düşünülmüş bu siyasət nəticəsində bir çox cəhətdən zəif düşdü. Və ilk baxışda çox asanca çözülməsi, həll edilməsi mümkün olan "erməni məsələsi" Türkiyənin başını çox qatmış oldu. Slav-Ortodoks və ermənilər üzərində itmiş təsirini bərpa etmək üçün çox əziyyət çəkildi. 1876-cı ildə Rusiya Balkanlarda Türkiyəni məğlub edib, bu torpaqlara sahib durmaq fikrinə düşdü, 1877-ci ilin fevralında isə Türkiyəyə qarşı açıq hərbə başladı. Bu hərblərin nəticəsində məhz Rusiya ingilisləri bu bölgədə gücləndirdi və istənilən anda həm Rusiya, həm də İngiltərəyə Şərqi Anadoluda yaşayan ermənilərdən öz siyasətlərini yeritmək üçün istifadə etməyə əlverişli şərait yaratdı. San-Stefano sülh müqaviləsinə görə Osmanlı xristianlarının vəziyyətini yaxşılaşdırmaq üçün islahatlar keçirilməsinə (maddə XV) və Şərqdəki ermənilərin durumunun yaxşılaşdırılması üçün Rusiyaya hər cür tədbirlər görmək icazəsi verilirdi. San-Stefanoda bağlanan bu müqavilə ilə ermənilərin "himayə hüququnu" həm də digər ölkələr qazanırdı. Fransa, Avstriya-Macarıstan, Almaniya və digər Qərb dövlətlərinin marağı, iştahası çox idi. İngiltərə üç imperator liqini felən dağıdaraq, Rusiyanı təcrid etməkdə və Berlin konqresinin toplanmasına zəmin hazırlamaqda idi.

Bu müharibə tarixə artıq "erməni məsələsi" deyilən və günümüzə qədər siyasətdə əsl alverə gətirib çıxaran bir problem peyda elədi. Bu "məsələ" zaman-zaman dərinləşməyə başladı və Qafqaza da keçdi".

Qafar ÇAXMAQLI,
"Elturan" jurnalı, 1993-cü il, № 1-2.

Bu köçəri, sərsəri ermənilərin əməllərinin mayası məkrdən yoğruldu.

KÖÇÜRMƏ

Can, can çəkən Vətən,
Səni kim qurtaracaq bu acı möhnətdən?

Ötən yüzilliyin 20-ci illərindən etibarən Türkiyəyə, İrana, Azərbaycana, Gürcüstana, Şimali Qafqaza və Orta Asiyaya buradan gedən, ata-baba yurdunu tərk etməyə məcbur qalan, "İran təbəəsi", "Türk təbəəsi" adı altında, "xalq düşməni", "şübhəli ünsür" damğası ilə sürgün edilən, 1948-1953 və 1988-1989-cu illərdə didərgin düşən azərbaycanlıların sayı 1,5 milyon nəfərdən çox olmuşdur. Bundan əvvəl, 1905-1907-ci və 1918-1920-ci illərdə olan qanlı vuruşmalarda yarım milyon azərbaycanlı Ermənistan ərazisində qətlə yetirilmişdir.

Ermənistan azərbaycanlıları sözün əsl mənasında soyqırımı siyasətinin qurbanı olmuşlar. Soyqırımı - millətin, irqin, qəbilə və tayfanın kökünü kəsmək deməkdir. Ermənistan azərbaycanlılarının da kökü ata-baba yurdundan həm fiziki, həm də mənən kəsilmişdir. Bunu bir də ona görə fiziki və mənəvi divan, qətl

hesab etmək lazımdır ki, Ermənistan azərbaycanlıları öz qonşularına qarşı heç vaxt üsyankar mövqe tutmamış, hakimiyyət uğrunda nəinki silahlı, heç dinc yolla da mübarizəyə qalxmaq fikrində olmamışlar, onların istəyi-amalı əmin-amanlıq şəraitində yaşayıb-yaratmaq, doğma vətənləri saydıqları Ermənistanın dirçəlişində gücü və imkanı daxilində iştirak etmək olmuşdur. Dağlıq Qarabağ adlandırılmış uydurma problemlə, bununla bağlı kükrəyib ətrafa yayılan ədavətlə Ermənistan azərbaycanlısının heç bir əlaqəsi, təqsiri, təmənnası belə olmamışdır. Onların Ermənistandan qovulması məhz milli ədavətin gücləndirilməsi, "türksüz Ermənistan" siyasətinin nəticəsidir.

Erməni-müsəlman (azərbaycanlı) münaqişəsinin tarixi, təsviri, səbəb və nəticələri indiyədək yalnız birtərəfli işıqlandırılmışdır. Erməni xalqının tarixində, dərsliklərdə, kütləvi informasiya vasitələrində, hətta bədii ədəbiyyatda, filmlərdə və səhnə əsərlərində erməni-türk, erməni-azərbaycanlı münaqişələri xüsusilə 1965-ci ildən sonra başlıca mövzuya çevrilmişdi. Əksinə, Azərbaycanda isə bu barədə söz-söhbət açmaq uzun zaman qadağan olunmuş, hətta tarixi həqiqətləri olduğu kimi yazmağa belə imkan verilməmişdir.

İki qonşu xalq arasında uzun illər boyu davam edən milli ədavətin, xüsusilə 1905 və 1918-1920-ci illərdə törədilən qanlı toqquşmaların səbəb və nəticələrinin təhlilində ikili münasibət vardı. Azərbaycanda bu barədə susmağı üstün tuturdularsa, Ermənistanda əksinə, millətçi ünsürlər xaricdən verilən fitvalar əsasında qarşıdurmanı həmişə saxlamış və azərbaycanlıların tamamilə qovulması vəzifəsini həyata keçirmək üçün hərtərəfli hazırlıq işi aparmışlar.

Buna köçürülmə yox, "repressiya" demək daha düzgün olardı. Baş məşqin tarixçəsi belə olmuşdur. 1943-cü ildə üç dövlətin Tehran konfransında Sovet-İran münasibətləri müzakirə edilərkən, erməni diasporu əlverişli fürsətdən istifadə edərək SSRİ Xarici İşlər naziri V.Molotova müraciətində xahiş etmişdir ki, İranda yaşayan ermənilərin SSRİ-yə köçməsinə icazə versinlər.

Molotov elə oradaca İ.Stalinlə danışıqdan sonra onların köçürülməsinə razılıq vermişdir. Q.Arutyunov (Ermənistan KP MK-nın I katibi) bu fürsətdən istifadə edərək xarici ermənilərin Ermənistana köçürülməsi barədə qərar verilməsinə nail olur.

Xaricdə yaşayan ermənilərı Ermənistanda yerləşdirmək üçün azərbaycanlıların Ermənistandan zorla köçürülməsi haqqında ilk qərar "Qolos Armeniya" qəzetinin verdiyi məlumata görə (11 noyabr 1990-cı il), M.C.Bağırovun və Q.Y.Arutyunovun 3 dekabr 1947-ci il tarixli məktubu ilə əlaqədar verilmişdir. Bu müraciətə cavab olaraq SSRİ Nazirlər Soveti iki qərar qəbul etmişdir. Birincisi 23 dekabr 1947-ci il tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar idi. İ.Stalinin imzaladığı həmin qərar azərbaycanlılar üçün gözlənilməz zərbə idi, açıq repressiya idi. Heç bir arqument göstərilmədən, girişsiz-izahsız tələm-tələsik verilən bu qərarda nəyin bahasına olursa-olsun, bütün azərbaycanlıların Ermənistandan köçürülməsi tələb olunurdu. SSRİ Nazirlər Sovetinin 10 mart 1948-ci il tarixli qərarında isə birinci qərarın yerinə yetirilməsi üçün tədbirlər planı şərh edilirdi.

SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarında göstərilirdi ki, 1948-1950-ci illərdə könüllülük prinsipləri əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. "Könüllülük" ifadəsi xüsusi məqsədlə qərara salınmışdı, əslində bu qəti repressiya idi. Qərara görə, 1948-ci ildə 10 min nəfərin, 1949-cu ildə 40 min nəfərin, 1950-ci ildə isə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Mərkəzin Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetlərini tələsdirməsi, onların cəmi bir ay müddətində geniş tədbirlər planı hazırlayıb, SSRİ Nazirlər Sovetinə məlumat vermələrini təkidlə tələb etməsi heç də səbəbsiz deyildi. Bu tələskənliyin əsl səbəbi, canı qərarın axırıncı - 11-ci maddəsində aydın şərh edilmişdir. "Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı

əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdən və yaşayış evlərindən xaricdən Ermənistana gələn ermənilər yerləşdirmək üçün istifadə etsinlər". Bütün bunlar tarixi həqiqətlərdir. Bəs, əslində bu qərar necə yerinə yetirildi? Əldə olan məlumatlara görə, 1948-1953-cü illərdə Ermənistan SSR-dən 100 min nəfərdən çox adam zorla köçürülmüş və ya köçməyə məcbur edilmişdir.

Stalinin ölümündən sonra köçürülmə dayandırılmışdır. Bu zaman əks-proses başlanmışdı. Axta, Qarabağlar, Yeğeqnadzor, Əzizbəyov və başqa dağ rayonlarından zorla Kür-Araz vadisinə köçürülən on minlərlə əhalinin aqibəti daha kədərli olmuşdur. İqlim şəraitinə uyğunlaşa bilmədikləri üçün, adi məişət uyğunluqları olmadığından köçürülənlərin üçdə biri aclıq və xəstəliklər nəticəsində həlak olmuşdur. Arxiv sənədlərindən göründüyü kimi, köçürülən əhalinin bir qismi tövlələrdə, bəzən isə hətta heyvanlarla bir yerdə yaşamışlar. Onlar üçün ayrılan vəsaitin cəmi 45-47 faizindən istifadə edilib, yaşayış evləri tikilməmişdir. Ermənistandan özbaşına köçənlərin böyük bir dəstəsi DQMV-nin Martuni rayonunun Qişi və Xunuşnak kəndlərində məskunlaşmışdılar. Vilayətin erməni rəhbərləri Azərbaycan köçürmə komissiyasının rəhbərləri olan ermənilərin (Brutens, Sevumyan) köməyi ilə onları Martuni rayonundan müxtəlif bəhanələrlə qovmuşlar. 1948-1953-cü illərdə Ermənistandan köçürülən azərbaycanlılardan bir nəfəri də olsun Dağlıq Qarabağda məskunlaşmağa qoymamışlar.

Köçürülmə dövründə ikinci müsibət Ermənistandan gələn azərbaycanlıların elə 1948-ci ildən başlayaraq yenidən öz doğma yurdlarına qayıtması idi. 1948-1950-ci illərdə 376 təsərrüfatın yenidən Ermənistana qayıtması xəbərini Ermənistan SSR Nazirlər Sovetinin sədri S.Karapetyan (29 may 1950-ci il tarixli teleqramında) Ermənistan üçün faciə hesab edirdi. Əslində bu, Ermənistan üçün deyil, oradan Azərbaycana qovulmuş, Azərbaycandan yenidən Ermənistana qayıtmağa məcbur olmuş didərgin azərbaycanlılar üçün faciə idi. Buna baxmayaraq beş il

ərzində Azərbaycana köçürülmüş Ermənistan azərbaycanlılarının salamat qalanlarının təqribən 40-45 faizi öz doğma yurdlarına qayıtmışdır.

Köçürülmə prosesinin başqa bir cəhətini də qeyd etmək vacibdir. Xaricdən gələn ermənilər yerləşdirmək üçün azərbaycanlıları öz dədə-baba yurdlarından köçürmək nəzərdə tutulurdu. Əslində isə məqsəd azərbaycanlıların Ermənistandan deportasiyası idi. Belə bir fakt da bunun əyani sübutudur ki, Ermənistan ərazisində elə indinin özündə də əvvəllər azərbaycanlıların yaşadığı yüzlərlə kənd xarabalığa çevrilmişdir. Ermənistan KP MK-nın 1975-ci il yanvar plenumunda göstərildiyi kimi, 476-dan çox kənd istifadəsiz qalmışdır. Hətta erməni millətçilərinin özlərinin də 1990-cı ildə etiraf etdikləri kimi, "azərbaycanlıların köçürülməsi ilə əlaqədar boşaldılan torpaqlardan və mənzil fondundan xaricdən gələn erməni kəndlilərinin yerləşdirilməsi üçün istifadə edilmədi".

Bütün bu deyilənlərdən yeganə bir nəticə çıxır ki, Ermənistandan azərbaycanlıların zorla köçürülməsi nə xaricdən gələn ermənilərin yerləşdirilməsi, nə də Azərbaycanda pambıqçılığı inkişaf etdirmək məqsədi daşımışdır, əksinə, daşnakların əzəli arzuları olan təkmillətli Ermənistan Respublikası yaratmaq siyasətinin nəticəsi olmuşdur.

Bu sahənin tədqiqatçıları, şübhəsiz ki, gələcəkdə sübut edəcəklər ki, axırıncı 1988-1989-cu illərdə Ermənistandan qovulan azərbaycanlıların sayı müxtəlif mənbələrdə göstərildiyi kimi, 165 min, 189 min, hətta 200 min deyil, daha çoxdur. Tərk etdikləri ərazi isə bəzən mətbuatda göstərildiyi kimi, 6.000 kv.km. deyil. Hesablamaların göstərdiyi kimi, 9.800 kv.km-dən çoxdur. Nəzərə almaq lazımdır ki, Ermənistanın indiki ərazisinin 36 rayonundan 33-də 1918-ci ilədək azərbaycanlılar yaşamışlar. 1976-cı ildə Ermənistanda 319 azərbaycanlı kəndi vardı. Ermənilər tədricən kəndlərin adlarını dəyişdirdiklərinə görə 1988-ci ildə 22 rayonda 185 azərbaycanlı kənd adı qalmışdır. Bütün bunlar əvvəlcədən düşünülmüş məkrli bir siyasətin - "türksüz

Ermənistan" strategiyasının həyata keçirilməsi üçün müstəsna ustalıqla aparılan geniş hazırlıq və baş məşq idi.

1989-cu ilin martında Ermənistanın Qafan rayonunda Azərbaycan xalqının qəddar düşməni, Zəngəzurun və Şərur-Dərələyəzin azərbaycanlılarını qanına qəltan edən daşnak Njdeyə abidə qoyulmuşdur. Rayon Partiya Komitəsinin birinci katibi Mkrtçyan abidənin açılışında yüzillik arzularının həyata keçirildiyindən bəhs edərək demişdir: "Siz çox zəhmət çəkdiniz, lakin respublikanı azərbaycanlılardan təmizləyə bilmədiniz. Sizin böyük arzunuzu nəvələriniz yerinə yetirdi. Ermənistanda heç bir azərbaycanlı qalmayıb". Doğrudur, Mkrtçyan nitq söylədiyi zaman bütün Ermənistanda yeganə azərbaycanlı kəndi olan Nüvədi qalırdı. Lakin bütün 250 min nəfər kimi Nüvədi kəndinin də əhalisi 1991-ci il avqustun 8-də hökumət səviyyəsində bir gün ərzində qovuldu.

İsrafil MƏMMƏDOV, Sabir ƏSƏDOV.
Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, "Gənclik", 1995.

Düşmənlərimizi hərtərəfli öyrənib tanımağımız lazımdır.

ERMƏNİLƏRİN SİFƏTİ
(xronikalar)

"Tarixçilərin qeyd etdiyinə görə, tarixən balaca bir ölkə (dövlət yox) olan Ermənistan Artaks və Zariadrisin, eləcə də onların tərəfdarlarının təkidləri ilə böyümüşdür" (Ə.Təbrizinin "Dağlıq Qarabağın tarixi və ona aid sənədlər" əsərindən).

"Ermənistan heç bir zaman bəşər tarixində xüsusi rol oynamamışdı. Bu, ermənilərin yayılıb səpələndikləri bir regionun coğrafi adıdır" (K.Patkanyan. "Yaxın Asiya tarixində Van yazıçılarının rolu". Sankt-Peterburq, 1875, rus dilində).

"İndiki Dağlıq Qarabağ orta əsrlər Albaniyasının bir hissəsi olmuş, sonralar erməni feodalları tərəfindən zəbt edilmişdir"

(G.İ.Orbeli. Ermənistan SSR EA-nın ilk prezidenti, Ermitaj muzeyinin keçmiş direktoru).

"Eramızdan əvvəl VIII və VI əsrlərdə meydana gələn Hind-Avropa xalqı olan ermənilərin gəlişindən qabaq, indi Ermənistan adlanan ərazidə yerli kaldis və xaldis xalqları yaşayırdı. Onların ölkəsi Urartu adlanırdı (səh.19). "Ermənistandan şimalda iki ölkə yerləşirdi: İberiya (indiki Gürcüstan) və Albaniya (indiki Azərbaycan).

"Daha sonralar erməni missionerləri Albanların ölkəsini (müasir Azərbaycan) xristianlaşdırmağa başladılar" (H.Pastermasyan. "Ermənistan tarixi". Paris, 1986, səh. 16-36 və 103).

"Albanların əksəriyyəti Azərbaycan xalqının tarixinə daxil olaraq islam dinini qəbul etmiş, az bir hissəsi isə (Şəki və Dağlıq Qarabağda) gəlmə ermənilərlə qarışıb ermənileşmişlər". (İ.Petruşevski. "Azərbaycanda və Ermənistanda feodal münasibətləri haqqında tarixi oçerk". Leninqrad, 1949, səh. 52).

"Erməni xalqının əsli nədir, necə, nə vaxt, haradan və hansı yollarla o buraya gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim necə təsir göstərib? Bizim əlimizdə bunları sübuta yetirən aydın və dəqiq dəlillər yoxdur". (Manuk Avakyan. "Erməni ədəbiyyatı tarixi". İrəvan, 1975, səh. 11).

"Ermənilər, əsasən, Azərbaycan mülkədarlarının torpaqlarında yerləşmişdilər. Bu erməni mühacirləri xəzinəyə heç bir xeyir verməyən bizim Gürcüstandakı tacir ermənilərdən yaxşıdırlar, çünki İrandan gələnlər sənətkar və kəndlidirlər". (A.Qriboyedov. "Ermənilərin İrandan bizim əyalətlərə köçməsi haqqında qeydlər". Seçilmiş əsərləri, II cild, Moskva, 1977-ci il. səh. 339-344);

"...Erməni inqilabçı təşkilatları gənc türklərə rəğbət bəsləyirdilər... Qafqaza 50000 erməni siyasi qaçqını gəlmişdi. Bu arzuolunmaz qonaqların yarısı qanunsuz olaraq gəlmişdi. Şərqi Qafqazda cinayətkarların əksəriyyətini Türkiyədən gələn ermənilər təşkil edir. (Eçmiədzin sinodunun prokuroru A.Fenikelin

1907-ci ildə Sankt-Peterburq müqəddəs sinoduna raportu" (Mərkəzi dövlət tarixi arxivi, fond 821, 139, 173. bölmə 96), Leninqrad).

"İngiltərənin iradəsi ilə çar imperiyasının xarabalıqları üzərində 1918-ci ildə yaradılıb, qısa bir ömür (1918-1920) sürən erməni respublikası, bütün tarix boyu mövcudiyyəti qeydə alınan yeganə müstəqil erməni dövləti idi" (Jorj Domosvil. "1915-ci il erməni faciəsi". Paris. 1988, səh.25).

"XX əsrin başlanğıcında Zaqafqaziyada yaşayan 1,3 milyon ermənidən bir milyondan artığı bu rayonun yerli əhalisi deyildir. Onlar buraya bizim tərəfimizdən köçürülmüşdür" (N.Şavrov. "Zaqafqaziyada rus mənafeyi üçün yeni təhlükə". Sankt-Peterburq. 1911, səh. 59-61, rus dilində).

"Erməni məhəllə məktəblərində şagirdlər "Böyük Ermənistanın" xəritəsini öyrənirlər ki, onun da ərazisi, demək olar, Voronejə qədər çatır və paytaxtı da Tiflisdir" (V.L.Veliçko. "Qafqaz, Rus mənafeyi və xalqlararası problemlər". Tiflis, 1904, rus dilində).

"Orta əsrlərin əvvəllərindən ermənilər diaspor xalqdır. Əksinə, Azəri türkləri və gürcülər SSRİ xalqları arasında ən az mühacirdirlər" (A.Benniksen. - "Sovet islamı: Qafqaz detanatoru". "Arabi" jurnalı. № 19-20, iyul-avqust, 1988, səh. 10).

***

"Erməni qul və kənizləri, Korinf, Afrodita kənizləri, habelə Hindistanın məbədlərində xidmət edən dini rəqqasələr ilk fahişələr idilər".

F. ENGELS.

"Ermənilər bir millət kimi Yer üzündən silmədiyim üçün gələcək xalqlar ya məni alqışlayacaq, ya da ki, lənətləyəcəklər".

Əmir TEYMUR.

"Ermənilər həmişə başqa dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə öz fikir, niyyət və duyğularını gizli saxlayan, hiyləgər və kələkbaz adamlara çevrilmişlər".

Aleksandr DÜMA,
fransız yazıçısı və səyyahı.

"Sən köləsən! Sən qorxaqsan! Sən ermənisən!"

A.S.PUŞKİN, böyük rus şairi.

"Dərisi ağ qulların pisi ermənilərdir. Abır-həyaları yoxdur, oğurluqları olduqca məşhurdur. Onlar yalnız dəyənək və qorxu altında yaxşı işləyirlər".

Adam METS, İsveçrə şərqşünası.

"Erməni qadınları digər xalqlarla zorla, məcburən də olsa, əlaqədə olmuşlar. Dövlətini və şərəfini çoxdan itirmiş erməni qadınları ilə münasibətdə olan İran əsgərləri, türklər, gürcülər və dağlılar, görünür, heç bir ədəb-ərkan gözləməmişlər. Bu səbəbdən, ermənilərin damarlarındant hər cür qan axır".

V.L.VELİÇKO, tarixçi.

"Ermənilərin eybi: bədfel, kündəbədən, oğru, gözügötürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüş söyən, ürəyi xıltlı, ağasına düşmənçilikdir".

"QABUSNAMƏ" (XII əsr).

"Bu xalq (erməni - red.) istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və riyakardır: bunlar daima romalılara nifrətdən, parfiyalılara isə həsəddən az qala partlayırlar".

TATSİT.

"Erməni gəldi, təzə bəla gətirdi".

Gürcü atalar sözü.

"Ermənilərin yoxsulluğu və əzab-əziyyət çəkməsi məndə onlara qarşı böyük rəhm yaratmasına baxmayaraq, onların haramzadalığı, kələkbazlığı, iyrənc, alçaqlıqları o dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, mən heç bir vaxt onlara bağlana bilməzdim".

Qraf de ŞOLE, fransız səyyahı.

"Ermənilər acgöz və tamahkardırlar, fitnəkar və araqarışdırandırlar... Heç kəsi bəyənmirlər... Onlar xırda bir işi şişirtməkdə istedad sahibidirlər... İntriqa yaratmağı sevirlər..."

İngilis VİLSON.

"Erməni xalqı kimi erməni dili də hibrid (calaq) dildir".

Akademik N.Y.MAR.

"Erməni dili hibrid (calaq) dildir. O biri yandan, erməni qəbiləsi də hibriddir. Urartu və başqa qonşuları assimilyasiya etmişdir".

Akademik M.ABEQYAN.

"Heç bir dil mənim üçün bu qədər çətin olmamışdır".

X.ABOVYAN.

"İndi olduğu kimi, keçmişdə də qədim hayların elmlərə, ağızdan-ağıza keçən nəğmələrə həvəsləri olmayıb. Ona görə də kəmağıl, nadan və vəhşi adamlar haqqında danışmaq artıqdır".

***

"Biz (yəni "hay"lar) kiçik, azsaylı, zəif və çox hallarda özgələrinin hakimiyyəti altında yaşayan xalqıq".

Musa XORENATSİ.

"İlk erməni sülaləsinin başçısı tarixdə olmayıb".

HAYKAZYAN

"Erməni tarixi" (Paris, 1919).

"Başı bəlalar çəkmiş xalq"ın o vaxtki, əslində elə indiki liderlərinin də beyinlərini qonşu xalqların əraziləri hesabına "Böyük Ermənistan" yaratmaq barədə sərsəm ideyalar, erməni olmayan hər kəsə qarşı nifrət və düşmənçilik hissləri dumanlandırmışdır".

S.B.İXİİLOV.

Bakıdakı Dağ Yəhudiləri İcmasının sədri.

"1918-ci ilin martında erməni silahlı birləşmələri üç gündə təkcə Bakıda 17 mindən artıq dinc və günahsız sakini qırdı. Biz hələ Naxçıvanda, Şamaxıda, Qubada, Xaçmazda, Lənkəranda, Ağsuda... saysız-hesabsız insanların qətlə yetirildiyini demirik".

ALEKSANDR,

Bakı və Xəzəryanı bölgənin yepiskopu.

Məşhur gürcü yazıçısı

İ.Q.Çavçavadze "Erməni alimləri və fəryad edən daşlar" adlı kitabında dad-aman edərək yazır:

"Məgər ermənilərin hər tərəfə dağılması bizim üçün faydalıdır? Qoy qadir Allah onlara qüvvət, hamısına birləşmək bacarığı versin. Lakin qoy kələk gəlməsinlər, bizi özümüzdən məhrum etməyə çalışmasınlar və bizim adımızı alçaltmaqla, özlərini tərifləyib göyə qaldırmağa və şöhrətləndirməyə cəhd göstərməsinlər. Bizim üçün yaxşı idi, pis idi, biz sizi qəbul etdik, qardaş kimi sığınacaq verdik, heç olmazsa, öz evimizdə bizə düşmən olmayın. Evində yaşayan düşmənin olunca, yolda uzanan şirin olsa yaxşıdır" (s.79).

"ÖZÜMÜZÜ İTİRMƏMƏLİYİK..."

"Türklər heç vaxt ədalətsizlik etməmişlər, ancaq ədalətsizliyin qurbanı olmuşlar".
Vilyam Pik.

Başlıq təsadüfi belə adlandırılmamışdır: "Özümüzü itirməməli, düşmənə qarşı qətiyyətlə mübarizə aparmalıyıq..." Bu sözlər Dağlıq Qarabağda namərd gülləsindən həlak olan gənc milis işçisi Mikayıl Cəbrayılovun atası, Fransa müqavimət hərəkatının qəhrəmanı Əhmədiyyə Cəbrayılov - Xarqo sevimli oğlunun dəfnində dediyi kəlamlardandır. Bu fikrin bir qədər geniş verilməsi gələcək üçün bir yadigar, gənclərimiz üçün bir and növü olardı: "Qəm çəkmək, ruhdan düşmək vaxtı deyil. Bu gün torpaqlarımız

Mikayıl və Əhmədiyyə Cəbrayılovlar.

deyil. Bu gün torpaqlarımız təhlükəli vəziyyətdədir! Qurbansız keçinmək mümkün deyil! Mən oğlum Mikayılın qanını Qarabağ torpağı üçün halal edirəm! Fəxr edirəm ki, oğlum xalqın yolunda həlak olub, bunun üçün qəmlənməyə dəyməz. Atalarımızın-babalarımızın yadigarı olan müqəddəs torpaqlarımızın toxunulmazlığı naminə həlak olanların hamısı mənim balamdır və oğlum Mikayıl onların heç birindən artıq deyil. Bu gün daha sıx birləşməli, özümüzü itirməməli, düşmənə qarşı qətiyyətlə mübarizə aparmalıyıq..." ("Azərbaycan" qəzeti, 24 yanvar 1991-ci il).

Bəli, faşizmə qarşı müharibədə özünü itirməyən, həqiqi türk ağsaqqalı, azərbaycanlı ata belə düşünə bilər, belə təmkinli və səbirli ola bilər. Məhəmməd peyğəmbərin mübarək kəlamlarından birində deyilir: "Qoç igid güləşəndə qalib gələn adam deyil, əsl qoç igid qəzəb zamanında hirsini boğmağı bacarandır".

Axı, Əhmədiyyə kişinin oğlu, Mikayıl, haqq yolunda, xalq yolunda şəhid olmuşdur. Müqəddəs Quranımızın "Bəqara" surəsinin 154-cü ayəsində yazılıb: "Haqq yolunda, Allah yolunda gedən şəhidlərə "ölülər" deməyin. Əksinə, onlar diridirlər. Sadəcə, siz onu sezmirsiniz".

Səbirli, təmkinli olmaq. Bu mərd xüsusiyyət də babalarımızdan bizə yadigar qalmışdır. Mirzə Rəcəb Kərbalayı Kazım oğlu Vəssaf (1843-1925) özünün məşhur "Əxlaqnamə"sində yazmışdır:

Ağıllı adamlar, müdrik adamlar,
Səbri şadlıq üçün sayıbdır açar.

Haqq yolunda, ədalət yolunda, xalq yolunda ölümü, dədə-babalarımız şərəfli ölüm hesab ediblər. Əli əleyhissalamın hikmətli kəlamlarından birində deyilir: "Öz qədrini bilən hər kimsəyə ölüm qorxulu deyil".

Yuxarıda qeyd etdiyim kimi, türklər heç vaxt ədalətsizlik etməmişlər, ancaq ədalətsizliyin qurbanı olmuşlar. Abid Tahirlinin Əhmədiyyə Cəbrayılova göndərdiyi məktubdan qeyd: "Kim bilir, bəlkə də Fransanın milli qəhrəmanının oğluna dəyən güllələri həmin ölkədən göndərmişlər..." ("İpəkçi" qəzeti, 18 yanvar 1991-ci il).

Sovet quruluşu bərqərar olandan xalqımız qara xəbərlər eşitməyə alışıbdır. İlk illər ağıllılarımızı, savadlılarımızı zirzəmilərdə, Sibirdə qırdılar. Bir tikə çörəyi olanların adını mülkədar, qolçomaq qoyub öldürdülər. Müharibə başlandı. Vətən uğrunda, Stalin uğrunda ölən öldü, çoxu da acından arxa cəbhədə qırıldı. Durğunluq dövrü. Bir tərəfdən ekoloji pozğunluqlar uşaqlarımızı şikəst edir, alkoqolizm, narkomaniya durmadan artır, əlillik durmadan çoxalır. Sağlam balalarımızın da əksəriyyəti Əfqanıstana göndərildi. Sovet "azadlıq ordusu" qonşu əfqanları "azad etməyə" səfərbər edildi. Atalardan məsəl var: "Özünə umac ova bilmir, başqasına əriştə doğrayır". Yenidən müsibətlər. Ömür boyu müsibətdə olan xalqımız xaricdən dəmir tabutlar qəbul etdi. Belə tabutları açıb axırıncı dəfə doğma balasının üzünə baxmağa ata-anaya icazə verilmədi... "Dirçəliş" dövrü. İllər boyu "beynəlmiləl" olan Sovet dövləti milli ədavətlər meydanına çevrildi. Görünməyən qırğınlar. Millət milləti, qonşu qonşunu, "azadlıq ordusu" hər ikisini qırır... Daha xarici müdaxiləyə ehtiyac yoxdur. Xaricdən gizli göndərilən silahlar çox şeyi həll edir... Doğma yurdumuzun bir guşəsindən o biri guşəsinə doğma balalarımızın, günahsız adamların tabutu gəlir.

Həkim Azər İlyas bu barədə çox gözəl deyir:

Arxalı köpəklər yolunu azmış,
Mağmun görünməyim mənə ar gəlir.
Yad ellərdən gələn tabutlar azmış,
Kəndimdən kəndimə tabutlar gəlir...
(Yenə orada).

Ancaq qudurmuş qonşularımız və ilana ağı verən "xilaskar"larımız bir şeyi unudurlar: bu xalqın ulu babaları Babək, Cavanşir, Nəsimi... olub. Bu xalqın iradəsini qırmaq o qədər də asan iş deyil. Hələ vaxtilə Məhəmməd peyğəmbər demişdir: "Qələbə çalmaq istəyirsinizsə türkə toxunmayın".

Mikayılın tərcümeyi-halı o qədər geniş olmasa da, çoxməna-

Mikayıl Cəbrayılov.

lı olmuşdur. 27 aprel 1950-ci ildə Şəkidə anadan olmuş, orta məktəbi qurtarmış, Şəki ipəkçilik birliyində çilingər işləmişdir. Orduda qulluq etdikdən sonra Bakı milis məktəbində təhsil almışdır. Şəkidə daxili işlər şöbəsində qulluq etmiş, 16 dekabr 1990-cı ildə öz Vətəni Qarabağda ermənilər tərəfindən vəhşicəsinə öldürülmüşdür.

"İpəkçi" qəzetində Vətəninin azadlığı uğrunda şəhid olmuş Mikayılın atası Əhmədiyyə Cəbrayılovun ünvanına yazılmış iki yazını olduğu kimi oxuculara çatdırmağı özümə borc bildim.

QƏDDİNİ DÜZƏLT, XARQO!

Dağlıq Qarabağda namərd erməni gülləsindən həlak olan gənc milis işçisi Mikayıl Cəbrayılovun atası, Fransa müqavimət hərəkatının qəhrəmanı Əhmədiyyə Cəbrayılova demək istədiklərim.

Hörmətli el ağssaqqalı!

Ciyərparanız Mikayılın Vətən torpağının keşiyini çəkərkən faciəli surətdə ölümü sizi tanıyanların qəlbini sonsuz kədərə bürüyüb. Allah oğluna rəhmət eləsin.

Əhmədiyyə dayı, bilirsiniz ki, bu müsibət təkcə sizin başınızda deyil. Bunu təsəlli üçün demirəm. Erməni quldurlarının gülləsindən həyatdan vaxtsız köçən ata-analarımız, bacı-qardaşlarımız, övladlarımız çox olub. Günahsız qurbanlarımızın sayı günbəgün artır.

Siz dünyagörmüş, Böyük Vətən müharibəsinin od-alovundan çıxmış cəsur bir adamsınız. Sizinlə xalqımız haqlı olaraq fəxr edir. O qanlı-qadalı illərdə siz təkcə Azərbaycan xalqının əmin-amanlığını qorumamısınız, həm də digər xalqların, bu gün xalqımıza silah çevirən, balanızı güllələyən nankor ermənilərin

də taleyi haqda düşünmüsünüz, sinənizi düşmən mərmisinə sipər eləmisiniz.

İgidin balası da igid olar. Övladınız Mikayılın faciəli ölümü sizi sarsıtmasın. Axı, Mikayıl Vətən torpağının keşiyini çəkərkən həlak oldu. Vətəni uğrunda qurban gedənlər isə ölmür, cismən hərəkətdən dayanaraq, ruhən xalqın ürəyinə köçürlər. Amma onların bu cismani hərəkətsizliyi gələcək nəsilləri elə bir oyanışa səsləyir ki, bu oyanış qarşısında dünyanı çalxalayan hər hansı bir qüvvə ləng və acizdir. Dərindən düşünəndə bu faciə, atası Əhmədiyyə - "Xarqo"nun Vətən uğrunda qəhrəmanlığının yeni bir nümunəsidir...

Əzizim Əhmədiyyə dayı, Azərbaycan xalqı oğlunuz Mikayılın timsalında qeyrətli, namuslu bir igid itirib. Sizə, ailənizə, bütün kənd əhlinə dərin hüznlə başsağlığı verirəm. Yenə deyirəm, sarsılmayın, qəddiniz əyilməsin, ulu Qafqaz dağlarının zirvəsi kimi ağ saçlı başınızı uca tutun! Sizin çörək verib böyütdüyünüz Mikayıl indiyədək təkcə sizin övladınız idi, bu gündən etibarən isə bütün Azərbaycanın oldu.

ƏŞRƏF MƏMMƏDOV,
Azərbaycanın xalq deputatı. Bakı şəhəri. "İpəkçi" qəzeti, 1 yanvar 1991-ci il.

ƏHMƏDİYYƏ CƏBRAYILOVA MƏKTUB

İndi bildim, Kiş niyə kükrəyirmiş, niyə şahə qalxıb, qabağına çıxan dağı, daşı, qayanı, körpüləri, digər tikililəri məhv edirmiş. O, zaman hirsi soyumuş çayın kənarında durub dağıntılara təbii fəlakətin nəticəsi kimi baxırdım.

İndi isə... Yox, Kiş çayı haqsızlığa, ədalətsizliyə, alçaqlığa, vicdansızlığa, xəbisliyə, xəyanətə qarşı hayqırırmış, üsyan edirmiş! Axı, Əhmədiyyə dayı, sən dərdlərini təkcə Kiş çayına söyləyərdin... Alman faşistlərinin həbs düşərgəsindən qaçmağın, Fransa müqavimət hərəkatına qoşulmağın, ən fəal partizanlardan biri olmağın, general de Qolla dostluğun şərəfli, həm də

əzablarla dolu cəbhə yolundan xəbər verir. Haqlı olaraq ümid edirdin ki, Vətəndə səni xalq qəhrəmanı kimi qarşılayacaqlar. Amma SSRİ-yə daxil olandan təqiblərə, təhqirlərə, işgəncələrə məruz qaldın...

Saçın ağarsa da, belin bükülmədi. Özünü oda-gözə vurdun, ədalət min bir əziyyət bahasına qələbə çaldı. Bu bəxtiyarlığın da ömrü qısadı. 1988-ci ildə qəzəbli səsin Bakının Azadlıq meydanını bürüdü, murdar qonşuların - ermənilərin torpaq iddiası səni də hiddətləndirmişdi. Qarabağa səfərindən, bütün varlığınla Vətəni müdafiə etməyə hazır olduğundan danışırdın. Sən danışdıqca meydandakı milyon nəfərin ürəyi köksünə sığmırdı, hamı sənin - Fransanın milli qəhrəmanı ilə fəxr edirdi. Çıxışından vəcdə gələn meydanı alqışlar bürüyəndə üzünə təbəssüm qondu. Lakin...

Hər axşam hamımız "Günün ekranı" ilə Dağlıq Qarabağdan bir abzasla verilən xəbərləri səbirsizliklə gözləyirdik. Adamların ermənilər tərəfindən vəhşicəsinə öldürülməsi, talanlar, qarətlər, oğurluqlar hər kəsi qəzəbləndirir, əsəbləri gərginləşdirirdi. O axşam da Azərinformun televiziya vasitəsilə Dağlıq Qarabağdan verdiyi xəbərdə göstərilirdi ki, ermənilər iki nəfər Şəkidən olan milisi vəhşicəsinə öldürmüşlər. Ertəsi gün öyrəndim ki, həmin milislərdən biri Sizin oğlunuz Mikayıl imiş. Əslində bunun o qədər də fərqi yox idi: hər bir öldürülən bizdən gedir, bizlərdən biridir. Sizi fikirləşəndə sarsıldım, dünya başıma fırlandı. Kim bilir, bəlkə də Fransanın milli qəhrəmanının oğluna dəyən gülləni həmin ölkədən göndərmişlər. Sənə arxadan nə qədər zərbə vurulub, Əhmədiyyə dayı? Büdrəməmisən, yıxılmamısan. Axır ki, amansız tale Sənə oğul dağı da çəkdi. Təsəlli verməyə söz tapmaq çətindir: heç olmazsa, and içək, and içək ki, oğlunuzun qanı ilə suvarılan Qarabağdan murdar nəfəslər çəkilməyincə, qanlı əllər kəsilməyincə, canilər cəzalandırılmayınca mübarizəni davam etdirəcəyik.

Əgər sabah eşitsəm ki, yatmışları oyatmaq - vicdanı susmuşları ədalətə səsləmək və xalqın taleyi ilə oynayanları silkələmək üçün Kiş yenə şahə qalxıb fəryad edir, biləcəm ki, oğul dərdinizi də çaya söyləmisiniz. Qulaqlılar eşitməyəndə, dillilər danışmayanda, qollar bağlananda Kişdən başqa kimə söyləmək olar bu dərdi?

ABİD TAHİRLİ,

"İpəkçi" qəzeti, 18 yanvar 1991-ci il.

Həmyerlimiz hörmətli Qüdrət Əbdülsəlimzadəyə ("İpəkçi" qəzeti, 18 mart 1990-cı il) müraciət etmək istəyirəm:

"Torpaq möcüzədir...

Torpaq sirdir...

Torpaq əzəldir...

Torpaq sondur...".

"Torpaqdan yaranan torpağa da qayıtmalıdır" fikrində təkcə hikmət deyil, həm də bəşəri bir təsəlli vardır. Lakin torpaq soyutmamalıdır, şəhidlərimiz unudulmamalıdır!

Allah Sizə rəhmət eləsin... Məğrur və ölməz ruhunuz şad olsun... Nakam qəbirləriniz nurla dolsun... Amin."

Mikayıl Əhmədiyyə oğlu Cəbrayılov

Azərbaycanın Milli Qəhrəmanıdır.

DƏLİ BİR AĞLAMAQ KEÇİR KÖNLÜMDƏN...

Bu sərlövhə cavan ömrünü müqəddəs torpaqlarımız uğrunda şəhid edən jurnalist Alı Mustafayevin eyniadlı kitabından götürülmüşdür.

Elşad Məmmədhənifə oğlu Yəhyayev.

Bədnam Qarabağ hadisələri başlayandan bəri neçə-neçə övladımız şəhid olub. Vaxt gələcək, bunlar bir qəhrəmanlıq dastanı kimi sabahkı nəslə çatdırılacaq. Bu hadisələrlə əlaqədar onlardan tək ikisi haqqında danışmaq istəyirəm: 13 yaşlı Şirəli və gənc zabit Elşad haqda.

Yəhyayev Elşad Məmmədhənifə oğlu

1966-cı il mayın 5-də Şəki şəhərində anadan olub. 1977-ci ildə ailəsi ilə Bakı şəhərinə köçmüşdür. Orta təhsilini Bakı şəhəri Xətai rayonu 56 №-li orta məktəbdə davam etdirmişdir. Elşad həyatda dərk etdiyi haqsızlıqlara qarşı mübarizə aparmaq məqsədilə, orta məktəbi bitirdikdən sonra BDU-nun hüquq fakültəsinə daxil olmağı qərara alır. O dövrdə məlum səbəblərə görə həmin fakültəyə sənəd verə bilmir. Axı o, kasıb balası idi. Elşad 2 il sənədlərini Sankt-Peterburq Universitetinin hüquq fakültəsinə verir. Bütün imtahanlardan 4 və 5 qiymət almasına baxmayaraq, yenə də arzusuna çatmır.

1984-1986-cı illərdə hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini starşina rütbəsində başa vuran Elşad 1987-ci ildə Saratov Ali Hərbi Komandirlər Məktəbinə daxil olur. Həmin məktəbdə ilk zamanlar bölmə, sonralar rota komandiri olur. 1988-ci ildə Dağlıq Qarabağda baş verən hadisələr haqqında hərbi məktəbdə yaranmış yanlış məlumatların açılmasında o, böyük fəallıq göstərmişdir. Bu işdə ona 1988-ci ildə həmin hərbi məktəbə qəbul olunmuş qardaşı Rəhim də yaxından kömək etmişdir.

Rəhimin dediklərindən: "Mənim böyük qardaşım Elşad təhsilini bitirdiyi zaman qırmızı diploma namizəd idi. Lakin rus şovinistləri onu bu arzudan məhrum etdilər. Bununla da kifayətlənməyən şovinist "böyük qardaşlarımız" Elşadın təyinatını Qazaxıstana verirlər. O, əgər təyinatı Bakıya verilməzsə, hərbi xidmətdən imtina edəcəyini bildirir. Elşad deyərdi: "Vətənimdə ağır müharibə gedir. Bəs hansı gün üçün oxumuşuq?"

Nəhayət, o, Bakıya gəlməyə müvəffəqi olur. 1991-ci ildən leytenant rütbəsilə Azərbaycan DİN-nin Daxili qoşunlarında vzvod komandiri, sonra rota komandiri işləyir. Həmin dövrdən Qarabağda gedən döyüşlərdə iştirak edir.

Son döyüşü Aranzəmin kəndində olub. Elşadın dəstəsi 43 əsgər, 1 zabit və 1 proporşiklə kəndə çatanda dağın ətəyində döyüş gedirdi. Ermənilər hərbi postları, səngərləri dağıtmışdılar. Yaralıları dağdan düşürmək, müdafiəni möhkəmləndirmək lazım idi. Elşad "əsgərlərimlə özüm gedəyəcəm", - deyə 15 əsgərlə döyüşə girir. Çətinliklə də olsa, ermənilər geri oturmağa məcbur edirlər. Vəziyyətin çətinləşdiyini görən ermənilər qəflətən gecə hücuma keçirlər. Döyüş artıq yaxın məsafədə gedir. Ermənilərin köməyə gələn qüvvələri sol cinahda yerləşən təpədən atəşə tuturlar. Onlar eyni zamanda sağ cinahda yerləşən meşə ərazisindən də atəş açdıqlarından, Elşadın dəstəsi iki hissəyə bölünmək məcburiyyəti qarşısında qalır. Bu qanlı vuruşmada gənc zabit Elşad qəhrəmanlıqla həlak olur (20 iyun 1992-ci il).

Bəli, Məmmədhənifə kişi ilə yoldaşı Elmira bacının min-bir əzabla həddi-buluğa çatdırdıqları övladlardan biri - Elşad Vətən yolunda şəhid oldu. Elə bil ki, İsrafilovlar nəsli üçün bu az idi. Elşadın xalası oğlu məktəbli balaca Şirəli də dəfn günü amansız ölümün qurbanı oldu. Şəhid üstünə şəhid gəldi.

Şirəli və atası Qurban kişi.

Pedaqoji elmlər namizədi Musayev Məmmədhənifə Ramazan oğlunun Şirəli haqda dedikləri:

"Sənin haqqında yazmaq mənə çətindir, çox çətin, Şirəli! Bilmirəm adına ağı deyim, elegiya yazım... Atan Qurbandan sonra səni öz evinizin kişisi hesab edənlərin hamısı indi də həyətdə, bacada, küncdə-bucaqda sənin izini, nəfəsini axtarır. Anan tənhalıqda fürsət düşəndə adına bayatı deyir, səni haraylayır, səni Şirəli! Bacın Nigar qonaqlığa, toya gedəndə öz təzə paltarlarını ilk dəfə sənə göstərər, sənin rəyini soruşardı. İndi ah çəkməklə dolmuş ürəyini boşaltmaq üçün yer axtarır. Qardaşın Əsabəlinin gözləri səni axtarır.

Yadımdadır. Bir dəfə müharibədə ermənilərə əsir düşmüş analardan birini mənimlə dəyişdirsələr, məmnuniyyətlə razı olaram, dedin. Sən istəməzdin ki, insan anasız qalsın, ana həsrətində olsun. Bir dəfə də maşında mənə sevinclə bildirdin ki, səninlə paralel sinifdə oxuyan uşaqlar sözü bir yerə qoyub məktəb bufetinə getməkdən, oradan ərzaq almaqdan imtina ediblər.

Səbəbi də bu olub ki, uşaqlardan çoxunun baha qiymətə satılan buterbrod, bulka almağa pulları yoxdur, başqasının sədəqəsini də qəbul etməyi öz mənliklərinə sıxışdırmırlar. Qürrələnərək dedin ki, mən də onlara qoşulmuşam! Bu sözlərin məni yaman qəhərləndirdi. Belə dözümlü, qeyrətli uşaqları olan xalq heç vaxt basılmaz. Şirəli, həmin uşaqlar əvvəllərdə olduğu kimi, indi də məktəbin yanında hər səhər yolunu gözləyirlər. Sənin ölümünə, sənin yoxluğuna inanmırlar.

Uşaqlıqdan bizi inandırıblar ki, alın yazısı, ruh var. Əvvəllər buna inanmamışam. Ölümündən bir az əvvəl sənin etdiyin hərəkətləri dəfələrlə götür-qoy etdikdən sonra belə qənaətə gəlmişəm ki, ömrünün son günündə ölümü elə özün haraylamısan. Mənə nəql etdilər ki, Şüvəlana getməyə hazırlaşmısınız. Tilovunu, idman kostyumunu, üstünə badımcan kürüsü tökülmüş çörək parçasını, sumkanı maşının arxasına atıb, özün sürücünün yanında əyləşmisən. Maşın tərpənmək ərəfəsində, elə bil, nəsə unutmuş kimi evə qaçmısan. Otaq-otaq gəzmisən. Ürək dolusu hər şeyə diqqət yetirmisən. Görməmiş kimi nənəni qucaqlayıb, ona sığınmısan. Qapı-bacanı, toyuqları, su kranını, gülləri seyr etməklə, elə bil, onlarla sonuncu dəfə vidalaşmısan... Bu zaman ani şəkildə gətirilən xəbər hamını pərən-pərən salmışdır: xalan oğlu Elşad Qarabağ uğrunda döyüşlərdə həlak olmuşdur. Cənazəsi hərbi hissəyə gətirilmişdir. Çıxacağı olan adam kimi əl çəkmədin, balacalıqdan qəlbinə girdiyin Elşadın cənazəsini evə gətirməyə gedənlərin sırasına qoşuldun. Deyirlər ki, böyük izdiham görüb qaraldın, şıltaqlığından əsər-əlamət qalmadı. Tutqunlaşdın. Əvvəlcədən hazırlığı olan adam kimi üçrəngli bayrağı çıxardıb, ağaca bağlayıb, lap yuxarı qaldırdın. Göz yaşların isə bənizini yalayırdı. Birdən izdihamı yararaq keçən "Jiquli" markalı maşın ona-buna toxunmaqla, elə bil, səni nişan aldı... Həmin gün bir evdə iki yas saxlanılırdı: biri şəhid Elşad üçün, o birisi şəhidlərin müqəddəs ruhuna sədaqət rəmzi kimi Şirəli üçün... Hamı içini-içinə sıxaraq ağlayırdı. Onların arasında vaxtilə evdəkilərdən xəbərsiz yağ, qənd apardığı kimsəsiz qoca qarılar da var idi. Matəm uğultusunun içərisində onların ağılarını açıq-aydın eşidirdim: Bizi kimsəsiz qoyan şəhid balam, Şirəli!!!

Sentyabrın 26-da qəbrin üstünə gəldik. 13 yaşın tamam olurdu. Səni tanıyan nə qədər adam toplaşmışdı bura. Kişilərin belə gizli fəryadını görməmişdim, bala. Qəbir daşını öpməklə sənin iyini almağa çalışırdılar onlar. Dostların Cavid, Elnur, Araz da burada idilər. Başlarına qara lent bağlamışdılar. Cavid sənin bayatılarından birini oxudu:

Araz üstə, buz üstə,
Kabab yanar köz üstə,
Qoy məni öldürsünlər
Bir parça torpaq üstə.

Bu bayatını ilk dəfə sənin dilindən eşitmişəm. Elə ki, torpaqdan danışırdın: ilhama gəlirdin, bütün dünyanı lərzəyə salmaq istəyirdin, bu şüarınla: Yaşasın, basılmaz Azərbaycan torpağı!...

Şirəli, hər gün yolum sənin uyuduğun qəbiristanlığın yanından keçir. Ana torpaq, müqəddəs ideallar yolunda dünyadan gedən şəhid bala, sənlə halallaşıb yoluma davam edirəm. Rahat yat. Səhərimiz açılanda, müharibədə qalib gələndə ilk şad xəbəri sənə mən çatdıracağam:

- Sabahın xeyir, şəhid bala. Vətən üzərində azadlıq şöləsi yanır. Rahat yat, Şirəli!"

Elşad Yəhyayev 21 iyun 1992-ci ildə Şəhidlər Xiyabanında dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli Fərmanı ilə Daxili xidmət qoşunları baş leytenantı Yəhyayev Elşad Məmmədhənifə oğluna ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verilmişdir. Şəkidəki 12 saylı orta məktəb Elşadın adını daşıyır, Bakının Xətai rayonundakı 56 saylı orta məktəbin qarşısında E.Yəhyayevin büstü qoyulub.

DÖVLƏTİMİZİN MÜDAFİƏSİ ZAMANI ŞƏKİ RAYONUNDAN ŞƏHİD OLMUŞ HƏRBÇİLƏRİN SİYAHISI*

1. Abbasov Məzahir Əhməd oğlu 1970-ci ildə Şəkidə anadan olmuşdur. Şəhər 11 saylı orta məktəbi bitirdikdən sonra Krasnoyarskda ordu sıralarında xidmət etmiş, tərxis olunduqdan sonra İrkutsk Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Oxuduğu dövrdə İrkutsk şəhər milis şöbəsində işləmişdir. Doğma vətəninə qayıdan Məzahir 1992-ci il martın 17-də Milli Orduya getmiş, Gülablı, Şuşa, Goranboy bölgələrində vuruşmuş, 5 sentyabr 1992-ci ildə Gülablı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

2. Abbasov Yusif Fikrət oğlu 1972-ci ildə Şəkidə anadan olmuşdur. Şəhər 7 saylı məktəbin 8-ci sinfini qurtardıqdan sonra təhsilini Texnologiya Texnikumunda davam etdirmişdir. 1991-ci ildə ordu sıralarında xidmət etmiş, 1993-cü ildə Milli Orduya getmişdir. 1993-cü il fevral ayının 10-dan 11-nə keçən gecə Ağdərə rayonunun Mehmanə kəndi ətrafındakı döyüşdə şəhid olmuşdur.

3. Abbasov Şahin Fikrət oğlu Şəki şəhərində anadan olmuşdur. Şəhər 7 saylı orta məktəbi bitirdikdən sonra Texnologiya Texnikumuna daxil olmuşdur. Tula vilayətindən sovet ordusu sıralarından Milli Orduya gəlib. 1990-cı il fevralın 6-da Ağdərə, Mehmanə döyüşlərində şəhid olmuşdur.

4. Abbasov Teymur Rauf oğlu 1973-cü ildə Şəkidə anadan olmuş, şəhər 7 saylı orta məktəbi bitirmişdir. 1991-ci ildən Milli Orduda xidmət etmişdir. 1993-cü ildə Füzuli rayonunun Dilağarda kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

5. Abbasov Qafar Hüseyn oğlu 1972-ci ildə Şəki rayonunun Şəki kəndində anadan olmuşdur. 1993-cü ilin iyulunda cəbhəyə

* Arif Qafarov, Mayis Əmrahov, Gülnaz İsmayılova, Suğra Mirzəyeva, Akif Salamov, İbrahim Paşayev, Bəsarət Süleymanov, Telman Həmidli. "Şəki qartalları". (Bakı, 1998-ci il) kitabında Azərbaycanın əbədi və əzəli torpağı olan Dağlıq Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş şəkili igidlərin mənalı həyat yollarını səmimi təsvir etmişlər.

yola düşmüş, 1994-cü il aprelin 18-də Beyləqan ətrafında gedən döyüşlərdə şəhid olmuşdur.

6. Abdullayeva Aytən Abdulla qızı 1973-cü il martın 31-də Şəki rayonunun Baş Layski kəndində anadan olmuşdur. Həmin kənd məktəbində təhsil almış, birillik tibb bacısı kursunu bitirdikdən sonra şəfqət bacısı kimi Milli Orduda fəaliyyət göstərmişdir. 1992-ci il oktyabr ayının 15-də Ağdərə rayonu Vaqyas kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir.

7. Abdullayev Tahir Yusif oğlu 1971-ci ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra sovet ordusu sıralarında xidmətdə olmuşdur. 1992-ci ilin avqustundan milli Ordu sıralarına getmişdir. 1993-cü il yanvarın 14-də şəhid olmuşdur.

8. Abdullayev Bəhruz Cuma oğlu 1964-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuşdur. 1978-ci ildə bu kənddə orta məktəbin 8-ci sinfini bitirmiş, 134 saylı texniki-peşə məktəbində təhsilini davam etdirmiş, sovet ordusu sıralarında xidmətdə olmuşdur. O, 1985-ci ildə xidmətini başa vurmuşdur. 1993-cü ildə könüllü olaraq Milli Orduya getmişdir. 1994-cü il aprelin 28-də Qəzvənd kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

9. Abdullayev Eynulla Vahid oğlu 1973-cü il noyabrın 12-də Şəki rayonunun Biləcik kəndində anadan olmuşdur. 1990-cı ildə kənd orta məktəbini bitirmişdir. Sonra Bakı şəhərində 4 saylı gəmi təmiri zavodunda işləmişdir. 1992-ci ilin may ayında Milli Ordu sıralarına getmişdir. 1993-cü il fevralın 26-da Ağdərə cəbhəsində şəhid olmuşdur.

10. Abdullayev Süleyman Fərman oğlu 1972-ci il mart ayının 15-də Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur. 1989-cu ildə həmin kənddəki 1 saylı orta məktəbi bitirdikdən sonra Texnologiya Texnikumuna daxil olmuşdur. 1990-1992-ci illərdə sovet ordusu sıralarında hərbi xidmətdə olmuş, 1992-ci il oktyabr ayının 22-də isə Milli Orduda hərbi xidmətə çağırılmışdır. 1993-cü il fevral ayının 7-də Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

11. Abdullayev Oqtay Rüfət oğlu 10 may 1974-cü ildə Şəki

rayonunun Baş Zəyzid kəndində anadan olmuşdur. 1 iyun 1993-cü ildə Milli Orduda hərbi xidmətə yola düşüb, Füzuli, Zəngilan, Horadiz istiqamətlərində gedən döyüşlərdə iştirak etmiş, 1 fevral 1994-cü ildə şəhid olmuşdur.

12. Abdullayev Abbas Şirinbəy oğlu 1969-cu ildə Şəki rayonunun Oravan kəndində anadan olmuşdur. Orta təhsilini həmin kənddə almış, 1987-ci ildə sovet ordusuna hərbi xidmətə çağırılmışdır. 1993-cü ildə Milli Orduya çağırılmış, 1994-cü ilin fevral ayında Cəbrayıl uğrunda gedən döyüşdə şəhid olmuşdur.

13. Abdurrəhmanov Telman Əyyub oğlu 1975-ci ildə Şəki şəhərində anadan olmuşdur. 1993-cü ildə Milli Ordu sıralarına yola düşmüş, 1994-cü il yanvar ayının 26-da - 19 yaşında - Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

14. Abdurrəhmanov Həsən Əbil oğlu 14 noyabr 1974-cü ildə Şəki rayonunun Cəyirli kəndində anadan olmuşdur. 1990-cı ildə həmin kəndin səkkizillik məktəbini bitirmiş, 134 saylı texniki-peşə məktəbinə daxil olub, 1992-ci ildə traktorçu-maşinist peşəsinə yiyələnmişdir. O, 1994-cü ilin yanvar ayında Milli Orduya xidmətə getmiş, 21 aprel 1994-cü ildə Tərtər ərazisindəki döyüşlərdə ağır yaralanmış, 24 apreldə şəhid olmuşdur.

15. Abdurrəhmanov Faiq Məmmədəli oğlu 1971-ci ildə Aşağı Göynük kəndində anadan olmuşdur. 1987-ci ildə həmin kənddə orta təhsilini başa vurmuş və Şəki Məişət Xidməti Texnikumuna daxil olmuşdur. Sovet ordusu sıralarında xidmət etdikdən sonra Bakı Energetika Texnikumunda oxumuşdur. 1992-ci ildə Milli Orduya getmiş, 27 yanvar 1994-cü ildə şəhid olmuşdur.

16. Abduləzizov Vüqar Mikayıl oğlu 1975-ci ildə Şəki rayonunun Aşağı Göynük kəndində anadan olmuşdur. 1993-cü ildə orta məktəbi qurtarmış, həmin ilin oktyabr ayında Milli Orduya çağırılmış, 13 mart 1994-cü ildə Ağdərə rayonunun Malakan kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

17. Ağabalayev Mikayıl Hümmət oğlu 9 fevral 1962-ci ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur. 1979-

cu ildə həmin kənddə orta məktəbi bitirmiş, 1980-1982-ci illərdə sovet ordusunda xidmət etmiş, 1983-1988-ci illərdə Voronej Politexnik İnstitutunda təhsil aldıqdan sonra Vətənə qayıtmış, Bakıda "Azon" və "Radio" zavodlarında işləmişdir. O, 1993-cü ilin aprel ayında Milli Orduya çağırılmış, Cəlilabad rayonunda xidmətə başlamışdır. 1993-cü ilin yayında qondarma "Talış-Muğan" respublikasını qurmaq xülyasında olan Əlikram Hümmətovun avantürasına etiraz edən Mikayıl məcburi istefaya göndərilmişdir. 1993-cü ilin noyabr ayında yenidən cəbhəyə gedən Mikayıl 26 yanvar 1994-cü ildə Xocavənd uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

18. Ağabəyov Abdulla Məmməd oğlu 1 iyun 1971-ci ildə Şəki rayonunun Qarabağlı kəndində anadan olmuş, əvvəlcə orada səkkizillik məktəbdə oxuyub, sonra Şorsu orta məktəbini qurtarmışdır. Şəki Kənd Təsərrüfatı Texnikumunun aqronomluq şöbəsinə daxil olmuş, lakin təhsilini davam etdirə bilməmişdir. 1989-1991-ci illərdə Moskvada sovet ordusu sıralarında xidmət edib, vətənə qayıtdıqdan sonra, könüllü Milli Ordu sıralarına getmişdir. 13 sentyabr 1992-ci ildə Qubadlı uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

19. Ağamirzəyev Mübariz Salman oğlu 1971-ci ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuş, orada 2 saylı orta məktəbi bitirdikdən sonra əsgəri xidmətə getmiş, bir il yarımdan sonra Leninqradda hərbi məktəbə daxil olmuşdur. Təhsilini qurtardıqdan sonra yenidən xidmət elədiyi hərbi hissəyə qayıtmışdır. 1988-ci ildə Milli Orduda xidmətə başlamışdır. 1992-ci il iyunun 6-da mühasirədən çıxmaq mümkün olmadığından düşmənin əlinə keçməmək üçün özünü əl qumbarası ilə məhv etmişdir. Vətənin mərd oğlu Mübariz Salman oğlu Bakının Şəhidlər Xiyabanında dəfn edilmişdir.

20. Ağaməmmədov Məhərrəm Səlim oğlu 10 fevral 1968-ci ildə Şəki rayonunun Cəyirli kəndində anadan olmuşdur. Əsgəri xidmətini sovet ordusunun Çexoslovakiyadakı hərbi hissələrindən birində başa vurub doğma Vətəninə qayıtmışdır. 1988-

1993-cü illərdə Cəyirli üzümçülük sovxozunda fəhləlik etmişdir, 1993-cü ilin oktyabr ayından Milli Orduya səfərbər olmuşdur. 26 yanvar 1994-cü ildə Füzuli ətrafında gedən döyüşdə şəhid olmuşdur.

21. Azaqov Elşən Yaşar oğlu 1975-ci ildə Şəki rayonunun Kiş kəndində anadan olmuşdur. 1993-cü ilin oktyabr ayında Milli Ordu sıralarına çağırılmış, 23 aprel 1994-cü ildə Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

22. Alxasov Şamil İldırım oğlu 1974-cü ildə Şəki rayonunun Kiş kəndində anadan olmuşdur. Həmin kənddə orta məktəbi qurtarmış, Kiyev Tank Mühəndisləri Məktəbinə daxil olmuşdur. Şamil hərbi məktəbdə təhsilini yarımçıq qoyub, könüllü Milli Ordu sıralarına getmiş, Ağdam rayonu uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

23. Aslanov Bəhram Fərəc oğlu 1974-cü ildə Baş Layski kəndində anadan olmuşdur. 1992-ci ildə Milli Ordu sıralarına yola düşmüş, 23 yanvar 1994-cü ildə Füzuli uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

24. Aslanov Sakid Məmmədqasım oğlu 1975-ci ildə Şəki rayonunun Kiş kəndində anadan olmuş, orta təhsilini bu kənddə almışdır. 1993-cü ildə hərbi xidmətə çağırılmış, 1994-cü ilin fevral ayında şəhid olmuşdur.

25. Aslanov Fərahim Zaman oğlu 1975-ci ildə Şəki rayonunun Cumay kəndində anadan olmuşdur. 1990-cı ildə orta məktəbi qurtarmış, 1993-cü ildə Milli Ordu sıralarına hərbi xidmətə çağırılmış, Füzuli rayonunun Böyük Bəhmənli kəndi uğrunda gedən döyüşlərdə 18 yaşında şəhid olmuşdur.

26. Babayev İsaq Nəriman oğlu 15 dekabr 1975-ci ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur. 1992-ci ildə orta məktəbi qurtarmış, sonra 43 saylı texniki-peşə məktəbinə daxil olmuşdur. 1993-cü il yanvar ayının 13-də cəbhəyə yola düşmüş, 6 aprel 1995-ci ildə şəhid olmuşdur.

27. Balaoğlanov Əsədullah Şahid oğlu 1969-cu ilin oktyabrında Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuşdur.

Orta təhsilini həmin kənddə aldıqdan sonra Bakı Maliyyə-Kredit Texnikumunda oxumuşdur. Texnikumu bitirdikdən sonra doğma kəndlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1992-ci ildə könüllü cəbhəyə yola düşmüş, Ağdamın Mərzili kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

28. Çəpuqi Fərahim Nağı oğlu 13 aprel 1993-cü ildə Şəki şəhərində anadan olmuşdur. Şəhər 7 saylı məktəbi qurtarmış, 1992-ci ildə Milli Orduya çağırılmış, 13 aprel 1993-cü ildə Qarakənd istiqamətində gedən döyüşdə şəhid olmuşdur.

29. Cəbiyev Asif Tacir oğlu 1973-cü ildə Şəkidə anadan olmuşdur. 1992-ci ildə cəbhəyə yola düşmüş, 8 fevral 1994-cü ildə Kəlbəcərin Bağırlı kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

30. Cəbiyev Mehman Səməd oğlu 1969-cu ildə Şəki rayonunun Baş Layski kəndində anadan olmuşdur. Ermənistanın ərazi iddiaları ilə başlanan Qarabağ müharibəsi zamanı könüllü cəbhəyə yola düşmüş, 30 dekabr 1993-cü ildə şəhid olmuşdur.

31. Cəbrayılov Akif Tacib oğlu 1973-cü ildə Şəki rayonunun Daşyüz kəndində anadan olmuşdur. O, 1990-cı ildə kənd orta məktəbini bitirmiş, 1992-ci ildə Milli Orduya hərbi xidmətə çağırılmışdır. 26 noyabr 1993-cü ildə Ağdərə rayonunun Çaylı kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

32. Cəbrayılov Məhərrəm Bəkir oğlu 1971-ci ildə Şəki rayonunun Cunut kəndində anadan olmuşdur. Kənd orta məktəbində təhsil aldıqdan sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu qurtarmış, 1992-ci ilin 1 iyununda cəbhəyə yola düşmüşdür. Məhərrəm 24 noyabr 1992-ci ildə Qubadlı rayonunun Novlu kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

33. Cəlilov Rövşən Əlichsan oğlu 1974-cü ildə Kiçik Dəhnə kəndində anadan olmuşdur. Kənddə orta təhsil almış, 1992-ci ilin sentyabrında Milli Ordu sıralarına xidmətə getmiş, 1993-cü ilin mart ayında Ağdərə bölgəsində gedən döyüşlərdə şəhid olmuşdur.

34. Cumayev Nemət Məmməd oğlu 2 sentyabr 1973-cü ildə

Şəki rayonunun Baltalı kəndində anadan olmuşdur. 1992-ci ilin avqust ayında cəbhəyə yola düşmüş, 1994-cü ilin yanvar ayında Füzuli rayonunun Horadiz kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

35. Cəfərov Əli Hikmət oğlu 1963-cü ildə Şəkidə anadan olmuşdur. Şəki 11 saylı orta məktəbinin 8-ci sinfini bitirib, texniki-peşə məktəbinə daxil olmuşdur. Bakı Radio zavodunda işləmiş, 1992-ci ilin mart ayında Milli Orduya getmiş, Goranboy, Tərtər, Ağdərədə vuruşmuş, 1992-ci il iyunun 23-də şəhid olmuşdur.

36. Davıdov Nəsib Şəmsəddin oğlu 1968-ci ildə Şəki rayonunun Göybulaq kəndində anadan olmuşdur. Orta təhsilini Cumay kənd məktəbində almış, sovet ordusu sıralarında xidmət etmişdir. 1992-ci ilin may ayında Milli Orduya getmiş, elə həmin ilin 5 sentyabrında Ağdamın Gülablı kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

37. Əbilqasımov Şəmsi Namaz oğlu 21 noyabr 1964-cü ildə Şəki rayonunun Suçma kəndində anadan olmuş, həmin kənddə orta təhsil almış, sonra 43 saylı texniki-peşə məktəbinə daxil olmuşdur. Təhsilini başa vurduqdan sonra sovet ordusunda xidmət etmişdir. 1994-cü ildə Milli Ordu sıralarına getmiş, Tərtər bölgəsində gedən döyüşlərdə şəhid olmuşdur.

38. Ədilov Hafiz Fərrux oğlu 1976-cı ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur. 1993-cü ildə orta məktəbi bitirmiş, 1994-cü ildə sürücülük məktəbini qurtarmışdır. Milli Orduda hərbi qulluğa getmiş, 19 yaşında şəhid olmuşdur.

39. Əzizov Nurəli Mirəli oğlu 1975-ci ilin iyul ayında Şəkidə anadan olmuşdur. 1993-cü ilin iyul ayında Milli Ordu sıralarına yola düşmüş, 1994-cü il yanvarın 13-də Ağdam istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

40. Ələskərov Vüqar Əyyub oğlu 1 yanvar 1973-cü ildə Şəki rayonunun Fazil kəndində anadan olmuşdur. 1992-ci ildə ordu sıralarına yola düşmüş, 1994-cü ildə şəhid olmuşdur.

41. Ələkbərzadə Hikmət Ələkbər oğlu 21 dekabr 1967-ci ildə Şəki şəhərində anadan olmuşdur. Cəbhəyə gedənədək fəhlə işləmişdir. 1992-ci ilin iyul ayında şəhid olmuşdur.

42. Ələkbərov İlqar Çingiz oğlu 1971-ci ildə Şəki şəhərində anadan olmuşdur. 27 yanvar 1994-cü ildə Murovdağ ətrafında gedən döyüşdə şəhid olmuşdur.

43. Əlibəyov Mahmud Əlibəy oğlu 13 noyabr 1974-cü ildə Şəki rayonunun İnçə kəndində anadan olmuşdur. 1994-cü il yanvarın 17-də Ağdamın Güllücə kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

44. Əliyev Vüqar Məmməd oğlu 1972-ci ildə Şəkidə anadan olmuşdur. Şəhər 12 saylı orta məktəbi qurtarmış, 43 saylı texniki-peşə məktəbinə daxil olmuşdur. 1991-ci ildə Kalininqradda hərbi qulluqda olmuş, 1992-ci ildə Milli Orduya getmişdir. 1992-ci il avqust ayının 19-da Ağdamın Abdal-Gülablı kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

45. Əliyev Emin Əbülfət oğlu 20 may 1974-cü ildə Şəki rayonunun Qayabaşı kəndində anadan olmuşdur. O, 1992-ci ilin noyabr ayında Milli Ordu sıralarına getmiş, 13 oktyabr 1993-cü ildə şəhid olmuşdur.

46. Əliyev Zahid Baba oğlu 1961-ci ildə anadan olmuşdur. 1994-cü il aprel ayının 21-dən 22-nə keçən gecə Füzuli rayonu ətrafında gedən döyüşlərdə şəhid olmuşdur.

47. Ərəbov İsa Vərgullah oğlu 1975-ci ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur. Orta məktəbi qurtardıqdan sonra 43 saylı texniki peşə məktəbində oxumuş, sonra Milli Ordu sıralarına getmiş, Murovdağ uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

48. Əsədov Nəzər Əhəd oğlu Şəki rayonunun Baş Layski kəndində anadan olmuşdur. 1985-ci ildə kənd orta məktəbinin 8-ci sinfini bitirmiş və 43 saylı texniki-peşə məktəbinə daxil olmuşdur. 1988-1990-cı illərdə sovet ordusunda xidmət etmiş, 1992-ci ildə Milli Orduda hərbi xidmətə getmiş 27 sentyabr 1992-ci ildə Ağdərə rayonunun Sırxavənd kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

49. Əsgərova Alisə Söhrab qızı 11 iyul 1971-ci ildə Şəki şəhərində anadan olmuşdur. 3 saylı orta məktəbi bitirdikdən sonra yerli sənaye kombinatında işləmişdir. 1992-ci il iyunun 15-də könüllü Milli Orduya getmişdir. Ağdərə uğrunda gedən döyüşdə şəhid olmuşdur.

50. Əsgərov Aydın Məhəmməd oğlu 1973-cü ildə Dağıstan Muxtar Respublikası Rutul rayonunun Borc kəndində anadan olmuşdur. 1992-ci ildə Şəkidən cəbhəyə yola düşmüş, 1993-cü ilin aprel ayında Kəlbəcər rayonu uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

51. Əhmədov Taleh Abduləli oğlu 12 iyul 1952-ci ildə Şəki şəhərində anadan olmuşdur. 10 saylı orta məktəbi bitirmişdir. Sonra Bakı Neft və Kimya Texnikumunda oxumuş, Şəki Ət-Süd Kombinatında işləmişdir. 8 fevral 1992-ci ildə Milli Orduya getmiş, 12 may 1992-ci ildə şəhid olmuşdur.

52. Əhmədov Sərdar Firudin oğlu 22 yanvar 1974-cü ildə Şəki rayonunun Baş Zəyzit kəndində anadan olmuşdur. 13 iyun 1992-ci ildə Milli Orduya hərbi xidmətə çağırılmış, 24 oktyabr 1993-cü ildə Füzuli rayonu uğrunda gedən döyüşdə şəhid olmuşdur.

53. Əhmədov Süleyman Məmməd oğlu 1961-ci ildə Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuşdur. Orta məktəbi qurtardıqdan sonra, 1979-cu ildə sovet ordusuna hərbi xidmətə çağırılmışdır. 1981-ci ildə qulluq etdiyi hərbi hissənin göndərişi ilə Dzerjinski adına Saratov Ali Hərbi Məktəbinə qəbul edilmişdir. Hərbi məktəbi qurtardıqdan sonra Kazan, Nijni Tagil şəhərlərində qulluq etmişdir. 1990-cı ilin noyabr ayında baş leytenant rütbəsində Azərbaycana qayıtmış, 1992-ci ilin aprel ayından Bakıda daxili qoşun hissələrində xidmət etmiş və könüllü hərbi polis batalyonuna keçmiş, rota komandiri olmuşdur. May-avqust aylarında kapitan rütbəsində Zəngilanda batalyon komandiri olmuş, sentyabrın 7-də qərargah rəisi təyin edilmişdir. Sentyabrın 30-da növbəti əməliyyat zamanı şəhid olmuşdur.

54. Əhmədov Asim Kamil oğlu 1 mart 1972-ci ildə Şəki rayonunun Orta Zəyzit kəndində anadan olmuşdur. 1989-cu ildə həmin kənddəki orta məktəbi qurtarmış, kolxozda işləmişdir. 1990-1992-ci illərdə ordu sıralarında hərbi xidmətdə olmuşdur. 1992-ci il noyabr ayının 27-də Milli Ordu sıralarına çağırılmışdır. 1993-cü il fevral ayının 22-də Ağdam rayonu uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

55. Əhmədov Fərman Əhməd oğlu 1970-ci ildə Şəkidə anadan olmuş, 1985-ci ildə 19 saylı orta məktəbi bitirmişdir. 1993-cü il mart ayının 28-də Ağdərə istiqamətində gedən döyüşdə şəhid olmuşdur.

56. Əhmədov İmran Fərrux oğlu 1974-cü ildə Şəki rayonunun Qoxmux kəndində anadan olmuş, orta məktəbin 8-ci sinfini bitirdikdən sonra kolxozda işləmişdir. 5 yanvar 1993-cü ildə Milli Orduda xidmətə getmiş, 24 yanvar 1994-cü ildə şəhid olmuşdur.

57. Əhmədov Namiq Zaməddin oğlu 1973-cü ildə Şəki rayonunun Təpəcənnət kəndində anadan olmuşdur. 1993-cü ildə Milli Ordu sıralarına hərbi xidmətə getmişdir. 1994-cü ilin aprel ayında şəhid olmuşdur.

58. Əhmədov Elçin Hacı oğlu 1977-ci ildə Şəki rayonunun Baş Layski kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirdikdən sonra Milli Orda sıralarına çağırılmış, 17 iyun 1996-cı ildə şəhid olmuşdur.

59. Fərəcov Sahib Yaqub oğlu 1973-cü ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra sürücülük ixtisasına yiyələnmişdir. 1992-ci ilin iyun ayından Milli Orduda vuruşaraq 1992-ci il 8 dekabrda Ağdamın Mərzili kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

60. Fətullayev İftixar Namiq oğlu 1976-cı ildə Şəki şəhərində anadan olmuş, 9 saylı şəhər beynəlmiləl məktəbini bitirmişdir. 1992-ci ilin may ayında hərbi xidmətə çağırılmış və torpaqlarımızın toxunulmazlığı uğrunda vuruşaraq şəhid olmuşdur.

61. Fəttahov Elxan Şirin oğlu 1967-ci ildə Şəki şəhərində anadan olmuşdur. 1993-cü ildə cəbhəyə yola düşmüş, 1994-cü

il yanvarın 3-də Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

62. Güləhmədov Bəşir Oruc oğlu 1 may 1968-ci ildə Şəki rayonunun Qudula kəndində anadan olmuş, orta məktəbi qurtardıqdan sonra 1984-cü ildə 43 saylı texniki-peşə məktəbində təhsilini davam etdirmişdir. sovet ordusu sıralarında qulluq etdikdən sonra Milli Orduya getmiş, 1994-cü il yanvarın 2-də Ağdam uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

63. Hacıyev Namiq Kamil oğlu 1974-cü ildə Şəki rayonunun İkinci Biləcik kəndində anadan olmuşdur. 1992-ci ilin iyul ayında hərbi qulluğa çağırılmışdır. O, Azərbaycan Milli Ordusunda cəmi 3 ay qulluq etmiş, 1992-ci il sentyabrın 30-da Qubadlı döyüşlərində şəhid olmuşdur.

64. Hacıyev Nizam Cahangir oğlu 27 yanvar 1965-ci ildə Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuşdur. 1992-ci ilin yanvar ayında cəbhəyə getmiş, həmin ilin avqust ayının 15-də Zəngilan rayonunun Yenikənd istiqamətində gedən döyüşdə şəhid olmuşdur.

65. Hacıəliyev Qalib Salam oğlu 27 iyul 1976-cı ildə Şəki rayonunun Qaradağlı kəndində anadan olmuş, 1983-cü ildə 8-ci sinfi bitirmişdir. 1993-cü il sentyabr ayının 15-də hərbi xidmətə getmiş, 1994-cü il aprel ayının 21-də Füzuli rayonunun Əhmədbəyli kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

66. Hacınəsrullayev Zəbi Baxşəli oğlu 27 may 1973-cü ildə Şəki rayonunun Oxut kəndində anadan olmuşdur. Orta təhsil aldıqdan sonra sovet ordusunda xidmət etmişdir. 1992-ci ilin iyun ayından Milli Orduya göndərilmiş, 30 yanvar 1994-cü ildə Ağdərədə Gödəkburun uğrunda gedən döyüşdə şəhid olmuşdur.

67. Həmidov Qorxmaz Əli oğlu 24 aprel 1975-ci ildə Şəki rayonunun Baş Zəyzit kəndində anadan olmuşdur. 1992-ci ildə orta məktəbi bitirmiş 1993-cü ilin may ayında cəbhəyə getmiş, 26 yanvar 1994-cü ildə Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

68. Həsənov Murtuz İsfəndiyar oğlu 1971-ci ildə Şəki rayonunun Baqqal kəndində anadan olmuşdur. 1988-ci ildə orta məktəbi bitirmiş, 1989-1991-ci illərdə sovet ordusunda xidmət etmiş, qayıtdıqdan sonra təsərrüfatda işləmişdir. Murtuz 1992-ci il avqust ayının 23-də növbəti hərbi xidmətə çağırılmış, Gəncə hərbi polis idarəsində xidmətdə olmuşdur. 1993-cü il fevral ayının 13-də Ağdərə rayonunun Mehmanə kəndində şəhid olmuşdur.

69. Həsənov Rüstəm Şubay oğlu 22 avqust 1973-cü ildə Şəki rayonunun Cəyirli kəndində anadan olmuşdur. 8-ci sinfi bitirdikdən sonra 134 saylı texniki-peşə məktəbində traktorçu-maşinist ixtisasına yiyələnmiş, Mingəçevir toxuculuq kombinatında işləmişdir. 1992-ci il dekabrın 9-da Milli Orduya getmiş, 1993-cü il fevralın 7-də Ağdərənin Mehmanə kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

70. Hümmətov Qəhrəman Məmməd oğlu 26 sentyabr 1976-cı ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 1994-cü ilin oktyabr ayında Milli Orduda xidmətə getmiş, 1995-ci ilin yanvarında Tərtər bölgəsində şəhid olmuşdur.

71. Hüseynov Habil Camal oğlu 1972-ci ildə Şəki rayonunun Baş Layski kəndində anadan olmuş, kənddəki orta məktəbin 8-ci sinfini bitirmiş, sonra 43 saylı texniki-peşə məktəbində rəngsazlıq peşəsini öyrənmişdir. 1992-ci ildə Milli Orduya getmişdir. 3 avqust 1992-ci ildə Füzuli rayonunun Qacar kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

72. Xalıqov İmran Sədaqət oğlu 1957-ci ildə Şəki rayonunun Qoxmux kəndində anadan olmuşdur. Sovet ordusunda xidmət etmişdir. 1991-ci ildə cəbhəyə - Qarabağa getmişdir. 1993-cü il yanvarın 20-də Ağdərə rayonunun Sırxavənd kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

73. Xəlilov Elçin Nurməmməd oğlu 1967-ci ildə Şəki rayonunun Bideyiz kəndində anadan olmuş, səkkizillik təhsil aldıqdan sonra 43 saylı texniki-peşə məktəbində oxumuşdur. 1993-cü ilin oktyabr ayında Milli Orduda xidmətə getmiş, 26 aprel

1994-cü ildə Füzuli rayonunun Horadiz kəndi yaxınlığındakı döyüşlərdə şəhid olmuşdur.

74. İbrahimov Bəhram İbrahim oğlu 24 fevral 1971-ci ildə Şəki rayonunun Qoxmux kəndində anadan olmuş, orta məktəbi qurtardıqdan sonra 1989-1991-ci illərdə sovet ordusu sıralarında hərbi xidmətdə olmuşdur. 1992-ci ildə Milli Ordu sıralarına yola düşmüşdür. 1993-cü il fevralın 7-də Ağdərə torpaqları uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

75. İbrahimxəlilov Müzəffər Hümmət oğlu 1975-ci ilin iyul ayında Şəki rayonunun Baş Zəyzit kəndində anadan olmuşdur. Kənd orta məktəbinin 8-ci sinfini bitirdikdən sonra 43 saylı texniki-peşə məktəbində oxumuşdur. 1993-cü ildə Milli Ordu sıralarına çağırılmış, 1994-cü ilin fevral ayında Ağdərə rayonu uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

76. İbrahimxəlilov Rafiq Baxşəli oğlu 1977-ci ildə Şəki rayonunun Baş Zəyzit kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 7 iyul 1995-ci ildə Milli Ordu sıralarına getmiş, 13 iyul 1997-ci ildə Qazax rayonunun Ermənistanla sərhədində şəhid olmuşdur.

77. İlyasov Kamal İlyas oğlu 10 dekabr 1973-cü ildə Şəki rayonunun Qudula kəndində anadan olmuşdur. 1991-ci ildə orta məktəbi bitirmiş, 1992-ci ildə Milli Orduya getmişdir. 1993-cü ildə Laçının Səfiyan kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

78. İsmayılov Azad Firudin oğlu 21 may 1965-ci ildə Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuşdur. 1982-ci ildə kənd orta məktəbini bitirdikdən sonra Şəki Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur, 1983-cü ildə sovet ordusuna hərbi xidmətə getmişdir. 1988-ci ildən erməni işğalçılarına qarşı vuruşmuş, 3 sentyabr 1992-ci iildə Ağdərə rayonunun Sırxavənd kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

79. İsmayılov Elşad Əsabəli oğlu 1971-ci ildə Şəkidə anadan olmuş, şəhər 11 saylı orta məktəbini bitirmişdir. 1992-ci ilin may ayında cəbhəyə getmiş, 1992-ci ilin sentyabr ayının 5-də

Ağdamın Gülablı kəndi istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

80. İsmayılov Elşən Məmməd oğlu 1974-cü ildə Şəki rayonunun Baş Layski kəndində anadan olmuşdur. Həmin kənddə orta məktəbi bitirmiş, Bakı Energetika Texnikumuna daxil olmuşdur. 1992-ci ilin iyul ayında Milli Ordu sıralarına çağırılmış, həmin ilin sentyabr ayında Ağdərə rayonunun Sırxavənd kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

81. İsmayılov Elman Əsədulla oğlu 1975-ci ilin oktyabr ayında Şəki rayonunun Cəyirli kəndində anadan olmuşdur. Kənd məktəbinin 8-ci sinfini bitirdikdən sonra 134 saylı texniki-peşə məktəbində oxumuşdur. 5 oktyabr 1993-cü ildə Milli Orduya xidmətə göndərilmiş, 1994-cü il fevral ayının 11-də şəhid olmuşdur.

82. İsmayılov Etibar Bəlyar oğlu 1974-cü ildə Şəki rayonunun Oxut kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. Sonra Milli Ordu sıralarına çağırılmış, Ağdərənin Talış kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

83. İsmayılov Kamran Əsabəli oğlu 3 avqust 1976-cı ildə Şəki rayonunun Baş Layski kəndində anadan olmuş, 1993-cü ildə orta məktəbi qurtarmışdır. 5 sentyabr 1994-cü ildə Milli Orduya xidmətə çağırılmış, 22 avqust 1996-cı ildə şəhid olmuşdur.

84. İsmayılov Rüstəm Sultan oğlu 1963-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirdikdən sonra, 1980-ci ildə Politexnik İnstitutuna daxil olmuş, qurtardıqdan sonra Mingəçevir şəhərində işləmişdir. 1992-ci ildə cəbhəyə getmiş, 21 noyabr 1992-ci ildə Laçın rayonu uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

85. İsmayılov Hacı Qurban oğlu 1973-cü ildə anadan olmuş, Babaratma kənd məktəbinin 8-ci sinfini bitirdikdən sonra 43 saylı texniki-peşə məktəbində təhsilini davam etdirmişdir. 1994-cü ildə Füzuli bölgəsində gedən döyüşlərdə şəhid olmuşdur.

86. İsgəndərov İlqar İsa oğlu 1974-cü ildə Şəki rayonunun Quşçuluq sovxozunda anadan olmuş, 1981-ci ildə orta məktəbi bitirmişdir. 1992-ci ilin may ayında Milli Orduya hərbi xidmətə çağırılmış, 15 iyun 1993-cü ildə Ağdam rayonunun Qalayçılar kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

87. İsrafilov Ağasəf İsrafil oğlu 1974-cü ildə Şəki rayonunun Birinci Biləcik kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 1992-ci ildə Milli Orduya hərbi xidmətə çağırılmış, 24 dekabr 1993-cü ildə Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

88. İsrafilov Çərkəz Cəmaləddin oğlu 1957-ci ildə Bideyiz kəndində anadan olmuşdur. Orta məktəbi qurtardıqdan sonra texniki-peşə məktəbində təhsilini davam etdirmiş, sonra sovet ordusu sıralarına hərbi xidmətə getmiş, evə kiçik leytenant rütbəsilə qayıtmışdır. Könüllü Milli Orduda xidmətə getmiş Ağdam uğrunda gedən döyüşdə şəhid olmuşdur.

89. Jelyabov Cahangir Kazım oğlu 1964-cü ildə Şəki şəhərində anadan olmuş, şəhər 2 saylı internat məktəbdə böyüyüb və orada orta təhsil almışdır. 1992-ci ilin fevral ayında könüllü cəbhəyə getmiş, 1994-cü il yanvar ayının 9-da Ağdərə rayonu ərazisində gedən döyüşdə şəhid olmuşdur.

90. Kaşıyev Nəsib Nadir oğlu 7 iyul 1958-ci ildə Şəki şəhərində anadan olmuş, 3 saylı şəhər orta məktəbini bitirmişdir. Sovet ordusunda xidmət etmiş, 1992-ci il yanvarın 14-də Milli Orduya getmişdir. Həmin ilin fevral ayının 15-də Şuşa döyüşlərində şəhid olmuşdur.

91. Kərimov Aqil Əsədullah oğlu 20 mart 1974-cü ildə Şəki rayonunun Bideyiz kəndində anadan olmuş, həmin kənddə orta məktəbi bitirmişdir. 1992-ci ilin iyun ayının 23-də hərbi xidmətə çağırılmış, 23 fevral 1994-cü ildə Füzuli rayonunun Bala Bəhmənli kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

92. Kərimov Kərim Əvvəl oğlu 1964-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuş, həmin kənddə orta məktəbi bitirmişdir. Milli Orduda hərbi xidmətə getmiş, 5 fevral 1994-cü ildə Ağdamın Papravənd kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

93. Kərimov Mübariz Məmədsani oğlu 4 avqust 1969-cu ildə Şəki şəhərində anadan olmuş, 1986-cı ildə 10 saylı şəhər orta məktəbini bitirmişdir. 1987-1989-cu illərdə hərbi xidmətdə olmuşdur. 1993-cü ilin avqust ayında könüllü Qarabağın müdafiəsinə yola düşmüş, 13 aprel 1994-cü ildə Ağdam rayonunun Güllücə kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

94. Kərimov Rövşən Əjdər oğlu 29 mart 1970-ci ildə Şəki şəhərində anadan olmuş, şəhər 2 saylı orta məktəbini qurtarmış, 1992-ci ilin mayında Milli Orduya getmiş, 22 iyul 1992-ci ildə şəhid olmuşdur.

95. Kərimov Səyavuş Vidadi oğlu 1974-cü ilin aprel ayında Şəki rayonunun Baş Layski kəndində anadan olmuşdur. 1990-cı ildə həmin kənddə orta məktəbi bitirmiş və Milli Orduya getmişdir. 1994-cü ilin yanvar ayında Murovdağda şəhid olmuşdur.

96. Qarayev Sədəddin Hacı oğlu 1964-cü ilin avqust ayında Şəki rayonunun Şin kəndində anadan olmuş, 1981-ci ildə kənd orta məktəbini bitirmiş, həmin il Bakıda 12 saylı texniki-peşə məktəbinə daxil olmuşdur. 1981-1984-cü illərdə sovet ordusu sıralarında xidmət etmiş, tərxis olunduqdan sonra Bakı Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsinə daxil olmuşdur. Universiteti qurtardıqdan sonra Qax rayonunda 2 saylı orta məktəbdə müəllim işləmiş, 1993-cü ildə könüllü Milli Ordu sıralarına getmişdir. 1994-cü ilin yanvar ayında Tərtər-Ağdərə bölgələrində gedən döyüşlərdə şəhid olmuşdur.

97. Qarayev Qorxmaz Salman oğlu 10 iyun 1975-ci ildə Şəki rayonunun Oxut kəndində anadan olmuş, 1992-ci ildə kənd orta məktəbini bitirmişdir. Milli Ordu sıralarına getmiş, Ağdərə uğrunda gedən döyüşdə şəhid olmuşdur.

98. Qasımov Məmmədəli Cəlil oğlu 1973-cü ildə Şəkidə anadan olmuş, 1991-ci ildə şəhər 3 saylı orta məktəbi bitirmişdir. 1992-ci ilin aprel ayında Milli Ordu sıralarına hərbi xidmətə getmiş, 7 iyul 1994-cü ildə şəhid olmuşdur.

99. Qaffarov Polad Hidayət oğlu 1971-ci ildə Şəki rayonunun Şin kəndində anadan olmuş, 1987-ci ildə orta məktəbi bitirib sovet ordusunda xidmət etmişdir. 1991-ci ilin iyun ayında Milli Orduda xidmətə getmiş, 1992-ci il sentyabrın 23-də şəhid olmuşdur.

100. Qaffarov Şahin Nəsir oğlu 1972-ci ildə Şəki şəhərində anadan olmuş, 19 saylı orta məktəbi bitirmişdir. 1990-cı ildə sovet ordusunda hərbi xidmətə getmişdir. 1992-ci ildə Milli Orduda xidmətə yollanmış, 28 mart 1993-cü ildə Ağdərə uğrunda gedən döyüşdə şəhid olmuşdur.

101. Qafarov Elçin Ramiz oğlu 1974-cü ildə Şəki rayonunun Oxut kəndində anadan olmuş, 1992-ci ildə kənd orta məktəbini bitirmişdir. 1993-cü ilin iyul ayında Milli Ordu sıralarına yollanmış, 1994-cü ildə şəhid olmuşdur.

102. Qaffarov Elşad Qəmbər oğlu 1975-ci ildə Şəki şəhərində anadan olmuş, 19 saylı orta məktəbi bitirmişdir. 1993-cü ilin may ayında Milli Orduda xidmətə getmiş, 1994-cü ildə Ağdam rayonunun Qəzvənd kəndi yaxınlığındakı döyüşdə şəhid olmuşdur.

103. Qafarov İlqar İziko oğlu 1974-cü ildə Şəki şəhərində anadan olmuşdur. Sovet ordusunda xidmət etmişdir, 31 yanvar 1994-cü ildə Milli Orduya getmiş, şəhid olmuşdur.

104. Qəhrəmanova Könül Kamran qızı 1972-ci ildə Şəki şəhərində anadan olmuşdur. 14 saylı şəhər orta məktəbinin 8-ci sinfini bitirdikdən sonra, 91 saylı texniki-peşə məktəbinə daxil olmuş, 1991-ci ilin noyabr ayında yaralılara tibbi yardım etmək məqsədilə könüllü cəbhəyə getmişdir. Xocalı, Goranboy, Ağdam, Şuşa, Laçın torpaqlarında gedən döyüşlərdə iştirak etmiş, 1992-ci il sentyabr ayının 30-da Ağdamın Cinli kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

105. Qurbanov Afiq Bəhlul oğlu 1974-cü ilin aprel ayında Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuş, 1991-ci ildə orta məktəbi bitirmişdir. 1992-ci il iyulun 27-də hərbi xidmətə çağırılmış, 3 oktyabr 1992-ci ildə şəhid olmuşdur.

106. Qurbanəliyev Saleh İsmayıl oğlu 1961-ci ildə anadan olmuş, orta məktəbi Şəki rayonunun Şəki kəndində bitirmişdir. 1992-ci ildə Milli Orduda xidmətə getmiş, 1994-cü ildə Ağdam rayonu uğrunda gedən döyüşdə şəhid olmuşdur.

107. Lətifov Əkrəm Mövlud oğlu 15 noyabr 1974-cü ildə Şəki rayonunun Baş Layski kəndində anadan olmuşdur. Kənd orta məktəbində təhsilini başa vurduqdan sonra cəbhəyə yola düşmüşdür. O, 1993-cü il may ayının 12-də Tərtər cəbhəsində şəhid olmuşdur.

108. Lətifov Təyyar Şövkət oğlu 5 iyul 1974-cü ildə Şəki rayonunun Aşağı Layski kəndində anadan olmuşdur. 1991-ci ildə kənd orta məktəbini bitirdikdən sonra 43 saylı texniki-peşə məktəbinə daxil olmuş, 1992-ci ilin sentyabr ayında Milli Orduya hərbi xidmətə çağırılmışdır. 1993-cü ilin qışında düşmən hücumunun qarşısını alarkən avtomatının gülləsi qurtardığı üçün Təyyar belindəki sonuncu qumbaranı əlində sıxıb özünü düşmən tankının üstünə atıb qəhrəmanlıqla şəhid olmuşdur. Döyüşdən sonra onun cəsədini tapmaq mümkün olmamışdır. Həlak olduğu yerdən bir ovuc torpaq götürüb dəfn edilmişdir. Allah rəhmət eləsin!

109. Mənəfov Natiq Yusif oğlu 1974-cü ildə Şəki rayonunun Şəki kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 1993-cü ildə Milli Orduya çağırılmış, 1994-cü ildə Marquşavan kəndi yaxınlığında şəhid olmuşdur.

110. Mahmudov Məmməd 1973-cü ildə Şəki şəhərində anadan olmuşdur. 20 saylı orta məktəbi bitirdikdən sonra 3 saylı texniki-peşə məktəbində təhsilini davam etdirmiş, 1992-ci il mayın 25-də Milli Orduya getmiş, 1993-cü il fevralın 18-də Ağdam rayonu uğrunda gedən döyüşdə şəhid olmuşdur.

111. Mahmudov Mahir Mahmud oğlu 1966-cı ildə Birinci Biləcik kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirdikdən sonra sovet ordusu sıralarında xidmət etmiş, 1994-cü ilin yanvar ayında könüllü Qarabağ torpaqlarının müdafiəsinə get-

mişdir. Mahir 1994-cü il may ayının 21-də Ağdamın Təzəkənd istiqamətində gedən döyüşdə şəhid olmuşdur.

112. Mahmudov Nuşirəvan Rəsul oğlu 1964-cü ildə Şəki rayonunun Aşağı Şabalıd kəndində anadan olmuş, 1979-cu ildə kənd 8 illik məktəbini bitirmişdir. Bakı Neft Texnikumunu qurtardıqdan sonra Maşınqayırma zavodunda işləmişdir. Nuşirəvan 1992-ci ilin avqustunda könüllü hərbi xidmətə getmiş, həmin il oktyabr ayının 2-də Xocavənd rayonunun Əmiranlar kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

113. Mahmudov Tərlan Ramiz oğlu 21 dekabr 1969-cu ildə Şəki şəhərində anadan olmuşdur. Şəhər 11 saylı orta məktəbin 8-ci sinfini bitirdikdən sonra 43 saylı texniki-peşə məktəbində təhsilini davam etmişdir. O, Qazaxıstanda raket qoşunları bölməsində xidmət etmiş, 1992-ci il mayın 12-si Milli Orduya getmiş, Tərtərdə Şəki batalyonunda döyüşmüşdür. 1992-ci ilin 3 avqustunda şəhid olmuşdur.

114. Mahmudov Fazil Əhməd oğlu 1978-ci ildə Şəki rayonunun Oraban kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 1993-cü ildə Milli Orduya çağırılmış, 16 yanvar 1994-cü ildə şəhid olmuşdur.

115. Məmmədov Adil Aydın oğlu 18 fevral 1974-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuş, 1992-ci ildə orta məktəbi bitirmişdir. 1993-cü ildə Milli Ordu sıralarına çağırılmış, Ağdamın Xındırıstan kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

116. Məmmədov Vüqar İsmayıl oğlu 17 avqust 1972-ci ildə Şəkidə anadan olmuşdur. 1992-ci ilin 20 aprelində cəbhəyə yola düşmüş, 1992-ci il iyun ayının 26-da Naxçıvanik kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

117. Məmmədov Vüqar İlyas oğlu 1977-ci ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuş, 1994-cü ildə kənd orta məktəbini bitirib hərbi xidmətə getmişdir. Vüqar 1994-cü ilin 13 iyulunda Ağdam rayonu uğrunda gedən döyüşdə şəhid olmuşdur.

118. Məmmədov Qurtuluş Abdulla oğlu 1971-ci ildə Şəki rayonunun Cumay kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 1990-cı il avqustun 15-də Milli Orduya çağırılmış, Ağdərə rayonundakı Sarıbaba dağının ətəklərində gedən döyüşdə şəhid olmuşdur.

119. Məmmədov Elşad Vəlyəddin oğlu 1974-cü ildə Şəkidə anadan olmuşdur. 1992-ci il mayın 4-də Milli Orduya getmişdir. 1992-ci il avqustun 19-da Ağdamın Gülablı kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

120. Məmmədov Elçin Məcid oğlu 1 iyul 1969-cu ildə Şəki rayonunun Cəyirli kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 1993-cü ilin noyabr ayında Milli Orduya getmiş, 1994-cü il aprel ayının 18-də Ağdamın Güllücə kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

121. Məmmədov İsmayıl Məmmədiyyə oğlu 3 mart 1971-ci ildə Şəki rayonunun İncə-Zunut kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 1989-1991-ci illərdə sovet ordusunda xidmət etmiş, 1992-ci ilin dekabrında Milli Orduya getmiş, 22 fevral 1993-cü ildə şəhid olmuşdur.

122. Məmmədov Mövlud Seyidməmməd oğlu 1974-cü ildə Şəki rayonunun Baş Zəyzit kəndində anadan olmuş, orta məktəbi bitirmişdir. 17 iyun 1992-ci ildə Milli Ordu sıralarına hərbi xidmətə getmiş, 1995-ci il oktyabr ayının 21-də şəhid olmuşdur.

123. Məmmədov Nemət Xızır oğlu 1966-cı ildə Şəki rayonunun Fazil kəndində anadan olmuş, 1984-cü ildə orta məktəbi bitirmişdir. 1984-cü ildə sovet ordusunda xidmət etmiş, 1992-ci il mayın 13-də könüllü Milli Orduya getmiş, 1992-ci il iyunun 16-da şəhid olmuşdur.

124. Məmmədov Novruz Qurban oğlu 1971-ci ildə Şəki rayonunun Şəki kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra sovet ordusunda xidmət etmiş, 1992-ci ildə Milli Orduya çağırılmış, 1994-cü il yanvar ayının 15-də Füzuli rayonunun Seyidəhmədli kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

125. Məmmədov Rəfail İsmət oğlu 1969-cu ildə Şəkidə anadan olmuş, 10 saylı şəhər orta məktəbinin 8-ci sinfini bitirdikdən sonra 43 saylı texniki-peşə məktəbində təhsilini davam etdirmiş, sovet ordusu sıralarında hərbi xidmətini yarımçıq qoyub Vətənə qayıtmış, könüllü Qarabağa getmişdir. 1993-cü ilin iyul ayının 23-də Ağdam rayonunda gedən döyüşlərdə şəhid olmuşdur.

126. Məmmədov Rəfail Əhməd oğlu 1972-ci ildə Şəki rayonunun Aşağı Layski kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirdikdən sonra sovet ordusunda xidmət etmiş, 1992-ci iildə Vətənə qayıtdıqdan sonra Milli Orduya getmiş, 1994-cü ilin yanvar ayının 16-da şəhid olmuşdur.

127. Məmmədov Sahib Qafar oğlu 1972-ci ildə Şəki rayonunun Quşculuq sovxozunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Bakı Rabitə Texnikumuna daxil olmuşdur. 15 may 1992-ci ildə cəbhəyə yola düşmüş, 1993-cü il yanvarın 15-də Laçın rayonu uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

128. Məmmədov Sərdar Kinyaz oğlu 7 may 1974-cü ildə Şəki şəhərində anadan olmuş, 1981-ci ildə 9 saylı şəhər orta məktəbini bitirmişdir. 1992-ci il iyunun 3-də hərbi xidmətə getmiş, 7 oktyabr 1992-ci ildə Qubadlıda gedən döyüşlərdə şəhid olmuşdur.

129. Məmmədov Füzuli Əlibala oğlu 1970-ci ildə Şəki rayonunun Qoxmux kəndində anadan olmuş, kənd orta məktəbini bitirmiş, 1985-ci ildə Şəki şəhər avtomobil sürücüləri məktəbinə daxil olmuşdur. 1988-ci ildə sovet ordusu sıralarına hərbi xidmətə çağırılmış, 1993-cü ildə Milli Orduya getmişdir. Füzuli 1993-cü il dekabr ayının 30-dan 31-nə keçən gecə Ağdam rayonunun Papravənd kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

130. Məmmədəliyev Mütəllim Məmmədəli oğlu Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuş, orta təhsilini kənd məktəbində almışdır. Kolxozda sürücü işləmiş, 1993-cü

ildə cəbhəyə yola düşmüş, 1994-cü il aprel ayının 21-də Füzuli rayonu uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

131. Mustafayev Elman Mustafa oğlu 1974-cü ildə Şəki rayonunun Aşağı Şabalıd kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1992-ci ildə Milli Orduya hərbi xidmətə çağırılmış, 23 avqust 1996-cı ildə şəhid olmuşdur.

132. Mustafayev Elşən Nadir oğlu 1975-ci ildə Şəki şəhərində anadan olmuş, 8 saylı şəhər orta məktəbini qurtarmış, könüllü cəbhəyə yola düşmüş, Tərtərin müdafiəsində şəhid olmuşdur.

133. Mustafayev Nizami Abduləli oğlu 1969-cu ildə Şəki şəhərində anadan olmuşdur, 7 saylı şəhər orta məktəbini bitirmişdir. Milli Orduda hərbi xidmətə könüllü getmiş, 25 aprel 1992-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

134. Mustafayev Pərviz İslam oğlu 1974-cü ildə Şəkidə anadan olmuş, şəhər 11 saylı orta məktəbi bitirmişdir. 1992-ci ilin noyabr ayında könüllü cəbhəyə getmiş, 1993-cü il fevral ayının 13-də Ağdərənin Mehmanə kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

135. Mustafayev Əfqan Şəfaqət oğlu 1967-ci ildə Şəki rayonunun Aşağı Küngüt kəndində anadan olmuş, 1984-cü ildə kənd orta məktəbini bitirmişdir. 1985-1987-ci illərdə sovet ordusu sıralarında hərbi xidmətdə olmuş, sonra Şəki Kənd Təsərrüfatı Texnikumunda təhsilini davam etdirmişdir. Əfqan 1993-cü ildə Milli Orduda xidmətə yollanmış, 1994-cü il yanvar ayının 3-də Ağdam uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

136. Mustafayev Nemət İzzət oğlu 1963-cü ildə Şəki rayonunun Baş Zəyzit kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Dnerpopetrovsk Metallurgiya İnstitutuna daxil olmuşdur. 1984-cü ildə sovet ordusuna hərbi xidmətə getmiş, sonra təhsilini davam etdirmişdir. İnstitutu bitirdikdən sonra Bakı Boru Prokatı zavodunda işləmiş, 1993-cü ildə cəbhəyə getmiş, 31 dekabr 1994-cü ildə şəhid olmuşdur.

137. Məhərrəmov Vidadi İzzət oğlu 29 aprel 1967-ci ildə

Şəki şəhərində anadan olmuşdur. 1992-ci il martın 1-də cəbhəyə yola düşmüş, 18 avqust 1992-ci ildə şəhid olmuşdur.

138. Məhərrəmov İlqar Məhərrəm oğlu 1975-ci ildə Şəki rayonunun Zunud kəndində anadan olmuş, kənd orta məktəbini bitirmiş, sonra cəbhəyə getmişdir. Füzuli torpaqları uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

139. Musayev Aslan Həsən oğlu 1966-cı ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuş, kənd orta məktəbini bitirmiş, Bakıda 54 saylı texniki peşə məktəbinə daxil olmuşdur. 1992-ci ildə Milli Orduya hərbi xidmətə getmiş, 1993-cü il sentyabrın 9-da Ağdamın Sarıcalı kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

140. Müslümov Fariz Fəxrəddin oğlu 21 avqust 1976-cı ildə Şəki rayonunun Oravan kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 1994-cü il sentyabr ayının 6-da cəbhəyə getmiş, 1997-ci il avqust ayının 27-də şəhid olmuşdur.

141. Məcidov Sahib Məmmədiyyə oğlu 1973-cü ildıə Şəki şəhərində anadan olmuşdur. 1992-ci ildə Milli Ordu sıralarına yolu düşmüş, 1994-cü il yanvarın 31-də Ağdam istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

142. Namazov Bəxtiyar Tərxan oğlu 1973-cü ildə Şəki rayonunun Baş Kəldək kəndində anadan olmuşdur. 1991-ci ildə sovet ordusu sıralarında xidmət etmiş, qayıtdıqdan sonra Milli Orduya getmiş, 1993-cü il yanvarın 28-də Ağdərə döyüşlərində şəhid olmuşdur.

143. Namazov Əyyub Şükür oğlu 1975-ci ildə anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1990-cı ildə texniki-peşə məktəbində təhsilini davam etdirmiş, 1993-cü ildə Milli Orduya hərbi xidmətə çağırılmış, 1994-cü ildə şəhid olmuşdur.

144. Nəzirov Azər Oruc oğlu 1973-cü il yanvarın 25-də Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuşdur. 1992-ci ilin iyun ayında cəbhəyə getmiş, 1992-ci il sentyabr ayının 18-də şəhid olmuşdur.

145. Nəsibov Etibar Nəsib oğlu 15 yanvar 1971-ci ildə Şəki

şəhərində anadan olmuş, şəhər 19 saylı orta məktəbi bitirmişdir. 1988-1991-ci illərdə sovet ordusu sıralarında xidmət etmiş, 1993-cü ilin mart ayında könüllü cəbhəyə getmiş, həmin ilin iyun ayının 26-da Ağdərə bölgəsində gedən döyüşlərdə şəhid olmuşdur.

146. Nəsibov Kamran Rizvan oğlu 1971-ci ildə Şəki rayonunun Birinci Biləcik kəndində anadan olmuş, orada orta məktəbi bitirmişdir. 1991-ci il avqust ayının 15-də könüllü cəbhəyə getmiş, 1992-ci il sentyabr ayının 14-də şəhid olmuşdur.

147. Nəsibov Teymur İskəndər oğlu 1975-ci ildə Şəki rayonunun Aşağı Layski kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 10 aprel 1993-cü ildə Milli Orduda hərbi xidmətə çağırılmış, 1995-ci il mart ayının 4-də şəhid olmuşdur.

148. Nurəddinov Rasim Nağdalı oğlu 1975-ci ildə Şəki rayonunun Orta Zəyzit kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 14 iyul 1992-ci ildə hərbi xidmətə çağırılmış, 27 dekabr 1993-cü ildə şəhid olmuşdur.

149. Orucov Yusif Novruz oğlu 1975-ci ildə Şəki şəhərində anadan olmuş, 18 saylı orta məktəbi bitirmişdir. 11 oktyabr 1993-cü ildə könüllü cəbhəyə getmiş, 1994-cü il yanvar ayının 28-də şəhid olmuşdur.

150. Orucov Mehman Abdurahman oğlu 29 iyul 1975-ci ildə Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuş, 1992-ci ildə orta təhsilini başa vurmuş, 1993-cü ildə hərbi xidmətə yola düşmüşdür. Mehman 1994-cü ilin yanvar ayında şəhid olmuşdur.

151. Osmanov Nazim Müzəffər oğlu 1973-cü ildə Şəki rayonunun Baş Layski kəndində anadan olmuş, həmin kənddə orta məktəbi bitirmişdir. 1992-ci il aprelin 23-də Milli Orduya getmiş, 1993-cü il avqust ayının 3-də şəhid olmuşdur.

152. Osmanov Xaliq Hacı oğlu 1962-ci ildə İsmayıllı rayonunda anadan olmuş, orta məktəbi bitirdikdən sonra Şəki "İpək" şirkətində işləmiş, 1992-ci ilin aprel ayında könüllü ola-

raq cəbhəyə getmiş və həmin il may ayının 8-də şəhid olmuşdur.

153. Paşayev Yolçu Bədrəddin oğlu 1964-cü ildə Şəki şəhərində anadan olmuş, 1994-cü ilin aprel ayında Tərtər rayonunun Cəmilli kəndində şəhid olmuşdur.

154. Paşayev Nəriman Xancan oğlu 1966-cı ildə Şəki rayonunun Küdürlü kəndində anadan olmuş, 1984-cü ildə orta məktəbi bitirmişdir. 1985-1987-ci illərdə Almaniya Demokratik Respublikasında hərbi xidmətdə olmuş, 1992-ci ilin may ayında könüllü cəbhəyə getmiş, həmin il iyun ayının 15-də şəhid olmuşdur.

155. Rzayev Eldar Əhməd oğlu 1964-cü ildə Şəkidə anadan olmuş, internat məktəbində təhsil almışdır. 1993-cü ilin aprel ayında cəbhəyə getmiş, cəmi 13 gün vuruşmuş və şəhid olmuşdur.

156. Rəsulov Əbdürrəhim Rəsul oğlu 1972-ci ildə Şəki rayonunun Orta Zəyzit kəndində anadan olmuş, orta məktəbi bitirdikdən sonra Şəki Texnologiya Texnikumunda təhsilini davam etdirmişdir. 1992-ci ilin yazında Milli Ordu sıralarına çağırılmış, 1993-cü il aprel ayının 17-də şəhid olmuşdur.

157. Rəsulov Vasif Valeh oğlu 1974-cü ildə Şəki şəhərində anadan olmuş, 12 saylı orta məktəbin 8-ci sinfini bitirib, 43 saylı texniki peşə-məktəbində təhsilini davam etdirmişdir. 1993-cü ildə cəbhəyə yola düşmüş, 1994-cü il yanvarın 1-də Ağdam bölgəsində gedən döyüşlərdə şəhid olmuşdur.

158. Rəfiyev Asim Rəcəb oğlu 1975-ci ildə Şəkidə anadan olmuşdur. 1993-cü ildə Milli Ordu sıralarına yola düşmüş, 1994-cü il yanvarın 20-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

159. Rəhimov Fərman Yusif oğlu 30 iyul 1956-cı ildə Şəki şəhərində anadan olmuşdur. 1991-ci il dekabr ayının 29-da Xankəndinin Kərkicahan qəsəbəsi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

160. Rəcəbov Famil Kamil oğlu 5 iyul 1973-cü ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuş, 1990-cı ildə orta məktəbi bitirərək 1992-ci ildə Bakı Yeyinti Sənaye Texnikumuna qəbul olunmuşdur. Həmin ilin may ayında Milli Orduya gedib, 1993-cü il martın 24-də Ağdərə ətrafında gedən döyüşlərdə şəhid olmuşdur.

161. Rəşidov Vasif Arif oğlu 1973-cü ildə Şəkidə anadan olmuş, şəhər 8 saylı orta məktəbi bitirmişdir. 1992-ci il mayın 23-də könüllü Milli Orduya getmiş, həmin il avqust ayının 19-da Ağdamın Gülablı kəndi ətrafında gedən döyüşlərdə şəhid olmuşdur.

162. Rüstəmov Tərlan Tapdıq oğlu 1973-cü ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 1992-ci ildə Milli Orduya çağırılmış, 1994-cü ilin yanvar ayında Sırxavənd kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

163. Sadıqov Qabil İsmayıl oğlu 1971-ci ildə Şəki rayonunun Aşağı Göynük kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir. 1989-1991-ci illərdə Almaniyada hərbi xidmətdə olmuş, 1992-ci il avqust ayının 15-də könüllü cəbhəyə getmiş, cəmi 15 gün sonra - avqust ayının 30-da Ağdərə rayonu uğrunda gedən döyüşdə şəhid olmuşdur.

164. Sadıqov Mahir Məmməd oğlu 10 may 1961-ci ildə Şəki şəhərində anadan olmuş, şəhər 7 saylı orta məktəbi qurtarıb, musiqi təhsili almışdır. Ucar rayonunda musiqi müəllimi işləmiş, 1992-ci ildə könüllü Milli Orduya getmiş, həmin il may ayının 11-də şəhid olmuşdur.

165. Sadıqov Fərman Mustafa oğlu 1971-ci ildə Şəki şəhərində anadan olmuş, 1992-ci ildə cəbhəyə getmiş, 1994-cü ilin aprelində Füzuli ətrafında gedən döyüşlərdə şəhid olmuşdur.

166. Salamov Əjdər Əli oğlu 13 mart 1975-ci ildə Şəki rayonunun Baş Şabalıd kəndində anadan olmuş, 1992-ci ildə kənd orta məktəbini bitirmiş, sonra hərbi xidmətə yola düşmüşdür. 16 dekabr 1993-cü ildə Füzuli uğrunda gedən döyüşdə şəhid olmuşdur.

167. Sadıqov Asim Nazim oğlu 1969-cu ildə Şəki rayonunun Orta Zəyzit kəndində anadan olmuşdur. Şəhər 7 saylı orta məktəbdə oxumuş, 43 saylı texniki peşə məktəbində təhsilini davam etdirmişdir. Sovet ordusu sıralarında hərbi xidmətdə olmuş, sonra Şəki "İpək" şirkətində işləmişdir. 1992-ci ildə Milli Orduya getmiş, 1994-cü il yanvarın 5-də şəhid olmuşdur.

168. Salamov Gündüz Gülməmməd oğlu 1969-cu ildə Şəki rayonunun Qoxmux kəndində anadan olmuşdur. Sovet ordusunda xidmət etmiş, təxris olunandan sonra Milli Orduya getmiş, 25 yaşında Füzuli rayonu ərazisində gedən döyüşlərdə şəhid olmuşdur.

169. Salamov Zaman Oruc oğlu 10 fevral 1970-ci ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuşdur. 1992-ci ilin yazında Milli Ordu sıralarına getmiş, 1994-cü il aprelin 16-da şəhid olmuşdur.

170. Seyidov Əşrəf Cahangir oğlu 1974-cü ildə Şəki rayonunun Qoxmux kəndində anadan olmuşdur. 1991-ci ildə kənd orta məktəbini bitirib Şəki Texnologiya Texnikumunda təhsilini davam etdirmişdir. 1994-cü il oktyabr ayının 25-də Milli Orduya getmiş, 1995-ci il iyun ayının 23-də şəhid olmuşdur.

171. Seyidov Göray Nurəli oğlu 1972-ci ildə Şəki rayonunun Oravan kəndində anadan olmuş, orta məktəbi bitirdikdən sonra Şəkidəki avtomobil sürücüləri hazırlayan məktəbdə oxumuşdur. 1991-ci ilin may ayında sovet ordusu sıralarına çağırılan Göray 8 aydan sonra doğma yurduma qayıtmış, 1992-ci ilin dekabrında cəbhəyə getmiş, 1993-cü il yanvarın 18-də Ağdərə rayonunun Sırxavənd kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

172. Seyidəliyev Etibar Mirsabir oğlu 1971-ci ildə Şəki rayonunun Qoxmux kəndində anadan olmuş, 1987-ci ildə orta məktəbin 8-ci sinfini bitirdikdən sonra 43 saylı texniki peşə məktəbində təhsilini davam etdirmişdir. 1989-1991-ci illər sovet ordusunda xidmət etmiş, 1992-ci ilin avqustunda Milli Orduya getmiş, 1992-ci il oktyabrın 9-da şəhid olmuşdur.

173. Səlimov Nail Nadir oğlu 14 avqust 1971-ci ildə Şəki rayonunun Baş Layski kəndində anadan olmuş, kənd orta məktəbinin 8-ci sinfini qurtardıqdan sonra texniki peşə məktəbində oxumuşdur. Nail 1990-cı ildə sovet ordusunda xidmətə çağırılmış, sonra Milli Orduya getmiş, 1993-cü il dekabr ayının 29-da şəhid olmuşdur.

174. Səmədov Əsəd Davud oğlu 1972-ci ildə Şəki rayonunun Baqqal kəndində anadan olmuş, kənd orta məktəbini bitirmiş, sovet ordusu sıralarında hərbi xidmətdə olmuşdur. 1992-ci il sentyabr ayının 20-də Milli Orduya getmiş, həmin il oktyabr ayının 4-də Ağdərənin Çıldıran kəndi istiqamətində gedən döyüşdə şəhid olmuşdur.

175. Səmədov Rüstəm Səməd oğlu 1966-cı ildə Şəki şəhərində anadan olmuşdur. Şəki "İpək" şirkətində işləmiş, 1984-1986-cı illərdə sovet ordusunda xidmət etmiş, sonra Milli Orduya getmişdir. 1994-cü il aprel ayının 22-də Füzuli rayonu ərazisində şəhid olmuşdur.

176. Süleymanov Valeh Abdurahman oğlu 1971-ci ildə Şəki rayonunun Göybulaq kəndində anadan olmuş, 1991-ci ilin may ayında Milli Ordu sıralarına hərbi xidmətə çağırılmış, 1992-ci ilin iyun ayının 25-i Xocavənd rayonunun Qırmızıbazar kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

177. Süleymanov Ağasəf Baxşəli oğlu 15 mart 1965-ci ildə Şəki rayonunun Qoxmux kəndində anadan olmuş, 1980-ci ildə kənd orta məktəbinin 8-ci sinfini bitirmişdir. 1983-1985-ci illərdə sovet ordusunda xidmət etmiş, 1990-cı ildə könüllülər dəstəsinə üzv olaraq vətənin müdafiəsinə getmişdir. 1993-cü il iyun ayının 19-da Ağdamın Papravənd kəndi istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

178. Süleymanov Fəxri Yəhya oğlu Şəki rayonunun Təpəcənnət kəndində anadan olmuş, 1990-cı ildə orta məktəbi bitirmiş, 1992-ci ildə sovet ordusunda hərbi xidmətini başa vurmuş, elə həmin ildə Qarabağ uğrunda gedən döyüşlərə yollanmışdır, 1994-cü il aprel ayının 27-də şəhid olmuşdur.

179. Süleymanov Rəfiq Abduləli oğlu 1973-cü ildə Şəki rayonunun Baş Kəldək kəndində anadan olmuş, kənd orta məktəbini bitirmişdir, sonra Milli Orduya çağırılmışdır, 1992-ci il oktyabrın 8-də Füzuli uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

180. Səfərov Cavanşir İsfəndiyev oğlu 1972-ci ildə Şəki şəhərində anadan olmuş, şəhər 8 saylı orta məktəbin 8-ci sinfini bitirdikdən sonra 43 saylı texniki-peşə məktəbində təhsilini davam etdirmişdir. 1992-ci ilin avqust ayında Milli Orduya hərbi xidmətə çağırılmış, həmin il oktyabr ayının 12-də şəhid olmuşdur.

181. Şabanov İlqar Novruz oğlu 16 avqust 1975-ci ildə Şəki rayonunun Göybulaq kəndində anadan olmuş, kənd orta məktəbinin 8-ci sinfini bitirdikdən sonra, sovxozda fəhlə işləmişdir. 18 yaşında hərbi xidmətə getmiş, 1994-cü il may ayının 3-də Ağdərə uğrunda gedən döyüşdə şəhid olmuşdur.

182. Şirinov Araz Şahid oğlu 1973-cü ildə Şəki rayonunun Babaratma kəndində anadan olmuş, 1990-cı ildə kənd 8 illik məktəbi bitirmişdir. 1992-ci il aprelin 15-də Milli Orduya getmiş, həmin il oktyabr ayının 27-də Ağdamın Qazançı kəndi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

183. Şirinov Şahlar Fərman oğlu 1970-ci ildə Şəki rayonunun Cəyirli kəndində anadan olmuş, kənd 8 illik məktəbini bitirmişdir. Sovet ordusunda hərbi xidmətdə olmuş, qayıtdıqdan sonra sovxozda fəhlə işləmişdir. 1993-cü ildə Milli Orduya getmiş, 1994-cü ilin mart ayında Füzuli rayonunun Kərimbəyli kəndi ətrafında gedən döyüşlərdə şəhid olmuşdur.

184. Şuayev Eldar İsmayıl oğlu 1974-cü ildə Şəki rayonunun Daşyüz qəsəbəsində anadan olmuşdur. 1992-ci ildə Milli Ordu sıralarında hərbi xidmətə getmiş, 1993-cü il oktyabr ayının 15-də şəhid olmuşdur.

185. Usubov Alxas Soso oğlu 1960-cı ildə Şəki şəhərində anadan olmuş, şəhər 19 saylı orta məktəbi bitirmişdir. Hərbi xidmətini Almaniya Demokratik Respublikasında keçirmiş, sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda oxumuş, həm də qiyabi yolla Moskva Texnologiya İnstitutunu bitirmişdir. Müdafiə Nazirliyinin "Qeyrət" batalyonunun qərargah rəisi olmuş, 18 sentyabr 1992-ci ildə cəbhə bölgəsinə gedərkən avtomobil qəzasına uğrayıb, həlak olmuşdur.

186. Valehov Fərahim Nizamət oğlu 1972-ci ildə Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuş, kənd orta məktəbini bitirib 134 saylı texniki peşə məktəbində təhsilini davam etdirmişdir. 1990-1992-ci illərdə sovet ordusunda hərbi xidmətdə olmuş, 1992-ci ilin 15 iyulunda Milli Orduya getmiş, həmin ilin sentyabrın 2-də Ağdamın Sırxavənd kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

187. Verdiyev Elman Şükür oğlu 3 mart 1976-cı ildə Şəki rayonunun Cunut kəndində anadan olmuş, 1993-cü ildə kənd orta məktəbini bitirmişdir. 24 mart 1994-cü ildə cəbhəyə yola düşmüş, 1995-ci il may ayının 26-da şəhid olmuşdur.

188. Vəliyev Elxan Zaməddin oğlu 1971-ci ildə Şəki rayonunun Əliyar kəndində anadan olmuşdur. Orta məktəbi bitirib Bakı Energetika Texnikumunda təhsilini davam etdirmiş, 1991-ci ilin sentyabr ayında könüllü Milli Orduya getmiş, 1995-ci il may ayının 6-da şəhid olmuşdur.

189. Vəlicanov Süleyman Mabud oğlu 1964-cü ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuş, sovet ordusunda xidmət etmişdir, sonra könüllü Qarabağa döyüş zonasına getmiş, Daşaltı döyüşlərində sağ ayağından yaralanmış, düşmənə əsir düşməmək üçün özünü qumbara ilə şəhid etmişdir.

190. Yusifov Edison Bəşir oğlu 1940-cı ildə Şəki şəhərində anadan olmuş, ailəsi ilə birlikdə Novosibirsk vilayətində yaşamışdır. Qarabağ hadisələrilə əlaqədar Vətənə qayıtmış, 1992-ci ildə 52 yaşında torpağımızı qorumağa getmiş, 1994-cü ilin mart ayında Ağdam ətrafında gedən döyüşlərdə şəhid olmuşdur.

191. Yusifov Saleh Fətəli oğlu 1969-cu ildə Şəki rayonunun Kiş kəndində anadan olmuş, kənd orta məktəbini bitirmiş, Şəki "İpək" şirkətində işləmişdir. Cəbhəyə getmiş, 31 dekabr 1993-cü il tarixdə şəhid olmuşdur.

İNSAN ÖZ ÖMRÜNÜN BİNASINI YARADAN MEMARDIR

"Başıma gələnləri qəm-qüssə ilə deyil, məmnunluq hissilə qarşılayıram. Çünki Allahın mənim üçün istədiyi mənim istədiyimdən daha xeyirlidir".

Epiktet (Epiktetus).

"Türk millətindənəm, islam hümmətindənəm,
Qərb mədəniyyətindənəm".
Məmmədəli XƏLFƏZADƏ.

"Qobusnamə"də deyilir: "Yaxşı adamlar bu dünyada aslan təbiətli olarlar, pis adamlar isə it təbiətli. İt tapdığı şeyi oradaca yeyər, aslan isə ovladığını başqa yerdə. Bu dünya bir ovqatdır, sən isə ovçu, sənin ovun da - yaxşı əməllərin. Çalış indi yaxşılıq elə ki, sonra xeyrini görəsən... Yaxşılıq etməkdən peşman olma, çünki yaxşılığın... mükafatı sənə hələ bu dünyada, o dünyaya getməmişdən əvvəl çatacaqdır...

İstəyirsən sənin xalqa sərf etdiyin əmək hədər getməsin, xalqın sənə sərf etdiyi əməyi hədər etmə...

Dostunun az olmasını istəmirsənsə, kin saxlayan olma...

Artıq dərəcədə kədərli olmaq istəmirsənsə, paxıl olma...

İncidilmək istəmirsənsə, özünə rəva bilmədiyini başqalarına da rəva görmə...

Həya-abırla yaşayıb dolanmaq istəyirsənsə, başqalarını rüsvay etmə...

Dalda ələ salınmaq istəmirsənsə, əlin altında işləyənlərlə mülayim dolan...

Qorxusuz yaşamaq istəyirsənsə, başqalarına yamanlıq etmə...

İstəyirsən sənin qədrini bilsinlər, başqalarının qədrini bil.

İstəyirsən sənin dediyinə əməl etsinlər, özün dediyinə əməl et..."

Abbas Səhhət: "Sən mükafatını insanlara xidmətdə ara..."

Səməd Vurğun: "Yaxşılıq insana bir sənət olsun".

İnsan o vaxt ləyaqətli, rəhmli olur ki, o insaflıdır. Vaxtilə Abbasqulu Ağa Bakıxanov demişdir: "İnsaf insan ləyaqətinin zinətidir". ABŞ prezidenti D.Eyzenhauer: "Ədalətsizliyə yol verilən yerdən əxlaqsızlıq başlanar".

Son dövrlər insaf məfhumu, elə bil ki, cəmiyyətimiz üçün yabançı olub. Çoxları bu insani keyfiyyətləri itirmişdir, bir qismi isə onun nə olduğunu başa düşmür, ona artıq bir şey kimi baxır.

Nurəddin Babayevin fikirləri müasir dövr üçün çox xarakterikdir: "Axı insaf hamıya-əkinçiyə də, neftçiyə də, dərziyə də, alimə də, müəllimə də, vəzifəliyə də, vəzifəsizə də hava, su kimi lazımdır. Savadsız, diplomsuz yaşamaq olar, insafsız, vicdansız yaşamaq olmaz... İnsaf bizim daxili aləmimizin güzgüsüdür. Gəlin, elə yaşayaq ki, bu güzgüdə eybəcər görünməyək, qəlbən, ruhən təmiz və gözəl görünək" ("Kommunist" qəzeti, 21 mart 1989-cu il.)

Yaxşı fikir elə, qafil dolanma,
Qəlbini şeytandan yad elə, insan!
Halal yaşa, bir kimsədən utanma,
Yıxma könülləri, şad elə, insan
Xəstə Qasım (XVIII əsr).

Bu insani sifətlər, yuxarıda dediyim kimi, düzgün tərbiyənin məhsuludur. İnsan istər ailədə, istərsə də cəmiyyətdə başqalarına o vaxt hörmət edir ki, o öz ata-anasına hörmət edir. Fərman İsmayılovun dediklərindən: "...yaxşı abidənin modeli, onun üzvlərinin bir-birinə ünsyiyət qaydaları hazır şəkildə nəsildən-nəslə verilir: ataya sitayiş, anaya hörmət və məhəbbət, ailə piramidasının qaydalarına əməl etmək, kiçiklərin böyüklərə tabeçiliyi, böyüklərin kiçiklərə qayğıkeşliyi, böyüklərdən abır-həya saxlamaq və s... bizim milli və mənəvi sərvətimiz, varlığımızın müqəddəsliyidir... İnsan tərbiyənin məhsuludur; bu onu sübut

edir ki, insan gənclikdə aldığı tərbiyənin təsirindən heç vaxt xilas olmur" ("Azərbaycan gəncləri", 24 oktyabr 1989-cu il).

Valideynlərinə ehtiramla yanaşan, müəllimini də sevər, qocalara və uşaqlara qarşı qayğıkeş olar, Vətənini sevər... cəmiyyətin sevimlisinə çevrilər. Aqillər demişkən, ədalətli ol ki, ədalət görəsən, xoş de ki, xoş eşidəsən.

Bəli, insan öz ömrünün binasını yaradan memardır. Mən bu kəlama bir də onu əlavə etmək istərdim ki, insan öz enişli-yoxuşlu, ağrılı-acılı, fərəhli-qəmli həyat yolu simfoniyasını yaradan bəstəkardır. Bu sənət abidəsini yaradan memar, həyat simfoniyasını yazan bəstəkar öz-özünü başa düşəndən axırıncı mənzilinə köçənə qədər, təsiri altında olduğu hadisələrdən, kəlamlardan, ağsaqqal-ağbirçək xeyir-duasından, müəllim dühasından da istifadə edir. Mənim fikrimcə, həyat abidəsini ucaldan əsas mənbələr ata və müəllim dühasıdır. Həyatda elə adam olmaz ki, atası və səmimi müəllimi ilə fəxr etməsin. Dahi söz ustası S.Ə.Şirvani əbəs deməyib:

"Pədərin bir mənəm, bir ustadın,
Cəhd qıl yaxşı çıxmağa adın".

Atam haqda bəzi xatirələri yada salmaq istərdim. Qələmə aldığım şəxslərdən Şəki milyonçusu Məmmədsadıq Əliyev, Azərbaycanın ilk hüquqşünaslarından Mustafabəy Əlibəyov, Hacıyev Məmmədiyyə müəllim və b. haqda qeydlərimin çoxunu atamın vaxtilə bizə söylədiyi məlumatlar əsasında yazmışam. Maraqlı burasıdır ki, vaxtilə - repressiya dövründə həmin adamların bəzilərinin adını çəkmək belə qorxulu olduğu halda, o bizə - uşaqlara belə adamlar haqda obyektiv məlumatlar verər, onlar kimi həyatda təmiz, vətənpərvər və qeyrətli olmağı tövsiyə edərdi. Aşkarlıq dövründə bu şəxslər haqqında mətbuatda qeydlər çıxanda, vaxtilə atamın məlumatları ilə eyni olduğunu gördükdə mənim onun obyektivliyinə qarşı olan məhəbbətimin həddi-hüdudu olmadı.

Atam Mustafa Həmid oğlu hələ inqilabdan qabaq tanınmış sənətkar (papaqçı) olub. O, müəyyən müddətlərdə Ağdaşda, Şamaxıda, Bakıda, Krımda, Səmərqənddə, Buxarada papaqçılıqla

Mustafa Həmid oğlu



Ənvər Mustafa oğlu

məşğul olmuş, savadsız olmasına baxmayaraq, həmişə ziyalılarla yaxınlıq etmişdir. Ondakı bu həvəsin səbəbkarı ustadı Qaffar kişi olmuşdur. Dövrünün savadlı şəxslərindən olan usta Şərifov Qaffar maarifpərvər Rəşidbəyin müasiri idi, daim Qori seminariyasının məzunları ilə oturub-dururdu.

Hörmətli Həbibulla Manaflı "Şəki üsyanı" (Bakı, 2004, səh.13) kitabında arxiv materialları əsasında məlumat verir: "Nuxa Hürriyyəti-Maarif Cəmiyyətinin 1917 sənəsi 1 apreldən 1919 sənəsi 1 marta qədər mədaxil və məxaric hesabı (2 sənəlik fəaliyyəti münasibətilə).

Rusiya məhsul istibad hökumətinin yıxılıb, hürriyyət alınması münasibəti ilə millətimizin maarifçə geridə qaldığı nəzərə alınaraq, Nuxa ziyalı cavanlarımızdan bir neçəsinin təşəbbüsülə Nuxada 1917 sənə mart ayının axırlarında "Hürriyyəti-Maarif Cəmiyyəti" namilə bir bilki cəmiyyəti təşkil olundu. Cəmiyyət tələbələrin qeyri ehtiyaclarını da nəzərə alaraq, onlar üçün yatacaq və möhtaclarına aylıq maaş verdi. Qız balalarının oxuyub tərbiyə sahibi olması cəmiyyətin məqsədlərindən birisi olduğundan şəhərin "Yuxarı baş" hissəsində yenə pulsuz olaraq qız məktəbi də güşad etdi...

Nuxa Hürriyyəti-Maarif Cəmiyyətinin 1917 sənə 1 apreldən 1919 sənə 1 marta qədər üzv olanların və ianə verənlərin siyahısı fəxri ərazi

75. Mustafa Həmid oğlu - 5 manat
Qaffar Şərifov - 4 manat.

Atam Buxara ilə bağlı baş vermiş bir əhvalat danışır. O, Bakıdan Buxaraya gedərkən limanda Qəzənfər Musabəyov ona ağır bir kisə verir ki, onu azərbaycanlılardan bir nəfərə çatdırsın.

Sonradan məlum olur ki, onun apardığı kisə Bakıda çap olunan qəzetlər imiş. Buxara əmiri qəzeti gətirən adamın başı üçün böyük məbləğ təyin edir. Atam o vaxt Buxarada işləyən Şərifov Qaffarın köməkliyi ilə Krasnovodsk şəhərinə gətirilib Bakıya yola salınır və ölümdən xilas olur.

Atam nağıl edir ki, Buxarada axırıncı əmir dövründə pul kisəciyini bazarda itirmiş, iki gündən sonra yenidən oraya qayıdıb, itirdiyi kisəciyin kim tərəfindənsə tapılıb bazarda ağacın haçasına qoyulduğunu görür. Pulun bir qəpiyinə də əl vurulmayıbmış.

O, söyləyirdi ki, türklər Azərbaycanda olanda şahidi olub ki, Bakıda, Şəkidə, Ağdaşda dükanların qapısına qıfıl vurulmurdu. Oğurluq eləyənlər ölümlə cəzalandırılırdı. Atam həmişə övladlarına və tanıyıb-bilənlərə birinci növbədə yalan danışmamağı tövsiyə edərdi. O, deyərdi ki, kişi ölüm ayağında da gərək yalan danışmaya.

Yaponların bir gözəl məsəli var:

"Yalan, oğurluğa doğru atılmış ilk addımdır".

Əfsuslar olsun ki, XX əsrdə mədəniyyətimiz "yüksəldikcə" bizə yalan danışmaq öyrətdilər, yadelli işğalçılarla yad adətləri bizə yoluxdurdular, illər keçdikcə biz bunlara adət etdik, min illərlə hökm sürən adətlərimizə naxələf çıxdıq, dilimizə və dinimizə biganə olduq...

150 ildə ruslara plov bişirməyi öyrədə bilmədik, hətta milli plovumuza kaşa dedilər, ancaq onlar bizə borş bişirməyi öyrətdilər. Mənəviyyatımızı pozub rüşvəti, oğurluğu öyrətdilər... Qoqolun "Müfəttiş" əsəri buna canlı misaldır.

B.Vahabzadənin dililə deyə bilərik:

Bəli, dəbə düşüb indi oğurluq,
Mənəvi yoxsulluq, mənəvi korluq.
Torpaq oğrusu,
Tarix oğrusu,
Millət oğrusu,

Beyin oğrusu,
Şöhrət oğrusu,
Qeyrət oğrusu...
Bilmək çətindir
Hara gedir bu?
Birində zəiflik, birində zorluq,
Yeməyə çalışır insanı insan,
Ana təbiətdə yoxdur oğurluq,
Onun övladında bu sifət hardan?

Aqillər demişlər ki, əgər millət nəyisə azadlıqdan üstün tutursa, o, azadlıqdan məhrum olacaq. Dahi ingilis filosofu və sosioloqu, pozitivizmin banilərindən biri Herbert Spenserin (1820-1903) dililə desək: "Xalqın ləyaqətli olmayınca, sən də özünü ləyaqətli saya bilməzsən; xalqın azad olmayınca, sən də özünü azad saya bilməzsən; xalqın xoşbəxt olmayınca, sən də özünü xoşbəxt saya bilməzsən".

Atam həmişə övladlarını və tanıyıb-bilənləri düzgünlüyə dəvət edərdi. "Düzgünlük olmayan yerdən bərəkət gözləmə", - deyə öyüd-nəsihət verərdi. Düzgünlük haqda onun Krım tatarlarına xüsusi hörməti vardı. Krımda onun Hacı Süleyman adlı həmkar dostu olmuş, müharibədən sonra ailəsilə Orta Asiyaya sürgün edilmiş, işgəncələrə-zülmə dözməyən Hacı tezliklə vəfat etmişdir. Hacının oğlu Hüseyn sonra Şəkiyə gəlmiş, orada evlənmişdir. Hüseyn bir neçə il bundan əvvəl vəfat etmişdir. Hüseynin xatirələrindən: "Böyük Vətən müharibəsində almanlar Krımı alası ərəfədə yerli əhalinin çox hissəsi köçürüldü. Lakin atam - Hacı öz ailəsi ilə doğma ocağından getmir. Almanlar həyətə daxil olub, evə girəndə Hacı namaz qılırmış. Namazını qurtarana qədər, əli silahlı almanlar sakit dayanırlar. Namazı qurtaran Hacı əlində Quran ailə üzvləri ilə alman əsgərlərinin qabağına yeriyir. Almanlar "Maqometan, Maqometan" deyə-deyə arxalarını müqəddəs Qurana çevirmədən geri çəkilib, çıxıb gedirlər. O gündən bir nəfər də olsa bu evə yaxın durmur. Sovet ordusu Krıma yaxınlaşanda Türkiyədən bir neçə gəmi gəlib,

yerli əhaliyə oraya köçməyi təklif edir. Tatarlardan bu təklifi qəbul edənlər də olur, əksəriyyəti isə öz yurdunda qalmağı üstün tutur. Sovetlər gələndən sonra bir gecənin içində bütün tatarları - qocadan başlamış südəmər uşağa qədər yük qatarlarına doldurub Qazaxıstana sürgün edirlər. Binəva camaat qatarda hətta oturmağa yer tapmırmış. Sutkalarla ac-susuz, ayaq üstə yol gedən adamlar gücdən düşmüşdülər... Meyitlər iy verdiyindən vaqon pəncərəsindən onları atmaq məcburiyyəti qarşısında qalırdılar. Hətta ana ölmüş uşağını pəncərədən tullamağa məcbur olub. 3-4 həftə yol getdikdən sonra qalan əhali Qazaxıstan çöllərinə buraxılmış, sonra onların çoxu Özbəkistanı özlərinə məskən etmişlər..."

Bəli, budur ədalətsizlik! Bəşəriyyət tarixində görünməyib ki, bir milləti bütövlükdə başqa yerə sürgün edəsən. Torpağını isə qüvvətli, yad xalqa verəsən. Axı bu xalqın, bu yurdun min illərlə tarixi vardır. Bu gün Krım tatarlarının öz doğma yurdlarını tələb etməsi tam ədalətlidir. İnsanam deyən hər bir şəxs bu haqlı tələbi müdafiə etməlidir.

Atamın özünün oxumağa imkanı olmasa da, həddindən artıq elm, savad tərəfdarı idi. O, Sovet hakimiyyətinin ilk illərində Şəkidə baş vermiş hadisələrdən bizə danışardı. Hələ o dövrdə N.Nərimanovun Şəkidə Cümə məscidində etdiyi çıxışın şahidi olmuş atam onun haqda səmimi fikirlər söyləyərdi. N.Nərimanov öz çıxışında xalqı savadlanmağa çağırmış, bu isə atamın olduqca xoşuna gəlmişdir. Atam müharibə və ondan sonrakı illərdə xalqımızın görkəmli oğlu Nazim Hacıyevin atası Məmmədiyyə müəllimlə yaxınlıq etmişdir. O, uşaqlara Nazim kimi qeyrətli, savadlı, təvazökar və tərbiyəli olmağı tövsiyə edərdi.

Atamın yaxınlıq etdiyi tanınmış adamlardan biri də sevimli şairimiz Bəxtiyar Vahabzadə olmuşdur. Yadımdadır, B.Vahabzadənin dram əsərlərinin Gəncədə ilk tamaşalarında müəlliflə birlikdə iştirak etmişdir. B.Vahabzadənin "Şəbi-hicran" poemasını bizə bir neçə dəfə oxudub qulaq asmış, həmişə də gözlərinin yaşarmasının şahidi olmuşam.

Yadımdadır, M.C.Bağırovun Şamil haqda "Kommunist" qəzetində çıxan məqaləsini bizə oxudub qulaq asdıqdan sonra bunun ədalətsiz yazıldığını bildirdi və gələcəkdə bu yazının iki millət arasında narazılığa səbəb olacağını söylədi. Doğrudan da, sonrakı hadisələr onun haqlı olduğunu sübut etdi.

Atamın Şəki varlıları haqda da öz fikri vardı. Kimlərin haqda müsbət rəydə olduğunu əvvəllər söyləmişəm. Onun dediyinə görə Şəki fabrikantlarının əksəriyyəti türklərə qızıla ipək verməyib, başqa millətlərə Nikolayın kağız puluna mal satırdılar. Türklər bundan qəzəblənib onları "gavur" adlandırırlarmış. Bu kağız pulların aqibəti artıq hamımıza məlumdur; özlərinə də Sibirdə beş arşın kəfən də qismət olmadı. Türklər yerli camaatı ermənilər tərəfindən törənən qırğından xilas etdilər, müqabilində isə belə rəftar gördülər.

Anam Gülsüm sadə evdar qadın olub, öz sadəliyi, sadiqliyi, evdarlığı və gözəl xörəklər bişirməsi ilə nəslimizdə şöhrət qazanmışdır.

İnsanın həyatında elə bir adam olur ki, uşaqlığında ona oxşamaq, böyüyəndə onun kimi olmaq istəyirsən. Lakin özün-özünü başa düşəndən sonra anlayırsan ki, sənin də öz cığırın, öz addımın olmalıdır. Nəslimizdə çoxumuzun oxşamaq, onun kimi olmaq arzusunda olduğumuz adam məşhur cərrah, respublikanın əməkdar həkimi Fərrux Həmidzadə olmuşdur (bax: "Doktor Həmidzadə"). Mən onun haqda "Loğmanlar yurdu" əsərimdə də geniş məlumat vermişəm. Şəxsən mən bu insandan iki şeyi öyrənmişəm: cərrahlıq sənətinin sirlərini və qurub-yaratmağı. Bu yorulmaz insan son nəfəsinədək nəsə tikmək, yeni bir müalicə sahəsi salmaq, abadlaşdırmaq... işilə məşğul olmuşdur.

Müqəddəs Quranımızda yazılıb: "Dünya ürəkdə şirin, gözdə isə yaşıldır. Lakin Allah sizi sizdən əvvəl dünyadan köçənlərdən sonra yaradıb. Deməli, öz əməllərinizə yaxşıca nəzarət edin. Dünyanın bütün xəbisliklərindən uzaqlaşın".

İnsanın həyatında elə anlar olur ki, qoca yaşlarında da yadından çıxmır. Həmin günü acı və ya şirin olmasından asılı olma-

Abdulhəmid Mustafa oğlu Həmidov.

yaraq, müqəddəs tarix kimi beyninə həkk etməklə, həmişə yad edir. Belə bir neçə hadisə böyük qardaşım Abdulhəmidlə bağlıdır. Müharibə başlayanda 16 yaşı vardı. Öz məhəllə dostları ilə tez-tez hərbi komissarlığa qaçıb, cəbhəyə getmək istədiyini bildirərdi. O vaxt tibbi komissiyanın sədri Şəkidə tanınmış ağsaqqal doktor Məmməd Hacıyev (əməkdar həkim, əmək qəhrəmanı, onun haqda əvvəllər məlumat verilib) ona deyərmiş: "Ay oğul, boydan uca olsan da, hələlik yaşın düşmür". Nəhayət, həmin gün gəldi. 1942-ci ilin yazında Tiflisə hərbi məktəbə göndərdilər. Şəkidən gedəndə 50 nəfər idilər. Tiflisdə bir neçə həftə qalandan sonra birbaşa cəbhəyə yolladılar. Birinci döyüşdə əksəriyyəti öldü, ümumiyyətlə, 50 nəfərdən ikicəciyi geri qayıtdı. İkisi də 18 yaşında ikinci dərəcəli Böyük Vətən müharibəsi əlili. İkisi də gənc yaşlarında dizdən yuxarı ayaqdan məhrum oldu... Biri mənim qardaşım idi.

Geniş qəlbə sahib olan bu insanın hələ bir dəfə orden və medallarını taxdığını və yaxud ucadan "Mən gənc yaşımdan Böyük Vətən müharibəsi əliliyəm" - sözünü deməsini eşitməmişdim. Müharibədən sonra Vətəni qarşısında onun ikinci ən böyük xidməti Azərbaycanda o vaxtlar geniş yayılmış keçəlliyin ləğvində yaxından iştirak etməsidir. Bu sahədə o, rentgenterapiyadan geniş istifadə etmiş, Fəxri Fərman və pul mükafatına layiq görülmüş, səhiyyə əlaçısı olmuşdur.

Mən həyatımda həmişə çalışmışam ki, anam və böyük qardaşım kimi mülayim olum. Heç kimin qəlbinə dəyməyim. Bu xasiyyətimə görə də həmişə yaxın dostlardan, qohumlardan və böyüklərdən danlaq götürmüşəm. Mən heç başa düşmürəm, məgər həyatda tanınmaq üçün sərt olmaq lazımdır? Bəzən deyirlər ki, "filan rukovoditelin yaxşı arxası var, stroqidir, hamı onu görəndə tir-tir əsir".

İlahi, görün nə günlərə qalmışıq, insana sərtliyinə görə müsbət qiymət verirlər. Qabaqlar it sərt olanda qiymətə minərdi... Bəziləri də ağızdolusu deyirlər: "Xırdaca bir narışeniya elədin, atası qəbirdən gələ keçməz, mütləq nakazat eləməlidir". Bəli, kasıbı xırda bir iş üstündə "nakazat" etmək, varlını-arxalını böyük cinayətə görə mükafatlandırmaq. Allah atalara rəhmət eləsin, hələ vaxtilə demişlər: "Arxalı köpək qurd basar". Hələ görün bu həyat fəlsəfəsinin kökləri hara gedib çıxır? Dövrümüzün ilk əsrinə... Hələ vaxtilə Roma şairi, klassik satiranın görkəmli nümayəndəsi Deteim Yuni Yuvenal (60-127) yazmışdı: "Çox vaxt eyni cinayətlər bambaşqa cəza ilə nəticələnir: birini çarmıxa çəkirlər, o birinin başına isə tac qoyurlar". Bu ədalətsizlik hələ 1-ci əsrdə olub. XX əsri yola saldıq - var, davam edir və edəcəkdir. Dövlətimiz müstəqillik qazandıqdan sonra "mədəni", "mömin", "demokrat", "super savadlı", xamelion çarmıx cəlladları peyda olub. Bu insani canavarlar onlarca partiyanın üzvü, hətta yeri gələndə Yelsinist, Putinist, dövri olaraq hakimiyyət dəyişikliyi ilə əlaqədar nə bilim nəist olmaqlarını ümumi yığıncaqda bəyan edirlər. "Mən türkləri sənin qarşında diz çökdürəcəyəm" - bu sözləri Rusiya Federasiyasının sabiq prezidenti Boris Yeltsin MDB-nin Daşkənd toplantısında Ermənistanın keçmiş prezidenti L.Ter-Petrosyana demişdi (Bakı xəbər, 6 aprel 2005-ci il).

Röya kimi hər an olaraq zahiri qaib,
Mən Şərqdə abid oluram, Qərbdə rahib.
Bir qazi olub, gah edərim fitnələr icad
Bir mürşid olub, gah edərim aləmi bərbad,
Bəzən olurum bir papa, cənnət satarım mən,
İsa dirilib gəlsə də qorxar qəzəbimdən.
İblis nədir?
- Cümlə xəyanətlərə bais...
Ya hər kəsə xain olan insan nədir?
- İblis...

(Hüseyn Cavid).

Axırıncı dəfə vəzifədən azad olunarkən mənə yuxarılarda irad tutdular ki, sən canavarlarla bacarmırsan. Canavarlarla boğuşmaq üçün quduzlaşmaq gərəkdir. Həmin canavarlar qiymətləndirildi, fəxri adlar, orden-medallar aldılar və xalqın hesabına firavan yaşamaqda, harınlamaqdadırlar. Allah sənə rəhmət eləsin M.Ə.Sabir...

"...adəti quldur olasan, yol vurasan, el qırasan, gərçi qaçaqlıqda dutulmaq da var, əmma onu fikir eyləmə..., desə rus ol, nə çətin şeydir, olarsan, dəxi bir xaç da salarsan...

Bu əməldən ucalarsan,
İvan namin alarsan,
Amilyanov olarsan..."

İndiki dövrdə yalnız bir şey dəyişib: ağanın xarici görünüşü, cəza növləri. Ancaq onlar bir həqiqəti yadda saxlamalıdırlar, dahi fransız filosofu Jan Jak Russonun dililə desək: "Tez-tez cəza vermək hökumətin zəifliyinin əlamətidir". Sərtlik lazım deyil, heç kim bu dünyada əbədi deyil. Sərt də, mülayim də, ədalətli də torpaq altına gedir...

Fikrimi Qurani-Kərimdən bir kəlamla yekunlaşdırmaq istərdim: "Hökmü altında olanlarla ədalətlə rəftar etməyən başçının yeri cəhənnəmdir".



Sabir Mustafa oğlu Həmidov.

Ailədə uşaqların yadı ola bilməz. Atalar demişkən, əlin beş barmağının hamısı insan üçün əzizdir. Təbabət baxımından isə əldəki beş barmağın hamısının funksiyaları eyni deyildir. Baş, şəhadət və üçüncü barmaq daha çox, çətin və mürəkkəb funksiyaları ifa edirlər... Bunları deməkdə məqsədim nədir? Sözüm odur ki, ailədə də uşaqların funksiyaları ayrı-ayrı olur. Əgər ata-anaya ən sadiq, onların qayğısına qalan, zəhmətkeş övlad nümunələri göstərmək lazım gəlsəydi, mən mübaliğəsiz qardaşım Sabiri və böyük bacım Səliməni göstərərdim. Deyirlər ki, atasını sevən adam tanrısını sevər, ata xeyir-duasına layiq olan övlad xoşbəxt olar. Bəlkə də bəzən bu qanun da pozulur... Deyərlər, Allah bilən məsləhətdir.

Ailədə, qohumlar arasında, kollektivdə hamının qayğısını çəkməkdən zövq alan Sabir həmişə hər işdə birinci olmağı sevərdi. Öz sənətində də belə olmuşdur. Balakəndən Vartaşen (indiki Oğuz) zonasına qədər, qulaq-burun-boğaz xəstəlikləri üzrə ilk mütəxəssis Sabir olmuş və Şəki rayonlararası birləşmiş xəstəxanasında həmin sahə üzrə ilk şöbəni təşkil etmiş və ilk cərrahi əməliyyatları da o başlamışdır. Şəkidə çox adamların ləqəbi olur. Bu ləqəblərin əksəriyyəti insanın öz əməlinə, sənətinə, xasiyyətinə, keçmişinə, nəslinə-əslinə və s. görə verilir. Gərək elə yaxşı sənətkar olasan ki, sənətini xalq sənə ləqəb təyin etsin. Bəli, Sabir yaxşı sənətkar kimi şöhrət qazandığından, ona "Qulaq-burun-boğaz Sabir" deyirdilər. Bəli, deyirdilər... Hələ indi də deyib yad edirlər. Təbabətin hər sahəsindən xəbəri vardı. Tibb əlaçısı fəxri adına layiq görülmüşdü. Mən bu gün fəxr edirəm ki, xəstəyə mehriban yanaşmaq, onunla yaxından tanış olmaq, xəstəliyindən başqa, qeyri-dərdinə şərik olmaq, çoxu ilə yaxınlıq etmək, hər şadlığına-qəminə ortaq olmaq xüsusiyyətlərini mən yalnız ondan öyrənmişəm. Sabirin övladları da bu müqəddəs peşənin davamçılarıdır. Oğlu İlqar stomatoloq, qızları Arzu farmakoloq, Gülnarə kardioloq işləyirlər.

Ön sırada soldan: Emin həkim, bacım Səlimə, İradə; arxada soldan: Əhməd, Yeganə, Elçin.

ABŞ səfiri Reno Harniş (öndən 3-cü sırada sağda) və səfirliyin amerikalı işçiləri 2004-cü ildə Şəkidə Emin həkimin evində.

Böyük bacım Səlimə hələ gənc yaşlarından hamımıza analıq qayğısı göstərib. Onun oğlu Emin Şəkidə tanınmış travmatoloqdur. O, Şəkidə vaxtilə mənim yaratdığım, rəhbərlik etdiyim travmatologiya şöbəsinə başçılıq edir. Onun həyat yoldaşı İradə tanınmış ginekoloq, bacısı Yeganə qayğıkeş tibb işçisidir. Onların övladları Əhməd və Elçin də gələcəkdə bu yolu davam etdirməyə söz veriblər.

Nurəhməd müəllim.

Bir də görürsən ki, bir nəsillə yenicə qohum olan bir insan həmin qəbilə üzvlərinin sevimlisinə çevrilir. Uşaqdan tutmuş, ağsaqqal-ağbirçəyə qədər hamı ona ehtiram edir. Bu sahədə ən yaxşı qiymət, məncə, uşaq məhəbbətidir. Bizim qəbilənin, nəslin belə bir sevimlisi kiçik bacım Zərinənin həyat yoldaşı Nurəhməd müəllimdir. Həqiqi müəllim, gözəl insan, yorulmaz təşkilatçı... Onların hər ikisi Şəkidə tanınmış müəllimlərdir. Zərinə öz səliqəsi, mehribançılığı, evdarlığı ilə anamıza oxşayır. O, şəxsən mənim üçün həyatda ikinci ana olmuşdur.

Şəkinin tanınmış riyaziyyat müəllimi olan Nurəhməd üçün həyatında ön yerdə duran məsələ həmişə dövlət işi olub. Onun həyatda prinsipi belədir: "Düzgün, vicdanla işlə ki, hamının gözünə dik baxa biləsən". İşdə həddindən artıq tələbkar olan bu zəhmətkeş müəllim evdə də tələbkardır. İşimdə və ailəmdə düzgünlük və tələbkarlıqda mən həmişə Nurəhməd müəllimə bənzəməyə çalışmışam.

Ortada "zemski həkim" Danilov Vladimir İvanoviç, solda Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş cərrah İ.Quliyeva.

Belə bir kəlam var ki, valideynlər uşağı dünyaya gətirirsə, onu yüksəyə, səmaya qaldıran müəllim, daha doğrusu, ustad olur. Mən bu vaxta qədər sənətimdə nə ədə etmişəmsə, onu iki ustadın adı ilə bağlaya bilərəm. Onlardan birincisi qocaman həkim Vladimir İvanoviç Danilov olmuşdur. O, inqilabdan qabaq Saratov Universitetinin tibb fakültəsini qurtarmış, Böyük Vətən müharibəsi başlanandan 1968-ci ilə qədər Şəkidə cərrah işləmişdir. V.İ.Danilov nəinki Azərbaycanda və hətta Rusiyanın bir çox yerlərində tanınmış həkim olmuşdur. V.İ.Danilovun cərrah bıçağı, demək olar ki, insan bədəninin bütün sahələrində əməliyyat aparmışdır. O, təkcə cərrahiyyəni deyil, ümumiyyətlə, təbabəti gözəl bilirdi və bildiyini məmnuniyyətlə gənclərə öyrədirdi. Paxıllığın nə olduğunu bilməyən bu gözəl insanın əlindən gecə-gündüz kitab düzməş və başçılıq etdiyi həkim kollektivini də oxumağa vadir edərdi. Mən cərrahiyyədə və ümumiyyətlə, travmatologiya və ortopediya sahəsindəki nailiyyətlərimin ilk səbəbkarı, ilk ustadım "zemski həkim" V.İ.Danilova bütün varlığımla borcluyam. Unudulmaz sənətkar V.İ.Danilov haqda "Loğmanlar yurdu" (1991) kitabımda geniş məlumat vermişəm.

Professor Azad Ağa oğlu İsmayılov.

Ustad hesab etdiyim ikinci adam Azərbaycan xalqının görkəmli cərrahı, akademik Mustafa Topçubaşovun tələbəsi professor Azad Ağa oğlu İsmayılov olmuşdur. O, bilavasitə mənim elmi rəhbərim olmasa da, əldə etdiyim nailiyyətlər məhz onun adı, insanlığı, atalıq qayğısı ilə bağlıdır. Azad ustad, universal cərrah idi. İnsan bədəninin hər yerində onun bıçağı işləyərdi. O, gözəl travmatoloq-ortoped idi. Uzun illər Bakı Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna rəhbərlik etmiş, bu institut məhz onun dövründə məşhurlaşmış və tanınmışdır. Azərbaycanda travmatologiya və ortopediya sahəsində yetişən alimlərin çoxunun müəllimi bu yorulmaz insan olmuşdur. Azad gözəl təşkilatçı idi. Hara getsə, ora abadlaşar, yenidən tikilərdi. Travmatologiya və Ortopediya İnstitutunda, 3 №-li kli-

nik xəstəxanada nələr yaratmamışdır. Ömrünün son illərində, ahıl yaşında böyük bir cərrahi mərkəz tikərək xalqa yadigar qoyub dünyadan əbədi köçdü. Sevimli ustadım Azad Ağa oğlunun müqəddəs xatirəsi qarşısında həmişə baş əyirəm, həyatımda ondan mənə iki xasiyyət miras qalıb: elm dalınca getməyim, hara getsəm bir yeni şey yaratmaq və tikmək həvəsim. Kainatda hər şeyin meyarı olduğu kimi, insanları da bir-birindən fərqləndirmək üçün müəyyən meyar olmalıdır. Belə olmasaydı, həyat mənasız olardı, heç kimə qiymət vermək olmazdı. Adam pisin əməllərinə baxıb özü üçün nəticə çıxarır, düz yola qayıdır. "Qabusnamə"də yazılır ki, vaxtilə İskəndər demişdir: "Mən xeyri yalnız dostlardan deyil, düşmənlərdən də götürürəm. Məndən çirkin bir xəta baş verdikdə, dostlar dostluq xatirinə onu ört-basdır edirlər ki, mən bilməyim, düşmənlər isə əksinə, düşmənçilik üzündən açıb deyirlər, mən də ondan xəbərdar olub, haman pis işi bir daha təkrar etmirəm. Deməli, mən bu xeyri dostdan deyil, düşməndən görmüş oluram".

Yüksək Renessans incəsənətinin əsasını qoymuş dahi italyan heykəltəraşı, memar və alimi Leonardo da Vinçi (1452-1519) demişdir: "Sizin səhvlərinizi açan rəqib, onları gizlədən dostdan - xeyirxahdır". Dahi fransız filosofu Jan Jak Russonun (1712-1778) dililə desək: "Saxta adamlarla dostluq etmək düşmənlə dostluq etməkdən qorxuludur". Ancaq həmişə haqq-ədalət qalib gəlir. Hörmətli şairimiz Fikrət Qoca çox gözəl yazıb: "İnsanlar öz təbiətinə görə böyük və kiçik olurlar. Hazırkı dövrdə bütün Yer üzündə elə kiçik təbiətli insan növü yaranıb ki, o, yalnız öz ağzını və qarnını güdür. Xoşbəxtlik ondadır ki, insanların ümumi sayı müqabilində bu növ hələ çox azdır, cüzidir. İnsanın bu növü dünya yaranandan olub. Onlara nağıllarda təpəgözlər deyiblər. Suyun yolunu kəsiblər, ya da zəhərləyiblər, ağacları kökündən çıxarıb, camaatı ac qoyublar, xalq gözəl oğullarını, qızlarını təpəgözə qurban verib. Nağıllarda da təpəgözə insan təbiəti qalib gəlib, insan çoxluğu yox, insan təbiəti. Qəhrəmanlıq, mərdlik, haqq üçün ölümə getməyə hazır olmaq,

xalq üçün canından keçmək - bax, bu cür insan xüsusiyyətlərini özündə toplayan Məlikməmmədlər qalib gəlir" ("Kommunist" qəzeti, 11 sentyabr 1988-ci il).

Nağıllardakı təpəgözlər xalqla açıq müharibə edirdilər. Müasir təpəgözləri hər bir sifətdə görmək olar: lazım olanda mədəni, böyüklər qarşısında məzlum, zəiflərin önündə "şiri-aslan", pullular içərisində tülkü, alimlər yanında avam, möminlər məclisində qatı dindar. Qədim təpəgözlər, heç olmasa, Allahdan qorxardılar. Müasir təpəgözlərin isə nə dinə, nə məscidə, nə əqidəyə, nə vicdana inamı var. Bunlar üçün həyatda yalnız bir müqəddəs şey var: pul! Keçmişlərdə bələlərinə deyərdilər ki, Allah dinə, imana gətirsin, axirət dünyasında Allah taqsırlarından keçsin. Şəkidə bələləri öləndə - Allah rəhmət eləsin - deməzlər. Filan təpəgöz ölüb, - deyəndə bu xəbəri eşidən deyir: "Allah yanındakılara rəhmət eləsin". Müasir təpəgözlər öz təbiətlərini birdən-birə büruzə vermirlər. Bunun üçün müəyyən şərait, təkan lazımdır. Dahi fransız dramaturqu, 34 yaşında Fransa Akademiyasının üzvü olmuş Jan Rasin (1639-1699) vaxtilə yazmışdır: "Zülmkarın sifəti əvvəl-əvvəl yumşaq olur". Vaxtilə imkanı olmayıb mənə "ata" deyən, həqiqi atası vəzifə başına çıxanda, həqiqi müasir təpəgözə çevrildiyinin və dərhal özü kimi təpəgözlərin onun ətrafında toplandığının şahidi olmuşam. Bu təpəgözlər, stol arxasında "ata-əmi" deyən təpəgözlər, əllərinə imkan keçən kimi məsələni yuxarılarda - ancaq məsələnin bu qədər vicdansızcasına qoyulduğu mənə sonra bəlli olub - qoyublar ki, mən işlədiyim yerdən getməli, yerimdə imkanlı təpəgöz oturmalıdır. Dahi fransız dramaturqu, aktyor və teatr xadimi Jan Batist Poklen-Molyer (1622-1673) vaxtilə yazmışdır: "Savadlı axmaq savadsız axmaqdan daha axmaqdır". Gözəl fikirdir. Mən isə deyərdim ki, əlinə imkan keçəndə insan taleyi ilə oynayan, başqasının balalarının çörəyini kəsən, başqasının əzabı üstündə öz rahatlığını axtaran savadlı axmaq-müasir təpəgöz - savadsız axmaqdan nəinki daha axmaqdır, eyni zamanda insan cildinə girmiş quduz dişi canavardır, iblisdir.

Həyatda milliyyətindən, dini mənsubiyyətindən asılı olmayan yaxşı adamlar çoxdur. Moskvada aspiranturanı qurtarıb (1968-1971), müdafiə etdikdən bir gün sonra elmi rəhbərim professor Sergey Timofeyeviç Zasepin mənə təklif etdi ki, qalıb elmi işimi davam etdirim, doktorluq dissertasiyasını müdafiə edim. Hətta başqa bir institutda mənə iş yeri və ev almaq imkanını vəd etdi. Onun bu uzaqgörənliyinə razılıq verməyib, vətənim üçün darıxdığımı, orada işləyib xalqıma xidmət etmək arzusunda olduğumu bildirdim. Haradan biləydim ki... Cavab tapa bilmirəm. Dahi fransız filosofu Mişel de Montenin (1533-1592) dililə desək: "...Qəfəsdə saxlanılan quşlar çölə can atırlar, çöldəki quşlar isə qəfəsdəkilərə paxıllıq edirlər". Böyük ümidlərlə Bakıya gəldim. O vaxt mənim müdafiə etdiyim sahədə Azərbaycanda cəmisi iki alim var idi. Bakıya gələndən sonra üç ay işsiz qaldım. Artıq Moskvaya qayıtmağa üzüm yox idi. Nəhayət, Moskvada aspiranturada oxuduğum institutun direktoruna zəng etdim. Hörmətli akademik M.V.Volkov işə qarışandan sonra məni kiçik elmi işçi kimi Bakı Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna qəbul etdilər. İnstitutda həmin vəzifəni tutanların, demək olar ki, heç birinin elmi dərəcəsi yox idi. İşlədiyim yerdə ev haqqında söhbət etməyinə dəymədi. Bir neçə il kirayədə qalandan sonra "naxalstroyda" bir daxma aldım. Özüm qonşuların köməyi ilə bir otaq da əlavə tikdim. Hər şeydən cana gəlmişdim. Yenidən Moskvaya gedib, doktoranturaya girmək üçün institut direktorunun razılığını aldım. Sevincək Bakıya qayıtdım. Bakıdakı institutun direktoru ("hörmətli" professor (rəhmətə gedib) icazə vermədi. Dedi ki, bu qanundan kənardır. Qanun - yalnız arxasızların yolunu kəsmək aləti. Qanun - bəzi adamların özlərini mələk sifətində göstərmək pərdəsi. Qanun - çox vaxt inkişafın qarşısını alan sədd... Görəsən, sinifli cəmiyyət əmələ gələndən qanunlar kimə xidmət edib? İngilis yazıçısı, keşiş, ilahiyyət doktoru, məşhur "Qulliverin səyahəti" (1726) satirik-faktastik romanının müəllifi Conatan Svift (1667-

1745) yazmışdır: "Qanunlar hörümçək toru kimi yalnız həşəratı tutmağa qadirdir, qurd-quşun qabağında isə acizdir".

Mətləbdən bir az uzaqlaşdım, bəli, üç dəfə nazirə müraciət etdim (o da rəhmətə gedib) bir şey çıxmadı. Dördüncü dəfə nazirin qəbulunda olub, ona yalvardım ki, xahiş edirəm mənə Moskvada oxumağa icazə verin, ərizəmin üstünü yazın. Nazir hirslənib dedi: "Ədə, nə olub, hamıya Bakı yarayır, amma sən Moskvaya getməlisən?" Bunun müqabilində yalnız bir söz deyə bildim: "Bəs siz özünüz niyə həm namizədlik, həm də doktorluq dissertasiyasını Moskvada müdafiə etmisiniz?" Sualım cavabsız qaldı. Kor-peşman evə qayıtdım. Axı o nazirə necə deyə bilərdim ki, 130 manat maaşla Bakıda dolanmaq və həm də elmi iş yazmaq mümkün deyil. Evi-eşiyi, rahatlığı olmayan adam elmi işlə məşğul ola bilərmi? Nazirə necə demək olardı ki, işdən sonra gecə qaranlığında otaq tikir, evin üstünə qır tökür və bu işləri xəlvəti gördüyümə görə nə qədər təhqir olunur, həm də soğan qabığı kimi soyuluram. Çünki o dövrdə müəyyən adamları görməsəydin bu işləri etməyə hüququn yox idi. O vaxtlar dostlarım məndən soruşurdular: "Niyə keyfin yoxdu?" El arasında deyərlər ki, insanın qəlbi kitab deyil ki, açıb hamının qabağına qoyasan oxusun. Məşhur alman yazıçısı Bertolt Brext (1898-1956) yaxşı yazmışdır: "Bir kasıb, bir də müdrik adam, həmişə qanları qara olurlar". Birinci əlamət mənə aid idi. Bütün haqsızlıqlar məndə həyata nifrət hissi yaratmışdı. Bir gün bütün əlyazmalarımı yandırıb, institutdan çıxdım, elmlə vidalaşıb, praktik işlə məşğul olmağa başladım.

Bax budur, bizim sözümüzlə əməllərimizdə olan "uyğunluq". Sözümüz gözəl, əməllərimiz bəd. Məgər belə haqsızlıqlarla elm inkişaf edə bilərmi? Lakin mütəfəkkir alim M.F.Axundov elm öyrənməyi belə qiymətləndirmişdir: "Elmi öyrənmək və mərifət sahibi olmaq insanlar üçün təkcə məişətlərini təmin etmək vasitəsi deyildir. Elm insanlara eyni zamanda, onların əxlaqını, rəftarını və əməlini yaxşılaşdırmaq üçün təcrübədən keçirilmiş bir vasitədir".

Yeni iş yerim, Bakının Sabunçu qəsəbəsində yerləşən 3 №-li klinik xəstəxana mənim həyatımda yeni məktəb oldu. Professor S.M.Qusman, A.A.İsmayılov kimi tanınmış nəhənglərlə bir yerdə işləmək özü insana bir həyat dərsi idi.

Dahi A.P.Çexov deyirdi: "Dünyada xain, ədalətsiz və əclaf adamlar olduğu halda, heç bir mədəni adam özünü sərbəst və rahat hesab edə bilməz". Onlar bir atalar sözünü gərək yadlarına salaydılar: "Dağ nə qədər uca olsa, yol üstündən aşar".

Hər addımda ədalətsizliklə qarşılaşmaq məcburiyyəti məni yenidən nazirin qəbuluna gətirib çıxardı: bu dəfə Moskvaya doktoranturaya getmək arzusu ilə yox, qəsəbələrdən birinə işə düzəlməyi xahiş etmək üçün.

Həmin vaxt artıq nazir Tələt Əli oğlu Qasımov idi. Mən Buzovna xəstəxanasına baş həkim getmək arzusunda olduğumu söyləyəndə o, hirsləndi, başıma hava gəldiyini, ya da ağlımı itirdiyimi söylədi. O, məni azdan-çoxdan tanıyırdı. Mənim bu xahişim ona çox qəribə görünmüşdü. Həyatda, doğrudan da, hələ adamı başa düşən yaxşı adamlar var imiş. O mənə Bakı Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna direktor müavini təklif etsə də, mən razılıq vermədim. Qərarım qəti idi. Özümü məğlub hiss edirdim. Lakin bilirdim ki, həqiqət bir zaman qalib gəlməlidir. Fransız filosofu Mişel de Monten (1533-1592) vaxtilə yaxşı deyib: "Məğlubiyyət bəzən qələbədən üstün olub". Bu belə də oldu. Dahi şairimiz Hüseyn Cavidin dililə desək: "Hər ümidsizlikdə bir ümid, hər qaranlıqda bir işıq yaşayır..."

Lakin insan nə qədər özünü məğlub olmuş hiss etsə də, şərəfsiz adamlar qarşısında baş əyməməlidir, səbirli olmalıdır. "Qabusnamə"də deyilir: "Hər bir işdə səbirli ol, səbirli olmaq ağıllı olmağa bərabərdir".

Tarixə nəzər salsaq, hələ vaxtilə qədim Roma natiqi, vəkili, yazıçı və siyasi xadimi Mark Tulli Siseron (e.ə. 106-43) demişdir: "Həqiqət öz-özünü asanlıqla müdafiə edir". Müdrik ağsaqqallarımızın dililə desək: "Həqiqət gec-tez öz yerini tapmalıdır". Bunun üçün yalnız və yalnız səbir lazımdır. O ailə, o cə-

miyyət xoşbəxtdir ki, onun müdrik ağsaqqalı var, ona inanırlar, onun dalınca gedirlər. Atalar demişlər ki, Allahsız yerdə otur, böyüksüz yerdə oturma. Ağsaqqalını tanımayan, tanrısını heç tanımaz. Soruşurlar ki, bərəkət harda? Cavabı: böyüklü yerdə!

Öndə soldan: oğlum Mustafa, mən, kiçik bacım Zərinə, böyük qızım Gülsüm, arxada həyat yoldaşım Zöhrə.

Bakının Əzizbəyov rayonunda işlədiyim gündən (1983-cü il) belə el ağsaqqallığını rayon Xalq Deputatları Sovetinin sədri mərhum Niyazi Nəcəf oğlu Nəcəfovda gördüm. Bu dünyagörmüş ağsaqqalda millətinə, torpağına bağlılıq, dilinə məhəbbət, vətəninə həqiqi vurğunluq, elm adamlarına, sənətkarlara qarşı hədsiz hörmət gördüm. Deyirlər ki, insanın əvvəli gəlincə, axırı gəlsin. Nəhayət, mənə nəsib oldu ki, zəhmətim az-çox qiymətləndirilsin.

Mən və həyat yoldaşım Zöhrə xanım həmişə çalışırıq ki, qızlarımız Gülsüm və Zərnurəyə, oğlumuz Mustafaya ata və analarımızdan bizə miras qalmış, əvəzsiz sərvət olan tərbiyə qanunlarını aşılayaq. Qoy bu gün gənclərimiz ağsaqqallara, onla-

rın məsləhətlərinə səbirlə, təmkinlə qulaq assınlar. Onda başa düşərlər ki, el ağsaqqalları onlara səhv yol göstərmirlər. Elimizin adəti var: ağsaqqalı eşidərlər. Bu ona görədir ki, ağsaqqal xalqın ən yaxşı adət-ənənələrinin saxlayıcısı, daşıyıcısı və ötürücüsüdür.

Mustafa Ənvər oğlu Həmidov

Oğlum Mustafa Bakı Dövlət Universiteti tətbiqi riyaziyyat fakültəsinin magistraturasını başa vurduğu günün sabahı Müdafiə Nazirliyinə çağırıldı. Onu qəbul edən general belə bir sual verir: "Vətənini müdafiə etmək istəyirsənmi?" Cavab: "Əlbəttə!" O, Vətən borcunu Tərtər cəbhə bölgəsində başa vurdu, indi rabitə sahəsində çalışır. Qızım Zərnurə Bakı Dövlət Universitetinin magistraturasında oxuyur. Həmişə deyir ki, birdən müharibə başlasa, mütləq cəbhəyə gedəcəm. Qızım Gülsüm haqda əvvəlki bölmələrdən birində məlumat vermişdim.

Əziz oxucular, bu bölməni yazarkən mən bir suala cavab tapmağı qarşıma məqsəd qoydum: kimdir iblis, bayquş, şeytan və iyirmi birinci əsrin qudurmuş canavarları? Bəlkə də, müəyyən qədər müvəffəq oldum bu suala cavab verməyə! Lakin mən qəti qərara gəldim ki, iblisə dahi yazıçımız Hüseyn Cavidin (1882-1941), bayquşa məşhur Belçika yazıçısı Şarl de Kosterin (1827-1879), "Ulenşpigel və Lamme Qudzah əfsanəsi", onların Flandriya və başqa ellərdəki şücaəti, qoçaqlığı, məzəli macəraları" (1857) əsərinə "Bayquşun müqəddiməsi"ni yazmış Bubulus Bubun verdikləri "tərif"lər daha xarakterikdir. Hüseyn Cavidin iblisə verdiyi "tərif" bu bölmənin əvvəlində oxuculara təqdim edilmişdir.

"...bayquş nədir?

Xoşuna gəlməyən adamlara gizlincə böhtan atana bayquş deyirlər. Əgər, işdir, onu məsuliyyətə cəlb etsələr, o, belə bir sözü söyləməyi yaddan çıxarmaz: "Mən bunu qəti demirəm, belə deyirlər..." O özü çox yaxşı bilir ki, "deyirlər" - qeyri-müəyyən bir şeydir.

Bayquş hörmətli ailələrə soxulmağı xoşlayır, özünü adaxlı kimi aparır, qızın haqqında şübhə yaradır, borc pul alır, bəzən də qaytarmır, sonra da görəndə ki, daha borc almağa şey yoxdur - həmişəlik gözdən itir.

Zərnurə Ənvər qızı Həmidova.

Bayquş - üzünə azadfikirli, insanpərvər, satılmayan adam maskası taxan, fürsət düşəndə bıçağı səssiz-səmirsiz birinin, bəzən də bütün bir xalqın kürəyinə ilişdirən siyasətçidir.

Bayquş - məharətlə oğurluq eyləyən, yaxasını ələ verməyən, müqəssirləri müdafiə edən, haqlı olanları təqsirləndirən, dul arvadı dilənçi halına salan, yetimi soyub var-yoxunu əlindən alan adamdır. Başqaları qan içində üzdüyü halda, o, bolluq içində üzür..." (Bubulus Bub).

Aqillər yaxşı deyiblər: "Ruhun sağlamlığı üçün üç nemət - çörək, gözəllik və qardaşlıq verilmişdir. Ədaləti anlamaq, gözəlliyi duymaq, yaxşını arzu etmək - şüurlu həyatın məqsədi budur".

Əgər insan həyatın bu müqəddəs nemətlərinə naxələf çıxsa, ya da şüurla həyatın məqsədlərinə möhtac olsa, kimdir müqəssir? Məncə, xalqın keşikçiləri. Hələ vaxtilə məşhur Roma şairi, klassik satiranın görkəmli nümayəndəsi Deteim Yuni Yuvenal (60-127) yazmışdır: "Bəs keşikçilərin keşiyini kim çəkəcək: "Qoşun böyüdükcə intizamı zəifləyir".

Haqq-ədalət olan yerdə qoşunun böyüməsinə ehtiyac varmı? Məncə, xalqın ehtiyacı artanda qoşun və müasir quduzlar çoxalır. Bunun səbəbini qədim yunan filosofu Aristotel (e.ə. 384-322) belə izah etmişdir: "Ehtiyac - inqilabın və cinayətin anasıdır".

Arzum budur ki, vəzifəsindən, sənətindən, təhsilindən, ictimai mənsubiyyətindən asılı olmayaraq, insanam deyən hər bir

şəxs Məhəmməd peyğəmbərin aşağıdakı kəlamlarını həmişə yadda saxlayıb həyatda özlərinə düzgün yol, haqq yolu seçsinlər:

"İnsanların dərdinə acımayana Allah mərhəmət etməz".

"Əsl zənginlik, mal, mülk çoxluğunda deyil, gerçək zənginlik ancaq könül zənginliyidir".

"Ataya itaət Allaha itaətdir".

- Əməllərin qiyməti niyyətlərə bağlıdır: hər kəsin niyyəti nəsə, əlinə də o keçər".

Amin!

Ömür karvanını çəkib aparır,
Hər günü ömürdən bac alır insan.
Yaman əməlindən daim qocalır,
Yaxşı əməlindən ucalır insan.

("Allaha səcdələrlə", Bakı, 2004).

ƏNVƏR METE

(Ənvər Mustafa oğlu Həmidov)

O TORPAĞIN ÖVLADLARI

Bakı * "Nurlan" * 2006

Redaktor müavini: ***İ.Zeynalov***
Texniki redaktor: ***E.Əsgərov***
Operatorlar: ***E.Hacıyev, Ş.Yusifov***
Kompyuter dizaynı: ***Vaqif Nadirov***
Yığılmağa verilmiş 07.01.2006.
Çapa imzalanmış 28.03.2006.
Şərti çap vərəqi 38. Sifariş № 121.
Kağız formatı 60x84 1/16. Tiraj 500.

Kitab ***"Nurlan"*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
Direktor: ***prof. N.B.Məmmədli***
E-mail: nurlan1959@rambler.ru
Tel: 497-16-32; 850-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi, 8/4.

Azf-238780

Ənvər Mustafa oğlu Həmidov



1937-ci ildə Şəki şəhərində anadan olmuşdur. N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Əvvəllər Şəki Rayonlararası Mərkəzi Xəstəxanasında cərrah işləmişdir. 1968-ci ildə Moskvada akademik N. Priorov adına Elmi Tədqiqat Mərkəzi Travmatologiya və Ortopediya İnstitutunda sümük patologiyası üzrə aspiranturaya daxil olmuş, 1971-ci ildə sümük şişlərinə dair namizədlik dissertasiyası müdafiə etmişdir. O, həmin ildən Bakı Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, Elmi Şuranın katibi və gənc alimlərin Elmi Şurasının sədri işləmişdir. 1975-1980-cı illərdə Azərbaycan Travmatoloq-Ortopedlər Elmi Cəmiyyəti İdarə Heyətinin katibi olmuş, 1980-cı ildə Zaqafqaziya Travmatoloq-ortopedlərinin IV qurultayında təftiş komissiyasının sədri seçilmişdir.

1976-1983-cü illərdə Bakı şəhər 3 saylı klinik xəstəxanasında ortopediya şöbəsinə rəhbərlik etmişdir. Hazırda 26 saylı Bakı şəhər birləşmiş xəstəxanasında travmatoloq-ortoped işləyir. 1987-2000-ci illərdə həmin xəstəxananın baş həkimi olmuşdur. SSRİ səhiyyə əlaçısıdır. 70-dən çox elmi işin, dörd monoqrafiyanın müəllifidir. Bir elmi işi ABŞ-da çap edilmişdir. Onun "Loğmanlar yurdu" (Bakı, "İşıq" nəşriyyatı, 1991) əsəri dərslik kimi istifadə edilir. Ənvər Həmidov özü də haqqında sevə-sevə söhbət açdığı loğmanlar nəslinin layiqli davamçılarından biridir.